Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On dördüncü sessiya
Payız

55-ci cild

2 – 24 oktyabr 2023-cü il

Milli Məclisin nəşri
Bakı – 2023

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XIV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 142

*Milli Məclisin iclas salonu.*
*2 oktyabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 102 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
| İştirak edir | 99 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Elnur Əliyev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini.

**Məmməd Abbasbəyli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi.

**Cəfər Babayev**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti rəisinin müavini.

**Elnur Soltanov**, Azərbaycan Respublikası energetika nazirinin müavini.

**İbrahim Ağayev**, Azərbaycan Respublikası Energetika Nazirliyinin Hüquq şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il payız sessiyasının qanunvericilik işləri planı haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

2. "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

4. "Azərbaycan Respublikası Hökuməti və Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi (TürkPA Katibliyi) arasında yerləşmə haqqında Saziş"ə dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

5. "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında 2023-cü il 24 fevral tarixli Saziş"ə dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

6. "Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə On Birinci Əlavə Protokol"a qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

7. "Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə Üçüncü Əlavə Protokol"a qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

8. "Ümumdünya Poçt Konvensiyası"na və "Ümumdün-

ya Poçt Konvensiyasının Yekun Protokolu"na qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

9. "Poçt ödəniş xidmətləri haqqında Saziş"ə və "Poçt ödəniş xidmətləri haqqında Saziş"in Yekun Protokolu"na qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi.

10. "Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında" Konvensiyada dəyişiklik edilməsinə dair Protokol"a qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi.

11. "Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsində dəyişiklik edilməsi haqqında 1986-cı il tarixli sənəd"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

12. Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. Energetika haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Notariat haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

17. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun ta-

rixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

18. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Razi Nurullayev, Fəzail Ağamalı, Ceyhun Məmmədov, Elşad Mirbəşir oğlu, Tural Gəncəliyev, Zahid Oruc, Elman Nəsirov, Bəhruz Məhərrəmov, Fazil Mustafa, Etibar Əliyev, Nurlan Həsənov, Qüdrət Həsənquliyev, Siyavuş Novruzov, Kamal Cəfərov, İlham Məmmədov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il payız sessiyasının qanunvericilik işləri planı haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Siyavuş Novruzov, Fəzail Ağamalı, Fazil Mustafa, Hikmət Məmmədov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar Məmmədov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**3. “Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**4. “Azərbaycan Respublikası Hökuməti və Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi (TürkPA Katibliyi) arasında yerləşmə haqqında Saziş”ə dəyişikliklər edilməsinə dair Protokol”un təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**5. “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında 2023-cü il 24 fevral tarixli Saziş”ə dəyişikliklərin edilməsi barədə Protokol”un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**6. “Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə On Birinci Əlavə Protokol”a qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli, Səməd Seyidov, Sabir Rüstəmxanlı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**7. "Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə Üçüncü Əlavə Protokol"a qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**8. "Ümumdünya Poçt Konvensiyası"na və "Ümumdünya Poçt Konvensiyasının Yekun Protokolu"na qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**9. “Poçt ödəniş xidmətləri haqqında Saziş”ə və “Poçt ödəniş xidmətləri haqqında Saziş”in Yekun Protokolu”na qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**10. “Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında” Konvensiyada dəyişiklik edilməsinə dair Protokol”a qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**11. “Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsində dəyişiklik edilməsi haqqında 1986-cı il tarixli sənəd”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məlahət İbrahimqızı, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Vüqar Bayramov, Siyavuş Novruzov, Razi Nurullayev, Etibar Əliyev, Vahid Əhmədov, Aydın Hüseynov, Əli Məsimli, Müşfiq Cəfərov, Fazil Mustafa, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.47 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**13. Energetika haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Vüqar Bayramov, Tahir Rzayev, Asim Mollazadə, Fəzail Ağamalı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**14. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Mahir Abbaszadə, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.14 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**15. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Notariat haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**16. "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, Sahib Alıyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.32 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**17. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.32 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**18. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəxtiyar Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.35 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*2 oktyabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Milli Məclisin payız sessiyasını açıq elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir)*

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
| İştirak edir | 99 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclası başlaya bilərik.

Hörmətli həmkarlar! Bildiyiniz kimi, sentyabrın 19-da və 20-də Qarabağ iqtisadi rayonunda lokal xarakterli antiterror tədbirləri həyata keçirilmişdir. Nəticədə Azərbaycan ərazisində qanunsuz qalan Ermənistan silahlı birləşmələri və terrorçu qruplar darmadağın edilmiş, Ermənistanın dəs-

təyi ilə yaradılan kriminal xunta rejiminin fəaliyyətinə son qoyulmuşdur. Azərbaycanın suverenliyi onun bütün ərazisində bərpa edilmişdir. Bu möhtəşəm uğur 44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərin məntiqi davamı və yekunu olmuşdur.

Hörmətli həmkarlar! Mən xalqımıza yeni böyük qələbə sevincini yaşadan Prezidentimiz və müzəffər sərkərdəmiz İlham Əliyevə, qəhrəman əsgər və zabitlərimizə bir daha sonsuz minnətdarlığımızı bildirirəm. *(Alqışlar.)*

Hörmətli həmkarlar! Təəssüf ki, müharibə itkisiz olmur. İndi isə mən xahiş edirəm, antiterror tədbirləri zamanı, eləcə də Birinci və İkinci Qarabağ müharibələrində, digər döyüş əməliyyatlarında vətən və xalq yolunda canından keçmiş şəhidlərimizin əziz xatirəsini 1 dəqiqəlik sükutla yad edək. *(Hamı ayağa qalxır.)*

Allah rəhmət eləsin! Biz qazilərimizə möhkəm can sağlığı, yaralı hərbçilərimizə də şəfa diləyirik.

Hörmətli deputatlar! Əminəm ki, Qarabağda həyatın normal axarına qayıtması, erməni milliyyətli sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün görülən tədbirlər də uğurla başa çatacaqdır. Buna da inanıram ki, Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması perspektivi indi daha realdır. Cənubi Qafqazda sabitliyin bərqərar olacağı gün uzaqda deyil. Azərbaycan dövləti buna çalışır və biz qarşı tərəfdən də eyni yanaşmanı gözləyirik.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sentyabrın 20-də xalqa müraciətində söylədiyi bu sözlər, düşünürəm ki, hər bir azərbaycanlının fikrini ifadə edir:

"Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin... Bununla

bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq!

Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!" *(Alqışlar.)*

Hörmətli həmkarlar! Ötən dövrdə Milli Məclisin həyatında, təəssüf ki, kədərli hadisələr də baş vermişdir.

İyulun 14-də parlamentin ən təcrübəli deputatlarından biri olan Madər Musayev dünyasını dəyişmişdir. Madər müəllimin altı çağırış Milli Məclisin deputatı seçilməsi xalqın ona bəslədiyi hörmət və inamın bariz ifadəsi idi. 28 ilə yaxın dövrdə o, seçicilərini parlamentdə layiqincə təmsil etmişdi.

Madər Musayev özünün vətəndaşlıq mövqeyi və fəaliyyəti ilə cəmiyyətdə birlik və həmrəyliyin möhkəmlənməsinə, milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasına töhfə verirdi. O, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakına görə "Şöhrət", "Şərəf" və 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif edilmişdir.

Hörmətli həmkarlar! Sentyabrın 28-də Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva haqq dünyasına qovuşmuşdur. Qənirə xanım parlaq və mənalı bir ömür yolu keçmiş, bütün bilik və bacarığını, istedad və qabiliyyətini xalqına və dövlətinə həsr etmişdir.

Qənirə Paşayeva 2005-ci ildən bəri ardıcıl dörd çağırış Milli Məclisin deputatı seçilmişdi. Milli Məclisin qanunvericilik və qanunyaratma fəaliyyətində, beynəlxalq əlaqələrində yaxından iştirak etməklə yanaşı, Qənirə xanım seçicilərinin qayğılarına həssas münasibəti ilə böyük hörmət və nüfuz qazanmışdı.

Mərhum həmkarlarımız Madər müəllim və Qənirə xanım haqqında düşünərkən gözlərimiz önündə yüksək mənəvi keyfiyyətləri və mədəniyyəti, alicənablığı və xeyirxahlığı ilə seçilən Azərbaycan ziyalılarının nurlu obrazları canlanır. Onlar bizim yaddaşımızda belə də qalacaqlar.

Hörmətli həmkarlar! Xahiş edirəm, Madər Musayevin və Qənirə Paşayevanın əziz xatirələrini bir dəqiqəlik sükutla yad edək. *(Hamı ayağa qalxır.)*

Allah hər ikisinə rəhmət eləsin!

Hörmətli deputatlar! Bu ilin yaz və növbədənkənar sessiyalarının yekunları barədə mən sizə ətraflı məlumat vermişdim. Sadəcə, xatırladım ki, iki sessiyada 23 iclas keçirilmiş, 195 qanun və qərar qəbul edilmişdir. Ölkə həyatının mühüm məsələlərinə münasibət bildirilmişdir.

Milli Məclis dövlət başçısı cənab İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləmək üçün lazımi tədbirləri görmüşdür. Parlamentin beynəlxalq fəaliyyəti sessiyalardan sonrakı dövrdə də uğurla davam etmişdir. Milli Məclisin 34 deputatı 23 ölkəyə 41 səfər həyata keçirmiş, üzv olduğumuz beynəlxalq təşkilatların toplantılarında iştirak və çıxış etmişlər.

Millət vəkillərimiz Özbəkistanda keçirilən prezident seçkilərini və Kambocada keçirilən parlament seçkilərini müşahidə etmişlər.

Hörmətli həmkarlar! Bu dövrdə 15 ölkənin və 2 beynəlxalq təşkilatın 20 nümayəndə heyəti, o cümlədən 2 ölkənin parlament sədri, ümumən, 193 nəfər xarici qonaq Milli Məclisdə olmuşlar.

Milli Məclis Asiya Parlament Assambleyasının Sosial və mədəni məsələlər daimi komitəsinin iclasına ev sahibliyi etmişdir.

Azərbaycan və Gürcüstan parlamentlərinin Mədəniyyət

komitələri arasında əməkdaşlıq haqqında Memorandum imzalanmışdır.

Hörmətli həmkarlar! Ötən dövrdə Milli Məclis sədrinin rəhbərliyi ilə nümayəndə heyətləri Bolqarıstanda rəsmi səfərdə, Macarıstan, Kuba və İrlandiyada işgüzar səfərlərdə olmuşlar.

Sentyabrın 11-13-də Bolqarıstana rəsmi səfər çərçivəsində ölkə Prezidenti Rumen Radev, Milli Assambleyanın sədri Rosen Jelyazkov, Baş nazir Nikolai Denkov ilə görüşlər keçirildi. Görüşlərdə 44 günlük Vətən müharibəsində qələbədən sonra bölgədə yaranmış vəziyyət, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri, sülh gündəliyinin irəli aparılması üçün Azərbaycanın göstərdiyi səylər, dövlətimizin ərazi bütövlüyünə və suverenliyinə qarşı törədilən siyasi-hərbi təxribatlar haqqında həmsöhbətlərimizə məlumat verildi. Parlamentlərarası əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri müzakirə olundu.

Nümayəndə heyətimiz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə və Türkiyə Respublikasının qurulmasının 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etdi, eləcə də Sofiya Universitetində fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzini ziyarət etdi.

Hörmətli deputatlar! Sentyabrın 14-də Macarıstana işgüzar səfərdə məqsəd 5-ci Budapeşt Demoqrafik Sammitində iştirak etmək idi. “Ailə təhlükəsizliyin açarıdır” mövzusunda keçirilən müzakirələrdə çıxışım zamanı ölkəmizdə ailə dəyərlərinə hörmət, dövlətimizin ailə siyasəti barədə danışdım. Ermənistanın işğalçılıq siyasətinin ailə institutuna destruktiv təsirləri haqqında geniş məlumat verdim.

Səfər gedişində Macarıstan Prezidenti Katalin Novak ilə keçirilən görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq və dostluq əlaqələrinin inkişafından məmnunluq ifadə edildi. Ölkələrimizin əməkdaşlıq gündəliyinin kifayət qədər zəngin olduğu qeyd edildi. Parlamentlərimizin bir çox beynəlxalq parlament təşkilatlarında uğurlu iş birliyindən danışıldı.

Hörmətli həmkarlar! Sentyabrın 15-də Kuba Respublikasına işgüzar səfərim oldu. Bildiyiniz kimi, həmin gün ölkənin paytaxtı Havana şəhərində G77+Çin Qrupunun Zirvə görüşü keçirilirdi. Sammit çərçivəsində "Elm, texnologiya və innovasiyanın rolu" mövzusunda keçirilən müzakirələrdə çıxış etdim. Ölkəmizin Davamlı İnkişaf üzrə 2030 Gündəliyinin həyata keçirilməsinə sadiq olduğunu qeyd etdim. BMT-yə üç Könüllü Milli İcmal Hesabatı təqdim etmiş ölkələr siyahısında məhz Azərbaycanın region ölkələri arasında birinci, dünyada isə 12 ölkədən biri olduğunu iştirakçıların nəzərinə çatdırdım. Dayanıqlı İnkişaf Məqsədlərinin ölkəmiz üçün xüsusi önəmi, bərpa olunan enerji ilə bağlı bir sıra layihələrin icrası və digər məsələlər barədə məlumat verdim. Eyni zamanda, Azərbaycanın işğaldan azad olunan torpaqlarında həyata keçirilən quruculuq işləri haqqında da danışdım.

Səfər zamanı Kuba Xalq Hakimiyyəti Milli Assambleyasının sədri Xuan Esteban Lazo Hernandes ilə görüşümüz oldu. Görüşdə dövlətlərarası münasibətlərin inkişafında parlamentlərin rolu ilə bağlı məsələlər nəzərdən keçirildi.

Hörmətli həmkarlar! Sentyabrın 27-29-da İrlandiyanın paytaxtı Dublin şəhərinə işgüzar səfərdə məqsəd Parlament Sədrlərinin Avropa Konfransında iştirak etmək idi. Konfransda çıxışımda ictimai təmsilçilik məsələləri ilə

bağlı Azərbaycanın təcrübəsi və əldə etdiyi nəticələr barədə fikirlərimi bölüşdüm.

Ermənistan spikerinin böhtanlar üzərində qurulmuş çıxışına cavab olaraq suverenlik və ərazi bütövlüyü prinsiplərinin əhəmiyyətindən danışdım. Xatırlatdım ki, Azərbaycan 2020-ci ildə ərazilərini 30 illik erməni işğalından azad etdikdən sonra Ermənistanla münasibətləri normallaşdırmaq və beynəlxalq hüquqa əsaslanan sülh müqaviləsi imzalamaq təşəbbüsü ilə çıxış etmişdir. Son üç ildə Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü pozmaq üçün bütün vasitələrdən, o cümlədən hərbi-siyasi təxribatlar, ərazilərin minalanması, separatizmin dəstəklənməsi kimi vasitələrdən istifadə etmişdir.

Sentyabrın 19-da Ermənistanın növbəti hərbi təxribata əl atması nəticəsində hərbi qulluqçularımızın və mülki vətəndaşımızın həlak olduğunu bildirdim. Qeyd etdim ki, bu təxribatlara cavab olaraq Azərbaycan qanunsuz hərbi birləşmələri və hərbi infrastrukturu hədəf alan lokal antiterror tədbirləri həyata keçirmişdir. Terrorla mübarizə tədbirləri 24 saatdan da az müddətdə öz məqsədlərinə çatmışdır. Hazırda Ermənistanın silahlı qüvvələri ərazilərimizdən çıxarılır, separatçı rejim özünü buraxmışdır.

Bildirdim ki, artıq Qarabağ bölgəsinin erməni sakinlərinin cəmiyyətimizə reinteqrasiyası başlanmışdır. Bir daha vurğuladım ki, erməni sakinlərin bütün hüquqları və təhlükəsizliyi Konstitusiyaya və Azərbaycanın qoşulduğu beynəlxalq mexanizmlərə uyğun olaraq təmin ediləcək.

Hörmətli həmkarlar! Səfər zamanı ikitərəfli görüşlər də keçirildi. İrlandiya Parlamenti Nümayəndələr Palatasının sədri Şon Oferghail, Ukrayna Ali Radasının sədri Ruslan Stefançuk ilə görüşlərdə parlamentlərarası əməkdaşlığın inkişaf yolları müzakirə edildi.

Fransa Milli Assambleyasının sədri ilə də görüş oldu. Fransa Milli Assambleyasının sədri Yael Braun-Pivet ilə görüşdə Fransanın Azərbaycan barəsində nümayiş etdirdiyi qərəzli mövqe barəsində fikirlərimi bildirdim. Fransa parlamentinin Azərbaycanla Ermənistan arasında sülh prosesinə mənfi təsir göstərən, dövlətimizin suverenliyini və ərazi bütövlüyünü şübhə altına alan, separatizmi dəstəkləyən, revanşist qüvvələrə cəsarət verən bir çox qətnamələr qəbul etdiyini xatırlatdım. Qarabağ bölgəsində həyata keçirilən antiterrior tədbirləri zamanı yalnız qanunsuz hərbi birləşmələrə və legitim hərbi hədəflərə zərbələr endirildiyini qeyd etdim. Bildirdim ki, Qarabağın erməni sakinlərinə birbaşa təhdidin olmadığı və onlara qarşı kütləvi zorakılıq törədildiyinə dair xəbərlərin doğru olmadığı hamılıqla etiraf edilmişdir.

Eyni zamanda, Fransa Milli Assambleyasının sədri Yael Braun-Pivet ilə görüşdə bildirdim ki, artıq Qarabağ bölgəsinin erməni sakinlərinin cəmiyyətimizə reinteqrasiyası üçün onların nümayəndələri ilə 3 görüş keçirilmişdir. Bir daha vurğuladım ki, Azərbaycan dövləti erməni sakinlərin hüquqlarını və təhlükəsizliyini ölkəmizin qanunvericiliyinə və beynəlxalq müqavilələrinə müvafiq surətdə təmin edəcəkdir.

Hörmətli həmkarlar! Payız sessiyası ərəfəsində Milli Məclisdə iki dinləmə keçirilmişdir. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin təşkil etdiyi dinləmə "Qərbi Azərbaycana qayıdış: hüquqi aspektlər" mövzusuna həsr edilmişdir. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən keçirilən dinləmədə isə Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim etdiyi Rəqabət Məcəlləsinin layihəsi müzakirə olunmuşdur.

Hörmətli həmkarlar, mənim məlumatım bu qədər. Diqqətinizə görə təşəkkür edirəm. Bu səfərlərdə mənimlə iştirak edən hörmətli həmkarlarımın hamısına öz minnətdarlığımı bildirirəm.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bu gün birinci iclasımızdır. Mən bizim həmişə etdiyimiz o çıxışların 30 dəqiqə deyil, saat 12-yə qədər davam edəcəyini elan etmək istəyirəm. Kim istəyir, çıxış etməyə yazılsın. Nə qədər vaxt çatsa, o qədər də adam çıxış edəcək. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. 44 günlük İkinci Qarabağ savaşından sonra radikal siyasi və qeyri-siyasi qüvvələrdən ən çox eşitdiyimiz sözlər "niyə Laçını azad etmədik?" idi. Laçın şəhəri Zabux və Sus kəndlərindən nəzərdə tutulduğundan daha tez azad edildi. Prezident İlham Əliyev, həqiqətən də, qətiyyət və barışmazlıq nümunəsi, o cümlədən diplomatiya bacarığı göstərdi. Bəs niyə Əli Kərimli və digərləri İlham Əliyevi təbrik etmədi, xoş sözlər söyləmədi? Üstəlik, zəfərə kölgə salmağa çalışırlar. Axı, İlham Əliyev Xətai, Nadir şah Əfşardan sonra ilk rəhbərdir ki, torpaq itirməyib, torpaq qazanıb. Dünyaya səs salıb və az qala dünya ilə savaşıb,

qalib gəlib. Bu bizim hamımız üçün fəxr və başucalığı deyilmi? Nə olsun ki, müxalifətçilik nümunəsi var, müxalifətçilik edirik.

Dünyada bir ölkə göstərin ki, münaqişəni 100 faiz öz xeyrinə həll edə bilsin. Bu nümunəni də Prezident İlham Əliyev yaratdı. Laçın alınanda "Xankəndi niyə separatçıların əlindədir?", "Niyə antiterror əməliyyatı keçirilmir?" deyirdiniz. Əməliyyat keçirildi, Xankəndi azad edildi, bütün Qarabağda suverenliyimiz bərpa edildi, separatçılar silahlarını təhvil verib dağılışdılar və bütün planları yerlə yeksan oldu. Bunu yaratdığı ordu ilə, inandığı və etibar etdiyi qəhrəman Azərbaycan əsgərinin gücü ilə etdi. Ağlın belə dərk etmədiyi, yuxumuzda belə görmədiyimiz gerçəklik yarandı. Bəs İlham Əliyev haqq etmir ki, onu təbrik edib xoş sözlər deyilsin? Axı, o, həyatını bu xalqa həsr etdiyini əməli və dünyanın haqsız tələbləri qarşısında mətanətli duruşu ilə sübut edir. Niyə qəlbinizdəki nifrəti silib ata bilmirsiniz? Məgər içinizdə qaynayan nifrətin ölkəmizə zərər verdiyini görmürsünüz? Barmağınızı qatlayın, görək, İsraildən başqa hansı ölkə cinayətkarlara, xüsusilə də cibində milyardlarla dollar daşıyan və dünyada söz sahibi olan birini tutub başına torba keçirsin? Ruben Vardanyan kimi bir avantüristi və terroru dəstəkləyən cinayətkarı tutub damlamaq, bilirsiniz, nə deməkdir? Bu, Elon Maskın Mars planetini fəth etmək planından daha üstündür. Bu, ağılların kəsmədiyi bir qəhrəmanlıqdır. Nə qədər gec deyil, birlik olun, düşmən dəyirmanına su tökməyin. Xalqla, dövlətlə olun ki, gələcək nəsillər siyasi tarix kitablarını oxuyanda sizi nifrətlə anmasın.

Sonda təklif edirəm ki, Prezident İlham Əliyev üçün bir orden, ad düşünək. O, təvazökardır deyə, səsləndirilən bir çox təklifləri, yəqin ki, qəbul etməyəcək. Bu sahədə təklif-

lərim çoxdur və onu parlament rəhbərliyi ilə bölüşə bilərəm. Yaxşı olar ki, təkliflər də parlament rəhbərliyi tərəfindən səsləndirilsin və məmnuniyyətlə dəstəkləyəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Dəyərli millət vəkilləri, mən payız sessiyasının başlanması münasibəti ilə hər birinizi təbrik edirəm, hamınıza fəaliyyətinizdə uğurlar diləyirəm.

Bu gün Azərbaycan özünün qürurlu və məsuliyyətli günlərini yaşamaqdadır. Biz ona görə qürurlu günləri yaşayırıq ki, müzəffər Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan 200 ildən bəri üzərimizə gələn dünya ermənilíyini yerlə bir etdi, onların maskası yırtıldı, özünü dünyaya sivil, qədim və digər epitetlərlə təqdim edən Ermənistan və ermənilər, əslində, dünyanın ən barbar, ən vəhşi və bütün bəşəri dəyəri ayaq altına atan bir etnos kimi təqdim olunmaqdadırlar. Beləliklə, 200 ildən bəri dünyada problemlər yaratmaq istəyən bu ermənilik artıq son günlərini yaşamaqdadır. Bunu Azərbaycan xalqının yenilməz iradəsinə söykənən qətiyyətli Prezidentimiz, müzəffər Ali Baş Komandan Milli Ordu ilə bərabər etmişdir. Biz bununla qürur duyuruq.

Eyni zamanda, ölkə Prezidenti 2020-ci ildən indiyə qədər 3 günü Azərbaycan tarixinə qızıl hərflərlə yazmalı oldu. 2020-ci ilin 10 noyabrı, 2023-cü ilin 23 apreli, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı Laçın sərhəd buraxılış məntəqəsinin yaradılması, nəhayət, erməni terroruna və separatizmə son qoyan 2023-cü ilin 20 sentyabrı. Təklif edərdim ki, bu tarixi anlar Milli Məclis səviyyəsində, hansısa bir formada əbədiləşdirilsin və biz hər zaman onu qeyd edək.

Məsuliyyətli günümüz onunla bağlıdır ki, bu gün ermənilər son günlərini yaşadıqlarına görə bütün istiqamətlərdə yenə də Azərbaycana qarşı özlərinin böhtan, qərəz dolu fəaliyyətlərini davam etdirməkdədirlər. Təbii ki, Azərbaycan xalqı, dövlət başçımız bütün komandası ilə buna yüksək səviyyədə cavab verir və onlar dalbadal məğlub olurlar. Ona görə də mən təklif edirəm ki, bütün istiqamətlərdə, xüsusi ilə xarici dili bilən bizim dəyərli millət vəkillərimiz, digər peşə sahibləri beynəlxalq səviyyəyə çıxaraq ən müxtəlif tribunalardan, platformalardan onları ifşa edən prosesdə fəal iştirak etsinlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**C.Məmmədov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən də çıxışımın əvvəlində həm payız sessiyasının başlanması, həm də uğurlu xarici səfərlər münasibəti ilə, hörmətli xanım sədr, Sizi təbrik edirəm.

Bu gün son hərbi tədbirlərlə Azərbaycan xalqı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, xalqımızın birliyi, vətən övladlarının qəhrəmanlığı nəticəsində 30 illik işğala son qoyuldu. Bu gün biz artıq rayonlarımızın işğal günlərini deyil, azadolunma günlərini qeyd edirik. Əslində isə, Qarabağın fatehi, müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımıza qarşı 300 il boyunca qurulan çirkin, məkrli və hiyləgər planlara son qoydu. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan xalqı başını dik tutur.

İllər öncə xarici səfərlərdə olarkən bizə sual verirdilər: “Siz 10 milyonsunuz, ermənilər 3 milyondur. Nə üçün siz torpaqlarınızı azad edə bilmirsiniz?” Amma artıq biz bu torpaqları azad etmişik və bu torpaqlarda quruculuq, abadlıq işlərini həyata keçiririk.

30 il bundan əvvəl mən və mənim kimi 1 milyon insan barbarcasına öz doğma torpaqlarından didərgin salınıb.

Həmin günləri mən də yaxşı xatırlayıram. Ermənilər Füzulidə yolu bağlayaraq o tərəfdə qalan Cəbrayılda, Qubadlıda, Zəngilanda olan insanların Azərbaycana tərəf qurtulmasına mane olmağa çalışdılar. Bizim insanlar həmin dövrdə Araz çayını keçərək Azərbaycana gəlib çıxa bildilər.

1990-cı illərin əvvəllərində Azərbaycan çox ağır durumda idi. Bir tərəfdən, torpaqlarımız işğal olunub, digər tərəfdən, vətəndaş müharibəsi ilə üz-üzə qalmışdıq. İnsanlarımız ümidsiz və çarəsiz durumda idilər. 1993-cü ildə mən də Cəbrayılda idim və həmin o anlar bu gün də gözümün önündədir.

Məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan işğalını durduraraq ordu quruculuğu, iqtisadiyyatın gücləndirilməsi istiqamətində mühüm addımlar atdı. Bu gün cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan Qarabağı və Şərqi Zəngəzuru yenidən qurur. Torpaqlar azad olunarkən insanların verdiyi suallar o idi ki, biz neçə ildən sonra qayıdacağıq? Neçə ilə bu ərazilər bərpa olunacaq? 3 il keçib. Artıq Zəngilanda hava limanı, konqres mərkəzi, məktəb, bağça fəaliyyət göstərir. Bu gün Zəngilan şəhərsalma ilə bağlı beynəlxalq tədbirlərə ev sahibliyi edir. Eləcə də digər rayonlarımızda bu işlər sürətlə həyata keçirilir. Bu gün hər bir rayon böyük bir tikinti meydanına bənzəyir.

Çıxışımın sonunda bir məqama da toxunmaq istəyirəm. Bu gün cəbhədə müharibə bitsə də, Ermənistanın informasiya müharibəsi davam edir, özü də çox çirkin formada. Bu gün biz bunu açıq hiss edirik. Ona görə bu baxımdan dövlətimiz işləri görür və qarşıda hələ görəcəyimiz...

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu.

**E.Mirbəşir oğlu.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, payız sessiyasının başlanması

münasibəti ilə hər birinizi təbrik edirəm, işlərinizdə uğurlar arzulayıram.

Sentyabr ayının 19-da və 20-də Azərbaycan antiterror əməliyyatları keçirərək bütün əraziləri boyunca suverenliyini etibarlı, dönməz şəkildə təmin etdi. Biz hər zaman qeyd edirdik ki, 2020-ci ildən sonra Azərbaycan suverenliyini bütün əraziləri boyunca təminetmə strategiyasını həyata keçirir. Bu strategiyanın müxtəlif komponentləri ölkə Prezidentinin unikal strateji baxışlarına əsasən uğurla həyata keçirilməkdə idi. Biz artıq tarixi nəticəyə nail olduq. Lakin biz  əksər hallarda  yalnız erməni separatizmi haqqında danışırıq. Unutmaq olmaz ki, biz həm də çox təhlükəli, qlobal müstəvidə təhlükəsizliyə ciddi təhdidlər yaradan ekstremizmin də kökünü kəsmiş olduq. Yəni vaxtı ilə 1990-cı illərin əvvəllərində Azərbaycan ərazisində yaşayan ermənilər Azərbaycan Respublikasının Konstitusiya quruluşunu pozaraq ölkəmizin ərazisində ekstremizm ilə məşğul idilər və Azərbaycanın coğrafiyasının bir hissəsində hakimiyyəti zorla ələ keçirib, onun ardınca isə separatizm fəaliyyətini son günlərə qədər davam etdiriblər. Hesab edirəm ki, bu, kifayət qədər ciddi, tarixi uğurdur. Bir daha vurğulamaq  lazımdır ki, bunun əhəmiyyəti təkcə Cənubi Qafqaz sərhədləri daxilində deyil, qlobal müstəvidə dəyərləndirilməlidir.

Artıq qeyd edildi, son dövrlərdə Ermənistan ölkəmizə qarşı növbəti əsassız ittihamlar kampaniyasını həyata keçirməkdədir. Guya  Azərbaycan ərazisindən ermənilər zorla qovulmaqdadırlar. Birincisi, o ermənilərin hüquqi statusu aydınlaşdırılmalıdır. Onların hər biri Ermənistan pasportlarına sahibdir. Belə olan halda, Ermənistan vətəndaşlarının 30 ildən artıq müddətdə Azərbaycan ərazisində hansı əsaslarla qalmaları məsələsinə aydınlıq gətirilməli-

dir. Yəni Azərbaycan ərazisində yaşayan ermənilərin ölkədəolma və yaşama qaydaları Azərbaycan qanunvericiliyi ilə heç cür uzlaşmırdı. Bu özü də ayrıca məsuliyyət daşıyır. Bütün bunlara baxmayaraq, biz 2000-ci ildən ötən zaman ərzində ermənilərə səmimiyyətlə inteqrasiya çağırışları etdik. Lakin ermənilər həmişə olduğu kimi Azərbaycanın bu çağırışlarını da layiqincə dəyərləndirə bilmədi və nəticəsi də göz önündədir. Bu baxımdan hesab edirəm ki, biz informasiya müstəvisində də öz yanaşmalarımızı düzgün müəyyənləşdirməliyik və dünyaya həqiqətləri daha dəqiq...

**Sədrlik edən.** Sağ olun. Tural Gəncəliyev. Buyurun.

**T.Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən də payız sessiyasının başlanması münasibəti ilə hamınıza müvəffəqiyyət, uğurlar arzu edirəm. Ümidvaram ki, keçmiş yaz sessiyasında olduğu kimi, payız sessiyasında da biz müvəffəqiyyətli fəaliyyət aparacağıq.

Payız sessiyası ərəfəsində xalqımızın tarixində çox möhtəşəm hadisələr baş verdi. Biz 44 günlük müharibədən sonra 24 saatlıq antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün tam bərpa olunması kimi tarixi hadisələrə şahidlik etdik. Allaha şükürlər olsun ki, liderimizin, cənab Prezidentin liderliyi altında ordumuzun şücaəti, xalqımızın dəstəyi ilə biz bu şanlı missiyaya nail olduq. Mən çox minnətdaram ki, biz 2020-ci il seçki kampaniyasına gedərkən öz seçicilərimiz qarşısında verdiyimiz vədləri, öhdəliklərimizi məhz Ali Baş Komandanımızın, ordumuzun, xalqımızın qərarı ilə yerinə yetirə bildik. "Bizim yolumuz Xankəndiyədir, yolumuz Qarabağadır" demişdik və bunların hamısı təsdiq olundu, bunların hamısı baş verdi. Təbii ki, bütün bunlar yenə də cənab Prezidentin strateji vizyonu, strateji planlanması, xalqımı-

zın dəstəyi, ordumuzun şücaəti olmasa, olmayacaqdı. Təbii ki, Allahdan şəhidlərimizə də rəhmət diləyirik. Onların qanı ilə suvarılan torpaqlarda müqəddəs torpaqlarımızda artıq heç vaxt düşmən tapdağı olmayacaq.

Hörmətli həmkarlar, mən hesab edirəm ki, bütün bu hadisələrdən sonra Ermənistanda olan revanşist qüvvələr, onlara havadarlıq edən güc mərkəzləri, dairələr fəaliyyətlərini dayandırmayacaqdır. Artıq həmkarlarımın, Ceyhun müəllimin dediyi kimi, informasiya müharibəsində ayıq-sayıq olmaq lazımdır. İstər bu diplomatik, istərsə də digər platformalarda bizə qarşı hücumlar davam edəcək. Misal üçün, dünən Kaliforniyada, bildiyiniz kimi, radikal erməni qruplarının üzvləri Azərbaycan və Türkiyə səfirliklərinə hücum ediblər. Burada müəyyən təxribat xarakterli hərəkətlər həyata keçiriblər. Eyni məsələlərin bizim Avropada olan səfirliklərimizdə də olması ehtimalını bilirik, görürük. Ona görə də bu məsələlərdə ayıq-sayıq olmalıyıq. Ümidvarıq ki, yenə də revanşist qüvvələr başlarına gələn bütün bu hadisələrdən dərs çıxaracaqlar. Ancaq təəssüflər olsun ki, revanşist qüvvələrin daşnak ideologiyasına malik insanları, həqiqətən də, bu qədər qan axıdılması, bu qədər müharibə, bu qədər dağıntı narahat etmir. Onlar yalnız Azərbaycanla bağlı fobiya, sinafobiya, Türkiyə fobiya kimi ideologiyası əsasında öz siyasətlərini qururlar. Ancaq yenə də bizim torpaqlarımız artıq suverendir, ərazi bütövlüyümüz bərpa olunub. Bu, əbədi belə olacaq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid müəllim, Sizin sualınız var? Buyurun.

**Z.Oruc.** Hörmətli sədr, üzrxahlıq edirəm, bu formada yazıldım. Sessiyanın birinci iclası olmasını nəzərə alıb imkan olsa, sonda mənə də söz verərsiniz. Rica edirəm. Sağ olun.

**Sədrlik edən.** İndi söz verə bilmərəm. Saat 12-yə qədər müzakirə edəcəyik. Ancaq iclas qurtarmamış vaxtımız olanda mən mütləq Sizə söz verəcəyəm. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən də fürsətdən istifadə edib payız sessiyasının başlanması münasibəti ilə hamınızı təbrik edirəm. Bu gün böyük qürur və fəxarət hissi ilə qeyd edirik ki, müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev tarix yazır və tarix yazılır. Bu gün tam məsuliyyətlə qeyd edə bilərik ki, cənab İlham Əliyev tarixi şəxsiyyətdir. Xalqımız dövlətimiz qarşısında misilsiz xidmətlərinə görə Ulu Öndər Heydər Əliyevə ömür boyu minnətdardır. Həm də ona görə minnətdardır ki, o, İlham Əliyev kimi tarixi bir şəxsiyyəti Azərbaycan xalqı üçün, onu böyük bəlalardan hifz etmək üçün, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün hazırlayıb, yetişdirib. Cənab Prezident də bu şərəfli missiyanı çox böyük qürur hissi ilə həyata keçirir.

Biz, doğrudan da, tarixi anlar yaşayırıq. Ərazi bütövlüyümüz, suverenliyimiz tam və qəti təmin olunub. Amma nə edək ki, Ermənistan və Ermənistanın siyasi liderləri yenə də öz xislətinə sadiqdirlər. Bu gün də Azərbaycana qarşı cürbəcür siyasi hoqqabazlıqla məşğuldurlar. Hesab edirəm, indi hər bir kəsi bu sual düşündürür ki, Ermənistanın siyasi rəhbərliyi Qarabağdan ermənilərin çıxarılmasında nədən bu qədər maraqlıdır. Çox böyük dinamika var. Hətta bizdən xahiş edirlər, bizə 30 avtobus göndərin ki, Qarabağdan erməniləri sürətlə çıxardaq. Heç şübhəsiz ki, bu, məkrli bir oyundur və həmin məkrli oyunun da nəticələrini görürük. İndi yenə beynəlxalq məhkəmələrə üz tutublar. Guya ki, Azərbaycan dövləti Qarabağdakı ermənilərə qarşı təzyiq, təhdid kampaniyasını

həyata keçirir. Onda sual yaranır ki, məqsəd nədir? Bununla nəyə nail olmaq istəyirlər? Mənə elə gəlir ki, indiki vəziyyətdə onların ən ciddi problemləri artıq Rusiya ilə, Moskva ilədir. Qarabağdan ermənilərin sürətli şəkildə çıxarılmasına nail olmaqla məhz Moskva ilə bağlı digər məqsədlərini həyata keçirmək istəyirlər. Hansı məqsədləri? Qarabağda heç bir erməni qalmadıqdan sonra, yəni bu siyasət gedir və desinlər ki, daha erməni yoxdursa, niyə Qarabağda Rusiya sülhməramlı qüvvələri olsun? Bu heç də bizi düşünməkdən irəli gələn məsələ deyil. Məsələnin mahiyyətində o dayanır ki, bunun ardınca artıq Rusiyanın 102-ci hərbi bazasını Ermənistandan çıxarmaq, Təhlükəsizlik Müqaviləsi Təşkilatından Ermənistanın çıxması məsələsini gündəmə gətirmək və bu prosesin başlanğıcını məhz Qarabağda başlatmaq və bu istiqamətdə addım atmaq istəyirlər. Ancaq bütün bunlar mənasız addımlardır. Azərbaycanın siyasi iradəsi ortadadır.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Hörmətli sədr, əziz həmkarlar. Azərbaycan dövlət idarəçiliyində iki böyük səhv buraxılıb. Birincisi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə İrəvanın Ermənistana güzəştə olunması. İkincisi, Qarabağ və Şərqi Zəngəzurun AXC–Müsavat xəyanətinə qurban getməsi. Hər iki halda da real vəziyyəti anlaya bilən şəxslərə parlamentdə söz haqqı tanınmayıb.

1918-ci ildə ərazilərin Ermənistana verilməsinə qarşı çıxan İrəvandan olan deputatlar Mir Hidayət Seyidov, Bağır bəy Rzayev və Nəriman bəy Nərimanbəylinin etirazlarına qulaq asmayanlar, 1991-ci ildə isə Heydər Əliyevə bu parlamentdə çıxış etməyə imkan verməyənlər, çox rahatlıqla İrəvan, Şərqi Zəngəzur və Qarabağı cılız niyyətlərə qurban verdilər. Bu, açıq siyasi deqradasiya idi.

Bildiyiniz kimi, sabah biz Ulu Öndərin xalqın təkidi, tələbi ilə qayıdaraq prezident seçilməsinin 30-cu ildönümünü qeyd edəcəyik. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanda siyasi deqradasiya prosesinə “dur” dedi. Sözün əsl mənasında, müasir dövlət quruculuğu başladı.

Bu gün Heydər Əliyev yolunun layiqli siyasi və hüquqi varisi cənab İlham Əliyev artıq XX əsrdə tariximizdəki iki ləkədən birinin, AXC–Müsavat xəyanətkar cütlüyünün bu xalqa vurduğu zərbələrin və buraxdığı səhvlərinin nəticələrini aradan qaldırıb. Artıq Qarabağ və Şərqi Zəngəzur azaddır. Az qala bütün dünyaya rəğmən, cənab İlham Əliyev Xankəndində Azərbaycan Konstitusiya quruluşunu bərpa edib. Azərbaycanı Yevlaxa qədər işğalla hədələyənlər bu gün Yevlaxda Əliyev mərhəmətinə sığınıb. Azərbaycan insanının qanına batmış əllər bu gün qandallı şəkildə Azərbaycan hüquq sisteminin ədalətindən pay dilənir. Bu, ilk növbədə Heydər Əliyevin siyasi kursunun, şəxsən cənab İlham Əliyevin qələbəsidir. Bunu uca səslə deməkdən çəkinməməliyik. Çünki nəinki cəmi 23 saata, heç bundan sonra 23 ilə də Xankəndidə üçrəngli bayrağımızı ucaldacaq nə ikinci bir iradə, nə də ikinci bir güc var. Bu gün dünyada separatizmlə mübarizədə ikinci belə uğurlu və səmərəli nümunə yoxdur.

Amma dünənə qədər Xankəndi davası edən o ünsürlər ki onların adını bu uca parlamentdə çəkmək qəbahət olar, o ünsürlər ki bu gün cənab İlham Əliyev məhz onların səbəb olduğu faciələrin nəticələrini aradan qaldırıb hələ də reallığı qəbul etmək istəmirlər. Bu da çox normaldır, çünki milli məsələni dərk etmək üçün ilk növbədə bu hissi daşımaq lazımdır.

Bu gün artıq yeni eraya qədəm qoymuşuq. Artıq qarşı-

mızda cümhuriyyət dövrünün səhvlərinin aradan qaldırılması vəzifəsi dayanır. Bu gün hamımız qərbi azərbaycanlıyıq və 300 mindən artıq qərbi azərbaycanlı özünün əzəli yurduna qayıdacağı günü gözləyir. Bizim heç kimə ərazi iddiamız yoxdur, eyni zamanda, tarixi haqlarımızdan, evimizə dönmək hüququmuzdan da vaz keçmək niyyətində də deyilik. Amma qan-qadasız, dinc yolla. Çünki regionun artıq dinc, birgə yaşayışa ehtiyacı var. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Biz böyük tarixi qələbə qazandıq və artıq qalib dövlət kimi məğlub etdiyimiz Ermənistana bəzi məsələlərdə köməklik göstərməliyik. Biz rəsmi qaydada Amerika Birləşmiş Ştatlarına, Kanadaya, Fransaya, Argentinaya və İrana müraciət etməliyik ki, biz sizin sevdiyiniz ermənilərin Qarabağda qalıb yaşaması üçün hər cür təminatı verdik. Sadəcə, onlar Azərbaycan vətəndaşı kimi yaşamaq istəmədilər. İndi iqtisadi cəhətdən sıxıntı içində olan Ermənistan üçün yük olmasın deyə, onlara öz ərazinizdə daimi yaşamaq üçün sığınacaq verin, vətəndaşlıq verin. O halda həm də Ermənistanın sülh müqaviləsi imzalamasına və Zəngəzur dəhlizini açmasına böyük töhfə vermiş olarsınız.

İkinci vacib məsələ vətəndaşlıq məsələsi ilə bağlıdır. Bildiyiniz kimi, bizim Konstitusiyanın 52-ci maddəsində göstərilir ki, Azərbaycan ərazisində doğulmuş hər bir şəxs Azərbaycan vətəndaşı hesab olunur və Qarabağda doğulmuş hər bir şəxsin bu şansı əldə etmə imkan var. Bu, sonradan köçürülmüş insanlara aid edilməməlidir. Eyni zamanda, bizim Qərbi Azərbaycan icmasının, orada kompakt şəkildə olan ayrı-ayrı kəndlərin sakinlərinin Ermənistan vətəndaşı olması üçün müraciət etməsi vacibdir. Bu bizim diplomatiyamız üçün olduqca vacib material olacaq-

dır. Ermənilərin vətəndaşlıq məsələsini manipulyasiya etməməsi üçün çox vacib addımdır. Nə qədər çox sayda belə müraciətlər olsa, bunun bizim işimizə, hesab edirəm ki, xeyri dəyəcəkdir.

Üçüncü. Azərbaycan ərazisində iki sülhməramlı qüvvə var. Biri Rusiyanın sülhməramlı qüvvəsidir, bu, Qarabağdadır. Biri də Bakıda Milli Şura adı ilə Amerika Birləşmiş Ştatlarının, Kanadanın, Fransanın və Ermənistanın sülhməramlı kontingentidir. Sayları da təqribən eynidir. İndi də bu qüvvə digər rəqibi olan Rusiya sülhməramlı qüvvələrinin çıxarılması məsələsini sonuncu vacib arqument kimi səsləndirməyə başlayıb. Mən hesab edirəm ki, artıq Qarabağda qələbəmizdən məyus olan bu qüvvə özü Azərbaycan siyasətindən çıxmalıdır və onun ardınca Rusiya sülhməramlıları vaxt çatanda çıxacaqlar. Bunu manipulyasiya etmək, əslində, bu gün yenə də Azərbaycan üçün badalaq gəlmək, əngəl yaratmaq vasitələrindən biridir.

Dördüncü təklifim odur ki, qalib dövlət bir də təqviminə dönüb geri baxmalıdır. Mən hesab edirəm ki, Azərbaycan təqvimində olan bütün matəm günləri çıxarılmalıdır. Qalib dövlətin ancaq qələbə günləri olmalıdır. Əslində, saysaq, bizdə 27 aprel də, 31 mart soyqırımı da matəm günləridir. Onlar da miqyasına görə o birilərdən fərqli deyil. Amma daha yeni bir eraya başlamağımız üçün bu günlərin çıxarılması barədə düşünmək lazımdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Çox hörmətli Sahibə xanım, hörmətli deputatlar, Azərbaycanın Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyev “Nəyi, necə və nə vaxt etmək lazımdır, bunu mən bilirəm” deməklə diplomatiyada və hərbdə vacib olan zaman faktorunu dəqiqliklə dəyərləndirdi. Müzəf-

fər Ali Baş Komandan İkinci Qarabağ müharibəsindən əvvəlki illərdə diplomatik və siyasi proseslərdə böyük işlər gördü. Müharibə zamanı nümayiş etdirdiyi rasionallıq və qətiyyət isə hərb tarixinə qızıl hərflərlə yazıldı. İlham Əliyev seçildiyi gündən söylədiyi hər cümləsində Azərbaycan xalqına gələcək üçün nikbinlik yaradır. Siyasətin əlifbasını bilməyənlər isə həmişə tələsiblər. Elə hakimiyyətə gəlməkdə də tələsmişdilər. Cəmi bircə il hakimiyyətdə qala bildilər. Elə bildilər ki, hansı isə mistik qüvvə onları uzun illər hakimiyyətdə saxlayacaq. Cavan idilər, indi isə radikulit onları incidir. Elə adlarını da radikal deyil, radikulit müxalifət qoymaq  olar.

İkinci Dünya müharibəsində Çörçil İngiltərədə indi də məşhur olan kəlamla xalqa müraciət etmişdi: "Biz öz adamızı nəyin bahasına olursa-olsun, qoruyacağıq. Biz sahilboyu aerodromlarda, meydanlarda, küçələrdə, dağlarda döyüşəcəyik. Biz itkilərimizin sayından asılı olmayaraq heç vaxt təslim olmayacağıq". Çörçil 1946-cı ildə məşhur Fulton çıxışında siyasi leksikona "dəmir pərdə" anlayışını gətirdi. Biz də öz dövlətimizin başçısına inanan, güvənən xalq kimi öz ərazimizə sahib çıxdıq. Azərbaycan Prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsində siyasi leksikona "dəmir yumruq" anlayışını gətirdi. Bu ifadə artıq qələbənin paradiqmasına çevrilib. Dəmir yumruq hərəkətdədir, düşməni vahiməyə salır. Müzəffər Ali Baş Komandanımızın məşhur bir ifadəsi var: "Azərbaycan parlaq qələbəsi təkcə ölkənin ərazi bütövlüyünün bərpası anlamına gəlmir. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir".

XXI əsrdə təlatümlər, haqsızlıqlar, əslində, xeyrin şər üzərindəki qələbəsini tarixə Prezidentimiz və xalqımız yazdı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsinin parlamentinin yeni sessiyasının açılışındakı çıxışında

yenə də tarixə düşən bir fikir səsləndirdi. Azərbaycan ərazisi Qarabağ 30 illik işğaldan sonra azadlığa qovuşub. Burada ilahi ədalət öz yerini tapıb, torpaqlarımızda genosid, urbisid, ekosid törədən, məscidlərimizdə donuz saxlayan, insanlarımızı amansız vəhşiliklərlə qətlə yetirən vəhşi bir tayfanın üzərində qələbə çalmaq ilahi ədaləti bərpa etməkdir. Biz evlər, məktəblər, xəstəxanalar, kitabxanalar tikmişdik. Barbarlar bunları məhv etdilər. Rədd olub gedəndən sonra isə hər yerə mina əkiblər. Erməni barbarları üzərində tam və qəti qələbədən sonra Azərbaycanımız üçün yeni davamlı inkişaf mərhələsi başlayacaq. Qarabağımızda aparılan tikinti-quruculuq işləri böyük sürət götürüb. Uzun illər suverenliyimizin bərpasına...

**Sədrlik edən.** Sağ olun. Nuran Həsənov. Buyurun.

**N.Həsənov**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Sentyabr ayı, həqiqətən, ölkəmiz üçün tarixi hadisələrlə yadda qaldı. Cənab Prezident İlham Əliyev və müzəffər Azərbaycan Ordusu hər birimizə tarixi anlar yaşatdı, Azərbaycanın 30 ildir, əziyyət çəkdiyi, mübarizə apardığı haqqı olan Qarabağı tamamilə işğaldan azad etdi. Məhz cənab Prezident İlham Əliyev bu qələbənin baş memarıdır. Bu gün biz Azərbaycan torpaqlarını 30 il işğal altında saxlayan separatçı rejimin necə özünü buraxdığının şahidi oluruq. Bu gün biz qanunsuz rejimin nümayəndələrinin necə hüquqi məsuliyyətə cəlb edildiyinin şahidi oluruq. Bu gün Ruben Vardanyan kimi cinayətkarın necə məsuliyyətə cəlb edildiyinin şahidi oluruq. Bu gün biz Xankəndidə, Ağdərədə, Xocalıda Azərbaycan bayrağının dalğalandığının şahidi oluruq. Bu gün biz Azərbaycanın erməni əhalisinə qarşı necə humanizm nümayiş etdirdiyinin şahidi oluruq. Bu gün Azərbaycan ona qarşı aparılan istənilən qarayaxma kampaniyalarını neytrallaşdırmaq qüdrətində-

dir. Lakin təəssüf ki, biz Qarabağın işğaldan azad edilməsinə sırf öz şəxsi ambisiyalarına, düşmənçilik hisslərinə görə sevinə bilməyən, Ermənistan rəhbərliyini yerə-göyə sığdırmayan, durmadan tərifləyən, Əli Kərimli kimi yaramazların cənab Prezident İlham Əliyevi təbrik etmək əvəzinə, hər vəchlə Azərbaycan dövlətinin, Azərbaycan xalqının bu tarixi qələbəsinə kölgə salmağa çalışdığının şahidi oluruq. Onlar gəlsinlər, Paşinyanı tərifləməkdənsə, Azərbaycanın qələbəsinin baş memarı Ali Baş Komandan cənab İlham Əliyevdən ilk öncə üzr istəsinlər və daha sonra bu tarixi qələbə münasibəti ilə təbrik etsinlər. İndiyədək həyata keçirdikləri anti-Azərbaycan fəaliyyətlərinə son qoysunlar.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Çox sağ olun. Hörməti sədr, həmkarlar, iclas iştirakçıları, hamınızı payız sessiyasının başlanması münasibəti ilə təbrik edirəm. Hörmətli sədr, yay tətili zamanı Sizi çoxsaylı, bəzən uzun və yorucu, amma uğurlu səfərlərə görə təbrik edirəm. Yeni uğurlu səfərlər arzulayıram. Bu gün bizim üçün həm kədərli, həm də sevinc dolu gündür. Kədərli gündür, ona görə ki, yenə şəhidlərimiz var. VI çağırış Milli Məclisin tanınmış üzvləri, həmkarlarımız, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Bakı kəndlərinin tanınmış nümayəndəsi ağsaqqal Hacı Madər Musayevdən sonra sentyabrın 28-də vaxtından çox-çox tez hörmətli həmkarımız Qənirə Paşayeva dünyasını dəyişdi və xalqımızı dərindən kədərləndirdi. Allah dünyasını dəyişmiş bütün həmkarlarımıza, şəhidlərimizə rəhmət etsin, qəbirləri nurla dolsun!

Bu gün həm də sevinc dolu günlərdən birini yaşayırıq. Uca Tanrı xalqımızın dualarını eşitdi, Prezident İlham Əliyevə kömək oldu ki, onun Ali Baş Komandanlığı ilə

Azərbaycan Silahlı Qüvvələri müttəffiqlərimizin də siyasi-mənəvi dəstəyi ilə 35 il işğal altında qalan torpaqlarımızı azad etdi, ilahi ədalət öz yerini tutdu. Allah xalqımızın qarğış və nalələrini bizə çox acılar yaşatmış erməni separatçılarının üzərinə yönəltdi ki, onlar Azərbaycandan köçmək qərarına gəldilər. Çünki gözlərimizə baxmağa üzləri yoxdur.

Azərbaycan bu günlərdə öz tarixinin ən şanlı səhifələrini yazır, xalqımız özünün ən qürurlu günlərini yaşayır. Qələbəmizdə payı olan hər kəsə partiyamız və seçicilərim adından dərin minnətdarlığımı bildirməklə yanaşı, onu da qeyd etməyi özümə borc bilirəm ki, biz bugünkü Ermənistan ərazisindən acımasızcasına işgəncələrə məruz qoyularaq, təhqir olunaraq qovulmuş soydaşlarımızı, Qarabağ tərk etmiş Azərbaycan vətəndaşlarını qəbul etməyən separatçıların yaşadığı Xankəndi və digər yaşayış məntəqələrinə köçürməliyik. Həm də bunu bacardıqca tez etməliyik. Ermənilərin dağıtdığı şəhər və kəndlərimizi görməyən ermənipərəst dairələrə isə üzümü tutub deyirəm ki, bu ədalətsizliyinə görə bir gün sizlər də müdafiə etdiyiniz separatçılar kimi Allahın lənəti ilə üzləşib onun qəzəbinə gələcəksiniz. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Siyavuş müəllim. Sözünüz var? Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən də sessiyanın başlanması münasibəti ilə təbrik edirəm. Burada həmkarlarım bir neçə fikir səsləndirdi, o fikirlərlə əlaqədar qeyd etmək istəyirəm ki, bizim müzəffər Ali Baş Komandanın kimin isə təşəkkürünə ehtiyacı yoxdur. O adam kimdir, axı, gəlsin təşəkkür etsin? Azərbaycan Prezidentini dünya azərbaycanlıları qələbə münasibəti ilə təbrik edir, türk dünyası təbrik edir, bütün xalqlar

təbrik edir. Əsrə bərabər bir günlə bir məsələni həll edibdir. O adam kimdir? Belə adamların adını bu Məclisdə çəkməyə ehtiyac yoxdur və guya bizim onun təbrikinə ehtiyacımız var? Kimdir bu adam? Bu adam xalq düşmənidir, xalqa ziyan vuranlardan biridir. Ermənıyə işləyənlərdən biridir. Özü, əhatəsi və digər partiyaların... O baxımdan da belə adamlara artıq Məclisdə yer yoxdur, o adamların adının çəkilməsinə və bizim Ali Baş Komandanın da onların təbrikinə ehtiyacı yoxdur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Kamal Cəfərov. Buyurun.

**K.Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. Son bir neçə ayda Ermənistanın Azərbaycana qarşı apardığı məqsədyönlü və planlı terror siyasəti lokal xarakterli antiterror tədbirlərini qaçılmaz etmişdir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə peşəkar və məsuliyyətli ordumuz mülki şəxsləri və infrastrukturu hədəf almadan nöqtə atışları ilə legitim hərbi hədəfləri məhv etmişdir. Bunun nəticəsində separatçı rejim ağ bayraq qaldıraraq təslim olmuş və özünü buraxmışdır. Əgər 44 günlük müharibədən sonra ərazi bütövlüyümüzü bərpa etmişdiksə, 24 saatlıq antiterror tədbirləri nəticəsində suverenliyimizi bərpa etdik.

Hazırda Qarabağı tərk edən ermənilər ətrafında çirkin kampaniyalar başladıblar. Bu gün biz bəzi böyük dövlətlər və beynəlxalq təşkilatlardan 30 illik işğal müddətində gördüyümüz riyakarlığı indi də müşahidə edirik. Hansı isə "etnik təmizləmə" ittihamları qəbuledilməzdir. Biz bu ifadələri təhqir hesab edirik. Azərbaycan Prezidenti xalqa müraciətində Qarabağda yaşayan sadə insanlara bildirdi ki, onlar üçün yeni tarixi bir şans yaradılıb. Bu şansı əldən verməsinlər. Digər tərəfdən, bu gün Qarabağı tərk etmək istəyən erməniləri də biz zorla saxlaya bilmərik. Onlar azaddırlar, sərbəstdirlər.

Bizi “etnik təmizləmə” ilə ittiham edənlərə bildirmək istəyirəm ki, etnik təmizləməyə məruz qalan bizə – Qərbi azərbaycanlılar olmuşuq. Buradan beynəlxalq təşkilatlara açıq formada bildiririk ki, Qarabağın erməni sakinlərinin deinteqrasiyası məsələsi pilot layihə deyil, həmin xüsusi beynəlxalq həssaslıq biz – Qərbi azərbaycanlılara da qarşı olmalıdır. Qərbi Azərbaycan icmasının dialoqa başlamaq və dədə-baba torpaqlarımıza təhlükəsiz və ləyaqətli qayıdışı təmin etmək üçün dəfələrlə çağırışlar etməyimizə baxmayaraq, Ermənistan hökuməti bizim Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, Qaçqınların statusu haqqında Konvensiya və digər vacib beynəlxalq aktlarda təsbit olunmuş fundamental qayıdış hüququmuzu həyata keçirməkdən imtina edir. Bizim hüquqlarımıza qarşı açıq-aşkar etinasızlıq beynəlxalq ictimaiyyətin təcili və təxirəsalmaz cavabını tələb edir. Bizim geri qayıtmaq və Ermənistanda sərbəst hərəkət etmək hüququmuzun bərpası ümumbəşəri insan hüquqları və ədalət prinsiplərinə hörmətin ən vacib şərtidir. Qərbi azərbaycanlıların hüquqlarının bərpası üçün təcili və güclü beynəlxalq müdaxilə zəruridir. Biz hesab edirik ki, bizim geri qayıtmaq hüququmuzun təmin edilməsi həm də sülh və barışıq əldə etmək üçün beynəlxalq səylərin mərkəzində olmalıdır. Bununla əlaqədar olaraq bu sahədə mandat sahibi olan bütün beynəlxalq təşkilatları adekvat, ədalətli və həssas olmağa çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən düşünürəm ki, dostluq qruplarının hər bir üzvü o qrupların ölkələrinə, o ölkələrin dostluq qruplarına hər biriniz məktub yazmalısınız. Bu gün əlimizdə kifayət qədər sənədimiz var, rəqəmlərimiz var. Mən indi görürəm, hörmətli həmkarlarımızın hər bir

çıxışda bununla bağlı fikirləri səslənir. Bax, bununla bağlı hər bir dostluq qrupunun üzvünə məktub getməlidir. Beynəlxalq təşkilatlar öz yerində, beynəlxalq təşkilatlara kifayət qədər məktublar gedib. Ancaq yenə də, indi bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasında, – Səməd müəllim, mən bilirəm ki, böyük bir qrupla gedirsiniz, – ona görə orada da lazımdır, bəlkə orada "side event" deyilən bir tədbir təşkil edək? Çünki bu həqiqətləri çatdırmaq lazımdır. Xüsusilə də Avropa ölkələrinə.

Mən bu yaxınlarda, dediyim kimi, səfərdən gəlmişəm. Orada Fransa Milli Assambleyasının sədri ilə görüşdə, – mənim yanımda olanlar gördülər, dedikcə onlar eşitmək də istəmirlər, – yenə də bütün sözlərimizin hamısını dedim. Mən düşünürəm ki, hər birimiz, hər bir parlament üzvü, neçə nəfəriksə, dəfələrlə məktublar göndərməliyik. Həmin o qruplara, həmin o təşkilatlara tək məktublar deyil, çalışmaq lazımdır, beynəlxalq mediaya çıxmaq lazımdır. Beynəlxalq media, "Twitter", "Facebook" əlinizdə var. Bununla bağlı necə ki onlar yazırlar, onlardan beş-on qat çox biz də yazmalıyıq. Çünki bu yalanları həzm etmək çox çətindir.

Sonuncu çıxış. İlham Məmmədov. Buyurun.

**İ.Məmmədov**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, möhtərəm Prezidentimiz Ali Baş Komandan cənab İlham Əliyevin bilavasitə rəhbərliyi ilə cəmi bir gün keçirilən antiterror tədbirləri nəticəsində qanunsuz erməni silahlı dəstələrinin sonuncu tör-töküntüləri də doğma Qarabağ torpağımızdan tamamilə təmizləndi. Artıq Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələləri müzakirə edilir. Bunun üçün Qarabağın erməni sakinlərinin nümayəndələri ilə mənim də təmsil olunduğum doğma Yevlaxımda,

erməni quldurlarının həmişə işğal etmək arzusunda olduqları Yevlax şəhərində artıq sentyabr ayının 21-dən görüşlər keçirməyə başlanıb. Azərbaycanın ərazi bütövlüyü tamamilə təmin olunubdur. Bu tarixi missiyanı möhtərəm Prezidentimiz çox uğurla başa çatdırdı. Bunu nə tarix, nə də Azərbaycan xalqı var olduqca unuda bilməz. Bu münasibətlə möhtərəm Prezidentimiz başda olmaqla Azərbaycan xalqını təbrik edirəm. Torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərin yaxınlarına Allahdan səbir diləyirəm. “Allah rəhmət etsin!” deyirik.

Təəssüf ki, bu dəfə də vətənimizin azadlığa qovuşduğu bir vaxtda, itkilərimiz olan vaxtda antimilli mövqe tutan qüvvələr Əli Kərimovlar, başçılıq etdiyi o troll dəstələri yenə də öz mövqelərində qalmış oldular. Təbii ki, öz mövqelərini sərgilədilər. Həm ölkə daxilində, həm də xaricdə olan bu ünsürlər unutmasınlar ki, çox yaxın zamanlarda, yəqin, onlar da vardanyanlar, manikunyanlar, arutunyanlarla bərabər, bu xalqın qarşısında cavab verməli olacaqlar. Çünki onlar xalqımızın əsrlər boyu mövcud olmuş bu dəhşətli problemlərinin həlli vaxtı ermənidən çox erməniliк etdilər və onların yanında oldular. Bunu xalqımız görüb və bilirdi. Təbii ki, cəzalarını da alacaqlar. Torpaqlarımızı azad etməklə həm də bütün dünyada yenidən tanındıq, özü də bu dəfə qalib dövlət və qalib xalq kimi.

Hörmətli xanım sədr, elə Sizin bayaq dediyiniz kontekst əsasında bildirmək istəyirəm ki, parlamentin beynəlxalq münasibətləri çərçivəsində, məhz həmin ərəfədə Asiya Parlament Assambleyasının Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclasına rəhbərlik edən Milli Məclis yüksək qonaqpərvərlik və yüksək səviyyədə bu tədbirin keçirilməsini və onların minnətdarlığını sizə çatdırmaq istəyirəm. O ərəfədə Sizin çıxışınızı və oradakı

əsas konteksti vurğulamağınızı onlar yeni bir leytmotiv kimi qəbul etdilər ki, Asiya Parlament Assambleyası, yəni Asiyada yeni güc mərkəzinə çevrilmiş Asiya dövlətlərinin parlament assambleyası məhz Qoşulmama Hərəkatından nümunə götürməlidir. Onun parlament qolunun yaranması və bu həqiqətlərin dünyaya çatdırılması üçün böyük bir platforma olmalıdır. İlk dəfə olaraq onlar bu yüksək qonaqpərvərliyi xüsusi qeyd etdilər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik. Bu gün 18 məsələni müzakirə edəcəyik. Qeyd edim ki, gündəliyin 1-ci məsələsi Milli Məclisin qərar layihəsidir. Bildiyiniz kimi, hər sessiyanın əvvəlində biz Milli Məclisin qanunvericilik işləri planını qəbul edirik. Payız sessiyasının qanunvericilik işləri planı layihəsi hamınıza paylanıb. Plan 10 bənddən ibarətdir. Məsələ barəsində kim isə çıxış etmək istəyirsə, buyursun. Zahid Oruc. Zahid müəllim, buyurun.

**Z.Oruc.** Hörmətli sədr, hörmətli Məclis üzvləri! Hörmətli sədr, payız sessiyasının işə başlaması münasibəti ilə mən də hamının təbriklərinə qoşuluram. Taleyüklü bir dövrdə bu parlamentin həm fəaliyyətə başladığı, həm də indiki günlər, gerçəkdən də, müqəddəs sayılacaqdır. Eyni zamanda, xüsusi olaraq sentyabr ayı. Hörmətli sədr, əgər izin versəniz, çatdıra bilmədiyim üçün fikirlərimi burada söyləyim və qanunvericilik planına da iki-üç təklifim var. Prezident İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 19-da və 20-də həyata keçirilən antiterror təbrikləri xalqımıza hərbi zəfər, 4000 kvadrat-kilometr ərazidə konstitusion bütövlük qazandırdı. Nəinki Xankəndi və Xocalıda 10 minlik hərbi birləşmələrin, 100 il bundan əvvəl Azərbaycan inzibati idarəetmə quruluşuna mina kimi basdırılan

muxtar vilayət, 1990-cı ildən yaradılan hibrid birləşmənin varlığına da son qoyuldu. 1804-cü ildən bu yana Qarabağın kimə məxsusluğu ətrafında gedən savaşın da qalibini müəyyənləşdirdi. Ona görə də bir günlük döyüşlər, sentyabrın 20-si Vətən müharibəsinin davamıdır, onu tamamlayaraq 45 günlük müharibə kimi simvollaşdırır və Azərbaycan siyasi təqviminə qızıl hərflərlə yazılır. Əsrin neft müqaviləsi əsrin qələbəsinə çevrildi. Daşıdığı ümumxalq əhəmiyyətinə görə milli bayramdır. Təklif edirik ki, on illərlə soyqırım, kütləvi insan və torpaq itkiləri yaşayan bir xalqın noyabrın 8-də qazandığı Zəfərin davamı olaraq sentyabrın 20-ni bütövlük günü kimi qeyd edək, onu rəsmiləşdirək, əbədiləşdirək. Ümidvarıq ki, parlamentin ölkə rəhbərinə müraciəti yüksək qiymətləndiriləcəkdir. Çünki hər bir azərbaycanlının, bütövlükdə, xalqımızın iradəsini özündə əks etdirir. Biz indi milliətimizin tarixində yeni qalibiyyət təqvimini yaratmağa borcluyuq.

Doğrudur, burada qeyd olundu. Hörmətli sədr, Siz də çox vacib məqamları parlament üzvlərinə çağırışınızda bəyan etdiniz. Qələbəmizə hücum edənlər onun region dövlətləri ilə geosiyasi razılaşmalar, yaxud Ermənistanın son 100 ildə öz tarixi müttəfiqinə qarşı düşmən kəsilməsindən, ölkəmizin peşəkarlıqla istifadə etməklə qazanıldığını yazırlar. Belə iddiaçılar unudur ki, hər bir siyasi lider təkcə hərbi meydanda deyil, ilk növbədə dövlətlərarası münasibətlər sistemində tərəfdarlar qazanmaqla neytralları dost, düşmənləri loyal etməklə müharibə qərarını verir. Amerika kimi güclü bir dövlət Əfqanıstanın üzərinə 49 ölkənin koalisiyası, 168 minlik beynəlmiləl ordu ilə getmişdi. İndi Azərbaycan dövləti Qarabağda 30 illik hərbi cinayət törədənlər, millətimizə sonsuz bəlalar yaşadanlar üzərində Haaqa tribunalını özü təşkil edir. Var-

danyanı, Babayanı, Munasakanyanı və 300-ə qədər şəxsi ədalət mühakiməsi gözləyir. Lakin etnik təmizləmə ittihamı ilə birgə yaşayışa zərbə vurmaq, ölkəmizə qarşı beynəlxalq sanksiyalara nail olmaq, kütləvi köç edən ermənilərin sayını süni artırmaqla humanitar yardım və təzminat qazanmaq, birlikdə yaşamanın mümkünsüzlüyünə dünyanı inandırmaq, bölgəyə beynəlxalq missiyaları gətirmək və nəhayət, Kosovoda olduğu kimi xilas üçün ayrılma modelini işə salmaq Ermənistanın son planıdır. Əfqanıstanda, Suriyada, Liviyada qaçqınların acılarını işıqlandırmayan Qərb mediası hər gün dünya miqyasında ermənilərin xeyrinə kampaniya aparır. Halbuki ermənilərin kütləvi köçü Ermənistanda hakimiyyətə qayıtmağa çalışan keçmiş prezidentlərin siyasi planıdır, özünü ləğv edən Qarabağ rəhbərliyinin birbaşa göstərişidir.

Hörmətli parlament üzvləri, qanunvericilik planı sarıdan elə reinteqrasiya məsələsi ki dövlətimizin gündəliyində birinci çıxıb. Lakin biz nəzərə almalıyıq ki, 700 minə qədər keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışı da, əslində, reinteqrasiya adlanmalıdır. Bu mənada, möhtərəm cənab Prezident tərəfindən qəbul olunan Böyük Qayıdış proqramı, eyni zamanda, müxtəlif dövlət orqanları, parlamentin də bəzi üzvlərinin iştirakı ilə işğaldan azad olunan ərazilərə qayıdış və reinteqrasiya haqqında layihə hazırlanıb və təqdim olunub. Lakin buradakı məsələlər çox da sadə deyil və mən düşünürəm ki, hüquqi qarışıqlıq yaranan problem var. Reinteqrasiya yalnız ermənilərə aid məsələ deyil, etnik mahiyyət daşımır, azərbaycanlı və digər millətlərdən olan köçkünlərə də aiddir. Ancaq bizim qəbul edəcəyimiz qanun sabah hər hansı bir erməniyə Bakıdan da müxtəlif iddialar, mülki-sosial tələblər irəli sürməyə imkan verməməlidir. Zama-

nım başa çatdı, diqqətinizə görə təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruov**. Təşəkkür edirəm, hörmətli xanım sədr, hörmətli deputatlar, mən də payız sessiyasının başlanması münasibəti ilə təbrik edirəm. O cümlədən hörmətli xanım sədr, Sizi uğurlu səfərlərlə, Azərbaycan həqiqətlərinin çatdırılması ilə bağlı və Zəfər münasibəti ilə təbrik edirəm. Bu yay ərəfəsində cənab Prezident başda olmaqla Siz və digər dövlət qurumları rəhbərləri mütəmadi olaraq iş başında, fəaliyyətdə idiniz. Bizim deputatlar da gündəlik mətbuatda ətraflı şəkildə çıxış etdilər, seçicilərlə görüşdülər və qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirməyə çalışdılar.

Qeyd etmək istəyirəm ki, xanlıqlar dövründən başlamış demokratik respublikanın edə bilmədiyini, Sovet hökumətinin edə bilmədiyini, AXC–Müsavatın edə bilmədiyini bir gün ərzində, yəni əsrə bərabər olan bir gün ərzində cənab Prezident həyata keçirdi. Bu, Heydər Əliyev siyasi xəttinin, siyasi kursunun davamı idi və müzəffər Ali Baş Komandanın atdığı addımlar idi. Sabah Ümummilli Liderin hakimiyyətə gəlməsinin, yəni rəsmi qaydada hakimiyyətə gəlməsinin 30 ili tamam olur. Biz qayıdış gününü də, qurtuluş günlərini də qeyd edirik. Amma oktyabrın 3-də Azərbaycanda ilk azad, demokratik prezident seçkiləri keçirilibdir və Ümummilli Lider ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilibdir. Bizim bütün qələbələrimizin əsasında da məhz elə bu vaxt durur, Ümummilli Liderin seçilməsi, onun apardığı siyasət, onun nəticələri durur ki, bu gün Prezidentimiz tərəfindən uğurla davam etdirilir.

Qanunvericiliklə bağlı qeyd etmək istərdim. Mənim əsaslı şəkildə bir neçə təklifim var. Birinci, hörmətli

xanım sədr, tək işğaldan azad olunan ərazilər deyil, ölkənin ərazisində hər yerdə abadlıq-quruculuq işləri gedir. Eyni zamanda, cənab Prezident müxtəlif regionlara səfərlər edir, orada yeni tikililərin açılışında, təməlqoyma mərasimlərində iştirak edir. Yeni istehsal müəssisələrinin işə başlaması ilə əlaqədar işlər gedir. Bizim "İpoteka haqqında" Qanunumuz var. Mən təklif edərdim ki, biz bu qanuna bir balaca fərqli yanaşaq. Bakıda da, regionlarda da ipoteka ilə bağlı qaydalar eynidir. Əgər biz gənclərimizin regionda qalmasını, fəaliyyət göstərməsini, evlənməsini, ev almasını nəzərdə tuturuqsa, burada mütləq hər hansı güzəştlər qəbul etməliyik. Regionlarda əmək haqqı Bakıdakı əmək haqqından fərqlidir. Oradakı miqdarlar dəyişsin ki, gənclər regionlarda qalıb ipoteka ilə ev alsınlar, ailə qursunlar, orada işləyib çalışsınlar. Regionlarda kifayət qədər abadlıq-quruculuq işləri aparılıbdır, insanlar onları davam elətdirsinlər.

İkinci məsələ. Biz neçə illərdir, ünvanlı sosial yardım təqdim edirik, veririk. Bu günə qədər hələ ortaya çıxaran yoxdur ki, bu ünvanlı sosial yardımın səmərəsi nədən ibarətdir, nədir. Lazımdırsa, bunu davam edək, artıraq, bəlkə daha çox edək, bəlkə qaydaları dəyişək. Mən hesab edirəm ki, həm ünvanlı sosial yardımla, həm də məşğulluqla bağlı bir dinləmə olsa, yaxşı olar. 15 ilə yaxındır ki, Azərbaycanda ünvanlı sosial yardım verilir, hər il 250 milyon, 150 milyondan başlayır və 300 milyona qədər vəsait bura sərf olunur. Bəlkə biz bunun qaydalarını dəyişməliyik ki, bu, daha səmərəli, daha əlçatan olsun.

Sonra orada müəyyən məsələlər var. Birinin köhnə Sovet dövründən qalma maşını var. Deyirlər ki, sənə ünvanlı sosial yardım düşmür. O birinə deyirlər, sənin adına torpaq sahəsi var, – hansı ki 6 sotdur, – ünvanlı sosial yar-

dım düşmür. Heç o torpaq sahəsindən ailəsini dolandırmaq üçün istifadə edə bilməz. Kifayət qədər məsələ var.

Üçüncü məsələ. Bilirsiniz ki, cənab Prezident də öz çıxışında bu məsələyə toxundu: gələcəkdə işğaldan azad olunmuş ərazilərdə yerli özünüidarəetmə sisteminin tətbiqi. Biz indi fikirləşməliyik, hansı formaları, yeniliyi tətbiq edək ki... Məsələn, artıq bilirsiniz ki, müəyyən regionlarda bərpa olunan kəndlər birləşir. Orada vahid bələdiyyə sistemlərinin yaradılması, Şuşada, Xankəndidə, Xocavənddə, Ağdərədə bələdiyyə sistemlərinin formalaşması, insanların özünüidarəetmə sistemi – bunlarla bağlı da biz qanunvericiliyimizdə müəyyən addımlar atmalıyıq. Burada regionda idarəetmə sisteminin daha müasir forması ortaya çıxarılmalıdır. Təbii ki, bu sahədə işlər gedir. Bilirsiniz ki, bizdə icra hakimiyyəti var və idarəetmədə Prezidentin səlahiyyətli nümayəndəsi var. Bunun səmərəliliyi ortaya çıxandan sonra bir forma seçilib tətbiq olunmalıdır və burada da bizim qanunvericilik tərəfindən addımlar atılmalıdır.

Bizim parlamentdə bələdiyyələrlə bağlı 28-dən artıq qanun qəbul olunub. Mən hesab edirəm, artıq vaxtı çatıb ki, bələdiyyələrlə bağlı bir məcəllə hazırlansın, bu qanunların hamısı bir yerə toplansın, bir məcəllə şəklində tətbiq olunsun və təqdim edilsin.

Qarşıdan növbəti seçkilər gəlir. Bununla əlaqədar biz Seçki Məcəlləsində kifayət qədər dəyişiklik etməliyik. Elə müddəalar var ki, artıq səmərəsini itiribdir, yeni müddəalar əlavə olunmalıdır. “Siyasi partiyalar haqqında” Qanun qəbul olunduqdan sonra o müddəalar bu qanuna uyğunlaşdırılmalıdır. O baxımdan mən hesab edirəm ki, bu məsələyə də toxunmalıyıq.

Nəhayət, Ali təhsil haqqında qanunu da, hesab edirəm, biz bu payız sessiyasında qəbul etməliyik ki, bu sahədə

olan müəyyən problemlər aradan qaldırılsın. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar! Mən təqdim edilmiş 2023-cü ilin payız sessiyasının qanunvericilik işləri planını təqdir edirəm. Ona səs verəcəyəm. Bizi qarşıda çox ciddi qanun layihələrinin müzakirəsi gözləyir. Həmin qanun layihələri kifayət qədər aktualdır. Azərbaycan dövlətinin xüsusi olaraq iqtisadi və sosial dayaqlarının möhkəmlənməsinə xidmət edən o qanunlardır və bunlar Azərbaycanın yeni imkanlarının açılması deməkdir. Mən təqdir edirəm və bunlara səs verəcəyəm.

Həmçinin Milli Məclis səviyyəsində bəzi məsələlərin nəzərə alınmasını xahiş edərdim. İlk çıxışımda iki tarixi söylədim: bu, 2023-cü il 23 aprel. Azərbaycanın ərazi bütövlüyünü təsbit edən olduqca mühüm bir hadisədir. Mən düşünürəm ki, bu, həm də 2020-ci il 10 noyabr – tarixi Zəfərimizin davamıdır, ona əlavə üstünlüklər gətirən, ərazi bütövlüyümüzü təmin edən çox ciddi tarixi hadisədir. Bu, əbədiləşməlidir.

İkinci. Azərbaycanın bütün ərazisində onun suverenliyini təmin edən, Konstitusiya quruluşunun reallaşmasını həyata keçirən və bütövlükdə, separatizmi, xunta rejimini məhv edən 2023-cü ilin 20 sentyabr hadisəsi. Bu da əbədiləşməlidir. Hörmətli xanım sədr, xahiş edirəm, mənim bu təklifimlə bağlı müvafiq məsləhətləşmələr aparasınız.

Erməni məsələsi uzun illərdən bəri dünyanın güc mərkəzlərinin əlində Azərbaycana, türk dünyasına təsir vasitəsi kimi işə salınıbdır və artıq özlərinin son günlərini yaşamaqdadır. Bir qayda olaraq fizioloji baxımdan olduğu kimi, ictimai-siyasi proseslərdə də istənilən hadisənin özü

son günlərinin ölüm həddini yaşayanda o, daha çox qəzəbli olur, bütün enerjisini daha da işə salaraq müqavimətini gücləndirir. İndi dünya erməniliyi məsələsi, demək olar ki, yox olur. Ona görə də onlar fəallıqlarını xeyli dərəcə artırıblar və burada Azərbaycan dövlətinin mövqeyi də bəllidir. Bu, ölkə Prezidenti səviyyəsində ən müxtəlif platformalarda yüksək səviyyədə ortalığa qoyulub ki, Azərbaycan ərazisində yaşayan, separatizmlə, cinayətlə əlaqəsi olmayan erməni əsilli insanların hüquqlarının və təhlükəsizliyinin təmin olunması həyata keçiriləcəkdir. Bu, ölkə Prezidentinin imzası qədər ciddi mahiyyət daşıyan sözdür və biz bilirik ki, ölkə Prezidenti sözünün tam mənada sahibidir. Amma buna baxmayaraq, bizim üzərimizə gəlməkdə davam edirlər.

Hörmətli xanım sədr, yaxşı olmazmı ki, biz Milli Məclis səviyyəsində Azərbaycanda "erməni məsələsi" deyilən bir məsələnin müzakirəsini keçirək. Yəni bu ermənilər haradan gəlib, hara qədər gəlib, bizə nələr edib və bunlara baxmayaraq, biz hansı güzəştləri etmişik. Bunlardan sonra da Azərbaycanda yaşamaq istəyən erməni xalqına və Ermənistan deyilən o qondarma ölkəyə də münasibətimiz beynəlxalq hüquq normalarına, bəşəri dəyərlərə söykənən bir münasibətdir. Bunu anlayın, başa düşün, qəbul edin və bizdən əl çəkin. Mənə elə gəlir ki, bunun üçün bu dinləmələrdə beynəlxalq təşkilatların, ayrı-ayrı ölkələrin, xüsusi olaraq bizimlə əlaqəsi kəsilən ölkələrin diplomatik korpusunun nümayəndələrini də o dinləmələrə cəlb etmək olar. Bu, həm də Milli Məclisin, dövlət başçısının bu baxımdan fəaliyyətinə bir töhfə olardı.

Üçüncü. Hörmətli xanım sədr, biz Sizin çıxışınızla bağlı, cənab Prezidentin xidmətləri ilə bağlı öz alqışlarımızı burada ifadə etdik, fikrimizi Sizinlə bölüşdük. Yaxşı ol-

mazmı ki, biz gələcək tarix üçün, – o tarixi biz yaşayırıq, – rəsmi şəkildə cənab Prezidentimizə göstərmiş olduğu bütün bu böyük xidmətlərə görə Milli Məclis adından bir təşəkkür məktubu göndərək? 2023-cü il sentyabrın 20-də separatizm və erməni məsələsi Azərbaycanda artıq bitdi. Yəni bu, artıq böyük hadisələrin son nöqtəsi idi. Bu son nöqtəni qoyan cənab Prezidentdir və biz ona rəsmi bir təşəkkür bildirsək, mənə belə gəlir ki, yaxşı olardı.

Nəhayət, dördüncü. Dünya miqyasında bu gün ermənilər ən müxtəlif ölkələrdə Azərbaycan səfirliklərinə qarşı mitinqlər keçirirlər, müxtəlif vandal hərəkətlərə yol verirlər. Əllərində olan informasiya vasitələrində Azərbaycana qarşı şər və böhtan kampaniyası davam etdirirlər. Mən Sizin təklifinizlə tamamilə şərikəm, razıyam. Biz, eyni zamanda, işçi qrupları səviyyəsində də bu məktubları göndərməliyik, onlarla fəal şəkildə işləməliyik. Dəyərli həmkarlarıma xüsusi olaraq demək istəyirəm ki, kimlər Avropa ölkələri ilə, daha çox ermənilərin yanında olan ölkələrlə işçi qrupunun rəhbəridir, onlarla daha fəal işləsinlər, onlarla münasibətləri, əlaqələri, kommunikasiyaları genişləndirsinlər. Bununla bərabər, mən düşünürəm, biz mümkündürsə, dünya azərbaycanlılarına da müraciət edək ki, onlar da bu prosesdə daha fəal iştirak etsinlər. Eyni zamanda, türk dünyası ölkələrinə də və ya diasporlarına müraciət edək, onlar da ermənilərin və onların arxasında olan məkrli qüvvələrin Azərbaycana qarşı informasiya müharibəsinin qarşısını almaq üçün, onlara cavab vermək üçün, haqq-ədalətə söykənən fikirlərimizi ifadə etmək üçün öz fəallığını qorusunlar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, payız sessiyasının qanunvericilik işləri planı adətən

qısa olur, səbəbi də büdcə zərfinə daxil olan qanun layihələrinin çox olmasıdır. Burada qeyd olunan bütün qanun layihələrini dəstəkləməklə yanaşı, burada nələri görmək istərdim? Birinci növbədə Azərbaycanın həm ictimai-siyasi həyatında, həm də, bütövlükdə, qanunvericilik sahəsində yeni bir situasiya yaranıbdır. Torpaqlar işğaldan azad olunubdur. Mən hesab edirəm ki, işğaldan azad olunmuş ərazilərdə məskunlaşma haqqında bir qanun məsələsini düşünməliyik. Biz məskunlaşma siyasətini məhz bu istiqamətdə aparmalıyıq. Buna yalnız məcburi köçkünlərə aid olan məsələ kimi baxmamalıyıq. Bu ərazilər olduqca böyükdür və orada könüllülük prinsipinin necə təyin olunmasını həyata keçirməliyik. Məcburi köçkünlərin ora qayıdışı məsələsində isə hərbi mükəlləfiyyət səviyyəsində tələblər bu qanunda əks olunmalıdır. Çünki bu torpaqların azad olunması məsələsi yalnız ordunun, Ali Baş Komandanın və başqalarının bu istiqamətdə çalışmaları ilə yekunlaşmır. Vətəndaşın bu prosesdə necə iştirak etməsi, necə təşviq olunması çox önəmlidir. Bu baxımdan bu məsələnin müzakirə olunmasını vacib hesab edirəm.

İkinci vacib məsələ Konstitusiya islahatları ilə bağlıdır. İcra hakimiyyəti, Prezidentin xüsusi nümayəndəliyi, bələdiyyə qurumu – bu qurumlar arasında səlahiyyət bölgüsündə qarışıqlıq var və yeni situasiya, o cümlədən ermənilərlə bağlı situasiyada bizdən tələb edir ki, bu məsələlər mütləq müzakirə olunsun. Mən nə təklif edirəm? Təbii ki, əgər gələcəkdə hansısa bir referendum olacaqsa, Konstitusiyaya dəyişiklik tələbi olunacaqsa, səlahiyyətli qurumlarımız bunu müəyyən edəcəklər. Amma biz indidən parlamentdə müxtəlif formalarda dinləmələr keçirərək parlament üzvlərinin təkliflərinin səsləndirilməsinə imkan yaratmalıyıq. Çünki olduqca ciddi məsələdir.

Naxçıvan Muxtar Respublikasının nümunəsini göstərək. Hazırda 6-7 səlahiyyətli qurum mövcuddur. Ancaq konkret kimin hansı səlahiyyətə malik olması və kimin səlahiyyətinə necə qarışmasını təyin etmək olduqca çətindir. Prezidentin xüsusi nümayəndəsi, Ali Məclis, Nazirlər Kabineti və bu cür müxtəlif qurumlar. İdarəetmə xaosunun qarışıqlığının əziyyətini vətəndaş çəkir. Vətəndaş hansı qurumdan nəyi tələb edəcəyini bilmir. Rayonlarda icra hakimiyyətlərinin qarşısına gedən vətəndaş nə əmlak, nə torpaq, nə təhsil, nə də səhiyyə problemini həll edə bilmir. Amma məsuliyyət icra başçısının üzərindədir. Bütün regional birliklər, idarələr yaradılıbdır. Vətəndaşın hər hansı bir şəkildə onlardan nə isə tələb etmək imkanları məhduddur. Əvvəllər konkret bilinirdi ki, rayonu bu adam idarə edir, rayonda koordinasiyanı bu icra başçısı həyata keçirir. İndi bu imkanlar ortadan qalxıbdır. Sıxıntını da vətəndaş çəkdiyinə görə biz bu məsələləri gecikdirmədən müzakirə etməliyik.

İndi burada qeyd olundu ki, bələdiyyələrlə bağlı 28 qanun qəbul edilib. Amma bələdiyyənin əmlak vergisi yığmaqdan başqa heç bir səlahiyyəti yoxdur. Ancaq evlərə kağız göndərir ki, mənim binadan, mülkdən, başqa şeylərdən əmlak vergimi təmin edin. Bundan başqa səlahiyyəti yoxdur. Prezidentimiz də söylədi. Biz Qarabağda da onlara yerli özünüidarəetmə hüququ tanıyırıq. Biz bu hüququ tanıyanda, bu bələdiyyələri onların qarşısına çıxaranda, təbii ki, bu bələdiyyə modeli ilə onlara nə isə verəcəyimizi də düşünməliyik. Yəni ən azından müəyyən cəlbedici maddələrin olması vacibdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov.

**H.Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hamınızı salamlayıram və payız sessiyasının

işinə uğurlar arzulayıram. Hörmətli xanım sədr, Sizin qısa xülasə hesabatınızdan bir daha aydın oldu ki, Milli Məclis, Milli Məclisin hər bir üzvü, şübhəsiz ki, başda Milli Məclisin sədri hörmətli Sahibə xanım Qafarova olmaqla milli dövlətçiliyimizin, milli mənafeyimizin tələb etdiyi istiqamətdə nə qədər fədakar bir fəaliyyət göstəriblər.

Hörmətli millət vəkilləri, doğrudan da, biz yeni siyasi tariximizin ən parlaq səhifələrindən birini yaşayırıq. 19-20 sentyabrda baş verən son hadisələr, antiterror tədbirləri, əslində, sülhü yaxınlaşdırmaq tədbirləri idi. Bir daha aydın oldu ki,  biz sülhə daha da yaxınlaşdıq.

Şübhəsiz ki, təbiətdə, insan həyatında möcüzələr ola bilir, ancaq siyasətdə möcüzə olmur. Çünki siyasət əvvəlcədən müəyyənləşdirilmiş məqsədyönlü fəaliyyətdir. Amma faktiki olaraq biz siyasətdə də möcüzə yaşayırıq. Mən bəzən düşünürəm ki, biz bunu ədəbiyyatımıza, tariximizə, mediamıza layiqincə gətirə bilirikmi, yaza bilirikmi? Sonra fikirləşirəm ki, ən obyektiv, ən doğru, ən həqiqi müəllif, əlhəzərat, tarixdir və tarix özü bu hadisələrə qiymət verəcəkdir. Ancaq təəssüf, Azərbaycanda bir qrup elə insan var ki, onlar bu tarixi Zəfərimizi, bu tarixi nailiyyətimizi və uğurlarımızı Azərbaycanın müzəffər Ali Baş Komandanının, Azərbaycanın qalib ordusundan başqa kimin ayağına istəsələr, yazmağa hazırdırlar. İbn Xaldunun dediyi kimi, onlar Azərbaycan xalqı ilə ittifaqda olmamaq üçün şeytanla belə ittifaqda olmağa hazırdırlar. Mən düşünürəm ki, onlar da, heç olmasa, bundan sonra vicdanlarının səsinə qulaq asıb nəyin baş verdiyinin fərqində olmalıdırlar və bunu auditoriyaya təqdim etməlidirlər.

Hörmətli xanım sədr, doğrudan da, Azərbaycan Respublikasının Milli Məclisinin payız sessiyasının qanunvericilik işləri planı ilə bağlı yaxşı bir plan tərtib olunub-

dur. Mən buna səs verəcəyəm. Ancaq iki təklifim var. Bunlardan biri “Reklam haqqında” Qanuna edilən təklif olmalıdır. Mən düşünürəm ki, biz bu qanuna yenidən baxmalıyıq. Reklam, başa düşürük, iqtisadi münasibətlərin motivasiya olunması üçün çox vacibdir. Amma biz bu kontekstdə həm də reklam vasitələrində istehlakçıların, informasiya istehlakçılarının hüquqlarını da qorumalıyıq. Son dövrlərdə, xüsusi ilə agentliklərdə, portallarda, informasiya resurslarında informasiya əldə etmək mümkün deyil. Hansı informasiyanı açmaq istəyirsinizsə, sadəcə, reklam gəlir, bundan xilas olmaq üçün nə qədər çalışırsınızsa, xilas ola bilmirsiniz. Beləliklə, daha çox vaxt itirməklə heç bir şey əldə edə bilmirik. Nəticə etibarı ilə bu reklamlar bizi idarə etmiş olur. Ona görə burada bir məhdudiyyət, bir nizam olmalıdır ki, reklamçıların hüquqlarını qorumaqla bərabər, informasiya istehlakçılarının da hüquqları qorunmuş olsun.

İkinci. Mən düşünürəm, hazırda biz, şübhəsiz ki, Böyük Qayıdışın ilkin mərhələsini yaşayırıq. Ancaq bundan sonrakı mərhələdə, əlbəttə ki, təkcə dövlət resursları hesabına deyil, vətəndaşların sərmayələri hesabına da Böyük Qayıdış realizə olunmalıdır. Ona görə də paytaxt Bakının tıxac problemini, Bakıda demoqrafik problemləri, əhali sıxlığını həll etmək üçün biz “Bank və bank kredit fəaliyyəti haqqında” Qanuna da dəyişiklik etməliyik. Burada da differensiallaşma müəyyənləşməlidir. Tutaq ki, paytaxtdan 200 kilometr kənarda banklar sərmayə üçün daha münasib şərtlə kreditlər ayırmalıdırlar. Bu, hər 100 kilometrdən bir dəyişməlidir. Nəticə etibarı ilə paytaxtdan kənarda sərmayə yatıran, iş yerləri açan hər hansı bir sərmayədar, 500 iş adamı daha uyğun şərtlərlə kredit almalıdır ki, bu yolla biz təşviq etmiş olaq.

Böyük Qayıdışla bağlı. İşğaldan azad olmuş ərazilərimiz çox böyükdür. Oraya sahibkarların investisiya yatırması üçün, mən düşünürəm ki, yeni qanun layihəsi qəbul edəriksə, daha səmərəli bir addım atmış olarıq. Diqqətinizə görə sağ olun

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, çıxışlar başa çatdı. Mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələlərə keçirik. Qeyd edim ki, gündəliyin növbəti 10 məsələsi hökumətlərarası sazişlərin və digər beynəlxalq sənədlərin təsdiq edilməsi ilə bağlıdır. Bildiyiniz kimi, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bu qanun layihələri bir oxunuşda baxılıb qəbul edilməlidir.

İndi gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ də "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumatı hörmətli həmkarımız Anar Məmmədov verəcək. Anar müəllim, buyurun.

**A.Məmmədov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm, çox hörmətli xanım sədr. Hörmətli həmkarlar, mən də payız sessiyasının açılışı ilə bağlı hörmətli həmkarlarımızı təbrik edirəm. Bir ölkədən digər ölkəyə investisiya qoyuluşlarının təsdiq edilməsi üçün ilk növbədə həmin ölkələr arasında investisiyaların qarşılıqlı qorunması haqqında, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması barədə sazişlərin olması zəruridir. Sazişlərin əsas üstünlüyü ilk növbədə Azərbaycanın və digər dövlətin hüquqi və fiziki şəxslərinə münasibətdə eyni bir gəlirə görə ikiqat vergitutmanın həm Azərbaycanda, həm də digər dövlətdə qaradan qaldırılmasıdır.

Hörmətli millət vəkilləri, "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş" 2023-cü il iyunun 7-də Bratislava şəhərində imzalanmışdır. Layihənin əsas məqsədi tərəf dövlətlər arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsidir və vergi münasibətlərinin, əməkdaşlığın gücləndirilməsidir. Sazişdə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan olaraq İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Maliyyə Nazirliyi müəyyən edilmişdir.

Sənəd 30 maddədən, 2 nüsxədən ibarətdir, hər biri Azərbaycan, slovak və ingilis dillərində tərtib olunmuşdur. Hesab edirəm ki, Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında iqtisadi əməkdaşlığın inkişafına müsbət təsir göstərəcək.

Qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq

komitəsində geniş müzakirə edilmişdir. Komitənin rəyi müsbətdir. Hörmətli həmkarlarımızdan da qanun layihəsinə səs verib dəstəkləmələrini xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Mən hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun, məlumat verin.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Tamamilə doğrudur, komitəmizdə geniş şəkildə müzakirə olunub. Ümumiyyətlə, son zamanlar Azərbaycan–Slovakiya münasibətləri ən yüksək şəkildə inkişaf edir. O cümlədən parlamentlərarası münasibətlər də inkişaf edir. Təbii, belə bir inkişafın zərurəti göz qabağındadır. Komitəmiz yekdilliklə bunun bu gün təsdiq olunmasının tərəfdarıdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, 3-cü məsələyə keçirik. “Azərbay-

can Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri hörmətli Ziyafət müəllimə söz verirəm. Ziyafət müəllim, buyurun. Ziyafət Əsgərov.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" 2022-ci il aprelin 24-də Bakı şəhərində imzalanıb. Saziş preambula və 13 maddədən ibarətdir. Sazişin 2-ci maddəsinə görə, tərəflər 14 sahədə əməkdaşlıq edirlər: hərbi təhsil, treninq təlimlər, müdafiə və təhlükəsizlik siyasəti, sülhməramlı və humanitar əməliyyatlar, NATO-nun sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində əməkdaşlıq, silahlara nəzarət, tərksilah, hərbi qanunvericilik, maddi-texniki təminat, mülki-hərbi əməkdaşlıq, müdafiə sahəsində kibertəhlükəsizlik və digər sahələrdə əməkdaşlıq nəzərdə tutulub.

Sazişin 3-cü maddəsinə müvafiq olaraq, tərəflər arasında əməkdaşlıq rəsmi səfərlər və işçi görüşlər, ikitərəfli danışıqlar, məsləhətləşmələr və digər sahələrdə həyata keçirilir. Bu sazişin icrası üçün tərəflər arasında məxfi məlumatların mübadiləsi və qarşılıqlı qorunması 2011-ci il 26 oktyabr tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında məxfi məlumatların qarşılıqlı mühafizəsi haqqında Saziş"ə əsasən həyata keçirilir.

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım! Qanun layihəsi, daha doğrusu, sazişin layihəsi bizim Azər-

baycanın milli maraqlarına tamamilə cavab verir. Ona görə sizdən xahiş edirəm, qanun layihəsini dəstəkləyəsiniz və səs verəsiniz. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Səməd müəllim, əslində, bütün bu sazişlər sizin komitənizdən keçib. Bununla bağlı nə deyə bilərsiniz? Komitənin rəyini bildirin. Buyurun.

**S.Seyidov.** Hörmətli xanım sədr, geniş şəkildə müzakirə olunub. Gürcüstan bizim üçün strateji əhəmiyyət kəsb edən həm ölkədir, həm qonşudur, həm də dostdur. Ziyafət müəllim geniş şəkildə dedi. Komitəmiz belə bir sazişin təsdiq olunmasının tam lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul olundu.

4-cü məsələ. "Azərbaycan Respublikası Hökuməti və Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi (TürkPA Katibliyi) arasında yerləşmə haqqında Saziş"ə dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə qanun layihəsidir. Səməd müəllim, qanun layihəsinə sizin komitədə baxılıb. Xahiş edirəm, məlumat verin.

**S.Seyidov.** Çox sağ olun, xanım sədr. Əslində, biz türk dünyasının inkişafını gözümüzün qabağında görürük. Elə

tarixi hadisələr baş verir ki, mən bu hadisələrə yalnız sevinirəm. Görürsünüz, bu sazişdə "Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi" sözləri var. Artıq türkdilli yoxdur, artıq türk dövləti var. Adı da dəyişib, mahiyyəti də yüksəlib, rolu da artıb. Təbii, komitə yekdilliklə bunun tərəfdarıdır. Xahiş edirik ki, reallığı əks etdirən, dilimizi, mədəniyyətimizi, bayrağımızı yüksəldən bu təşkilatı düzgün və reallığı əks etdirən adı ilə də çağıraq – Türk Dövlətləri Təşkilatı. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin, hörmətli həmkarlar.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 5-ci məsələsinə keçirik. "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan–Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında 2023-cü il 24 fevral tarixli Saziş"ə dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitə sədrinin müavini hörmətli Əli Məsimliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan–Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında” 2023-cü il fevralın 24-də Daşkənd şəhərində imzalanmış saziş 2023-cü il mayın 12-də Milli Məclis tərəfindən təsdiq edilib. Bu saziş iki dövlət arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi məqsədinə xidmət edir. Sazişə əsasən tərəflər Azərbaycanda və Özbəkistanda, habelə 3-cü ölkələrin ərazilərində qarşılıqlı maraq doğuran istiqamətlərdə ixracyönlü müəssisələrin yaradılması üzrə birgə layihələrin maliyyələşdirilməsi məqsədi ilə müvafiq fondun yaradılması üzrə razılığa gəliblər.

Sazişin 11-ci maddəsinə əsasən tərəflərin razılığı əsasında bu sazişə onun ayrılmaz hissəsi olan və bu sazişin 13-cü maddəsində nəzərdə tutulan qaydalarda qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr də edilə bilər. Məhz buna uyğun olaraq, 2023-cü il iyulun 18-də Şuşa şəhərində Azərbaycan Respublikası hökuməti ilə Özbəkistan Respublikası hökuməti arasında Azərbaycan–Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında Sazişə dəyişikliklərin edilməsi barədə yeni bir protokol imzalanıb. Protokolda sözügedən sazişə müvafiq dəyişikliklərin edilməsi nəzərdə tutulub. Belə ki, sazişin adında “Azərbaycan–Özbəkistan İnvestisiya Fondu” sözlərinin “Azərbaycan–Özbəkistan İnvestisiya Şirkəti (fond)” sözləri ilə əvəz edilməsi müəyyənləşdirilib.

Digər dəyişikliyə müvafiq olaraq, fondun yaradılması haqqında təsis sənədləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Özbəkistan Respublikasının Yenidənqurma və İnkişaf Fondu tərəfindən imzalanır. Fondun

təşkilati, hüquqi formasını onun təsisçiləri müəyyən edir. Fondun fəaliyyəti və onun nizamnaməsi ilə bağlı mübahisələr fondun təsis sazişinə uyğun olaraq həll edilir. Sazişin ayrılmaz tərkib hissəsi hesab olunan protokol tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsi ilə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir və saziş ilə eyni vaxtda qüvvədən düşür. Deputat həmkarlarımı bu vacib layihəni dəstəkləməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Səməd müəllim, qanun layihəsinə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, buyurun, məlumat verin.

**S.Seyidov.** Hörmətli Sahibə xanım, Əli müəllim bu haqda geniş və ətraflı danışdı. Təbii, tərəfdarıyıq. Elə bundan öncə müzakirə etdiyimiz və təsdiq etdiyimiz qanun layihəsi artıq türk dövlətlərinin inkişafına birbaşa aiddir. Bu da həmin silsilədən olan sənəddir. Ona görə də komitəmiz tam lehinədir və sizdən xahiş edirəm, bunu qəbul edəsiniz. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən məsələni səsə qoyuram. Buyurun, səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 4 məsələsi məzmun və mahiyyətcə bir-birinə yaxındır. 6-cı məsələ "Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə On Birinci Əlavə Protokol"a qoşulmaq haqqında, 7-ci məsələ "Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə Üçüncü Əlavə Protokol"a qoşulmaq haqqında, 8-ci məsələ "Ümumdünya Poçt Konvensiyası"na və "Ümumdünya Poçt Konvensiyasının Yekun Protokolu"na qoşulmaq haqqında, 9-cu məsələ isə "Poçt ödəniş xidmətləri haqqında Saziş"ə və "Poçt ödəniş xidmətləri haqqında Saziş"in Yekun Protokolu"na qoşulmaq barədə qanun layihələridir. Mən təklif edirəm, əvvəlcə biz bu qanun layihələrinin təqdimatlarını dinləyək, biz həmişə belə edirik. Sonra isə birgə müzakirəsini aparaq, səsverməni həmişə olduğu kimi də ayrı keçirək. Layihələrə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Mən, Əli müəllim, yenə də Sizə söz vermək istəyirəm. Buyurun, qanun layihələrinə dair məlumat verin.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Azərbaycan Respublikasının 2002-ci il 19 fevral tarixli 264 nömrəli qanunu ilə qoşulduğu 1964-cü il 10 iyul tarixli Ümumdünya Poçt İttifaqının Nizamnaməsinin tələblərinə uyğun olaraq, nizamnamədə düzəlişlər əlavə protokol ilə rəsmiləşdirilir. Ümumdünya Poçt İttifaqının 2021-ci il avqustun 26-da Azərbaycan Abidjan şəhərində keçirilmiş 27-ci konqresində Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə 11-ci Əlavə Protokol qəbul edilib. Protokol preambula və 19 maddədən ibarətdir. Əlavə Protokolun müddəalarına əsasən Ümumdünya Poçt İttifaqının Nizamnaməsinin preambulasına və müvafiq maddələrinə dəyişikliklər edilmişdir. Dəyişikliklər 4 istiqaməti əhatə edir:

1. Ümumdünya Poçt İttifaqının aktlarına münasibətdə

daha da hüquqi aydınlığın və sabitliyin təmin edilməsi;

2. Terminoloji ardıcıllığın müəyyən edilməsi;

3. Nizamnamədə uzun müddət mövcud olan bir çox uyğunsuzluqların aradan qaldırılması;

4. “Müqavilələr hüququ haqqında” Vyana Konvensiyasına uyğun olaraq, ittifaqın aktlarının təsdiqi və qəbulu üçün müddəaların müəyyən edilməsi üzrə hazırlanıb.

Dəyişikliklərə əsasən Ümumdünya Poçt İttifaqının ümumi reqlamentində, sazişlərdə Ümumdünya Poçt Konvensiyasında müvafiq dəyişikliklərin edildiyi təqdirdə həmin dəyişikliklərdə üzv dövlətlər tərəfindən mümkün qədər tez ratifikasiya, təsdiq edilməsi, qəbul edilməsi və onlara qoşulması ilə bağlı və sair dəyişikliklər nəzərdə tutulub. Əlavə protokol 2022-ci il iyulun 1-dən qüvvəyə minir və qeyri-müəyyən müddətdə qüvvədə qalacaq. Bu layihəyə səs verməyə deputat həmkarlarımı dəvət edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Səməd müəllim, sizin də komitənizdə baxılıb. Xahiş edirəm, ümumi bir məlumat verin.

**S.Seyidov.** Bəli, Sahibə xanım, bizim komitəmizdə baxılıb. Komitə 4 qanun layihəsinə müsbət rəy bildirib. Azərbaycan Poçt Konvensiyasına qoşulmaqla beynəlxalq əlaqələrini, ümumiyyətlə, öz imkanlarını geniş şəkildə artırır. Təbii, komitəmiz tam lehinədir və hörmətli həmkarlarımızı buna müsbət səs verməyə çağırırıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən var. Sabir Rüstəmxanlı. Sabir müəllim, buyurun.

**S.Rüstəmxanlı.** Mən də bu çıxış imkanından istifadə edib payız sessiyasının başlanması münasibəti ilə bütün həmkarlarımı ürəkdən təbrik edirəm. Eyni zamanda, Azərbaycanın tarixi qələbəsi münasibəti ilə bütün xalqımızı,

millətimizi, ordumuzu, Ali Baş Komandanı təbrik edirəm. Ordumuza, igidlərimizə təşəkkürümü bildirirəm ki, Azərbaycanın uzun müddət, bəlkə bir əsrdən artıq sürən bir ağrısına, acısına son qoydular. Mən bu salonda çox ağrılı günlər görmüşəm. Biz 20 Yanvar faciəsini, Qarabağ torpaqlarının getməsini, müharibə məsələlərinin hamısını bu salonda müzakirə etmişik. Şükür, bu gün artıq başqa bir əhvali-ruhiyyə ilə, qələbə ovqatı ilə bu salonda oturmuşuq.

Bir qeydimi bildirmək istəyirəm. Bilmirəm, kimin əlaqəsi var, kimin yoxdur, amma hər halda xarici ölkələrə informasiya blokadasını aşmanın bir yolu da elə poçt xidmətidir. Poçt xidməti xarici ölkələrə kitab göndərmək, kitab almaq, kitab mübadiləsi... Mən bunu bizim "AZAL"la görüşümüzdə də dedim. Çox təəssüf ki, Azərbaycanda qiymət siyasəti var, hər təşkilat özünə uyğun bir qiymət müəyyənləşdirir. Xaricə kitab göndərmək son dərəcə çətindir. Yəni bir kitabın dəyərindən qat-qat artıq qiymət, pul ödəməlisən ki, hər hansı bir ölkəyə, universitetə, kitabxanaya göndərəsən. Mən burada Rəqəmsal İnkişaf və Rabitə Nazirliyimizə müraciət edirəm ki, burada bir aydınlıq yaratsın, bu məsələdə bir tənzimləmə olsun. Kitabların qiyməti müəlliflərin və ümumiyyətlə, kitab göndərən insanların imkanlarına uyğunlaşdırılsın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sabir müəllim, çox sağ olun. Sabir müəllim, bir mövzuya da mən toxunum. Bundan əvvəl, mənə elə gəldi, Siz dediniz ki, türkdilli dövlətlərin və sair.., ancaq bu parlamentdə qalıb. Xeyr, gündəlikdə biz onu mütləq elə yazmalıydıq.

İndi isə, hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, gündəliyin 6-cı məsələsinə, yəni "Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə On Birinci Əlavə Protokol"a qoşulmaq haqqında

qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Xahiş edirəm, 7-ci məsələyə səs verin. Bu, "Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə Üçüncü Əlavə Protokol"a qoşulmaq haqqında qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

İndi isə buyurun, 8-ci məsələyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Xahiş edirəm, 9-cu məsələyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

İndi isə 10-cu məsələyə keçirik. Bu məsələ də "Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında" Konvensiyada dəyişiklik edilməsinə dair Protokol"a qoşulmaq barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları. "Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında" 1963-cü il 14 sentyabr tarixli Konvensiya Beynəlxalq Mülki Aviasiya Təşkilatı – ICAO-nun egidası altında bağlanmış terrorçuluq əleyhinə universal səviyyədə qəbul edilən və hazırda 187 dövlət təşkilatçısı olan beynəlxalq müqavilələrdən biridir. Azərbaycan Respublikası Konvensiyaya 2004-cü il fevralın 5-də qoşulmuşdur və beynəlxalq öhdəliklərini daxili qanunvericilikdə implementasiya etmişdir. Hava nəqliyyatının təhlükəsizliyinin

təmin edilməsi, hava gəmisinin göyərtəsində intizamsız davranışın qarşısının alınması, sərnişin daşınması qaydalarının təkmilləşdirilməsi məqsədi ilə  qeyd edilən konvensiya 2014-cü il 4 aprel tarixli Monreal Protokolu qəbul edilmişdir. Həmin protokol 2020-ci il yanvarın 1-dən qüvvəyə minmişdir.

Müzakirəyə təqdim edilən hüquqi sənəd preambula və 20 maddədən ibarətdir. Protokolun məzmunundan göründüyü kimi, o eniş dövlətinə və hava gəmisini istismar edən dövlətə müvafiq cinayətlər və hüquqazidd hərəkətlərə münasibətdə öz yurisdiksiyasından istifadə etmək hüququnu verir və bununla da təhlükəsizliyin təmin edilməsi imkanlarını əhəmiyyətli dərəcədə artırır, hava gəmilərinin göyərtəsində intizamsız davranış hallarının qarşısının alınması, hüquqi məsuliyyət və bir sıra aspektlərdə beynəlxalq əməkdaşlıq məsələlərini tənzimləyir.

Hörmətli deputatlar,  bir əhəmiyyətli məsələni də ayrıca qeyd etmək istərdim. Azərbaycan Respublikasının uzunmüddətli müqavilə-hüquq təcrübəsində beynəlxalq razılaşmanın ratifikasiyası zamanı dövlətimiz qeyd-şərtlərlə çıxış edərək işğal altında olan ərazilərdə müxtəlif konvensiyaların müddəalarının bu ərazilər işğaldan azad olunana qədər tətbiqinə təminat verə bilməyəcəyini bəyan edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hərbi-siyasi strategiyasının parlaq formada həyata keçirilməsi dövlətimizin ərazi bütövlüyü və suverenliyini tam formada bərpa edilməsinə gətirib çıxarır və bunun fundamental hüquqi nəticəsi olaraq hər bir beynəlxalq müqavilənin müddəaları bütün ölkənin ərazisində istisnasız tətbiq olunacaq. Xahiş edirəm, müzakirə edilən protokola qoşulmaq barədə qanunun qəbul edilməsinə səs verəsiniz.

**Sədrlik edən.** Çox sağ olun. Səməd müəllim, buyurun, yenə də növbə Sizindir, məlumat verin.

**S.Seyidov.** Çox sağ olun, hörmətli xanım sədr. Əslində, Nizami müəllim çox gözəl danışdı və mənim qeyd etmək istədiyim məsələlərə də toxundu. Birincisi. Heç kimdə təsəvvür yaranmasın ki, biz beynəlxalq sazişə hansısa dəyişiklik edirik. Beynəlxalq sazişə heç bir dəyişiklik etmək mümkün deyil. Burada yazılan dəyişikliklər beynəlxalq səviyyədə qəbul olunubdur. Biz o dəyişiklikləri bir oxunuşda təsdiq edirik, Siz bunu qeyd etdiniz.

İkincisi. Sahibə xanım, hörmətli həmkarlar, Nizami müəllim, ən mühüm məsələlərdən biri odur ki, qeyd-şərtlər qurtardı. Artıq bu qeyd-şərtlər yoxdur. Biz həmişə sazişləri qəbul edəndə hansısa qeyd-şərt götürürdük, qanunlarda qeyd edirdik. Azərbaycanın suverenliyi tam təmin olunduğuna görə bütün beynəlxalq qanunlar da Azərbaycanda tam qəbul olunaraq işlək vəziyyətə düşür. Bu, çox böyük bir məsələdir. Bununla əlaqədar olaraq bu qanun layihəsinin təsdiq olunmasının tərəfdarıyıq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 11-ci məsələsinə keçirik. “Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsində dəyişiklik edilməsi haqqında 1986-cı il tarixli sənəd”in təsdiq edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitə sədrinin müavini hörmətli Məlahət xanım İbrahimqızına söz verirəm. Məlahət xanım, buyurun, məlumat verin.

**M.İbrahimqızı,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsi sədrinin müavini.*

Çox sağ olun, xanım sədr. Hörmətli Sahibə xanım, hörmətli həmkarlarımız. Bu gün müzakirəyə təqdim edilmiş “Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsində dəyişiklik edilməsi haqqında 1986-cı il tarixli sənəd” 1986-cı il iyunun 24-də Cenevrə şəhərində qəbul edilmişdir. Sənəd preambula, 3 maddə və əlavədən ibarətdir. Sənədin əlavəsinin birinci sütununda Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsinin qüvvədə olan müddəaları, ikinci sütununda isə dəyişiklik edilməsi nəzərdə tutulan müddəalar qeyd edilmişdir.

Sənədin 1-ci maddəsinə əsasən bu sənəd qüvvəyə mindiyi tarixdən əlavənin birinci sütununda qeyd olunan müddəalar qüvvədən düşərək ikinci sütunda qeyd olunan müddəalar qüvvəyə minir. Dəyişikliklər 4 istiqamət üzrə Beynəlxalq Əmək Təşkilatının orqanı olan Beynəlxalq Əmək Ofisinin idarə heyətinin idarə edilməsi və tərkibi, baş direktorun təyin edilməsi, Beynəlxalq Əmək Təşkilatının orqanı olan Beynəlxalq Əmək Konfransında səsvermənin keçirilməsi və Nizamnaməyə dəyişikliklər edilməsi üzrə hazırlanmışdır.

Sənədin əlavəsinə əsasən Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsinin 1-ci, 3-cü, 6-cı, 7-ci, 8-ci, 13-cü, 16-cı,

17-ci, 19-cu, 21-ci və 36-cı maddələr daxil olmaqla, ümumilikdə, 11 maddəyə müvafiq dəyişikliklər edilmişdir. Müvafiq dəyişikliklərə əsasən Beynəlxalq Əmək Təşkilatının Baş Konfransı tərəfindən təşkilata üzv olmaq istəyən dövlətlərin qəbul edilməsi məsələsi dəqiqləşdirilmiş, Beynəlxalq Əmək Ofisinin idarə heyətinin yerlərinin sayı 56-dan 112-yə çatdırılmışdır. Belə ki, idarə heyətində 112 yerdən 56-sı hökumətləri təmsil edən şəxslər üçün, 28-si işə götürənləri təmsil edən şəxslər üçün, digər 28-si isə işçiləri təmsil edən şəxslər üçün nəzərdə tutulmuşdur. Həmçinin hökumətlərin nümayəndələri üçün müəyyən edilmiş 56 yerdən 64-ü Afrika, Amerika, Asiya və Avropa coğrafi regionları arasında bölüşdürülmüşdür. Qalan 2 yerin hər birinin növbə ilə bir tərəfdən, Afrika və Amerikaya, digər tərəfdən, Asiya və Avropaya ayrılmasında əsas məqsəd regionlar üzrə protokolla və yaxud başqa heç bir yerdə nəzərdə tutulmayan üzv dövlətlərin seçki prosesində ayrı-seçkiliyə yol vermədən iştirakının təmin edilməsi imkanı yaratmışdır.

Yuxarıda qeyd olunan dəyişikliklərlə yanaşı, sənəddə idarə heyəti tərəfindən təyin edilməsi nəzərdə tutulan Beynəlxalq Əmək Ofisinin baş direktorunun təyinatının təsdiqi üçün Beynəlxalq Əmək Konfransına təqdim edilməsi məsələsi, baş direktorun məsuliyyət məsələsi, Nizamnaməyə edilməsi nəzərdə tutulan dəyişikliklərin üzv dövlətlər tərəfindən ratifikasiya edilməsi və ya qəbul edilməsi qaydası ilə bağlı və sair dəyişikliklər nəzərdə tutulmuşdur.

Hörmətli həmkarlarım, bu qanun layihəsi komitəmizdə müzakirə olunmuşdur və yekdilliklə qəbul olunmuşdur. Sizdən xahiş edirəm, səs verəsiniz.

**Sədrlik edən.** Məlahət xanım, çox sağ olun. Səməd müəllim, bu məsələyə də sizin komitənizdə baxılıb. Buyurun, komitənin rəyini bildirin.

**S.Seyidov.** Çox sağ olun, hörmətli xanım sədr. Bu sazişdə də eyni məntiqdir. Heç bir dəyişikliklər etmirik. Beynəlxalq sazişə, sadəcə, beynəlxalq səviyyədə dəyişiklik həyata keçirilib. Bu dəyişiklikləri bu gün parlamentimizdə təsdiq edirik. Təbii, komitəmizdə bu məsələyə baxılıb. Yekdilliklə də bu sazişin qəbul olunması tövsiyə edilib. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi. Saat 3-ə qədər fasilədir.

### *(FASİLƏDƏN SONRA)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, iclasımıza davam edirik. Bizim 7 məsələmiz qalır. Bu məsələlər hamısı birinci oxunuşda olan qanun layihələridir. Odur ki, hörmətli həmkarlar, xahiş edirəm, müzakirələr zamanı birinci oxunuşun tələblərini nəzərə alasınız.

Biz indi gündəliyin 12-ci məsələsinə keçirik. Bu məsələ

Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, məsələnin müzakirəsi ilə əlaqədar dəvət olunan şəxslər var. Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini hörmətli Elnur Əliyev, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi hörmətli Məmməd Abbasbəyli və rəis müavini hörmətli Cəfər Babayev bizim iclasımızda iştirak edirlər. Deyəsən, mən hamının adını çəkdim. Mən qonaqlarımızı salamlayıram.

Hörmətli həmkarlar, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, artıq buradasınız. Buyurun, söz Sizindir.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən Milli Məclisə daxil olmuş Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında qanun layihəsini birinci oxunuş üçün təqdim edirəm. Öncə vurğulamaq istərdim ki, bazar iqtisadiyyatı özəl mülkiyyət, sərbəst mübadilə və rəqabət prinsiplərinə əsaslanaraq fəaliyyət göstərir. Bu prinsiplərdən hər hansı birinin zəif olması ümumi iqtisadi inkişafa ciddi təsir göstərir. Rəqabət bazar iqtisadiyyatının əsas hərəkətverici qüvvəsidir, yəni mühərrikidir. Məhz o, müasir texnologiyaların tətbiqi ilə yeni və daha ucuz məhsulların istehsalını və bazara çıxışını stimullaşdırır. Rəqabət həm də iqtisadi sistemin səmərəliliyinin artmasına səbəb olur, qeyri-səmərəli sahibkarların bazarı tərk etməsinə, istehlakçıların seçim imkanlarının genişlənməsinə gətirib çıxarır.

Rəqabət, hörmətli həmkarlar, həm də bir yarışdır. Amma eyni zamanda, qeyd etməliyəm ki, bu yarış heç də hər zaman uğurlu nəticələrə gətirib çıxarmır. Rəqabət bazarda monopoliyanın və ya oliqopoliyanın yaranmasına gətirib çıxarır. Onlar isə öz növbəsində ya qiymətin artmasına, ya da istehlakçı seçiminin daralmasına gətirib çıxarır. Məhz bu səbəbdən rəqabətin dövlət tənzimlənməsi bazardakı bütün iştirakçıların maraqlarının qorunması baxımından çox vacibdir. Bazar iqtisadiyyatında dövlət azad bazarın əsas oyunçusu olmasa da, mühüm rol oynayır. Dövlətin bu sahədə əsas rolu ədalətin təmin olunması, cəmiyyətin maraqlarının müdafiəsi və bazar iqtisadiyyatının fəaliyyəti üçün əlverişli mühit yaratmaqdır.

Azərbaycanda bazar iqtisadiyyatına keçid Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə başlayan özəlləşdirmə proqramı ilə geniş vüsət almışdır. Bazar iqtisadiyyatının mühüm elementlərindən olan rəqabət və istehlakçı hüquqlarının qorunması məqsədi ilə 1995-ci və 1998-ci illərdə o dövr üçün çox aktual olan "Haqsız rəqabət haqqında" və "İstehlakçı hüquqlarının qorunması" haqqında qanunlar qəbul edilmişdir. Son 10 il ərzində Prezident cənab İlham Əliyevin apardığı islahatlar nəticəsində ölkədə rəqabət mühiti xeyli münbitləşmiş, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyi xeyli yüksəlmişdir. Eyni zamanda, qeyd etməliyəm ki, aparılan islahatlar sahibkar-dövlət münasibətlərində inam və etimadı xeyli yüksəltmiş, sahibkarlıq mühitində şəffaflığı xeyli artırmışdır. Sahibkarlıq sahələrində əsassız yoxlamaların dayandırılması, geniş vergi güzəştlərinin verilməsi, sahibkarlığa dövlət dəstəyi haqqında Prezident fərmanları, özəl sektorun vergi ödəmələrində payının artması, gömrük prosedurlarında qanunun aliliyi prinsiplərinin qorunması əlverişli mühiti daha da münbit etmişdir.

Hazırda ümumi daxili məhsulda özəl sektorun payı 83 faizdən çoxdur. Son 5 ildə özəl sektorda çalışanların sayının artımı dövlət sektorunda çalışanların sayının artımını 10 dəfə üstələmişdir.

Qeyd etmək istərdim ki, 2024-cü il yanvarın 1-də qüvvəyə minəcək "Dövlət satınalmaları haqqında" Qanun, hazırda komitədə müzakirədə olan "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanun Rəqabət Məcəlləsinin daha səmərəli icrası üçün dəstək olacaqdır.

Hörmətli həmkarlar, məcəllə 12 fəsil, 84 maddədən ibarətdir. Rəqabət Məcəlləsinin qəbulu inhisara qarşı mübarizə, qiymətlərin optimallaşdırılması və bir sıra məhsullar üzrə qiymətlərin azadılmasına xidmət etməsi baxımından əhəmiyyətlidir.

Layihə ilə qanunvericilikdə bir sıra mühüm yeniliklərin əsası qoyulmuşdur. Belə ki, beynəlxalq təcrübədə nəzəri doktrinalara və tənzimlənən yeni çağırışlara uyğunlaşmaq məqsədi ilə layihəyə nou-hau, vacib əhəmiyyətli resurs, müvafiq bazar, rəqabət aparmamaq öhdəliyi, eksklüziv və selektiv təchizat sistemləri, uyğunlaşdırılmış hərəkətlər, şaquli və üfüqi sazişlər, bazar payının 50 faizini keçən hökmran mövqe, yüksək və aşağı inhisar qiymətləri, rəqabət komissiyası, rəqabət orqanı və sair kimi anlayışlar daxil edilmişdir.

Sənəddə rəqabət sahəsində bazar subyektlərinin vəzifələri və hüquqları, rəqabəti məhdudlaşdıran sazişlər, haqsız rəqabət, rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti tədbirləri, rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyət, sanksiyalar və digər məsələlər yer almışdır.

Layihə hazırda mövcud olan aşağıdakı problemlərin həllini vəd edir: müvafiq bazarın və subyektlərin bazar paylarının müəyyən edilməsi; sazişlərin yalnız formal

əsaslarla qiymətləndirilməsi və qiymətləndirmə meyarlarının bazarın tələblərindən geridə qalması; təmərküzləşmələrə dair mövcud alətlərin dövrün iqtisadi tələblərinə əsasən tənzimləməyə imkan verməməsi; hökmran mövqe tutan bazar subyektlərinin payının və bu mövqedən sui-istifadə hallarının müasir bazar münasibətlərinin tələblərinə cavab verməməsi; nəhayət, məsuliyyət tədbirlərinin mövcud iqtisadi vəziyyətə uyğun olmaması.

Layihənin qəbulu məhz bu sadaladığım problemlərin həlli üçün yeni mexanizmlər yaradacaqdır. Layihənin qüvvəyə minməsi nəticəsində iqtisadiyyatın inkişafında özəl sektorun mühüm rolu getdikcə artaraq azad və sağlam rəqabət mühitinin yaranmasını təmin edəcək; ölkənin sürətli iqtisadi inkişafına dəlalət edən və müasir çağırışlara cavab verən bazar münasibətlərinin inkişafına və qorunmasına şərait yaradacaq; inhisarçılığa, kartel sövdələşmələrinə və qiymət manipulyasiyalarına qarşı səmərəli mübarizə aparılmasına imkan yaranacaq.

Rəqabət Məcəlləsinin qəbul edilməsi ilə 3 qanunun – "Haqsız rəqabət haqqında", "Antiinhisar fəaliyyəti haqqında" və "Təbii inhisarlar haqqında" qanunların ləğv edilməsi təklif olunur.

Hörmətli xanım sədr, Sizin təşəbbüsünüzlə Rəqabət məcəlləsinin Milli Məclisdə geniş ictimai müzakirəsi təşkil olunmuşdur. Sentyabrın 11-də Milli Məclisin saytında ictimai rəy üçün yerləşdirilən məcəllənin layihəsinin ictimai müzakirəsi sentyabrın 26-da baş tutmuşdur. İctimai müzakirədə İqtisadiyyat Nazirliyinin və müvafiq agentliyin nümayəndələri, sahibkarlar assosiasiyalarının, ticarət palatalarının, Elmlər Akademiyasının, universitetlərin nümayəndələri, ekspertlər iştirak edərək fikir və mülahizələrini bildirmişlər. Tərəfimizdən iclasda iştirak

edən bütün hər kəsə çıxış və fikir üçün imkan yaradılmışdır. Daha sonra keçirilən komitə iclasında bu dinləmədə səslənən fikir və təkliflər geniş müzakirə edilmişdir.

Yekun olaraq qeyd edim, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi hesab edir ki, müzakirə üçün təqdim edilmiş Rəqabət Məcəlləsi layihəsi ölkənin sürətli iqtisadi inkişafına cavab vermək, inhisarçılığa və xüsusən kartel sövdələşmələrinə qarşı mübarizənin qanuni əsaslarını və prosessual normalarını müəyyən etmək, azad və sağlam rəqabətə təkan vermək, iqtisadiyyatın inhisarlaşdırılmasını və rəqabətin stimullaşdırılmasını təmin etmək məqsədi ilə beynəlxalq standartları və digər ölkələri təhlil edərək hazırlanmışdır. Layihə müasir çağırışlara cavab vermək potensialına malikdir.

Ölkəmizdə yaranan iqtisadi etimad və şəffaflıq məcəllənin uğurla icra olunması üçün müvafiq mühit yaratmaqdadır. Rəqabət Məcəlləsinin Milli Məclisin plenar iclasında birinci oxunuşda qəbulu məqbul hesab edirik. Həmkarlarımdan layihəni birinci oxunuşda dəstəkləmələrini xahiş edirəm. Diqqətinizə görə minnətdaram, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Biz müzakirələrə keçirik. Vüqar Bayramov. Vüqar müəllim, sualınız, təklifiniz? Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, mən təklif edərdim ki, çıxışlar 5 dəqiqəyə qədər azaldılsın.

**Sədrlik edən.** Bununla hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 5 dəqiqəyə keçək. Siyavuş müəllim, Sizin sualınız? Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Tahir müəllim ətraflı şəkildə məlumat verdi. Həm din-

ləmələrdə, həm də komitə iclasında komitə üzvləri geniş şəkildə çıxış ediblər. Əgər mümkündürsə, şərait yaratsınlar, digərləri öz sözünü desin. Kimsə əleyhinə olarsa, dəstək verərlər. Əgər dəstəkləyiblərsə, qol çəkib bura göndəriblərsə, demək, təsdiq ediblər və iki dəfə də çıxış ediblər. Digərləri öz sözünü desinlər, sonra baxarıq.

**Sədrlik edən.** Təklifiniz nədir? Yəni ümumiyyətlə, müzakirə etməyək, səs verək? Xeyr, gəlin, belə edək. Siyahı var, yazılanlar var. Biz çıxışlara indi qulaq asaq. Kim çıxış edər, baxaq. Görək, sonra təklif necə olacaq. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, Rəqabət Məcəlləsinin müzakirəyə çıxarılmasını alqışlayıram və səs verəcəyəm. İki məsələyə öz münasibətimi və narahatlığımı bildirmək istəyirəm. Birinci növbədə, əhalimizin gözləntisi ondan ibarətdir ki, Rəqabət Məcəlləsinin qəbul edilməsindən sonra bazarlarda ucuzlaşma olacaqmı? Azərbaycan bazarında başqa idxalçılara maneçilik törədib müəyyən məhsulları ölkəmizə idxal edən vəzifəli şəxslər və onların himayə etdiyi sahibkarlar vardır. Bu məsələ indi, demək olar ki, aradan qaldırılıb. Vergi və gömrükdə xeyli şəffaflıq yaranıb və idxalçılara münasibət müsbətə doğru da dəyişib. Bu baxımdan Rəqabət Məcəlləsinin idxal olunan mallar üzrə ucuzluq yaradacağını zənn etmirəm və vətəndaşlarımız da boşuna ümidlənməsinlər. Yanlışım varsa, istərdim ki, bu barədə izahat verilsin. Ucuzluq necə yaranacaq, bunu sadə izahla bilmək istərdim.

İkinci məsələ. Təbii inhisarla bağlıdır. Bu gün SOCAR və onun tərkibinə daxil olan "Azəriqaz" + "Azərişıq" + "Azərenerji", + "AZAL" – hamısı təbii inhisarlardır. Bu təbii inhisarçıları dövlət tənzimləyir, bazarda da digər

oyunçular yoxdur. Bu məcəllə onlara necə təsir edəcək, anlaşılan deyil. Gözəl sözlər, bəlağətli cümlələr yazıla bilər, amma real həyatda onlar əksini tapmır. Bu baxımdan hansı addımlar atılacaq?

İkinci, üçüncü hava şirkətlərimiz olacaqmı ki, "AZAL" ilə rəqabət apara bilsinlər? Yaxud yuxarıda adını çəkdiyim şirkətlərdən başqa şirkətlər də olacaqmı, onlar aralarında rəqabət aparsın ki, Rəqabət Məcəlləsi də onları tənzimləsin. Hər halda bu məqamlar qanunda qeyd olunarsa, o zaman rəqabətə girə biləcək şirkətlərin ortaya çıxması üçün əsaslar yaranar və sərmayə qoymaq istəyənlərin stimul və motivasiyası da əmələ gələr. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Çox hörmətli Sahibə xanım, hörmətli qonaqlar, hörmətli deputatlar. Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi ilə bağlı Milli Məclisdə olduqca maraqlı dinləmə keçirildi. Dinləmədə ictimai sektorun tanıdığımız əsas nümayəndələrinin iştirak etməməsi müəyyən narahatlıq doğurdu. Yəqin, qanun qəbul olunandan sonra fikirlərini mətbuatda bildirəcəklər. Həmin dinləmələrdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli bu qanunun fəlsəfəsinin nədən ibarət olduğunu açıqlamağa çalışdı. Bu, vacib məsələdir. Həqiqətdə bu fəlsəfə nədən ibarətdir?

Qanunun tətbiq sahəsi, leqal metodlar, iqtisadiyyatda pozitiv tənzimləmələrlə yanaşı, kölgə iqtisadiyyatı da var ki, alternativ rəqabət mühiti yaradır, bazar mexanizmlərinin səmərəsini aşağı salır, təsərrüfatı dağıdır, bazarda təhrif olunmuş konyunktur situasiya yaradır.

Ölkə Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə bağlı keçirilən

konfransda bu barədə maraqlı fikir səsləndirdi: “Kölgə iqtisadiyyatı Azərbaycanda dözülməz dərəcəyə gəlib çıxmışdır. Sahibkarla məmur arasında sövdələşmə pozulmalıdır”. Bundan böyük xəbərdarlıq ola bilərmi?

Kölgə iqtisadiyyatının ayrılmaz elementi kimi kölgə submədəniyyəti çıxış edir. Mən bunu dinləmədə də qeyd etmişdim. Bunun çərçivəsində kölgə rəqabəti yaranır, kölgə auditi fəaliyyət göstərir, səmərəli kölgə ədliyyəsi çalışmağa başlayır. Məsələn, təhsildə kök atmış kölgə təhsili, repetitorluq da artıq orta məktəblərdə ənənəvi təhsili üstələyib. Əvvəllər 10-11-ci siniflər üçün narahatlıq keçirirdik. İndi bu üzdəniraq hərəkat bütün sinifləri ağuşuna alıb. Məktəbdə davamiyyət rəmzi məna kəsb etməkdədir. Bəs kimdir günahkar? Nədir səbəb? İndi dərs zamanı, hətta şənbə-bazar günləri də parklarda, küçələrdə belində çanta repetitor yanına tələsən uşaqlar, məktəblərin dörd bir yanında mənzil kirayələyib dərs verən müəllimlər, hər şeydən, hər kəsdən narazı valideynlər məktəb həyatının reallığıdır. Dərd ondadır ki, məktəb icmasını təşkil edən bu insanlar göstərilən məsələlərin müzakirəsinə hazır deyillər. Qanun bunu aradan qaldıra biləcəkmi?

İqtisadi azadlıqda məhdudiyyətlər bazarın daxili nizamını pozur. İqtisadçılar mövcud bazar növlərini bilirlər: mütləq azad olan bazar, rəqabətdə natamam olan bazar, abstrakt azad rəqabət və təmiz monopoliya. Bunların hansının bizə aidiyyəti var? İqtisadçılar desinlər. Məncə, bizdə abstrakt azad rəqabətlə təmiz monopoliyanın qarışığıdır.

Dinləmə zamanı mən rəqabət sahəsində böyük alim Maykl Porterə istinad edərək rəqabətin vəziyyəti və intensivliyinin 5 faktorunu dedim. İqtisadi sahələrin iştirakçıları arasında rəqabət, sahələrə yeni rəqiblərin gəlişi ilə yaranan təhlükə, mal-əmtəə əvəzediciləri tərəflərinin rəqa-

bəti, tədarükçülər tərəfindən rəqabət təzyiqləri, tələbatçılar tərəfindən rəqabət təzyiqləri.

Düşünürəm ki, qanun layihəsinin müzakirəsi dövründə universal təhlükələr və risklər də təhlil olunmalıdır.

Yeri gəlmişkən, rast gəldiyimiz bir məsələni də deyim. Nizamnamə kapitalı 10 manat olan yeni yaradılmış şirkətlərə milyonlarca manat tender verilir. Bu, rəqabət mühitinə amansız zərbə vurur və digər təşkilatlar, əlbəttə ki, bu tenderdə iştirakdan çəkinirlər. Xidmətin rəisi belə məsələlərə aydınlıq gətirməlidir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində yazılır: "Ali təhsil müəssisələrinin təhsil-tədqiqat innovasiya mərkəzlərinə çevrilməsinə dəstək verən və rəqabət qabiliyyətli mütəxəssis hazırlığını təmin edən ali təhsil standartları tətbiq olunmalıdır".

1992-ci ildə özəl ali məktəblər yaradılanda biz elə düşünürdük ki, onlar dövlət ali məktəbləri ilə rəqabətdə önə çıxacaqlar. Lakin bu baş vermədi. Hər ikisi zəiflədi və məşhur reytinqlərdə çox aşağı pillələrdə yer aldılar. Əgər ali təhsildə rəqabət mühiti formalaşmadısa, digər sahələrdə, mən düşünürəm ki, bu, daha çox çətinliklər yarada bilər.

Azərbaycanda tibb təhsili Tibb Universitetində və Naxçıvan Dövlət Universitetində verilir. Bunlar necə rəqabət apara bilərlər? Harada rəqabət yoxdursa, orada geriləmə var. Təklif edirəm ki, ali təhsil müəssisələrinin rəqabət münasibətlərinin tənzimlənməsinə ayrıca bir fəsil ayrılsın.

"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda rəqabət sayının 75 minə qaldırılması nəzərdə tutulub. Bu, kəmiyyət dəyişik-

liyidir. Tələbələr hansı ali məktəblərə yönləndiriləcək? Reytinqlərdə yüksək mövqe tutan ali məktəblərə xüsusi dəstək müəyyənləşdirilməlidir. Öndə olan universitetlərə süni üstünlük verən tədbirlərə isə...

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov.** Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri. Bəzi həmkarlarım Rəqabət Məcəlləsinin müzakirəsindən çox narahatdırlar. Narahat olmasınlar. Biz bu məcəlləni tənqid edən deyilik. Çünki biz bu məcəlləni 15 ilə yaxın gözləmişik ki, Milli Məclisə daxil olsun. Məcəllənin Milli Məclisə daxil olmasına görə Azərbaycan dövlətinin başçısı cənab İlham Əliyevə, həmçinin iqtisadi inkişaf naziri cənab Mikayıl Cabbarova öz dərin minnətdarlığımı bildirirəm. O cümlədən, Sizə, Sahibə xanım, ictimai dinləməni təşkil etdiyinizə görə öz dərin minnətdarlığımı bildirirəm. Çünki ictimai dinləmələrdə qeyri-hökumət təşkilatları, partiya sədrləri kifayət qədər öz mövqelərini bildirdilər. Faktiki olaraq hamısı bu məcəlləni müsbət qarşıladı və öz çıxışlarında bunun qəbul olunmasını qeyd etdilər.

Rəqabət Məcəlləsi, ümumiyyətlə, 3 qanun əsasında – “Antiinhisar fəaliyyəti haqqında”, “Haqsız rəqabət haqqında” və “Təbii inhisar haqqında” qanunlar əsasında məcmu şəkildə hazırlanmış vahid bir sənəddir. Rəqabət Məcəlləsinin qəbul edilməsi ölkə iqtisadiyyatının inkişafı, biznes mühitinin əhəmiyyətli dərəcədə artırılması, azad sahibkarlığın təşviqi baxımından vacib əhəmiyyət kəsb etməklə ölkədə sahibkarların sağlam rəqabət şəraitində fəaliyyətinin hüquqi əsaslarını müəyyən edən bir sənəddir. Sənəd hazırlanarkən, – burada qeyd olundu, – müəyyən dövlətlərin təcrübələrindən, o cümlədən Türkiyə, Amerika, Avropa dövlətlərinin və bir sıra dövlətlərin təcrübə-

lərindən istifadə edilib. Məcəllədə kifayət qədər yenilik vardır, bu yeniliklərdən əsasını təbii inhisar sahələrinə nəzarət alətlərinin təkmilləşdirilməsi, onların fəaliyyətinə şəffaf və çevik nəzarəti təmin edən maddələrin əks etdirilməsidir. Bununla yanaşı, bazar paylarının müəyyənləşdirilməsinin yeni qaydaları, habelə hökmran mövqelərin yeni meyarları bu məcəllədə öz əksini tapmışdır.

Sənəddə rəqabətin əhəmiyyətli dərəcədə məhdudlaşdırılması halları ilə rəqabəti məhdudlaşdıran müqavilələrə dair tələblər, təmərküzləşmə prosesləri və sair öz əksini tapmışdır. Məcəllə əsas etibarı ilə kiçik, orta sahibkar biznes subyektlərinin bazara girişinin və bazarda inkişafının qarşısını alan maneələrin aradan qaldırılmasına xidmət edən bir sənəddir.

Məcəllənin 15-ci maddəsinə görə, konkret olaraq bazarda hökmran mövqeyi olan təsərrüfat subyektlərinin 50 faizdən daha çox bazar payı ola bilməz. Əks halda o hökmran mövqe yeni inhisarçı hesab edilir. Orada digər məsələlər də var.

İkincisi. Burada bizi, vətəndaşları ən çox narahat edən məsələlərdən biri mağaza-ticarət şəbəkələri tərəfindən bazar qiymətlərinin qoyulmasıdır. Hazırda istehlakçıların ən çox gileyləndiyi məsələ də məhz süni qiymət artımlarıdır.

Məcəllənin 17-ci maddəsində aşağı və yüksək inhisar qiymətləri, qiymətin aşağı və ya yüksək inhisar qiyməti meyarları müəyyənləşib. Belə ki, ticarət müəssisəsi satdığı məhsulun qiymətini gömrük rüsumları, vergi və digər tariflər nəzərə alındıqdan sonra müəyyən edilmiş gəlirlik marjasından yuxarı təyin edə bilməz. Əks halda müəyyən cərimələrə məruz qala bilər. Rəqabət Məcəlləsi qəbul edildikdən sonra qanun pozuntuları ilə bağlı tətbiq edilən

maliyyə sanksiyaları və cərimələr daha da ciddi xarakter daşıyacaqdır.

Yeni formalaşacaq struktur, yəni rəqabət komissiyası ilə əlaqədar, ümumiyyətlə, rəqabət orqanı ilə əlaqədar biz həm ictimai dinləmələrdə, həm də komitənin iclasında öz fikirlərimizi bildirmişik. Yəqin ki, ikinci oxunuşda bu məsələyə bir daha toxunacağıq. Yəni bu komissiyanın yaradılması, komissiya üzvlərinin kimlər tərəfindən təyin edilməsi, rəqabət orqanının kimə tabeçiliyi, struktur dəyişikliyi və sair, bu məsələlər məcəllədə daha çox öz əksini tapmalıdır. Bizi ən çox narahat edən məsələ – Rəqabət Məcəlləsinin məqsəd və vəzifələrini ayrıca bölüm şəklində əks etdirməyə çox böyük ehtiyac var. Mən belə hesab edirəm ki, bu məcəllənin qəbul edilməsi bazarda azad rəqabətin təmin olunmasına, xüsusilə bayaq qeyd etdiyim, kiçik və orta sahibkarlığın inkişafına öz müsbət təsirini göstərəcəkdir. Təklif edirəm ki, birinci oxunuşda qəbul edilsin. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri! Mən də çox qısa, birinci oxunuşun tələblərinə uyğun olaraq, bir sıra konseptual məsələləri diqqətə çatdırmaq istərdim. Əvvəla, Rəqabət Məcəlləsinin hazırlanması və müzakirəsi möhtərəm Prezidentin rəhbərliyi ilə aparılan islahatların dərinləşməsinə xidmət edəcək. Artıq uzun müddət idi ki, belə bir sənədin hazırlanması ilə bağlı müzakirələr gedirdi. Konseptual olaraq nələri təklif edərdim? Təklif edərdim ki, layihəyə hökmran mövqe ilə yanaşı, "mütləq hökmran mövqe" anlayışı da daxil edilsin. Nəzərə alaq ki, hökmran mövqe 50 faiz müəyyənləşib. Təbii ki, 50 faizə baxılması və Avropa İttifaqı, eləcə də bir sıra qonşu ölkələrdə olduğu

kimi, onun 40 faizə endirilməsi daha məqsədəuyğun olardı. Hökmran mövqe, xüsusən də rəqabətin müdafiəsi baxımından vacib şərtlərdən biridir.

Rəqabət komissiyasının statusunun daha müfəssəl və daha sistemli şəkildə müəyyənləşdirilməsinə və layihədə əks olunmasına ehtiyac var. Rəqabət orqanının hesabatlılığı ilə bağlı prinsiplərin artırılması və buna ayrıca baxışın təqdim edilməsi olduqca vacibdir. Mən Rəqabət Məcəlləsi ilə bağlı fikirlərimi ikinci oxunuşun tələblərinə uyğun olaraq, maddələr üzrə təqdim edəcəyəm. Ona görə, sadəcə, konseptual məsələləri təqdim etmək istədim. Çox təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Aydın Hüseynov. Buyurun.

**A.Hüseynov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri! Həmkarlarımın da qeyd etdiyi kimi, müzakirə etdiyimiz qanun layihəsini Azərbaycanın iqtisadi həyatında yeni bir sahə, yeni bir mərhələ kimi qiymətləndirmək olar. Qanunun başlıca mahiyyəti nədir? İqtisadi fəaliyyətin azad və sağlam rəqabət şəraitində həyata keçirilməsinin təmin edilməsi və rəqabət sahəsində bazar subyektlərinin vəzifələri və hüquqları. Bu fəlsəfə üzərində qurulan qanun layihəsi, mən hesab edirəm ki, çox mükəmməl bir qanun layihəsidir.

Biz komitə iclasında çox geniş müzakirə apardıq və orada müxtəlif fikirlər səsləndirildi. Nəhayət, biz qeyd edə bilərik ki, qəbul olunan qanun

layihəsi öz müsbət töhfəsini verəcək. Mən bir məsələyə yenə toxunmaq istərdim. Bəzən də Rəqabət Məcəlləsi ilə bağlı qanun layihəsinin uzun müddət müzakirə olunub, lakin niyə indi qəbul olunması ilə bağlı fikirlər səslənir.

Burada da bayaq dedik, azad və sağlam rəqabət şəraitinin yaradılması. Yəni indiyə qədər bu Rəqabət Məcəlləsinin tətbiq olunması üçün azad bir münbit şərait yaradılmalı idi. Vergi qanunvericiliyində olan dəyişikliklər, yeniliklər, gömrük sahəsindəki yumşalmalar, korrupsiya limitlərinin aradan qaldırılması, kölgə iqtisadiyyatı ilə mübarizə – bunları qeyd etdik. Eyni zamanda, yeni düşüncə tərzində olan kadr potensialı, kadr islahatları. Bütün bunlar kompleks şəklində həll olunduqdan sonra bu qanunun tətbiq sahəsi daha münbit bir şəkildə özünü təzahür etdirir. Ona görə də mən hesab edirəm ki, elə qanun layihəsi vaxtında təqdim olunur və öz səmərəsini də verəcək.

Qeyd etmək istədiyim digər məsələ. Biz iqtisadi sferanı əhatə edən qanun layihələrini müzakirə edərkən digər ölkələrin təcrübələrinə tez-tez istinad edirik. Əlbəttə, hər bir fikir, mən hesab edirəm ki, qanunumuzun mükəmməl şəkildə həyata keçməsini təmin etmək üçün səslənir. Ancaq biz onu da qeyd etməliyik ki, Azərbaycanın özünün iqtisadi modeli formalaşıbdır. Biz hər hansı bir ölkənin qanunvericiliyini öz iqtisadi sferamıza birbaşa tətbiq edə bilmərik. Çünki iqtisadiyyat elə bir kateqoriyadır ki, onun laboratoriyası yoxdur. Nə mənada? Kolbada o təcrübəni aparasan və sabahı günü bir reaksiya vermədisə, başqa bir istiqamət götürəsən. Əgər iqtisadiyyatın hər bir qanunu tətbiq olunursa, onun fəsadları varsa, bu, uzun müddət çəkir. Ona görə də fikrimi daha sadə bir məntiq üzərində qurmaq istəyirəm. Biz hər hansı bir ölkənin qanunvericiliyini nəzərdə tutarkən birinci növbədə nəzərə almalıyıq ki, hər bir qanunun iqtisadi tərəfləri ilə yanaşı, ideoloji tərəfləri də var. Yəni biz öz iqtisadiyyatımızın formalaşmasını, eləcə də Azərbaycanın iqtisadi modelinin mükəmməl bir model olmasını dəfələrlə dilə gətirməliyik.

Əgər digər ölkələrdəki təcrübə bütün kateqoriyalara uyğun gələrsə, onu tətbiq etmək olar. Bu baxımdan bu qanunda başqa təzahürlərin də nə dərəcədə baş verəcəyini öyrənmək üçün qanunu təqdim edən iqtisadiyyat nazirliyinin səlahiyyətli şəxslərinə müraciət etmək istərdim. Hansı sualla? Biz bu qanunu qəbul etdikdən sonra bizim əmək bazarımıza necə təsir edəcək? Biz bazardakı böyük rəqabətə davamlı, yaxud bazarda daha çox payı olan subyektlərlə bağlı hər hansı bir addım atdıqda bu, iş yerlərinin azalmasına, ya məşğulluğun hansı formada təmin olunmasına öz təsirini göstərəcək. Mən hesab edirəm ki, biz bu istiqamətdə də hər hansı bir arqument ortaya qoysaq... Qanunumuz daha mükəmməldir, dəstəkləyirəm və səs verirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Buyurun.

**Ə.Məsimli**. Çox sağ olun, hörmətli sədr. Rəqabət Məcəlləsinə dair indiyədək deyilən və bundan sonra da deyiləcək bütün müsbət məqamları dəstəkləyirəm. Bu məcəllənin Milli Məclisə daxil olmasını çox mühüm bir hadisə hesab edirəm. Bu işdə Siz başda olmaqla əməyi olan bütün insanlara təşəkkürümü bildirirəm. Ona görə ki, yüksək səviyyədə bir dinləmə keçirildi və o dinləmə bu məcəlləni təkmilləşdirmək, kifayət qədər fikirləşmək üçün zəngin material verdi. Ona görə də mən bu məcəllənin optimal müddətdə təkmil variantda qəbul edilməsinin tərəfdarıyam və hesab edirəm ki, bu variantda da olacaq. Çünki məcəllədən ictimai gözləntilər həddindən artıq böyükdür. İctimai gözləntiləri doğrultmaqdan ötrü bir sıra məqamlara birmənalı aydınlıq gətirilməsi çox vacibdir.

Aydınlıq gətirilməsi vacib olan məsələlərdən biri kimi bilavasitə rəqabət orqanının statusunun kifayət qədər yüksək olması, eyni zamanda, rəqabət komissiyasının ki-

fayət qədər müstəqil olması ilə bağlı müddəaların çox mükəmməl şəkildə yenidən işlənilməsini vacib hesab edirəm.

İkinci. Bazarda hökmran mövqe məsələsi prinsipial əhəmiyyət kəsb edir. Əvvəlki 3 qanunda və İqtisadiyyat Nazirliyinin müvafiq qurumunun təqdim etdiyi variantda hökmran mövqe 35 faiz idi, burada 50 faiz olub. Komitənin iclasında mən bu məsələni qaldırdım. Cavab qane etmir. Mən hesab edirəm ki, bunun cavabı yoxdur. 35 faiz variantını götürmək çox vacibdir. Sanksiyalara birmənalı fikir yoxdur. Hesab edirəm ki, sanksiyalar sərt və ədalətli olmalıdır.

Burada dinləmə zamanı qaldırılan, bundan sonra qaldırılacaq bütün məsələləri ümumiləşdirəndə bir sual əmələ gəlir: Rəqabət Məcəlləsi işləyəcəkmi? Rəqabət Məcəlləsi rəqabəti təmin edəcəkmi? Bu suala geniş, hərtərəfli əsaslandırılmış cavab vermək olar. Amma başqa bir gözləntini də qeyd edəndən sonra həmin sualın cavabını qeyd edəcəyəm.

İkinci böyük gözlənti – Rəqabət Məcəlləsinin qəbulu qiymətlərin optimallaşmasına və bir sıra hallarda qiymətlərin aşağı düşməsinə gətirib çıxaracaqmı? Buna bir misal çəkim. Məsələn, dünyanın 1 nömrəli dövləti olan Amerika Birləşmiş Ştatlarının keçən əsrdə qiymətlərin aşağı salınması istiqamətində apardığı tədqiqatlar zamanı aşkar olundu ki, keçən əsrin 50-60-cı illərində qiymət artımının dörddə üç hissəsi inhisarçıların qiyməti süni surətdə qaldırması ilə bağlıdır. Amma bizdə hamısını deyirik ki, idxal əsasdır. Ona görə də aidiyyəti orqanlar mütləq araşdırmalıdır ki, məhz keçən əsrin 50-60-cı illərində bir nömrəli dövlətin araşdırmalarından çıxan əsas səbəbkar inhisarçıdır və inhisarçının payı nə qədərdir?

Həmin ümumiləşdirilmiş suala qayıdıram ki, Rəqabət

Məcəlləsinin qəbul edilməsi rəqabəti təmin edəcəkmi? Buna çoxvariantlı cavablar vermək olar. 2019-cu ilin oktyabrında Azərbaycan Prezidenti Mikayıl Cabbarovu iqtisadiyyat naziri təyin edən zaman bugünkü Rəqabət Məcəlləsi ilə bağlı, onun reallaşma mexanizmi ilə bağlı çox maraqlı fikirlər söyləyib. Hesab edirəm, o sənəd qaldırılmalı və bu sənədi hazırlayanlar reallaşma mexanizmi işlənən zaman ona diqqət etməli və baxmalıdırlar ki, orada nə deyilir.

Haqsız rəqabət. Bu da bizim üçün böyük bir təhlükə yaradır. Buna təkan verən biznes maraqları olan dövlət məmurlarıdır. Onlar öz imkanlarından istifadə edərək rəqibləri sıradan çıxarırlar, bəzi hallarda şərləyirlər. Elə şərait yaradırlar ki, onlar məcbur olaraq ya bizneslərini satırlar, ya da çıxıb gedirlər. Buna yol vermək olmaz. Reallaşma mexanizmi... Azərbaycan Prezidentinin bu dediyi fikri əsas götürməklə ki, haqsız rəqabətə yol verilməsi istiqamətində bütün kanallar çəkilsə, bəli, bu məcəllə işləyəcək, bu, qiymətlərin aşağı düşməsinə, iqtisadiyyatın səmərəliliyinin artırılmasına və bütün istiqamətlərdə bizə çox yüksək dividentlər gətirəcək. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Müşfiq Cəfərov. Buyurun.

**M.Cəfərov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, millət vəkilləri, hörmətli qonaqlar və media mənsubları! Rəqabət Məcəlləsi uzun illərdir, arzuedilən və qəbul edilməsi zəruri hesab edilən qanun layihəsidir. Layihənin ərsəyə gəlməsində və hazırlanmasında iştirakı olan İqtisadiyyat

Nazirliyinə və onun rəhbəri cənab Mikayıl Cabbarova və nazirlik yanında Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Xidmətinin rəisi cənab Məmməd Abbas-

bəyliyə və onun komandasına öz təşəkkürümü bildirirəm. Qanun layihəsi beynəlxalq təcrübə, o cümlədən Avropa, MDB dövlətlərinin təcrübələrini öyrənməklə yeni bir yanaşma ortaya qoyub və Milli Məclisin müzakirəsinə verilib. Rəqabət Məcəlləsinin qəbul edilməsi Azərbaycanda rəqabət mühitində və antiinhisar siyasətində rəqabəti və azad sahibkarlığı təşviq etməklə həm istehsalçıların inkişafını, həm də istehlakçıların rifahını, məhsul və xidmətlərin keyfiyyətini təmin edəcək.

Birinci oxunuşun tələblərinə uyğun olaraq, qanun layihəsinin işlək olması, sahibkarlar üçün əlçatan olması, sözün əsl mənasında, sahibkarlar arasında rəqabət mühitinin sağlam və dayanıqlı olması məqsədi ilə bir sıra təkliflər səsləndirmək istərdim. İkinci oxunuşda isə ikinci oxunuşun tələblərinə uyğun olaraq, daha çox qanunun maddələri üzərindən təkliflərimi səsləndirəcəyəm. Bu gün ölkəmizdə rəqabət mühiti yaranmaqdadır. Məhz bu zərurətdən irəli gələrək dövlət qurumu Rəqabət Məcəlləsinin qəbul edilməsi üçün bu cür geniş tərkibli layihəni hazırlayaraq Milli Məclisin müzakirəsinə təqdim edib. Komitə və plenar iclaslardan öncə bu layihənin Milli Məclisdə millət vəkillərinin, o cümlədən iqtisadiyyat nazirinin birinci müavini cənab Elnur Əliyevin, dövlət xidmətinin rəisi cənab Məmməd Abbasbəylinin və bu sahə ilə əlaqəsi olan vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələrinin iştirakı ilə ictimai dinləmə keçirildi. Bu sahədə olan ekspertlər, millət vəkilləri, vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri öz fikir və təkliflərini səsləndirdilər. Qeyd etdiyim kimi, bu layihənin hazırlanmasında beynəlxalq təcrübə öyrənilmişdir. Hesab edirəm ki, biz bu qanun layihəsini qəbul etdikdən sonra qanunun hansı ölkədə daha uğurlu icrası baş tutubsa, o da mütləq öyrənilməlidir.

Uğurlu təcrübələrdən mütləq şəkildə faydalanmağımıza ehtiyac var. Artıq səhv edərək öyrənmək vaxtı deyil. Ortaya ciddi bir iradə qoymalıyıq. Qanunun xatirinə qanun qəbul etməməliyik. Çünki biz qalib ölkəyik və bizim Ali baş Komandanımızın atdığı addımlar məhz xalqın və dövlətin möhkəmlənməsinə hesablanıb. Ölkəni inkişafa aparan sahələrə yüksəlişin iqtisadiyyatın inkişafından keçir. Bunun üçün dövlət başçısının ciddi iradəsi var.

Yerli istehsalı təşviq etmək məqsədi ilə Azərbaycanda fəaliyyət göstərən istehsalçıların Çin və ya digər ölkələrin istehsalçıları ilə rəqabətə dayanıqlı olmaları üçün, düşünürəm ki, dövlət qurumları məhsul və ya avadanlıqların satın alınması və ya sifarişi zamanı yerli istehsal olduğu təqdirdə, o məhsullara önəm verməlidir. Bunu təşviq etmək məqsədi ilə, hətta tender elanında yerli məhsullara əlavə bal və ya xal verərək də göstərmək olar. O cümlədən elə xidmətlər var ki, o işi öz üzərinə götürəcək yerli şirkət mövcud deyil. Bu, daha çox neft, qaz və enerji sahəsindədir. Ancaq bu şirkətlər yaranmalıdır. Bunun üçün isə dövlət qurumları sifariş verərkən xarici şirkətlər qarşısında mütləq subpodratçının yerli şirkət olmasını bildirməli və onların bu sahədə işə cəlb olunmasını və təlimatlanmasını göstərməlidir.

Səsləndirdiyim bu təkliflər, düşünürəm ki, əlçatandır və tender paketinə əlavə edilməsi üçün Nazirlər Kabinetinə aidiyyəti qurum tərəfindən göndərilə bilər. Ümumilikdə, birinci oxunuşun tələblərinə riayət edərək qanun layihəsini dəstəkləyir və lehinə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar, biz illərdir, Rəqabət Məcəlləsinin

qəbul edilməsini burada səsləndirmişik və bunun zərurətini söyləmişik. Bu gün də sevindirici odur ki, nəhayət, Rəqabət Məcəlləsi uzun illərdən sonra müzakirəyə çıxarıldı. Bütövlükdə, bir sıra sahələrin hamısını birləşdirərək əvvəldən qəbul etdiyimiz qanunların da bu məcəllənin içində ehtiva olunması nəticəsində, həmçinin bunun bir sənəd, toplu halda həm sahibkarlar, həm də ümumiyyətlə, ölkənin biznes mühiti üçün faydalı olacağını düşünmək olar. Amma bu Rəqabət Məcəlləsi hansı halda işləyə bilər? Yəni bu qanun layihəsində onun işləmə prinsiplərini müəyyən etməkdə bir qədər çətinlik çəkirik.

Birinci növbədə rəqabət orqanı nəyi yaradır? Rəqabət komissiyasını. Rəqabət komissiyasının yaranması özü mücərrəd bir formadadır. Orqan öz maraqlarına uyğun hansı isə bir komissiya yarada bilər. Bu rəqabət faktını, yaxud da bu subyektlərin hansının isə bazarda rəqabəti gerçəkləşdiyini müəyyən etmək rolunu oynayacaqdı. Elə məsələnin də problemi buradan başlayır. Azərbaycanda, əslində, ayrı-ayrı subyektlər arasında rəqabət yoxdur. Hansı isə bir müəssisənin, hansı isə bir istehsal sahəsinin arxasında duran güclü adamların, məmurların, qeyri-rəsmi inhisarçıların digər sahələri sıxışdırıb fəaliyyətini məhdudlaşdırmasından söhbət gedir.

Bu yaxınlarda dəvət etmişdilər, qəbuluma gəlmişdilər. Sumqayıt yolunun üstündə polietilen torba istehsal edən bir müəssisəyə getdim. Müəssisənin fəaliyyəti bir ildən çoxdur, dayanıbdır. Mən soruşdum ki, axı, bu nədir, böyük müəssisə, 300-ə yaxın işçi... Dedi ki, bizim rəqabətlə bağlı bir problemimiz yoxdur. Bizim problemimiz, bizim rəqibimiz kimdir? Bizim rəqibimiz, məsələn, gömrük orqanıdır. Vergi ilə bağlı problemimiz yoxdur. Əvvəlki illərdən fərqli olaraq qaydaya düşüb. Vergimizi ödəyirik, bun-

dan başqa əlavə heç nə tələb edən yoxdur. Gömrükdə malımız gecikir, ona görə də istehsalımız ləngiməli olur.

Digər tərəfdən, enerji təchizatı. Bu, elə bir müəssisədir ki, xarici avadanlıqlar gətirmişik. Elektrik verilişi, məsələn, üç dəfə dayandısa, artıq həmin günü iş rejimi pozulur və biz artıq o istehsalda geriyə düşürük. Həmin gün üçün də istehsalı dayandırmalı oluruq.

Üçüncü. Qaz təchizatı. Təsəvvür edin, 5 kilometr uzağa qaz sayğacı qoyublar. 5 kilometrdən bu tərəfə boruda hansı isə bir fəsad, hansı isə bir qəza baş verirsə, onun pulunu da sahibkara ödədirlər. Yəni ayda 20-30 min əlavə pul ödəyir. O necə istehsal yaratsın? Onun rəqibi hansı isə bir şəxs deyil ki.

Digər tərəfdən, adam tenderi udub, amma onun tenderini başqasına veriblər. Yəni bu, bir nümunə deyil, belə onlarca nümunə var. Biz Azərbaycanın dirçəlməsini istəyiriksə, gerçək mənada, səmimi şəkildə bu rəqabəti təmin etməliyik. Burada təbii inhisarlarla bağlı xeyli müddəalar var. Təbii inhisar sahəsi bu qədər geniş olan ölkə tapmaq çətindir. Bir çox sahələr, həqiqətən də, özəl sahəyə verilməlidir. Artıq biz, bunu, doğrudan da, bir sıra məsələlərdə... Qanunlarda tez-tez qeyd edirik. Baxın, bələdiyyə mülkiyyətində olan enerji istehsalçıları istisna olmaqla. Bələdiyyə mülkiyyətində enerji var? Ümumiyyətlə, bələdiyyə mülkiyyətində nə saxlanılıb ki? Biz bunu canlandırmalıyıq ki, artıq mərkəzləşmədən bu iqtisadiyyatın canını qurtaraq.

Bu kimi məsələlərdə bir də məsuliyyət məsələsi önəmlidir. Məsuliyyət məsələsini ixtisaslaşmış məhkəmə aparmalıdır. Biz kommersiya məhkəməsi yaratdıq. Bu hakimlərin hazırlıq səviyyəsi, ekspertlərin hazırlıq səviyyəsi yetərli deyil. Bunlar 3-4 müəssisə arasında rəqabətin ki-

min tərəfindən pozulmasını necə müəyyən edəcəklər? İllərlə bu prosesin sürünməsi... Komissiya razılıq olmadan müəyyən elədi, haqsız qərardan şikayət etməli oldu və sabah məhkəmə prosesində bunun çox böyük sıxıntıları yaşanacaq. Ona görə də mən hesab edirəm ki, biz Rəqabət Məcəlləsini qəbul ediriksə, bunu "Məişət zorakılığı haqqında" Qanuna çevirməyək. Yəni hamı biləcək ki, Rəqabət Məcəlləsi var, amma hamı ölkənin reallıqlarını bilib heç yana şikayət etməyəcək, hamı taleyi ilə razılaşacaq. Biz məhz bu məcəllənin ölkə iqtisadiyyatını dirçəltməsi üçün çalışmalıyıq. 1 ildən sonra da deyək ki, bax, bu məcəlləni qəbul etməklə, həqiqətən də, sahibkarlar üzərindən bütün basqılar, haqsız rəqabət götürüldü və bu insanlar, nəhayət, normal istehsal prosesində öz fəaliyyətlərini davam etdirə bildilər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, hörmətli sədr. Mən də həmkarlarım kimi ilk öncə layihəni hazırlayanlara, işçi qrupunun üzvlərinə öz təşəkkürümü bildirirəm. Yenə də həmkarlarım kimi bəyan edirəm ki, bizdə mövcud nöqsanlar qanunların olmaması ilə əlaqəli deyil, qanunların icrası ilə bağlı problemlər var. Bu halda da hakimiyyətin qollarının bir-birinə qarşılıqlı nəzarəti olmalıdır ki, hökumətin üzərində, icra orqanlarının üzərində xalqın seçdiyi millət vəkillərinin, parlamentin həm də bir nəzarət mexanizmi olsun. Bu mexanizmlər də, düşünürəm ki, qanunda öz əksini tapmalıdır.

Ümumiyyətlə, ölkəmiz tarixi bir uğura imza atıb. Biz torpaqlarımızı işğaldan azad etmişik, amma bilirik ki, bizim iqtisadiyyatımız, hökumətin də etiraf etdiyi kimi, neft sənayesindən çox asılıdır. Neftin hasilatı azalır, neftin, qazın qiymətləri, bilirik ki, bazarda çox dəyişkəndir. Buna görə də qeyri-neft sektorunu inkişaf etdirməliyik. Bunun

üçün də ölkədə mütləq ciddi rəqabət mühiti olmalıdır.

Bundan sonra Energetika haqqında Qanunu da müzakirə edəcəyik. Orada da qeyd olunur ki, hakimiyyətin əsas vəzifələrindən biri sağlam rəqabət mühitinin yaranmasıdır. Bunun izahı verilmir ki, sağlam rəqabət mühiti dedikdə nə başa düşülür, nə yaradılmalıdır? Yəni haqsız rəqabət olmamalıdır. Buna son qoyulmalıdır. Təsərrüfat subyektləri arasında vətəndaş məmnunluğuna yönələn bir yarış təşkil olunmalıdır. Yəni biz bunu edə biləcəyiksə, doğrudan da, ölkədə yeni iş yerləri açılacaq. Azərbaycan gəncləri iş dalınca qonşu ölkələrə üz tutmayacaq. Burada proteksionizmə və inhisarçılığa son qoyulacaq. Bu istiqamətdə köklü addımlar atılmalıdır.

Köklü addımlardan biri də ondan ibarətdir ki, mütləq böyük özəlləşdirməyə gedilməlidir. Sosializm dövründə olduğu kimi ölkənin iqtisadiyyatının əsas sahələri dövlətin nəzarətindədir. Buna son qoyulmalıdır. Konstitusiyanın 15-ci maddəsində qeyd olunur ki, dövlət iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. “Antiinhisar fəaliyyəti haqqında” Qanunun 13-cü maddəsində də qeyd olunur ki, təsərrüfat subyektlərinin bazarda payı 35 faizdən çox olmamalıdır. Amma biz görürük ki, Konstitusiyanın və qanunun tələbləri yerinə yetirilmir.

Məni narahat edən başqa bir məqam. Burada da həmkarlarım qeyd etdilər, rəqabət orqanı və bu orqan tərəfindən formalaşdırılan bir rəqabət komissiyası olacaq. Yenə də bunların tətbiq etdiyi cərimələrin 50 faizi həmin orqanın əməkdaşlarının sosial müdafiəsini gücləndirmək üçün istifadə olunacaq. Bu barədə dəfələrlə danışmışıq ki, bu, yanlış siyasətdir. Dövlət qulluqçularına onların gördüyü işlərə görə, işin nə dərəcədə ağır, stresli olmasına görə əmək haqqı verilməlidir. Belə olduğu halda, biz sanki

onları  stimullaşdırırıq ki, onlar daha çox cərimə tətbiq etməyə meyilli olsunlar, nəinki həmin sahədə nizam-intizamın yaradılmasına və iqtisadiyyatın inkişafına töhfə vermək haqqında düşünsünlər.

Burada bəzi anlayışlar da var. Əlbəttə, ikinci oxunuşda biz bu barədə konkret maddələr üzərində danışacağıq. Amma vaxtı ilə, hörmətli sədr, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya formalaşdırılanda da mən o zaman təkidlə söyləyirdim ki, həmin komissiyanın üzvləri korrupsiyanın subyekti olan şəxslərdən ibarət formalaşdırılmamalıdır. Ona görə ki, onlar orada bir-birinin nöqsanlarını açmayacaqlar. Bu, sırf psixoloji bir məsələdir. Ona görə də həmin komissiya tamamilə müstəqil şəxslərdən ibarət formalaşdırılmalıdır. İndi də düşünürəm ki, bu  komissiyanın, rəqabət orqanının fəaliyyətinə müəyyən mənada nəzarət edəcək, onun qəbul etdiyi qərarların nə dərəcədə ədalətli olub-olmamasını araşdıracaq komissiya cənab Prezident tərəfindən formalaşdırılmalıdır və bu, qanunvericilikdə öz əksini tapmalıdır. Onu  təşkil edən şəxslər də  dövlət qulluqçuları olmamalıdır və siyasi partiyalar tərəfindən də namizədliyi irəli sürülmüş müstəqil şəxslərdən ibarət olmalıdır.

Düşünürəm ki, ölkədə bir çox problemləri həll etmək üçün siyasi partiyaların, o cümlədən parlamentin nəzarətinin ölkəmizin siyasi həyatında iştirakı gücləndirilməlidir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.47 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Burada bir neçə sual səsləndi. Mən düşünürəm ki, gələn dəfə, yəni ikinci oxunuşda nazirlikdən xahiş edək, hörmətli həmkarlarımızın suallarına da cavab verilsin. Çox sağ olun.

Hörmətli həmkarlar, 13-cü məsələyə keçirik. Bu, Energetika haqqında qanun layihəsidir. Məsələnin müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikası energetika nazirinin müavini hörmətli Elnur Sultanov və Energetika Nazirliyinin Hüquq şöbəsinin müdiri hörmətli İbrahim Ağayev iclasımızda iştirak edirlər. Mən onları da salamlayıram.

Hörmətli həmkarlar, qanun layihəsinə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən sözü komitənin sədri hörmətli Sadiq Qurbanova verirəm. Sadiq müəllim, buyurun.

**S.Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Çox hörmətli həmkarlar, Energetika haqqında Azərbaycan Respublikası qanununun layihəsini birinci oxunuş üçün diqqətinizə çatdırıram.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan köklü iqtisadi islahatlar, o cümlədən sahibkarlığın inkişafı tədbirləri nəticəsində özəl sektorun formalaşması və inkişafı bu sahədə yaranan münasibətləri tənzimləyən yeni qanunların qəbul edilməsini tələb edir. Eyni zaman-

da, elektroenergetika sektorunda liberal bazar modelinə keçid və yeni sahibkarlıq subyektlərinin yaranması üçün də müasir tələblərə cavab verən hüquqi bazanın yaradılması vacibdir. Bu baxımdan qəbulu zəruri hesab edilən normativ hüquqi aktlardan biri də "Energetika haqqında" Azərbaycan Respublikasının Qanunudur ki, bu da "Azərbaycan Respublikasının Energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 1209 nömrəli Sərəncamının müvafiq yarımbəndinin icrası məqsədi ilə hazırlanmışdır.

Nəzərə almaq lazımdır ki, qüvvədə olan "Energetika haqqında" Azərbaycan Respublikasının Qanunu 1998-ci ildə qəbul edilmişdir və ötən müddət ərzində dünyada energetika sektorunda baş vermiş inkişaf və dəyişikliklər, həmçinin ölkəmizin energetika sektorunda qonşu və Avropa ölkələri ilə əməkdaşlığının inkişafı istiqamətində görülmüş işlər beynəlxalq təcrübəyə uyğun yeni qanunun qəbulunu zəruri edir. Bu baxımdan son illərdə biz "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında", "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" və "Elektroenergetika haqqında" yeni qanunları qəbul etmişik. Qaz təchizatı haqqında, Energetika və kommunal xidmətlər sahələrində tənzimləyici haqqında Azərbaycan Respublikasının qanun layihələri də hazırlanmışdır.

Qüvvədə olan "Energetika haqqında" Qanun Azərbaycan Respublikasında enerji resurslarının kəşfiyyatı, işlənməsi, hasilatı, istehsalı, emalı, saxlanılması, nəqli, paylanması və istifadəsi üzrə fəaliyyət növlərini, həmin fəaliyyətlərin həyata keçirilməsi üçün qurğuların yerləşdirilməsini, tikintisini və istismarını, enerjiyə qənaət və

enerjidən səmərəli istifadə, habelə energetika sahəsində fəaliyyətin ətraf mühitə mənfi təsirinin qarşısının alınması və ya azaldılması üzrə tədbirləri tənzimləyir. Həmin qanun əsas etibarilə milli neft və qaz sektorunun tənzimlənməsi üçün nəzərdə tutulub, enerji müqavilələri konsepsiyasına və enerjinin nəqli və paylanması infrastrukturuna köklənmişdir. Bu baxımdan Avropa İttifaqı direktivlərində və reqlamentlərində nəzərdə tutulmuş prinsiplərə uyğun olaraq, geniş sektor islahatlarına ehtiyac var və Azərbaycanın beynəlxalq qlobal enerji bazarına inteqrasiyası nəzərə alınaraq energetika sahəsində islahatları dəstəkləməklə davamlı enerji sərmayələri ilə bağlı əsaslandırılmış və strateji qərarlar qəbul etməyi təmin edən Energetika haqqında yeni qanun layihəsi bu gün sizə təqdim olunur.

Qanun layihəsi energetika sahəsinin ümumi xarakterli məsələlərini tənzimləyir. Bu onunla əlaqədardır ki, energetika sahəsinin müxtəlif sektorları, o cümlədən elektroenergetika və qaz təchizatı sektorları "Elektroenergetika haqqında" və "Qaz təchizatı haqqında" qanunlarla tənzimlənir.

Layihədə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul 378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planının müvafiq yarımbəndində "Energetika sektorunda tənzimləyici mühitin təkmilləşdirilməsi və zəruri liberallaşdırmanın aparılması" fəaliyyət istiqaməti üzrə nəzərdə tutulmuş tədbirləri özündə əksini etdirir. Həmin tədbirlərə elektrik enerjisinin istehsalı, ötürülməsi, paylanması və təchizatı fəaliyyətlərinin hüquqi və idarəçilik baxımından ayrılmasını, elektroenergetika sistemində müstəqil təchizatçıların yaranmasının və fəaliyyətinin təşviq edilməsini, energetika sahəsində tənzimləyici mühitin formalaşdırılmasını, iqtisadi əsaslara, xərc və gəlirlərə

istinad edən tarif metodologiyasının təkmilləşdirilməsini misal göstərmək olar.

Layihə hazırlanarkən nümunə kimi hansısa konkret bir ölkənin sistemi seçilməmiş və onun qanunvericiliyinə istinad edilməmişdir. Avropa ölkələrinin geniş yayılmış təcrübəsi və hamı tərəfindən qəbul edilən müddəalar respublikamızda bazar iqtisadiyyatının mövcud inkişaf səviyyəsi və perspektiv inkişaf istiqamətləri əsas götürülərək işlənilmiş və layihəyə daxil edilmişdir. Həmçinin layihə hazırlanarkən bu günə qədər aparılan islahat tədbirləri nəticəsində hazırlanmış yuxarıda adları çəkilən qanun layihələri, o cümlədən onların hazırlanması prosesində əldə olunmuş beynəlxalq təcrübə nəzərə alınmışdır ki, nəticə etibarı ilə layihə energetika sahəsində aparılan kompleks islahatlar ilə vəhdət təşkil etmişdir.

Layihənin qəbulunda əsas məqsəd energetika sahəsində fəaliyyətin ümumi, hüquqi, iqtisadi və idarəetmə əsaslarının, habelə enerji təhlükəsizliyinin təmin edilməsinin, sağlam rəqabət mühitinin formalaşdırılmasının, davamlı iqtisadi inkişafın dəstəklənməsinin, istehlakçıların etibarlı, keyfiyyətli, əlçatan və təhlükəsiz enerji ilə təmin edilməsi mexanizmlərinin müəyyən edilməsindən ibarətdir.

Layihənin qəbulunda biz hədəfləri aşağıdakı kimi formalaşdıra bilərik:

1. Energetika sahəsində rəqabətin inkişafı, enerji təhlükəsizliyi üzrə tələblər nəzərə alınmaqla energetika sahəsinin dövlətsizləşdirilməli, təbii inhisar vəziyyətindən rəqabət şəraitinə keçidin təşviq edilməsi;

2. Enerji mənbəyi olan təbii ehtiyat yataqlarının işlənməsi və enerjinin hasilatı, emalı, istehsalı və saxlanması üzrə fəaliyyətin, enerjidən istifadənin ekoloji tarazlığın pozulmasına yol verilməməsinin təmin edilməsi;

3. Energetika sahəsinin inkişaf planlarının, energetika obyektlərinin yerləşdirilməsinin ölkə iqtisadiyyatının mövcud ehtiyacları, perspektiv inkişaf planları, əhalinin sayının proqnozlaşdırılan artımı və yaşayış məntəqələrinin perspektiv imkanları ilə uzlaşdırılmalı;

4. Energetika sahəsinin inkişafında dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları, konsepsiyalar və bu kimi digər sənədlər əsasında həyata keçirilməsini təmin etmək;

5. Energetika obyektlərində və enerji istehlakında səmərəliliyin artırılması və itkilərin azaldılması;

6. Bərpa olunan enerji mənbələri hesabına enerji istehsalının təşviq edilməsi;

7. Energetika sahəsinə özəl, o cümlədən xarici investisiyaların cəlb edilməsi, bu məqsədlə bu qanun və energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunlarla müəyyən edilmiş formada energetika sahəsində fəaliyyətlərin ayrılması nəticəsində yaranan fəaliyyət növləri üzrə dövlətə məxsus hüquqi şəxslər və dövlət əmlakının müqavilələr əsasında idarəetməyə verilməsi və ya özəlləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi, həmçinin bu fəaliyyət sahələrində dövlət-özəl tərəfdaşlıq layihələrinin təşviq edilməsidir.

Bu qanun layihəsi energetika subyektlərinə, dövlət orqanlarına, qurumlara və tənzimləyiciyə, habelə enerji istehlakçılarına şamil olunur. Qanun layihəsi Azərbaycan Respublikasının ayrı-ayrı qanunları ilə təsdiq edilmiş hasilatın pay bölgüsü haqqında sazişlərə və neftin və qazın ixrac boru kəmərləri vasitəsi ilə nəql edilməsinə dair sazişlərə, həmçinin sazişlər çərçivəsində bağlanılmış və Azərbaycan Respublikasının qanunları ilə təsdiq edilmiş digər razılaşmalar üzrə münasibətlərə yalnız həmin sənədlərdə

nəzərdə tutulan və həmin sənədlərə zidd olmayan hallarda şamil edilir. Qanun layihəsi enerjinin avtomobil, dəmir yolu, hava və su nəqliyyatı vasitələri ilə daşınmasına, həmçinin nüvə materiallarının idxalına, ixracına, istehsalına, saxlanılmasına və emalına şamil olunmur.

Qanunun qəbul edilməsində qısa müddətdə ehtimal olunan nəticələri aşağıdakı kimi formalaşdıra bilərik: energetika sahəsində yaranan iqtisadi münasibətlərin bazar iqtisadiyyatının prinsiplərinə uyğun qurulması; energetika sahəsində rəqabət mühitinin formalaşması və inkişafı, hansı ki, biz artıq bundan qabaqkı Rəqabət Məcəlləsinə də bu maddəni daxil etmişdik; energetika sahəsində regional əməkdaşlığın, özəl investisiyaların, davamlı iqtisadi inkişafın və enerji səmərəliliyinin təşviqi və dəstəklənməsi.

Çox mühüm bir qanun layihəsidir. Hesab edirəm ki, biz bu qanun layihəsini qəbul etməklə Azərbaycanın gündən-günə inkişaf edən bu sahədəki siyasətinə – cənab Prezidentin siyasətinə dəstək vermiş oluruq. Xahiş edirəm, hamı müsbət münasibətini bildirsin. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Sadiq müəllim. Müzakirələrə başlayırıq. Yazılanlar var. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli Sadiq müəllimin qeyd etdiyi kimi, kifayət qədər vacib qanun layihəsidir. Bütövlükdə, energetika sektorunda islahatların dərinləşməsi üçün yeni bir mərhələnin hüquqi bazasını daha da möhkəmləndirəcək.

Mən zamanınızı çox almadan 3 istiqamət üzrə fikirlərimi bölüşmək istərdim. Konseptual olaraq qanun 3 istiqamətdə islahatların dərinləşməsini özündə ehtiva edir. Birinci istiqamət sektorun liberallaşmasıdır. Daha məqsədəuyğun olardı ki, qanun layihəsi bu sektorda bütün faza-

larda, xüsusilə də bərpa olunan enerji sektorunda islahatın, o cümlədən istehsalın tam liberallaşdırılmasını həyata keçirməyə imkan yaransın. Nəzərə alaq ki, enerjinin bərpa olunan mənbələrdən əldə edilməsi və istehsal üçün liberallaşma çox vacibdir.

İkinci istiqamət rəqabətin müdafiəsi ilə bağlıdır. Bu istiqamətdə subsidiya mexanizminin baxılması və təkmilləşdirilməsi, xüsusilə də subsidiyanın xərc deyil, məhsul istehsalına uyğun olaraq, müəyyənləşdirilməsi və bu mexanizminin tətbiq edilməsi məqsədəuyğun olardı.

Digər istiqamət enerji səmərəliliyi ilə bağlıdır. Burada həm qiymətlərin optimallaşdırılması, həm də enerji sektorunda səmərəliliyin artırılması özünü ehtiva edib. Ona görə də nəzərə alsaq ki, qanun layihəsində Avropa İttifaqının direktivlərindən istifadə olunub, enerji keçidindən istifadə olunması və bu istiqamətdə nəzərə alınması məqsədəuyğun olardı.

Bütövlükdə, qanun layihəsini dəstəkləyirəm və əminəm ki, bu qanun layihəsinin qəbul edilməsi bu sektorda islahatların dərinləşməsinə xidmət edəcək. Çox sağ olun.

**Sədrlik edən.** Siz də çox sağ olun. Tahir Rzayev. Tahir müəllim, buyurun.

**T.Rzayev.** Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli deputat həmkarlar. Azərbaycan bu gün nəinki ölkənin, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayan və geniş imkanlara malik olan bir dövlətdir. Energetika sahəsində son illər mühüm dövlət proqramlarının və əsaslı layihələrin həyata keçirilməsi Azərbaycanı enerji idxal edən bir ölkədən ixrac edən dövlətə çevirmişdir. Ulu Öndərimiz Heydər Əliyevin fəaliyyəti və gərgin zəhməti əsasında dirçəldilən, mövqe qazanan sahə hörmətli Prezidentimiz İlham Əliyevin

diqqəti və qayğısı sayəsində inkişaf mərhələsindədir. Bu sahədə müvafiq orqanların fəaliyyəti də müsbət qiymətləndirilməlidir.

Sahənin inkişafı həm dövlətin, həm də insanların mənafeyinə uyğundur, qanunların tələblərinə əsaslanır. Müzakirə etdiyimiz Energetika haqqında qanun layihəsi də bu baxımdan xarakterikdir və çox əhəmiyyətlidir. Energetika sahəsində fəaliyyətin hüquqi, iqtisadi və idarəetmə əsaslarını özündə əks etdirən qanun layihəsi enerji təhlükəsizliyinə yeni imkanlar yaratmaqla iqtisadi inkişafa yollar açır, idarəetmə mexanizmini təkmilləşdirəcək və formalaşdıracaqdır. Layihədə energetika sahəsində fəaliyyət növlərinin, dövlət siyasəti və dövlət nəzarətinin, dövlət tənzimlənməsinin məqsədinin aydın şərh edilməsi, şəffaflığın təmin olunması barədə yer alan maddələr gələcək inkişafa hesablanmışdır və bu, təqdirolunmalıdır.

Energetika sahəsində fəaliyyətin bazar münasibətləri, tələb-təklif və azad rəqabət əsasında qurulması günümüzün tələbidir. Bütün sahələrdə olduğu kimi, energetika sahəsində də azad və sağlam rəqabət mühiti formalaşdırılmalı və sürətləndirilməlidir. Sözsüz, bu sahədə inhisarçılığın yaranmasına, rəqabətin mədudlaşdırılmasına yol vermək olmaz və yaxşı haldır ki, bu, qanun layihəsində aydın ifadəsini tapmışdır.

Energetikanın inkişafı elmə, sahəyə yeni texnologiyaların tətbiq edilməsinə əsaslanmalıdır. Qanunun maddələrində bunun üçün dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların və digər sənədlərin hazırlanmasına və qabaqcıl təcrübənin təşviq edilməsinə önəm verilməsi əhəmiyyətlidir.

Qanun layihəsi energetika sahəsində kompleks təklifləri və tələbləri özündə ehtiva edir ki, bu da bir məqsədə

yönəldilir və qanunauyğundur. Bildirmək istəyirəm ki, qanun layihəsi yaxşı hazırlanıb, əhatəlidir, dili sadə və aydındır, birinci oxunuşun tələblərinə tam cavab verir. Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi tərəfindən qanun layihəsinin geniş müzakirə edilməsi onu daha da dəyərləndirir. Qanun layihəsini dəstəkləyir və onun lehinə səs verəcəyəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Asim Mollazadə. Buyurun.

**A.Mollazadə.** Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Azərbaycan xalqının, Azərbaycan dövlətinin inkişafında ənənəvi enerji mənbələri böyük rol oynayır. Azərbaycan neft və qaz sahəsində dünyada lider rolu oynayır. Bu gün zamanın tələblərinə uyğun olaraq, biz yeni energetika sisteminə qədəm qoyuruq. Mənə elə gəlir ki, bu qanun layihəsinin qəbulu bu sahənin liberallaşmasına, Azərbaycanda yeni enerji sistemlərinin formalaşmasına töhfə verəcək. Eyni zamanda, ölkəmiz artıq keçidə qədəm qoyub. Biz çalışmalıyıq ki, ənənəvi konvensional enerji mənbələrindən yeni texnologiyaları tətbiq edərək inkişaf edək.

Bu qanun layihəsinin qəbul olunmasında bir əsas məqam da ondan ibarətdir ki, Azərbaycan Böyük Qayıdış layihəsini həyata keçirir. Azərbaycanın dövlət başçısının məqsədi Qarabağı məhz ekoloji nöqteyi-nəzərdən yaşıl mühitə çevirməkdən ibarətdir. Məhz bunun üçün də biz bu qanun layihəsini qəbul edərək, yeni texnologiyaları Qarabağa cəlb edərək bu bölgəni cənnətə çevirməliyik.

Biz Azərbaycanda artıq fəal olaraq günəş, külək, su enerjisini inkişaf etdiririk. Azərbaycan ilk dəfə olaraq öz yaşıl enerjisini Avropaya Qara dəniz vasitəsi ilə çatdırmağı planlaşdırır. Mənə elə gəlir ki, bu istiqamətdə də yeni qəbul olunan qanun layihəsi öz dəstəyini verəcək. Biz

Azərbaycanın yeni enerji sisteminə, dünyaya töhfə verməyin müəyyən qədər qanunverici bazasını hazırlayırıq. Mənə elə gəlir ki, bu qanun layihəsi dəstəklənməyə layiqdir. Azərbaycan dövləti yeni inkişaf istiqaməti seçib və bu inkişaf istiqamətinin də bizim hamımızın dəstəyinə ehtiyacı var. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. 1 nəfər qalıb. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Dəyərli həmkarlarımı darıxmağa qoymayacağam, çıxışımı tez bitirəcəyəm. Əslində, biz olduqca ciddi bir qanun layihəsini müzakirə edirik. Bu qanun layihəsinin ayrı-ayrı detalları, elementləri ölkə Prezidentinin ən müxtəlif platformalarında söyləmiş olduğu fikirləri özündə ehtiva edir.

İşğala son qoyduqdan sonra, hətta ondan da bir az öncə cənab Prezident yeni reallıqları nəzərə alaraq dünyada gedən enerji siyasətini Rusiya–Ukrayna müharibəsindən sonra, Avropada yaranmış ciddi enerji böhranından sonra olduqca unikal bir ideya ilə çıxış etdi – yaşıl enerji. Bu yaşıl enerjinin cənab Prezident tərəfindən önə çəkilməsi, aktuallaşdırılması və təbii ki, onu reallaşdırmaq üçün qətiyyətli iradənin ortalıqda olması dünyanın ayrı-ayrı dövlətlərinin və energetika sistemi ilə məşhur olan nəhəng şirkətlərin diqqətini cəlb etdi. Təsadüfi deyil ki, bu baxımdan Birləşmiş Ərəb Əmirlikləri, səhv etmirəmsə, böyük bir investisiya ilə Azərbaycana gəldi və artıq böyük bir enerji sisteminin yaradılmasında öz fəallığını nümayiş etdirdi. Dünyanın ayrı-ayrı ölkələri də bu baxımdan Azərbaycana maraqlarını artırmaqdadır.

Elə bir situasiya yaranıb ki, Azərbaycan bu gün təkcə qazı ilə, nefti ilə deyil, həm də elektrik enerjisi ilə dünyanın ən cəlbedici ölkələrindən birinə çevrilib. Bu, həm

külək enerjisidir, həm günəş enerjisidir, həm də su enerjisidir. Böyük bir potensiala malik olan Azərbaycan bunun vasitəsi ilə gələcəkdə külli-miqdarda elektrik enerjisini ixrac edib strateji baxımdan öz dostlarının sayını artırmaqla bərabər, külli-miqdarda da vəsait əldə edəcəkdir. Mən buna bənzər faktları genişləndirməklə demək istəyirəm ki, belə bir qanun layihəsinin hazırlanması, əlbəttə, çox zəruri idi, çox vacib idi. Belə bir qanun layihəsi hazırlandı, komitədə müzakirə olundu. Energetika naziri hörmətli Pərviz Şahbazovun iştirakı ilə dinləmələr keçirildi. Dinləmələrdə kifayət qədər fərqli fikirlər söylənildi. Nəhayət, ümumi rəyə gəlindi və bu gün müzakirəmizə təqdim olunur.

Burada diqqətimizi cəlb edən başlıca məsələ ölkə Prezidentinin yeni enerji siyasətinə, enerji strategiyasına uyğun olaraq, qanun layihəsi hazırlanmışdır. Konseptual baxımdan onun söyləmiş olduğu fikirlər, Azərbaycanın bu sahədə verə biləcəyi töhfələrin bütün tərəfləri yeni çağırışa, Azərbaycanın indiki inkişaf səviyyəsinə, dünyada gedən proseslərin mahiyyətinə uyğun olaraq düzgün hazırlanmışdır. Xüsusi olaraq burada Azərbaycan dövlətinin enerji siyasətində əsas prinsiplər məsələsi çox aktualdır, mənə elə gəlir ki, kifayət qədər vacib və cəlbedicidir. Söhbət nədən gedir? Yəni bu enerji siyasətində ayrı-seçkiliyə yol verilməməsi, sağlam rəqabətin təmin olunması, şəffaflığın və enerji istehsalçılarının hüquqlarının müdafiəsi və eyni zamanda, enerjinin davamlı olaraq inkişafı kimi prinsiplər qanun layihəsinin bütün mahiyyətini ortaya qoyur. Ona görə də təqdim edilmiş olan qanun layihəsi günün tələblərinə cavab verən səviyyədə hazırlanıb və kifayət qədər aktualdır. Mən də hörmətli həmkarlarıma qoşularaq ona səs verəcəyəm. Energetika sahəsində bütün

çalışanlara da uğurlar diləyirəm.

Bir məsələni də xüsusi olaraq vurğulamaq istərdim ki, bu günlərdə cənab Prezidentin Zəngilana səfərini, Zəngilanda 4 elektrik stansiyasının bir sistem halına gətirilməsini və Azərbaycan enerji sahəsində çalışan insanların bu gün işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda böyük fədakarlıqla həyata keçirmiş olduğu işləri də alqışlamaq lazımdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti məsələsinə keçirik. 14-cü məsələ "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəni İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü hörmətli Mahir Abbaszadə təqdim edəcək. Mahir müəllim, buyurun.

**M.Abbaszadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun, Sahibə xanım. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də Sizi payız sessiyasının başlanması münasibəti ilə təbrik edir və bundan sonrakı iş

həyatınızda hər birinizə uğurlar arzulayıram.

“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi sözügedən qanunda lisenziyaların verilməsinin şərtlərinin Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən tələblərlə, icazələrin verilməsi şərtləri isə Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları ilə müəyyən edilən tələblər əsasında tənzimlənməsi müəyyənləşdirilmişdir. Eyni zamanda, dəyişikliklə bağlı qanun layihəsi qüvvədə olan qanunda bəzi dəqiqləşdirmələr aparılmaqla onun təkmilləşdirilməsinə və digər normativ hüquqi aktlara uyğunlaşması nəzərdə tutulub.

Hörmətli xanım sədr, komitəmizin rəyi müsbətdir. Hörmətli millət vəkillərindən də qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Mahir müəllim. Siyavuş müəllim, Siz yazılmısınız. Sözünüz var? Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Doğrudan da, bu qanun, bu əlavələr, dəyişikliklər vacibdir. Amma ümumilikdə, mən hesab edirəm ki, lisenziyalar və icazələrlə bağlı ciddi bir sənədin işlənilib ortaya qoyulması da vacib əlamətlərdən biridir.

Vaxtı ilə hamı xatırlayır ki, “ASAN xidmət” yaranmamışdan qabaq müxtəlif pərakəndəlik vardı, ayrı-ayrı sahələrdə, fərqli sənədlərin alınmasında, onların vətəndaşa çatdırılmasında ciddi problemlər yaranırdı. Neqativ hallar olurdu. Nəticə etibarı ilə “ASAN xidmət” yarandıqdan sonra bunlar aradan qalxdı. İndi vətəndaşlarımız istənilən yerdə istənilən sənədləri ala bilirlər.

Mən hesab edirəm ki, lisenziya ilə bağlı da belə bir struktur, icazələrlə bağlı bir struktur yaranmalıdır, hansısa formada onun təkmilləşdirilməsi aparılmalıdır. Çünki

kifayət qədər sahə var ki, onlar lisenziya əsasında fəaliyyət göstərirlər, tibbdən tutmuş bütün digər sahələrə qədər hər bir sahədə – məktəblərin, bağçaların açılmasında və digər məsələlərlə bağlı lisenziya tələb olunur. Dünyanın bir çox ölkələrində də onlayn şəkildə lazım olan sənədləri təqdim edirsən. Gəlib, yoxlayıb baxırlar, sənin binan bu tələblərə cavab verirsə, lisenziyanı verib, gedirlər. Bizdə bu, illərlə, aylarla çəkir və başqa söhbətlər ortaya çıxır. Mən hesab edirəm, gələcəkdə qanunvericiliyimizdə bunun təkmilləşdirilməsi ilə əlaqədar "ASAN xidmət"in bir forması kimi məhz lisenziya və icazələrin alınması, istər fermer təsərrüfatı yarat, lisenziya al, istərsə də başqa məktəb aç, hansı sahəni istəyirsənsə, o lisenziyanın alınmasında mütləq düzgünlük, dəqiqlik olmalıdır ki, vətəndaşlarımız əziyyət çəkməsinlər. Bununla bağlı, hesab edirəm ki, gələcəkdə qanunvericiliyə bir daha baxa bilərik. Qanun layihəsinə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə səs verin.

| **Səsvermənin nəticələri** | (saat 16.14 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ 15-ci məsələdir. Mülki Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Notariat haq-

qında" və "İnzibati icraat haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**N.Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli Sahibə xanım, təqdim olunan layihə "İcra haqqında" Qanuna 2022-ci il dekabrın 2-də edilən dəyişikliklərlə əlaqədar hazırlanmışdır. Mahiyyət ondan ibarətdir ki, icra haqqında sənədlərdə, məsələn, məhkəmə qərarında, notariusun icra qeydlərində, inzibati xəta haqqında qərarda məcburi icranı asanlaşdıracaq, yəni şəxsin daha rahat şəkildə eyniləşdirilməsini təmin edəcək məlumatların qeyd edilməsini nəzərdə tutur. Deputat həmkarlarımdan qanun layihəsini dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 16-cı və 17-ci məsələləri möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Mahiyyətcə bir-birinə yaxındırlar. 16-cı məsələ "Polis haqqında" Qanunda dəyişiklik edilməsi ba-

rədə, 17-ci məsələ isə “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə qanun layihələridir. Layihələrə dair ümumi məlumat vermək üçün mən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli Sahibə xanım. Əziz həmkarlar, heç kimdə şübhə yoxdur ki, bu gün müasir Azərbaycan polisi – serjantından generalına, sıravisindən nazirinə qədər tam tərkibdə xalqına, dövlətinə və müzəffər Ali Baş Komandanına əsl sədaqət nümunəsi olan xidmət ortaya qoymaqdadır. Ulu Öndərin ikinci dəfə hakimiyyətə gəlməsi ilə qrup məqsədlərindən və siyasi oyunlardan tamamilə azad olan Azərbaycan polisi bu gün hüquq və azadlıqlara hörmət, qanunçuluq, humanistlik və təkbaşçılıq prinsipləri əsasında qanunvericiliklə üzərinə qoyulan vəzifələri ləyaqətlə icra etməkdədir. Bu gün, eyni zamanda, Azərbaycan polisi həm də artıq Xankəndidə, Xocavənddə, Ağdərədə, Xocalıda müzəffər Ali Baş Komandanın yaratdığı reallıqların keşiyində durmasına biz qürurla şahidlik edirik. Müasir dövrdə bütün sahələrdə olduğu kimi polisin fəaliyyətinin təməlində dayanan qanunvericiliyin də təkmilləşdirilməsi artıq günün reallığıdır. Möhtərəm Prezidentin imzası ilə daxil olan və müzakirəmizə təqdim etdiyimiz qanun layihələri ilk növbədə bu rakursdan baxış tələb edir. Bildiyiniz kimi, Azərbaycanda bütün xüsusi təyinatlı ali təhsil müəssisələrində təhsil alanlar təhsil kursant adlandırılsa da, daxili işlər orqanlarının təhsil müəssisələrində bu şəxslər “müdavim” adlanır. “Polis haqqında” Qanunda edilməsi təklif olunan dəyişikliyə

əsasən vahid yanaşmaya nail olunması məqsədi ilə daxili işlər orqanlarının təhsil müəssisələrində təhsil alan şəxslərin də "kursant" adlandırılması təklif olunur.

Digər qanun layihəsi isə "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişikliyi ehtiva edir. İlk növbədə nəzərdə tutulur ki, kadrların hazırlanması cari Əsasnamədə əks olunsun və bu məqsədlə sənədə yeni bir fəsil əlavə edilir. İkincisi, təklif olunur ki, 18 yaşı tamam olmuş kursant və dinləyicilər həm təhsil proqramlarının tərkib hissəsi kimi, həm də ixtisas üzrə təcrübə keçirilməsi məqsədi ilə daxili işlər orqanlarının üzərinə qoyulan vəzifələrin yerinə yetirilməsinə cəlb olunsun. Əsas yenilik isə ondan ibarətdir ki, kursant daxili işlər orqanlarının xüsusi ali təhsil müəssisəsində təhsili başa vurduqdan sonra 7 il müddətində polis orqanlarında xidmətkeçmə barədə öhdəlik götürəcək. Bu məqsədlə bakalavr səviyyəsində əyani təhsilə qəbul dilən şəxslərlə xidmətkeçmə haqqında müqavilə imzalanacaq. Müqavilədə kursantın hazırlanması ilə bağlı nəzərdə tutulan xərclər əvvəlcədən qeyd edilir. Kursant da öhdəlik götürür ki, təhsili öz arzusu ilə yarımçıq qoyarsa, yaxud təhsili başa vurduqdan sonra daxili işlər orqanlarında çalışmaq istəməzsə, yaxud 7 ildən tez öz arzusu ilə xidmətdən azad olunarsa, onun hazırlanmasına çəkilən xərclərin əvəzini geri ödəməlidir. Bu, kifayət qədər hüquqi və ədalətli yanaşmadır. Çünki təhsil aldığı 4 il ərzində kursantın bütün xərcləri, yemək, yataq, müalicə, geyim ən yüksək səviyyədə dövlət hesabına təmin olunur. Həmçinin kursantlar hərbi xidmətə çağırılmırlar.

Qeyd edim ki, Azərbaycanda digər qurumlarda artıq analoji təcrübə mövcuddur. Məsələn, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunla Azərbaycan Ordusu,

Daxili Qoşunlar, Dövlət Təhlükəsizlik Xidmətinin və xüsusi o ali təhsil müəssisələrini bitirən hərbi qulluqçular üçün məcburi xidmət öhdəliyi müəyyən edilib – 10 ildir. Hazırda Dövlət Sərhəd Xidmətinin zabitləri üçün də aidiyyəti layihə nəzərdən keçirilir. Eyni zamanda, oxşar təcrübə dünyanın bir çox dövlətlərində var. Məsələn, Avropanın 10-dan artıq ölkəsində, Amerika Birləşmiş Ştatlarında, o cümlədən qardaş Türkiyədə 8 illik öhdəliyi nəzərdə tutan analoji qanunvericilik təcrübəsi mövcuddur. Yəni bu gün dünya mövcud təcrübəyə fərdin hüquqları ilə dövlətin maraqlarının uzlaşdırılması rakursundan yanaşır və artıq 10 illərdir ki, bu mexanizm özünü doğruldur. Üstəlik, mövcud layihədə ümumi qəbul olunan müddətdən daha az zaman kəsiyində, yəni cəmi 7 il öhdəlik nəzərdə tutulduğu üçün kifayət qədər də humanist hesab olunmalıdır. Əziz həmkarlar, bütün bunları nəzərə alaraq layihələrə dəstək verməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən görürəm, yazılanlar var. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar. Qarabağın azad edilməsində Azərbaycan polisi də şücaət göstərib və şəhidlər verib. Onlar qəhrəmancasına dövlətimizin müstəqilliyini və suverenliyini qoruyublar, bu gün də azad edilmiş Qarabağda ordumuzla bərabər, ağır şərtlər altında asayişi və təhlükəsizliyi təmin etməkdədirlər. Polis həyatı asan həyat deyil. Onlar hamıdan tez oyanır, hamıdan sonra yatır, gecə-gündüz növbədədirlər ki, ölkə vətəndaşları rahat olsunlar. Buna görə Azərbaycan polisinə təşəkkür edirik. Polis həyatı asan olmasa da, polis olmaq istəyənlər kifayət qədərdir və bu, əslində, sevindiricidir. Yəni vətənpərvər, vətənini sevən gənc oğlan və qızların polis peşəsini seçərək kursant olmaq istəməsi

təqdirəlayiqdir və onlar polis adını daha da ucaldacaqlar. Polislərimiz daha yüksək əmək haqqına, daha yüksək hörmətə layiqdirlər. Onların sayəsində rahat yaşayırıqsa, qiymətləndirmək lazımdır. Çıxışım da bu qəbildəndir. Qanunlara edilən dəyişikliyi dəstəkləyirəm və səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Təklif var ki, səsə qoyulsun. Qüdrət müəllimin təklifi var. Qüdrət müəllim, buyurun.

**Q.Həsənquliyev.** Çox təşəkkür edirəm, hörmətli sədr. Fərqli fikirlər var, ona görə mən söz istədim. Həmkarlarım da məni bağışlayar. Mən hesab edirəm, qanunvericiliyə dəyişiklik edilirsə, biz düşünməliyik ki, bu niyə edilir? Mən düşünmürəm ki, yalnız Bəhruz müəllimin dediyi o beynəlxalq təcrübədən, yaxud elə daxildəki təcrübədən istifadə edilərək belə bir müddəa bizim qanunvericiliyə daxil edilir. Hazırda çoxlu sayda insan polis orqanlarını tərk edib gedir. Ona görə ki, polisdə, xüsusilə də daha az əmək haqqı ödənilən mühafizə xidmətidir, post-patrul xidmətidir və sair. Hətta çoxlu vakant yerlər var və polisə, Razi müəllimin dediyi kimi, gəlmək istəyənlər də o qədər çox deyil. Əvvəla, qeyd edim ki, başqa təcrübələr də var. Misal üçün, bizim Dövlət Neft Şirkəti də xaricdə kimləri isə təhsil almağa göndərirdi. Onlar təhsil alırdılar və onların qarşısında belə bir şərt qoyulmuşdu ki, qayıdıb Azərbaycanda 5 il işləməlidirlər. Sonra heç ona da əhəmiyyət verilmədi. Dedilər ki, qalın, hansı ölkədə təhsil almısınızsa, orada iş tapırsınızsa, işləyin. Çünki onların hamısını işlə təmin etmək mümkünsüz idi.

Polisdə kursant kimi təhsil alan şəxslər hərbi xidmət keçirlər. Bəhruz müəllim də dedi ki, onlar hərbi xidmətə çağırılmırlar, çünki, onsuz da, xidmətdədirlər. Onlar istənilən vaxt döyüş bölgəsinə də atıla bilərlər. Onlar and

içirlər, xidmət keçirlər və xidmət keçməyə görə... Axı, onlar yalnız təhsil almırlar. Onlardan sonradan pul tələb etmək, yəni əgər sən ailəni dolandıra bilmirsənsə, daha yüksək ödənişli bir iş tapmısansa, bizim sənə çəkdiyimiz xərci ödə. Onda o da desin ki, xidmətimin haqqını da siz mənə ödəyin. Axı, mən 5 il təhsil almışam, xidmət göstərmişəm, ona görə o xidmətin də pulunu siz dövlət olaraq mənə ödəyin.

İkincisi. Hörmətli sədr, onlar qazandığı bilikləri, başqa bir sahədə tətbiq edə bilməyəcəklər. Bir var ki, iqtisadiyyatı oxusun, hüquqşünas olsun. Lakin deyəsən ki, sən gəldin, oxudun, mən dövlət olaraq pul xərclədim, sən isə özəl sektorda çalışmağa başladın. Mən sənə pul xərcləmişdim. Sən bu biliklərdən istifadə edib başqa yerdə yüksək maaş alırsan və sair. Axı, bunlar bu biliklərdən, bu peşə vərdişlərindən harada istifadə edəcək? Polisdən çıxıb hansı isə bir müəssisədə gözətçi işləmək, inanın, bəlkə də orada çox pul verilməsinə görə onlar ora gedəcəklərsə də, bu elə cəzanın bir növüdür. Yəni ali təhsil alasan, sonra da gedib harada isə gözətçi işləyəsən.

Mən dəfələrlə burada məsələ qaldırmışam. Yaxından maraqlanın, küçədə polis işçiləri ilə bir millət vəkilləri kimi söhbət edin, soruşun ki, onlar nə qədər əmək haqqı alırlar. 450 manata qədər maaş alan polislər var. İndiki dövrdə 450 manatla yaşamaq olar? Mən bilirəm ki, son illər polisdə neqativ hallara qarşı mübarizə gücləndirilib. İnsanlar aldıqları maaşla ailələrini dolandıra bilmirlər, hətta heç özlərini dolandıra bilmirlər, nəinki ailələrini. Ona görə də polis orqanlarından ərizə yazıb gedirlər. İndi onlara bu formada deyək ki, sən əlavə olaraq bizə bir təhsil haqqı da ödə.

Bilirsiniz, baş leytenantlar, kapitanlar 715 manata qədər

maaş alırlar. Yəni bu, ölkədəki orta əmək haqqından da olduqca aşağıdır. Bu barədə düşünmək lazımdır. Qarşıdan büdcə müzakirələri gəlir, mən həmkarlarıma da müraciət edirəm. Lazımdırsa, daxili işlər orqanlarının da nümayəndələrini çağıraq. Qoy, gəlsinlər, burada millət vəkilləri qarşısında, yaxud bizim komitə qarşısında bir məlumat versinlər. Məsələni kökündən həll etməliyik. Fikrimi bununla yekunlaşdırıram. Yoxsa zorla insanları saxlamaq ki, mən səni buraxmayacağam, ya da pulu ödə. O da elə pula görə oradan qaçır da. Haradan alıb pulu ödəsin? Ona görə də o pulu ödəyə bilməyəcək, məcbur qalıb zorla burada işləyəcək. Onda nə keyfiyyətli iş gözləməyə dəyməz, nə də o işin nəticələri ürəkaçan olmaz. Ona görə də mən bu məsələləri diqqətinizə çatdırmaq istədim. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib müəllim qalıb. Bir dəqiqə. Fəzail müəllim, sualınız, yoxsa təklifiniz var?

**F.Ağamalı**. Çıxış etmək fikrində deyildim. Lakin Qüdrət müəllimin, hörmətli həmkarımızın fikrinə alternativ olaraq demək istəyirəm ki, bu qanun layihəsi qəbul edilməlidir. Bunu qəbul etmək lazımdır. Lakin o başqa məsələdir ki, biz polislərin sosial müdafiəsini gücləndirməliyik. Mən o fikirlə tamamilə şərikəm. Həqiqətən, polis əməkdaşlarının əmək haqqı, sosial vəziyyəti arzuedilən deyil. Baxmayaraq ki, onların fəaliyyəti, hərəkətləri tamamilə fərqlidir. Ona görə də biz gələcəkdə polis işçilərinin əmək haqlarının, sosial vəziyyətinin yaxşılaşması ilə bağlı qanun layihəsini paket şəklində hazırlayıb, müzakirəyə çıxarıb onu qəbul etməliyik. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib müəllim, sözünüz var? Mən baxdım, Siz çıxmadınız. Buyurun.

**S.Alıyev**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Dəyərli həmkarlar, "Polis haqqında" Qanuna edilən dəyişik-

lik bir növ texniki xarakter daşıyır və mən onun lehinə səs verəcəyəm. Bununla yanaşı, onu da vurğulamaq lazımdır ki, Azərbaycan polisinin və bütövlükdə, güc strukturlarımızın fəaliyyətində heç də texniki xarakter daşımayan böyük dəyişikliklər baş verib, torpaqlarımız üzərində suverenliyimizin təmininə yönəlmiş son addımlar atılarkən də bunu gördük. Sentyabrın 19-da Əhmədbəyli–Füzuli–Şuşa yolunun 58-ci kilometrliyində mina basdıran terrorçuların tez bir zamanda təsbit edilərək tutulmaları Dövlət Təhlükəsizlik Xidməti əməkdaşlarının yüksək peşəkarlığı ilə yanaşı, Azərbaycanın güc strukturlarının nə dərəcədə sinxron işlədiklərini ortaya qoydu. Qarabağı tərk edib Ermənistana gedənlərə su və ərzaq verən polisimizin, təkcə polisimizin deyil, digər dövlət qurumlarının təmsilçilərinin, onlara gərəkən yardımı göstərən tibb işçilərimizin, Xankəndidə yanacaqdoldurma stansiyasındakı partlayışın nəticələrinin aradan qaldırılmasında əllərindən gələni əsirgəməyən yanğınsöndürənlərimizin, gedənləri çox nəzakətlə, amma məqsədyönlü şəkildə sorğu-suala tutaraq bunu təsbit edən sərhədçilərimizlə jurnalistlərimizin hərəkətləri ancaq təqdir oluna bilər.

Heç kimə sirr deyil ki, Qarabağı tərk edib gedənlərə ünsiyyətdə olanların çoxunun özləri də olmasa, doğmaları, qohum-əqrəbaları hay nasizmindən əziyyət çəkib zülm görüblər. Buna baxmayaraq, bizim Qarabağdakı haylarla bu dərəcədə nəzakətlə davranmağımız, onlara yardım etməyimiz heç də 1990-cı illərdən üzü bəri yaşadıqlarımızı unutmağımız demək deyil. Polisimizin, digər dövlət qurumları əməkdaşlarının həkətlərində emosional heç nə olmadığından bu, xalqımıza xas rəhmdillik də sayılmır. Bu, sadəcə, azərbaycanlıların oturuşmuş dövlətin təmsilçiləri olaraq bizə qarşı etnik təmizləmə həyata keçirənlərdən

nə qədər ucada dayandığını ortaya qoyur. Vəssalam.

Belə bir reallıq ortadaykən maraqlıdır, Qərbdəki bəlli çevrələr necə olur ki, məhz özlərinin altını-üstünə çevirdikləri Yaxın Şərqdən, Afrikadan qaçanları qeyri-leqal, yəni arzuolunmayan miqrant, amma Qarabağdan Azərbaycan dövlətinin heç bir təzyiqi və təşviqi olmadan, öz istəkləri ilə gedənləri qaçqın adlandırırlar? Bəlkə ona görə ki, bu kütləvi köç onların diktəsi ilə Azərbaycanı etnik təmizləmədə günahlandırmaq üçün baş verir? Sual ritorikdir, çünki biz bu gün Qərbdəki bəlli çevrələrin regiondakı proseslərə yanaşmalarında əsl səlibçilik görürük və bu da təsadüfi deyil.

BMT-nin təsdiqlədiyi sərhədlər çərçivəsində torpaqlarımız üzərində suverenliyimizi tam təmin etməklə biz, əslində, 1000 il bundan öncənin məntiqindən doğan geosiyasi reallığı dəyişdik. Burada "1000 il bundan öncə" sözlərini ona görə işlətdim ki, bizim regiondakı istilaçı siyasətlərində I Pyotr da, II Yekaterina da, digərləri də heç də rus xalqının maraqlarından çıxış etmirdilər, faktlar göstərir ki, sıx əlaqədə olduqları səlibçilərin istəklərinə uyğun davranırdılar. Regiondan söz düşəndə ən nüfuzlu medialarında belə addımbaşı hayların xristian olmalarından bəhs edilməsi göstərir ki, Qərbdə 1000 il bundan öncəki səlibçilik təfəkkürü necə var, elə də qalmaqdadır. Azərbaycana qarşı yeni məkrli plan cızanlara dövlətimizin başçısı səbrli olduğumuz qədər də qətiyyətliliyimizi elə-belə xatırlatmırdı.

Zəngilandan edilən bu xəbərdarlığın hədəfi Ermənistandan da çox həmin çevrələrdir ki, BMT təmsilçilərinin belə Qarabağda hər hansı etnik təmizləmə baş vermədiyini vurğuladığı halda, bunun əksini göstərməyə çalışır və ora hansı isə beynəlxalq missiya göndərməkdən dəm vururlar.

Özü də bunlar səfirlərini Şuşaya buraxmayanlardır, diqqət yetirirsinizmi? Məqsəd nədir? Orada qalan haydinlərə yardımmı? Xeyr. Məqsəd onları ölkələrindəki hay diasporları sayaq öz geosiyasi alətlərinə çevirməkdir. Ancaq yeni nəsil hərbi texnikadan yüksək ustalıqla faydalanmaqla reallaşdırılan və de-fakto XXI əsrin ilk müjdəçisi olan lokal antiterror əməliyyatından dərhal sonra cənab İlham Əliyevin İkinci Milli Şəhərsalma Forumuna qatılmaq üçün Zəngilana səfəri və orada indi dövlətimizin qarşısında duran bir nömrəli vəzifə kimi məhz Böyük Qayıdışı göstərməsi o deməkdir ki, artıq qatar gedib. Həmin çevrələr istəklərinə çata bilməyəcəklər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyuram. İndi xahiş edirəm, 16-cı məsələyə, yəni "Polis haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.32 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə xahiş edirəm, 17-ci məsələyə münasibət bildirək. Bu, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik

edilməsi barədə qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.32 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də birinci oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, sonuncu məsələyə çatdıq. Bu, 18-ci məsələdir, "Peşə təhsili haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Elm və təhsil komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Bəxtiyar Əliyevə söz verirəm. Bəxtiyar müəllim, buyurun.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, burada qeyd edildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu, qəhrəman zabit və əsgərlərimiz Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin etmişlər. Azərbaycan və Azərbaycan əsgəri bütün dünyaya göstərdi ki, biz dinc əhali ilə vuruşmuruq. Biz yalnız haqq-ədaləti bərpa edirik. Hər bir vətəndaşın dinindən, irqindən, dilindən asılı olmayaraq hüquqlarını Azərbaycan dövləti qoruyur. Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında qəhrəmanlıq göstərmiş və müharibə veteranı adı almış şəxslərin dövlət təhsil müəssisələrində

təhsil aldıqları müddət ərzində ödənişli əsaslarla təhsil alan zaman təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi ilə bağlı cənab Prezidentin qanunvericiliyə uyğun olaraq, təşəbbüsü yüksək qiymətləndirilir. Bu, bir daha göstərir ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla döyüşmüş bütün əsgər və zabitlərimizin qayğısı həmişə dövlət başçısının diqqəti mərkəzindədir. Bu məsələ komitəmizdə geniş müzakirə olunmuşdur. Komitənin rəyi müsbətdir, deputat həmkarlarımdan da bu qanun layihəsinin dəstəkləməsini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəxtiyar müəllim. Səsə qoymaq fikri var. Əgər hamı razıdırsa, mən səsə qoyacağam. Xahiş edirəm, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.35 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Yazılanlar öz çıxışlarını yazılı surətdə təqdim etsinlər. Sədaqət xanım, Siz iki dəfə yazıldınız, çıxış edə bilmədiniz. Xahiş edirəm, katibliyə verə bilərsiniz.

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul olundu.

Hörmətli həmkarlar, bizim növbəti iclasımız oktyabrın 6-da olacaq. İndi isə iclasımız başa çatdı, sağ olun. Hamıya təşəkkür edirəm.

**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XIV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 143

*Milli Məclisin iclas salonu.*
*6 oktyabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 98 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 94 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Elnur Əliyev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini.

**Nuranə Abbasova**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Hüquq şöbəsi müdirinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Avropa Parlamentinin 2023-cü il 5 oktyabr tarixli qətnaməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.

2. “Qiymətli metallar və qiymətli daşlar haqqında”, “Mədəniyyət haqqında” və “Nağdsız hesablaşmalar haq-

qında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

4. Qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

5. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. “Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. “Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. “Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. “Poçt haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

17. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

18. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**1. Avropa Parlamentinin 2023-cü il 5 oktyabr tarixli qətnaməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov, Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə, Elman Nəsirov, Jalə Əliyeva, Azay Quliyev, Bəhruz Məhərrəmov, Vahid Əhmədov, Kamilə Əliyeva, Fəzail İbrahimli, Sahib Alıyev, Tahir Rzayev, Rasim Musabəyov, Zahid Oruc, Tural Gəncəliyev

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 95 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**2. “Qiymətli metallar və qiymətli daşlar haqqında”, “Mədəniyyət haqqında” və “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Fazil Mustafa, Sabir Rüstəmxanlı, Qüdrət Həsənquliyev, Emin Hacıyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

**3. Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**4. Qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Razi Nurullayev, Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Etibar Əliyev, Elşad Mirbəşir oğlu, Əli Hüseynli, Elnur Əliyev

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

**5. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Etibar Əliyev

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

**6. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Əli Hüseynli

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
| Lehinə | 78 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 78 |
| Nəticə: Yetərsay yoxdur | |
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**7. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Elnur Allahverdiyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**8. “Ovçuluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Tahir Rzayev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**9. “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Musa Quliyev, Hicran Hüseynova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Əminə Ağazadə, Razi Nurullayev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**11. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Hicran Hüseynova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**12. "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**13. "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qa-**

**nunundа dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**14. "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**15. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Nizami Səfərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**16. "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Mahir Abbaszadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**17. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Məşhur Məmmədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**18. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Musa Quliyev, Hicran Hüseynova, Tahir Kərimli, Vüqar Bayramov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*6 oktyabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli həmkarlar, hörmətli media nümayəndələri, hörmətli qonaqlar!

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 94 |
| Yetərsay | 83 |

Çox sağ olun, iclasa başlaya bilərik, yetərsay var.

Hörmətli həmkarlar, xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

İştirak edir 93
Nəticə: Qəbul edildi

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 1-ci məsələsi Milli Məclisin Bəyanatı ilə bağlıdır. Bildiyiniz kimi, dünən Avropa Parlamentində Azərbaycanı hədəf alan çirkin siyasi aksiya təşkil olunmuşdur. Ölkəmizə qarşı böhtanlar üzərində qurulan qərəzli bir qətnamə qəbul edilmişdir. Belə bir qeyri-obyektiv sənədin ortaya çıxması onu göstərir ki, Avropa Parlamentində bəzi qüvvələr Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri, Qarabağ bölgəsində suverenliyimizin tam bərpa olunması, münaqişənin tarixə qovuşması ilə heç cür barışa bilmirlər. İşğal dövründə mövcud olmuş və artıq özünü buraxmış qondarma qurumun dəstəklənməsi separatizmə rəvac verməyə yönəlmişdir.

Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlərin görməzliyə vurulması Avropa Parlamentinin ikili standartlardan əl çəkə bilmədiyini göstərir. Azərbaycanın etnik təmizləmədə ittiham edilməsi isə siyasi məsuliyyətsizliyin ən bariz nümunəsidir.

Qeyd etmək lazımdır ki, sözügedən sənəd, əsasən, fransalı deputatların təşəbbüsü ilə hazırlanmış və müzakirəyə çıxarılmışdır. Bu da heç təsadüfi deyil, çünki Fransa bu gün bütün dəyərləri bir kənara qoyaraq açıq-aşkar təcavüzkar Ermənistan dövlətinin yanında yer almışdır. Ancaq həm Fransada, həm də bəzi digər ölkələrdə və təşkilatlarda Azərbaycanın uğurlarını həzm edə bilməyən qüvvələr bilsinlər ki, bütün cəhdləri əbəsdir. Haqq-ədalət Azərbaycanın tərəfindədir. Azərbaycan güclü dövlətdir və xalqı-

mızı yenidən fəlakətə sürükləmək istəyən qüvvələrin qarşısını almağa qadirdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi, "uzaqda, Avropada yerləşən "erməni cəfakeşləri" bilsinlər, nə qədər uzaq dursalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik". *(Alqışlar.)*

Hörmətli həmkarlar, biz məsələnin müzakirəsinə başlayırıq. Çıxış etmək istəyənlər, xahiş edirəm, yazılsınlar. Yazılanlar çoxdur, mən sizin icazənizlə, birinci sözü Səməd Seyidova vermək istəyirəm. Səməd müəllim, buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif var, 3 dəqiqə. 5 dəqiqə? Xahiş edirəm, 5 dəqiqə yox, 5 dəqiqəyə qədər. Buyurun, Səməd müəllim.

**S.Seyidov**. Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Gəlin açıq danışaq, bu qətnamə Avropa Parlamenti tərəfindən Azərbaycana qarşı qəbul olunmuş ilk sənəd deyil. Bu və bunun kimi bir sıra qəbul olunmuş sənədlər, təəssüflər olsun, Avropa Parlamentində faciəvi qanunauyğunluğu özündə ehtiva edir. Hər dəfə, – Sahibə xanım, Siz qeyd etdiniz, – Fransa başda olmaqla bir neçə Avropa ölkəsi müstəmləkəçilik siyasəti iflasa uğrayanda, hər dəfə erməni lobbisinin və onun ətrafında toplanmış qüvvələrin gördüyü işlər darmadağın olanda bu kimi qətnamələrin qəbul olunması gündəmə gəlir. Bu qətnaməni oxusanız, baxsanız, – yəqin ki, hamı baxıb da, oxuyub da, – irqçi, islamofob, antitürk, Azərbaycana və Türkiyəyə qarşı təhqirlərlə dolu, hətta sanksiyalar tələb edən qətnamə üzə çıxmışdır. Sözügedən qətnamə də elə, bax, bu məsələləri özündə ehtiva edir. Sadəcə, bu qətnamənin qəbul olunması onların iç üzünü tam şəkildə açmışdır. Ona görə ki, hörmətli xanım sədr, Siz də bunu

qeyd etdiniz. Bu dəfə, dediyim kimi, Fransa və onun ətrafında toplanmış bir neçə ölkənin Azərbaycanın qələbəsini şübhə altına alaraq Qarabağa hər hansı bir status vermək, kənar ölkələrin Qarabağda qoşunlarını yerləşdirmək və bununla da Azərbaycanın suverenliyini, müstəqilliyini bəlkə də əbədi şübhə altına almaq cəhdi tam şəkildə iflasa uğramışdır. Bu iflasa uğramağına görə bunlar bu cür iftira, yalanla dolu qətnamənin qəbul olunmasını gündəmə gətirmişdilər.

Bu qətnamənin içərisində Azərbaycana qarşı olan nifrət həm də ondan irəli gəlir ki, artıq gələcəkdə Azərbaycanın regionda siyasətinə, mövcudluğuna, suverenliyinə, müstəqilliyinə belə müdaxilə etmək şansları Azərbaycan tərəfindən tam şəkildə ləğv olunmuşdur. Artıq heç kim Azərbaycanın ərazi bütövlüyünü şübhə altına ala bilməz. Artıq heç kim müstəqillik haqqında Azərbaycanla hansı isə formada söhbət edə bilməz. Ona görə də açıq demək lazımdır, bu qətnamə həmin qüvvələrin gücsüzlüyünü, çarəsizliyini əks etdirən qətnamədir. Bu qətnamə gücsüzlük qətnaməsidir, qorxaqlıq qətnaməsidir, irqçilik qətnaməsidir, islamofob qətnamədir.

Hörmətli Sahibə xanım, təbii ki, bu qətnamənin üzərindən biz xətt çəkəcəyik. Ancaq hadisələrin gedişi onu göstərir ki, bu qətnamə elə Avropa Parlamentinə rəhbərlik edən, onun işini idarə edən qurumlar tərəfindən rədd olunacaq. Dünən həmin İspaniyada, Qranadada qətnamənin qəbul olunmasından sonra Avropa rəhbərlərinin dərhal Azərbaycanla ən yüksək səviyyədə əlaqələrin qurulması haqqında söhbət açması, Azərbaycanın əhəmiyyətini Avropaya bəyan etməsi və hətta qətnamənin içərisində olan sanksiyaların belə heç bir əhəmiyyətinin olmaması haqqında bəyanatın verilməsi elə bu qətnamənin üzərindən

xətt çəkmək deməkdir. Niyə? Ona görə ki, siyasətimiz ən yüksək səviyyədə düzgündür, xalqımızın iradəsi dəyişməzdir və Azərbaycan Respublikası Prezidentinin apardığı siyasət beynəlxalq qanunlara və Azərbaycanın milli maraqlarına söykənən bir siyasətdir. Heç bir qətnamə Azərbaycana təsir edə bilməz. Bu qətnamə də o biri qətnamələr kimi tarixin zibilliyinə atılacaq, Azərbaycan isə öz yolu ilə gedəcək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli? Əslində, mən dedim, eşidəndə mənə elə gəldi, 3 dəqiqə. Bu təklif, dəstək varsa, başqa bir təklif yoxdursa, 3 dəqiqə lap yaxşı. Razısınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Qüdrət Həsənquliyev. Buyurun, Qüdrət müəllim.

**Q.Həsənquliyev**. Hörmətli sədr, hörmətli həmkarlar, iclas iştirakçıları. Doğrudan da, Avropa Parlamentinin qəbul etdiyi qərar hər birimiz üçün ürəkbulandırıcı oldu. Əksinə, hamımız bilirik ki, Avropa İttifaqı bir xristian klubudur və uzun illərdir qardaş Türkiyəni bu ittifaqa buraxmırlar və bunun da kökündə məhz Türkiyənin bir müsəlman ölkəsi olmasıdır. Biz bilirik ki, Avropada güclü erməni diasporu var, biz bilirik, Avropada islamofobiya çox geniş yayılıb. Məhz Avropanın ədalətsiz mövqeyi nəticəsində 1988-ci ildə erməni separatizmi baş qaldırdı və onlar bu separatizmi dəstəklədilər. Separatçılara maliyyə yardımı ayırdılar. Ermənistanı işğalçı dövlət kimi tanımadılar, Ermənistana sanksiya tətbiq etmədilər. Nəticədə Ermənistan etnik təmizləmə siyasəti həyata keçirdi. Bu siyasəti, etnik təmizləməni də çox acımasızcasına, azərbaycanlılara qarşı ağır işgəncələrə yol verməklə, qarlı-

soyuqlu havada onları ayaqyalın öz ev-eşiklərindən qovmaqla, insanları qovub Araz çayına tökməklə həyata keçirdilər. Amma Avropa o zaman bunları görmədi, Avropa o zaman Ermənistana sanksiya tətbiq etmədi, Ermənistanın bu hərəkətini pisləmədi. İndi ermənilər özləri Azərbaycanın yurisdiksiyasında yaşamaq istəmirlər və Qarabağdan köçüb gedirlər. Bunu etnik təmizləmə adlandırırlar. Halbuki Azərbaycan polisi onlara su verir, yemək verir və sərhədçilərimizlə birlikdə onları hörmətlə yola salırlar.

Bütün bunlar onu göstərir ki, biz nə etsək də, Avropanın bizə münasibətini dəyişə bilmərik. Bu, bir halda ola bilər ki, biz öz hüquqlarımızdan imtina edək, öz torpaqlarımızdan imtina edək. Əlbəttə, Azərbaycan buna getməyəcək, Azərbaycan 1990-cı illərin Azərbaycanı deyil, Azərbaycan güclüdür, onun güclü, təbii müttəfiqləri var, ona görə də Avropa Parlamenti bu tipli qərarlar qəbul etməklə yalnız və yalnız Avropada islamofobiyanın nə dərəcədə güclü olmasını göstərəcək. Azərbaycana münasibətdə bu ölkələrin nə qədər nifrət dolu hisslər yaşadığını nümayiş elətdirəcək, münasibətlərimizə ziyan vuracaq. Azərbaycan hər bir halda, onsuz da, öz ərazi bütövlüyünü bərpa edib, öz əraziləri üzərində dövlət suverenliyini təmin edib və bu yoldan bizi hədələrlə, qorxutmaqla heç kim çəkindirə bilməz. Avropa Parlamentinin qəbul etdiyi o rüsvayçı, biabırçı qətnamə, hesab edirəm ki, onların tarixində, Azərbaycan – Avropa Birliyi münasibətlərində bir qara ləkə olaraq qalacaqdır. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, 3 dəqiqə sizin təklifiniz oldu. Xahiş edirəm, düzgün başa düşün, mən bildiyimə görə, hansı isə narazılıq var ki, nəyə görə 5 dəqiqə olmadı, yəni Nizamnamədə yoxdur. Xeyr.

Bəyanat üçün 3 dəqiqə olar. Kim istəmirdisə, əlini qaldırıb təkid edərdi. Aydın Mirzəzadə. Buyurun, Aydın müəllim.

**A.Mirzəzadə**. Təşəkkür edirəm, Sahibə xanım. Avropa Parlamentinin dünənki qətnaməsi anti-Azərbaycan məqsədi daşıyaraq qərəzlidir, ədalətə, həqiqətə ziddir, Avropa Parlamentinin özünün nüfuzuna ləkə gətirən, onun tarixində biabırçı səhifələrdən biri olan sənəd kimi qiymətləndirilə bilər. Avropa Parlamenti, əslində, bu gün qaragüruhun, işğalçılığın, beynəlxalq hüquqa "yox" deyənin tərəfində durur. Avropa Parlamenti bu qətnaməsi ilə Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alır. Azərbaycanın öz suveren hüquqlarını həyata keçirməsini şübhə altına alır və Azərbaycanın işğaldan azad etdiyi, separatçı rejimin nəzarəti altında olan ərazini, öz nəzarəti altına götürdüyü tədbirlərdə gördüyü fəaliyyəti görmək istəmir. Belə təsəvvür yaranır ki, Avropa Parlamentində nə kompüter var, nə internet var, nə də hər hansı bir məlumatı operativ əldə etmək var. Separatçı rejimin özünün orada olan əhalini təkidlə həmin ərazidən çıxarmaq çağırışlarını eşitmir. Eyni zamanda, köçən əhaliyə bizim sərhədçilərimizin, hərbiçilərimizin diqqət və qayğı göstərdiklərini də görmür. Biz bunu Xocalı faciəsi törədiləndə, Kəlbəcər, Laçın, digər rayonlarımız işğal olunanda görmədik.

Avropa Parlamenti nədənsə, 1988-ci ildən Ermənistanın Azərbaycan torpaqlarına iddiasına göz yumdu. Avropa Parlamenti Xocalı faciəsinə göz yumdu, rayonlarımızın işğalına göz yumdu, 1 milyona yaxın yerli əhalimizin torpaqlarımızdan qovulmasına göz yumdu, hüquqlarımızın pozulmasına göz yumdu.

Bu gün Ermənistanın işğalçılıq siyasətini ən qatı şəkildə müdafiə etmək mövqeyi tutub. Açığını deyim, bunu parlamentdən daha çox bir qaragüruhçuluq, qara fikirli

insanların bir tribunası kimi görmək olur. Çox təəssüf ki, Avropa kimi yüksək bir ada malik olan bir parlament belə qərəzli qətnamələr qəbul edir. Bu qətnaməni biz qətiyyətlə rədd edirik. Belə qətnamələrlə, belə siyasətlə Azərbaycanı təsir altına ala, Azərbaycanı müstəqillik yolundan çəkindirə, ərazi bütövlüyünə sahib olmaq siyasətindən əl çəkdirə bilməyəcəklər. Onlar qətnamə qəbul edəcəklər, biz torpaqlarımızı bərpa edəcəyik. Onlar qətnamə qəbul edəcəklər, biz Qoşulmama Hərəkatına uğurla rəhbərlik edəcəyik. Onlar qətnamə qəbul edəcəklər, biz paytaxtımızda Beynəlxalq Astrofizika Konqresi keçirəcəyik. Onlar qətnamə qəbul edəcəklər, biz bütün torpaqlarımızı bütün dünyanın diqqətini cəlb edən gözəl bir diyara çevirəcəyik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, siz bilirsiniz, biz bəyanat qəbul etməliyik və bəyanatın mətnini hazırlamaq üçün komissiya yaratmalıyıq. Təklif var ki, adını çəkdiyim deputatlar komissiyanın üzvləri olsunlar. Nizami Səfərov – komissiyanın sədri, komissiyanın üzvləri isə Elman müəllim Məmmədov, Aqiyə xanım Naxçıvanlı, Tural Gəncəliyev və Razi Nurullayev. Başqa fikir yoxdur ki? Mən xahiş edirəm, komissiya işə başlasın. Fərid müəllim, xahiş edirəm, Siz kömək edin.

Biz isə çıxışlarımıza davam edək. Buyurun, Elman müəllim, Aqiyə xanım, Razi müəllim, Tural Gəncəliyev. Tural, Siz çıxmısınız? Buyurun. Növbəti çıxış. Elman Nəsirov. Elman müəllim, buyurun.

**E.Nəsirov**. Hörmətli sədr, hörmətli həmkarlar. Dünən, oktyabr ayının 5-də Avropa Parlamentinin qəbul etdiyi anti-Azərbaycan qətnaməsi ilə, onun mətni ilə tanışlıqdan sonra bir az vaxt ayırıb son zamanlar Ermənistan parlamentinin Azərbaycan əleyhinə qəbul etdiyi bəyanatlar, səslənən fikirlərlə müqayisə apardım. Gəldiyim nəticə

ondan ibarət oldu ki, hələ bu günə qədər Ermənistan parlamenti Azərbaycan əleyhinə bu qədər sərt bir sənəd qəbul etməyib. Yəni indiki halda Avropa Parlamenti hətta Ermənistan parlamentindən də kəskin anti-Azərbaycan mövqeyi ortaya qoyub. Öz-özümə sual da verdim ki, görəsən, bunun motivləri nə ilə bağlıdır. Bəlkə bizim bilmədiyimiz başqa həqiqətlər var. Bəlkə elə bu qətnamənin qəbulunda xüsusi rol oynayan fransızlarla ermənilər etnik qohumdur, onları eyni köklər birləşdirir. Yox, heç bir qohumluq da yoxdur, heç bir tarix də birləşdirmir. Sadəcə, əsas səbəb odur ki, bu gün bunu böyük təəssüf hissi ilə qeyd edirik, Avropa Parlamenti, sözün əsl mənasında, bir bazarlıq meydanına çevrilib. Avropa Parlamentində “əl əli yuyar, əl də üzü yuyar” prinsipi ilə işləyirlər. Avropa Parlamentinin vitse-prezidenti səviyyəsinə qədər rüşvətxorluq və korrupsiya halları üzə çıxır və bütün dünya buna şahidlik edirsə və ifşa faktları üzə çıxırsa, deməli, eyni məntiq bu gün də işləyir. Bu gün Avropa Parlamentində xirtdəyə qədər rüşvət və korrupsiyaya bulaşmış parlamentarilər var və onlar öz missiyalarını bu gün yerinə yetirirlər. Bu, Avropa Parlamentinin də imicinə, – onsuz da, onların imici lazımi bir səviyyədə də deyildi, – çox ciddi zərbədir.

Amma eyni zamanda, onu da qeyd edim ki, Avropa yekcins deyil. Avropada bir Avropa Parlamenti, Avropanın bir qanunverici orqanı var, eyni zamanda, Avropanın bir icra orqanı var ki, o da Avropa Komissiyasıdır. Bizim Avropa Komissiyası ilə çox yaxşı münasibətlərimiz var. İndi hörmətli Səməd müəllim qeyd etdi, İspaniyada keçirilən danışıqların gedişatında Avropa İttifaqının rəhbərliyi birmənalı şəkildə Azərbaycanın mövqeyini müdafiə etdiyini ortaya qoyur. Həm də Avropa Komissiyası

Avropa hökuməti olaraq onun fərqindədir ki, oturduğu ağacın budağını kəsmək nə deməkdir. Bu gün Avropa İttifaqının Azərbaycandan enerji təminatı sahəsində artıq çox ciddi asılılığı var. Elə mən belə deyərdim, bu gün Azərbaycan Avropa üçün yeni, alternativ və yeganə enerji mənbəyidir. Ona görə də avropalı parlamentarilərin bu siyasi hoqqabazlığının heç bir mənası yoxdur və belə təzyiqlərlə Azərbaycanı...

**Sədrlik edən.** Çox sağ olun, Elman müəllim. Jalə Əliyeva. Buyurun.

**J.Əliyeva**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli millət vəkilləri! Artıq qeyd edildi, Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi qətnamə bu qəbildən ölkəmizə qarşı atılan ilk addım deyil. Bu qurum Avropa məkanında anti-Azərbaycan, anti-Türkiyə təbliğatı ilə məşğul olan təşkilata çevrilib. Dəfələrcə heç bir fakta əsaslanmayan, iftiralarla dolu qətnamələr qəbul etsələr də, Azərbaycan öz haqq davasından bir addım da olsa geri çəkilməyib. Sözügedən qətnamənin qəbulu Avropada ermənipərəst qüvvələrin hərəkətə keçdiyini göstərir və regionda sülh naminə görülən işlərə kölgə salmağa, sülh danışıqlarına zərbə vurulmasına hesablanıb.

30 illik işğal dövründə bir dəfə də olsun Ermənistanın işğalını tənqid etmədilər, eləcə də Ermənistana qarşı müəyyən təzyiq, təsir mexanizmlərini, sanksiyaları özündə ehtiva edən bir addım belə atmadılar. Görünür ki, Qarabağda baş verən son hadisələr, Azərbaycanın uğurları onları çox narahat edir və onların bir qismi bu şəkildə Avropa İttifaqını Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə məcbur etmək istəyirlər.

Bir daha qeyd etmək istəyirik ki, Azərbaycana qarşı Avropa İttifaqının hər hansı sanksiya ilə çıxış etməsi və bu

istiqamətdə qətnamə qəbul etməsi heç bir azərbaycanlı qarşısında öhdəlik yaratmır və heç bir qüvvəyə malik deyil. Avropa İttifaqının Azərbaycana qarşı qətnamə qəbul etməsi, əslində, başından bəri perspektivsizdir. Nəzərə almaq lazımdır ki, Avropa İttifaqının 9 dövləti ilə Azərbaycanın strateji tərəfdaşlıq münasibətləri var. Avropa Parlamentinin istənilən qərar və qətnamələrindən asılı olmayaraq, Azərbaycan öz ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsi istiqamətində beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, siyasətini həyata keçirməyə davam edəcək. Regionda heç bir kənar qurumun rəyindən asılı olmayaraq, sülh gündəliyinin təşviq edilməsinə, sülhün və sabitliyin bərqərar olmasına çalışacaq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Azay Quliyev. Buyurun, Azay müəllim.

**A.Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycan dünyada yeganə dövlətdir ki, xüsusi ilə 1975-ci ildə ATƏT-in Helsinki Yekun Aktı qəbul edildikdən sonra öz ərazi bütövlüyünü, suverenliyini hərbi-siyasi yolla bərqərar etdi, bərpa etdi. Azərbaycan yeganə ölkədir ki, BMT Nizamnaməsini və beynəlxalq hüquq normalarını qeyd-şərtsiz, həm hörmət edərək, həm də onun həyata keçirilməsini və beynəlxalq hüquq normalarının təntənəsini, bütövlükdə, bütün dünyaya nümayiş etdirdi. Belə olan halda, Avropa İttifaqının, yaxud Avropa Parlamentinin üzvləri, ayrı-ayrı ölkələr Azərbaycana təşəkkür etmək əvəzinə, Azərbaycana bu qədər şər, yalan, böhtan xarakterli düşmən münasibəti bəsləyirlər.

Bu gün həmin Avropa Parlamentinin 473 nəfər üzvü var, bu bədnam qətnaməyə səs veriblər, onların hamısı Ukraynanın ərazi bütövlüyü uğrunda mübarizə aparırlar.

Azərbaycan nə edir? Azərbaycan da eyni şeyi etdi, ərazi bütövlüyünü bərpa etdi, separatizmə son qoydu, qanunsuz silahlı birləşmələri, qüvvələri orada tərk-silah etdi. Başqa nə etdi? Ermənilər könüllü olaraq Azərbaycan ərazisini tərk etdilər. Amma gül-çiçəklə, biz onlara su, uşaqlarına konfet, şokolad verməklə yola saldıq. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, baxmayaraq ki, 1990-cı illərdə azərbaycanlıları əliyalın, çılpaq şəkildə, öldürərək çıxardılar. Kəlbəcərə 9 saat vaxt verdilər ki, Kəlbəcər əhalisi oranı tərk etsin. Ondan sonra yenə də oradakı əhalini öldürdülər, qətliam törətdilər. Amma Azərbaycan nə qədər böyük humanizm nümunələri göstərdi.

Ona görə də, hörmətli xanım sədr, bu cür siyasi riyakarların, bu cür qərəzli insanların, korrupsiyaya bulaşmış siyasətçilərin qəbul etdiyi o kağız parçasının heç bir əhəmiyyəti yoxdur.

Fransa bu gün bu prosesdə öncüllük təşkil edir. Fransa, bir tərəfdən, mediator, yaxud vasitəçi rolunu oynamaq istəyir. Amma xarici işlər naziri oktyabrın 3-də gəlib Ermənistanda bəyanatlar verir, Ermənistana silah-sursat verəcəyini söyləyir, Azərbaycanı "etnik təmizləmə"də ittiham etmək istəyir. Sonra gəlib deyir ki, ayın 5-də niyə iclas, beştərəfli görüş baş tutmadı. Azərbaycan Prezidenti çox qətiyyətli, prinsipial mövqe nümayiş etdirərək həmin Qranada görüşünü rədd etdi. Belə bir görüşdə, Fransanın iştirak etdiyi bu cür toplantılarda iştirak etməyəcəyini dedi. Doğru da etdi.

Bəli, biz sülh gündəliyinə sadiqik. Biz yaxın həftələrdə Brüsseldə təşkil olunacaq görüşlərdə iştirak edəcəyik. Amma Fransa kimi ikiüzlü, riyakar ölkələrin təşkil etdiyi toplantılarda, hər hansı vasitəçiliklə həyata keçirilən görüşlərdə iştirak edə bilmərik.

Ona görə də, mən hesab edirəm ki, biz bu cür məsələlərə, bu cür qətnamələrə heç bir fikir verməməliyik. Azərbaycan öz işini yüksək səviyyədə görür, beynəlxalq hüquqa da, insan hüquqlarına da hörmət edir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Hörmətli sədr, əziz həmkarlar. Konstitusiyanın 10-cu maddəsinə əsasən "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur". Amma yalnız son 1 aylıq dövrü təhlil etsək, Fransa və Avropa İttifaqının Azərbaycana münasibətdə beynəlxalq hüququn prinsiplərinə necə zidd və açıq formada qərəzli davranışlar sərgilədiyinin şahidiyik. 30 il maskalanmağa çalışan Fransa bu gün açıq formada özünü erməni dövləti kimi aparır. Korrupsiya yuvası Avropa Parlamenti son bir aya yaxın dövrdə, bütövlükdə, gündəmini Azərbaycana həsr edib. Nəyə görə? Çünki Azərbaycan beynəlxalq hüququn aliliyini təmin edib. Separatizmlə mübarizədə effektiv nəticə ilə cənab İlham Əliyev çoxlarına ustad dərsi keçib. Puçdemonun həbsini ayaq üstə alqışlayan riyakarlar bu gün Qarabağdakı qondarma rejimin "liderlərinin" həbsindən narahatlıq ifadə edirlər.

Bizim mövqeyimiz aydındır, müdafiə olunmağa da, haqqımızı söküb almağa da gücümüz var. Bu prosesdə əsas Ermənistan diqqətli olmalıdır. Ermənistan ilk növbədə məhz Azərbaycanla əməkdaşlıq nəticəsində düşdüyü dalandan çıxa biləcəyini anlamalıdır. Ötən il Zəfər Günündə cənab Prezidentin Şuşadan bəyan etdiyi kimi, Ermənistan başa düşməlidir ki, min kilometrlərlə kənardan heç kim gəlib onların yerinə döyüşməyəcək. Ermənistan anlamalıdır ki, Fransa, yaxud Avropa İttifaqı üçün heç bir

ermәninin taleyi maraqlı deyil, әksinә, onlar indiki mәqamda ermәnilәrdәn istifadә edәrәk bölgәdә maraqlarını tәmin etmәk niyyәtindәdirlәr. Bu isә kiçik dalan dövlәti olan Ermәnistan üçün sui-qәsd demәkdir.

Azәrbaycan indi bir reallıq yaradıb, özü dә dәyişmәz reallıq. Avropa Parlamenti indi bizә sanksiya tәtbiq etdi, nә fәrq edәr, yaxud etmәdi, nә fәrq edәr? Biz artıq güclüyük vә bir az daha dәrindәn tәhlil edilsә, başa düşmәk çәtin deyil ki, kim kimdәn daha çox asılıdır vә kim kimә möhtacdır.

Möhtәrәm Prezident Bakıda 74-cü Beynәlxalq Astronavtika Konqresinin açılış mәrasimindәki tarixi çıxışında bәyan etdi ki, "indi Qafqazda sülh üçün vaxt yetişib".

Hәqiqәtәn, bu gün Qafqaz әsrlәrdir möhtac qaldığı sülhә mәhz Prezident İlham Әliyevin sayәsindә heç vaxt olmadığı qәdәr yaxındır. Bu gün Azәrbaycan vә Ermәnistan arasında sülh müqavilәsinin imzalanması üçün faktiki olaraq heç bir prinsipial maneә qalmayıb. Biz sülhün bir addımlığındayıq. Amma görünәn odur ki, Avropa Parlamenti, Fransa, Almaniya kimi subyektlәr bu bir addımlıq mәsafәyә israrla burunlarını soxmaq istәyirlәr. Әlbәttә, bizim üçün onların nә sözlәrinin, nә dә özlәrinin heç bir qiymәti yoxdur. Amma eyni zamanda, bilsinlәr ki, Avropa Parlamentindә şәrәfini satmış siyasәtçilәri kim necә vә neçәyә danışdırır, bu bizә bәllidir.

Ona görә dә möhtәrәm Prezidentin dediyi kimi, "hәr kәs getsin öz işi ilә mәşğul olsun" vә bizim sәbrimizlә oynamasınlar. Hәr bir halda itirәn biz olmayacağıq. Heç kim möhtәrәm Prezidentin iradәsinә tәsir edә bilmәz. Vәtәn müharibәsindә bizә mәğlub olanlar bundan sonra mübarizәdә israrlı olacaqlarsa, mәğlubiyyәtlәr seriyasına hazır olmalıdırlar.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov.** Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, mətbuat. Bildiyiniz kimi, Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində 30 il işğal altında olan torpaqlar azad edildi və Qarabağda məskunlaşmış erməni sakinlərə şans verildi ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünə və Konstitusiyasına uyğun, birgəyaşayış qaydalarına riayət etməklə seçim etsinlər. Təəssüf olsun ki, bu, baş vermədi. Nəticədə Azərbaycan dövləti öz suveren ərazisində bölgənin terrorçulardan təmizlənməsi, insan itkilərinin qarşısının alınması və qayda-qanunun bərqərar edilməsi üçün 19 sentyabrda qısamüddətli antiterror əməliyyatına başladı. Nəticədə Qarabağ bölgəsi tam olaraq erməni separatçılarından azad edildi.

Təəssüf ki, başda Fransa olmaqla bir sıra Avropa dövlətləri Azərbaycanın bu qələbəsini həzm edə bilmədi və dövlətimizin əleyhinə bir sıra bəyanatlar verməyə başladılar. Hər zaman Ermənistanın çirkin əməllərini müdafiə edən Fransa az imiş kimi, dərhal öz xarici işlər nazirini Ermənistana ezam etdi. O da səfər öncəsi Türkiyə ərazisində yerləşən Ağrı dağını Ermənistan ərazisi kimi təsvir edərək çirkin niyyətini gizlətmədi. Səfər zamanı Azərbaycanın əleyhinə bir sıra sərsəm açıqlamalar verməklə öz çirkin niyyətlərini bir daha nümayiş etdirdilər.

Qeyd etmək istəyirəm ki, bizim Xarici İşlər Nazirliyindən də tutarlı cavablarını aldılar. Çox düzgün olaraq bu hadisələrin fonunda cənab Prezident İspaniyada keçirilən Avropa İttifaqının toplantısına getməyəcəyini bəyan etdi. Bu qərar, təbii ki, böyük narahatlıq yaratdı və Almaniyanın kansleri Olaf Şoltsun zəng etməsi vəziyyətin nə qədər ciddi olmasından xəbər verdi.

Beştərəfli görüş bizim iştirakımız olmadan baş tutsa da,

Ermənistanın baş naziri Avropa İttifaqı, Almaniya və Fransanın rəhbərliyi ilə Qranadada Azərbaycanın ərazi bütövlüyünün tanınması barədə rəsmi sənəd, bəyanat imzaladı. Bunun ardınca Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel oktyabr ayının sonunda Azərbaycan və Ermənistan rəhbərlərinin Brüsseldə görüşünün təşkili barəsində fikir söylədi. Almaniya kansleri Şolts Azərbaycanın ərazi bütövlüyünü bir daha qeyd edərək, BMT missiyasının Qarabağda fəaliyyətini və oradakı vəziyyəti yüksək qiymətləndirdi. Faktiki olaraq Fransa Prezidentinin Qranada görüşündə Azərbaycana qarşı mövqeyi fiaskoya uğradı. Qətnamənin qəbul olunmasına baxmayaraq, faktiki olaraq Makron sonradan Azərbaycana qarşı sanksiyalar deyil, danışıqlar yolunu tutmağı təklif etdi.

Mən belə hesab edirəm ki, ümumiyyətlə, hazırkı vəziyyətdə Azərbaycan özü üçün 3 məsələni həll etməlidir və bu məsələlərin üzərində işləməlidir.

1. Ermənistan Respublikası ilə sülh müqaviləsinin imzalanması.

2. Rusiya sülhməramlılarının bölgədən tədricən çıxarılması.

3. Xankəndidə idarəetmə və icra orqanlarının fəaliyyətinin təşkil edilməsi.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamilə Əliyeva. Buyurun.

**K.Əliyeva.** Təşəkkür edirəm. Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Dünən rüşvət çirkabına batmış Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli, böhtan dolu qətnamə qəbul etməsi, əslində, ilk belə qərəzli qətnamə deyil. Bu cür qətnamələrin Azərbaycana qarşı hər hansı təzyiq vasitəsi kimi istifadə edilməsi yersizdir. Bu qətnamə heç bir şeyi dəyişmir və bu qətnamənin icra edilməsi

də qeyri-mümkündür.

Prezident cənab İlham Əliyevin apardığı qətiyyətli siyasət Azərbaycanın milli maraqlarına və beynəlxalq hüquqa əsaslanır və bu qətnamə Azərbaycan üçün kağız parçasından başqa heç bir əhəmiyyət kəsb etmir.

Dünən Prezident cənab İlham Əliyev böyük qətiyyət və prinsipiallıq nümayiş etdirərək Qranadada beştərəfli görüşə getmədi. Dünəndən Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirən ölkələrin, xüsusən də Fransa hakimiyyətinin təsiri altında olan bəzi beynəlxalq media resurslarında Azərbaycanın Ermənistanla təmasdan və danışıqlardan imtina etməsi barədə xəbərlər dərc edilir. Dövlət başçımız bütün çıxışlarında Fransanın iştirakı olmadan Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasında bütün platformalarda iştirak etməyə hazır olduğunu qeyd edib. Çünki  Fransa 30 il ərzində yalnız işğalçı Ermənistan dövlətini dəstəkləyib, Cənubi Qafqazda sülhün yaranmasına hər zaman əngəl törədib.

Azərbaycan dövləti beşlik formatında region dövləti olaraq Türkiyənin iştirakının da vacibliyini vurğulasa da, qarşı tərəf buna razılıq verməmişdi. Bu, bir daha Qərbin Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirməsinin sübutudur. Ermənistan və onun Qərbdəki havadarları bilməlidirlər ki, Azərbaycanla diktə, hədə ilə danışmaq heç bir fayda verməz. Azərbaycan bütün sahələrdə bu ölkələrə və qüvvələrə lazımi cavab verə biləcək güclü bir dövlətdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail İbrahimli. Fəzail müəllim, söz istəmişdiniz. Buyurun, söz Sizindir.

**F.İbrahimli.** Təşəkkür edirəm.  Hörmətli sədr, hörmətli həmkarlar və mətbuat nümayəndələri. Avropa Parlamentinin qəbul etdiyi bu qərar  təəssüf doğurur, amma bizi

təəccübləndirməməlidir. Biz bu boz üzləri, nimdaş sifətləri 30 ildən artıqdır görürük və bunlarla daim üz-üzə qalıb, sonuncu addımımızla bunları çox çətin duruma qoymuşuq. Təbii ki, bu, nəticəsiz ötüşə bilməzdi.

Cənubi Qafqaz siyasətində çox biabırçı məğlubiyyətə uğrayan Fransa, onun rəhbərliyi özünün Azərbaycana qarşı münasibətini bu cür ifadə etdi – bir kağız üzərində qalmış qətnamə kimi. Əlindən başqa nə gəlir? Bu, Ermənistanı sakitləşdirmək üçün atılan bir addımdır. Azərbaycana bunun xüsusi heç bir təsiri olmayacaq. Qətnaməni diqqətlə oxuyanda bir neçə məqam diqqəti çəkir. Cənubi Qafqaz siyasətindən tamamilə kənarlaşdırılan və hörmətsiz duruma düşən Fransanın o qətnamədə ifadə etdiyi bir məqamı sizinlə bölüşmək istərdim: "Avropa Parlamenti Qarabağda ilk missiyasının təşkilindən məyusluğunu bildirməklə yanaşı, bölgədə BMT-nin nəzarəti altında beynəlxalq iştirakın bərqərar edilməsinə tərəfdar olduğunu vurğulayır". Yəni biz qalmışıq kənarda.

Əslində, Avropa Parlamenti BMT-ni də burada ittiham edir ki, bizi özünüz kənarda qoymusunuz. Çünki BMT-nin Azərbaycanla bağlı dediyi fikirlər ədalətli fikirlər idi.

İkincisi isə, mən qeyd etdim, Ermənistana bir təsəllidir. Amma bunun içərisində həm də Ermənistandan da tələblər var. Burada Ermənistana "biz sizi müdafiə edəcəyik," hansı şərtlərlə? "Ermənistan mövcud hərbi ittifaqına yenidən baxarsa, Avropa İttifaqının təhlükəsizlik dəstəyinə ümid bəsləyə bilər". Yəni bu, nə deməkdir? Moskva ilə strateji müttəfiqlikdən, Rusiyanın hərbi bazalarından, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından imtina edərsə, Brüssel Ermənistana müdafiə dəstəyi verə bilər. Amma əslində, bu realdırmı? Avropa İttifaqının təhlükəsizlik strukturu varmı, Ermənistanı müdafiə etsin?

Ona görə də bir-biri ilə tamamilə bağlı olmayan, müxtəlif səmtlərə, istiqamətlərə yönələn, BMT-ni ittiham edən, Azərbaycana hədə-qorxu gələn bu qətnamə, əslində, Fransanın düşdüyü vəziyyətdən çıxmaq üçün atdığı addımdır. Çox pərt olub, rəzil duruma düşüb. Avropa hazırda elə bir durumdadır ki, onun ittifaqının rəhbərliyinə güclü təsir edən Makrondursa, deyir, "ağası gülüm olanın başına külüm olar". Salıb Avropanı o günə.

Ona görə də  mən hesab edirəm ki, Azərbaycan bütün situasiyalardan uğurla çıxıb. Dövlətimizin böyük iqtisadi qüdrəti var, rəhbərimizin qəti iradəsi var, xalqımızın birliyi var. 24 il ərzində başqa dövlətlərin edə bilmədiyini 23 saat 43 dəqiqədə həyata keçirən Azərbaycan dövləti özünün yolunu davam etdirəcək. Necə deyərlər, "dəyirman bildiyini edər, çaq-çaq baş ağrıdar". Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Burada Avropa Parlamentinin növbəti anti-Azərbaycan addımlarına toxunuldu. Davranışlarından belə bir təəssürat yaranır ki, Qərbdə yeni Papa Urban peyda olub, yaxud elə Fransa prezidenti özü Papa Urbandır. Bunun hər ikisi mümkündür, amma min il bundan öncənin standartları ilə çıxış edənlərin Qarabağı Edessaya, yaxud XII-XIII əsrlərdə Yaxın Şərqdə yaratdıqları digər 3 knyazlığa çevirmələri isə mümkünsüzdür. Çünki əllərində bizə qarşı faydalana biləcəkləri heç bir kartları yoxdur.

Baxın, nə deyirlər? Deyirlər ki, qaçqınlar öz yurdlarına dönməlidir. Əlbəttə, qaçqınlar qayıtmalıdırlar və onlar, içi mən qarışıq, indi Ermənistan adlanan yerdə etnik təmizləmə ilə üzləşənlərdir. Qarabağdakı haydillilər nə qaçqındırlar, nə də məcburi köçkün. Demək olar ki, hamısı Ermənistan pasportu daşıyan və Azərbaycanın qalıb vətən-

daşlarımız olaraq yaşamaq təklifinə rəğmən, öz istəkləri ilə Qarabağı tərk edənləri necə qaçqın, yaxud məcburi köçkün adlandırmaq olar? Bəli, onların yaşadıqları yerləri diktə altında tərk etdikləri sirr deyil. Amma bu, Azərbaycanın deyil, belə bir addım atacaqları halda kosovolular kimi onları qanadları altında geri qaytaracaqlarını vəd edənlərin diktəsi olub. Biz Sovet dönəmində Qarabağda yaşamış haydillilərin və onların törəmələrinin gəlib Azərbaycan vətəndaşlığı daşımalarının əleyhinəyikmi? Xeyr, amma necə gediblərsə, özləri eləcə də dönməlidirlər, yanlarında yandaşa ehtiyac yoxdur və elələri Paris meri kimi torpaqlarımıza buraxılmayacaqlar.

Buradan Qərbdəki bəlli çevrələrə səslənirəm. Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi də göstərmədimi ki, biz XI deyil, XXI əsrdə yaşayırıq. Özlərini din təəssübkeşi kimi göstərənlər, siz axı, Vatikandakı dağılan katakombaların bərpasına bir qəpik belə ayırmaq istəmədiyiniz halda, bunu Anqlikan kilsəsinin Bakıda səfərdə olan rəhbərinin də vurğuladığı kimi, Azərbaycan etdi.

Sevrdəkindən cəmi 3 il sonra  Lozanna anlaşmasının necə meydana çıxdığından ibrət götürməyən qonşularımız, anlayın ki, oyun bitib. Regionun gələcəyi Qranadada, yaxud da Brüsseldə deyil, burada  müəyyənləşir. Məhz dünən Xocalıda bayrağımızın  qaldırılması da onun növbəti təsdiqi deyildimi?

Xocalıdan söz düşmüşkən, xanım sədr, düz 5 gün dayanmadan təkbaşına düşmənə qarşı vuruşmuş, sonda 22 xocalılını ölümdən qurtarmaq üçün özünü əsir etmiş Natiq Qasımov adlı bir  qəhrəmanımız var. Mən 6 il öncə onun doğmaları və qəhrəmanlığını  öz gözü ilə  görən Xocalı sakini Cəfər Cəfərovla görüşüb onların dediklərini sənədləşdirmişəm və "YouTube"da var. Əminəm ki, müzəffər

Ali Baş Komandanımıza Natiq Qasımov haqqında dəqiq məlumat verilsə, o, haqq etdiyinə layiq görüləcək. Üstəlik, Xocalıdakı küçələrdən birinə Natiq Qasımovun adı veriləcək. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Rzayev. Tahir müəllim, buyurun.

**T.Rzayev.** Hörmətli sədr, hörmətli deputat həmkarlar. Avropa Parlamentinin qəbul etdiyi bu qətnamənin heç bir hüquqi əsası yoxdur. O, həqiqətdən tam uzaqdır, böhtan, şantaj xarakterlidir və Azərbaycan əleyhinə təbliğatın bir nümunəsidir.

Sözsüz ki, burada həmkarlarımın səsləndirdiyi kimi, bu qətnamə də Fransanın təkidi, ermənipərəst qüvvələrin bilavasitə xahişi ilə hazırlanıb və Avropa Parlamentinə təqdim olunub. Bu onu göstərir ki, Avropa Parlamenti bu gün ermənilərin, ilk növbədə fransızların, Fransa dövlətinin, onun rəhbəri Makronun əlində bir oyuncaqdır. İstənilən sənəd burada qəbul oluna bilər. Əlbəttə ki, bu, riyakarlıqdır, bu, siyasi bir avantüradır. Sözsüz, bu qətnamə heç bir beynəlxalq normaya cavab vermir. İlk növbədə Avropa Parlamentinin özünə bir hörmətsizlikdir, haqq-ədalətə sayğısızlıqdır, BMT kimi bir təşkilata meydan oxumaq, onun tutduğu xəttə ziddir. Çünki BMT-nin missiyası Qarabağda oldu. Burada hadisələri araşdırdı və real qiymətini verdi. Belə olan halda, Avropa Parlamenti deputatlarının BMT-nin xəttinə əks getməsi, elə bilirəm ki, bir siyasi tərbiyəsizlikdir. Buna başqa ad vermək olmaz. Çünki hər birimizə yaxşı məlumdur ki, bu gün Fransa özünün anti-Azərbaycan təbliğatını bütün sahələrdə aparır. Ermənilərin buradan köçürülməsini bir genosid, soyqırım adlandırır. Yeri gələndə, bunların sayını artırır. Mən düzünü deyim ki, orada faktlar göstərilirdi ki, 10 min erməni silahlısı

var, digər ölkələrdən gələn insanlar var. Burada bu qədər erməni olmayıb və sayı artırmaq düz deyil. Təəssüflər olsun ki, bizim mətbuat, informasiya şəbəkələri bəzən bu rəqəmlərə istinad edirlər.

Digər tərəfdən, erməniləri oradan köçməyə heç kəs vadar etmədi. Müsahibələr var. Oradan biz aydın görürük, ermənilər özləri səsləndirirlər ki, bizim ağalarımız, bizim böyüklərimiz dedi və buradan köçürük. Onlar buradan gül-çiçəklə getdilər. Onlara çay verildi, onlara diqqət göstərildi. Həmkarlarımın dediyi kimi, amma vaxtı ilə ermənilər bizimkiləri oradan öldürə-öldürə, silah altında yola salmışdılar.

Əlbəttə ki, bizim hər birimiz bu qətnaməni pisləyirik. Elə bilirik ki, bu qətnamə bilavasitə Azərbaycanın əleyhinə yönəlmiş və Fransanın...

**Sədrlik edən.** Sağ olun. Rasim Musabəyov. Rasim müəllim, buyurun.

**R.Musabəyov.** Təşəkkür edirəm, xanım sədr. Bu salonda Avropa Parlamentinin qətnaməsi ilə bağlı həmkarlarım tərəfindən səsləndirilən fikirləri bölüşürəm, təkrar etmək istəmirəm. Bu qətnamə qərəz, iftira, yalanla doludur, qətiyyətlə rədd edirəm.

Fransa barəsində bir neçə kəlmə demək istərdim. Fransa indi qolunu çırmalayıb və Azərbaycanda milli azlıq olan Qarabağ ermənilərinin hüquqları uğrunda əlindən gələni edir, yersiz müdaxilə edir. Öz-özlüyündə öz ərazisində, ümumiyyətlə, milli azlıqların nəinki hüquqlarını, heç mövcudluğunu tanımır. Fransa Avropa qitəsində nadir dövlətdir ki, "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyasına bu vaxta kimi qoşulmayıb. Fransa ərazisində fransız dilindən başqa bir dildən istifadə olunması yasaqlanıb. Bu dövlət indi gəlib Azərbaycana hansısa bir

ibrət dərsi vermək istəyir?

Düşünürəm ki, Fransanı, ümumiyyətlə, bütün bu məsələlərdən kənarda saxlamaq, onun nə müraciətlərinə, nə də təkliflərinə əhəmiyyət verməmək lazımdır.

Bir məsələyə də diqqət cəlb etmək istərdim ki, indiyə kimi Sovetlər dövründən miras qalan "Нагорный Карабах" ifadəsi sənədlərdə istifadə olunmur. Hesab edirəm, bizim Xarici İşlər Nazirliyi bütün ölkələri rəsmən məlumatlandırmalıdır, "Нагорный Карабах" ifadəsi istifadə olunan sənədlər baxılmadan rədd olunmalıdır və geriyə göndərilməlidir. Azərbaycanda daha bu adda bölgə yoxdur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli sədr. Şərqin böyük mütəfəkkiri dahi Üzeyir bəy 100 il bundan əvvəl yazırdı: "Ey qafqazlılar, nəhayət, anlayın, birinizin evi yanırsa, ikinciniz sevinə bilməzsiniz". Tarixdə erməni və azərbaycanlı davasının üçüncü dövlətlərin mənafelərinə necə xidmət etdiyini görən böyük dövlət adamı Nərimanov nəinki azərbaycanlılar, eləcə də gürcülər və ermənilər arasında nüfuzundan istifadə edərək Qafqazda daimi sülhə on illərini sərf etmişdi.

İndi 44 günlük savaşdan sonra yeni, 4-cü Azərbaycan Respublikasını quran Prezident İlham Əliyev nəinki sovet rəhbərləri Lenin və Stalinin, eləcə də Rusiya İmperiyasının bacarmadığı ədalətli tarixi reallığı formalaşdırıb.

30 illik işğaldan sonra 20 sentyabr müraciətində Azərbaycan rəhbəri uzaq paytaxtlara səslənərək "əlinizi Qafqazdan çəkin" söylədi. Gürcü və erməni xalqlarını da onların qatı, millətçi, faşist təmayüllü qüvvələrindən ayırdı, xarici müstəmləkəçilərə qarşı bütün qafqazlı xalqların vahid lideri kimi çıxış etdi.

Bəli, müharibələr əbədi ola bilməz. Daimi militarizm ideologiyası ilə yaşamaq çox təhlükəlidir. Onda Qərb dövlətləri, burada söyləndiyi kimi, İrəvanda hərbi baza quracaqlar, ardınca NATO gələcək və Qafqazı Əfqanıstana çevirmək istəyəcəklər. Biz Köçəryanın "birgəyaşayış mümkün deyil" şüarına zərbə vurmalıyıq.

Ölkə rəhbəri "sadə erməni əhalisi ilə problemimiz yoxdur" dedi. Qalib dövlətin davranışı belə olur. Ermənistan 1990-cı illər qələbəsindən sonra millətimizi aşağıladığına görə layiqli cəzasını aldı. Biz isə sülh təklif edirik. Reinteqrasiya yalnız Xankəndiyə deyil, bütün Qafqaza gərəkdir. Qərb üçün fərqi yoxdur, kim qalib gəlib, onlara daimi sarsıntılar gərəkdir.

Paşinyan son parlament saatında dedi ki, "məğlublar gedib Bostonda, Parisdə özlərinə tərəfdar toplasınlar". Erməni Baş nazir bununla əsrlərdir düşmənçiliyə investisiya qoyan 2 dövlətə, Amerika və Fransaya sığınan Daşnaksütyunun daxildə dayaq tapa bilmədiyini ifşa etdi. Bəli, tarixdə ilk dəfədir, erməni kilsələrinin də vahidliyi pozulub. O cümlədən Rusiya erməniləri Amerika və Fransada yaşayan soydaşlarından ayrılıblar, parçalanıblar və hətta Azərbaycanın mövqeyini müdafiə ediblər. Belə tarixi fürsətdə dövlətimizin yüksək rəsmiləri Xankəndi və Xocavənddən təxliyə edilən sakinləri geri qayıtmağa çağırıb. Biz cinayətkarlara cəza versək də, qələbə üzərində birgəyaşayış qurmağa çalışırıq. Əks halda, Böyük Qayıdışa və daimi müharibələrə dövlətin maliyyə və insan resursu çatmaz. Müqəddəs şəhidlərimizi uca tutaraq, qəhrəman ordumuzla qürur və fəxarət duyaraq, qan yaddaşımıza sadiq qalaraq çoxmillətli bir dövlət kimi məzarlıqları deyil, kommunikasiyaları, yolları genişləndirməli, Qafqazda hamının dinclik tapdığı vahid evi tikməliyik.

Son 100 ildə ermənilərin dünyada qurduğu soyqırımı infrastrukturunu söküb bölgəmizə sülh gətirən...

**Sədrlik edən.** Sağ olun. Nizami müəllim, hazırdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, mən düşünürəm ki, məsələni kifayət qədər müzakirə etdik və bəyanatın mətni də hazırdır. Mən təklif edirəm, indi bəyanatla biz tanış olaq və mən həmkarımız hörmətli Tural Gəncəliyevə söz vermək istəyirəm. Tural müəllim, buyurun.

**T.Gəncəliyev.** Çox sağ olun.

## Avropa Parlamentinin 2023-cü il 5 oktyabr tarixli qətnaməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

Azərbaycan Respublikasının Milli Məclisi 2023-cü il oktyabrın 5-də Avropa Parlamentinin qərəzli və obyektivlikdən uzaq qətnamə qəbul etməsinə qəti etirazını bildirir və ölkəmizi hədəf alan bu hərəkəti şiddətlə qınayır. Xatırladırıq ki, Azərbaycanın Avropa Parlamenti qarşısında heç bir öhdəliyi yoxdur. Yaxşı olar ki, Avropa Parlamenti Avropada tüğyan edən islamofobiya, antisemitizm, miqrantların hüquqlarının kütləvi və kobud surətdə pozulması və digər bu kimi köklü problemlərlə məşğul olsun.

Sözügedən qətnamə Fransa hökumətinin təhriki ilə əksəriyyəti bu ölkədən olan anti-Azərbaycan, islamofob deputatların saxta məlumatları əsasında hazırlanmışdır. Avropa Parlamentinin bu addımı onun ikili standartlara əsaslandığının növbəti bariz nümunəsi olub, məsələlərə selektiv yanaşdığını sübut edir. Beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazisinin 20 faizinin 30 ilə yaxın davam edən işğalının doğurduğu ağrı-acıya, etnik təmiz-

ləməyə, Xocalı soyqırımına, 1 milyondan artıq qaçqın və məcburi köçkünün taleyinə, şəhər və kəndlərin yerlə-yeksan edilməsinə, tarixi, mədəni və dini irsin dağıdılmasına etinasızlıq göstərən Avropa Parlamentinin Azərbaycan ərazisində qalmaqda davam edən Ermənistan Respublikası silahlı qüvvələrinin birləşmələrinə və qanunsuz erməni dəstələrinə qarşı həyata keçirilmiş antiterror tədbirlərindən sonra Ermənistan Respublikası tərəfindən yaradılmış qondarma qurumun müdafiəsinə yönələn belə bir qətnaməni qəbul etməsi separatizmə açıq dəstək verməkdir.

Qətnamənin əsas təşəbbüskarı olan Fransa son illər Cənubi Qafqaz bölgəsində sülh və təhlükəsizliyin təmin edilməsi yolunda başlıca maneəyə çevrilmişdir. Dünyanın müxtəlif regionlarında iflasa uğrayan Fransa Cənubi Qafqaz bölgəsini yeni təhlükələrə sürükləyərək qeyri-sabit zonaya çevirməyə çalışır. Fransanın Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, özünün mənfur yeni müstəmləkəçilik təcrübəsini Cənubi Qafqaz bölgəsində tətbiq etməyə çalışması, xristianlıq amilini qabartması və keçmiş münaqişəyə dini təəssübkeşlik mövqeyindən yanaşması onun səlibçi siyasətinin təzahürüdür.

Qondarma “Dağlıq Qarabağ Respublikası” özünü buraxdığını elan etdikdən sonra Avropa Parlamentinin onu müdafiə etməsi siyasi riyakarlıqdan xəbər verir və bölgədə vəziyyətin yenidən gərginləşməsinə xidmət edir. Avropa Parlamenti Azərbaycan torpaqlarının işğalı dövründə bu qondarma quruma dəstək verməklə işğalın uzun illər davam etməsi, on minlərlə azərbaycanlının qətlə yetirilməsi üçün məsuliyyət daşıyır.

Məhz bu cür qərəzli və obyektivlikdən uzaq fəaliyyəti ilə Avropa Parlamenti öz nüfuzuna sarsıdıcı zərbə endirir,

erməni lobbisinin və onu dəstəkləyən qüvvələrin əlində oyuncağa çevrildiyini göstərir. Avropa Parlamentinin anti-Azərbaycan və islamofob siyasətinin nəticəsidir ki, Avropa Parlamenti ilə Azərbaycanın münasibətləri aşağı səviyyədədir. Avropa Parlamentində təmsil olunan bir sıra deputatlar Avropa seçicilərinin deyil, lobbi qruplarının maraqlarını təmsil edir. Belə davranış həm də şovinizmin, ifrat sağ düşüncənin təzahürüdür. Bu yanlış siyasəti ilə Avropa Parlamenti Avropa İttifaqının Cənubi Qafqaz siyasətini təhlükə altına atır.

Qətnamədə irəli sürülən iddialardan fərqli olaraq, Azərbaycan hökuməti Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etməsinə imkan yaradılması məqsədi ilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli istiqamətində kompleks tədbirlər həyata keçirir.

BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və digər beynəlxalq təşkilatların səsləndirdiyi bəyanatlara tamamilə zidd olaraq, Avropa Parlamentinin bölgədən könüllü getmiş erməni sakinlərin ərazidən zorla köçkün düşdüyünü iddia etməsi beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin rəhbərliyini korrupsiyaya qurşanmış destruktiv və qərəzli qüvvələri dayandırmağa, Cənubi Qafqaz bölgəsində yaranmış yeni reallıqları əks etdirən obyektiv sənədlər qəbul etməklə bölgədə sülh və sabitlik yaradılması səylərinə dəstək göstərməyə çağırır.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, nə fikir var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Qəbul edilsin. Mən onda bəyanatı səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin Bəyanatı qəbul edildi.

Hörmətli həmkarlar, 2-ci məsələyə keçirik. Bu məsələ "Qiymətli metallar və qiymətli daşlar haqqında", "Mədəniyyət haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Onu da deyim ki, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır və bir oxunuşda qəbul ediləcək. İndi isə, hörmətli həmkarlar, mən sözü Tahir Mirkişiliyə vermək istəyirəm. Tahir müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, ətraflı məlumat verin, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Hörmətli xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, qanun layihəsi uyğunlaşma xarakteri daşıyır. Belə ki, 2023-cü il fevralın 1-də artıq qüvvəyə minmiş "Nağdsız hesablaşmalar haqqında" Qanunda 1 maddə əlavə olunub. O maddəyə görə qiymətli daşların, qiymətli metalların, o

cümlədən qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış məmulatların və mədəniyyət məhsullarının alqı-satqısı üzrə ümumi məbləği 15 min manatdan yuxarı olan bütün ödənişlər nağdsız formada keçirilməlidir. Ona görə də həmin bu formulun bütün digər adıçəkilən 3 qanunda da yazılması təklif olunur. Sırf uyğunlaşma xarakterlidir. Həmkarlarımdan dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, bu məsələyə Mədəniyyət komitəsi də münasibət bildirməlidir. Fazil müəllim, buradasınız. Mən indi Mədəniyyət komitəsi sədrinin müavini hörmətli Fazil Mustafaya söz vermək istəyirəm. Fazil müəllim, buyurun, rəyinizi bildirin.

**F.Mustafa,** *Milli Məclisin Mədəniyyət komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bizim komitədə də bu məsələyə baxılıb, yekdilliklə müzakirəyə çıxarılması qərarlaşdırılıbdır. Xahiş edirəm, deputat həmkarlarım dəstəkləsinlər.

**Sədrlik edən.** Çox sağ olun. Yazılanlar var. Sabir Rüstəmxanlı. Sabir müəllim, buyurun.

**S.Rüstəmxanlı.** Hörmətli Sahibə xanım, söz verdiyinizə görə təşəkkür edirəm. Amma mənim təklifim qətnamə ilə bağlı idi. Qarışıqlıq yarandı. Bir cümlə demək istəyirdim, onu deyə bilmədim. İcazə verirsinizsə, onu burada deyim. Düzdür, qəbul olunub, amma bəlkə istifadə etmək olar.

**Sədrlik edən.** Çox sağ olun. Siz fikrinizi bildirin, ancaq bəyanat qəbul olunub. Ancaq yenə də mikrofon Sizdədir.

**S.Rüstəmxanlı.** Mən istərdim ki, orada bir cümlə əlavə olunsun. Bizim illər uzunu, 1990–1991-ci illərdə

Azərbaycanda Ermənistanın törətdiyi qırğınlarla bağlı cümlədən sonra bir cümlə əlavə olunsun ki, yaxşı olardı, Azərbaycana qarşı bu qətnaməni qəbul edənlər bir az da tarixi yaddaşlarını qurdalayıb iyirminci yüzildə Ermənistanın bolşevik himayədarlarının köməkliyi ilə Azərbaycanda törətdikləri qətliamları, 1905-ci, 1918-ci, 1988–1994-cü illəri və Xocalı faciəsini yada salsınlar. Belə bir cümlə.

Yəni biz tarixi unuduruq. Bunlar 1905-ci ildə bu işi törədiblər, 1918-ci ildə Bakı qırğınları olub. Bir əsr boyu bunlar bizi qıra-qıra gəliblər. İndi, heç olmasa, bu cür sənədlərdə bir cümlə ilə yada salmalıyıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sabir müəllim, çox sağ olun. Əslində, o fikirlər orada səsləndi. Bəlkə bu sözlərlə ifadə olunmadı. Ancaq orada o fikirlər səsləndi. Mən Sizə hörmət əlaməti olaraq imkan verdim ki, Siz çıxış edəsiniz. Bu məsələ ilə bağlı deməyə sözünüz var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Çox sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli həmkarlar, xatırlayırsınızsa, biz 2021-ci ilin dekabrında "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edəndə o zaman nəzərdə tutulurdu ki, bir qrup mallar üçün nağd yolla 10 min manata qədər, digər qrup üçün isə 2 min manat ödəniş olar. O zaman mən çıxış etdim və Konstitusiyanın 149-cu maddəsinə istinad etdim ki, bizim normativ hüquqi aktlar ədalətli olmalı və bərabər mənafelərə bərabər münasibətə əsaslanmalıdır. Bundan sonra hörmətli Tahir müəllimin iştirakı ilə işçi qrupunun nümayəndələri də dəvət olundu və biz Tahir müəllimin kabinetində bir müzakirə apardıq. Sonra belə qərara alındı

ki, ümumiyyətlə, bütün mallar üçün 4000 manatdan artıq olan ödənişlər nağdsız həyata keçirilməlidir.

İndi biz yenə də həmin o 3.4.11-ci maddədə uyğunlaşma həyata keçiririk. Burada, əslində, bu uyğunlaşdırma hansı formada həyata keçirilməli idi? Burada istisnalar nəzərdə tutulub, məsələn, avtomobillər üçün. İndi də qızıl məmulatları üçün, yəni bu qiymətli daş-qaş üçün biz deyirik ki, onlar 15 min manata qədər nağdsız əməliyyat həyata keçirə bilərlər. O zaman da mən söyləmişdim ki, bax, biri çilçıraq satır, biri mebel satır, biri avtomobil satır, biri soyuducu satır. Niyə həmin satıcının biri, yaxud bir mağaza 4 min manata qədər nağd yolla alış-veriş edə bilər, amma başqa biri 15 min manat? Avtomobillər isə, ümumiyyətlə, elə avtomobil var ki, qiyməti 200 min, 300 min, hətta 500 min manata qədərdir. Yeri gəlmişkən, mən statistikaya baxdım, hörmətli həmkarlar, deməli, təkcə 2022-ci ildə Azərbaycana 443 min 147 avtomobil idxal olunub. Yəqin, rəqəmin sayına fikir verirsiniz də. Bunların ümumi dəyəri 1 milyard 58 milyon dollardan artıq olub. Yəni bu qədər böyük bir dövriyyənin olduğu bir yerdə biz bu nağdsız hesablaşmanı tətbiq etmək istəmirik. Burada istisna müəyyənləşdiririk ki, onlar bunu ala bilərlər. Yaxud qızıl, biri qızıl satır, o birisi soyuducu satır. Niyə bu qədər? Biri 15 minə qədər nağd formada ödəniş edə bilər, o birisi yox.

Ona görə də mən bir də o məsələyə qayıdıram ki, biz qayıtmalıyıq Konstitusiyanın tələblərinə uyğun olaraq, əslində, 4000 manatdan yuxarı istənilən daşınar, daşınmaz əmlakın satışı nağdsız formada həyata keçirilməlidir. Bu, eyni ilə də mənzil alğı-satqısına da tətbiq olunmalıdır. İndi də biz bilirik ki, mənzil satılanda mənzil tikənlər nağd formada böyük məbləğdə pulları alırlar və öz aralarında

müqavilə bağlayırlar. Yəni diqqət daha çox, bax, bu iri alış-verişlərə yönəldilməlidir, nəinki dediyim kimi, mağazalarda o "bakkuş" satanlara. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Emin Hacıyev. Buyurun.

**E.Hacıyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar və mətbuat nümayəndələri. Mən də bu qanun layihəsinə səs verəcəyəm. Qeyd olunduğu kimi, bu, uyğunlaşma xarakterlidir və nağdsız hesablaşmaların təşviqi və əhatə dairəsinin genişləndirilməsi baxımından çox önəmlidir. Bu qanunun vaxtı ilə qəbulu elektron ödəmə vasitələrinin, o cümlədən POS-terminalların, mobil ödəmə sistemlərinin kütləvi tətbiqi və həyatımıza daxil olmasına, bu sahədə ƏDV-nin bir hissəsinin geri qaytarılması kimi uğurlu bir layihənin həyata keçirilməsinə, nağdsız ödənişlərin həcminin son illərdə əhəmiyyətli şəkildə artmasına gətirib çıxardı.

Heç kəsə sirr deyil ki, nağdsız ödənişlər dövriyyənin şəffaflaşması, vəsaitlərin daha səmərəli xərclənməsi, vergilərin düzgün hesablanması, büdcə vəsaitlərinin artması baxımından əvəzolunmaz vasitədir. Bu baxımdan, hesab edirəm ki, biz "Nağdsız hesablaşmalar haqqında" Qanuna zaman-zaman baxmalı və buraya nağdsız aparılacaq əməliyyatların dairəsini artırmaq baxımından dəyişikliklər etməliyik. Bu baxımdan mən təklif etmək istəyirəm. Təklifim də ondan ibarətdir ki, mənzil-tikinti kooperativləri tərəfindən tikilmiş və idarə olunan çoxmənzilli binalarda sakinlərdən toplanan xidmət haqları da nağdsız qaydada toplansın. Bu sahədə, bilirik ki, kifayət qədər böyük vəsait dövr edir. Bu vəsaitlərin xərclənməsi də nağdsız həyata keçirilərsə, biz binaların istismarının keyfiyyətinin yüksəlməsinə, bina istismarına daha yüksək əmək haqqı ilə daha

çox işçi heyətinin cəlb edilməsinə, son nəticədə məşğulluğun artmasına nail ola bilərik. Çünki vəsaitin məbləği buna imkan verəcəkdir. Bunun üçün həmin bina istismarçıları bank hesabı aça bilər. Hətta istəkləri olarsa, elektron ödəmə terminalları vasitəsi ilə imkanlar, tətbiqlər də yaradıla bilər. Eyni zamanda, bu vəsaitlər bank hesablarına daxil olarsa, bütün vəsaitlərin təyinatı üzrə xərclənməsi də təmin edilər.

Yeri gəlmişkən, deyim ki, mövcud qanunun, yəni "Nağdsız hesablaşmalar haqqında" Qanunun qüvvədə olan mətnində də kommunal xərclərin ödənilməsinin, yəni 3.4.5-ci maddə, nağdsız aparılması təsbit edilib. Bu vəsaitlər də, əslində, kommunal xərclər kimi qəbul edilməlidir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir müəllim, deyəsən, burada səslənənlərlə bağlı fikirlərinizi bildirmək istəyirsiniz. Buyurun, Tahir Mirkişili.

**T.Mirkişili**. Çox sağ olun, xanım sədr. Hörmətli Sahibə xanım, mən Qüdrət müəllimin dediyi məsələ haqqında bir arayış vermək istəyirəm. Düşünürəm ki, ola bilsin, yanlışlıq olub. Bəlkə də Qüdrət müəllimə doğru informasiya təqdim etməyiblər. Çünki qanunun 2023-cü il fevralın 1-dən qüvvəyə minmiş versiyasına görə hazırda Azərbaycanda bütün avtomobillərin və daşınar əmlakın satışı nağdsız qaydada həyata keçirilməlidir. Oradakı istisna onun nağd olması ilə bağlı deyil, tam tərsinə, istisna nağdsız olması ilə bağlı olan şərtdir. Ona görə düşünürəm ki, hər iki şərt yerinə yetirilib. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qüdrət müəllim, sonra işçi qaydada Tahir müəllimlə danışarsınız.

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bu məsələ də "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, bu qanun layihəsi də uyğunlaşdırma xarakteri daşıyır və bu da bir oxunuşda qəbul ediləcək. Məsələyə dair məlumat vermək üçün mən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**, *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, bu layihə bizim komitəmiz tərəfindən hazırlanıb təqdim olunmuşdur. Belə ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda biz bir oxunuşda qəbul olunan sənədlərin dairəsini bir qədər genişləndirmişik. İndi isə, təbii ki, həmin müddəa Nizamnamədə də öz əksini tapmalıdır və uyğunlaşdırma xarakterli olduğuna görə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Çıxış etmək istəyən yoxdur və mən qanun layihəsini səsə qoyuram.

Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, bizim 15 məsələmiz qalır və bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Mən güman edirəm ki, birinci oxunuşun tələbləri hamınızın yadınızdadır.

Beləliklə, 4-cü məsələ – Qiymətləndirmə fəaliyyəti haqqında qanun layihəsi müzakirəyə təqdim edilir. Qeyd edim ki, məsələnin müzakirəsi ilə əlaqədar bizim dəvət olunan şəxslərimiz var. Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini hörmətli Elnur müəllim Əliyev və İqtisadiyyat Nazirliyinin Hüquq şöbəsinin müdir müavini hörmətli Nurană xanım Abbasova iclasımızda iştirak edirlər. Sizi yenə də salamlayırıq.

Hörmətli həmkarlar, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, mən yenə də Sizə söz vermək istəyirəm. Buyurun, məlumat verin.

**T.Mirkişili**. Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, qeyd edim ki, qanun layihəsi Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən Milli Məclisə daxil olmuşdur. Xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komi-

təsində İqtisadiyyat Nazirliyinin nümayəndələri ilə geniş müzakirə edilmişdir.

Hörmətli həmkarlar, qanun layihəsi kifayət qədər vacib və maraqlı olduğu və bir az geniş təqdim etməyə imkanım olduğu üçün qeyd etmək istəyərdim ki, ümumiyyətlə, bazar münasibətləri şəraitində qiymətin əmələ gəlməsi ən müxtəlif amillərdən asılı olaraq çevik dəyişikliklərə məruz qalır. Bu halda operativ qiymətləndirmə fəaliyyəti qiymətin obyektiv müəyyənləşdirilməsi üçün yeganə düzgün vasitədir. Hazırda Azərbaycanda qiymətləndirmə ən müxtəlif məqsədlər üçündür. Girovqoyma, sığorta etmə, özəlləşdirmə, vergitutma, ziyanın qiymətləndirilməsi kimi sahələr üzrə istifadə olunur və əsasən, bu sahədə də qiymətli kağızlar biznes, əqli mülkiyyət üzrə keçirilən qiymətləndirmədə bu gün ən çox qarşımıza çıxan məsələlərdən biridir. Mülkiyyətin bütün növləri üzrə öz dəyərinə mütənasib olaraq mülkiyyət alınıb-satılır, girov qoyulur, dəyişdirilir, vergiyə cəlb edilir, sığorta olunur və vəsiyyət olunur. Lakin bu gün bir həqiqət də vardır, təəssüf ki, nəinki geniş ictimaiyyət, hətta bəzi dövlət qurumlarının və özəl sektorun nümayəndələri, iqtisadçılar bu fəaliyyətin mahiyyəti və əhəmiyyəti barədə o qədər də dərin biliklərə malik deyillər. Qiymətləndirmə fəaliyyətinin nəticələrindən istifadə edən bəzi iş adamları, sahibkarlar, bəzən isə bəzi dövlət orqanları da bu sahənin mütəxəssislərinə, peşəkar ekspertlərinə deyil, tamamilə təsadüfi, qiymətləndirmə fəaliyyətinə dair bilik və təhsili olmayan şəxslərə müraciət edirlər ki, bu da qiymətləndirmə fəaliyyətinin nəticələrinin keyfiyyətsizliyinə səbəb olur, qiymətləndirmə fəaliyyətinin mahiyyətinə xələl gətirir və peşəkar qiymətləndiriciləri nüfuzdan salır. Belə halların son zamanlar kütləvi hal alması sahədə

tənzimləmənin yeni metodlara tələbat yaratmışdır.

İlk öncə onu qeyd etmək istəyərdim ki, qiymətləndirmə fəaliyyətinin inkişafı və onun müstəqil hüquqi bazasının formalaşmasında hazırda qüvvədə olan "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunun böyük rolu olmuşdur. 1998-ci ildə qəbul edilmiş həmin qanunda qiymətləndirmə fəaliyyətinə intellektuallıq və peşəkarlıq tələb edən fəaliyyət növü kimi baxılmış, onun müstəqil qanunvericilik bazasının formalaşması və digər fəaliyyət növləri ilə qarşılıqlı əlaqəsinin müəyyən edilməsi istiqamətində ciddi hüquqi əsas yaratmışdır. Eyni zamanda, qeyd etməliyəm ki, qanunun bu gün əmlak bazarının tələblərinə cavab verməyən müddəaları da mövcuddur. Mövcud qanunda, sadə dildə desəm, kimin qiymətləndirməsi və necə qiymətləndirməsi məsələlərinin çox ciddi tənzimlənməsinə ehtiyac yaranmışdır. Qüvvədə olan qanunda qiymətləndirməyə dair tələblər və qiymətləndirici olmağın qaydaları, habelə əmlakın qiymətləndirilməsi mexanizmi aydın şəkildə müəyyən edilməmişdir. Eyni zamanda, qeyd etmək istəyərdim ki, Azərbaycan Prezidentinin "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" 2002-ci il 2 sentyabr tarixli Fərmanı ilə qiymətləndirmə fəaliyyəti xüsusi razılıq tələb edən fəaliyyət növlərinin siyahısına daxil edilməmişdir.

Qiymətin müəyyən edilməsi barədə qiymətləndiricinin əldə etdiyi nəticələr çox ciddi əhəmiyyət kəsb edir. Çünki həmin nəticələr mühasibat və statistika uçotu sənədlərində və hesabatlarında düzəlişlər etmək üçün əsasdır və yalnız məhkəmə qaydasında ləğv edilə bilər. Belə olduğu halda, sifarişçilərə yüksək keyfiyyətli qiymətləndirmə xidməti göstərilməsini təmin etmək üçün mütləq qiymətləndiricinin peşəkarlığı, məsuliyyəti və qiymətləndirmənin aparıl-

masının şərtləri ilə bağlı məsələlər qanunvericilik yolu ilə öz həllini tapmalı idi. Bütün bu problemlərin aradan qaldırılması ölkəmizdə bu sahədə mövcud olan bazarın daha da inkişafına, əhalinin qiymətləndiriciyə və onun xidmətlərinə etimadının və inamının artmasına xidmət etmiş olacaqdır.

Hörmətli həmkarlar, qanun layihəsi 6 fəsil və 27 maddədən ibarətdir. Layihənin qəbul edilməsi müvafiq sahədə mövcud olan boşluqların və problemlərin aradan qaldırılmasına, qiymətləndiricinin peşə fəaliyyətinə baxılması ilə bağlı tələblərinin müəyyən edilməsinə və ümumilikdə, qiymətləndirmə fəaliyyəti ilə bağlı qanunvericiliyin təkmilləşməsinə xidmət edəcəkdir. Belə ki, qanun layihəsinə əsasən qüvvədə olan qanundan fərqli olaraq, əsas anlayışlar və qanunun tətbiq dairəsi müəyyən edilmişdir. Qiymətləndirmə fəaliyyətinin daşınar əmlakın, daşınmaz əmlakın, o cümlədən torpaq sahələrinin, mədəni irs nümunələrinin, mədəni sərvətlərin, tarix, mədəniyyət, təbiət abidələrinin, qeyri-maddi əmlak nemətlərinin qiymətləndirilməsi və digər istiqamətlər də nəzərdə tutulmuşdur. Qanunda ali təhsilə və 3 ildən az olmayan ümumi iş stajına malik olan, ixtisas imtahanını uğurla vermiş və qiymətləndiricilər palatasına üzv olan şəxsin qiymətləndirici ola bilməsi tələbi müəyyən edilmiş, ixtisas imtahanının təşkili və keçirilməsi, qiymətləndiricilər palatasına üzvlüyə qəbul məsələləri tənzimlənmişdir. Sifarişçi ilə qiymətləndirici və qiymətləndirici ilə təşkilat arasında bağlanan müqavilədə və qiymətləndirmənin nəticələri haqqında hesabatda göstərilməli olan məlumatlar qanunda ehtiva edilmişdir. Qiymətləndirmə Palatasının təsis etmə hüququ yaranmış azı 15 nəfər qiymətləndirici tərəfindən təsis olunması yolu ilə qiymətləndiricinin məcburi üzvlüyü əsasında və fəaliy-

yətini özünü idarəetmə prinsipi əsasında həyata keçirən qeyri-kommersiya hüquqi şəxs kimi yaradılması ehtiva olunmuşdur. Qeyd edim ki, ilk dəfə olaraq Azərbaycanda, bütövlükdə, bu sahənin tənzimlənməsinin qeyri-hökumət təşkilatı tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur. Qiymətləndiriciyə tətbiq edilən intizam tənbehi tədbirləri və onların tətbiq edilməsi qaydası, qiymətləndirilmənin düzgün aparılmaması nəticəsində sifarişçiyə və üçüncü şəxslərə dəyən zərərin ödənilməsi, qiymətləndiricinin peşə məsuliyyətinin sığortası tələbi, qiymətləndirici fəaliyyətinin dayandırılması ilə bağlı müddəalar nəzərdə tutulmuş və qiymətləndiricinin fəaliyyətinə xitam verilməsi əsasları yenidən işlənmişdir.

Hörmətli həmkarlar, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində aparılan bütün müzakirələr onu göstərmişdir ki, qanun bu gün üçün kifayət qədər vacibdir. Bu qanunun qəbul edilməsi Azərbaycanda həm də bu istiqamətdə aparılan islahatların dəstəklənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Həmkarlarımdan qanun layihəsini birinci oxunuşda dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, müzakirəyə keçirik, yazılanlar var. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev.** Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli deputatlar. Bu günə qədər xeyli dövlət müəssisələri özəlləşdirilib və təəssüflər olsun ki, ilk özəlləşmə zamanı qiymətləndirilmələr düzgün aparılmayıb. Nəticədə dövlət əmlakı qəpik-quruşla ayrı-ayrı vəzifəli şəxslərin özünə və himayə etdiyi şəxslərə keçib. Dövlət büdcəsinə milyardlarla əskik vəsait ödənilib. Nə zamansa bu məsələlər, təbii ki, ortaya çıxacaq və məhkəmələr

qurulacaq. Çünki dövlətin malı dövlətin və xalqındır. Əgər dövlətin malı bazar qiymətlərindən 10, bəzən 100 dəfələrlə aşağı qiymətləndirilib pay-püş edilibsə, bu məsələ 10 illiklər keçsə də, gündəmə gələcək və müzakirəyə çıxarılacaq. Bu, şəxsən mənim üçün prinsipial məsələdir. Ona görə də dövlət əmlakı bazar qiymətlərinə uyğun, düzgün qiymətləndirilməlidir ki, qazanan dövlət büdcəsi olsun, ayrı-ayrı şəxslər yox.

Girov sahəsində olan qiymətləndirmə barədə də narahatlığımı dilə gətirməyi və bu məsələnin təcili həllinə nail olmağı vacib sayıram. Elə olur ki, bir şəxsə, biznesmenə, yaxud adi vətəndaşa təcili pul lazım olur. O, əmlakını girov qoyub pul götürür, yaxud məcburiyyət və təzyiq qarşısında daşınar və daşınmaz əmlakını girov qoymalı olur. Qiymətləndirilmə zamanı o əmlak bazar qiymətindən 30-40, bəzən 50 faiz ucuz dəyərləndirilir. Ağır şərtlər və təzyiqlər altında olan şəxs, sahibkar, yaxud digər şəxs isə məcburiyyət qarşısında ağır şərtlərlə razılaşır. Bu, mənəvi və dini baxımdan da qüsurlu yanaşmadır. Adam təzyiq altındadır və çıxılmaz vəziyyətə düşür, az qalır ki, həyatına son qoysun. Belə vəziyyətdən sui-istifadə yolverilməzdir. Bu məsələ qanunla ciddi şəkildə tənzimlənməlidir. Gərək qanunu elə halda qəbul edək ki, boşluqlar sui-istifadəyə imkan yaratmasın. Keyfiyyətli qiymətləndirilmənin aparılması üçün gərək qanunda boşluqlar olmasın və bu baxımdan da qanuna deputat həmkarlarımdan ciddi yanaşmağı və diqqətlə oxumağı xahiş edirəm. Səsləndirdiyim narahatlıqar barədə də ətraflı məlumat verilməsini istərdim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Layi-

hə yeni qanun və eləcə də vacib qanun layihəsi olduğuna görə bir sıra konseptual məsələləri bölüşmək istərdim. Əvvəla, konseptual olaraq bu, qiymətləndirmə sektorunda yeni yanaşmanın tətbiq edilməsinə imkan verəcək. Nəzərə alsaq ki, uzun müddət qiymətləndirmə ilə bağlı meyarların tam olaraq formalaşmaması və tətbiq olunması bu sektorda bir sıra anlaşılmazlıqların, eləcə də bir sıra mübahisələrin yaranmasına gətirib çıxarırdı. Təbii ki, qanun layihəsi konseptual olaraq bu məsələlərin həllinə dəstək olacaq. Xüsusən də bir sıra sektorlarda, o cümlədən bank sektorunda banklarla müştərilər arasında girovun, əmlakın qiymətləndirilməsi ilə bağlı mübahisələr, anlaşılmazlıqlar olurdu. Bir sıra hallarda banklar özünə yaxın qiymətləndirici qurumlar yaradırdılar və nəticədə əmlak dəyərindən daha aşağı qiymətləndirilirdi ki, bu da əmlak sahibi krediti qaytara bilməyəndə əmlakının daha ucuz satılmasına gətirib çıxarırdı. Qanun layihəsi konseptual olaraq bu və bu tip digər problemləri aradan qaldıracaq və praktik olaraq yeni meyarların tətbiq edilməsi imkan verəcək ki, məhz artıq qanun tətbiq olunduqdan sonra belə mübahisələr yaşanmasın.

Digər məqam, qiymətləndirmə ilə bağlı obyektin daha dəqiq müəyyənləşdirilməsi ilə bağlıdır. Düşünürəm ki, layihədə bu məsələnin öz əksini tapması konseptual olaraq çox vacibdir. Qiymətləndirmə fəaliyyətinin istiqamətlərinin genişləndirilməsi, o cümlədən rəqabətin qiymətləndirilməsi kimi digər istiqamətlərin də qanun layihəsində əlavə edilməsinə ehtiyac var. Təbii ki, qiymətləndirmə sahəsində yeni palatanın formalaşacağını nəzərə alsaq, qanun layihəsində palatanın hesabatlılığının da əks olunması və xüsusən ictimaiyyət qarşısında hesabatlılığının əksini tapması çox vacibdir. Bu baxımdan, təbii ki, bu da,

bütövlükdə, həm qanun layihəsinin, həm də hesabatlılığın güclənməsinə gətirib çıxara bilər. Bütövlükdə, təbii ki, qanun layihəsini dəstəkləyirəm və konseptual olaraq bu məsələləri təqdim etmək istədim. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm, hörmətli sədr. İlk öncə qeyd etmək istəyirəm ki, Tahir müəllim mənə verdiyi cavabda ədalətli deyildi. Ona görə ki, bizim düzəliş etdiyimiz normada, 3.4.11-ci maddədə  qeyd olunur ki, "pərakəndə satış qaydasında  təqdim edilən malların  (avtomobillər və bu qanunun 3.4.15-ci maddəsində nəzərdə tutulan mallar istisna olmaqla), – həmin mallar qiymətli daşlar və mədəniyyət məhsullarıdır, – satışı üzrə bir əməliyyat çərçivəsində dörd min manatdan artıq olan ödənişlər". Yəni burada avtomobillər üçün istisna nəzərdə tutulub. Praktikada da bilirəm ki, nağd pulla camaat gedib maşın alır. Tahir müəllim nəyin əsasında onu söylədi, bilmirəm.

Müzakirə olunan məsələ ilə bağlı, hörmətli sədr, onu qeyd etmək istəyirəm ki, son vaxtlar, doğrudan da, çox mütərəqqi qanunlar gəlir və bizim iqtisadi sahədə münasibətlərin  tənzimlənməsi ilə əlaqədar olaraq biz bundan öncəki iclasda Rəqabət Məcəlləsini müzakirə etdik. İndi Qiymətləndirmə  fəaliyyəti haqqında qanun layihəsini müzakirə edirik. Hər iki qanun layihəsini hazırlayan işçi qrupa mən öz təşəkkürümü bildirirəm. Amma təkliflərim var.

Birinci oxunuşun tələblərinə uyğun olaraq, nəyi qeyd etmək istəyirəm? Əvvəla, burada qiymətləndirmə palatası yaradılacaq. Çox təəssüf, yenə də yəqin ki, Vəkillər Kollegiyası kimi bir strukturun yaradılmasından söhbət gedir. Biz qanunda nəzərdə tutmalıyıq ki, çoxlu sayda belə palatalar yaradıla bilər. O cümlədən Azərbaycanda Ticarət

və Sənaye Palatası var. Ona da qanunla belə səlahiyyətlər verilməlidir.

Ümumiyyətlə, qiymətləndirmə fəaliyyəti kommersiya fəaliyyətidir. Qiymətləndirmə palatasının da fəaliyyəti həm də "İctimai birliklər haqqında" Qanunla tənzimlənir. Yəni bu, hökumət təşkilatı deyil, qeyri-hökumət təşkilatıdır. Ona görə də bu qanunda nəzərdə tutulur ki, qiymətləndirmə təşkilatının üzvləri, yəni bu işi görən şəxslər mütləq qiymətləndirmə palatasının üzvləri olmalıdırlar. Onlar ali təhsilli olmalıdırlar. 3 il iş stajı olmalıdır, üzr istəyirəm, yəni 3 ildən az iş stajına malik olmayan şəxslər məcburi qiymətləndirməni həyata keçirə bilər və sair. Məncə, ali təhsillə yanaşı, həm də orada iqtisadiyyat, maliyyə və əmtəəşünaslıq üzrə xüsusi biliklərin olması da tələb olunmalıdır, yəni o sahə üzrə mütəxəssislər gəlsinlər.

Bir də imtahanların keçirilməsi ilə bağlı. Burada qeyd olunur ki, müvafiq dövlət orqanı, yəni Dövlət İmtahan Mərkəzi bu imtahanı keçirəcək. Bu, Vəkillər Kollegiyasında da belədir. Nə Vəkillər Kollegiyası, nə də bu qiymətləndirmə palatası, bunlar dövlət təşkilatları deyil. Ona görə də qanunda yazmaq ki, dövlət o təşkilat üçün test imtahanlarını keçirəcək, mən bunu doğru saymıram. İstənilən bir təşkilat Dövlət İmtahan Mərkəzi ilə müvafiq müqavilə imzalayıb, pul ödəyib xahiş edə bilər ki, müqavilə bağlayıram, mənim üçün bu imtahanları keçir. Amma qanunda bunu birbaşa yazmaq ki, bunu mütləq dövlət orqanı təşkil edir... Axı, niyə dövlət orqanı təşkil edir? Sabah onda siyasi partiyaların üzvlərini də dövlət orqanları seçsinlər, yaxud qeyri-hökumət təşkilatlarının üzvlərini də dövlət orqanları müəyyənləşdirsin ki, bu, filan qeyri-hökumət təşkilatının üzvü ola bilər, yoxsa ola bilməz. Mən hesab edirəm ki, dövlət, ümumiyyətlə, ictimai

həyata çox az müdaxilə etməlidir.

Biz “Dini etiqad azadlığı haqqında” Qanun qəbul etdik. Orada yazırdıq ki, 50 nəfər dini icma yarada bilər. Amma sonra deyirik ki, həmin icmanın başçısını dövlət təyin edəcək. Yəni ictimai təşkilatın başçısını dövlət təyin edəcək. Dövlətin ictimai həyata bu qədər müdaxilə etməsini mən doğru saymıram. Hesab edirəm ki, bu, birinci oxunuşdur və növbəti oxunuşlarda biz bu məsələlərə yenidən baxmalıyıq.

Sonra bu məcburi qiymətləndirmədə 3 il iş stajı tələb olunur. Əgər bu yeni yaradılırsa, onda ən azından burada qeyd olunmalıdır ki, o tələb 3 ildən sonra qüvvəyə minir, 8-ci maddə və sair.

Ümumiyyətlə, mən hesab edirəm ki, bu qanun layihəsi çox mütərəqqi bir layihədir və çox lazımlıdır. Mən də buna səs verəcəyəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Çox hörmətli Sahibə xanım, hörmətli deputatlar, hörmətli qonaqlar. Qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsinin qəbul olunması çox vacibdir. Qiymətləndirmənin fəaliyyət istiqamətləri genişdir, ancaq düşüncəmə görə, bəzi istiqamətlər də daxil edilməlidir.

Sovetlər süquta uğradıqdan sonra ölkədən xeyli əntiq əşyalar çıxarıldı, – əntiq, antikvariat da deyirlər, – yəni dəyərli, nadir tapılan, çox gözəl, hamının marağına səbəb olan mənasını verir. Xalçalar, kilimlər, kitablar, rəsm əsərləri, qab-qacaq, samovarlar və sair. İnsanlar bu əşyaların qiymətini bilmirdilər. Numizmatikalar ölkədən çıxarıldı. Numizmatika sikkə mənasındadır, yəni sikkələr onların zərb tarixi, qiyməti, nominal və həqiqi dəyərlərini öyrənən elmdir. Yəni bu, ciddi bir elm sahəsidir. Ona görə də antik

əşyaların da qiymətləndirilməsi fəaliyyət növünə daxil edilməlidir. Bu məsələdə kataloqun yaradılması olduqca vacibdir. Kataloqsuz mümkün deyil.

Bir misal çəkim. Sovetlər vaxtı Ulu Öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə açılmış Səttar Bəhlulzadə adına sərgi salonunun girişinə məşhur polyak heykəltəraşların-dan birinin müəllifi olduğu tuncdan yaradılmış göyərçinlər barelyefi qoyulmuşdu. Ona baxanlar yaxşı xatırlayırlar. Sanki göyərçinlər havaya ayrı-ayrı qanad açırlar. Canlı bir mənzərə yaradılırdı. Bir məşhur rəssam yazmışdı ki, bunu söküb satdılar. Elə bilirsiniz onu satanlar onun qiymətini bilirdilər? Yox. Onu alanlar qiymətini və dəyərini bilir-dilər. Bizdə dəyər-dəyməzinə satmaq anlayışı çox geniş yayılıb. Eləcə də digər antik əşyaları dəyər-dəyməzinə sa-tıblar.

Daşınmaz əmlakın və torpaq sahəsinin qiymətləndiril-məsi də fəaliyyət istiqamətinə daxil edilib. Sovetlərin sü-qutundan sonra dövlətə məxsus olan əmlaklar dəyər-dəy-məzinə satıldı. O zamankı qiymətlə indiki qiymət arasında 50, 100 min dəfə fərq var. Elə qiymət siyasəti nəticəsində heç bir zəhmət çəkmədən milyonçular ordusu yarandı.

Əyyar Palatasının ləğv olunmasına nə ehtiyac var idi? Əqli mülkiyyət obyektlərinin qiymətləndirilməsinin fə-aliyyət istiqamətinə daxil edilməsi də vacibdir. “Əqli mül-kiyyət haqqında” Qanuna görə bura daxildir: audio vizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu və kitablar. Bunların pirat nüsxələri böyük meydan açıb və bu işə qarşı amansız mübarizə üsulları tətbiq olunmalıdır.

Aidiyyəti ali məktəblərdə qiymətləndirmə ixtisası üzrə tədrisin səviyyəsi yüksəldilməlidir. Təhsilin qiyməti də bura daxil edilsə, yaxşı olardı. Məsələn, özəl orta məktəb var ki, təhsil haqqı 15-20 min manatdır. Nədir ki, tədris

ingilis dilində aparılır. Heç bu dilin vətənində belə təhsil haqqı yoxdur. Yaxud Bakı Dövlət Universitetinin Hüquq fakültəsində təhsil haqqı 4 min 500 manatdır. Burada tələbələrə Nobel mükafatçılarımı dərs deyir? Yoxsa tələbə və müəllim mobilliyi fürsətindən istifadə edib, müəllim və tələbələr tez-tez xarici ölkələrə gedirlər? Təhsilin dəyərinin qiymətləndirilməsi üçün meyarlar işlənməlidir və alternativ dəyərləndirmə aparılmalıdır.

Bir məsələni də qeyd edim. Qeyri-hökumət təşkilatları bu sahədə xeyli layihələr işləyiblər. Ancaq bir məsələni qeyd edim, etiraf edək ki, bu layihələr də indiyə qədər heç nəyi həll etməyib. Düşünürəm ki, bundan sonra qeyri-hökumət təşkilatları da qiymətləndirmə prosesində daha yaxşı layihələr işləməlidirlər və bu qanun da onlar üçün bir fürsət yaradır. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Artıq qeyd edildiyi kimi, qanun layihəsi olduqca vacibdir. Bu, ölkədə iqtisadi fəallığın artmasında təsirli rol oynayacaqdır. Nəzərə almaq lazımdır ki, bu, Azərbaycanda həm də spesifik bir sahə olacaqdır. Bu baxımdan da qiymətləndirmənin daha professional, peşəkar təşkili haqqında indidən düşünmək lazımdır.

Qanun layihəsində qiymətləndirici təşkilat haqqında da bəhs olunur, onun mahiyyəti izah olunub. Yaxşı olardı ki, qiymətləndirici təşkilatın yaradılması və onun fəaliyyət prinsipləri haqqında da bir təsəvvür yaradılsın. Bu təklif özüm üçün də aydınlıq gətirə bilər. Düzdür, kommersiya, yaxud sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, bu fəaliyyətin qurulması, onun prinsipləri haqqında qanunvericilik bazası kifayət qədərdir. Amma bir daha qeyd edim ki, spesifik sahə olduğu üçün bu sahədə fəaliyyətin qurulması

haqqında da, hesab edirəm ki, qanunverici bazanın olması yaxşı olardı.

Məsələnin digər tərəfinə də toxunmaq istərdim. Qanun layihəsində göstərilir ki, məcburi qiymətləndirmə halları ilə o şəxslər məşğul ola bilərlər ki, onlar 3 ildən az olmayaraq qiymətləndirici palatanın üzvü olsunlar. Nəzərə almaq lazımdır ki, məcburi qiymətləndirmə halları da çox vacibdir. Belə görünür ki, bundan sonra, yəni qiymətləndirici palata yarandıqdan sonra biz 3 il müddətində gözləməliyik ki, qiymətləndirici palatanın 3 il üzvü olmuş şəxslər olsun. Bu da bu sahədə, hesab edirəm ki, bir boşluq yarada bilər. İmkan daxilində bu məqama da diqqət yetirilsə, yaxşı olardı. Bir daha vurğulamaq istəyirəm ki, çox vacib qanun layihəsidir və dəstəkləyəcəyəm. Sağ olun.

*Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini **Əli Hüseynli** sədrlik edir*

**Sədrlik edən.** Təşəkkür edirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili.** Çox sağ olun. Əli müəllim, bir məsələyə aydınlıq gətirmək istəyirəm. Burada səsləndi, bizim komitədə də bu məsələ geniş şəkildə müzakirə edilmişdir. Qiymətləndirici şərtlərdə niyə iqtisadçı və yaxud maliyyəçi olması yazılmayıb qanunda. Əsas məqsəd ondan ibarətdir ki, qiymətləndirici elə fəaliyyət növləri var ki, onları qiymətləndirmək üçün iqtisadçı olmaq tam tərs effekt verə bilər. Məsələn, tarixi abidələrin qiymətləndirilməsi üçün iqtisadçı olmaq yetərli deyil. Onun üçün daha dərin biliklərə malik olmaq lazımdır. Ona görə bu, hər hansı bir maneə yaratmasın deyə, ixtisasa dair tələbdə bu, aradan

götürülmüşdür, ümumi ali təhsil, belə bir tələb var.

İkinci tərəfdən, imtahanın dövlət tərəfindən keçirilməsini indiki halda biz məqbul sayırıq. Amma istənilən halda, mən də düşünürəm ki, gələcəkdə bu tip imtahanlar peşəkar birliklərin özləri tərəfindən keçirilməlidir. İndiki halda, düzdür, sualları palata hazırlasa da, onu keçirə biləcək orqanlardan biri DİM ola bilər. Amma gələcəkdə, mən də hesab edirəm ki, bu, işləyəndən sonra, etibar, inam yaradandan sonra həmin palataların özləri tərəfindən imtahan keçirilə bilər. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim. Elnur müəllim, əgər fikirləriniz varsa, buyurun, bölüşə bilərsiniz.

**E.Əliyev,** *Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini.*

Çox sağ olun, təşəkkür edirəm. Hörmətli Əli müəllim, qaldırılan məsələlərlə bağlı qısa şərh vermək istərdim. İlkin növbədə gündəlikdə olan birinci məsələ nağdsız hesablaşmalarla bağlı hörmətli Emin müəllimin və Qüdrət müəllimin qaldırdığı məsələ. Hörmətli Qüdrət müəllimin qaldırdığı məsələ ilə bağlı sualın cavabı mövcud qanunvericilik aktının 3.4.10-cu və 3.4.15-ci maddələrində əks olunub. Burada mövzu yalnız iqtisadi amillərdən doğan məsələ deyil. Bu, eyni zamanda, FATF-ın əmlakın leqallaşdırılması və çirkli pullarla mübarizə sahəsində olan tələblərindən irəli gələn standartlara uyğunlaşma ilə bağlıdır.

Hörmətli Emin müəllimin qaldırdığı məsələ ilə bağlı məlumat üçün bildirmək istərdim ki, müvafiq sahədə tənzimləmə ilə bağlı qanunvericilik aktı hazırda İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanıb və digər həmkar qurumlarla birgə dövlətdaxili müzakirələrdədir.

Qiymətləndirmə fəaliyyəti haqqında qanun layihəsi ilə

bağlı hörmətli həmkarların qaldırdığı məsələlərlə əlaqədar şərhlər vermək istərdim.

Hörmətli Razi müəllimin qaldırdığı məsələ ilə əlaqədar. Qanunvericilikdə istisna göstərilmədiyindən Razi müəllimin qaldırdığı məsələ qanunda təsbit olunubdur.

Vüqar müəllim Bayramovun qaldırdığı hesabatlıq məsələsi ilə bağlı. Qanun layihəsində ildə bir dəfə hesabatlıq nəzərdə tutulub. Bəli, biz qəbul edirik ki, hesabatlığın sayı il ərzində daha artıq ola bilər.

Qüdrət müəllim Həsənquliyevin qaldırdığı qiymətləndiricilər üçün iqtisadi təhsil tələbinin müəyyən edilməsi məsələsi ilə bağlı. Hesab edirəm, həm həmkarımız hörmətli Tahir müəllim, həm də Etibar müəllim, əslində, öz çıxışlarında buna cavab verdilər. Numizmatika sahəsi və ya rəsm əsərlərinin qiymətləndirilməsi məsələsi səsləndirildi, burada mövzunu yalnız iqtisadçı və ya maliyyə təhsili olan şəxslərlə məhdudlaşdırmaq olmaz. Bu sahə, əslində, daha genişdir.

Eyni zamanda, qurumun müstəqilliyi, fəaliyyəti, müxtəlif qurumlarla paralel mövcudluğu ilə bağlı. Bəli, dünya praktikasında belə hallar var. Amma ilkin mərhələdə hər hansı bir tənzimlənmənin olması, eyni zamanda, qiymətləndiricilərin fəaliyyətini tənzimləyəcək alt sənədlərin ekspert səviyyəsində, peşəkar səviyyədə tənzimlənməsi üçün bir vahid palatanın yaradılması tərəfimizdən məqsədəuyğun hesab edilmişdir.

Digər mövzu, Etibar müəllimin bildirdiyi əntiq əşyaların qiymətləndirilməsi məsələsi ilə bağlı bildirmək istərdim ki, bu, qanun layihəmizin predmetində “əqli mülkiyyət obyektlərinin qiymətləndirilməsi” kimi əks olunmuşdur.

Hörmətli Elşad Mirbəşir oğlunun qaldırdığı məsələ qa-

nun layihəsinin 27-ci maddəsində keçid müddəalarında əksini tapmışdır.

Qısaca bunları bildirmək istədim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Elnur müəllim. Məncə, bütün məsələlərə aydınlıq gəldi. Çıxışlar da bitmişdir. Ona görə xahiş edirəm, gündəliyimizin 4-cü məsələsinə – Qiymətləndirmə fəaliyyəti haqqında qanun layihəsinə birinci oxunuşda münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Hörmətli deputat həmkarlar, gündəliyimizin 5-ci məsələsi "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədədir.

Bilirsiniz ki, cənab Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi vəzifəsi təsis edilmişdir. Təklif olunur, bu vəzifənin təsnifatda yeri "Dövlət qulluğu haqqında" Qanunun 11-ci maddəsinə uyğun olaraq, inzibati vəzifələrin birinci təsnifatında olsun. Məlumat bu qədər. Çıxış etmək istəyənlər var. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Təşəkkür edirəm, hörmətli Əli müəllim. 6-cı məsələdə dəyişiklik də, səhv etmirəmsə, dövlət qulluğuna aiddir. Mən burada bir məsələni qeyd etmək istəyirəm.

Dövlət qulluğuna işə qəbulda test imtahanlarından sonra 4 parametr üzrə müsahibə aparılır: dünyagörüşü, peşə

bilikləri, ümumi biliklər, davranışın qiymətləndirilməsi. 3 nəfər komissiya üzvü olur. Bunların heç biri psixoloq olmadığı halda, davranışı qiymətləndirirlər. Bunların heç biri fəlsəfə üzrə mütəxəssis olmadığı halda dünyagörüşünü qiymətləndirməyə çalışırlar.

Mənə bu yaxınlarda bir gənc müraciət etmişdi. Məhkəmə iclası katibi vəzifəsi üçün test imtahanında 80 bal toplayıb. Bu, yüksək bal sayılır. Müsahibə mərhələsində 1,3 balı çatmadığından bunu kəsiblər. Bu gənc 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərib. "Suqovuşanın azad olunmasına görə" medalı və "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunub. Ancaq 1,3 balı çatmadığından bu gənci qapı arxasında qoyublar.

Biz Milli Məclisdə dəfələrcə məsələ qaldırmışıq ki, müsahibə mərhələsində subyektiv amillər çoxdur. Bu sadələşdirilməli və müsahibəyə mütəxəssislər cəlb olunmalıdır. Dünyagörüşü və davranış kimi abstrakt, predmeti yayğın olan istiqamətlər üzrə gəncləri imtahana çəkmək doğru deyil.

Mən uzun müddət komissiya üzvü kimi müsahibələrdə iştirak edənlərin birindən soruşdum ki, davranışı necə qiymətləndirirsiniz? Çox gülməli cavab verdi. Dedi ki, biz ona sual verəndə onun özünü aparmasını, əsəbiləşib-əsəbiləşməməsini müşahidə edirik. Dünyagörüşü və davranışdan müsahibə götürənlərin elə özlərini də kəsmək olar. Düşünürəm ki, bu cür maneələr aradan qaldırılmalıdır.

Bu yaxınlarda mən bir gənc barədə yazmışdım. Çox təəssüflər olsun ki, aidiyyəti qurumlardan heç bir reaksiya gəlmədi. Test imtahanlarında 4 dəfə yüksək bal toplayıb. Ədliyyə Nazirliyinin komissiyasından keçə bilmir. Bu gənc dördüncü dəfə kəsiləndə komissiya üzvlərindən biri soruşub ki, gələn il yenə gələcəksən? Gənc cavab verib ki,

yox, daha gəlmərəm. Gəncləri pisikdirmək olmaz. Bu gəncin istəyi məhkəmə qərarlarının icrası orqanında icra məmuru olmaq idi. Özü də doğulduğu rayonu seçirdi. 4 dəfə cəhddə dünyagörüşü və davranış üzrə "mütəxəssis məmurlar" onun istəyinə çatmasına imkan verməyiblər. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Hörmətli deputat həmkarlar, bizim iş qaydamız hər zaman belə olmalıdır. Əgər təqdim olunmuş layihə ilə bağlı fikir yoxdursa, qanunun özü ilə bağlı fikir varsa, o ilk növbədə komitəyə yönəlməlidir. Əminəm ki, Ceyhun müəllim, Sizin də Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsinin birinci təsnifatda yer alması ilə bağlı etirazınız olmaz. Ona görə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, təşəkkür edirəm.

Gündəliyimizin 6-cı məsələsi də "Dövlət qulluğu haqqında" Qanunda təklif edilən dəyişiklikdir. Burada məsələnin mahiyyəti onunla bağlıdır ki, dövlət qulluğunun xüsusi növündə qulluq keçən şəxslərin bir orqandan digərinə köçürülməsi ilə bağlı məsələlər qarşılıqlı olaraq uyğunlaşdırma qaydasında həyata keçirilməlidir. Bir bu müəyyənləşdirilir.

Eyni zamanda, miqrasiya orqanlarında qulluq keçmə və

rütbələrin verilmə qaydası da bu layihədə öz əksini tapır. Digər məsələlər isə uyğunlaşdırma xarakterlidir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoymaq təklifi var. Çıxış etmək istəyənlər təkid etmirlərsə, onda, xahiş edirəm, səsə qoyulsun. Xahiş edirəm, münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 78 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 78 |
| Nəticə: Qəbul edildi | |

Təşəkkür edirəm. *(Alqışlar.)*

Hörmətli deputat həmkarlar, bu gün Serbiya Respublikası Milli Assambleyasının sədri cənab Vladimir Orliç Azərbaycan Respublikasında rəsmi səfərdədir. Cənab Vladimir Orliçin rəhbərlik etdiyi nümayəndə heyəti hazırda Milli Məclisin plenar iclas salonundadır. Onları salamlamaqdan məmnunluq duyuruq. *(Alqışlar.)*

Hörmətli həmkarlar, gündəliyimizin 7-ci məsələsinə keçirik. "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi. Söz verilir İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü hörmətli Elnur Allahverdiyevə. Buyurun, Elnur müəllim.

**E.Allahverdiyev**, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Əli müəllim. Dəyərli həmkarlar, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan

Respublikası qanununun layihəsində müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquqi və fiziki şəxslərə arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, arxiv sənədlərinin təsdiq olunmuş surətlərinin sürətləndirilmiş qaydada verilməsinə görə tutulan dövlət rüsumlarının ləğv edilməsi nəzərdə tutulur. Qanun layihəsi qəbul edildiyi təqdirdə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.21-ci, 33-3-cü və 33-4-cü maddələri ləğv ediləcək.

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574 nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1812 nömrəli Fərmanının əsasında 2.1.2-ci və 2.1.3-cü yarımbəndlərin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 2020-ci il iyulun 31-də "Ödənişli arxiv xidmətlərinin siyahısının və onların göstərilməsinə görə xidmət haqlarının məbləği"nin təsdiq edilməsi haqqında 251 nömrəli "Dövlət arxiv xidməti işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və dövlət arxiv xidmətinin maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nı təsdiq etmişdir.

Bundan sonra müvafiq icra hakimiyyəti orqanı hüquqi və fiziki şəxslərə ödənişli arxiv xidmətlərini təsdiq olunmuş siyahı və xidmət haqları məbləği müqabilində göstərəcəkdir. Beləliklə, hörmətli həmkarlar, qanunda nəzərdə

tutulan dəyişiklik arxiv xidmətlərinin daha da operativ icrasının təmin olunmasına yönəlib və rüsumun ləğvi ilə bağlıdır. Sizi təqdim olunan dəyişikliklərə səs verməyə dəvət edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Elnur müəllim. Hörmətli həmkarlar, qonaqlarımız iştirak edərkən 6-cı məsələdə səsvermədə səslərimizin sayı çatmamışdı. Xahiş edirəm, biz ilk növbədə 6-cı məsələyə yenidən səs verək və diqqətli olaq.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

İndi isə 7-ci məsələyə – "Dövlət rüsumu haqqında" Qanunda dəyişikliyə, xahiş edirəm, münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 8-ci məsələsi "Ovçuluq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Söz verilir Aqrar siyasət komitəsinin sədri hörmətli Tahir Rzayevə. Buyurun.

**T.Rzayev**, *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Əli müəllim. Hörmətli deputatlar, "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklər qanunvericiliyin təkmilləşməsi məqsədi daşıyır. Ovçuluq və ovçuluq təsərrüfatlarının səmərəli təşkilini, həmin sahədə fəaliyyətin səmərəli həyata keçirilməsini, bu obyektlərin mühafizəsinin təmin edilməsini nəzərdə tutur. Xahiş edirəm, səs verəsiniz.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli deputat həm–karlar, xahiş edirəm, münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 9-cu məsələsi "Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Söz verilir Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa Quliyevə. Buyurun.

**M.Quliyev**, *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli Əli müəllim, hörmətli millət vəkilləri. "Sosial xidmət haqqında" Qanunda təklif edilən dəyişikliklər çətin həyat şəraitində yaşayan və yaxud çətin həyat şəraitinə düşmüş şəxslərin siyahısının genişləndirilməsi və onların sosial müdafiəsinin artırılması məqsədi daşıyır. Belə ki, qanunun mövcud 7-ci maddəsinin 1.9-cu bəndinə görə valideyn himayəsindən məhrum olmuş və

yaxud valideynini itirmiş şəxslər sosial xidmət müəssisələrində yaşadıqları halda, onlar çətin həyat şəraitində olmuş şəxslər hesab edilirdi. Bu, əlavə olunur. Eyni zamanda, valideyn himayəsindən məhrum olan və ümumi təyinatlı internat tipli, yaxud internat tipli xüsusi ümumtəhsil məktəblərində yaşamış şəxslər. Belə ki, həmin şəxslər indiyə qədər bu müəssisələrdən məzun olduqdan sonra dövlətin onların mənzil və yaşayış yeri təminatlarından rahatlıqla istifadə edə bilmirdilər. Bu qanun qəbul olunandan sonra, 13-cü maddəyə edilən dəyişikliklərə görə bu şəxslər də məzun olduqdan sonra qısa müddət ərzində dövlət tərəfindən mənzillə və yaşayış yeri ilə təmin edilmək və digər sosial xidmətlərə cəlb olunmaq imkanları əldə edəcəklər.

Göründüyü kimi, qanunda edilən dəyişikliklər pozitiv xarakterlidir və sosial müdafiəyə ehtiyacı olan şəxslərin sosial təminatlarının daha da yaxşılaşdırılması üçün hüquqi baza yaradır. Xahiş edirəm, qanun layihəsini dəstəkləyəsiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Hicran xanım, söz demək istəyirsiniz. Buyurun.

**H.Hüseynova.** Hörmətli Əli müəllim, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Musa müəllim çox ətraflı məruzə etdi. Mən bir məsələni vurğulamaq istərdim. Hamımız bilirik ki, respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə uşaq evlərindən məzun olan gənclərin mənzillə təmin edilməsi üçün sosial əhəmiyyətli tədbirlər keçirilir və eyni zamanda, Heydər Əliyev Fondu onların məşğulluğunun artırılması sahəsində də çoxsaylı layihələrə imza atmışdır. Ancaq bununla yanaşı, qanunvericilikdə onlar çətin həyat şəraitində yaşayan hesab edilənlərin sırasına daxil edilməmişlər. Bu isə belə həssas təbəqədən olan şəxs və ya ailə

üçün, əlbəttə ki, problemlər yaradır. Xüsusi ilə də mənzil şəraitinin yaxşılaşdırılması və işlə təmin olunmaq sahəsində belə hallara daha çox rast gəlinir. Buna görə də “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda belə bir düzəlişə, həqiqətən də, ehtiyac vardır. Mənim bu qanuna münasibətim, əlbəttə ki, müsbətdir və ona səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu, elə də davam edərik. Növbəti 5 məsələ bir məktubla daxil olub. Söz verilir Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Əminə xanıma. Əminə xanım, bu 5 məsələni, 10-cudan 14-cüyə qədər, xahiş edirəm, məruzə edəsiniz. Buyurun.

**Ə.Ağazadə**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, Əli müəllim. Hörmətli həmkarlar, Azərbaycan Respublikasının Prezidenti tərəfindən bir məktubla Milli Məclisin müzakirəsinə təqdim edilmiş 5 qanun layihəsinin mahiyyəti Milli Məclis tərəfindən 2022-ci il aprelin 26-da Cinayət Məcəlləsində qəbul edilmiş dəyişikliklərlə bağlıdır. Xatırlatmaq istəyirəm ki, həmin ta-

rixdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə Cinayət Məcəlləsində müvafiq dəyişikliklər qəbul edilmişdir. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar törədilən cinayətlərdə "şəxsi istehlak miqdarından artıq" sözləri "xeyli miqdarından aşağı" sözləri ilə əvəz edilmiş, eyni zamanda, bu cinayətlərin törədilməsində ilk dəfə "xüsusi ilə külli miqdar" anlayışı müəyyən edilməklə, belə əməllərin törədilməsinə görə daha sərt cəzalar nəzərdə tutulmuşdur. Eyni zamanda, xatırlatmaq istəyirəm ki, 2022-ci ildə Cinayət Məcəlləsində qəbul edilmiş dəyişikliklərin qüvvəyə minmə tarixi yeni siyahıların qüvvəyə minməsi ilə şərtləndirilmşdir. Həmin dəyişikliklər qəbul edilsə də, hazırda qüvvədə deyil və yalnız bu gün müzakirə etdiyimiz qanun layihələrinin qəbul edilməsindən sonra onlarla eyni gündə qüvvəyə minəcək.

Hörmətli həmkarlar, hesab edirəm ki, narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən dəyişiklikləri biz 2022-ci ildə artıq qəbul etmişik. Bu baxımdan bu gün cənab Prezident tərəfindən təklif edilən yeni siyahıların qanunla təsdiq edilməsi olduqca vacibdir, zəruridir və həmkarlarımı layihəyə səs verməyə çağırıram. Həmçinin yeni siyahılarla bərabər, layihələrdə bir sıra dəyişikliklər Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında  2022-ci il aprelin 26-da qəbul etdiyimiz qanundan irəli gəlir və yalnız uyğunlaşdırma xarakteri daşıyır. Diqqətiniz üçün sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çıxışa yazılanlar var. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Təşəkkür edirəm, Əli müəllim. Hörmətli deputatlar, narkotik vasitələrin istifadəsi və dövriyyəsi bizim ölkəmizdə də qorxunc miqyas alıb. Hüquq mühafizə orqanları mübarizə aparır, amma açığını deyək ki, onlar öhdəsindən gəlməkdə çətinlik çəkirlər. Mən polis və prokurorluq orqanlarına, Dövlət Təhlükəsizliyi Xidmətinə göstərdikləri səylərə görə təşəkkür edirəm və belə bir təklif irəli sürürəm. Narkotika ilə mübarizədə hər kəs iştirakçı olarsa, faydalı olar. Onun üçün də narkotik maddələrin yayılmasının qarşısının alınması üçün könüllü xalq qruplarının yaradılmasını təklif edirəm. Bu qrup, dəstə, yaxud drujina hər bir rayonda, kənddə və qəsəbədə yaradıla bilər. Bu drujinalar, yaxud dəstələr, qruplar qəsəbədə yaradılandan sonra ümumi koordinasiyası isə ictimai təşkilatlardan bir neçəsinə tapşırıla bilər. Əgər biz bu fəaliyyəti təşkil edə bilsək, əminəm ki, bir neçə ay ərzində narkotiklərin satışı, istehsalı və dövriyyəsi ilə bağlı köklü dəyişikliyə nail ola bilərik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hicran xanım, buyurun.

**H.Hüseynova**. Sağ olun, Əli müəllim. 11-ci, 12-ci, 13-cü və 14-cü məsələlərlə bağlı bildirmək istərdim ki, narkomaniya və narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə Azərbaycan dövlətinin prioritet vəzifələrindən hesab olunur. Müvafiq qanunvericilik bazası vardır və bu günə qədər sözügedən sosial bəlanın aradan qaldırılması məqsədi ilə 3 dövlət proqramı icra olunub və 2019-cu ildən etibarən isə 4-cü dövlət proqramı da həyata keçirilir.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır. Daxili İşlər Nazirliyi son dövrlərdə narkotiklərlə bağlı cinayət əməllərinə qarşı çox ciddi əməliyyat

tədbirləri həyata keçirir. Lakin bütün bu görülən işlərə baxmayaraq, ölkədə narkomanların, bunu xüsusi ilə vurğulamaq istəyirəm ki, bu bəlaya düçar olan qadınların və uşaqların sayı hələ də çoxdur. Gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik hallarının yüksələn xətlə artması xüsusi narahatlıq yaradır.

Sahibə xanımın təşəbbüsü ilə Milli Məclisin iki komitəsi, bizim komitə və Səhiyyə komitəsi bu məsələlərlə bağlı dinləmələr keçirmişdik. Hamımız bilirik ki, narkomanlıq cəmiyyətin əsası olan ailəni dağıdır və ailədaxili münaqişələrin, məişət zəminində zorakılığın artmasına, xəstə uşaqların doğulmasına səbəb olur. Bu səbəbdən də maarifləndirmə işlərinin gücləndirilməsi ilə yanaşı, müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsinə də çox böyük ehtiyac yaranır. Müzakirəyə təqdim olunan layihələrə, əlbəttə, müsbət səs verəcəyəm və həmkarlarımızı da çağırıram ki, səs verək.

**Sədrlik edən.** Sağ olun. İndi isə səsverməyə keçirik. Xahiş edirəm, 10-cu məsələyə – Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

11-ci məsələyə, "Narkotik vasitələrin, psixotrop mad-

dələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə, xahiş edirəm, münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

12-ci məsələyə, "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə, xahiş edirəm, münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

13-cü məsələyə, "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə, xahiş edirəm, münasibət bildirəsiniz.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Bu paket layihələrin sonuncu məsələsi olan 14-cü məsələyə, "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə, xahiş edirəm, münasibət bildirəsiniz.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 15-ci məsələsi İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Nizami Səfərov, buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli Əli müəllim, hörmətli Milli Məclisin deputatları. Azərbaycan Respublikasının Prezidenti qanunve-

ricilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim etmişdir. Layihəyə əsasən inzibati mübahisələrə dair işlər üzrə icraatda proses iştirakçıları anlayışının dəqiqləşdirilməsi məqsədi ilə məcəllənin müvafiq maddələrində dəyişiklik nəzərdə tutulur. Bir sıra anlayışların, məsələn, "inzibati məhkəmə icraatının iştirakçıları", "tərəflər" anlayışlarının ifadə etdiyi mənalar müəyyən edilir.

İnzibati Prosessual Məcəlləsinin 27 maddəsinin yeni redaksiyasına əsasən inzibati məhkəmə icraatının iştirakçıları "tərəflər və inzibati məhkəmə icraatına cəlb olunmuş üçüncü şəxslər"dir. Şahidlər, ekspertlər mütəxəssislər, tərcüməçilər, nümayəndələr, vəkillər digər şəxslər hesab olunur. Layihəyə əsasən inzibati prosesin qeyd etdiyim digər iştirakçılarının istifadə etdiyi bəzi hüquqlar və onlara münasibətdə məhkəmənin bir sıra vəzifələrində dəqiqləşdirilmə aparılaraq, prosessual hüquq normalarının təkmilləşdirilməsi təmin edilir.

Hörmətli deputatlar, xahiş edirəm, qanunun birinci oxunuşda qəbul edilməsinə səs verəsiniz.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, 15-ci məsələyə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 16-cı məsələsi "Poçt haqqında" Qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Söz verilir İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü hörmətli Mahir Abbaszadəyə. Buyurun.

**M.Abbaszadə**, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun, Əli müəllim. Hörmətli Əli müəllim, hörmətli millət vəkilləri. Son illər ölkəmizdə aparılan uğurlu islahatlara uyğun olaraq, poçt sahəsində inkişaf davam etdirilməkdədir. Təklif edilən qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli "Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Fərmanına əsasən hazırlanmşdır. Azərbaycan Respublikası Prezidentinin fərmanında rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının Azərbaycan Respublikasının İqtisadiyyat və Maliyyə nazirliklərinin rəyi nəzərə alınmaqla, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təsdiq edilməsi təsbit edilmişdir. Belə ki, qüvvədə olan mövcud qanuna görə poçt rabitəsi üzrə müvafiq icra hakimiyyəti orqanı, yəni Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən yalnız universal poçt rabitəsi xidmətlərinin tariflərinə dair təkliflər verilə bilərdi. Təklif edilən yeni dəyişikliklə birlikdə universal poçt rabitəsi xidmətlərinin tariflərinin Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təsdiq edilməsi nəzərdə tutulmuşdur.

Hörmətli deputatlar, qanun layihəsi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə edilmişdir. Komitənin rəyi müsbətdir, sizlərdən də

komitənin rəyini dəstəkləməyinizi xahiş edirik.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, 16-cı məsələyə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 17-ci məsələsi, "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi. Söz verilir İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü hörmətli Məşhur Məmmədova. Buyurun, Məşhur müəllim.

**M.Məmmədov**, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Hörmətli Əli müəllim, hörmətli deputatlar. Müzakirə olunan qanun layihəsi ölkə əhalisinin sosial durumunun yaxşılaşdırılması və rifah halının yüksəldilməsinə xidmət edəcək dəyişiklikləri özündə ehtiva edir. İlk öncə bildirmək istəyirəm ki, qanun layihəsi "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli Qanununun qüvvəyə minməsi və Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 yanvar tarixli Fərmanının icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır. Təklif edilən yeni dəyişiklik fiziki şəxs tərəfindən şəxsi istifadəsi üçün ölkəyə gətirilən mobil

cihazların qeydiyyata alınmasına görə tutulan dövlət rüsumunun məbləğinin azaldılmasını nəzərdə tutur. Bir sıra rüsumlarda dəyişikliklər var. Onların barəsində ətraflı məlumat sizə təqdim olunan arayışda vardır.

Hörmətli deputatlar, qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə edilmiş və müsbət rəy almışdır. Sizdən də bu qanunu dəstəkləməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli deputatlar, xahiş edirəm, 17-ci məsələyə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyimizin sonuncu, 18-ci məsələsi. Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi. Buyurun, hörmətli Musa müəllim.

**M.Quliyev**. Çox sağ olun, hörmətli Əli müəllim. Hörmətli millət vəkilləri, onu da qeyd edim ki, hər iki qanun layihəsi cənab Prezidentin bir məktubu ilə komitəyə daxil olmuşdur və komitə tərəfindən müzakirə olunaraq, müsbət rəy verilərək Milli Məclisin plenar iclasına təklif edilmişdir.

Əmək Məcəlləsinin iki maddəsində dəyişiklik təklif olunur. Bunlardan biri 43-cü maddədir. Bu dəyişiklik "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qa-

nununa uyğunlaşma xarakteri daşıyır. Belə ki, 43-cü maddəyə görə, işçi əmək fəaliyyətinə ilk dəfə başlayan zaman ona qarşı qoyulan şərtlər və tələb olunan məlumatlar "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa görə barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslərə aid edilmir. Yəni onların sosial sığorta nömrələri göstərilmir, məxfi saxlanılır.

İkinci dəyişiklik isə 51-ci maddəyə təklif olunur və sınaq müddəti ilə bağlıdır. Mövcud qanunvericiliyə görə işçinin işə götürülməsində sınaq müddəti 3 aya qədər müəyyən olunur. Lakin Dünya Bankı Qrupunun Əlverişli biznes mühiti layihəsinin işçi qüvvəsi indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşdirilmənin həyata keçirilməsinə dair 2022–2023-cü illər üzrə Yol Xəritəsində işçilərin sınaq müddətinin tənzimlənməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi tövsiyə olunmuşdur. Məhz bu tövsiyəyə görə, əgər işçi 6 aya qədər işə götürülürsə, yəni onunla bağlanan əmək müqaviləsinin müddəti qısadırsa, sınaq müddəti də iki həftədən çox olmamaq şərti ilə müəyyənləşdirilir. 6 aydan çox əmək müqaviləsi bağlayan şəxslərdə isə olduğu kimi, 3 aylıq sınaq müddəti qalacaqdır.

Digər dəyişiklik "Əmək pensiyaları haqqında" Qanunda təklif olunan dəyişikliklərdir. Bu dəyişikliklər də "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Qanunda ötən ilin 8 iyul tarixində edilmiş dəyişikliklərlə uyğunlaşdırma xarakteri daşıyır. Bir sıra terminlər, o cümlədən "fərdi uçot", "fərdi hesab", "şəxsi uçot" və sair kimi terminlərin vahidləşməsi prinsipi əsas götürülür və uyğunlaşma xarakteri daşıyır. Hər iki qanun layihəsinə səs verməyinizi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyənlər var. Hicran Hüseynova. Buyurun.

**H.Hüseynova**. Sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, media nümayəndələri. 18-ci məsələ ilə bağlı bildirmək istərdim ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinə münasibətim müsbətdir və səs verəcəyəm. Bununla yanaşı, fürsətdən istifadə edib, bir fikrimi bildirmək istərdim.

Məlumdur ki, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsi son ölkə hesabatı zamanı 14 günlük ödənişli atalıq məzuniyyətinin qanunvericiliyə daxil edilməsinin sürətləndirilməsi ilə bağlı hökumətə tövsiyə verib. Milli qanunvericilikdə uşağın dünyaya gəlməsi ilə bağlı atalara 14 təqvim günü müddətində ödənişsiz məzuniyyət hüququ verilir. Lakin bu, ödənişsiz olduğu üçün təcrübədə heç bir ata bu hüquqdan istifadə etmir. Çünki ödənişsiz məzuniyyət ailə büdcəsinə əlavə təzyiq yaradır. Lakin araşdırmalar göstərir ki, belə bir məzuniyyətin tətbiqi çox müsbət nəticə verir. Ataların daha fəal, emosional iştirakı uşaqların inkişafına və rifahına müsbət təsir edir. Son 20 ildə dünyada atalıq məzuniyyətinin tətbiqi 21 faizdən 52 faizə yüksəlmişdir.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi olaraq biz bu məsələni ictimai dinləmələrdə səsləndirmişdik. Dövlət büdcəsini müzakirə edən zaman təkliflər vermişdik. Fikrimcə, qanunvericilikdə atalıq məzuniyyətinin ödənişli olması ilə bağlı dəyişikliklərin edilməsinə ehtiyac var. Qeyd etmək lazımdır ki, ödənişli atalıq məzuniyyəti qadınların məşğulluq səviyyəsinə də çox müsbət təsir göstərir. Mən belə düşünürəm ki, artıq bu stereotip-

ləri aradan qaldırmaq lazımdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli. Buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli sədrlik edən, hörmətli deputatlar, çox vaxtınızı almayacağam. Doğrudur, biz qanunda vaxtı ilə dəyişiklik etmişik 2022-ci ildə və "fərdi şəxsi hesab" terminini gətirmişik. Mən başa düşə bilmirəm, indi deyək ki, "fərdi şəxsi hesab", fərdi ümumi hesab da var. Yəni sözümün mənası həm terminlə, həm də mənalarla bağlıdır, ərəb sözləridir, digərləridir, elə təkrar olunur. Başa düşə bilmirik. Xahiş edirəm, dilçilər bunu bir qədər mükəmməlləşdirsinlər. Bayaq elə çıxışım bundan ibarət idi. Deyək ki, "etnik mənsubiyyət" sözlərindən sonra bir də yazılıb cinsi filan-filan mənsubiyyət, yarım cümlədə iki dəfə "mənsubiyyət" sözü təkrar olunur.

Vaxtı ilə Sabir müəllim, Etibar müəllim, digərləri də belə məsələlərlə bağlı çıxış ediblər. Doğrudur, mən başa düşürəm ki, o, Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə, bərabərlik hüququna analogiyadır. Amma "Normativ hüquqi aktlar haqqında" Qanunun da 25-ci maddəsinin ikinci hissəsi var ki, normativ göstərişlər, terminlər və digərləri təkrarlanmamalı və çoxluq təşkil etməməlidir. Xahiş edirəm ki, bundan sonra Milli Məclisin xüsusi xidməti, şöbələri qanun layihələri gələndə bir qədər bunlara diqqətlə yanaşsınlar və düzgün söz və söz birləşmələri ilə bağlı daha doğru, daha aydın, konkret mövqelər sərgiləsinlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxışçı Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm, Əli müəllim. Mən də çox qısa olaraq bir məsələni qeyd etmək istərdim. Əvvəla, təqdim edilən qanun layihəsini dəstəkləyirəm. Xüsusən də sınaq müddəti ilə bağlı diferensial yanaşma, təbii

ki, həm də işçilərin seçim imkanları baxımından çox vacibdir. Sadəcə, sınaq müddətində işçilərin əmək hüquqlarının qorunması ilə bağlı konseptual olaraq mexanizmlərin də layihədə öz əksini tapması və bütövlükdə, yalnız əmək müqaviləsi bağlandığı, yəni əmək münasibətləri yarandığı müddətdə deyil, eyni zamanda, əmək müqaviləsi bağlandıqdan sonra müəyyənləşdirilmiş sınaq müddətində işçilərin əmək hüquqlarının qorunması ilə bağlı da daha aydın və konkret mexanizmlərin hazırlanıb qanunvericiliyə daxil edilməsini təklif etmək istərdim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, bu təkliflərə ikinci oxunuşa qədər, məncə, işçi qaydada münasibət bildirmək olar. Təşəkkür edirəm. İndi səsverməyə keçirik. Xahiş edirəm, gündəliyin sonuncu, 18-ci məsələsinə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Bununla da iclasımız başa çatdı. Sağ olun.

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XIV SESSİYASININ XÜSUSİ İCLASININ

# PROTOKOLU № 144

*Milli Məclisin iclas salonu.*
*12 oktyabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 93 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 92 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələ daxil idi:**

İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamilə Əliyeva, İsa Həbibbəyli, Elşad Mirbəşir oğlu, Bəxtiyar Əliyev, Tural Gəncəliyev, Qüdrət Həsənquliyev, Emin Hacıyev, Elşən Musayev, Zahid Oruc, Səbinə Xasayeva, İqbal Məmmədov, Naqif Həmzəyev, Sadiq Qurbanov, Razi Nurullayev, Əli Məsimli, Vahid Əhmədov, Hikmət Məmmədov, Bəhruz Məhərrəmov, Əli Hüseynli, Müşfiq Məmmədli, Eldar İbrahimov, Fəzail İbrahimli, Etibar Əliyev, Anar İsgəndərov, Tahir Mirkişili, Əziz Ələkbərov, Ceyhun Məmmədov, Tahir Kərimli, Siyavuş Novruzov, Könül Nurullayeva, Eldar Quliyev, Vüqar İskəndərov, Aydın Hüseynov, Jalə Əliyeva, Vüqar Bayramov, Sahib Alıyev, Əhliman Əmiraslanov, Nəsib Məhəməliyev, Fəzail Ağamalı

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.37 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

## *MİLLİ MƏCLİSİN İCLASI*

*12 oktyabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri **Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 92 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, bugünkü xüsusi iclasımızın gündəliyində bir məsələ var – İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Milli Məclisin Bəyanatı.

Xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, sizin icazənizlə, mən giriş nitqimi kürsüdən səsləndirəcəyəm.

Hörmətli həmkarlar, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev vətənimizin bu günü və sabahı naminə həyata keçirdiyi möhtəşəm işlərlə xalqımızın dərin hörmət və məhəbbətini qazanmışdır.

Son iyirmi il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olmuşdur. Ölkə həyatının bütün sahələrində böyük uğurlar, misilsiz və qürurverici qələbələr əldə edilmişdir. Azərbaycanın zəngin iqtisadi, siyasi və hərbi potensialı yaradılmışdır. Bütün bu nailiyyətlərin təməlində Ulu Öndər Heydər Əliyevin başladığı və möhtərəm Prezident İlham Əliyevin inamla davam etdirdiyi uzaqgörən daxili və xarici siyasət xətti dayanır.

İlham Əliyevin rəhbərliyi ilə ötən dövrdə ölkə iqtisadiyyatı heyrətamiz inkişaf yolu keçmişdir. Bu inkişafın miqyası haqqında təsəvvür yaratmaq üçün təkcə bir faktı qeyd edim ki, Azərbaycanda istehsal olunan ümumi daxili məhsul 3,6 dəfə artmışdır.

Hörmətli deputatlar, Milli Məclisdə biz hər il, bildiyiniz kimi, dövlət büdcəsini müzakirə və təsdiq edirik. İldən-ilə dövlət büdcəsinin gəlirləri və xərcləri əhəmiyyətli dərəcə-

də artır. İyirmi ilə yaxın dövrdə dövlət büdcəsinin gəlirləri iyirmi beş dəfədən çox, xərcləri isə iyirmi altı dəfə artmışdır.

Həyata keçirilən məqsədli sosial proqramlar sayəsində yoxsulluq səviyyəsi 5,5 faizə düşmüşdür. İnsanların rifah halı yüksəlmişdir. Əhalinin sosial cəhətdən həssas qruplarına dövlət tərəfindən müntəzəm dəstək göstərilir.

Hörmətli həmkarlar, qeyd edim ki, ölkəmizin iqtisadi yüksəlişi səriştəli rəhbərlik faktoru öndə olmaqla, bir sıra amillərlə bağlıdır. Bununla əlaqədar mən bəzi məqamlara toxunmaq istəyirəm.

Məlumdur ki, Azərbaycan neft və qaz yataqları ilə zəngin bir ölkədir. Prezident İlham Əliyev ölkəmizin nəhəng enerji potensialından səmərəli istifadəni dövlət siyasətinin prioritet istiqamətinə çevirmişdir.

Ölkəmizin iqtisadi qüdrətinin artmasında karbohidrogen ehtiyatları mühüm rol oynayır. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən transmilli layihələr təkcə ölkəmizin deyil, həm də bütün Avrasiya qitəsinin enerji təhlükəsizliyinin qorunmasına kömək göstərir. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, digər layihələr həm indiki, həm də gələcək nəsillərin firavanlığını təmin etməyə yönəlmişdir.

Ancaq iqtisadiyyat yalnız bir mənbənin hesabına uzun müddət inkişaf edə bilməz. Məhz buna görə də dövlət başçısı neft və qazdan asılılığın azaldılması, ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün düşünülmüş tədbirlər həyata keçirmişdir. Qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının, turizmin, informasiya texnologiyalarının və digər sahələrin dəstəklənməsi üçün məqsədyönlü proqramlar icra olunmuşdur. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, son iki ildə ümumi daxili məhsulda qeyri-neft

sektorunun payı 64 faiz olmuşdur.

Hörmətli deputatlar, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təmin edilən siyasi və iqtisadi sabitlik, əlverişli biznes mühiti istənilən layihənin uğurla reallaşmasını təmin edir. Ötən dövrdə ölkəmizin iqtisadiyyatına milyardlarla ABŞ dolları məbləğində investisiya qoyulmuşdur. Eyni zamanda, Azərbaycan özü də bir sıra regional və qlobal layihələrdə sərmayəçi kimi çıxış etmişdir.

Onu da qeyd edim ki, həyata keçirilən infrastruktur layihələri ölkəmizi regionun nəqliyyat-kommunikasiya mərkəzinə çevirmişdir. Bu isə tarixən Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın geosiyasi əhəmiyyətini daha da artırmışdır.

Hörmətli həmkarlar, 2013-cü ildən bəri Azərbaycan kosmik klubun üzvüdür. Qeyd etmək yerinə düşər ki, dünya miqyasında ən mötəbər tədbirlərdən biri olan Beynəlxalq Astronavtika Konqresi 50 ildən sonra bu günlərdə ikinci dəfə Azərbaycanda keçirilmişdir. Bu hadisə ilk növbədə dövlət başçısı İlham Əliyevin liderliyinə göstərilən ehtiramın ifadəsi olmuşdur.

Hörmətli həmkarlar, möhtərəm Prezidentin təşəbbüsü və rəhbərliyi ilə dövlət həyatının bütün sahələrində sistemli islahatlar həyata keçirilmişdir. Ölkəmizin siyasi sistemi təkmilləşdirilmişdir. Altıncı çağırış Milli Məclisin və onun komitələrinin rəhbərliyində hakim Yeni Azərbaycan Partiyası ilə yanaşı, müxalif partiyaların nümayəndələri də təmsil olunmuşlar. Hakimiyyətin müxtəlif qolları arasında əməkdaşlıq əlaqələri daha da möhkəmlənmiş, iqtidarla müxalifət arasında müntəzəm dialoq qurulmuşdur.

Hörmətli deputatlar, Prezident İlham Əliyev insan kapitalının inkişafına daim qayğı göstərir. Milli-mənəvi dəyərlərin qorunması, elm və təhsilin, mədəniyyət və incə-

sənətin inkişafı diqqət mərkəzində saxlanılır.

İlham Əliyevin rəhbərliyi ilə qanunun aliliyinə, insan hüquqlarının və azadlıqlarının qorunmasına əsaslanan inklüziv cəmiyyət formalaşdırılmışdır. Ölkəmizdə dərin tarixi kökləri olan tolerantlıq və multikulturalizm ənənələri daha da inkişaf etdirilmişdir. Milli həmrəyliyin möhkəmləndirilməsi, dünya azərbaycanlıları ilə əlaqələrin gücləndirilməsi, müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın hüquqlarının qorunmasına kömək göstərilməsi dövlət siyasətinin mühüm istiqamətlərinə çevrilmişdir.

Hörmətli deputatlar, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq nüfuzunu daha artırmışdır. Bu gün ölkəmiz qlobal dialoqda fəal iştirak edir. Dünya dövlətləri ilə münasibətlərdə, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan sanballı sözü və ardıcıl mövqeyi olan bir dövlət kimi tanınır.

Prezident İlham Əliyevin xarici siyasətinin uğurlarından danışarkən xüsusi qeyd edilməlidir ki, Azərbaycan 2012–2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olmuş, 2019–2022-ci illər üçün dünyanın ikinci ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatına sədr seçilmiş və sədrlik müddəti daha bir il uzadılmışdır.

Möhtərəm İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması təşkilatın institusional inkişafında mühüm rol oynayan hadisələr olmuşdur. Hazırda hərəkatın qadınlar platformasının yaradılması üzərində iş aparılır.

Hörmətli deputatlar, Prezident İlham Əliyevin hərbi quruculuq siyasəti nəticəsində müasir dövrün ən yüksək standartlarına cavab verən silahlı qüvvələr yaradılmışdır. Qarabağı və Şərqi Zəngəzuru heç vaxt görməyən, ancaq

doğma torpaq yolunda canından keçməyə hazır olan gənc nəsil yetişdirilmişdir.

Bu isə xalqımızın və dövlətimizin müqəddəratı ilə bağlı olan ən mühüm problemi həll etməyə imkan vermişdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik məharəti və Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzmi və rəşadəti, yüksək hərbi-texniki və mənəvi-psixoloji hazırlığı 44 günlük Vətən müharibəsində tarixi qələbəni təmin etmişdir.

30 ilə yaxın Ermənistanın işğalı altında qalan Azərbaycan torpaqları azad edilmiş və Ulu Öndər Heydər Əliyev tərəfindən başladılmış tarixi missiya layiqincə sona çatdırılmışdır. Dünya miqyasında az sayda liderə nəsib olan möhtəşəm Zəfərə imza atmaqla cənab İlham Əliyev öz adını Azərbaycan tarixinə əbədi həkk etmişdir.

Hörmətli həmkarlar, Azərbaycan dövlətinə qarşı təhdidlərə son qoymaq üçün Ali Baş Komandanın rəhbərliyi ilə bu il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri hərb tariximizin yeni şanlı səhifəsini təşkil etmişdir.

Azərbaycan ərazisində qanunsuz qalan Ermənistan silahlı birləşmələri və terrorçu qruplar darmadağın edilmiş, Ermənistanın dəstəyi ilə yaradılan kriminal xunta rejiminin fəaliyyətinə son qoyulmuşdur. Bu gün biz qürurla söyləyirik ki, Azərbaycan Prezidentinin siyasi iradəsi və qətiyyəti sayəsində Azərbaycanın suverenliyi onun bütün ərazisində bərpa edilmişdir.

Hörmətli həmkarlar, Qarabağı könüllü şəkildə tərk etmək istəyən erməni sakinlərin bu torpağı hansı şəraitdə tərk etdiyini hamımız müşahidə etdik, dünya da görüb yəqin edə bildi. Hesab edirəm ki, bütün bunlar Azərbaycan xalqına xas olan və Prezident İlham Əliyevin həyata

keçirdiyi siyasətdə təcəssümünü tapan humanizm və mərhəmətin bariz ifadəsidir.

Onu da qeyd edim ki, Qarabağ ərazisində qalan ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün lazımi tədbirlər görülür. Bununla yanaşı, Azərbaycan dövləti Ermənistan Respublikası ilə münasibətlərin normallaşdırılması və bölgədə əmin-amanlıq yaradılması üçün sülh danışıqlarını davam etdirməyə hazırdır. Bunu dövlət başçısı son çıxışlarında bir daha bəyan etdi.

Hörmətli deputatlar, möhtərəm İlham Əliyevin rəhbərliyi ilə xalqımız Vətən müharibəsində və antiterror tədbirlərində göstərdiyi hünərləri Qarabağda və Şərqi Zəngəzurda geniş vüsət alan bərpa və quruculuq işlərində də nümayiş etdirir.

İşğal dövründə viran qoyulmuş torpaqlarımıza yeni həyat gəlir. Qarabağ və Şərqi Zəngəzur gözlərimiz önündə çiçəklənən diyarlara çevrilir. İnamla söyləmək olar ki, tezliklə bütün köçkün soydaşlarımızın yurd həsrətinə son qoyulacaq.

Hörmətli həmkarlar, bu gün Azərbaycan öz tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. Prezident İlham Əliyevin uzaqgörən siyasəti daimi tərəqqi və yüksəlişi gündəlik həyatımızın reallığına çevirmişdir.

Biz əminik ki, cənab İlham Əliyevin müstəsna liderlik keyfiyyətləri, siyasi məharəti və səriştəsi qarşıya qoyulan vəzifələri bundan sonra da uğurla yerinə yetirməyə imkan yaradacaq. Azərbaycan qarşıdakı illərdə daha böyük nailiyyətlərə imza atacaq, dünyanın sayılıb-seçilən dövlətləri sırasında öz yerini daha da möhkəmləndirəcək.

Biz möhtərəm Prezidentə tarixi missiyasını həyata keçirməkdə yeni böyük uğurlar arzulayırıq. Əmin etmək istəyirik ki, cənab İlham Əliyevin bu missiyasını qanun-

vericilik fəaliyyəti sahəsində dəstəkləmək üçün Milli Məclis öhdəsinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək.

Diqqətinizə görə çox sağ olun. (*Alqışlar.*)

Hörmətli həmkarlar, biz çıxışlara başlamazdan öncə mən sizi möhtərəm Prezidentin fəaliyyətindən bəhs edən video-çarxa baxmağa dəvət edirəm. Buyurun.

(*Videoçarx nümayiş etdirilir.*)

**Sədrlik edən.** Hörmətli həmkarlar, biz indi çıxışlara başlayacağıq. Buyurun, yazılın.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif? 5 dəqiqəyə qədər. Kamilə Əliyeva. Kamilə xanım, buyurun.

**K.Əliyeva.** Təşəkkür edirəm, Sahibə xanım. Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Prezident cənab İlham Əliyev dövlət başçısı seçildiyi ilk gündən bəyan etmişdi ki, Azərbaycanı qüdrətli, güclü dövlətə çevirmək üçün var gücü ilə çalışacaq. Hər zaman verdiyi sözlərə, vədə sadiq qalan cənab İlham Əliyev ölkəmizi dünyanın ən qüdrətli dövlətlərindən birinə çevirdi. Bu, İlham Əliyev şəxsiyyətinin böyüklüyünün və onun müdrik, eyni zamanda, qətiyyətli və prinsipial bir siyasi xadim olmasının nümunəsidir.

Prezident cənab İlham Əliyevin şəxsiyyətinin böyüklüyü həm də ondadır ki, sadə Azərbaycan vətəndaşı üçün əlçatandır. Hakimiyyətin ən ali zirvəsində olan şəxsin hər bir vətəndaşı fərdi dinləməsi, problemin həllini daim nəzarətdə saxlaması dövlət başçımızın öz xalqına nə qədər yaxın olmasını və onu sevməsinin nümunəsidir. Hər bir azərbaycanlı da öz Prezidentinə inanır, ona etibar edir, güvənir, hansı ölkədə yaşamasından asılı olmayaraq, öz liderinin dəstəyini, gücünü hiss edir və bundan qürur duyur.

Prezidentimiz xalqımızı milli və müqəddəs amallar naminə öz ətrafında birləşdirdi və xoşbəxt gələcəyə inam yarada bildi. Xalqımızın öz liderinə inamı, liderinin isə öz xalqına arxalanması dövlətimizin uğurlarının əsasını təşkil etdi. Məhz Prezident cənab İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclərimiz Ali Baş Komandanın əmri ilə silaha sarılaraq vətən, torpaq uğrunda savaşa başladılar. Bu gənclər vətənə, dövlətə, torpağa sevgini, bağlılığı məhz İlham Əliyevdən örnək götürmüşlər.

44 günlük Vətən müharibəsində Prezident Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan zəfər salnaməsi yaradaraq bütün dünyaya öz gücünü, kimin kim olduğunu göstərdi. Bu gün dünyanın siyasi xadimləri, ölkə liderləri Prezident cənab İlham Əliyevin dünyanın ən güclü və nüfuzlu siyasətçilərindən biri olduğunu bildirirlər. Dövlət başçımız torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin bərpa olunması, ölkənin beynəlxalq aləmdə nüfuzunun gücləndirilməsi yolunda yorulmadan qətiyyətlə çalışdı və 30 ildən sonra Azərbaycan bayrağının Qarabağ və Şərqi Zəngəzurun bütün şəhər və kəndlərində dalğalanmasına nail oldu. Prezident cənab İlham Əliyevin gördüyü bütün işlər Azərbaycan xalqının daha xoş güzəranının qorunması, sabahını daha gözəl və xoşbəxt etmək məqsədi daşıyır.

Azərbaycan dövlətinin tarixində Prezident cənab İlham Əliyevin yaratdığı şanlı səhifələrin sayı getdikcə artır. Siyasi sahədə olduğu kimi, iqtisadi sahədə də Azərbaycan ilbəil böyük uğurlar qazanır. Prezident cənab İlham Əliyevin müəllifi olduğu iqtisadi layihələrin reallaşdırılması nəticəsində iqtisadi gücümüz hər il artır.

Prezident cənab İlham Əliyev, eyni zamanda, Azərbaycanın beynəlxalq aləmdə müsbət imicinin formalaşmasına

nail olub. Təsadüfi deyil ki, dünya miqyasında ölkəmizə maraq günü-gündən artır, Azərbaycana dost və tərəfdaş dövlətlərin sayı getdikcə çoxalır. Azərbaycan Prezidenti dünya siyasətində öz qətiyyəti, prinsipial və uzaqgörənliyi ilə böyük nüfuz qazanıb. Prezident cənab İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində Azərbaycan dünyada iqtisadi möcüzələr yaradan islahatçı ölkə kimi tanınır. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha yüksək zirvələr fəth edəcək və davamlı uğurlara imza atacaq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İsa Həbibbəyli. Buyurun.

**İ.Həbibbəyli.** Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım. Hamımız böyük qürur hissi ilə deyirik ki, Azərbaycanın dövlət müstəqilliyinin möhkəm əsasları xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Eyni qürur hissi ilə bu gün hər bir azərbaycanlı qəti şəkildə bu fikirdədir ki, Azərbaycanın dövlət müstəqilliyinin qorunması, bütün sahələrdə inkişaf etdirilməsi və beynəlxalq nüfuza malik olması, ərazi bütövlüyünün tam təmin olunması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı ən mühüm xidmətlərindən biridir. Heç şübhəsiz, möhtərəm Prezidentimizin 20 illik möhtəşəm marafonunda İkinci Qarabağ, Vətən müharibəsində qazanılan tarixi Zəfər çox böyük əhəmiyyətə malik olan hərbi-siyasi hadisə kimi Azərbaycan tarixinə həkk olunmuşdur. Cənab Prezident qısa müddətli, cəmi 44 günlük müharibə ilə xalqımızı 30 illik işğaldan xilas etmiş, birgünlük antiterror tədbirləri ilə ölkəmizin tam ərazi bütövlüyünə və tam müstəqilliyinə nail ola bilmişdir. Bu, dünya tarixinə nəzər salsaq, hər hansı bir dövlət başçısı üçün, o cümlədən də İlham Əliyev, Azərbaycan Prezidenti üçün xalq və dövlət

qarşısında icra olunmuş, həyata keçirilmiş çox müqəddəs bir missiyadır. Sözün əsl mənasında, – Sahibə xanım, Sizin də bəyan etdiyiniz kimi, –cənab Prezident bununla adını Azərbaycanın çoxillik tarixinə həkk etmişdir.

İlham Əliyev bu gün dünya liderlərindən biridir. O, rəhbərlik etdiyi ölkənin ərazisinin böyüklüyünə və əhalisinin çoxluğuna görə deyil, xalqı, dövləti qarşısında həyata keçirdiyi qeyri-adi, böyük, möhtəşəm nailiyyətlərə görə liderlik missiyası qazanmışdır. Bəzən ölkəsində lider kimi imic qazanan dövlət başçılarının beynəlxalq aləmdə o səviyyədə yeri olmadığı hallarını da görürük. Azərbaycan xalqı xoşbəxt xalqlardan biridir ki, onun lideri möhtərəm Prezident İlham Əliyevi ilk növbədə doğma xalqı və tam mənada isə beynəlxalq ictimaiyyət, sözün əsl mənasında, XXI əsrin liderlərindən biri kimi qəbul edir. Bu bizim üçün böyük iftixardır. Azərbaycan xalqının hər bir nümayəndəsi üçün böyük iftixardır.

Dünyada hazırda inkişaf templərinə, sürətinə və inkişafın əhatə dairəsinə görə Azərbaycanla müqayisə ediləcək ölkələr göstərmək ya yoxdur, ya da barmaqla sayılacaq qədərdir. Azərbaycanda inkişaf etməyən kənd, dəyişməyən region, cəmiyyətin yeniləşməyən hər hansı bir inkişaf istiqaməti yoxdur. Azərbaycan bütün yönləri ilə, bütün sahələr üzrə, bütün parametrləri ilə hər gün davamlı surətdə inkişaf edir. Azərbaycanda, eyni zamanda, elm, təhsil, mədəniyyət, ziyalılıq da İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi bu möhtəşəm 20 ildə özünəməxsus ciddi, şərəfli, məsuliyyətli yol keçir, cənab Prezidentin apardığı azərbaycançılıq, müstəqil dövlətçilik siyasətinin daha da möhkəmlənməsinə öz töhfəsini verməklə Azərbaycan Prezidenti qarşısında hesabat verməyi şərəfli borc hesab edir.

İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 20 ilin hər ili möhtəşəmdir. Hesab edirəm ki, İlham Əliyevin adı ilə bağlı olan möhtəşəm 20 il "Heydər Əliyev İli"nə ən möhtəşəm hesabatdır. Cənab Prezident...

**Sədrlik edən.** Sağ olun, İsa müəllim. Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Ölkə Prezidentinin fəaliyyəti haqqında danışmaq çox çətindir. Ona görə ki, bu fəaliyyət o dərəcədə çoxistiqamətli və bütün istiqamətlər üzrə o qədər uğurludur, qısa çıxış çərçivəsində bunu səciyyələndirmək, həqiqətən də, çox çətindir. Amma bir neçə tezis üzərindən çıxış edərək öz fikirlərimi bildirməyə çalışacağam.

Hər şeydən öncə, bir neçə istiqamətdə cəsarətlə qeyd edəcəyimiz məqam ondan ibarətdir ki, cənab İlham Əliyev, sözün əsl mənasında, inqilab edə bildi. Vaxtı ilə məşhur Bjezinski Cənubi Qafqazı Orta Asiyaya çıxan bir qapı adlandırırdı. Bu mənada Azərbaycanın yerini də, rolunu da xüsusi qeyd edirdi. Azərbaycan Prezidenti Cənubi Qafqazın əhəmiyyət istiqamətini dəyişə bildi. Bu gün Cənubi Qafqaz məhz onun strateji baxışları sayəsində həm də Avropaya açılan bir qapıdır. Yəni bu gün Avropanın enerji təhlükəsizliyi, müvafiq olaraq, siyasi təhlükəsizliyi Cənubi Qafqazın enerji daşıyıcılarından birbaşa asılıdır. Ayrıca olaraq Avropanın istehlak bazarında Cənubi Qafqazda yenə də Azərbaycan Prezidentinin strateji baxışları, onun müdrik yanaşması əsasında həyata keçirilən nəqliyyat, logistika layihələri sahəsində Cənubi Qafqazın, ümumiyyətlə, həm istehlak bazarında, həm də enerji təhlükəsizliyi sahəsində, yenə də xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan Prezidentinin rolu sayəsində çox ciddi dəyişikliklər baş verdi. Bu gün Cənubi Qafqaz regio-

nu təkcə Orta Asiyaya, Uzaq Şərqə deyil, eyni zamanda, Avropaya açılan çox mühüm strateji qapıdır.

Digər vacib məqam ondan ibarətdir ki, XX əsrin və XXI əsrin əvvəllərinə diqqət yetirsək, görərik ki, 52 fəal separatizm ocağı mövcuddur. Bütün XX əsr, XXI əsrin əvvəli boyunca ilk dəfə olaraq separatizm ocaqlarının sayı azaldı. Bu gün artıq 51 aktiv separatizm ocağı var. Bu da Azərbaycanın, Azərbaycan Prezidentinin həyata keçirdiyi, nail olduğu mühüm inqilabi dəyişiklikdir.

Rəqəmlər üzərindən çıxış etmiş olsaq, görərik ki, dünyada mövcud olan separatizm ocaqları coğrafi baxımdan, bütövlükdə, qurunun təxminən 8,5 faizini təşkil etməkdədir. Bu hissədə də dünya əhalisinin təxminən 4 faizi yaşamaqdadır. Yəni 200 milyondan artıq insan yaşamaqdadır. XX əsr boyunca bir fakt da mövcud deyil ki, separatizm ocağı söndürülsün. Azərbaycan Prezidenti Cənubi Qafqazda separatizm ocağını söndürməyə nail oldu və bununla da, hesab edirəm ki, qlobal təhlükəsizliyə çox mühüm töhfə verdi. İlk dəfə olaraq bu istiqamətdə nəhayət, bir nümunə yarada bildi. Hesab edirəm ki, Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin dünyaya təqdim etdiyi bu nümunə gələcəkdə separatizmlə mübarizə üçün bir mayak rolunda çıxış edəcək. Qlobal təhlükəsizliyin təmin olunması istiqamətində çox mühüm töhfə verəcək.

Azərbaycan Prezidentinin ölkəmizin, ümumilikdə, regionun əhəmiyyətini əlahiddə dərəcədə artırması, eyni zamanda, milli maraqlarımıza xidmət edən və bu gün biz qeyd etdiyimiz, vurğuladığımız qələbələri də qazanmış olduq.

2020-ci ilə qədər Azərbaycan Prezidenti dünyanın olduqca vacib güc mərkəzlərində, siyasi platformalarında torpaqlarımızı siyasi işğaldan azad etdi və 2020-ci ildə də Ermənistanın işğalından hərbi yolla, güc yolu ilə azad

etməyi bacardı. Bütün bunlar onu göstərir ki, həqiqətən, Azərbaycan Prezidentinin vaxtı ilə başlatmış olduğu uğur yolu bizi bugünkü nöqtəyə gətirdi. Effektiv dövlət, qalib xalq, gələcəyə ümidli Azərbaycan. Hesab edirəm ki, məhz bu elementlər, Azərbaycanı səciyyələndirən vacib məqamlar Azərbaycan xalqı ilə, dövləti ilə daim var olacaq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəxtiyar Əliyev. Buyurun.

**B.Əliyev.** Hörmətli Sahibə xanım, hörmətli deputatlar. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2003-cü ildə Prezident seçilməsindən keçən 20 ilin məhz Milli Məclisdə müzakirə edilməsi qürurverici bir hadisədir. Çünki məhz elə siyasi fəaliyyətinə Milli Məclisdən başlayan cənab Prezident İlham Əliyev qısa bir müddət ərzində Azərbaycan xalqının maraqlarını geniş arenada tam məsuliyyəti ilə qoruyaraq, ifadə edərək Azərbaycanın gələcək xoşbəxt bir həyat qurması üçün çalışdığını göstərdi və xalqın da böyük məhəbbətini qazandı.

Ötən müddət ərzində Azərbaycan Respublikasının Prezidenti qarşıya qoyulan bütün hədəflərə çatmaq üçün görülən işlərdə ardıcıllığı, məntiqliliyi hər zaman göstərərək, nəinki Azərbaycanın qüdrətli iqtisadi inkişafını təmin etdi, eyni zamanda, Azərbaycanı dünya siyasətində həlledici sözə malik bir dövlətə çevirdi. Siz də geniş nitqinizdə qeyd etdiyiniz kimi, Azərbaycan qısa müddətə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi və BMT Təhlükəsizlik Şurasının dünyada hansı işlərlə və necə məşğul olmasının yeni bir modelini ortaya qoydu. Ədalətin, demokratiyanın, insan haqlarının qorunmasını necə həyata keçirməyini dünyaya nümayiş etdirdi.

30 ildən artıq bir müddətdə Ermənistanın işğal etdiyi

Azərbaycan torpaqlarını necə azad etməyin dünyaya bir nümunəsini də göstərdi ki, ilk növbədə xalqın firavan həyatını təmin etmək, iqtisadi yüksəlişə nail olmaq, hər bir insanın insan haqlarını qorumaq, demokratiyanı inkişaf etdirməklə Azərbaycan özünün ədalət yolunu davam etdirdi və güclü ordu quraraq və diplomatiya ilə güc dialektikasını tətbiq etməklə öz ərazi bütövlüyünü tam təmin etdi və ərazilərində suverenliyi də təmin etdi.

Bu gün Azərbaycan çox böyük, geniş quruculuq işləri ilə məşğuldur. Ermənistan işğal etdiyi dövrdə 10 min kvadrat-kilometrdən artıq ərazini tamamilə məhv etmişdir. Bütün mədəniyyət ocaqlarını, evləri, hətta ağacları, meşələri belə məhv etmişdir. Amma bu gün cənab Prezident İlham Əliyevin hələ 2021-ci ildə söylədiyi kimi, "bizim bütün kəndlərimiz və şəhərlərimiz Avropanın ən gözəl şəhərləri kimi yenidən qurulmalıdır və biz əminəm ki, bunu edəcəyik". Bu gün həmin azad edilmiş Şərqi Zəngəzur və Qarabağ "ağıllı kənd", "ağıllı şəhər" modeli əsasında qurulur. İnsanlarımız böyük iftixar və sevinclə öz doğma yurdlarına qayıdaraq orada quruculuq işlərinə başlayıblar.

Bütün bunlar onu göstərir ki, Prezident İlham Əliyev bütün prezidentliyi dövründə yalnız öz xalqının xoşbəxt gələcəyini düşünüb və qəbul etdiyi bütün qərarlar yalnız bu böyük amala xidmət edibdir. Bunun üçün, eyni zamanda, o, regionda tamamilə yeni bir geosiyasi reallıq yaratdı və bu geosiyasi reallıq nəhayət, Qafqaz Evinə sülhü, əmin-amanlığı, iqtisadi inkişafı bəxş edə biləcək bir siyasətdir. Hesab edirik ki, bu gün Azərbaycanın həyata keçirdiyi uğurlu siyasət onu dünya siyasətində həlledici sözə malik bir aktora çevirmişdir. Eyni zamanda, Azərbaycan iqtisadiyyatı elə bir inkişaf səviyyəsinə çatmışdır

ki, bu gün nəinki bölgənin, hətta Avropanın iqtisadiyyatına güclü təsir edərək onun enerji təhlükəsizliyini tam təmin edir. Şübhəsiz ki, Azərbaycan ən etibarlı tərəfdaşdır. Şübhəsiz ki, Azərbaycan hər zaman sülhün, demokratiyanın, söz azadlığının, insan azadlığının tərəfində dayanan bir ölkədir. Bu gün İlham Əliyevin müdrik siyasəti altında Azərbaycan xalqı demokratiya yolunda inamla addımlayır və öz suverenliyini, öz xoşbəxtliyini bu siyasət əsasında bundan sonra da daha da möhkəmləndirəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tural Gəncəliyev. Buyurun.

**T.Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Biz bu gün dövlətçiliyimizin, xalqımızın müasir tarixində ən önəmli bir hadisəni, liderimizin – cənab Prezidentin 20 il öncə Prezident seçilməsi ilə bağlı tarixi hadisəni müzakirə etmək üçün Milli Məclisin xüsusi iclasına toplaşmışıq. Həqiqətən də, bu, xalqımızın tarixində çox önəmli bir hadisədir. Cənab Prezidentin 20 il ərazində ortaya qoyduğu siyasət, dərin strateji düşüncəsi, vizyonun olması xalqımızın, ölkəmizin inkişaf tempinin hazırda nəticələrini, dividentlərini görməyimiz məhz onun xüsusi xidmətinin sayəsində mümkün olmuşdur. Cənab Prezidentin ölkəmiz qarşısında xidmətləri nəticəsində biz bu gün Azərbaycanın nəinki regional, hətta qlobal oyunçular səviyyəsində öz maraqlarını qorumaq, öz milli maraqlarını irəli sürmək qabiliyyətinin şahidiyik. Bu gün biz cənab Prezidentin fəaliyyəti nəticəsində ölkəmizin həm daxili inkişafı, iqtisadi təhlükəsizliyi, milli təhlükəsizliyi, enerji təhlükəsizliyi, ordu quruculuğu, insan kapitalının inkişafı kimi məsələlərlə yanaşı, həm də beynəlxalq aləmdə ortaya qoyduğu siyasətinin nəticələrinin necə də uğurlu olduğunu da görürük.

Bu gün, Sahibə xanım, Siz çıxışınızda qeyd etdiniz, Azərbaycan BMT-dən sonra dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etdi və məhz cənab Prezidentin xidməti nəticəsindədir ki, bu gün Qoşulmama Hərəkatı öz tarixində ən uğurlu sədrlik dönəmini keçdi. Təbii ki, bu da Azərbaycanın, onun liderinin rolunu xüsusi göstərdi. Azərbaycan həm insan sayına görə, həm də ərazisinə görə bəlkə də dünyanın böyük ölkələri ilə müqayisə olunmur, sırf bu göstəricilərə görə. Ancaq biz son zamanlar cənab Prezidentin uğurlu fəaliyyəti nəticəsində ölkəmizin "middle power" – orta güc ölkəsi kimi formalaşdığının şahidi olmuşuq.

Cənab Prezidentin ölkəmizin tarixində fəaliyyətinin ən zirvə nöqtəsi kimi, təbii ki, düşmənlərimizin torpaqlarmızdan qovulması, torpaqlarımızın üzərində ərazi bütövlüyümüzün, suverenliyimizin bərpa edilməsini göstərə bilərik. Bu onun fəaliyyətinin zirvə nöqtəsidir. Təbii ki, bu məqsədə çatmaqdan ötrü aram-aram, səbirlə ordu quruculuğu, iqtisadi inkişaf, dediyimiz insan potensialının, kapitalının inkişafı kimi mərhələlərdən biz keçdik. Həm xarici siyasətdə, həm də daxili siyasətdə strateji, dərin düşüncənin, vizyonun olması özünü göstərdi. Bu gün biz baxırıq, Avropa İttifaqında, Qərbdə, dünyanın müxtəlif ölkələrində onların çatışmayan əsas cəhətlərindən biri məhz güclü liderin olmamasıdır. Bu gün dünyada gedən proseslər, tektonik hadisələr göstərir ki, güclü liderin, ölkə başçısının olması çox önəmlidir. Çünki siz güclü lider olmadan bu çağırışlar, təhdidlər qarşısında ölkənizi qorumaq, onu xaotik dünyada baş verən proseslərdən kənar tutmaqdan ötrü qarşıya qoyulmuş hədəfə çatmaya bilərsiniz. O baxımdan mən çıxışımın sonunda bir daha qeyd etmək istəyirəm.

Allaha həmd olsun, bizə belə bir güclü lider, Prezident bəxş edib. Ordumuz güclüdür, iqtisadi özgüvənliyimiz, mili təhlükəsizliyimiz, enerji təhlükəsizliyimiz var.

Cənab Prezidentə təşəkkür edirəm ki, doğulduğum Xankəndi şəhərini, boya-başa çatdığım Şuşa şəhərini bizə qaytardı. Təşəkkürlər edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar, Məclis iştirakçıları! Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətinin 20-ci ildönümünü qeyd etdiyimiz İlham Əliyevin uzun illər müşahidə etdiyim bəzi məziyyətləri barədə 1987-ci ildən siyasətdə olan bir şəxs kimi mən də bəzi fikirlərimi demək istəyirəm. O, Allahın seçdiklərindən və sevdiklərindəndir. Yalnız Allahın köməyi ilə bugünkü uğurlara imza atmaq olardı. Onun siyasətçi kimi ən üstün xüsusiyyəti insanlarla ünsiyyət qurmaq, onların etibarını qazanmaq bacarığıdır. Məhz bunun nəticəsində o, dünyanın bir çox liderlərini Azərbaycanın dostu və müttəfiqi etmiş, sözünü tutan siyasətçi kimi ölkəmizə etibarlı tərəfdaş imici qazandırmışdır.

Geosiyasi vəziyyəti düzgün qiymətləndirmək, ölkəmizin əlverişli coğrafi mövqeyindən səmərəli istifadə etmək qabiliyyəti ona ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən bir çox transmilli layihələri həyata keçirmək imkanı vermiş, Azərbaycan Şimal-Cənub, Şəqr-Qərb nəqliyyat xətlərinin keçdiyi qovşağa çevrilmişdir. Onun türk dövlətlərinin birliyinin yaranmasındakı xüsusi rolunu da, xidmətlərini də qeyd etmək istəyirəm.

İnanıram ki, İlham Əliyev daxili siyasətə kənar təsirlərin mövcudluğunu və xalqımızın sosial inkişaf indeksini, demokratik vərdişlərinin inkişaf səviyyəsini nəzərə alaraq,

ölkəmizi, onun varlığını şübhə altına ala biləcək siyasi təlatümlərdən qorumaq üçün ayağını əyləcə qoyub bəzi prosesləri ləngitməklə, səbirlə geniş islahatlar üçün əlverişli regional geosiyasi vəziyyətin yaranmasını gözləməkdədir. İnşallah, uca Tanrı həm ona, həm də bizlərə həmin islahatların həyata keçirilməsində iştirakçı olmağı da nəsib edər.

İlham Əliyevi xarici siyasətdə çevik, vaxtında cəsarətli müdrik qərarlar qəbul etmək qabiliyyəti hər kəsi Azərbaycanın qanuni maraqlarını nəzərə almağa məcbur etmişdir. Bu keyfiyyətləri ilə o, Azərbaycan Silahlı Qüvvələrinin düşmənlə təkbətək qalmasını və torpaqlarımızın işğaldan azad olmasını təmin edən möhtəşəm qələbəmizi təmin etdi. Onun 20 illik fəaliyyətinin nəticəsi işğaldan azad edilmiş Qarabağ, region üçün yaradılmış sülh və əməkdaşlıq imkanlarıdır.

Hörmətli həmkarlar, biz hökumət üçün icrası məcburi olan qərarlar qəbul edə bilmərik. Amma qələbəmizin əsas müəllifi kimi İlham Əliyevin adının əbədiləşdirilməsi haqqında qanun qəbul edə bilərik. Həmin qanunda Xankəndidə onun adını daşıyacaq möhtəşəm bir məscidin, – əvvəllər təklif etmişdim ki, belə bir məscid Şuşa şəhərində tikilsin, – Qarabağda isə yeni bir şəhərin salınması da nəzərdə tutula bilər. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Emin Hacıyev. Buyurun.

**E.Hacıyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar və media nümayəndələri! 20 il bundan öncə, 15 oktyabr tarixində müzəffər Ali Baş Komandan cənab İlham Əliyev xalqımızın mütləq əksəriyyətinin səsini qazanaraq müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildi və bununla da ölkəmizin inkişafında yeni mərhələ başladı. Bildiyimiz kimi, 1991-ci ildə itirilmiş müstəqilliyimizi

bərpa edərək azad və suveren yaşamaq, müstəqil dövlətimizi yaratmaq imkanı əldə etdik. Lakin təəssüflər olsun ki, hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi nəticəsində Azərbaycan müstəqilliyinin ilk illərində bir sıra çətinliklərlə üz-üzə qaldı. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. Bu isə ölkədə ictimai-siyasi gərginliyin, özbaşınalığın, xaosun hökm sürməsinə və torpaqlarımızın işğalına gətirib çıxardı. Belə bir zamanda xalqımızın çağırışına səs verən Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtması ilə ölkədə sabitlik bərqərar oldu və dövlətçiliyimizin yeni dövrünün əsası qoyuldu.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqına 2003-cü il 1 oktyabr tarixli müraciətində cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirdi və bir çox işlərin onun tərəfindən uğurla başa çatdırılacağına dərin inamını diqqətə çatdırdı. Cənab İlham Əliyevin ictimai-siyasi proseslərdə fəal iştirakı, idarəetmədə qazandığı təcrübə, yüksək intellekti və müasir dövrün siyasi xadimləri üçün xarakterik olan bütün ali keyfiyyətlərə sahib olması onun mütləq qələbəsini öncədən şərtləndirirdi. Azərbaycan xalqı Prezident cənab İlham Əliyevə səs verərək sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu bir daha nümayiş etdirdi. Dünyanın ən gənc prezidentlərindən biri kimi fəaliyyətə başlayan cənab İlham Əliyev çox qısa bir zamanda bütün dünyada böyük hörmət və nüfuz qazandı. Onun yürütdüyü uğurlu və uzaqgörən siyasət nəticəsində Azərbaycan yeni müttəfiqlər qazandı və beynəlxalq arenada söz sahibi olan dövlətlərdən birinə çevrildi.

Son 20 ildə dövlət başçımızın rəhbərliyi ilə ölkəmiz da-

yanıqlı və davamlı iqtisadi inkişafa nail oldu, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrildi və yeni hədəflərin gerçəkləşməsi istiqamətində inamlı addımlar atıldı. Ölkədə sosial-iqtisadi tərəqqinin davamlı dinamikasının təmin edilməsi üçün qeyri-neft sektorunun sürətlə inkişaf etdirilməsi, infrastruktur obyektlərin beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulması əsas vəzifə kimi qarşıya qoyuldu.

Prezident cənab İlham Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən bəhs edərkən demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlərdən söz açmamaq mümkün deyil. Qanunvericilik bazasının təkmilləşdirilməsi, hüquq və azadlıqların təmin olunması istiqamətində görülən tədbirlər ölkəmizdə demokratik cəmiyyətin inkişafına töhfə verir.

Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 20 ildə ordu quruculuğu, silahlı qüvvələrin döyüş qabiliyyətinin artırılması və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, ordumuz dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə silahlı qüvvələrimiz 3 il öncə torpaqlarımızı 30 illik işğaldan azad etdi və işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Çoxəsrlik dövlətçiliyimizdəki bu, ən böyük qələbə Prezident cənab İlham Əliyevin gərgin əməyinin, müdrik diplomatiyasının və qətiyyətinin nəticəsi idi. Ötən ay Qarabağda keçirilən anti-terror tədbirlərinin zəfərlə başa çatdırılması nəticəsində suverenliyimizi bərpa etdik. Prezident cənab İlham Əliyevin siyasətinin şah əsəri olan ərazi bütövlüyümüzün bərpa olunması müstəqillik tariximizin ən parlaq səhifəsinə qızıl hərflərlə yazıldı.

Bu gün cənab Prezidentin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işləri həyata keçirilir. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı üçün möhtəşəm layihələr reallaşdırılır. Cənab Prezidentin həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Əminliklə bildirirəm ki, Ümummilli Liderimiz Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı olan cənab İlham Əliyevin liderliyi ilə Azərbaycan daha da inkişaf edəcək və böyük uğurlara imza atacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elşən Musayev. Buyurun.

**E.Musayev.** Təşəkkür edirəm, xanım sədr. Hər kəsi salamlayıram və mövzuya keçid almaq istəyirəm. Mən hər zaman düşünmüşəm ki, Azərbaycanın son 30 illik dövlətçilik tarixində baş verən siyasi proseslər həm də Tanrının bir nizamı və ədaləti ilə müşayiət olunur. Çünki Heydər Əliyev daha ilkin də vəfat edə bilərdi, iraq olsun, terrora da tuş gələ bilərdi. Heydər Əliyev vəfat etdiyində İlham Əliyevin 15-20 yaşı da ola bilərdi, Azərbaycan sahibsiz də qala bilərdi. Amma nə yaxşı ki, bunların heç biri baş vermədi. Əks halda, Azərbaycan dövlətinin və ümumilikdə, Azərbaycan kəlməsinin harada qərarlaşacağını təyin etmək, təsəvvür etmək belə müşkül olardı.

İlham Əliyevçi olmaq zaman-zaman, sadəcə, siyasi mövqe olub. Bu gün isə həm də milli mövqedir. Çünki İlham Əliyevin adı Azərbaycan adı ilə bərabər assosiasiya olur və bu nəhəng insanın etdiklərini görməmək, dərk etməmək, qiymətləndirməmək bircə nankorluq deyil, elə sözün bütün anlamlarında, nansız, filansız korluqdur. İlham Əliyev müharibə etməyə də bilərdi. Həmin müharibəni ertələyə də bilərdi. Çünki müharibənin iki başı olur, tərs

tərəfi də olur. Amma İlham Əliyev həmin müharibəni etməklə Azərbaycanı 200 ildən sonra ilk dəfə öz tarixi torpağına qovuşdurmaqla onu sübut etdi ki, mənim üçün milli maraqlar hakimiyyət maraqlarından milyard dəfə daha üstündür.

Mən 2019-cu ildə bir yazı yazmışdım. Başlıq belə idi: "İlham Əliyev Dağlıq Qarabağı Azərbaycana qaytaracaq lider kimi tarixə öz adını yazacaq". Demək olar, bütün radikal müxalifət saytları məni ələ salmışdılar, məsxərəyə qoymuşdular, paylaşmışdılar. Mən Qarabağ azad olunandan sonra keçmiş tarixlə axtarış verib həmin başlıqları yenidən axtardım. Amma tapa bilmədim. Hamısını pozmuşdular. 23 saatlıq anti-terror tədbirlərindən sonra yenidən həmin insanların səhifəsinə bir baxmaq istədim. Çünki müharibədən sonra "ay kapitulyasiya belə gəldi, Xankəndiyə niyə girmədik" və sair məsələlərlə spekulyasiyalar edirdilər. Düşündüm görüm, bu 23 saatlıq anti-terror tədbirindən sonra nə deyəcəklər. Yenə nə isə deməyə söz tapdılar. Onların adını burada çəkmək onların layiq olduğu bir şey deyil, amma çəkəcəyəm, qoy, hamı onların adını eşitsin. Tofiq Yaqublu yazıb ki: "Yəqin Xankəndidə indi YAP özünə qərargah yeri axtarır". Quldurbaşı Əli Kərimli isə yazıb ki: "Ermənistan indi Azərbaycandan çox-çox daha uğurlu və daha üstün durumdadır". Bilirəm, təəccüb edəcəksiniz, amma inanmayanlar açıb onların səhifələrinə baxsınlar.

Keçən dəfə burada da səsləndi. Onların "sağ ol"una ehtiyac yoxdur. "Sağ ol"ları başlarına dəysin. Amma heç olmasa, susmaq lazımdır, abıra qısılıb susmaq lazımdır. Bu gün dünya labirint içindədir, hər yerdə döyüşlər gedir, az qala hər yerdə. Belə məqamda dövlətləri onların gücləri və resursları qorumur, qoruya bilmir, dövlətləri onların müd-

rik liderləri qoruyur. Təbii, əgər belə liderlərə sahibdirlərsə.

30 illik müddətdə bizim şəhidlərimizin ruhu çox narahat olub. Onların qanına bais olan insanlar 5 min, 10 min kilometr uzaqlarda kef-damağa baxıblar. İnterpolun da yerinə İlham Əliyev işləyib, BMT-nin də yerinə İlham Əliyev işləyib, ATƏT-in Minsk Qrupunun da yerinə İlham Əliyev işləyib. Axırda elə torpaqlarımızı da İlham Əliyev öz cəsarəti ilə qaytardı. Bilmirəm, bu, mistikadır, yoxsa nədir. Biz bu gün burada qələbəmizdən danışırıq. 100 metr o yanda, Şəhidlər Xiyabanında bizim müqəddəslərimiz artıq rahat uyuyur və 150 metr də o yanda həmin şəhidlərin qatilləri DTX-nın binasında ifadə verirlər. Bəlkə də həmin şəhidlərin məzarlarına pəncərədən baxa-baxa ifadə verirlər.

Hərdən insana qəribə gəlir ki, bəlkə bu, reallıq deyil, yuxudur. Gözümüzü yumub-açıb görürük yox, inanmaq lazımdır, bu, reallıqdır. Həmin reallığı İlham Əliyev öz zəkası ilə, cəsarəti ilə yaradıb.

Eşq olsun mənim Prezidentimə!

Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli sədr, 15 oktyabrda hakimiyyət birinciliyinə gələn İlham Əliyevin gücü söykəndiyi Heydər Əliyev kursunda olsa da, Sovet və müstəqillik illərində əvəz olunmazlaşan Ulu Öndərin obrazı oğul Əliyevə həm də maneə idi. Uzun illər bir liderin idarəçilik üslubuna öyrəşən, onu ideallaşdıran və tərənnüm edən bir millət üçün "Heydər Əliyevdən sonra" ifadəsi böyük bir boşluğu əks etdirirdi. Rəhbərliyə kim gəlsəydi, ata Əliyevin kölgəsində qalacaqdı. Lakin İlham Əliyev nəinki əvvəlki siyasi irsi mexaniki təkrarlamadı, üstəlik rəngli inqilablar

və qlobal təhlükələr dövründə onu daha da zənginləşdirdi, bəzən önə keçdi və 17 illik parlaq idarəçiliyi Zəfərə qovuşdurdu. Beləliklə, İlham Əliyev Ulu Öndərin SSRİ və müstəqillik dövründəki rəhbər titullarını xalqın nəzərində diri saxladı, onu mənəvi və siyasi baxımdan canlı tutdu.

Vaxtı ilə Konrad Adenauer kiçik qələbələrlə millətini məğlubiyyət şokundan çıxardığı kimi, İlham Əliyevin mədəniyyətdən idmana, sivilizasiyalararası dialoqdan humanitar forumlara qədər bütün tədbir və görüşlərinin, qərar və sərəncamlarının tək bir məqsədi vardı – torpaq bütünlüyünün və suverenliyin təminatı.

Son 300 ildə xalqımıza bəlalar gətirən yad ideologiyalar, baxışlar, dövlətlərarası sövdələşmələr, informasiya müharibələri və qlobal siyasi kampaniyalar onun müqavimət gücü ilə sonda iflasa uğradı. Beləliklə, 1987-ci ilin Humanite jurnalı, Abel Aqanbekyan, Mixail Qorbaçov və sovet elitası, 20 Yanvarı alqışlayan Amerika və Fransa rəhbərləri, Qərb mediası, son 30 ildə əleyhimizə yer alan yüzlərcə qüvvə də indi məğlublar sırasındadır. Lakin qələbəmizin tərəfdarları daha çoxdur.

Tarixi düzgün oxumaq, bir çox şərqli rəhbərlər kimi keçmişə hissi, emosional deyil, rasional yanaşmaq – Pənahəli xandan Rəsulzadəyə, Nərimanovdan Bağırova, Elçibəydən Ulu Öndər Heydər Əliyevə qədər müxtəlif formasiya və ideologiyalarda xalqımıza rəhbərlik edən şəxslərin yarımçıq qalan ideallarını gerçəkləşdirən İlham Əliyev əsrlərin lideri oldu.

Bəli, 45 günlük müharibədə qazanılan Zəfər zamanı və yaşadığımız yüz ili aşdığına görə dövlət başçısının statusu normativ Prezident və Ali Baş Komandan titulundan daha üstündür. İlham Əliyev 45 günlük müharibədə qazanılan parlaq Zəfərlə milyonlarca azərbaycanlını 20 faizlik na-

tamamlıqdan xilas etdi, bütöv vətəndaşla yeni, dördüncü respublikanı qurdu. Cümhuriyyət, Sovet dövrü, müstəqilliyin ilk illərindən 2020-ci ilə qədər ölkənin və xalqın siyasi tərcümeyi-halı son 3 ilin dövləti ilə eyni deyil və biz fərqli milli kimliyə, yeni respublikaya qovuşmuşuq. 8 noyabr Zəfər və 20 sentyabr bütövlük günü dördüncü respublikanın təvəllüd tarixidir.

İndi fərqli siyasi təqvim, sülh erası başlayır. Əsrlərdir axan qan və göz yaşları nəhayət, durur və yeni, ədalətli dünya nizamının əsası məhz Qafqazda qoyulur. Rusiya–Ukranya savaşına, yaxud böyük siyasi qəzaya çevrilən Qəzzadakı qanlı toqquşmalara son qoyulması üçün adil vasitəçiliyi haqq edən də İlham Əliyevdir. Yaxın Şərqdə savaşın şiddət və amansızlığı qələbəmizin əzəmətini, Azərbaycanın müharibəni ləyaqətlə apardığını və yeni hərbi qanunlar yazanlar üçün əsil Bakı konvensiyasını dünyaya nümayiş etdirir.

İlham Əliyevin liderliyi təkcə ötən 20 ilin deyil, daha çox gələcəyin – 2044-cü ilin Azərbaycanının aydın üfüqlərini yaradır. Nəinki ölkəmizin, eləcə də bölgəmizin sabahı İlham Əliyevin gələcək 20 illik kursundan asılıdır. Qələbəmizdən sonra yaranacaq yeni birliklərdə Azərbaycan əsas söz sahibi olacaqdır. Bakı, Tiflis və İrəvan arasında tarixi bağlar bərpa olunduqca, 200 il sonra ermənilər və bütün region xalqlarını iqtisadi rifaha qovuşduran arteriyalar açıldıqca, 200 kilometr qısalan qədim yollar dirçəldikcə, dünya erməniçiliyi Azərbaycanla birgə sülhün və rifahın inşasına qoşulacaqlar. Qafqazın "Marşal planı" Qarabağda və dünyada sülh şüarı ilə barışın coğrafiyasını genişləndirəcək, ermənilər mifik tarixdən, Sprük və "Miatsum"dan qurtularaq Ermənistanı da xilas edəcəklər.

Heydər Əliyevin yubileyində qazandığımız qurtuluş və xilaskarlıq Türkiyə Cümhuriyyətinin 100 ili ilə eyni siyasi mənanı daşıyır və "Azərbaycanın möhtəşəm 100 ili" adlana bilər. Əsirlərdir bölgəmizə fəlakət gətirən "parçala və hökm sür" siyasəti Əliyevin "birləşdir və firavan et" kursu ilə əvəzlənir. Bəli, qalib dövlətin ordusu qədər, sülh siyasəti də güclü olmalıdır. Qafqaz xalqlarında nəsildən-nəslə ötürülən düşmənçilik mirasını durdurmaq da hərbi zəfər qədər əhəmiyyətlidir.

Ötən əsrin 30-cu illərində Böyük Depressiyadan sonra "Amerika arzuları" formalaşdı. Qonşu gürcülər də eyni adı seçdilər. 1987-ci ildə nifaq və düşmənçilik "Ocağ"ı yazan, onu yandıranları məğlub edəndən sonra Azərbaycan arzuları tam gerçəkliyə çevrildi: Savaş harada başlanıbsa, orada, Topxanada bitirən millətimizin arzuları barış və sülh üçün ocaq yandırmaqdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Səbinə Xasayeva. Buyurun.

**S.Xasayeva.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. 20 il əvvəl 2003-cü ilin 15 oktyabr tarixində keçirilən prezident seçkilərində cənab Prezident İlham Əliyev ilk dəfə Azərbaycan Respublikasının prezidenti seçilib. Məhz bu səbəblə 15 oktyabr tarixi Azərbaycan tarixi üçün xüsusi əhəmiyyətə malikdir.

Bütün həyatını doğma yurdunun, Azərbaycanın parlaq gələcəyi uğrunda mübarizəyə həsr edən Ulu Öndər Heydər Əliyev hələ 2003-cü il oktyabrın 1-də prezident seçkilərində namizədliyini İlham Əliyevin xeyrinə geri götürdüyünü bəyan edərkən də məhz Azərbaycanın və Azərbaycan xalqının uğurlu gələcəyini düşünürdü.

Keçən 20 il sübut etdi ki, tarix növbəti dəfə dahi siyasətçi Heydər Əliyevi haqlı çıxardı. Cənab Prezident İlham Əliyev öz adını Azərbaycan tarixinə müzəffər Ali Baş

Komandan kimi yazdıraraq bu fikri bir daha sübut edir.

Cənab Prezident İlham Əliyev 2003-cü ildə andiçmə mərasimində ifadə etdiyi kimi, keçən 20 il ərzində məhz Heydər Əliyev siyasətinə sadiq qaldı, onun siyasi ənənələrini davam etdirdi. Həmin il seçkidə Azərbaycan xalqı cənab Prezident İlham Əliyevə səs verərək həm də Ulu Öndərin siyasətinə səs vermişdi. Bu isə o demək idi ki, Azərbaycan xalqı sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa və sabitliyə səs vermişdi. Beləliklə, müdrik Azərbaycan xalqı bir daha öz gələcəyini özü təyin etmişdi.

Cənab Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr bir sıra xarakterik xüsusiyyətləri ilə seçilir. Son 20 il ərzində Azərbaycanın siyasi və iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq arenadakı nüfuzu hər keçən gün daha çox artıb, Azərbaycan beynəlxalq aləmdə özünəməxsus yer tuta bilib. Bu illər ərzində Azərbaycan beynəlxalq münasibətlərin obyektindən subyektinə çevrilməyi bacarıb, öz taleyi ilə yanaşı, regionun taleyini müsbətə doğru dəyişməyə qadir olub, regiona sülh və sabitlik gətirmək üçün çalışıb.

Xüsusi qeyd lazımdır ki, keçən əsrin sonlarında çox ağır və acı günlər yaşamasına baxmayaraq, qısa bir müddət ərzində regionun ən güclü dövlətinə çevrilməyi bacaran Azərbaycanın iştirakı olmadan, onun milli maraqları nəzərə alınmadan, regionda hər hansı irimiqyaslı layihənin həyata keçirilməsi bu gün mümkün deyil.

Ötən 20 il ərzində illərlə işğal olunmuş torpaqlarımızın bizə dinc bir şəkildə qaytarılması istiqamətində aparılan danışıqların Azərbaycanın xoş məramının və sülh istəyinin bir təzahürü olduğunu anlamayan düşmənə də Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ordumuz

tərəfindən layiqli cavab verildi. 44 günlük müharibə və ondan sonrakı dövr cənab Prezident İlham Əliyevin həm hərbi, həm də diplomatik sahədəki ən böyük uğurudur. 44 günlük Vətən müharibəsi dosta və düşmənə Azərbaycanın qüdrətini göstərməklə yanaşı, özümüzə də bəzi mühüm məqamları bir daha xatırlatdı. Xalqımız dövlətimizin ən çətin günlərində güclü lider ətrafında birləşməyi və öz tarixini özü yazmağı bir daha bacardı.

Bir gənc olaraq hesab edirəm ki, bir məqamı xüsusi vurğulamaq lazımdır. Digər bütün sahələrdə olduğu kimi, bu gün ölkəmizdə gənclər siyasətinə xüsusi diqqət yetirilir. Cənab Prezidentimiz tərəfindən Azərbaycanda həyata keçirilən gənclər siyasətinin əsas qayəsini milli-mənəvi dəyərlərə sadiq, eyni zamanda, qlobal dünyanın müasir çağırışlarına cavab verə bilən gənc nəslin formalaşdırılması təşkil edir, böyük qürur hissi ilə deyə bilərik ki, bu da öz müsbət nəticələrini verir. Cəmiyyətin bu dinamik qüvvəsinin enerjisinin ölkəmizin gələcəyinin formalaşdırılmasında birbaşa iştirakını təmin etməyə yönəldilməsi, gənclərin potensialından hər sahədə istifadə edilməsi Azərbaycan gəncinə verilmiş yüksək dəyərin ifadəsidir.

Sonda isə deməyə bir söz var. Tariximizin şanlı səhifələri yazılan bu günlərdə Azərbaycan xalqı öz müzəffər liderinin ətrafında daha da sıx birləşib və bu şanlı tarixi yazan cənab Prezidentə xalqımızın etibarı və ehtiramı sonsuzdur.

**Sədrlik edən.** Sağ olun. İqbal Məmmədov. Buyurun.

**İqbal Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım. Bir xalqı və dövləti qələbələrə, uğurlu inkişafa götürüb, istək və arzularını, problemlərini həll edən bir lideri varsa, o xalq, millət xoşbəxtdir. Birmənalı şəkildə deyə bilərik, Azərbaycan xalqı

da dünyanın xoşbəxt xalqlarından biridir ki, onun istək və arzularını reallaşdırıb, qələbəyə götürən İlham Əliyev kimi bir lideri vardır. Bu gün İlham Əliyev istər klassik, istərsə də müasir dövrün liderlik keyfiyyətlərini özündə birləşdirən şəxsdir.

Sinqapur "iqtisadi möcüzəsi"nin atası Li Kuan Yu deyirdi: "bir millət təkcə sayına görə böyük deyil. Böyüklük xalqın iradəsi, birliyi, dözümlülüyü, nizam-intizamı və liderlərinin keyfiyyəti ilə ölçülür ki, məhz lider tarixdə xalqına şərəfli yer qazandırır".

Cənab İlham Əliyev bütün dünyada çox az təsadüf edilən liderlərdəndir ki, cəmiyyət can atdığı, özünə rəhbər seçdiyi şəxsiyyətdə görmək istədiyi bir çox cəhətləri – həm mənəvi-siyasi lider, həm güclü sərkərdə, həm mahir diplomat, həm bacarıqlı idarəçi, həm də qurucu rəhbər obrazlarını onun siyasi portretində tapa bilir. Onun bütün başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünya miqyaslı mühüm qərarlar qəbul edən say-seçmə ölkələr birliyinə daxil etməkdir.

İstər Azərbaycan cəmiyyəti, istərsə də dünya cənab İlham Əliyevin bu liderlik qabiliyyətlərini 44 günlük Vətən müharibəsi dövründə görüb, bir daha şahidi oldu.

Ümummilli Liderin müəyyən etdiyi inkişaf strategiyası, Prezident İlham Əliyevin əzmkarlığı, qətiyyəti, xarizması, yüksək siyasi və liderlik keyfiyyətləri ilə həyata vəsiqə alması bugünkü nailiyyətlərimizi təmin etməkdədir. İlk dəfə 2003-cü ilin prezident seçkilərində xalqın yüksək etimadını qazanaraq prezidentlik missiyasına başlayan cənab İlham Əliyev ötən 20 ildə Ulu Öndər Heydər Əliyevin siyasi kursunu və inkişaf strategiyasını layiqincə davam etdirib. Ona görə bu 20 il müstəqil Azərbaycanda cəmiyyət həyatının bütün sahələri üçün 100 illərə bərabər inkişaf

dövrüdür desək yanılmarıq. Bu illərdə Azərbaycanın nail olduğu ən böyük uğurlardan biri ölkəmizin bütün regionlarının inkişaf yoluna çıxarılması, bölgələrin iqtisadi potensialının hərəkətə gətirilməsi, nəinki şəhər və qəsəbələrin, hətta kəndlərin simasının dəyişilməsidir. Mübaliğəsiz, demək olar ki, 20 ildə bütün Azərbaycan yenidən qurulub.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş, təmkinli, lakin olduqca çevik və qətiyyətli, uzaqgörən siyasət nəticəsində ölkəmiz mühüm siyasi-iqtisadi və sosial uğurlara nail olub.

Bu gün respublikamız siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınır. Beləliklə, Prezident İlham Əliyev çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazılan uğurların müəllifi oldu.

Ölkəmizdə əldə edilən hər bir uğur vətəndaşların Prezident İlham Əliyevə olan etimadını daha da artırıb, milli həmrəyliyi daha sıx edib. İndiyədək keçirilmiş bütün yerli xarici rəy sorğularının nəticələri Prezident İlham Əliyevin yüksək reytinqliyini dəfələrlə sübuta yetirib. Bunun da əsas səbəbi cənab Prezidentin fəaliyyəti və bu fəaliyyətin xalq tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanmasıdır. Təsadüfi deyil ki, ötən hər prezident seçkisi seçicilərin mütləq əksəriyyətinin öz səslərini cənab İlham Əliyevə verməsi ilə yadda qalıb. Bu dəstək Azərbaycan cəmiyyətinin mövcud siyasi kursa inam və rəğbətinin əyani təcəssümü olmaqla, mütləq əksəriyyətin istək və

arzusunu özündə əks etdirib.

Prezident İlham Əliyevin uğurlu fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin daha da möhkəmlənməsinə gətirib çıxarıb. Bu mənada Ulu Öndərin siyasi kursunun davamını dəstəkləyən xalqımız bundan sonra da cənab İlham Əliyevin ətrafında sıx səfərbər olacaq. Odur ki, ölkə cəmiyyətindən daim dəstək alan, ölkəmizi qüdrətləndirən, yüksəldən, milli maraqlarını dünyada layiqincə təmsil edən Prezident İlham Əliyev xalqımızın alternativsiz lideridir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Naqif Həmzəyev. Buyurun.

**N.Həmzəyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Bu gün Azərbaycan Respublikası tarixinin ən güclü, qüdrətli dövrünü yaşayır. Ölkə Prezidentimiz cənab İlham Əliyev tərəfindən vurğulandığı kimi, müstəqilliyimiz heç bir zaman bu qədər möhkəm olmamışdır. Prezident cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyev irsini qətiyyətlə davam etdirərək Qarabağ problemini birdəfəlik həll etdi. Dövlət başçımız ata nəsihəti, xalqına vermiş olduğu vədi yerinə yetirərək həqiqi lider olduğunu bir daha sübuta yetirmişdir.

Bu gün bütün dünya Azərbaycan Respublikasının Prezidentini verdiyi sözlərə istinad, əməl edən, sözündən dönməyən biri olaraq tanıyır və qürurverici haldır ki, bu keyfiyyətlər, bütövlükdə, Azərbaycan xalqına şamil edilir.

Cənab İlham Əliyev hələ 2003-cü ildə Prezident seçilməsinin ardından Minsk qrupunun həmsədrlərini dəfələrlə qəbul edərək Azərbaycanın öz haqq işində bir addım geri çəkilməyəcəyini qəti olaraq bildirmişdir. Məhz bu prinsipial mövqe özünü illər sonra da doğrultdu. Bir qarış torpaq düşmənə güzəştə gedilmədi, ərazi bütövlüyümüz və suverenliyimiz tam olaraq bərpa edildi.

2016-cı il Aprel döyüşləri zamanı "yenilməz" adlanan düşmən istehkamları bəzi nöqtələrdə 20 dəqiqə, bəzilərində isə 2 saata yarıldı. Vətən müharibəsi zamanı betonlarla möhkəmləndirilmiş və hərbiçiləri belə təəccübə salan müdafiə istehkam qurğuları darmadağın edildi. Azərbaycan əsgəri Şuşaya yüngül silahlarla erməni kimi hiyləgər bir düşmənin belə heç vaxt təsəvvür edə bilməyəcəyi yoldan qalxdı. Günlərlə müharibə şəraitində meşədə yollar çəkildi. Gəncəyə, Tərtərə, Bərdəyə və digər mülki yaşayış məntəqələrinə hücum əmri verən terrorçular ələ keçirildi. Hazırda Azərbaycan xalqına və dövlətinə qarşı müharibə cinayətləri törətmiş terrorçuların axtarışları və mühakimələri davam etməkdədir.

Qalib dövlətimiz bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan kimi müzəffər bir dövlətlə dövlətçilik oynamaq necə baha başa gələr. Azərbaycan, sadəcə, Ermənistanı məğlub etmədi, Ermənistana hamilik edən, Ermənistana hərbi-siyasi maliyyə dəstəyi verən güclərin 10 illəri əhatə edən planları, milyardları 44 gün ərzində puça çıxarıldı. Qələbənin əsas motivlərindən biri xüsusi ilə də Qarabağı görməmiş Azərbaycan gənclərinin Qarabağ sevgisi idi. Məhz bu iradə, Vətən sevgisi Ümummilli Liderin əsasını qoyduğu gənclər siyasətinin Prezident cənab İlham Əliyev tərəfindən layiqincə yerinə yetirilməsinin, gənclərin vətənpərvər ruhda boya-başa çatmasının nəticəsidir.

20 il ərzində nəinki iqtisadi və hərbi potensialımızı artırdıq, qətiyyətli siyasət və dəstək nəticəsində mənəvi xilasımızı gerçəkləşdirdik, xalq olaraq özümüzə olan inamımızı bərpa etdik və bütün dünyaya Azərbaycan xalqının, Azərbaycan dövlətinin gücünü nümayiş etdirdik.

2019-cu ildə Xankəndiyə etdiyi qanunsuz səfər zamanı "Qarabağ Ermənistandır və nöqtə" kimi destruktiv fikir-

lərlə sülh prosesini baltalayan Paşinyan bir neçə gün öncə Azərbaycanın olmadığı bir masada Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu təsdiq edən sənədi imzaladı.

Ölkə Prezidentimiz "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasında dilə gətirdiyi "Qarabağ Azərbaycandır və nida" şüarı bütün xalqın mübarizə şüarına çevrilərək 44 gün ərzində 7-dən 70-ə dildən-dilə dolaşdı, düşmənə, eləcə də onun hamilərinə bir daha nümunə oldu ki, Azərbaycan 30 il əvvəlki dövlət deyil, onun güclü ordusu və lideri var. Prezident cənab İlham Əliyev tərəfindən dəfələrcə dilə gətirildiyi kimi, hazırkı Azərbaycan Ordusu daha güclüdür. Eyni zamanda, artıq müzəffər bir ordudur.

Ölkəmiz günü-gündən inkişaf edir və daha işıqlı gələcəyə doğru addımlayır. Erməni lobbisinin təkidləri və maliyyə oyunlarına rəğmən, Azərbaycanın haqlı mövqeyini bu gün kifayət qədər dəstəkləyən dövlət var. 44 günlük müharibə zamanı Qoşulmama Hərəkatına üzv dövlətlər Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə qətnamənin qəbuluna imkan vermədilər. Macarıstan Avropa İttifaqının Azərbaycan əleyhinə bəyanatına mane oldu. İslam Əməkdaşlığı Təşkilatı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bir çox qətnamə qəbul etdi. Eyni zamanda, Azərbaycan hazırkı geosiyasi dəyişiklikləri, demək olar ki, istənilən xəritədə özünə yer tapmış bir dövlətdir və bütün bu faktların təməlində yatan səbəblərdən biri budur ki, Azərbaycan dünya üçün etibarlı tərəfdaşdır.

Artıq sübuta yetirilib ki, sözümüz söz, imzamız imzadır. Azərbaycan müstəqil dövlətdir, güclü ordusu, güclü və qətiyyətli lideri və hər zaman liderin arxasında dəmir yumuruq kimi bir olan  xalqı var. Yaşasın Prezidentimiz cənab  İlham Əliyev!

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sadiq Qurbanov. Buyurun.

**S.Qurbanov.** Dəyərli Sahibə xanım, hörmətli həmkarlar. Bu gün əlamətdar bir günə, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin hakimiyyətinin ildönümünə həsr edilmiş xüsusi iclasda iştirak etmək hər birimiz üçün şərəfdir. Bu xüsusi iclas üçün xanım sədr, Sizə dərin təşəkkürümü bildirirəm.

Siyasət həddindən artıq incəliklərlə zəngin olan elm olduğuna görə onu həyata keçirənlər də yüksək intellektə, siyasi zəkaya malik olmalı, cəmiyyətdəki hadisələrin inkişafı və dəyişməsi axarını məharətlə duymalıdır. Cəmiyyəti, xalqı ağıllı, düzgün idarə etmək əsl siyasi məharətdir. Dövləti müdrikliklə idarə edənlərin siyasi mənəviyyatı mənsub olduğu xalqın milli sərvəti kimi dəyərləndirilməlidir. Bu mənada Heydər Əliyev siyasəti xalqımızın çox qiymətli mənəvi sərvəti kimi qəbul edilmişdir. Nəsrəddin Tusi insanları təkmilləşdirən ədalətli, müdrik, namuslu siyasəti "ilahi siyasət" hesab edir və Aristotel isə siyasətin 4 növünü qeyd edir: ölkə siyasəti, qələbə siyasəti, kəramət siyasəti və camaat siyasəti. Onun fikrincə, ölkə siyasəti camaatın fəzilətinin artmasına, qələbə siyasəti nakəs adamlara qarşı görülən mübarizə tədbirlərinə, kəramət siyasəti insanların peşə və sənətlərinin inkişaf etməsinə, camaat–xalq siyasəti isə ədalətli, vicdan əsasında tərtib edilmiş müxtəlif qayda-qanunlara deyilir.

Bu kontekstdən yanaşaraq deyə bilərik ki, cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyev kimi siyasətə kompleks yanaşmanın, daxili və xarici siyasəti vəhdətdə götürməyin, siyasi, iqtisadi, mənəvi, mədəni aspektləri vəhdətdə təqdim etmənin canlı nümunəsidir. Prezident İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə

əsaslanan mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən, siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi. Öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartları, milli siyasi etika nümunəsi təqdim etdi. Eyni zamanda, demokratik prinsiplərin və milli dəyərlərin sintezini yarada bildi.

Prezident İlham Əliyev demokratiyanın istismarçı siyasi vasitə deyil, milli mədəniyyətimiz və mentalitetimizlə, eyni zamanda, müsəlman sosial-psixoloji kimliyimizlə uzlaşan bir dəyər və yaşam tərzi olduğunu sübut etməklə, intellektual əsaslarda yeni demokratik, modernist cəmiyyət formalaşdırmağa nail oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən bəhs edərkən demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə etdiyi nailiyyətlər xüsusi vurğulanmalıdır.

Cənab İlham Əliyevin 20 illik hakimiyyəti bizə nə qazandırdı? Ən əsas böyük Zəfəri, qələbəni qazandırdı. Müasir tələblərə cavab verən müzəffər ordunu, ərazi bütövlüyümüzün bərpa olunmasını, müzəffər xalq və qalib dövlət kimi yaşamağı, zədələnmiş milli qürurumuzun bərpasının təmin edilməsini, Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini, təkamül yolu ilə inkişaf edən demokratik ənənələri, milli iqtisadiyyatın diversifikasiyasını, güclü iqtisadiyyatı olan bir dövləti, enerji siyasəti ilə ölkəmizin regional və qlobal əhəmiyyətli aktora çevrilə bilməsini, regionların sosial-iqtisadi inkişafına nail olunmasını, müstəqil xarici siyasəti olan güclü Azərbaycanı, dövlət, xalq və hakimiyyətin siyasi münasibət fonunda həmrəyliyini və ən nəhayət də, türkün kimliyini bütün dünyaya  sübut etdi.

44 günlük İkinci Qarabağ müharibəsindəki qələbə Azərbaycan tarixinin döyüş meydanında qazanılan şanlı səhifəsi olmaqla dövlətimizi, xalqımızı böyütdü, dünyaya bir daha yaxından tanış etdi.

Biz inanırıq ki, bu döyüşlərdən qələbə ilə çıxan müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Qərbi Azərbaycana qayıdışla bağlı siyasəti də qələbə ilə nəticələnəcək və soyadaşlarımızın öz doğma torpaqlarına qayıtmasını təmin edəcəkdir. Bu inam sayəsində Prezident İlham Əliyev xalqı bundan sonra da öz arxasınca zəfərdən zəfərə, zirvədən zirvəyə, qələbədən qələbəyə aparacaq.

Mən də əmin etmək istəyirəm ki, biz də öz fəaliyyətimizdə İlham Əliyev siyasətini buna qədər olduğu kimi, bundan sonra da müdafiə edəcək və o qələbələrin qazanılmasında maksimum əməyimizi sərf edəcəyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev.** Hörmətli Sahibə xanım, çıxışınızda Prezident İlham Əliyevin 20 illik fəaliyyətini dolğun canlandıra bildiniz. Qısa zaman ərzində onillikləri bütöv və canlı cümlələrlə demək Sizin bacarığınızdır. Hörmətli həmkarlarımız da gözəl sözlər dedilər.

Hörmətli deputatlar, bilirsiniz, İlham Əliyevin ən böyük xidmətlərindən biri nədir? Dünyada baş qaldıran və gü-nü-gündən daha da ruhlanan erməni separatizmini dayandırmaq, erməni diasporunu zəiflətmək və onun liderlərindən biri olan Ruben Vardanyanı zərərsizləşdirmək, mənəvi cəhətdən sındırmaq. Yoxsa, erməni separatizmi Türkiyədə, Gürcüstanda və Rusiyada da başlayacaqdı. Məhz bu xidmətinə görə də İlham Əliyev ayrıca mükafata layiqdir. Xərçəng kimi yayılan dənizdən-dənizə erməni ideologiyası dağ çayından su kanalı səviyyəsinə endi.

Bu yaxınlarda bir məclisdə "Azərenerji"nin rəhbəri

Baba müəllimlə söhbətimiz oldu. O dedi ki, biz azad olan torpaqları bütünlükdə gəzirik və qazanılan qələbənin həm çətinliyini, həm də möhtəşəmliyini görə bilirik. Mümkün olmayan mümkün edilib. Ona görə də gərək heç nə unudulmasın və yaddan çıxmadan yazılsın, çəkilsin, arxivləşdirilsin və elə bu gün, sabah da qiyməti verilsin.

Parlament, bütövlükdə və biz deputatlar bunu görür, edir və deyirik. Onlarla təkliflərimiz və çağırışlarımız olub və olur. Gərək hə kəs töhfəsini versin.

Bir neçə təklifim var. Prezident İlham Əliyevin etdiklərini və apardığı davamlı, zəncir kimi bir-birinə bağlı proseslərdən ibarət, eyni zamanda, bir-birini məntiqli sonluqla tamamlayan, amma mürəkkəb bir siyasətin şahmat fiqurları kimi gedişlərini dünyanın heç bir hərbi və diplomatik məktəblərində öyrənmək mümkün deyil. Allah şahiddir ki, bunu bütün səmimiyyətimlə deyirəm. Ona görə də bu siyasəti, diplomatiyanı regionda və dünyada gedən prosesləri öz xeyrinə həll etmək bacarığını ayrıca bir fakültə kimi, mərkəz kimi öyrənmək lazımdır. Çoxlu kitablar yazılır, məqalələr dərc edilir, jurnallar çıxarılır. Amma ağrılı olsa da deyəcəyəm ki, hamısı az qala bir-birinin təkrarıdır. Öyrədici, faktlara və Prezidentin gedişlərinə söykənən, bu gün yaşadığımız siyasi gerçəkliyi indiki və gələcək nəsillərə çatdırmaq üçün konkret kinolar, sənədli filmlər, vəsaitlər çəkmək və yazmaq lazımdır.

Mən xeyli insanlar görmüşəm ki, onlar bunu etmək istəyir, söz olaraq deyir və vəsait istəyir. Zənnimcə, dəyərli və gərgin əməyin, araşdırmanın məhsulu olan ssenarilər, ideyalar ortalığa qoyulsa, vəsait ayıranlar mütləq şəkildə tapılar. İmkanlı şəxslərimiz çoxdur. Onlar məmnuniyyətlə cənab Prezident haqqında dəyərli və standartlara cavab verən istənilən təşəbbüsü dəstəkləməyə hazırdır. Təki la-

yiqli təşəbbüslər olsun, konkret, real ideyalar irəli sürülsün, köməklik mütləq olacaqdır. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətində Azərbaycanın siyasi, iqtisadi imkanlarını genişləndirərək ölkəmizin beynəlxalq arenadakı mövqelərini, hərbi potensialını möhkəmləndirərək 30 il ərzində düşmən tapdağı altında olan ərazilərimizin işğaldan azad edilməsi sahəsindəki fəaliyyəti xüsusi tarixi yer tutur. Bu şanlı qələbədə Azərbaycan xalqının Ali Baş Komandan ətrafında yumruq kimi birləşməsi, xalqın birliyi və ordumuzun gücü, Azərbaycan əsgərinin döyüş əzmi və vətənpərvərliyi ilə intellektual müharibənin effektiv kombinasiyasına nail olması həlledici rol oynadı.

Prezident İlham Əliyev hərbi sahədə olduğu kimi, hibrid müharibənin bütün müstəvilərində, diplomatik və informasiya savaşı sahəsində də öz üstünlüyünü dünyaya nümayiş etdirməyi bacardı. Dünyanın aparıcı media qurumlarına müsahibələri ilə Ermənistanın və onun havadarlarının, bütün bədxahlarımızın təbliğatını heçə endirə bildi.

Azərbaycan 44 günlük Vətən müharibəsindən, sadəcə, qalib bir dövlət kimi yox, həm də daha böyük hədəflərə çatmağa qadir, güclü bir dövlət kimi çıxa bildi. Bu şanlı qələbənin nəticəsində Azərbaycanın nail olduğu yeni keyfiyyət halı və yaratdığı yeni situasiya regionumuzla yanaşı, qlobal proseslərə də öz təsirini göstərməyə başlayıb. Bu dərəcədə böyük miqyaslı bir hadisə həm də gələcəyə konkret hədəfli çağırışlardır.

Bu ilin 19-20 sentyabrında 24 saat ərzində həmin hədəflərdən birinə, bütün ərazimiz üzərində suverenliyimizin bərpasına nail olundu. İtirilmiş torpaqların geri qaytarıl-

ması kimi dünya tarixində çox nadir hadisəyə nail olundu. Bu möhtəşəm qələbə həm də şəhidlərimizin ruhunu şad etdi. Azərbaycan Ermənistanın öz havadarlarının bilavasitə iştirakı və dəstəyi ilə işğal etdiyi, 30 il ərzində viran qoyduğu, hər qarışını minalanmış döyüş meydanına çevirdiyi əraziləri işğaldan azad edərək tikinti meydanına, sülh və əməkdaşlıq arenasına çevirir. Azərbaycanın Vətən müharibəsindəki qələbəsini genişləndirməkdən və əbədiləşdirməkdən ötrü öz doğma torpaqlarından köçkün düşən insanların ata-baba torpaqlarına qayıdışı prosesi başlayıb. İşğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşamasının təmin edilməsi, bu regionu ölkəmizin ən abad guşələrindən birinə çevirməsi, müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün çoxşaxəli quruculuq işləri gündən-günə genişlənir. Bu, təkcə ölkəmiz üçün deyil, yaşadığımız regionda dayanıqlı sülh və tərəqqiyə əsaslanan gələcəyin təməl daşı sayıla bilən çox mühüm bir tarixi nailiyyətdir.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində önəmli təsiri ilə yanaşı, eyni zamanda, onun beynəlxalq nüfuzu da getdikcə artır. Bu, həm də inteqrasiya imkanlarımızı getdikcə genişləndirib. Türk dünyasının birliyinin güclənməsinə Azərbaycanın verdiyi töhfələr şərhsizdir və bu da sürətlə artır.

Azərbaycanı yeni hədəflərə doğru aparan çox şərəfli tarixi missiyanı həyata keçirmək yolunda Prezident İlham Əliyevə davamlı uğurlar arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov.** Sağ olun, Sahibə xanım. Müstəqilliyin ilk illərində dərin iqtisadi və siyasi böhran keçirən Azərbaycan nəhayət, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altın-

da Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının parlaq təzahürü kimi, 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzaladı. Respublikamız Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi beynəlxalq layihələrin fəal iştirakçısı və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi.

Ulu Öndərin vəfatından sonra onun siyasi kursunun Azərbaycanın müstəqilliyi və inkişafı üçün ən düzgün yol olduğunu görən xalqımız 2003-cü il 15 oktyabrda keçirilən seçkilərdə onun siyasi kursunun layiqli davamçısı olan İlham Əliyevi dəstəkləyərək onu özünə yeni Prezident seçdi.

Hakimiyyətinin ilk illərindən etibarən yüksək idarəçilik qabiliyyəti, xarici və daxili siyasətdə səriştəsi ilə fərqlənən Prezidentə xalqın inamı və etibarı görünməmiş dərəcədə artdı və İlham Əliyev 2008-ci, 2013-cü, 2018-ci illərdə keçirilən prezident seçkilərində də layiqli qələbə qazandı.

Azərbaycanın sosial-iqtisadi və hərbi sahədə əldə etdiyi uğurların başında İlham Əliyevin apardığı uğurlu siyasət dayanır. 20 il ərzində ölkəmizdə ümumi daxili məhsulun nominal həcmi 22 dəfə, o cümlədən ölkə əhalisinin gəlirləri 13 dəfə, valyuta ehtiyatları isə 41 dəfə artmışdır. Ölkədə nəqliyyat, təhsil, enerji, turizm və digər sahələr üzrə infrastruktur yenidən qurulmuş, genişləndirilmiş və ölkə iqtisadiyyatına təxminən 250 milyard dollardan artıq vəsait yatırılmışdır.

Prezident İlham Əliyevin daxili siyasət kursunun çox mühüm istiqamətlərindən birini də sosial siyasət təşkil etmişdir. Həyata keçirilən sosialyönümlü siyasətin nəticəsində 2002-ci ildə 180 manat təşkil edən orta aylıq əmək haqqı hazırda 900 manatdır. Bu illər ərzində 2 milyondan

artıq iş yerləri açılmış, yoxsulluq həddi 49 faizdən 5 faizə endirilmişdir.

Aparılan sosial islahatlarda həssas qruplar – əlillər, müharibə veteranları, şəhid ailələri, aztəminatlı vətəndaşlar xüsusi diqqət mərkəzində olmuş, onların bütün qayğıları nəzərə alınmışdır.

Posmüharibə dövründə şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 5 min 250, bu il isə 750 mənzil və fərdi ev verilmişdir.

20 il ərzində İlham Əliyevin apardığı sosial siyasətə dəstək olaraq Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Heydər Əliyev Fondunun xətti ilə 500-dən artıq məktəb tikilərək istifadəyə verilmişdir.

Güclü, müstəqil və suveren dövlətin əsas atributlarından biri də onun təhlükəsizliyinin təmin edilməsi üçün güclü ordunun qurulmasıdır. 1992-ci ilin sonlarından başlayaraq ordu quruculuğu siyasəti 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən daha sürətli və müasir mərhələyə qədəm qoymuşdur. Ordumuz yenidən qurulmuş ən müasir silah, sursatla təchiz olunmuşdur. Azərbaycanın 20 il ərzində iqtisadi və hərbi sahədəki inkişafı, Ali Baş Komandanın müdrikliyi və silahlı qüvvələrimizin şücaəti nəticəsində 30 il işğal altında olan ərazilərimizin böyük bir hissəsi işğaldan azad edilib. Müharibə nəticəsində üçtərəfli bəyanatı imzalamasına baxmayaraq, Ermənistan tərəfinin Qarabağı separatçılıq siyasəti Azərbaycan dövləti üçün yenidən torpaqlarımızın terrorçulardan azad olunması məsələsini zəruri etdi. 2023-cü il 19 sentyabr tarixində Ali Baş Komandanın rəhbərliyi altında ordumuz tərəfindən həyata keçirilən anti-terror əməliyyatı nəhayət

ki, Azərbaycanın tam şəkildə suverenliyini bərpa etdi.

Bu illər ərzində cənab İlham Əliyevin Azərbaycanın daxili və xarici siyasətində, torpaqlarımızın azad olunmasında əldə etdiyi nailiyyətlər nəinki Azərbaycanda, bütün dünyada onun hörmət və nüfuzunun artmasına səbəb olmuşdur. Fəxredici haldır ki, bu gün xaricdə Prezident İlham Əliyevin adı böyük hörmət və ehtiramla çəkilir. Azərbaycan bu gün bir çox nüfuzlu beynəlxalq təşkilatlarda layiqincə təmsil olunur.

Əminliklə demək olar ki, cənab İlham Əliyevin Prezidentliyi dövründə qazandığı iqtisadi, siyasi, diplomatik və hərbi uğurlar Azərbaycanın tarixində şanlı səhifə kimi əbədi yaşayacaqdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət Mənmədov. Buyurun.

**H.Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. 2003-cü il 15 oktyabr Azərbaycan dövlətçiliyi tarixində çox əlamətdar bir hadisədir. Ona görə ki, məhz bu tarixdən başlayan yol bizi tarixi zəfərə gətirdi. Eyni zamanda, 2003-cü il 15 oktyabr, şübhəsiz ki, həm də böyük dövlət xadimi Ulu Öndər Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanın müstəqil daxili və xarici siyasətinin yeni mərhələdə, yeni keyfiyyətdə davam etdirilməsi tarixinin başlanğıcı idi. Əlbəttə ki, Ulu Öndər Azərbaycanın müstəqilliyini təmin etmişdi, onun hüquqi, iqtisadi, siyasi xarici siyasət əsaslarını yaratmışdı. Ancaq xalqımız və dövlətimiz XXI əsrdə tamamilə yeni çağırışlarla üz-üzə idi. Bu əsaslarda Azərbaycan dövlətçiliyini inkişaf etdirərək yeni qələbələrə gətirmək böyük istedad, əzm, qətiyyət, təcrübə, məhz dövlət adamı olmaq keyfiyyətləri tələb edir ki, Azərbaycan Respublikasının Prezidentində bu keyfiyyətlərin hamısının məcmusu vardır.

Hər şeydən öncə, yeni çağırışlar millətin genefondunu

qorumaq, milli yaddaşı təzələmək, yeni vətənpərvər gənclik yetişdirmək, sosial problemləri həll etmək, neft sektorundan gələn gəlirləri qeyri-neft sektoruna yönləndirməklə müstəqil iqtisadiyyat yaratmaq, Azərbaycanı regionun və dünyanın siyasi cazibə mərkəzlərindən birinə çevirməkdən ibarət idi ki, Azərbaycan Prezidenti hakimiyyətə gələr-gəlməz ilk növbədə regionların sosial və iqtisadi inkişafı ilə bağlı xüsusi dövlət proqramları qəbul etdi. Ona görə bu gün regionlarımız inkişaf edir.

Azərbaycanın sosial dövlət fəlsəfəsini inkişaf etdirərək sosial sahədə mühüm islahatlar apardı. Siyasi sistemin təkmilləşdirilməsi, demokratik təsisatların formalaşdırılması çox mühüm məsələlərdən biri idi ki, Azərbaycan Prezidenti buna nail oldu.

Şübhəsiz, hər bir cəmiyyətin inkişafını şərtləndirən cəmiyyətdə söz azadlığı, fikir azadlığı, siyasi plüralizm şərtləridir ki, bu da cəmiyyəti ideyaları ilə zənginləşdirdi. Bax, ölkəmizdə demokratik təsisatların inkişafı həm də buna gətirib çıxarmış oldu.

Əlbəttə ki, bütün bunlar nəticə etibarı ilə milli məqsədimizi bizə yaxınlaşdırdı. 2020-ci il noyabr ayının 10-da biz artıq ərazi bütövlüyümüzü bərpa etdik. Bu, çox mühüm bir hadisə idi. Bu tarixi hadisə ilə biz 30 illik işğala son qoyduq. Amma bu da məsələnin hamısı deyildi. Çünki biz 2023-cü il 19-20 sentyabr tarixində, cəmi 1 sutka ərzində 100 illik problemi həll etdik. Ona görə ki, Dağlıq Qarabağ Muxtar Vilayət, uzunmüddətli mina kimi yaradılaraq Azərbaycan dövlətçiliyinin əsaslarına düz 1923-cü ildə qoyulmuşdu. Ona görə də 1 gündə əsrə bərabər bir müharibə aparmağı bacardı müzəffər Ali Baş Komandanımız.

Mən düşünürəm ki, Azərbaycan dünyada respublika

yaradan, müsəlman Şərqində ilk respublika yaratmağı bacaran birinci xalqdır. Bu tarixi faktdır. Amma diqqət yetirsək, təhlil etsək, görəcəyik ki, birinci respublika dövrümüzdə paytaxt işğal altında idi, Qarabağ işğal altında idi, Azərbaycan Gəncədən paytaxtı Bakıya köçürmək üçün Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsinə ehtiyac duyurdu. Bundan sonra cümhuriyyətimiz işğala məruz qaldı. Dərhal sonra Sovet dövrü, yəni ikinci respublika dövrümüz başladı. Burada nə baş verdi? Yenə də Qarabağ problemi. Ondan sonra, 1991-ci ildə müstəqilliyimizi əldə etdik. Müstəqil Azərbaycanın əsas problemi nə idi? Yenə Qarabağ problemi, yenə də ərazimizin işğal olunması. Yəni şərti olaraq səciyyələndirsək, hər 3 respublika dövründə Azərbaycan heç vaxt indiki kimi öz ərazilərinə hakim olmamışdır.

Nəhayət, Azərbaycan Prezidentinin sayəsində biz bu gün ərazimizin hər qarış torpağında suveren hüquqlarımızı, konstitusion quruluşumuzu tətbiq edə bilirik. Ona görə mən düşünürəm, əgər biz desək ki, Prezident İlham Əliyev 4-cü respublikanın yaradıcısıdır, qurucusudur, memarıdır səhv etmiş olmarıq.

Hər bir güclü kişinin arxasında güclü qadın var. Mən düşünürəm ki, 20 illik qələbə ilə sona çatacaq bu 20 illik marafonda Azərbaycan Prezidentinin ən yaxın silahdaşı, ən yaxın arxadaşı Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva olubdur. Onun da bu əməyini qiymətləndirərək sözümü yekunlaşdırıram. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Öncə hər birimizi Heydər Əliyev siyasi kursunun təntənəsi, cənab İlham Əliyevin prezident seçilməsinin 20-ci ildönümü münasibəti ilə təbrik edirəm.

Konstitusiyanın 8-ci maddəsinə əsasən prezident xalqın vahidliyini təcəssüm etdirir və dövlətçiliyin varisliyini təmin edir. Sovet Azərbaycanında Heydər Əliyevdən sonra, müstəqil Azərbaycanda isə Heydər Əliyevə qədər heç bir rəhbər dövlətin varisliyini təmin edə, xalqın vahidliyinin təcəssümü ola bilməmişdi. Prezident İlham Əliyevin hakimiyyətə gəlişi ilk növbədə Heydər Əliyevin qurduğu Azərbaycanda dövlətçiliyin varisliyini təmin etdi.

Əslində, cənab İlham Əliyev barədə 2003-cü ildən etibarən danışmaq insaflı yanaşma deyil. Bakıda sovet rəhbərliyi ilə nüfuz alveri edilirkən, cənab İlham Əliyev Moskvada Ulu Öndərlə birlikdə 20 Yanvar hadisələrinə görə sovet rejiminə qarşı açıq etiraz edən iki nəfərdən biri idi.

Azərbaycan Xalq Cəbhəsi hərəkatı Qorbaçov yenidənqurmasını dəstəkləyən bir qüvvə kimi rəsmi qeydiyyata alındığı dövrdə İlham Əliyev sovet miqyasında elə ən böyük cəbhəçi olan Qorbaçovun rejiminə təhdid hesab edildiyi üçün işdən çıxarılmışdı. Yəni kimin hansı cəbhədə olduğunu bu xalq unutmayıb.

Ulu Öndər Bakıya qayıtdıqdan sonra zamanında adam etdikləri bu parlamentdə ona danışmağa imkan verməyəndə, Bakıda təhlükələrlə üz-üzə qalanda, o cümlədən fəaliyyətinin ən ağır dövrü – Naxçıvan dövründə onun əsas silahdaşı yenə də İlham Əliyev idi.

1993-cü ildən etibarən isə Ümummilli Liderin neft strategiyası və Avropa hüquq məkanına inteqrasiya kursunun realizəsində ağırlıq məhz cənab İlham Əliyevin ciyinlərində oldu. Ona görə də 2003-cü ilə qədərki dövlət quruculuğu prosesində biz Ulu Öndərlə bərabər onun əsas silahdaşı kimi məhz cənab İlham Əliyevin adını çəkməliyik. Sonrakı dövrdə möhtərəm Prezidentin davam edən 20 illik fəaliyyəti, son 200 ilin gündəliyindən daha zəngin,

daha mürəkkəb, həm də tariximizin ən uğurlu dövrüdür. Onun şah əsəri isə şübhəsiz ki, böyük Zəfərimizdir.

Qarabağ məsələsi Ulu Öndərin nisgili idi, hətta son müraciətində də ifadə edirdi ki, "xaos və anarxiya dövründə yaranmış bu problemi hələ də həll edə bilməmişik". Baxmayaraq ki, Heydər Əliyevə qədərki idarəçilik normal təfəkkürə sahib olsaydı, onun dediyi kimi, "xalqı vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli hisslərdən konstruktiv şəkildə istifadə olunsaydı, Qarabağ adlı problem də olmazdı". Amma o zaman Xalq Cəbhəsi təhlil və proqnozlar əsasında milli platforma yaratmaq əvəzinə, populist meydan əhvali-ruhiyyəsinə üstünlük verdi.

Baxmayaraq ki, Ulu Öndər dediyi kimi: "bu məsələyə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi". Cənab İlham Əliyev də sübut etdi ki, Azərbaycan xalqı böyük qələbəyə həm qadirdir, həm də layiq. Sadəcə, idarəçilik milli düşüncədə, doğru əldə olmalıdır.

Bu Zəfərə qədər cənab İlham Əliyev güclü iqtisadiyyat qurub, iqtisadi suverenliyimizi təmin etdi. Ölkəni çadırlardan azad etdi. Məcburi köçkün şəhərcikləri, çadır şəhərciklərini ləğv edilərək vətəndaşın layiqli rifahı, rəngli inqilablar simgəsi olan narıncı çadırlara meydan verməyərək müstəqilliyimizin davamlılığı təmin olundu. Düşüncələrdəki "palatka" təfəkkürü rədd edildi və 200 ildir məğlub kimi yaşayan xalqa nəhayət, qalib kimi düşünməyi öyrətdi.

Bu Zəfərə qədər cənab İlham Əliyev həm tariximizin, həm də regionun ən güclü ordusunu və ən nəhəng müdafiə sənayesini qurdurdu, vətənpərvər gənclik yetişdi. 200 ildir zəbt edilmiş təfəkkürləri, 30 ildir işğalda qalan Qarabağ və Şərqi Zəngəzuru azad etməklə, ərazi bütövlüyümüzü və

suverenliyimizi tam bərpa etməklə cənab İlham Əliyev müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixinin heç bir dövründə, heç bir liderə müyəssər olmayan bir zirvəyə ucaldı.

Zəfərdən cəmi 8 gün sonra özünün ən sadiq silahdaşı Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə işğaldan azad olunmuş bölgələrə səfər edən cənab İlham Əliyev tariximizin ən irihəcmli quruculuq-bərpa prosesinə start verdi. Öz gücümüzə, daha doğrusu, öz gücünə. Məhz onun sayəsində neftimiz bəzi ölkələrdə olduğu kimi lənət yox, inkişaf etmək və dünyada təsirli gücə çevrilmək üçün vasitə oldu.

Strateji əhəmiyyətinə görə tarix boyu maraqların toqquşma nöqtəsi olan və faydasından çox zərərini gördüyümüz coğrafiyanı ilk dəfə məhz cənab İlham Əliyev milli kapitala çevirdi və nə qədər ki, Heydər Əliyev siyasi kursunun davamlılığı təmin ediləcək, coğrafiyamız bizə divident gətirməkdə davam edəcək.

Bu gün dönüb 20 il geriyə baxanda bir şeyə əmin oluruq – miqyası dövlətimizin miqyasından, gördüyü işlər isə real imkanlarımızdan artıq olan İlham Əliyev bu dövlət və bu xalq üçün, sözün əsl mənasında, tarixi şansdır. Millət olaraq şansımız gətirib ki, İlham Əliyev Azərbaycanda doğulub, Azərbaycanda yaşayır və Azərbaycanı idarə edir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Mən indi sözü Əli müəllimə verirəm. Əli Hüseynli. Buyurun, Əli müəllim.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Heç şübhəsiz ki, bu il Milli Məclisdə Ulu Öndərin 100 illiyinə, Qurtuluşun 30 illiyinə və bu gün Prezident İlham Əliyevin prezident kimi fəaliyyətinin 20-ci ildönümünə həsr olunmuş bu möhtəşəm iclaslar müasir parlamentarizm

tarixinin ən şərəfli səhifələri olacaqdır.

İndiki dövrümüzdə bir sıra dövlətlərdə konstitusion idarəetmə quruluşunu dəyişməklə hakimiyyətdə qalanlardan fərqli olaraq Prezident İlham Əliyev yalnız ümumxalq seçkilərində xalqın səsini qazanaraq dəfələrcə qalib gəlmiş dövlət başçısıdır. O, müasir hüquqi və demokratik dünyada 20 il sabit, davamlı, amma həm də artan reytinqi olan çox nadir tarixi şəxsiyyətdir. Əslində, İlham Əliyevin uğur tarixi daha dərindir, bugünkü filimdə də bu, bir daha nümayiş olundu. O, zamanında Neft Şirkətinin birinci vitse-prezidenti kimi də, Avropa Şurasında nümayəndə heyətinin rəhbəri kimi də, Milli Olimpiya Komitəsinin prezidenti kimi də idmanımıza nailiyyətlər gətirərkən xüsusi xarizma və qətiyyətlə davranırdı.

Ona görə də 2003-cü ildə özünün ilk prezident seçkilərindən sonra radikal müxalifətin dövlət çevrilişi cəhdinin və hakimiyyətdəki bəzi avantüristlərin hərəkətlərinin qarşısı da Prezident İlham Əliyev tərəfindən qətiyyətlə alındı. İndi isə Qarabağdakı qələbəmizlə oradan ermənilər təxliyə edilirlərsə, radikal müxalif düşüncə Azərbaycandan birdəfəlik təxliyə olunmaqdadır.

Hər birimiz İlham Əliyevin Qarabağı azad etməklə yeni tarix yazmasının fərqindəyik. Amma öncə İlham Əliyev tarixi yenidən yazdı. Özünün qətiyyətli çıxışlarında Xalq Cümhuriyyətinin İrəvanı ermənilərə güzəştə getməsi, 1990-cı ilin 20 Yanvarında sovet qoşunları ilə yanaşı, Xalq Cəbhəsinin də əlinin qana batması, 1991-ci il müstəqilliyin əldə olunmasına görə xalqın heç kimə borclu olmadığı, 1992-ci ilin mayında AXC-nin Şuşanın işğalına şərait yaratması və dövlət çevrilişi ilə hakimiyyətə gəlməsi kimi tarixi həqiqətləri söyləməklə İlham Əliyev cəmiyyətdəki populist illüziyalara və mifologiyalara son qoydu.

Bu tarixi həqiqətlər bəziləri üçün acı olsa da, gələcək nəsillər üçün  bunları bilib səhvlərə bir daha yol verməmək tövsiyələri idi.

Beləliklə, güzəştlərə və xəyanətkarlığa bağlı ərazi itkilərimizin və müstəqilliyimizə təhlükələrin əsl səbəbini söyləməklə İlham Əliyev həm də tarixçilərimizin yaza bilmədiyi yeni tarix elmini yazdı. Məhz bu real tarix Azərbaycanın dövlət suverenliyini bərpa etdi.

Hörmətli həmkarlar, postsovet məkanında Azərbaycanın ərazi bütövlüyünü tam təmin etməsi ilə bağlı hadisə yeganə və təkrarsızdır. İlham Əliyevin bu təcrübəsini öyrənənlər çoxdur, amma tətbiq edə biləcəkləri böyük sual altındadır. Çünki regionda məxməri inqilabların yetişdirdiyi marionet başçılardan fərqli olaraq, ancaq özü müstəqil olan İlham Əliyev kimi lider müstəqil də qərarlar qəbul edən Ali Baş Komandandır. Regionda müharibəni, antiterror tədbirlərini və sülhü birləşdirib birgə həyata keçirən yeganə şəxsiyyət yalnız İlham Əliyevdir. Ulu Öndər Heydər Əliyev kimi İlham Əliyev də cəsarətlə mərhəmətin, qətiyyətlə humanistliyin nadir təcəssümü olan dövlət başçısıdır.

Zamanında Sovetlər birliyinin ən parlaq Siyasi Büro üzvü məhz  Heydər Əliyev idi və bütün dünyada tanınırdı. İndi müasir Avrasiya coğrafiyasının da ən parlaq lideri İlham Əliyevdir və bütün dünyada tanınır. İndi də bölgəmizdə Əliyevin sözü olmadan heç bir qərar qəbul edilə bilməz.  Bu gün filmdə bir daha nümayiş etdirildi.

20 il öncə Prezident İlham Əliyev andiçmə mərasimində söyləmişdir: “Azərbaycan xalqına söz verirəm ki, Heydər Əliyev siyasətini davam etdirəcəyəm”. İndi biz əminliklə deyə bilərik ki, məhz bu siyasət Qarabağı işğaldan azad etdi. Məhz Heydər Əliyev siyasəti  ərazi bütövlüyümüzü və suverenliyimizi tam təmin etdi. Məhz

Heydər Əliyev siyasəti bütün dünyada azərbaycanlıların hüquqlarını müdafiə edir. Məhz bu siyasət xalqımızı Qərbi Azərbaycana qaytaracaqdır. Məhz Heydər Əliyev siyasəti bu regionda, Qafqazda sülhü əbədi edəcəkdir. Ulu Öndərin siyasəti İlham Əliyevin qalib simasında, müstəqil və qətiyyətli qərarlarında yenə də davam etməkdədir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. İndi isə Müşfiq Məmmədli. Buyurun.

**M.Məmmədli.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Ötən 20 ildə cənab Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi strategiyanın prioritetləri arasında Azərbaycanın hərtərəfli inkişafı, xalqımızın firavan həyatı, ölkəmizin ərazi bütövlüyünün bərpası hər zaman əsas yer tutub.

2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına müraciət edərək öz namizədliyini siyasi varisi İlham Əliyevin xeyrinə geri çəkərək bu sözləri deyərkən nə qədər haqlı olduğunun hər ötən il bir daha şahidi oluruq: “Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı, xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməkliyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Geridə qalan bu 20 ilə nəzər yetirsək, əminliklə deyə bilərik ki, bu, Azərbaycan xalqının, Azərbaycan dövlətinin qələbələrlə taclandırılmış möhtəşəm tarixinin qızıl hərflərlə yazılmış ayları və illəridir. Bu illərdə neft strategiyasının uğurla həyata keçirilməsi, qeyri-neft sektorunun

iqtisadiyyatda çəkisinin artırılması, nəhəng infrastruktur layihələrin həyata keçirilməsi və ən önəmlisi, ərazi bütövlüyümüzün bərpası həyata keçirildi. Gənc nəslin sağlamlığının qorunması istiqamətində məqsədyönlü şəkildə idman infrastrukturunun qurulması, yüzlərcə səhiyyə ocağının, müalicə diaqnostik mərkəzlərin inşası səhiyyə sisteminin inkişafına, minlərcə məktəb binası tikilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi təhsilin yeni dövrün tələbinə uyğun qurulmasına mühüm təkan verdi.

Respublikamızın sosial-iqtisadi inkişafı cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, səhiyyə sistemində də öz müsbət nəticələrini vermişdir. Müasir dövrümüzdə səhiyyənin idarə olunması, yeni dövrün çağırışlarına uyğun islahatların aparılması, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və digər irimiqyaslı tədbirlər həyata keçirilmişdir. Bütün bu uğurlar səhiyyənin dünya standartları üzrə inkişafına, onu dünyanın qabaqcıl ölkələrinin səhiyyə sisteminə ardıcıllıqla inteqrasiya edilməsinə zəmin yaradan amillərdəndir.

Ölkədə səhiyyə sahəsində aparılan islahatlar, Prezident İlham Əliyevin sərəncam və tapşırıqlarına əsasən tikilib istifadəyə verilən, yenidən qurulan tibb ocaqları Azərbaycan səhiyyəsinin inkişafının bu gün ən yüksək səviyyədə davam etdiyini göstərir. Müxtəlif aspektlərdən səhiyyədə aparılan uğurlu islahatlar əhalinin sağlamlığının təminatına, onun tam şəkildə dünya standartları səviyyəsində qurulmasına istiqamətləndirilib.

Azərbaycanda müasir tibb avadanlığı və cihazlarla təchiz olunmuş 700-ə yaxın səhiyyə müəssisəsinin əhalinin istifadəsinə verilməsi insan sağlamlığına ayrılan diqqətin bariz nümunəsidir. Hər bir müasir tibbi avadanlıq və

ləvazimatlarla təchiz olunmuş xəstəxanalar və tibb müəssisələri dünya standartlarına uyğunlaşdırılmışdır. Yeni istifadəyə verilən təmir və bərpa olunan səhiyyə ocaqlarına dünyanın inkişaf etmiş ölkələrindən müasir avadanlıqlar gətirilir.

Hazırda ölkəmizdə 40 minədək həkim, 54 mindən artıq tibb bacısı əhalinin sağlamlığının keşiyində dayanır. Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yenilənməsi daim diqqət mərkəzindədir. Ölkə rəhbərliyinin həyata keçirdiyi sosial siyasət nəticəsində dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına, ümumilikdə, xidmət səviyyəsinin yüksəlməsinə imkan yaradır.

Nəzərinizə çatdırmaq istəyirəm ki, aparılan islahatlar və görülən titanik səylər nəticəsində ölkənin səhiyyə büdcəsi 3 milyard manata yaxınlaşır. Səhiyyə islahatları cənab Prezidentin siyasi iradəsi nəticəsində uğurla irəliləyir və dönməz xarakter almışdır.

İcbari tibbi sığortanın tətbiqi və yeni səhiyyə idarəçiliyi çox qısa zamanda Azərbaycan səhiyyəsinin yeni səviyyəyə yüksəlməsini təmin edəcəkdir. Bu sahədə sosial dövlət modeli, əhalinin məmnunluğu və hər kəs üçün əlçatan səhiyyə modeli əsas götürülmüşdür. Bütün bunlarla yanaşı, səhiyyə işçilərinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması prioritet olaraq əsas götürülmüşdür.

Dünyanı cənginə alan koronavirus pandemiyası zamanı Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən digər dünya dövlətlərinə nümunə olaraq göstərilirdi. Uğurlu səhiyyə siyasəti yürüdən Azərbaycan dövləti həm öz xalqını təhlükələrdən qorudu, həm də beynəlxalq miqyasda pandemiya ilə mübarizəyə mühüm töhfələr verdi.

Bütün bu fəaliyyətin əsasında xalqa, vətənə sevgi, öz xalqının milli dəyərlərinə sadiqlik...

**Sədrlik edən.** Sağ olun. Eldar İbrahimov. Eldar müəllim, buyurun.

**E.İbrahimov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım. Hörmətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev cənablarının hakimiyyətə gəlməyindən 20 il ötür. 2003-cü ilin oktyabrında prezident seçkiləri ilə əlaqədar Azərbaycan xalqının yetişdirdiyi nadir şəxsiyyət, müstəqil Azərbaycan Respublikasının memarı, görkəmli siyasi və dövlət xadimi, ölkəmizin Prezidenti, Ümummilli Lider Heydər Əliyev xalqa ünvanlandığı müraciətdə qeyd edirdi: "Üzümü sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Qədirbilən xalqımız Ulu Öndərin bu tarixi müraciətini böyük ruh yüksəkliyi ilə qəbul edərək Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevi dəstəklədi və o, seçicilərin mütləq əksəriyyətinin səsini qazanaraq, ölkə Prezidenti seçildi.

Həmin tarixdən keçən 20 illik dövrdə cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin ideyalarına sadiqliyini nümayiş etdirərək, həqiqətən də, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı istiqamətində çox uğurlu nəticələr əldə edilməsinə nail olmuşdur.

Belə ki, keçən 20 il ərzində "Əsrin müqaviləsi"nə uyğun olaraq, Azərbaycan ərazisində hasil edilən neft və qazın xarici bazarlara çıxarılması üçün bir neçə magistral neft və qaz boruları çəkilmiş və hazırda respublikamız Avropa və digər ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında öz töhfəsini verməkdədir. Ölkəmizdə regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məşğulluğun artırılması, ərzaq təhlükəsizliyinin təmin edilməsi və bir çox digər məsələlərə dair İlham Əliyevin imzaladığı dövlət proqramları uğurla icra olunaraq yüksək nailiyyətlər əldə edilmişdir.

İlham Əliyev cənabları prezidentliyinin ilk dövrlərindən dəfələrcə bəyan etmişdir ki, bizim apardığımız siyasətin mərkəzində insan amili dayanır. Bu, keçən 20 ildə özünü əhalinin əmək haqlarının, pensiyaların, müavinət və digər ödənişlərin dəfələrcə artımında, yoxsulluğun və işsizliyin minimum həddə endirilməsində, əhalinin işıq, qaz və su ilə təminatının maksimuma yüksəlməsində, ölkənin şəhər və kəndlərində sosial və kommunal infrastrukturun müasir tələblər səviyyəsində yenidən qurulmasında aşkar göstərir. Azərbaycan brendi kimi tanınan və əhalinin məmnunluğuna səbəb olan, habelə bir çox xarici ölkələrin maraq dairəsinə düşən "ASAN xidmət", "DOST" və bu kimi digər xidmət mərkəzlərinin yaranması və fəaliyyət dairəsinin genişlənməsi Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Cənab İlham Əliyevin prezidentliyi dövründə yaşayış məntəqələrində nəhəng abadlıq və quruculuq işləri aparılıb, yol infrastrukturu tamamilə yenidən qurulub. Müasir tələblərə uyğun olaraq, respublikamızın ərazisi internet şəbəkəsi ilə əhatə olunub, kənd və şəhərlərimizin siması tamamilə dəyişərək gözəl bir diyara çevrilibdir.

Hörmətli Prezidentimizin rəhbərliyi altında respublikamızda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində əsaslı və davamlı olaraq  genişmiqyaslı tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, əhalinin ərzaq təhlükəsizliyi, əsasən, yerli istehsal hesabına təmin edilir, ölkəmiz həyata keçirilən məqsədyönlü  işlər sayəsində bölgədə turizm mərkəzinə çevrilir.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan  İlham Əliyevin 20 il müddətində həyata keçirdiyi çox uğurlu daxili və xarici siyasət nəticəsində əldə edilən bütün nailiyyətlərin zirvəsində, heç şübhəsiz ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının  30 illik erməni işğalından azad olunması və Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpası dayanır.

İlham Əliyev ata vəsiyyətinə əməl edərək Ümummilli Liderin 20 il bundan əvvəl prezident seçkiləri ilə əlaqədar xalqa müraciətində qeyd etdiyi bütün məsələləri də uğurla yerinə yetirməkdədir. Hazırda Azərbaycan xalqının hər bir vətəndaşı qürur hissi keçirir və fəxr edir ki, o, cənab İlham Əliyevin rəhbərlik etdiyi güclü Azərbaycan Respublikasında yaşayır və fəaliyyət göstərir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən təklif edirəm, bu gün fasiləsiz işləyək. Bu gün bizim xüsusi iclasımızdır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Dəstəyinizə görə çox sağ olun. İndi isə mən sözü Fəzail İbrahimliyə verirəm. Fəzail müəllim, buyurun.

**F.İbrahimli.** Hörmətli sədr, hörmətli millət vəkilləri, dəyərli mətbuat nümayəndələri! Bu gün Milli Məclisin iclası dövlət başçısının 20 illik fəaliyyətinə həsr olunub. Bu, Milli Məclis sədrinin, bütövlükdə, millət vəkillərinin cənab Prezidentə, onun fəaliyyətinə olan rəğbətinin ifadəsidir. Bu, eyni zamanda, dövlətə və dövlətçiliyimizə münasibətdir. Qələbə illəri olan 20 ilin tarixinə bir dönüşdür.

Xalqları dünyada tanıtdıran onların təbii sərvətləri, yaxud maddi-mənəvi dəyərləri deyil, dünyada gedən proseslərə, siyasətə təsir etmək imkanı olan fenomen tarixi şəxsiyyətləridir. Bu mənada müasir Azərbaycanın banisi, dünya siyasətində öz dəsti-xətti, imzası olan Heydər Əliyev məhz belə tarixi şəxsiyyətlərdəndir. Qorudu dövlətimizi bütün keşməkeşlərdən, sərt döngələrdən keçirtdi, müasir bir Azərbaycan dövləti qurdu. Ancaq Ulu Öndər bu dövlətin gələcək taleyinə biganə qala bilməzdi. Ona görə də dövlətin gələcəyinin etibarlı əllərdə olmasını düşünərək gələcəyin böyük tarixi şəxsiyyəti İlham Əliyevi yetişdirdi. 2003-cü il oktyabrın 1-də millətə müraciət etdi. Varisini elan etdi, prezidentliyə namizədliyini irəli sürdü və xalqa ümid verdi ki, İlham Əliyev mənim edə bilməyəcəklərimin hamısını davam etdirəcək. Nəhayət, 2003-cü ildə Azərbaycan xalqı öz prezidentini seçdi.

20 il bizi ayırır həmin zamandan. Nə baş verdi, nələr baş verdi, hansı uğurlar əldə etdik? Bunları görmək üçün, başa düşmək üçün mən istərdim, bir müqayisəli təhlil aparım. Qayıdaq 20 il bundan əvvəlki Azərbaycana, 2003-cü

ilin Azərbaycanına. Əhalisinin 49 faizi yoxsulluq həddində yaşayan bir məmləkət, torpağı işğal olunmuş məğlub bir Azərbaycan milləti, iqtisadi məngənədə boğulan bir Azərbaycan, dünya dövlətlərinin boy sırasında görünməyən bir Azərbaycan və sair. Qayıdırıq bu ilə. İndi necədir Azərbaycan? Dünya dövlətlərinin boy sırasında nəinki uca görünən, həm də sözü, fikri, qəti mövqeyi olan Azərbaycan. Bax, cənab Prezidentin Azərbaycan xalqına, Azərbaycan tarixinə, Azərbaycan millətinə verdiyi ən böyük uğur o oldu ki, mənim millətim, mənim dövlətim dünya dövlətlərinin boy sırasında dayana bilər.

Digər bir uğur. Azərbaycan kosmos klubunun üzvüdür, Azərbaycan dünyanın mötəbər təşkilatlarına rəhbərlik edir və sair və sair. Bütün bunlar sanki elə görünə bilərdi ki, Azərbaycan bunların hamısını bir rəvan mənəvi-psixoloji, siyasi mühitdə qazanıb. Yox, Şimaldan caynaqlar, Cənubdan mənhus baxışlar, sağdan-soldan düşmənlərin əhatəsində bunları biz edə bildik və Azərbaycan dünyaya yeni bir libasda təqdim olundu. Burada bir haşiyə çıxım.

Puşkinin "Tunc atlı" poemasında belə bir məqam var. "I Pyotr Rusiyanı tozun-torpağın içərisindən çıxarıb, dünya dövlətinə çevirdi". Bu fikri eyni ilə bizim cənab Prezidentə şamil etmək olar. Bəsitlik bataqlığında inləyən Azərbaycanı bu gün dünyanın ən yüksək səviyyəsinə qaldıra bildi və müasir bir dövlət yaratdı.

20 illik tariximizin zirvəsi 2020-ci il Vətən müharibəsindəki qələbəmizdir. Bu, zirvədir, amma tacı isə – 20 ilin tacı 2023-cü ilin sentyabrında anti-terror tədbirləridir. Biz tariximizdə tərcümeyi-halımızın ən şərəfli səhifəsi düşmən üzərində qələbəni, Zəfər Gününü hesab edirik. Məsələyə iki müstəvidə baxmaq olar. Çox sadəlövh müstəvidə. Azərbaycan gücləndi, hücum etdi, erməninin gücü

çatmadı, biz qalib gəldik, torpağımızı azad etdik. Nəticə budur. Amma biz bu işləri görən zaman hansı qüvvələrlə üz-üzə qalmışdıq? Bu cəsarət sahibi kim ola bilərdi? Kimlərlə? Dünyanı məhvərindən oynadan güc sahibləri ilə, narıncı rənglərə girən şeytan əməlləri ilə, müsəlman dünyasını qan içində boğan güclər ilə. Ən əsası isə o böyük güclərin, o canavar dövlətlərin cızdığı səviyyədən başını yuxarı qaldıran hər kəsin aqibəti dəhşət və fəlakət olardı. Səddam Hüseyn dar ağacından asıldı. Çünki başını o səviyyədən yuxarı qaldırmışdı, Qəzzafi tikə-tikə doğrandı. Çünki o səviyyədən yuxarı danışırdı. Bax, belə müdhiş, qorxunc, dünya siyasətinin belə bir iyrənc vaxtında hücuma keç və qələbə çal. Buna cəsarət lazım idi, buna hünər lazım idi. Buna ancaq millətin yolunda şəhid olmaq istəyi içindən keçən bir insanın ancaq gücü çata bilərdi. Bu, cənab Prezident oldu. Çünki ermənilərin arxasında bu güclər dayanmışdı. Bu gün Fransanın apardığı oyunlar, sancı dolub qarnına, sancıdan ölür, vurnuxur, müxtəlif yollara əl atır. Məgər o vaxt Fransa yox idi? Ona görə də İlham Əliyevin diplomatik fəaliyyəti hücum məsələsini ortalığa qoydu. Qələbə isə bizim bütün uğurlarımızı tamamladı.

Biz qələbə çalanda yenə də, bunu da demək istərdim. Yekunlaşdırıram, biz elə bildik ki, bir erməni üzərində qələbə çaldıq. Xeyr, saydığımız o güclər üzərində, xristian təəssübkeşləri üzərində qələbə çaldıq. Çünki kim idi erməni? 200 ildən artıq xristianın ağuşuna sığınıb oradan başımıza güllə və qumbara yağdıraraq ən yaxşılarımızı sıradan çıxaran öz gücündə deyildi, arxasında duran o qüvvələr idi. Biz dünya erməniliyinə qalib gəldik. Ən əsası isə ata-babalarımızın yaşadıqlarını, bizim gördüklərimizi, yaşadıqlarımızı artıq övladlarımıza ötürmədik. Bir az daha obrazlı desək, dəfn etməkdə olduğumuz “Böyük Ermənis-

tan" ideologiyasının tabutuna sonuncu mismarı vurduq. Bax, bu idi həqiqət, budur, cənab Prezidentin cəmiyyət qarşısında, dövlət qarşısında, tarix qarşısında mövqeyi, Tanrı hər bir millətə bir xilaskar verir. Cənab İlham Əliyev, təkrar edirəm, babalarımızın, atalarımızın çəkdiyini, özümüzün çəkdiyimizi övladlarımıza ötürməyə imkan vermədi. Həmişə, istər Qarabağda – Cıdır düzündə, istərsə də tədbirlərdə sonda cənab Prezident bir fikirlə qurtarır nitqini: "Qarabağ Azərbaycandır!  Amma əslində, onun arxasında ciddi bir mesaj yatır.

Alın... a, yana-yana qalın... a. Bu, Azərbaycandır, mən də Azərbaycan Respublikasının Prezidenti! Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim. İndi isə mən sözü Etibar Əliyevə verirəm. Buyurun.

**E.Əliyev**. Çox hörmətli sədrimiz Sahibə xanım, hörmətli deputatlar! Böyük şəxsiyyətlər təkcə öz millətləri, öz ölkələri üçün deyil, dünya üçün örnəklər yaradırlar. Cənab İlham Əliyev belə şəxsiyyətlərdəndir, belə liderlərdəndir. O bu illərdə az qala təkbaşına, sadiq qaldığı prinsiplərlə Makiavelli ilə dünya siyasətindən çıxdaş edilən əxlaqı yenidən siyasətin məzmununa qaytardı. Onun siyasəti öz gücünü ağlın, qəlbin, iradənin vəhdəti ilə yanaşı, həm də əxlaqdan alır. Biz buna 44 günlük Vətən müharibəsində dəfələrcə şahid olduq. Həm qarşıya qoyulan hədəflərin strateji olaraq seçildiyini göstərən əməli fəaliyyətində, həm sülh istəyən erməni xalqını erməni separatçılarından ayıran çıxışlarında, həm də bəzi Qərb mediasının təxribatçı suallarına siyasi müdrikliyin zirvəsindən verdiyi cavablarında. Sözümün bu yerində tarixi bir paralel aparmaq istəyirəm. "New York Times" qəzeti 1920-ci il 8 sentyabr sayında Atatürk haqqında dərc etdiyi məqalədə yazırdı. "Mustafa Kamalın işləri yaxşı getmir. Başlıca

istəyimiz türklərin dünya siyasət səhnəsindən bir daha geri dönməmək üzrə silinib getməsidir”.

XX əsrin əvvəllərində türk xalqına, dövlətçiliyinə yönələn bu düşmən münasibət elə XX əsrin sonundan başlayaraq Azərbaycan xalqına, dövlətçiliyinə qarşı yönəlmişdir. XX əsin əvvəlində Atatürkün türk xalqı dövlətçiliyi üçün böyük uğurla yerinə yetirdiyi missiyanı XX əsrin sonları və XXI əsrin əvvəlində Ulu Öndərimiz Heydər Əliyev və möhtərəm Prezidentimiz cənab İlham Əliyev misilsiz bir siyasi ustalıqla həyata keçirdilər.

Dünya dövlətçilik düşüncəsinə qiymətli fikirlər bəxş edən Şərq filosofu İbn Həldun yazırdı ki: “Bir dövlət başçısının varlığının səbəbi öz xalqını qorumaqdır. Bundan ötrü dövlətə vasitə kimi deyil, məqsəd kimi baxılmalıdır”. Ulu Öndərimiz Heydər Əliyevin və Prezident, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin hakimiyyətləri illərində xalqın dövlətçilik haqqındakı təsəvvürləri dəyişdi. Bu gün hər bir Azərbaycan vətəndaşı milli dövlətinin öz həyatındakı önəmini dərk edir. Qarabağın işğaldan azad olunmasında dövlət və xalq birliyi bunun əyani sübutudur.

Böyük alman filosofu Mark Şillerə görə “müharibə dövlət üçün imtahandır, dövlət imtahanıdır”. Bununla aydınlaşır ki, dövlət həqiqətənmi ümumi iradəni ifadə edir, yoxsa yalnız cəmiyyəti formal olaraq idarə edir. Filosofa görə müharibə həqiqət anıdır. 2003-cü ildən dövlətimizin başçısının iradəsi ilə xalqın iradəsi üst-üstə düşüb və bu səbəbdən regionun lider dövlətinə çevrildik. Ən böyük istəyimiz olan zəfərimizi qazandıq. 44 günlük müharibədə və lokal anti-terror əməliyyatı nəticəsində erməni barbarları üzərində tam və qəti qələbəmiz Azərbaycan tarixinin ən parlaq səhifələridir. Dövlətimiz və ordumuz dövlət imtahanından əla qiymət aldı. Allah şəhidlərimizə rəhmət

etsin, qazilərimizə Allahdan şəfa diləyirəm. Azərbaycan xalqı artıq əmindir ki, onu qoruyan milli bir dövləti və dövlət başçısı var.

Modern çağın fikir adamlarından birinin fikridir. Əksər xalqlar tarixdən heç nə öyrənmirlər, ermənilər kimi. “Böyük Ermənistan” xülyaları, türkün düşməni, vəhşi ideoloqlar, qalaq-qalaq cızma-qara kitablar makulaturaya döndü və “Dəmir yumruğ”un zərbəsi ilə cəhənnəmə vasil oldular. Doğrudan da, xalqlar bir-birlərinin tarixindən nəticə çıxarsaydılar, tarix kitabları bu qədər qalın və fərqli olmazdı. Hər bir xalq öz tarixini öz praktikasında qazandığı təcrübələr əsasında yaradır. Bu mənada Azərbaycanın yeni tarixi cənab İlham Əliyevin siyasi təcrübələrinin, möhtəşəm varislik prinsipinin, dövləti “ağlın ifadəsi” adlandıran Hegelin sözləri ilə desək, praktik iradəsinin təzühürüdür. Siyasi ağıla söykənən bu təcrübi iradədə məğlubiyyətə, tərəddüdə və təsadüfə yer yoxdur. İlham Əliyev bütün dünyada liderliyin paradiqmasını dəyişdi. Artıq ondan öyrənirlər. İlham Əliyev 2003-cü ildə xalqın adından manipulyasiyalar edənlərə bir demokratik seçki ilə siyasəti yadırğatdı.

Hörmətli xanım sədr, oktyabr ayının 10-da Heydər Əliyev Mərkəzində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan, Mixail Qusmanın müəllifi olduğu “Liderin ürəyi” sənədli filmin təqdimatı keçirildi. Filmdə Ulu Öndərimiz Heydər Əliyevin son dərəcə maraqlı bir fikri səsləndirildi. “Siyasət mürəkkəb, həm də maraqlı peşədir”. Bu mürəkkəb və maraqlı peşəni dövlətin, xalqın və Azərbaycan vətəndaşının maraqlarına yönləndirən əbədi Prezidentimiz İlham Əliyevə eşq olsun!

**Sədrlik edən.** Sağ olun. Anar İsgəndərov. Buyurun.

**A.İsgəndərov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri! Azərbaycan xalqı öz tarixində

çoxlu dövlət başçıları və hökmdarları görüb və bunların da bir çoxu xidmətlərinə görə Azərbaycanın tarixində qalıb. Mən tarixçi olaraq bu gün "İlham Əliyev Azərbaycanın dövlətçilik tarixində nə üçün zirvədir?" sualının cavabını sizinlə bölüşmək istəyirəm.

Qarabağ XVII əsrin sonlarından Azərbaycan xalqı, Azərbaycan üçün problem olub. Hətta 1796-cı ildə II Yekaterina general Zubova yazırdı: "Qarabağı al, ermənilərin sayını artır, mənim şərəfimə Çarqrad şəhərinin əsasını qoy, erməni alban dövlətini yarat". Yəni bu fikri nə üçün səsləndirirəm? Qarabağ, bir azdan məlikliklər, Qarabağ xanlığı üçün ən böyük seperatçı qüvvə həmişə Qarabağda olan ilk əvvəl məlikliklər, sonra isə gələn ermənilər oldu. Ən nəhayət, Xanlıqlar dövrü. Qarabağ xanlığı nə zaman ki, məlikliklərlə, yəni seperatçı mövqedə olan ermənilərlə sərt danışırdı, Çar Rusiyasından ordu gəlirdi. Nəhayət, Kürəkçay, Gülüstan, Türkmənçay müqavilələri. Bu müqavilələrin nəticəsində on minlərcə erməninin bu əraziyə gəlişi hər şeyi dəyişdi. Təbrizdə Köçürülmə komitəsinin rəhbəri general Lazarev ermənilərə deyirdi: "Ey böyük erməni xalqı, sizin üçün vətən tapmışıq". Bu vətən haradır? Qarabağdır, Naxçıvandır və bu gün Qərbi Azərbaycan dediyimiz ərazi. Yəni bu, həmişə problem olub.

Ən nəhayət, 1918–1920-ci illərdə Cümhuriyyət hətta Qarabağ general-qubernatorluğu yaratmış olsa da, müəyyən işlər görmüş olsa da, amma 1920-ci ilin aprel işğalı bu problemləri həll etməyə imkan vermədi. Ən nəhayət, hətta onu da qeyd edək, problem 1918–1920-ci illərdə o qədər ciddi oldu ki, 1919-cu ilin iyulunda Şuşada 20 maddədən ibarət razılıq imzalandı. Biz bu gün də o 20-ci maddədən bəzən istifadə etmirik. Nə üçün? Çünki Cümhuriyyətin qanunları qəbul olunurdu, ancaq mübahisə mübahisə kimi

qalırdı. Ən nəhayət, 1920-ci ildə Sovet Azərbaycanı və Sovet Rusiyası rəhbərliyi tərəfindən Qarabağ torpaqlarında Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması Azərbaycan tarixi üçün ən dəhşətli bir hadisə idi. Nəhayət, 1923-cü ilin iyulunda Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ilə nə zamanki Azərbaycanda hakimiyyətdə zəif idarəçi olurdu, ermənilər tərəfindən mərkəzdən tələb olunurdu, Dağlıq Qarabağ Azərbaycandan ayrılıb Ermənistana birləşdirilsin.

Nəhayət, 1990-cı illərin əvvəlləri üçün ermənilər bu imkanları tapdılar və beləliklə də, Dağlıq Qarabağ uğrunda əsl müharibə getdi. Azərbaycan bu müharibədə məğlub oldu, 20 faiz torpaq itirildi, təkcə Dağlıq Qarabağ deyil, aran Qarabağ və onun ətrafında olan torpaqlar da getdi. Yəni XVII əsrdən XX əsrin və XXI əsrin əvvəllərinə qədər Qarabağ problemi Azərbaycan tarixində yeganə problemdir ki, bütün dünya onunla maraqlanıb. Azərbaycanın tarixində ikinci bir hadisə olmayıb. Hətta neftimizlə bağlı da bu qədər mübahisə olmayıb. Amma bu torpaq həmişə mübahisə mənbəyi olub.

Ən nəhayət, İlham Əliyevin hakimiyyətə gəlişi və Azərbaycanın tarixində ilk dəfə olaraq Qarabağ Azərbaycanın tərkibinə birləşdirilib, daxil edilib və bütöv bir Azərbaycan yaranıb. Bu, təbii ki, İlham Əliyevin xidmətləridir. Ona görə də Azərbaycan tarixində nə qədər böyük hökmdarlar, böyük sərkərdələr, dövlət adamları olub, ədalət naminə onların müqayisəsini aparsaq, İlham Əliyev birmənalı olaraq zirvədədir. Ona görə də bugünkü dövlətçilik tarixində min illər də keçsə, bütöv Azərbaycan və Azərbaycanın suverenliyi nə vaxt bərpa olunub? Təbii ki, 2023-cü ildə. 1923-cü ildə Dağlıq Qarabağ yaranmışdı, 2023-cü ildə “Dağlıq Qarabağ” deyilən qurum Azərbay-

canın tarixindən silindi. Mənə belə gəlir ki, – bu il Heydər Əliyevin 100 illiyidir, – Heydər Əliyevin, yəni Ümummilli Lider Heydər Əliyevin 100 iliyinə bundan böyük bir töhfə ola bilməzdi. Bu töhfənin də qəhrəmanı birmənalı olaraq Azərbaycanın dövlət başçısı cənab İlham Əliyevdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir Mirkişili. Buyurun.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli sədr. Hörmətli həmkarlar, dayanıqlı və möhkəm dövlət quruculuğunun əsas tələbi milli inkişafın məqsəd və prioritetlərini özündə birləşdirən milli ideyanın olmasıdır. Müasir Azərbaycan dövlətçiliyinin əsas sütunu xalqın azad və güclü olmaq arzusunu özündə əks etdirən milli ideyanı güclü dövlətə çevirməyi bacaran Ulu Öndər Heydər Əliyev dühası və siyasəti olmuşdur. Bütün uğurlarımızın əsas mənbəyi bu strategiyanın və yolun uğurla davam etdirilməsi və onun genişləndirilməsi olmuşdur. “Mən Azərbaycan xalqına söz verirəm ki, Heydər Əliyev siyasətinə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm və bu siyasəti davam etdirəcəyəm”. Prezident İlham Əliyev, 2003-cü il.

Məhz bu yolun əsas davamçısı olaraq Prezident İlham Əliyevin 20 illik fəaliyyəti Azərbaycana tarixdə heç bir zaman olmayan uğurlar gətirdi. Məhz onun rəhbərliyi ilə Azərbaycan xalqı 100 illərlə arzuladığı, bu yolda böyük qurbanlar verdiyi hədəfinə nail oldu. İşğal altında olan torpaqlarımız, təhqir olunan mənəvi ocaqlarımız azad edildi. Xalqımızın qaməti dikəldi, layiq olduğu şərəfli həyata qovuşdu. O, and içərkən öpdüyü Azərbaycan Bayrağını bizim üçün dünyanın mənəvi cəhətdən ən uca nöqtəsi olan Şuşaya sancdı. Azərbaycan xalqı 2020-ci ilin 8 noyabrında yenidən doğuldu, artıq o, qalib xalqdır. Onun dövləti ən güclü dövlətdir, onun rəhbəri ən qüdrətli və ən

ağıllı rəhbərdir. Onun övladları ən böyük qəhrəmanlardır.

Hörmətli həmkarlar, cəmi bir aydan sonra Yeni Azərbaycanın 3 yaşı tamam olacaq. Yeni Azərbaycanın 3 il ərzində əldə etdiyi uğurlar və qüdrətə baxsanız, məhz tam aydın olur ki, niyə indiyə qədər Azərbaycana bu qüdrətə sahib olmaq üçün maneələr yaradıblar. Yeni Azərbaycan cəmi 24 saata məhz İlham Əliyevin rəhbərliyi ilə bütün Qarabağda bayrağımızı taxdı. Bunu təsəvvür etmək çətin deyil ki, indidən sonra Azərbaycanı və yeni Azərbaycanı hansı uğurlar gözləyir. Strateji, səbirli, uzaqgörən, soyuqqanlı, cəsarətli, humanist, xalqa arxalanan idarəetmə sistemini qurmaqla cənab İlham Əliyev bu möhtəşəm qələbəyə 2003-cü ildən başlayaraq addım-addım gələrək nail oldu. O bütün resursları Qarabağ hədəfinə yönəltməklə sonunda bütün dünyanın belə gözləmədiyi bir qələbəyə nail oldu. Azərbaycan xalqının düşmənlərinin belini qırdı, Azərbaycan Bayrağı artıq bütün Qarabağda qürurla dalğalanır.

Bu çətin və şərəfli yolda Prezident İlham Əliyevin iqtisadi siyasətinə, əldə etdiyi nəticələrə hər bir zaman hər kəs həsəd aparmışdır. Son 20 il ərzində ümumdaxili məhsulumuz 4 dəfə, büdcə gəlirlərimiz 30 dəfə, xarici sərhəd dövriyyəmiz 10 dəfədən çox artaraq inkişaf dinamikasına görə dünyada lider ölkə olmuşuq. Regionda ən çox xarici investisiya və texnologiya cəlb edən ölkəyə çevrilmişik. İqtisadi potensialımızın reallaşması qarşısında olan bütün sədlər keçirilmişdir və əsl iqtisadi müstəqilliyə nail olmuşuq. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Qars, TANAP, TAP layihələri məhz onun səyləri və fədakarlığı ilə reallaşmışdır. Vaxtı ilə regionda infrastruktur cəhətdən blokada şəraitində olan Azərbaycan indi Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizinin keçdiyi yeganə ölkədir. Uğurlu siyasət nəticəsində əldə edilən neft gəlirləri hesabına ölkəmiz-

də qeyri-neft sektorunun gücləndirilməsi, sahibkarlığın inkişafı, onun sürətli və əhatəli iqtisadi islahatının əsas hədəfi olmuşdur. Davamlı aparılan bu islahatlar nəticəsində iqtisadiyyatımızın hazırda əsas hərəkətverici qüvvəsi qeyri-neft sektorudur. Geniş şəffaflaşma prosesi, bürokratiyanın aradan qaldırılması, ədalətli rəqabətin təmin olunması iqtisadiyyatımızın dayanıqlı inkişafına böyük bir təkan vermişdir.

20 ilik prezidentliyi dövründə cənab İlham Əliyevi ən çox fərqləndirən xüsusiyyət onun öz sosial konsepsiyasını inşa etməsi, əldə olunan hər bir uğurun xalqın güzəranının daha da yaxşılaşmasına və gələcək ümidlərinin daha da artmasına sərf edilməsi oldu. Bu siyasətin nəticəsində ölkəmizdə yoxsulluq və işsizlik səviyyəsi dəfələrlə azaldı, sosial ödənişlərin həcmi dəfələrlə artdı, layiqli həyat şəraitinin səviyyəsinə görə Azərbaycan regionda bir çox ölkələri geridə qoydu.

Hörmətli həmkarlar, yeni Azərbaycan yeni hədəflərə doğru inamla irəliləyir. Dəyişən və yenidən qurulan dünyada Azərbaycanın özünəməxsus gücü, yeri, sözü vardır və bundan sonra da olacaqdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan nəticələr bir daha göstərdi ki, müdrik dövlət rəhbəri xalqın ona olan inamı və sevgisi ilə istənilən hədəfə nail olmaq mümkündür və mən inanıram ki, biz adı tariximizə qızıl hərflərlə yazılan cənab İlham Əliyevin rəhbərliyi və onun ən yaxın silahdaşı olan Mehriban xanım Əliyevanın dəstəyi ilə bundan sonra da hələ çox uğurlara imza atacaq və çox zirvələri fəth edəcəyik. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əziz Ələkbərov. Buyurun.

**Ə.Ələkbərov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, əziz media nümayəndələri! Bu gün

Milli Məclisin tarixində əlamətdar bir gündür və mən bu gün bu kürsüdən böyük həvəslə, böyük qürurla çıxış edirəm. Çünki bu gün nəinki bugünkü nəslin qürur duyduğu, gələcək nəsillərimizin də millət, dövlət və tarix qarşısındakı xidmətlərini qürurla, iftixarla öyrənəcəyi bir lider, dövlət və siyasət xadimi, Prezident, müzəffər Ali Baş Komadan İlham Əliyev haqqında danışırıq.

Hörmətli həmkarlar, siz bilirsiniz ki, millətimiz son 200 ildə saysız-hesabsız təzyiqlərə, deportasiyalara, soyqırımlara, etnik təmizləmələrə və digər cürbəcür haqsızlıqlara məruz qalıb. Torpağı olmayanlar torpağımızdan pay alıb, dövləti olmayanlar ərazimizdə dövlət qurub. Bu o demək deyil ki, son 200 ildə Azərbaycan tarixində böyük şəxsiyyətlər, dövlət adamları olmayıb. Olub, lakin bu 200 illik ədalətsiz tarixi prosesi durdurtmaq, milləti 7 başlı əjdahanın əlindən almaq onların heç birinə nəsib olmayıb. Yalnız Ulu Öndər Heydər Əliyev bu əjdahanı zəncirə vura bildi. O 7 başlı əjdahanı həmişəlik məhv etmək, bu coğrafiyada 200 il əvvəl pozulmuş dünya düzənini öz məcrasına qaytarmaq isə ancaq Prezident İlham Əliyevə nəsib oldu.

44 günlük müharibədən 3 il keçib. Lakin Ermənistanın siyasi rəhbərliyi, dünya erməniliyi, onların havadarları 3 ildir özlərinə gələ bilmirlər. 3 il əvvəl baş verən müharibənin şokundan hələ də çıxa bilmirlər. 3 ildir fikirləşirlər ki, 44 gün ərzində bu hadisələr necə baş verdi. Nəhayət, cənab Prezident "nəyi, nə vaxt, necə etmək lazım olduğunu mən bilirəm" deməklə onlara ip ucu verdi, yenə başa düşmədilər. Onları başa salmaq üçün bizə daha 23 saat 43 dəqiqə vaxt lazım oldu. Cənab Prezident 3 il əvvəlki tarixi zəfərimizlə təkcə bu gün sayı 1,5 milyona çatan məcburi köçkünlərimizin deyil, təkcə 10 milyonluq Azərbaycan xalqının deyil, 60 milyonluq dünya azərbaycanlılarının və

bütün türk dünyasının ürəyində özünə əbədi taxt qurdu.

Zəfərin ikinci ili son 200 ildə öz doğma yurdlarından qovulmuş soydaşlarımızın Qərbi Azərbaycana qayıdış ideyasına siyasi və mənəvi dəstək verməklə isə tarixi proseslərin arxasınca gedən deyil, tarixi proseslərə istiqamət verən və onları öz məcrasına geri qaytaran, tarixdə yaşayan deyil, tarix yaradan bir lider olduğunu bir daha sübut etdi. Geriyə baxıram, 100 il əvvəl yaşayanlara həsəd aparmıram. Çünki onlar Azərbaycanın bu şanlı tarixindən xəbərsiz dünyadan köçüblər. 100 il qabağa baxıram, 100 il sonra yaşayacaqlara da həsəd aparmıram. Çünki onlar da Azərbaycanın bugünkü şanlı tarixini ancaq kitablardan oxuyacaqlar. Dönüb bu günümüzə baxıram, bir daha qürur hissi keçirirəm ki, 30 il həsrətində olduğumuz Qarabağımıza, Şərqi Zəngəzurumuza qovuşmuşuq və artıq yolumuz tarixi torpaqlarımıza, Qərbi Zəngəzura, Göyçəyə, İrəvana və bütün Qərbi Azərbaycanadır. İlham Əliyev haqqında Ulu Öndər Heydər Əliyev vaxtı ilə "mən ona özüm qədər inanıram" demişdi. Bu gün bütün millət İlham Əliyevə özü qədər inanır və onunla birgə addımlayır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**C.Məmmədov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar! 1990-cı illərin əvvəllərində yenidən müstəqilliyini bərpa edən Azərbaycan yenə ciddi sınaqlar ilə üz-üzə qalmışdı. Ölkəmizin üstündə yenə qara buludlar əsirdi. Azərbaycan vətəndaş müharibəsinin astanasında idi. Cənub və şimal bölgəsində seperatizm tüğyan edir, torpaqlarımız ard-arda işğal olunurdu. Artıq ermənilər Beyləqanı və kəndlərini işğal etməyə başlamışdılar. Həmin dövrdə Azərbaycanın uçurumun kənarında olduğunu dərk edən insanlara dediyi bir söz var idi, ölkəni bu ağır

durumdan, faciədən yalnız bir şəxs Heydər Əliyev xilas edə bilər. Həqiqətən də, elə oldu. Onun rəhbərliyi ilə Azərbaycan bir çox bəla və təhdidlərdən xilas oldu. O vaxt Azərbaycanı Heydər Əliyevsiz təsəvvür etmək çətin idi. Həmin dövrdə Heydər Əliyev hakimiyyət sükanının arxasına keçməsə, bu gün bəlkə də dünyada Azərbaycan adlı dövlət yox idi.

2000-ci illərin əvvəllərində yenə də Azərbaycan cəmiyyəti narahat idi. Ulu Öndər Heydər Əliyevdən sonra kim idarə edəcək, Ulu Öndərin başlatdığı işləri kim davam etdirəcək, ölkənin gələcəyi necə olacaq sualları dövlətin taleyini və gələcəyini düşünən hər kəsi ciddi narahat edirdi. Həmin ağır dövrdə hakimiyyət sükanının arxasına Ulu Öndər Heydər Əliyevin ən layiqli davamçısı İlham Əliyev keçərək Heydər Əliyevin ideya və amallarını böyük uzaqgörənlik və müdrikliklə davam etdirdi.

Ulu Öndərin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də İlham Əliyev kimi tarixi şəxsiyyəti yetişdirməsi və Azərbaycan xalqına bəxş edilməsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qısa müddətdə yeni inkişaf mərhələsinə daxil oldu, ölkə iqtisadiyyatı inkişaf etdi, ordu quruculuğu daha da gücləndirildi. Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri Qarabağın işğaldan azad olunması idi. 2020-ci ildə Qarabağ fatehi Ali Baş Komandan İlham Əliyevin güclü iradəsi və qətiyyəti nəticəsində Ulu Öndərin bu arzusu da həyata keçdi. Torpaqlarımız işğaldan azad olundu. Biz məğlub xalqdan qalib xalqa çevrildik.

Məhz İlham Əliyevin yaratdığı yeni reallıq nəticəsində bu gün Azərbaycan xalqı gələcəyə nikbin baxa bilir. Dünyada ölkəmizə diqqət, inam və etimad daha da artıb. Bu gün işğaldan azad olunmuş ərazilər məhz onun bilavasitə

diqqət və qayğısı, birbaşa nəzarəti ilə yenidən qurulur və bərpa olunur. Yeni bina, məktəb, bağça, xəstəxana və məscidlər inşa olunur. Təhsilimizin inkişafı, milli mənəvi dəyərlərimizin qorunması üçün çox ciddi addımlar atılır. Heç şübhəsiz ki, qarşıda bizi hələ daha böyük işlər və qələbələr gözləyir. Bu gün əsas hədəflərdən biri Zəngəzur dəhlizinin ən qısa vaxtda açılmasıdır. Biz əminik ki, cənab Prezidentin rəhbərliyi, qətiyyətli siyasəti nəticəsində Zəngəzur dəhlizinin açılacağı gün də uzaqda deyil. Bu gün atılan bütün müdrik və uzaqgörən addımların bir hissəsi ona hesablanıb. Bu işdə möhtərəm Prezidentimizə yeni uğurlar arzulayıram.

Sonda şəhid ailələrinin və qazilərin bir israrlı arzu və təklifini diqqətə çatdırmaq istəyirəm. Onların israrlı arzusu ondan ibarətdir ki, xüsusi bir ad təsis olunsun və ya mükafat olsun və cənab Prezidentin təltif olunması bu mənada xüsusi əhəmiyyət daşıyır. Allah Prezidentimizi qorusun!

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli. Buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Xalqları dünyada məşhurlaşdıran təkcə onların zəngin təbii sərvətləri və maddi, mədəniyyət inciləri deyil, Fəzail müəllimin qeyd etdiyi kimi, həm də dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətləridir. Məhz bu fenomen şəxsiyyətlərin müəyyənləşdirdiyi yol hər bir millətin strateji inkişaf konsepsiyasına çevrilməklə onun dünya arenasında özünə layiqli yer tutmasını təmin edir. Belə nadir şəxsiyyətlərdən birini də müasir müstəqil Azərbaycan dövlətinin banisi, Ulu Öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra çoxşaxəli islahatların varisliyini uğurla təmin edə biləcək peşəkar lider də yetişdirdi. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi sis-

temində özünəməxsus yeri ilə seçilir. Onunla hesablaşırlar, ona hörmət və ehtiramla yanaşırlar.

Prezident İlham Əliyevin ölkəmizin müstəqillik dəyərlərini möhkəmləndirməklə bağlı fəaliyyəti daha çox xarici siyasətdə özünü göstərdi. Xarici siyasət kursunda tarazlaşdırılmış konsepsiyaya üstünlük verən İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı, ölkəmizin dostlarının sayı çoxaldı, bizimlə müttəfiqlik etmək istəyən ölkələrin sırasına yeniləri əlavə olundu. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanındı və qəbul edildi. İlham Əliyevin müəyyənləşdirdiyi hücum diplomatiyası nəticəsində erməni tabliğatı və erməni lobbisinin yaratdığı mif darmadağın edildi. Beynəlxalq təşkilatların diqqəti bu problemə yönəldi. Dağlıq Qarabağ probleminin mahiyyəti, Azərbaycan haqqında həqiqətlər bütün dünyaya yayıldı və beynəlxalq ictimai rəy Azərbaycanın xeyrinə dəyişdi. Dünya birliyi Xocalı soyqırımını tanımağa və pisləməyə başladı.

İlham Əliyev atasının yolu ilə addımlayaraq və uca şəxsiyyətin yarımçıq olan taleyüklü işlərini, planlarını gerçəkləşdirərək Azərbaycan xalqı, dövləti adına misilsiz tarixi qələbələr qazandı.

Ötən 20 illik dövrə qısa nəzər saldıqda belə bir möhtəşəm xronika ilə üzləşirik.

Birinci, Azərbaycanda ictimai-siyasi, sosial-iqtisadi, mədəni, ümumiyyətlə, bütün sahələr üzrə böyük tərəqqi və inkişaf yaşanıb, respublikamız Cənubi Qafqazın lider ölkəsinə çevrilib.

İkinci, ölkəmiz qlobal miqyaslı məsələlərin, problemlərin həlli ilə bağlı müzakirələrin, dialoqların aparıldığı nadir ünvan kimi beynəlxalq aləmə səs salıb.

Üçüncü, respublikamız dünyanın enerji qovşağına, yol qovşağına çevrilib.

Dördüncü, ərazisi işğal altında olan ölkədən zəfər ölkəsinə, məğlub xalqdan qalib xalqa çevrilib. Əhsən Sizə, cənab İlham Əliyev!

Beşinci, torpaqlarımız 30 illik əsarətdən qurtulub. Ərazi bütövlüyümüz, suverenliyimiz təmin olunub. Afərin, cənab Prezident!

Altıncı, sərsəm erməni millətçilərinin Qarabağda yaratdıqları quldur yuvası dağıdılıb, torpaqlarımızda 2 əsrlik erməni layihəsi iflasa uğrayıb. Halal olsun Sizə, cənab Prezident, cənab Ali Baş Komandan!

100 minlərcə insanımızın yurd həsrəti bitib, cənnətməkan Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdış gerçəkləşir. Cənab İlham Əliyev siyasi kursu daxili və xarici diplomatiyanı necə reallaşdırdısa, cəmi 20 ildə adını dünyada islahatçı Prezident, etibarlı tərəfdaş, sözünə və vədinə sadiq barışdırıcı lider, ən arzuolunan dövlət başçısı, qlobal miqyaslı layihələrin müəllifi və müzəffər Ali Baş Komandan kimi tanıtmağa müvəffəq oldu. Ötən illər həm də onu göstərir ki, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində dövlətin və xalqın maraqlarını ən ali məqsəd kimi görən liderdir.

Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu enerji dipliomatiyasını uğurla davam etdirən cənab İlham Əliyev müxtəlif obyektiv və subyektiv çətinliklərin öhdəsindən məharətlə gələrək möhtəşəm qlobal layihələri reallaşdırdı. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum kimi nəhəng neft və qaz kəmərləri, Cənub Qaz Dəhlizi, Bakı–Tbilisi–Qars dəmir yolu və İpək yolu layihələri Azərbaycanın nüfuzunu artırdı. Açıq dənizə çıxışı olmayan bir ölkənin 6 ilə Qara dənizdən Avropaya enerji xətti çəkmək niyyəti isə dünyada İlham Əliyevi həm də qlobal layihələrin müəllifi

kimi tanıtdı. Şərq–Qərb, Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olmaqla, həm də Cənub–Qərb və Şimal–Qərb layihələri üzərində də iş aparan Azərbaycan bu gün Avrasiyada enerji körpüləri yaradır. Bu gün Prezident İlham Əliyevin qüdrəti...

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. İlk növbədə, xanım sədr, cənab Prezidentin ilk dəfə prezident seçilməsinin 20 illiyi ilə əlaqədar belə bir mötəbər tədbiri keçirdiyinizə, təşkil etdiyinizə görə Sizə öz dərin təşəkkürümü bildirərəm. Fəxr edirəm ki, həm 2003-cü ildə, həm 2008-ci ildə, həm 2013-cü ildə, həm də 2018-ci ildə cənab Prezidentin səlahiyyətli nümayəndəsi olmuşam, bütün proseslərdə onu təmsil etmişəm.

Cənab Prezidentin prezidentlik dövründə, ondan əvvəlki dövrlər də çox hamar getməyibdir. İndi burada həmkarlarım çıxış etdilər, fikirlərini çatdırdılar. Azərbaycanın tarixinə bir nəzər salsaq, Heydər Əliyevin oğlu olmaq həm şərəflidir, həm də məsuliyyətlidir. Heydər Əliyev kimi dahi bir şəxsiyyətdən sonra prezident seçilmək daha məsuliyyətlidir. Onun yolu necə davam olunur, bu gün hansı nailiyyətlər əldə olunur, biz onun hamısının şahidiyik. Biz cənab Prezidentə qarşı olan haqsızlıqların çoxunun şahidiyik. Hətta Moskvadan başlamış Bakıya, Naxçıvana qədər Heydər Əliyevə qarşı Qorbaçov və ətrafında olan ermənilərin ən ağır zərbələrini cənab Prezident alıbdır. İşdən çıxarılıbdır. Naxçıvana gedəndə bir neçə dəfə mən o vaxt cənab Prezidenti müşahidə etmişəm. Həm 1992-ci ildə, həm də 1993-cü illərdə. Demokratiya qırıntıları cənab Prezidentin Naxçıvana getməsinin qarşısını alırdılar. Nədir ki, Heydər Əliyevin oğludur. Naxçıvana gedə

bilməz, atası ilə görüşə bilməzdi. O cür ağrılı və əziyyətli proseslərdən keçibdir.

Cənab Prezident 5 dövlət çevrilişinə cəhdin qarşısının alınmasında Ümummilli Liderlə çiyin-çiyinə olubdur. Naxçıvanda dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında, 1994-cü ildə, 1995-ci ildə, 2003-cü ildə və 2005-ci ildə Bakıda cənab Prezidentə qarşı çevriliş cəhdləri. 2003-cü il seçkiləri burada hamının yadına gəlir, seçkidən sonra AXC və Müsavat dəstəsi töküldü Azadlıq meydanına. Şüşələri sındırırdılar, maşınları əzirdilər, insanlara əzab verirdilər, polisə xəsarət yetirirdilər. Bir çevriliş hazırlamaq istəyirdilər. Cənab Prezidentin qətiyyəti nəticəsində hamısı, demək olar ki, aradan qalxdı və bu proseslər davam oldu.

2005-ci ildə parlament seçkilərində tökülüşmüşdülər. Azərbaycanda işləyən nazirlər, cənab Prezidentin çörəyini yeyən Prezident Aparatının şöbə müdirləri və digər şəxslər burada, Azərbaycanda çevriliş etmək istəyirdilər. Yenə cənab Prezidentin qətiyyəti nəticəsində bu çevrilişlərin qarşısı alındı.

Ondan sonrakı dövrlərə biz baxsaq, rəngli inqilablar, qızılgül inqilabı və axırıncı da "milyonerlər ittifaqı". Yenə cənab Prezidentə qarşı hücuma keçdilər. Cənab Prezident bunların da qarşısını aldı. Yəni bu dövrə nəzər salsaq, görərik ki, tək prezidentliklə deyil, eyni zamanda, Azərbaycana qarşı təxribat aparanların da qarşısını cənab Prezident aldı. Nəticə də qələbə ilə başa çatdı ki, Azərbaycanın 200 ildən artıq olan bir problemini həll elədi. Bugünkü filmdə də göstərildi, Ulu Öndərə hesabat verəndə də dedi ki, tapşırıqların yerinə yetirildi, Ulu Öndər. Demək olar ki, görülən işlərin hamısı Ulu Öndərin siyasi xətti idi, Ulu Öndərin apardığı iş idi.

Bir şeyi də qeyd etmək istəyirəm. 1920-ci ildən bu tərəfə Azərbaycanda olan heç bir prezident Heydər Əliyevdən və İlham Əliyevdən başqa xalqın lideri hesab olunmayıb. Xalqın Ümummilli Lideri Heydər Əliyev olubdur, xalqın, Azərbaycan xalqının lideri İlham Əliyevdir. Bu gün də xalqımıza liderlik edir.

Bir fikri də qeyd etmək istəyirəm. Bu günə qədər Cənubi Azərbaycanda heç bir prezidentin şəkili qaldırılmayıbdır İlham Əliyevdən başqa. Bu gün Cənubi Azərbaycanda mitinqə çıxanlar cənab Prezidentin şəkilini daşıyır və özünün prezidenti hesab edirlər.

Eşq olsun İlham Əliyevə! Allah ona can sağlığı versin və bizim hamımız da onun arxasında dayanmışıq. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Könül Nurullayeva.

**K.Nurullayeva.** Əgər mümkünsə, icazənizlə, öz yerimi dəyərli həmkarım, Ağsaqqallar Şurasının sədri cənab Eldar Quliyevə vermək istərdim.

**Sədrlik edən.** Sağ olun. Bu gün xüsusi iclasdır. Olar. Eldar müəllim, buyurun.

**E.Quliyev.** 2003-cü ildə növbəti prezident seçkilərində Ümummilli Liderimiz Heydər Əliyev xalqa müraciət edərək, “mən İlhama özüm qədər inanıram və onu dəstəkləməyi sizə tövsiyə edirəm” dedi. Xalqımız İlham Əliyevi seçdi və öz seçimində yanılmadı. Cənab İlham Əliyev ölkəyə rəhbərliyə başladığı ilk gündən Ümummilli Liderimizin layiqli davamçısı olduğunu sübut etdi. O, Heydər Əliyevin təməlini qoyduğu islahatları uğurla davam etdirdi və onu daha da dərinləşdirdi. Onun təşəbbüsü ilə hazırlanan və beşillikləri əhatə edən regionların inkişafına dair dövlət proqramları yeni iş yerləri yaradılmasına, yoxsulluq səviyyəsinin aşağı salınmasına, xalqın rifah halının yax-

şılaşdırılmasına təkan verdi. Bu illər ərzində aqrar sektor, təhsil, səhiyyə, mədəniyyət və həyatın digər sahələrinin heç biri ölkə Prezidentinin diqqətindən kənarda qalmadı. Həyata keçirilən düşünülmüş siyasətin məntiqi nəticəsi olaraq iqtisadiyyatın ardıcıl olaraq ilbəil yüksək sürətlə inkişafı öz bəhrəsini verdi. Təsadüfi deyildir ki, bu artım, sürətli inkişaf dünya dövlətlərini maraqlandırdı və "iqtisadiyyatın Azərbaycan modeli" adı ilə məşhurlaşdı.

Azərbaycana rəhbərliyinin 20 ili tamam olan İlham Əliyevin ölkəmiz qarşısında əvəzedilməz xidmətləri vardır. Bu xidmətlər içərisində torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün bərpa olunması tarixi bir xidmətdir. Cənab Prezident münaqişənin sülh yolu ilə həllinə ciddi səy göstərməklə yanaşı, hərbə hazırlıq ehtimalını da həmişə diqqətdə saxlamışdır. Bu məqsədlə ordumuzun hərbi qüdrəti artırılmış, onun hərtərəfli təminatı həyata keçirilmiş, bacarıqlı və vətənpərvər hərbi kadrlar yetişdirilmişdir. Bunları Ali Baş Komandan kimi özünün prioritet vəzifəsi hesab etmişdir. Ermənistan rəhbərləri ilə, beynəlxalq vasitəçilərlə keçirdiyi çoxsaylı görüşlərdə möhtərəm Prezidentimiz işğal olunmuş rayonların qaytarılmasını, işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılmasını qətiyyətlə tələb edirdi. Lakin beynəlxalq təşkilatlar tərəfindən heç bir təzyiq görməyən separatçılar nəinki bu tələbləri nəzərə almadı, üstəlik müntəzəm olaraq təxribatlar törətməyə davam edirdilər. Növbəti belə bir təxribat ölkə Prezidentinin səbr kasasını daşırmış və "nəyi necə və nə vaxt eləməyi mən yaxşı bilirəm" deyən Ali Baş Komandanımız münasib vaxt, yəni 2020-ci il sentyabrın 27-də işğalçılara qarşı hərbi əməliyyata başladı və silahlı qüvvələrimizə əmr verdi. Müzəffər ordumuz cəmi 44 gün ərzində erməni silahlı qüvvələrini darmadağın etdi, onların

çoxsaylı canlı qüvvəsini və hərbi texnikasını məhv etdi. Ermənistan rəhbərliyi noyabrın 10-da təslim aktına imza atdı. Azərbaycan Ordusu 30 il müddətində BMT-nin icra olunmamış 4 qətnaməsini öz gücü ilə 44 günə yerinə yetirdi. İşğal altında olan şəhər, rayon və kəndlərimiz işğaldan azad olundu və ərazi bütövlüyümüz tam təmin olundu.

Növbəti dəfə 2023-cü il sentyabrın 19-da Ali Baş Komandanın əmri ilə lokal xarakterli antiterror əməliyyatına başlayan silahlı qüvvələrimiz 24 saatdan da az müddətdə qanunsuzluqlara son qoydu, separatçılar özlərinin qondarma idarəetmə qurumlarını buraxdılar, qanunsuz hərbi birləşmələr silahlarını təhvil verərək Azərbaycan ərazisini tərk etməyə məcbur oldular.

Beləliklə, İlham Əliyevin müdrik siyasəti, möhkəm iradəsi, qətiyyətli tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü tam bərpa olundu. Azərbaycana rəhbərliyinin 20-ci ilində cənab İlham Əliyev işğalçı dövlət üzərində möhtəşəm qələbəni qeyd edərək öz adını tarixə qızıl hərflərlə həkk etdirdi. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar İsgəndərov. Buyurun.

**V.İsgəndərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Müstəqillik tariximizin ən önəmli hadisələrindən biri məhz 2003-cü ildə keçirilən prezident seçkiləridir. Çünki bu tarixdə xalq Ulu Öndərin siyasi kursunu davam etdirəcək yeni liderə ölkənin gələcək taleyini həvalə edəcəkdi. Nə yaxşı ki xalq öz doğru sözünü dedi və İlham Əliyev seçicilərin 76 faizdən çoxunun səsini qazanmaqla bugünkü qələbələrimizin bünövrəsini qoydu.

Ölkəmiz harada və hansı sahədə uğur qazanmadı? Bütün sahədə, hər işdə uğur qazandıq. Bütün xalq öz çiynini liderinə söykəyib, sakit və məmnundur. Çünki hamı deyir: “o nə edirsə düz edir, doğru edir”. Nəhəng siyasətçilər onu

heyrətlə izləyir. Artıq bütün dünya bu siyasət qrosmestrini tanıyır və hörmət edir.

Bu uğur və nailiyyətlərin qazanılmasında cənab İlham Əliyevin arkadaşı və dəstəkçisi xanım Mehriban Əliyevanın xidmətləri misilsiz və çox qiymətlidir. Mehriban xanım Əliyeva ölkəmizin humanitar, sosial, mədəni inkişafında cənab Prezidentimizin siyasətinin böyük dəstəkçisidir.

İlham Əliyev tariximizə müzəffər sərkərdə kimi də həkk olundu. O, tarix yazdı və yazır. Qurucudur, yeni çağırışlara uyğun yeni ölkə qurur. Xalq olaraq, siyasətçi olaraq öz fəaliyyətimizi cənab Prezidentin bu uğurlu siyasətinin yanında, arxasında sipər kimi dayanmaq şərəfli borcumuzdur. Diqqətiniz üçün minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov. Buyurun.

**A.Hüseynov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qarşıdan xalqımız və dövlətçiliyimiz üçün böyük əhəmiyyət kəsb edən tarixi hadisə – 15 oktyabr cənab İlham Əliyevin ilk dəfə Prezident seçilməsinin 20-ci ildönümü gəlir.

Azərbaycan xalqı 2003-cü ildə cənab İlham Əliyevə səs verməklə Ulu Öndərimiz Heydər Əliyev siyasi kursunun davamına, inkişaf və tərəqqinin etibarlı şəkildə təmin edilməsinə dəstək verdi. Çünki dahi şəxsiyyət Azərbaycan xalqına müraciət edəndə tam əmin idi ki, müstəqil Azərbaycanın işıqlı gələcəyi üçün müəyyənləşdirdiyi inkişaf konsepsiyasını məhz İlham Əliyev uğurla davam etdirəcək. Bu, təsadüfi deyildi. Bu inam atanın öz övladına inamı ilə yanaşı, Azərbaycan cəmiyyətində də, beynəlxalq auditoriyada da özünü tam təsdiq etmiş, cəsarəti, qətiyyətli siyasətçiyə və bacarıqlı, təşəbbüskar bir dövlət xadimi İlham Əliyevə olan inam idi.

Biz bütün bu proseslərdə daim Ulu Öndərimizin yanında cənab Prezidentimizi görmüşdük. Yanvar hadisələrində Moskvada, Ulu Öndərimiz Naxçıvanda olduğu dövrdə cənab Prezidentimiz Ulu Öndərimizlə birgə fəaliyyət göstərdi və Yeni Azərbaycan Partiyasının qurulmasında, təşkilatlanmasında çox böyük rol oynadı. Sonrakı proseslərdə Ulu Öndərimiz Bakıda ikinci dəfə siyasi hakimiyyətdə təmsil olunduqda yenə cənab İlham Əliyev Ulu Öndərimizlə birgə fəaliyyət göstərdi. Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olaraq Heydər Əliyevin neft diplomatiyasının, neft strategiyasının həyata keçməsində çox önəmli rol oynadı. Milli Olimpiya Komitəsinin sədri vəzifəsində çalışaraq Azərbaycanı dünyada idman ölkəsi kimi tanıtdı. Milli Məclisin deputatı olaraq Azərbaycanda qanunvericiliklə bağlı, eyni zamanda, Avropa Şurası Parlament Assambleyasının sədr müavini olaraq beynəlxalq auditoriyada özünü tam təsdiq etdi.

Yeni Azərbaycan Partiyasının sədr müavini olaraq. O dövrdə Yeni Azərbaycan Partiyasına gələn insanların tam əksəriyyəti Prezident İlham Əliyevin, yəni cənab Prezidentimizin partiyada təmsil olduğuna görə məhz Yeni Azərbaycan Partiyasına gəldiklərini öz ərizələrində yazırdılar. Partiyanızın nüfuz qazanmasında çox böyük rolu oldu.

Ən nəhayət, xalq kimə səs verdi? Ən nəhayət, xalq Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevə səs verdi.

Mən hörmətli xanım sədrin nitqinə bayaq çox diqqətlə qulaq asdım. Nitq ölkə Prezidentinin fəaliyyəti ilə bağlı bütün geniş və əhatəli çıxış idi. Oradakı fikirlər təkrar olunmasın deyə, mən bəzi fikirlərimi bölüşmək istərdim.

Məlumdur ki, cənab Prezidentimiz Qaradağ rayonundan 1995-ci ildə millət vəkili seçilmişdi və Qaradağ

rayonunun millət vəkili seçildiyi ərəfədə seçiciləri ilə görüşündə ölkə Prezidenti cənab Heydər Əliyevin siyasətinin mahiyyətindən, eləcə də ölkənin gələcək prespektivlərindən söhbət açırdı. Eyni zamanda, iqtisadi nailiyyətlərimizlə bağlı rəqəmlər səsləndirdi ki, bizim gələcək gəlirlərimiz milyardlarla hesablanacaq. Ancaq o dövrdə mətbuatda indi qulağını kəsmək istəyənlər kimi, digərləri də buna çox ironiya ilə yanaşırdı və bu rəqəmləri tamamilə absurd adlandırırdılar. Ancaq indi o rəqəmləri mən səsləndirəcəyəm.

Əgər 1995-ci ildə Azərbaycan dövlət büdcəsinin gəlirləri 279 milyon manat idisə, indi, 2023-cü ildə 35,8 milyard manatdır. Çünki onda Azərbaycan iqtisadiyyatında milyard ifadəsi işlənmirdi, milyardlarla ölçülən rəqəmlər yox idi. İndi büdcəmiz milyardlarla ölçülür. Valyuta ehtiyatlarımız 150 milyon manat idisə, indi valyuta ehtiyatlarımız 68 milyard manatı keçib. Ümumi daxili məhsulumuz 134 milyard manatı keçib. Ən nəhayət, cənab Prezidentin təşəbbüsü ilə Qaradağ rayonunda o dövrdə Ümid qəsəbəsi salındı. O Ümid qəsəbəsi ki oradakı insanlar ümidlə yaşayırdı. Bu ümid indi doğruldu. Həmin qəsəbədən insanlar Laçına, Füzuliyə, Zəngilana köçürlər.

**Sədrlik edən.** Sağ olun. Jalə Əliyeva. Buyurun.

**J.Əliyeva.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media mənsubları. Mən öncəliklə hörmətli xanım sədr, Sizə bu əhəmiyyətli və anlamlı iclası təşkil etdiyiniz üçün minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan xalqının taleyində böyük əhəmiyyət kəsb edən elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən önəmli başlanğıcların əsası qoyulub. Belə mühüm günlərdən biri də oktyabrın 15-nə təsadüf edir. 15 oktyabr xilaskar Prezident, müzəffər Ali

Baş Komandan, yenilməz sərkərdə İlham Heydər oğlu Əliyevin xalqın yekdil qərarı ilə Prezident seçildiyi gündür.

Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə onun layiqli varisini dəstəkləyərək özünə yeni prezident seçdi. Prezident İlham Əliyev xalqa ilk müraciətində: "Mən hər bir azərbaycanlının prezidenti olacağam". – demişdi. Bu illər ərzində o, verdiyi sözə əməl etdi, hər bir azərbaycanlı üçün, sadəcə, prezident deyil, yaxşı prezident olmağı bacardı. Bu gün həmin ifadənin həqiqətə çevrildiyi tarixə şahidlik etmək bizlərə yalnız qürur hissləri yaşadır.

Prezident İlham Əliyev öz varlığı ilə, əməlləri ilə ötən 20 ildə əsrə bərabər möhtəşəm bir tarixə imza atıb. Bu möhtəşəm tarixin yazarı da, müəllifi də, yaradıcısı da İlham Əliyevdir.

Ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı görünməmiş dərəcədə artdı. Məhz buna görə də 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində də yenidən inamlı qələbə qazandı.

Yeri gəlmişkən, həmin illərdə ardı-ardına cənab Prezidentin təbliğat-təşviqat qrupunun üzvü kimi şərəfli bir missiyanı daşıdığım üçün böyük bir qürur hissi keçirdiyimi bildirmək istəyirəm.

Ötən 20 ilin zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş şanlı Vətən müharibəsi dayanır. Məhz onun rəhbərliyi ilə qazanılmış möhtəşəm Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı.

Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu qələbə sayəsində regionda yeni reallıqlar yarandı.

Əlbəttə, Vətən müharibəsində qazanılmış qələbə həm də ölkəmizdə həyatın bütün sahələrində Prezident İlham Əliyevin rəhbərliyi altında əldə olunmuş böyük uğurlarla, nəhəng quruculuq işləri, dinamik inkişafla bilavasitə bağlıdır. Özünün də çox haqlı olaraq vurğuladığı kimi, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb.

Ölkə və xalq olaraq əldə etdiyimiz uğurların təməlində ölkədə məhz onun gərgin əməyi sayəsində yaranan sağlam ictimai-siyasi mühit, nail olduğumuz xalqla iqtidar birliyi dayanır. Bu illər ərzində Azərbaycan xalqı hər zaman öz liderinə – Prezidentinə güvəndi və inandı. Xalq onu sevir. Xalq öz Prezidentinin arxasındadır.

Əminik ki, bu qarşılıqlı inamla ən böyük silahdaşı olan xanım Mehriban Əliyeva ilə birlikdə irəlilədikləri işıqlı və uğurlu yolda Azərbaycanımızı bundan sonra da öz arxasınca daim zəfərlərə, zirvələrə aparacaqdır.

Tanrı Sizi qorusun, xilaskar Prezidentim, müzəffər Ali Baş Komandanım, yenilməz sərkərdəm! Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan iqtisadiyyatı müstəqillik dövründə 3 fərqli mərhələdən keçib. 1992-ci və 1993-cü illərdə iqtisadiyyatda müşahidə edilən tənəzzül və tənəzzülün daha da dərinləşməsi. Ümummilli Liderimiz hakimiyyətə yenidən qayıtdıqdan sonra tənəzzülün qarşısının alınması və stabillik dövrü ilə əvəz olundu.

2003-cü ildə cənab Prezidentin prezident seçkilərində qalib gəlməsindən sonra Azərbaycan iqtisadiyyatı iqtisadi

artım və sürətli iqtisadi artım mərhələsinə qədəm qoydu.

Hörmətli xanım sədr, Siz çıxışınızda iqtisadi məsələləri çox ətraflı olaraq təqdim etdiniz. Mən müstəqil iqtisadçı olaraq müqayisəvi şəkildə bir sıra uğurlarımızı və bu illərdə, bu dövrdə əldə edilən nəticələri qeyd etmək istərdim.

Azərbaycan xarici borcun ümumi daxili məhsuldakı payına görə dünyada ən yaxşı onluqdadır, yəni ən yaxşı 10 ölkədən biridir. Eyni zamanda, Azərbaycan dünyada azsaylı ölkələrdən biridir ki, onun xarici rezervləri, valyuta rezervləri ümumi daxili məhsulundan daha çoxdur. Məhz bu, cənab Prezidentin rəhbərliyi ilə son 20 ildə Azərbaycan iqtisadiyyatı üçün təhlükəsizlik yastığının formalaşması və xarici faktorların Azərbaycan iqtisadiyyatına təsirlərin preventiv olaraq minimallaşdırılması ilə bağlı aparılan siyasətin nəticəsidir. Azərbaycan ümumi daxili məhsulun həcminə görə MDB-də ilk üçlükdədir. Eyni zamanda, Azərbaycan MDB-də minimum əmək haqqının səviyyəsinə görə ilk yerdədir. Təbii, bütün bunlar ondan xəbər verir ki, iqtisadi gücümüz həm də sosial sahədə, sosial təminat və bütövlükdə, bu istiqamətdə tədbirlərin daha da dərinləşməsinə və vətəndaşlarımızın sosial təminatının daha yaxından qorunmasına imkan verir.

Təbii ki, iqtisadi gücümüz həm də Azərbaycanın hərbi potensialın gücləndirilməsinə imkan verdi. Nəticədə cənab Prezidentin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunması və çox qısa zamanda bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi Azərbaycanın gücünün və Azərbaycanın cənab Prezidentin rəhbərliyi ilə əldə etdiyi uğurların nəticəsidir.

Yalnız son 3 ildə Qarabağ və Şərqi Zəngəzurun bərpasına dövlət büdcəsindən 12 milyard manat vəsait ayrılıb. Bu, təbii ki, Azərbaycanın gücünü göstərir. Azərbaycanın

Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidən qurulmasına ayırdığı vəsait və eyni zamanda, milli təhlükəsizliyimizlə bağlı büdcədə nəzərdə tutulan vəsaitin həcmi ümumi büdcə gəlirlərinin təxminən dörddə birini təşkil edir.

Bütün bunlara rəğmən, həm də Azərbaycan büdcə xərclərinin 45 faizindən çoxunu sosial istiqamətə yönəldir və sosial dövlət olaraq bu istiqamətdə siyasəti davam etdirir.

Milli Liderimizin ən böyük arzusu Qarabağı, Şuşanı, Füzulini azad görmək idi. Qarabağı, Füzulini, Şuşanı azad edən gənclərimiz Ulu Öndər Heydər Əliyev məktəbinin davamçıları, eyni zamanda, cənab Prezidentin idarəçiliyinin yetirmələridir. O baxımdan, təbii, biz qürur duyuruq ki, bu gün Qarabağ və Şərqi Zəngəzur azaddır.

Bir qarabağlı və məcburi köçkün kimi hər zaman cənab Prezidentimizə öz təşəkkürümüzü bildiririk. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun, Sahib müəllim.

**S.Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Öncə onu deyim ki, Gülüstan anlaşmasının imzalandığı gündür. Cənab İlham Əliyevin ölkənin birinci şəxsi kimi 20 illik fəaliyyətinin qiymətləndirilməsində mən bir rəmzilik görürəm. Çünki tarixin 210 il bundan öncə bünövrəsi qoyulan gərdişini məhz o dəyişməyi bacardı.

Xanımlar və cənablar, Azərbaycan Avstriya, Niderland, bu qəbildən olan digər ölkələrdən fərqli olaraq maraqların kəskin kəsişdiyi mürəkkəb coğrafiyada yerləşdiyindən burada hakimiyyət sözü tam fərqli xarakter daşıyır. O səbəbdən də biz dərindən nəzər yetirəndə aydın görürük ki, cənab İlham Əliyevin bu zaman çərçivəsindəki fəaliyyəti hakimiyyətdə olmaqdan daha çox, eramızdan əvvəlki proseslərdən bəhs edən bir rəvayətdə deyildiyi kimi, xalqını da yanına alıb, yırtıcı dövlətlərlə vuruşa-vuruşa, çar-

pışa-çarpışa yol getməyə bənzəyir. Amma o rəvayətdəkindən fərqli olaraq bu, yurddan gediş deyil, yurduna dönüş yolu idi. Üstəlik də 40 deyil, 20 ilə sentyabrın 20-də Azərbaycanın BMT-nin təsbit etdiyi çağdaş sərhədləri çərçivəsində öz torpaqları üzərində suverenliyinin tam təmini ilə qət edildi.

Bismark bildirirdi ki, siyasət mümkün olanı əldə etmək sənətidir. İlham Heydər oğlunun 20 illik fəaliyyətindən isə görürük ki, nəinki mümkün olan, mümkünlüyü əfsanə təsiri bağışlayanları da reallaşdırmağı bacardı, bunların da başında, bayaq dediyim kimi, torpaqlarımız üzərində suverenliyimizin tam təmini durur. Bəs, regionda hansı böyük dövlətlərin əleyhinə çıxdıqları kimsəyə sirr olmayan Bakı–Tbilisi–Ceyhan kəmərinin çəkilməsi, Qərbdəkilərin 20 il cəhd etsələr də, reallaşdıra bilmdikləri NABUKKO layihəsinə alternativ olaraq Cənub dəhlizinin işə salınması özü də əfasanə təsiri bağışlayan məsələlərin həyata keçirilməsi deyildimi?

20 il öncə cənab İlham Əliyev bir Prezident kimi özünün ilk andını içəndə mənim diqqətimi ən çox çəkən iki cümlə vardı. Birincisində o, nə yolla olur-olsun torpaqlarımızın işğaldan azad ediləcəyini, ikincidə isə Heydər Əliyev siyasətinə həmişə sadiq qalacağını bildirirdi. Elə də oldu və orasını da deyək ki, əslində, birinci vədin yerinə yetirilməsi məhz ikinciyə dəqiq əməl edilməsinin nəticəsi idi.

Ümumiyyətlə, Prezidentimizin 20 ildəki fəaliyyətini, bir sözlə qiymətləndirməli olsaq, o sözün adı sədaqətdir. Liderinə sədaqət, yola sədaqət, milləti qarşısında verdiyi vədə sədaqət. Cənab İlham Əliyevin uğurlarının kökündə ilk növbədə bəli, məhz bu sədaqət faktoru durur.

Onun Azərbaycan xalqı qarşısındakı xidmətlərindən söz düşərkən bizdə bəzən tarixdə böyük uğurlar qazanmış, im-

periyalar yaratmış böyüklərimiz xatırladılır. Amma gəlin, unutmayaq ki, onların uğurlarında bu coğrafiyada biri-biri ilə yola getməyən iki güclü türk dövlətinin varlığında maraqlı olanların da rolları az deyildi.

Qərbdəki bəlli çevrələr Çinin Çingiz xana yanaşmada yeritdiyi siyasətdən örnək götürərək onlara dəstək verirdilər. Son 100 ildəki davaranışları ilə isə göstərdilər ki, onlar bu regionda qətiyyən güclü Azərbaycan görmək istəmirlər. Bizim torpaqlarımızı işğaldan azad etməyimizə qarşı çıxmalarının kökündə elə məhz bu durur ki, Fransanın, eləcə də ona yandaşlıq edənlərin hərəkətləri onların hələ də bununla barışmadıqlarını təsdiqləyir. Xatırlayırsınız, deyilmi, Ukrayna savaşından sonra Rusiyanın atdığı bütün addımların əleyhinə çıxan, dediklərinin hər birinin əksini sübut etməyə çalışan Qərbdəkilər Azərbaycan aprelin 23-də Laçında sərhəd-buraxılış məntəqəsi quranda Moskva ilə necə oxşar mövqe sərgilədilər?

Belə bir reallıq ortada ola-ola cənab İlham Əliyevin bizi qələbədən-qələbəyə aparmasının sirri, məncə, onun dünyada son dərəcə informasiyalı liderlərdən biri olması, ən əsası həmin informasiyadan vaxtında və yerində faydalanması ilə əlaqədardır. 2018-ci, 2020-ci illərdə Prezident və parlament seçkilərinin irəli çəkilməsini, eləcə də 44 günlük savaşdan sonra nələrin baş verdiyini xatırlatsaq, Azərbaycanın dövlət başçısının "Mən nəyi necə və nə vaxt etməyi yaxşı bilirəm" sözlərinin elə-belə deyilmədiyini görərik. Bu gün Yaxın Şərqdə yaşananlar da bir daha təsdiqləyir ki, Qarabağdakı antiterror əməliyyatı da nə qədər vaxtında atılmış bir addımdır. Burada heç şübhəsiz ki, Prezidentimizin yüksək informasiyalılığı və ondan çox ustalıqla faydalanmaq bacarığı özünü göstərir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əhliman Əmiraslanov. Buyurun, Əhliman müəllim.

**Ə.Əmiraslanov.** Çox hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Tarix şəxsiyyətlər yetişdirir, şəxsiyyətlər də tarix yaradır. Onların missiyaları xilaskarlıq olur – tarixin, dövlətin və millətin xilaskarı missiyası.

Ümummilli Liderimiz müasir və müstəqil Azərbaycan dövlətini yaratmaqla yanaşı, milli dövlətçilik məktəbi formalaşdıraraq ölkəmizin gələcək inkişafını təmin edəcək layiqli siyasi varis yetişdirdi. Bu, Heydər Əliyev dühasının zirvəsi idi. "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ümummilli Lider Heydər Əliyevin 2003-cü ilin prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına müraciətində yer alan bu müdrik fikirlər ölkəmizin 20 ildir davam etməkdə olan möhtəşəm inkişafının ideya əsaslarından biri olmuşdur. Bu, bir həqiqətdir ki, Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub. Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəsi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi sayəsində mümkün olub.

Bu gün tam əminliklə söyləyə bilərik ki, möhtərəm Prezidentimiz bu inamı xalqın dəstəyi ilə uğurla gerçəkləşdirdi, Azərbaycanı dünyada yüksək nüfuza sahib olan ölkəyə, etibarlı tərəfdaşa və regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevirdi. Xüsusi ilə hər bir azərbaycanlının ən ümdə arzusunu reallığa çevirərək müqəddəs torpaqlarımızı düşmən tapdağından azad etdi. Düzgün strategiya, güclü

iradə, qətiyyət və çeviklik öz bəhrəsini verməyə bilməzdi.

Xalqı zəfərə aparan ən vacib məqam isə, ilk növbədə, qətiyyətli liderin, dünya siyasətinə dərindən bələd olan bir rəhbərin olmasıdır. Bütün bu xüsusiyyətlər məhz Prezident İlham Əliyevdə cəmləşib. Vətən müharibəsində müzəffər Ali Baş Komandan dəmir iradəsi, yenilməz sərkərdəliyi və bənzərsiz diplomatik məharəti ilə bütün dünyaya göstərdi və sübut etdi ki, Azərbaycan haqlı tərəfdir və torpaqlarını işğaldan azad etməyə, zəfər çalmağa qadir güclü ordusu var.

Dövlətimizin başçısının müasir çağırışlara uyğun siyasətinin həyata keçirilməsində respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və əzmkar fəaliyyəti xüsusi ilə qeyd olunmalıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində bütün istiqamətlərdə, o cümlədən elm, təhsil, səhiyyə sahəsində davamlı inkişaf müşahidə edilir.

Xüsusi ilə də səhiyyə sahəsində uğurlu addımlar atılıb. Prezident İlham Əliyevin qayğısı nəticəsində Azərbaycanın səhiyyə sistemində aparılan uğurlu islahatları bu gün hər birimiz öz həyatımızda hiss edirik. Səhiyyə islahatları çərçivəsində əsas istiqamətlərdən biri də icbari tibbi sığorta sisteminin tətbiqidir. Hazırda ölkədə tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, həmin xidmətlərə əhalinin əlçatanlığını təmin etmək məqsədi ilə icbari tibbi sığorta geniş miqyaslı tətbiq edilir. İcbari tibbi sığortadan əhalinin məmnunluğu get-gedə artır.

Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas məqsəd və vəzifələr sırasında insanların layiqli həyat tərzinin təmin edilməsi, sağlamlıqlarının qorunması prioritet təşkil edən məsələlərdəndir. Dünyanı ağuşuna alan koronavirus pandemiyasının ilk vaxtlarından vətəndaşların sağlamlığı-

nın qorunması məqsədi ilə möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə pandemiyaya qarşı ölkəmizdə çevik və sistemli tədbirlər həyata keçirildi. Bu tədbirlərin nəticəsi olaraq Ümumdünya Səhiyyə Təşkilatı pandemiyaya qarşı mübarizədə ölkəmizdə görülən işlərə yüksək qiymət verdi.

Bir sözlə, sözügedən seçkilərdən ötən 20 ilin yüksəkliyindən keçdiyimiz yola baxarkən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın tarixi qələbələrindən və misilsiz inkişaf uğurlarından böyük...

**Sədrlik edən.** Sağ olun. Nəsib Məhəməliyev. Buyurun, Nəsib müəllim.

**N.Məhəməliyev.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Bu gün biz olduqca mühüm bir tarixi qeyd edirik. Azərbaycan Prezident, xilaskar Ali Baş Komandan İlham Əliyevin dövlət başçısı vəzifəsinə keçdiyi gündən 20 il keçir.

Ümumiyyətlə, tarixdə o liderlər, o rəhbərlər, o şəxsiyyətlər qalıb ki, tarixin müəyyən kataklizmlərində, mürəkkəb dövrlərində öz millətinin, dövlətinin, xalqının bütövlüyünü qoruyub saxlayır, təhlükəsizliyini təmin edir. 1990-cı illərdə Ulu Öndər Heydər Əliyev Azərbaycanın ən mürəkkəb bir dövründə hakimiyyətə gəldi və Azərbaycanı parçalamaqdan qurtardı. Sonralar, 2003-cü ildən bəri Azərbaycana olan təhdidlər, Azərbaycana olan təzyiqlər daha da artan templə həyata keçirildi. Bütün bunlara baxmayaraq, Prezident İlham Əliyev fəaliyyətə başladığı ilk gündən bütün o dövrə qədər olan mövcud stereotipləri dağıdan, sındıran bir lider kimi tarixə düşdü. Bunlar nədir?

İlk dəfə olaraq regionların sosial-iqtisadi inkişafı ilə bağlı 4 dövlət proqramını qəbul etdi. Bakı şəhərinin və ətraf qəsəbələrinin inkişafı ilə bağlı 3 proqram qəbul olundu. Nəticədə minlərcə məktəblər, uşaq bağçaları, xəstə-

xanalar, olimpiya idman kompleksləri, yol infrastrukturu tikildi. Bütövlüklə, respublikanın siyasi xəritəsində 70-dən artıq yeni şəhər meydana gəldi. Bir çox sosial problemlər həllini tapdı, qaz, su, işıq – bütün bunlar cəmiyyətin inkişafına xidmət edən amillərdəndir.

Bütün bunlarla yanaşı, təbii ki, Azərbaycan Prezidenti ilk dəfə olaraq regionlara hər il səfərlər etdi. Elə bir region yoxdur ki, cənab Prezident 7-8, bəzi hallarda 10 dəfə, 10-dan artıq baş çəkməsin. Hər dəfə də baş çəkdiyi regionların çox ciddi inkişafına nail olan qərarlar qəbul etdi. Bütün bunlarla daxili siyasətdə Prezident İlham Əliyev xalq arasında bir qurucu lider imici qazanmağa nail olub.

Əsas məsələ, Azərbaycan xalqını ən çox narahat edən Qarabağ problemidir. Qarabağ probleminin həlli post-sovet məkanında olan ən mürəkkəb etnik problem hesab olunurdu. Təbii ki, Azərbaycana olan münasibət, dünyadakı ikili standartlar, ələlxüsus müasir dünyanın qloballaşması şəraitində beynəlxalq hüququn deqradasiyaya uğradığı bir şəraitdə Qarabağ probleminin həlli son dərəcə müşkül idi. Ancaq dağılan stereotiplərin biri də odur ki, cənab İlham Əliyev ilk dəfə hücum diplomatiyasını tətbiq etdi. Məhz hücum diplomatiyasının nəticəsində bu gün biz qlobal gücləri, Azərbaycana qarşı düşmən mövqe göstərən, bütün hüquq, ədalət prinsiplərini tapdalayaraq bizə qarşı hücuma keçən qüvvələri neytrallaşdırdıq. Məhz bunun nəticəsində bu gün İlham Əliyev ilk dəfə Azərbaycan liderlərindən biridir ki, Avropaya gedəndə Avropa liderləri, Avropa ölkələrinin rəhbərləri qeyd edirlər, bu gün İlham Əliyev Avropada ən arzu olunan bir qonaqdır. İlham Əliyev sözü ilə əməli üst-üstə düşən bir liderdir. Bütün bunlar İlham Əliyevin bir şəxsiyyət, eyni zamanda, dövlət başçısı olaraq xarakteristikasını verir.

Digər bir məsələni xüsusi qeyd etmək istəyirəm ki, bəzi hallarda dövlət başçısı, siyasi lider tərəfindən işlədilən bir fraza, bir cümlə, bütövlükdə, ictimai şüurun, hətta qlobal miqyasda ictimai şüurun dəyişməsinə səbəb olur. Bu nədir? Ermənistanın Baş naziri çox provokativ bir bəyanat verdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Amma "Valday" Beynəlxalq Diskussiya Klubunda beynəlxalq aləmin qarşısında İlham Əliyev "Qarabağ Azərbaycandır və nida" dedi və bundan sonra bütün proseslər bizim xeyrimizə inkişaf etməyə başladı. Yəni bu ifadə bugünkü Azərbaycanın beynəlxalq miqyasda tanınmasına, tək türk dünyasında deyil, bütövlükdə, dünya miqyasında İlham Əliyev bir şəxsiyyət olaraq beynəlxalq nüfuzun artmasına və ən əsası...

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən, doğrudan da, bir Azərbaycan vətəndaşı kimi xoşbəxt insanlarda biriyəm ki, 1998-ci ildən bu günə qədər möhtərəm cənab Prezidentlə bərabər olmuşam. 1998-ci ildə onun nitqlərini, çıxışlarını, yazılarını böyük məmnuniyyətlə oxuyaraq, özüm üçün təhlil edərək, onun ətrafında fikir mübadiləsi yaradaraq, həm də öyrənərək siyasətlə məşğul oluram.

Mən bu gün ümumiləşmiş bir fikri demək istərdim. Mən həm də cənab Prezidentin fəaliyyəti ilə bağlı bir neçə kitabın müəllifiyəm. Tam məsuliyyətlə deyə bilərəm ki, İlham Əliyev XXI əsrdə dünya miqyasında özünü təsdiq edən liderdir, hadisədir və fenomendir.

Son iki onilliyin hadisələrini təhlil edərkən belə bir nəticəyə gəlmək olar ki, İlham Əliyev qədər güclü lideri digər ölkələrin liderləri və siyasətçiləri kimi görmək, onunla müqayisə etmək, sadəcə olaraq, mümkün deyildir.

İlham Əliyevin Prezident seçilməsi, həm də prezidentlik illəri heç də asan olmamışdır. Mən çox yaxşı xatırlayıram ki, 2000-ci ilin əvvəllərində Ulu Öndərimizin səhhətində yaranmış olan müəyyən problemlərlə bağlı müxtəlif qütblərdən prezidentlik həvəsinə düşənlər kifayət qədər çox idi. Onlar ayrı-ayrı dövlətlərin imkanlarına və köməyinə arxalanaraq prezident olmaq istəyirdilər. Ancaq yeganə olaraq Azərbaycan xalqının ümidi, imkanı bir məqsəd üçün cəmləşmişdi. Elə şəxs hakimiyyətə gəlməlidir ki, o, Heydər Əliyevin siyasətini olduğu kimi aparsın, onu daha uca zirvələrə qaldıra bilsin. Belə bir şəxsiyyət artıq var idi. Bu, İlham Əliyev idi.

İlham Əliyev 1998-ci ildən 2003-ci ilə qədər Azərbaycanın siyasi mühitində ən parlaq şəxsiyyət kimi artıq özünü təsdiq etdi. İlham Əliyev haqqında, o zaman onun fəaliyyətinin bütün tərəflərini əks etdirən 13 toplu dərc olundu ki, bu da çox nadir bir hadisə idi. Faktiki olaraq İlham Əliyev prezident seçilənə qədər ona rəqib olan hər bir kəsi arxada qoydu, onları çox böyük uğurla qabaqlayaraq böyük müvəffəqiyyət qazanmaq üçün seçkilərə qatıldı və seçkilərdə qələbə qazandı.

Seçkilərdə qələbə qazandıqdan sonra ayrı-ayrı dövlətlərdən kifayət qədər kömək alan antimilli qüvvələr hərəkətə keçdilər. 2003-cü ilin oktyabrın 15-16-da Azadlıq meydanında, ora gedən yollarda dəhşətli hadisələr törədildi. O zaman Azərbaycan dövlətçiliyinə sadiq olan insanlar, daxili işlər naziri Ramil Usubov, eyni zamanda, Daxili İşlər Nazirliyinin məsul əməkdaşı, indiki nazir Vilayət Eyvazov, indiki fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Daxili Qoşunların o zamankı rəhbəri, indiki müdafiə naziri Zakir Həsənov, Yeni Azərbaycan Partiyasından Əli Əhmədov, Siyavuş Novruzov kimi

insanlar onların qabağına çıxaraq, mətin bir mövqe nümayiş etdirərək xalqın səsini qorumaq üçün fədakarcasına mübarizə apardılar. Bu prosesdən cənab Prezident qalib çıxdı.

Ondan sonra 2004-cü ildə Prezident Aparatında bir məxməri inqilab həyata keçirməyə çalışdılar. O zaman Azərbaycanın Ensiklopediyasının müzakirəsi zamanı İsmayıl Vəliyev var idi onun vasitəsi ilə İlham Əliyevin iradəsini, qətiyyətini və mövqeyini sınağa çəkdilər. İlham Əliyev İsmayıl Vəliyevə qapını göstərdi, onu oradan çıxartdı və hər kəsə də dərs verdi ki, bu gün Azərbaycanın Prezidenti İlham Əliyevdir və Azərbaycan dövləti qətiyyətli əllərdədir.

Bütövlükdə, mən deyərdim ki, İlham Əliyev...

**Sədrlik edən.** Fəzail müəllim, xahiş edirəm, Siz fikrinizi bitirin. Buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm. Sonrakı illərdə də İlham Əliyev böyük, titanik vəzifələri yerinə yetirdi. Burada onun bütün tərəfləri haqqında dedilər.

Hörmətli xanım sədr, mən düşünürəm ki, bu gün İlham Əliyevin üzərinə həm də Uca Tanrı böyük bir missiya qoyub, bu, vətəninin, millətinin və türk dünyasının birgə olması, birləşməsi missiyasıdır. Bu yolda ona uğurlar arzulayırıq, can sağlığı diləyirik. Həm də cənab Prezidentin fəaliyyəti o qədər titanikdir ki, ondan 1 saat, 2 saat, 1 gün, günlərlə, aylarla danışsaq belə, kifayət edə bilməz. Ona görə də əgər dəyərli həmkarlarım icazə verirlərsə, mən təklif edərdim ki, bununla müzakirəmizi yekunlaşdıraq və bəyanatın oxunmasına keçək. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim. Hörmətli həmkarlar, təklif səsləndi. 38 nəfər çıxış etdi, əgər etiraz etmirsinizsə, biz bəyanatı dinləyək. Bizim bəyanatımız hazırdır. Bəyanatı səsləndirmək üçün mən həmkarımız hörmətli Hikmət Məmmədova söz verirəm. Hikmət müəllim, buyurun.

## İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

Ümummilli Liderimiz Heydər Əliyevin təməlini qoyduğu inkişaf strategiyasını yeni çağırışlar şəraitində layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev heyrətamiz şəxsi keyfiyyətləri, xalq və dövlət qarşısında müstəsna xidmətləri ilə yeni tarixi dövrün milli lideri səviyyəsinə yüksəlmişdir. Onun rəhbərliyi ilə 20 il öncə həyata keçirilməyə başlanan uzaqgörən daxili və xarici siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarmışdır. İlham Əliyevin siyasət sənətinin incəliklərinə dərindən bələdliyi, fenomenal liderlik qabiliyyəti və yaradıcı dövlətçilik təfəkkürü, yenilməz əzmi və iradəsi ölkəmizin müasir simasını müəyyənləşdirməklə yanaşı, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini də kökündən dəyişmişdir. Milli və dövlətçilik maraqlarımızın qorunması və irəli aparılması, ölkəmizin potensialının artırılması üçün görülən ardıcıl tədbirlər Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə və regional güc mərkəzinə çevirmişdir.

Ölkə iqtisadiyyatında sürətli və davamlı inkişaf dövrü yaşanmışdır. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəhəng transmilli layihələr qlobal iqtisadiyyatda mühüm rol oynayır. Energetika sektorunda əldə edilən nailiyyətlər nəinki ölkəmizin enerji müstəqilliyini təmin etmiş, həm də Avrasiyanın energetika xəritəsini dəyişdirmişdir. Hazırda Azərbaycanın bərpaolunan enerjinin isteh-

salı və ixracı mənbəyinə çevrilməsi üzərində iş aparılır.

Çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi Azərbaycanın iqtisadi mənzərəsini daha da zənginləşdirmişdir. Ölkəmiz Avropa ilə Asiyanı bir-birinə sıx bağlayan nəqliyyat-logistika mərkəzinə çevrilmişdir. Qeyri-neft sektorunun, xüsusən kənd təsərrüfatının, informasiya texnologiyalarının və turizmin inkişafı dayanıqlı iqtisadi tərəqqi amillərindən biri olmuşdur.

2013-cü ildə ilk peykinin buraxılmasından sonra Azərbaycan kosmik klubun üzvü olmuşdur və bu gün kosmik fəzanın istifadəsi sahəsində fəaliyyətini 3 peyklə davam etdirir. Ölkəmizin kosmik strategiyası uzunmüddətli perspektivə yönəlmişdir və dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Həyata keçirilən əsaslı islahatlar dövlət idarəçiliyi sistemini müasir tələblər səviyyəsində qurmağa imkan vermişdir. Ölkənin siyasi həyatı müasir çağırışlara uyğunlaşdırılmış, çoxpartiyalı sistem təkmilləşdirilmişdir.

İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası cəmiyyətin siyasi həyatında önəmli rol oynayır. Digər siyasi qüvvələrin, o cümlədən müxalif partiyaların sərbəst fəaliyyəti üçün hüquqi əsaslar təkmilləşdirilmişdir. Milli-mənəvi dəyərlərin qorunması, elm və təhsilin, mədəniyyət və incəsənətin inkişafı sahəsində əməli addımlar atılmışdır.

Azərbaycanda qanunun aliliyi təmin edilmiş, insan hüquqlarının və azadlıqlarının qorunması dövlətin ali məqsədinə çevrilmiş, vətəndaş cəmiyyətinin inkişafına əlverişli şərait yaradılmışdır. Həyata keçirilən düşünülmüş tədbirlər sayəsində ölkəmiz dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Azərbaycanın dünyaya təqdim etdiyi demokratik cəmiyyət nümunəsi etnik mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq hər

kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verilməsinə, bütün xalqların mədəni sərvətlərinin, müxtəlif dinlərə etiqad edən insanların mənəvi dəyərlərinin qorunmasına və inkişafına əsaslanır.

Müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələrini bir araya gətirən dünya və Avropa miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsi ənənə halını almışdır. Bakı nüfuzlu beynəlxalq toplantılara, humanitar forumlara, mədəniyyətlərarası dialoq məclislərinə, böyük idman yarışlarına evsahibliyi edir.

Hər bir azərbaycanlının Prezidenti olmağı bacaran İlham Əliyev Azərbaycançılıq, müstəqillik və dövlətçilik amalları naminə ölkədə milli həmrəyliyin möhkəmləndirilməsini daim diqqət mərkəzində saxlayır. Sayına və intellektual potensialına görə dünyanın qüdrətli xalqları ilə bir sırada dayanan Azərbaycan xalqının mütəşəkkil qüvvə kimi formalaşmasının dəstəklənməsi üçün görülən işlərin miqyası ildən-ilə genişlənir. Dünya azərbaycanlılarının bir-biri ilə və tarixi Vətənlə əlaqələrinin güclənməsinə, diaspor təşkilatlarının formalaşmasına, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan soydaşlarımızın hüquq və mənafelərinin, təhlükəsizliyinin, milli kimliyinin qorunmasına, onların inkişafına, Azərbaycan dilini, ənənələrini və mədəniyyətini qoruyub saxlamasına, dəfələrlə soyqırımına və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının bərpasına və zorla tərk etməyə məcbur olduqları ata-baba torpaqlarına qayıtmasına kömək göstərilməsi dövlət siyasətinin ayrılmaz tərkib hissəsini təşkil edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının xarici siyasət konsepsiyasının həyata keçirilməsi sahəsində parlaq nailiyyətlər əldə edilmişdir.

Bir çox dünya dövlətləri ilə səmərəli əməkdaşlıq əlaqələri qurulmuş, beynəlxalq təşkilatlar çərçivəsində fəal iş aparılmışdır. 2012–2013-cü illərdə dövlətimizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük uğurlardan biri olmuşdur.

Azərbaycanın beynəlxalq nüfuzunu göstərən digər mühüm bir hadisə dünyanın BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatının yekdil qərarı ilə 2019–2022-ci illərdə dövlətimizin bu quruma sədr seçilməsi və yenidən yekdil qərarla sədrlik müddətinin daha bir il uzadılması olmuşdur. Hərəkata sədrlik dövründə Prezident İlham Əliyev ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorumuşdur. 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması Azərbaycanın uğurlu sədrliyinin nəticələri olmuşdur.

Prezident İlham Əliyevin irəli sürdüyü milli təhlükəsizlik konsepsiyasının bütün istiqamətlərində müsbət nəticələr əldə edilmişdir. Ən yüksək standartlara cavab verən silahlı qüvvələr formalaşdırılmışdır. Doğma torpaqlarını işğaldan azad etməyə hazır olan vətənpərvər gənc nəsil yetişdirilmişdir. Bütün bunlar  Azərbaycan ərazilərinin Ermənistanın işğalından azad edilməsi barədə Ulu Öndər Heydər Əliyevin vəsiyyətinin yerinə yetirilməsinə şərait yaratmışdır.

2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik məharəti ilə idarə etdiyi Azərbaycan Silahlı Qüvvələrinin hərbi qələbəsi xalqımızın qəhrəmanlıq salnaməsində yeni şanlı səhifə açdı. Azərbaycan tarixinə qızıl

hərflərlə yazılmış 8 Noyabr Zəfəri sayəsində işğalçı Ermənistan təslim olmağa məcbur edildi, tarixi ədalət və dövlətimizin ərazi bütövlüyü bərpa olundu. Azərbaycanın əzəli tarixi torpaqları olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi son iki yüz ilə yaxın dövrdə xalqımızın məruz qaldığı torpaq itkiləri və etnik təmizləmələr silsiləsinə son qoydu, xalqımıza düşmən kəsilmiş dünya erməniliyinə sarsıdıcı zərbə endirdi.

Ermənistanın davam edən hərbi-siyasi təxribatlarına son qoyulması məqsədi ilə 2023-cü il sentyabrın 19-20-də müzəffər Ali Baş Komandanın məharətli rəhbərliyi ilə Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri xalqımızın milli ruhunun yenilməzliyini bir daha nümayiş etdirdi. Azərbaycan Ordusunun qəhrəmanlığı və fədakarlığı sayəsində erməni silahlı dəstələri tərk-silah edildi, kriminal xunta rejiminin fəaliyyətinə son qoyuldu, dövlətimizin suverenliyi onun bütün ərazisində bərpa edildi.

Qarabağı könüllü tərk etmək istəyən erməni sakinlərin ölkə ərazisindən təhlükəsiz və rahat çıxışına şərait yaradılmışdır. Qarabağda qalan ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün lazımi tədbirlər görülür. Ermənistanla sivil dövlətlərarası münasibətlər qurulması məqsədi ilə Azərbaycanın irəli sürdüyü şərtlər əsasında sülh danışıqları davam etdirilir.

Hazırda işğaldan azad edilmiş torpaqlarda Prezident İlham Əliyevin irəli sürdüyü strateji yol xəritəsinə əsasən bərpa və quruculuq işləri geniş vüsət almışdır. Məcburi köçkünlər mərhələ-mərhələ doğma yurdlarına qaytarılır. İnamla söyləmək olar ki, Qarabağın və Şərqi Zəngəzurun dirçəlişi ilə bağlı bütün layihələr uğurla başa çatdırılacaq və bu bölgələr Azərbaycanın dilbər guşələrinə çevriləcəkdir.

Siyasi lider öz fəaliyyəti ilə zamanca qısa bir dövrü əhatə edir, milli lider isə uzunmüddətli perspektiv üçün ölkəsinin inkişafının optimal istiqamətlərini müəyyənləşdirir. Azərbaycan Respublikasının Milli Məclisi əmindir ki, Prezident İlham Əliyevə xas olan siyasi bəsirət və səriştə Azərbaycanın müstəqillik yollarında bundan sonra da inamla irəliləməsini təmin edəcəkdir. Milli Məclis Vətənimizin və xalqımızın bu günü və sabahı naminə dəyərli fəaliyyətində dövlət başçısına yeni böyük uğurlar arzulayaraq, onun uzaqgörən daxili və xarici siyasətini, həmişə olduğu kimi, fəal surətdə dəstəkləyəcəyini, həyata keçirilən quruculuq işlərinin qanunvericilik bazasını möhkəmləndirmək və təkmilləşdirmək üçün öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyini bəyan edir. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun, Hikmət müəllim. Hörmətli həmkarlar, bəyanatı hamı dinlədi və mən indi bəyanatı səsə qoyacağam. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.37 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin Bəyanatı qəbul edildi.

Hörmətli həmkarlar, bununla da bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Sağ olun.

## ALTINCI ÇAĞIRIŞ
## AZƏRBAYCAN RESPUBLİKASI
## MİLLİ MƏCLİSİNİN
## XIV SESSİYASI İCLASININ

## PROTOKOLU № 145

*Milli Məclisin iclas salonu.*
*17 oktyabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 106 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 99 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.
2. Energetika haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
3. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Notariat haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyi-

şiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

5. "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tural Gəncəliyev, Fazil Mustafa, Ceyhun Məmmədov, Nizami Səfərov, Sahib Alıyev, Əli Məsimli, Tahir Kərimli, Bəhruz Məhərrəmov, İlham Məmmədov, Musa Qasımlı, Siyavuş Novruzov

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**1. Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**2. Energetika haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Vahid Əhmədov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4-cü və 5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 6–15-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16–18-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 19–26-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 99 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 27-ci və 28-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**3. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5–8-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 9–12-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verمədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Notariat haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 101 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**5. "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Fəzail Ağamalı, Aydın Mirzəzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 103 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**6. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4-cü və 5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**7. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəxtiyar Əliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**8. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elnur Allahverdiyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**9. "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Sabir Rüstəmxanlı

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**10. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**11. "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Mahir Abbaszadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**12. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məşhur Məmmədov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**14. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Fazil Mustafa, Tahir Kərimli, Aydın Hüseynov, Siyavuş Novruzov, Sədaqət Vəliyeva

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**15. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**16. "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Əli Məsimli, Bəxtiyar Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*17 oktyabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Salam, hörmətli həmkarlar, hamınızı xoş gördük. Jurnalistləri də salamlayıram.

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 92 |
| Yetərsay | 83 |

İclasa başlaya bilərik, yetərsay var.

Hörmətli həmkarlar, bizim iclasımız ölkəmizin və xalqımızın həyatında dönüş yaradan tarixi bir gün ərəfəsində keçirilir. Sabah, oktyabrın 18-də biz Müstəqilliyin Bərpası Gününü qeyd edəcəyik. Bildiyiniz kimi, son yüz ildən artıq dövrdə Azərbaycan xalqı siyasi müstəqillik imkanına iki dəfə nail olmuşdur. 1918-ci il mayın 28-də qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşaya bilmiş-

dir. 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa edən dövlətimiz üçün də, əslində, eyni tale yazılmışdı.

Ötən əsrin 90-cı illərinin əvvəlləri ölkəmizin ağır problemlər qarşısında qaldığı bir dövrdür. O zaman hakimiyyətə gəlmiş iqtidar cəmi bir il ərzində Azərbaycanı siyasi, iqtisadi və hərbi böhran vəziyyətinə salmışdı. Ölkə vətəndaş müharibəsi və dağılmaq həddinə gəlib çıxmışdı. Dövlət həyatının bütün sahələrində hərc-mərclik, ordu adı ilə yaradılan silahlı dəstələrin özbaşınalığı vəziyyətin gərginliyini daha da artırırdı. Bütün bunlar Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına əlverişli şərait yaradırdı. Yüz minlərcə soydaşımız doğma yurdlarını tərk etməyə məcbur olurdu.

Müstəqil Azərbaycan dövlətinin iflasa uğraması təhlükəsi tam real idi. Taleyin hökmü ilə bu dəfə Heydər Əliyev fenomeni dövlət müstəqilliyinin itirilməsinə yol vermədi. 1993-cü il iyunun 15-də ali dövlət rəhbərliyinə qayıdan Ümummilli Lider qüdrətli zəkası və müdrikliyi, yenilməz iradəsi və qətiyyəti sayəsində Azərbaycanın siyasi varlığını qoruyub saxlaya bildi.

Xatırladım ki, Ulu Öndərin anadan olmasının 100 illiyi münasibəti ilə bu il mayın 16-da və iyunun 14-də Milli Məclisin xüsusi iclaslarında dünya miqyaslı siyasi və dövlət xadiminin misilsiz xidmətlərindən minnətdarlıq duyğuları ilə danışılmışdır.

Qeyd edilmişdir ki, xalqımız müstəqil dövlətini qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində reallaşdıra bilmişdir. Ümummilli Lider dünyanın böyük güclərinin iradəsinə qarşı çıxaraq Azərbaycan üçün hazırlanmış planları alt-üst etdi, xalqımızı və dövlətimizi qorxunc təhlükələrdən keçirərək sabitlik və inkişaf dövrünə çatdırdı. Bugün-

kü müasir Azərbaycan Heydər Əliyevin xalq və vətən naminə fədakarlığının parlaq nişanəsidir.

Hörmətli həmkarlar, parlamentdə biz həmişə qürurla söyləyirik ki, Ulu Öndərin böyük siyasətə qayıdışı onun Azərbaycan Ali Sovetinin sədri seçilməsi ilə başlanmışdır. Xilaskarlıq missiyasını həyata keçirmək yolunda onun bu binada atdığı addımlar, gördüyü tədbirlər parlamentarizm və dövlətçilik tariximizin şanlı səhifələrini təşkil edir.

Hörmətli deputatlar, Ümummilli Liderin inkişaf strategiyasını yeni çağırışlar şəraitində yaradıcı surətdə davam etdirən möhtərəm Prezident İlham Əliyevin daxili və xarici siyasəti ölkəmizə heyrətamiz uğurlar gətirmişdir.

Milli Məclisin oktyabrın 12-də keçirilən xüsusi iclasında da vurğulandığı kimi, cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində Azərbaycan dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxmışdır. Cəmiyyət və dövlət həyatının bütün sahələrində yeniləşmə və yüksəliş dövrü yaşanmışdır. Dövlət idarəçiliyi sistemi təkmilləşdirilmiş, Birinci vitse-prezident institutu təsis edilmişdir. Məmnunluqla qeyd etmək olar ki, möhtərəm cənab Prezidentin ən yaxın silahdaşı olan görkəmli siyasi və dövlət xadimi Mehriban xanım Əliyeva bu məsul və şərəfli vəzifəni layiqincə yerinə yetirir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əzəli tarixi torpaqlarımızın Ermənistanın 30 illik işğalından qurtarılması, tarixi ədalətin, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri açmışdır.

Oktyabrın 15-də cənab İlham Əliyevin Xankəndi, Ağdərə, Xocavənd, Xocalı şəhərlərində, Əsgəran qəsəbəsində Dövlət Bayrağını ucaltmasını bütün xalqımız böyük qürurla izlədi. Üç il öncə eyni duyğuları biz Şuşada,

Laçında, Ağdamda, Kəlbəcərdə və digər şəhərlərdə bayrağımız yüksələrkən yaşamışdıq.

Möhtərəm Prezidentin Xankəndi şəhərində etdiyi proqram xarakterli çıxış onun Ulu Öndər Heydər Əliyev və xalqımız qarşısında bir növ hesabatı idi. Cənab Prezidentin də dediyi kimi, onun rəhbərliyi ilə 20 il ərzində görülən işlər Azərbaycanın iqtisadi, siyasi və hərbi potensialının artırılmasına, torpaqlarımızın işğaldan azad edilməsinə, xalqımızın firavan həyatının qurulmasına yönəlmişdir. Həyata keçirilən dövlət siyasəti milli maraqlarımızın qorunmasını və irəli aparılmasını təmin etmişdir. Düşmən üzərində qazanılan möhtəşəm qələbə Ulu Öndərin 100 illik yubileyinə ən böyük töhfə olmuşdur.

Cənab Prezident öz çıxışında separatçılara havadarlıq edən dövlətlərə, Ermənistanda revanşizm fikrindən əl çəkməyən qüvvələrə də mesaj verdi. Onları Vətən müharibəsindən və antiterror tədbirlərindən dərs almağa çağırdı.

Xalqımız əmindir ki, biz Qarabağa həmişəlik qayıtmışıq, möhtərəm cənab Prezidentin qaldırdığı Dövlət Bayrağı bu qədim diyarımızda əbədi dalğalanacaqdır. *(Alqışlar.)*

Hörmətli həmkarlar, dövlət başçısının fərmanına əsasən bu gün Füzuli şəhəri günü qeyd edilir. Üç gündən sonra Zəngilan şəhəri günü qeyd olunacaq. Düşmən tapdağından azad edilmiş bütün şəhərlərimizin günlərini biz hər il bayram kimi qeyd edəcəyik. Möhtərəm cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan bundan sonra da daim irəli gedəcək və yeni-yeni zirvələri fəth edəcəkdir.

Hörmətli həmkarlar, mən təklif edirəm ki, Müstəqilliyin Bərpası Günü münasibəti ilə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin bu günü və

sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni uğurlar arzulayaq. *(Alqışlar.)*

Mən hesab edirəm ki, bu alqışlar bizim təbrik məktublarını təsdiqləyən alqışlardır.

Hörmətli həmkarlar, bayram münasibəti ilə mən sizin hər birinizi də səmimi qəlbdən təbrik edirəm!

Hörmətli deputatlar, deyirlər ki, xeyirlə şər qoşadır və mən bu gün həmçinin tariximizin kədər dolu bir gününü də sizin yadınıza salmaq istərdim. Bildiyiniz kimi, üç il öncə bu gün erməni silahlı birləşmələri Gəncə şəhərinin mərkəzini qadağan olunmuş silahlar, o cümlədən ballistik raketlər ilə atəşə tutmuşlar. 15 nəfər dinc sakin həyatını itirmiş, 79 mülki şəxs yaralanmışdır.

Biz həm Gəncə şəhərində, həm də Azərbaycanın digər yaşayış məntəqələrində erməni terroru nəticəsində həlak olmuş dinc sakinlərin yaxınlarına səbir diləyirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Hörmətli həmkarlar, indi isə xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul olundu.

Bizim 30 dəqiqəmiz var. Xahiş edirəm, çıxış etmək istəyənlər yazıla bilərlər. 10 nəfər çıxış edəcək. Buyurun. Tural Gəncəliyev, buyurun. Bir dəqiqə, Tural müəllim.

Mənim siyahımda Tural Gəncəliyev birinci olmaq şərti ilə sonuncu Musa Qasımlı çıxış edəcək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Kim çıxdı? Siyavuş müəllim, başa düşmədim, nə deyirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Siyavuş müəllim, səsvermə düyməsini bir dəfə basmaq lazımdır, ikinci dəfə basanda ad, soyad siyahıdan silinir. Siyavuş müəllim, mən Sizə söz verəcəyəm. Tural Gəncəliyev buyursun. Sonuncu Siyavuş müəllim olacaq.

**T.Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. 2023-cü il oktyabrın 15-də ölkəmizin, xalqımızın müasir tarixində çox önəmli bir hadisə baş verdi. Cənab Prezident Xankəndidə, Xocalıda, Qarabağımızın digər şəhər və qəsəbələrində şanlı bayrağımızı ucaltdı. Bu münasibətlə hər birimizi ürəkdən təbrik edirəm. Həqiqətən də, çox önəmli bir hadisə idi. Biz Xankəndidə bayrağımızın dalğalanmasını 30 ildən çox gözləyirdik və əmin idik ki, cənab Prezident 20 il öncə Azərbaycan Respublikasının Prezidenti seçilərkən verdiyi sözü tutacaq və tutdu da. Milli Liderimizin ata vəsiyyətini həyata keçirən lider kimi xalqımızın tarixinə düşdü. Bir anlıq belə tərəddüd etmirdik ki, biz bu günə nail olacağıq. Hədəflərə cənab Prezidentin liderliyi altında aramla, səbirlə, addım-addım irəliləyirdik və həqiqətən də, bu tarixi anı görmək, şahidlik etmək hər birimizə qürur yaşatdı. Biz heç vaxt tərəddüd etmirdik və hətta sosial şəbəkələrdə paylaşımlarımızda, çıxışlarımızda həmişə qeyd edirdik ki, biz Xankəndiyə geri dönəcəyik, Xocalıya geri dönəcəyik.

Ancaq təəssüflər olsun ki, bəzən sosial şəbəkələrdə, başqa yerlərdə bizim bu çıxışlarımızı qeyri-ciddiyə alırdı-

lar, hətta bəzən lağ edirdilər. Yeri gəlmişkən, bu kürsüdən istifadə edib bizim sözlərimizi qeyri-ciddiyə alan həmin o insanlara da öz salamlarımı çatdırıram. Çünki biz bir anlıq belə öz liderimizin rəhbərliyi altında qarşıya qoyulmuş məqsədə getdiyimiz yolda tərəddüd etmirdik və buna doğru gedirdik. Yeri gəlmişkən, Xankəndidə 2023-cü ildə bayrağın qaldırılması iki mühüm hadisə ilə də üst-üstə düşmüş oldu. Bu da çox rəmzi məna daşıyır. Birincisi, Ümummilli Liderimizin anadan olmasının 100 illiyi ilə bağlı Xankəndidə cənab Prezidentin bayrağımızı ucaltması çox önəmli bir tarixi haldır. İkincisi isə xatırlayırıq ki, Azərbaycanın Qarabağ bölgəsində 100 il əvvəl Xankəndi şəhərinin adı süni şəkildə dəyişdirilərək məhz süni Dağlıq Qarabağ Muxtar Vilayətinin bünövrəsi qoyulmuşdu. 100 il sonra cənab Prezident separatizmi kökündən kəsərək qəlbimizə sancılmış o xəncəri çıxararaq Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qarşı əl atan həmin o qüvvələrə, qara qüvvələrə öz yerini göstərdi. Həqiqətən də, çox önəmli bir hadisədir. Mən Xankəndi millət vəkili kimi hamımızla bir yerdə çox qürur duyuram və çox şadam ki, bu tarixi hadisəni sizinlə bir yerdə yaşayırıq. Bir daha hamınızı ürəkdən təbrik edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Tarix xalqların və dövlətlərin qələbə və məğlubiyyətləri ilə zəngindir. Fikrimcə, qələbəni dövlət qazanır, onun çəkisini isə həmin dövrdə yaşayan xalq öz davranışları ilə ya artırır, ya da azaldır.

Qarabağda böyük qələbəni Prezident İlham Əliyevin yüksək zəkası ilə yönəltdiyi Azərbaycan dövləti qazandı. Ancaq bu qələbənin çəkisini gələcəkdə Azərbaycan cəmiyyətinin davranışları müəyyən edəcək. Son Balkan sa-

vaşlarında serblərin qələbə qazandığını gördük. Ancaq cəmiyyətin irrasional davranışları qələbəni böyük itkilərlə heçə endirdi. Ancaq xorvatlar, əksinə, qələbədən sonrakı xorvat cəmiyyətinin davranışı, rasional addımları hesabına onu çox ciddi bir qazanca çevirə bildilər.

İndi Azərbaycan cəmiyyətində müxtəlif məsələlərə baxışların dəyişməsinə çox ciddi ehtiyac var. Biz pozitiv şeylər çox gördük. Şəhid dəfnlərində, şəhid ailələrinə münasibətdə Azərbaycanda çoxlarının hədəfə götürdüyü icra hakimiyyəti başçılarının, icra hakimiyyəti qurumlarının çox böyük fədakarlığını gördük. Nəsimi, Sabunçu, Suraxanı, Yasamal, Səbail, Abşeron rayonlarının icra hakimiyyəti başçıları, əksər rayonların icra hakimiyyəti başçıları bu prosesdə çox böyük bir fəallıq göstərdilər və bu prosesin Azərbaycan dövlətinin adına layiq həyata keçirilməsini təmin etdilər. Baxın, bir şəhidimiz var idi, Nəcməddin, onun arzusu var idi ki, evlərindən kəndinə qədər asfalt yol çəkilsin, 11 min manat şəhid puluna. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi onun arzusunu yerinə yetirdi və evindən məktəbə qədər o yolu çəkdi. Dövlət adına olan işdir.

Ötən dəfə biz burada sahibkarların problemi ilə bağlı bir məsələ qaldırdıq. "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru zəng vurub həmin sahibkarın ünvanını soruşdu və onun 5 kilometr aralıda olan sayğac məsələsini həll etdi. Bu nə deməkdir? Dövlət adına edilən işlər məhz həm də qələbənin möhkəmlənməsi üçün edilən işlərdir.

Ancaq bəzi məsələlər də var, məsələn, Nəsimi rayonunda akademik Mirqasımov, Şuşinski, Qasımov, Topçubaşov küçələrində bir məhəllənin həyətində bir tikinti çalası qazıblar və orada yaşayan vətəndaşların mülkiyyətinin heç bir qiymətləndirilməsi aparılmadan qanunsuz olaraq

tikinti işi aparırlar. Vətəndaşı hansı isə bir formada narazı salma mexanizmləri həm də müəyyən dərəcədə qələbəyə köklənmiş vətəndaşın ruhunu qırmağa xidmət edir. Ona görə də bu məsələlərdə biz xüsusi diqqətli olmalıyıq, qələbəni möhkəmlədəcək addımlar atmağa səy göstərməliyik.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov.

**C.Məmmədov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, Prezident İlham Əliyev oktyabrın 15-də yenidən Qarabağa tarixi səfər edərək Xocalı, Xocavənd, Ağdərə və Xankəndidə Azərbaycan Bayrağını yüksəltdi. Bu qələbəyə qədər ağır mərhələ və dövrlərdən keçdik. Ancaq Prezident İlham Əliyevin rəhbərliyi, prinsipial və qətiyyətli siyasəti nəticəsində Azərbaycan bu ali məqsədinə də nail oldu. Azərbaycan xalqı uzun illərdir bu günü gözləyirdi. Bu gün artıq Azərbaycan Bayrağı bütün tarixi torpaqlarımızda qürurla dalğalanır.

Bu gün biz artıq 200 illik tariximizdə, sovet dövründə nəzarətimizdə olmayan ərazilərə nəzarət edirik. Həmin ərazilərə sərbəst gedə bilirik. Azərbaycan xalqı bütün bu uğurlara əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev tərəfindən böyük uzaqgörənlik və müdrikliklə davam etdirilən siyasət nəticəsində nail olub. Prezident İlham Əliyev Xankəndidən həm Ermənistana, həm də onun havadarlarına çox ciddi mesajlar verdi. Təəssüflə qeyd etmək lazımdır ki, hələ də Azərbaycanın öz ərazisində antiterror tədbirləri həyata keçirilməsini həzm edə bilməyən bir sıra dövlət və təşkilatlar ölkəmizə qarşı qərəzi və ikili standartlarla yanaşmalarını davam etdirirlər. Bu gün onları narahat edən həm də məkrli planlarının və xəbis niyyətlərinin qarşısının Prezident İlham Əliyev tərəfindən alınmasıdır.

Heç şübhəsiz ki, son hadisələr bir sıra dövlət və təşkilatların nə qədər riyakar və ikiüzlü olduğunu bir daha göstərdi. 30 il ərzində xalqımızın başına gətirilən müsibətləri görməzlikdən gələn, "siz müharibə edə bilməzsiniz, işğalla barışın" deyən bu dövlət və təşkilatlar indi Azərbaycan əleyhinə bəyanat verməkdə sanki növbəyə düzülüblər. Görünən odur ki, çox narahatdırlar. Bəs, bizim torpaqlar 30 il ərzində işğal altında olanda, yaşayış məskənlərimiz, mədəniyyət abidələrimiz və məscidlərimiz dağıdılanda bu dövlət və təşkilatlar niyə bu qədər narahat deyildilər?

Bu gün həm də Gəncənin ermənilər tərəfindən növbəti dəfə raket hücumuna məruz qalmasından 3 il ötür. Həmin terror hadisəsi baş verərkən onlar niyə bu qədər narahat olmadılar? Ermənistan niyə cəzalandırılmadı? Niyə bu ölkəyə qarşı sanksiya tətbiq edilmədi? Bütün bu təzyiq cəhdlərinə və təxribatlara baxmayaraq, Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün məqsəd və hədəflərinə nail olacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Nizami Səfərov. Buyurun.

**N.Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Cənubi Qafqaz regionunda davamlı sülhün və təhlükəsizlik rejiminin bərqərar olması istiqamətində Azərbaycan tərəfindən atılan ən ciddi addımlar fonunda Ermənistan yenə də öz destruktiv fəaliyyətini davam etdirir və bəzi beynəlxalq hüquqi mexanizmlərdən ölkəmizə qarşı istifadə etməyə çalışır. Bu məntiqsiz fəaliyyətin bir nümunəsini də biz Beynəlxalq Ədalət Məhkəməsində "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya"dan irəli gələn mübahisənin baxışında müşahidə edirik. Ermənistan növbəti dəfə Beynəlxalq Ədalət Məhkəməsinə Azərbaycana qarşı yeni 9 aralıq tədbirinin tətbiq edilməsi haqqında müraciət etmiş-

dir. Vaxtın azlığını nəzərə alaraq, mən bunlardan yalnız birinə diqqət yetirməli olacağam.

Mənfur qonşularımızın təqdim etdiyi sayca 7-ci aralıq tədbirinə əsasən məhkəmədən xahiş olunur ki, Azərbaycan Qarabağın hazırkı və ya keçmiş siyasi nümayəndələrinə və ya hərbi qulluqçularına qarşı cəza tədbirləri tətbiq etməkdən çəkinsin. Öz ağırlığı və ictimai təhlükəliliyi dərəcəsinə görə, bütövlükdə, cinayət əməllərinin iyerarxiyasında ən yüksək pillədə yerləşən beynəlxalq cinayətlər, soyqırımı, insanlıq əleyhinə cinayətlər, müharibə cinayəti törədən şəxslərin xüsusi ilə təhlükəli, transmilli cinayətlər, terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi kimi əməllər törədən separatçı rejimin funksionerlərinin cinayət məsuliyyətindən kənarda qalması beynəlxalq birliyin qlobal səviyyədə tətbiq etdiyi qanunun aliliyi prinsipinə zidd olması ilə yanaşı, eyni zamanda, müharibə canilərinin cəzasızlığına gətirib çıxara bilərdi. Azərbaycan insanlığa qarşı cinayət törədən şəxsləri cəzalandırmaqla təkcə öz adından deyil, eyni zamanda, bütöv bəşəriyyət adından çıxış edir və heç kəsdə zərrə qədər şübhə olmasın ki, bütün canilər ədalət mühakiməsi qarşısında cavab verəcəklər və layiq olduqları cəzalara məhkum olunacaqlar.

Cənab Prezidentin Xankəndi şəhərində Azərbaycan xalqına müraciətində qeyd etdiyi kimi, "Bakıya tanklarla gəlmək istəyən, bizi hədələyən 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Onların acı aqibəti bütün müharibə canilərinə ən ciddi xəbərdarlıqdır".

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Düz 35 il düşmənçilik və təfriqə toxumu səpilən, azərbaycanlılarla hayların etnik uyumsuzluğundan dəm vuran Robert Köçəryan kimi ünsürlərin meydan suladıqları Xankən-

dinin baş meydanında ilk dəfə sülhə çağırış edildi. Sülhdən danışan, qarşı tərəfə münasibətləri yoluna qoymağı təklif edən isə hay nasizminin bütün vəhşiliklərini görmüş bir xalqın lideri idi.

İnanmıram, AŞPA və Avropa parlamentindəki səlibçi təfəkkürlülər, makronyanlılar cənab İlham Əliyevin oktyabrın 15-dəki bu çıxışını dinləyəndə öz sivilizasiyalarından saydıqları ilə bizim aramızdakı fərqi görüb utansınlar. Onlarda belə bir hiss yoxdur.

Amma Qərbdəki həmin çevrələr də yaxşı anlayırlar ki, işğal altında olmuş şəhər və kəndlərinin böyük bir hissəsinin altı üstünə çevrilmiş, xalqı etnik təmizləmə ilə üzləşmiş bir ölkənin Prezidenti üçün bizə qarşı düşmənçilik siyasəti yeritmiş və bu gün də yeridən Ermənistana sülh təklif etmək elə də asan deyil. Asan olmadığı kimi, bu, həm də qarşı tərəfə edilən böyük lütfdür. Çünki bunu həmin Ermənistan üzərində mütləq qələbə çalmış, hər baxımdan ondan dəfələrcə güclü olan bir dövlətin başında duran sərkərdə edir. Bu o sərkərdədir ki, savaş zamanı həmin Ermənistan Gəncə, Bərdə kimi cəbhədən onlarca kilometr uzaqdakı şəhərlərimizin yaşayış məhəllələrinə raket zərbəsi endirəndə də belə müdrikcəsinə davranmış, Ermənistanın altını üstünə çevirə biləcəyimiz halda, buna getməmişdi.

O zamankı kimi Prezidentimizin indiki davranışının da arxasında ilk növbədə soyuq məntiq dayanır. Məsələ burasındadır ki, əksər böyük güclərin əks mövqedə olmalarına rəğmən, Azərbaycanın İkinci Qarabağ savaşında qələbə çalması, ərazi bütövlüyünün bərpası və torpaqları üzərində suverenliyinin tam təmini yönündə atdığı ardıcıl addımlar mahiyyətcə, qlobal konyunkturanı dəyişən geosiyasi inqilabdır. Bu, bəlli çevrələrin reallaşdırdıqları "rəngli inqi-

lablar"dan fərqli olaraq, Azərbaycanla yanaşı, həm də, bütövlükdə, regionun subyektliyinin artmasına xidmət edir ki, Fransa kimi bəzi dövlətləri, gücləri qıcıqlandıran da elə budur.

Ümid etmək istərdim ki, Ermənistanda Azərbaycanın sülh təklifinə müsbət cavabın onların da subyektliyini artıracağının, cənab İlham Əliyevin haylarla çəkişməsiz yaşadığımız vaxtları xatırladarkən nədən Qarabağla yanaşı, İrəvan, Göyçə, Zəngəzur və Dərələyəzin adlarını çəkdiyinin fərqindədirlər. Azərbaycan dəfələrcə bildirib ki, hələ sovet dönəmində Qarabağda yaşamış haylarla doğmalarının geri dönmələrinin əleyhinə deyil. Amma yəqin, qarşı tərəf də, onun arxasındakılar da bu dönüş yolunun ikitərəfli olduğunu, Qərbi azərbaycanlıların da öz yurdlarına qayıtmalarını yaxşı dərk edirlər. İstənilən halda bu...

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. İnsan həyatında bir ömrə bərabər anlar olduğu kimi, dövlətlərin, xalqların da həyatında əsrlərə bərabər anlar olur. 2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyevin Azərbaycanın üçrəngli bayrağını Xankəndidə ucaltdığı həmin anlar məhz hər birimizə bir ömrə bərabər, həm də xalqımıza əsrlərə bərabər çox qürurlu tarixi anlar yaşatdı. Çünki Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağının ucaldığı həmin an 2 əsrdən artıq bir zaman kəsiyində bir sıra dövlətlərin Azərbaycana qarşı yeritdiyi məkrli siyasətin çox təhlükəli alətinə çevrilmiş erməni oyunlarının rəsmən bitdiyi andır. Xankəndidə dalğalanan bu üçrəngli bayraq Azərbaycanın bütün ərazilərində suverenliyinin bərpa edilməsi ilə yanaşı, həm də zaman-zaman bizi insan və torpaq itkilərinə, dağıntılara və humanitar fəlakətə məruz qoyan qüvvələrin acınacaqlı sonluğunu, Azərbaycan

ərazilərinin 30 illik işğalına, xalqımızın iztirabına göz yuman beynəlxalq riyakarlığın aqibətini ifadə edir.

Ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə, xalqımız əzm və iradə, Ali Baş Komandan ətrafında bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək öz haqq savaşında düşməni məğlub etdi. Bu zəfər həm də xalqımızın çoxəsrlik yaddaşını, kimliyini xatırlatdı. Genlərində var olan cəsarətini ayağa qaldırdı, öz mənliyini bərpa etdi. İtirilmiş torpaqların geri alınması dünya tarixində çox nadir hadisə, MDB məkanında isə bir ilkdir. Azərbaycanın bu möhtəşəm qələbəsi sözlə ifadəsi çox çətin olan milli qürurun, milli iradənin təntənəsidir. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda bu savaşdan təkcə qalib dövlət kimi deyil, həm də daha böyük hədəflərə çatmağa qadir bir dövlət kimi çıxması yolunda canını fəda etmiş şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə sağlam, uzun ömür arzulayıram. Bu qələbənin nəticəsini qoruyub saxlamaq və inkişaf etdirməkdən ötrü çox şərəfli tarixi missiyasını davam etdirmək yolunda Prezident İlham Əliyevə uğurlar arzulayıram.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli. Buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Mən də 18 oktyabr, müstəqilliyimizin bərpası münasibəti ilə xalqımızı, sizi təbrik edirəm. Dövlətimizin müstəqilliyi, Qarabağ uğrunda mücadilə edən, fədakarlıq edən hər kəsin, o cümlədən şəhidlərimizin ruhu, əsgər və zabitlərimizin, qazilərimizin fədakarlığı qarşısında baş əyirəm. Fəxr edirəm ki, 18 oktyabrda burada mən də müstəqilliyə səs verənlər sırasında olmuşam. Əlbəttə ki, məni son dövrlər

bir şey daim düşündürür. Bu ondan ibarətdir ki, biz Qarabağda Ali Baş Komandanın cəsarəti, iradəsi ilə təşkil olunmuş ordumuzun, Silahlı Qüvvələrimizin gücü, xalqımızın birliyi və dayağı ilə böyük bir qələbə qazandıq. Şuşada, Xocalıda, Füzulidə, Xankəndidə bayrağımızı ucaltdıq. Bəs, belə olan zaman mənim partiyamın və özümün müxalifətçiliyinə nə ehtiyac var? Bəs, 50 milyonluq xalqın, bütün İslam dünyasının, türk dünyasının başını ucaldan bir şəxsin qarşısında mənim müxalifətçiliyimin haqqı varmı? Bu məsələlər məni çox düşündürür. Əlbəttə, deyilə bilər, necə ki, deyilir, ay ruslar da getmir. Demokratiya və sair. Demokratiya bir prosesdir. Müstəqillik günü deyil ki, onu o cür qeyd edək. Əgər bu böyük problemlərimizi, Qarabağ məsələmizi, suverenliyimizi təmin etmişiksə, demokratiya, insan hüquqları, rifahın daha da yaxşılaşması uğrunda cənab Prezidentin yanında olmalıyıq, nəinki qarşısında.

Əvvəla, çaxır nə qədər tünd olsa, öz qabını partladar. Amma nə üçün biz antaqonizm, ziddiyyətlər, qarşıdurma, nifrət, təcavüzkarlıq üzərində köklənməliyik? Nə üçün bir-birimizə ağıllı məsləhətlər verməyək və dediyim məsələlərdə, istiqamətdə irəliləməyək?

Mənə bu yaxınlarda bir nəfər ziyalımız müraciət etdi. Dedi, müəllim bir ağ kağızın üzərinə bir nöqtə qoyur və şagirdlərə göstərir ki, burada nə görürsünüz? Hamı deyir qara nöqtə. Deyir ki, necə olur, siz mənim əlimdə bu qədər böyük ağ kağızı görmürsünüz, ancaq o qaranı görürsünüz?

Müxalifət, bu nə haqq-hesabdır sizdə. Bu boyda ağı, bu boyda qələbələri, 210 il ərzində qazandığımız bu qələbələrdə ancaq qara nöqtələri axtarmaq lazımdır? Nə qədər gec deyil, sizi uyarlığa, bir yerdə olmağa, sevgiyə çağırıram. Gəlin, bağrımıza basaq.

İqtidarın da içində təcavüzkar çıxış edənlər var. Misal üçün, bu yaxınlarda bir məmur dedi ki, guya biz 30, 50 yaş pensiya yaşı tələb edirik. Belələri də var. Amma müxalifət, sənin təcavüzkarlığın nifrət üzərində qurulub. Olmaz. Gəlin xalqımızı sevək, Allahımızı sevmək kimi, Allah da bizim bir-birimizi sevməyimizi...

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Hörmətli sədr, əziz həmkarlar. Tarixi qaliblər yazır və cənab İlham Əliyevin işğala, separatizmə son qoyub Xankəndidə bayrağımızı ucaltması məhz qalibin yazdığı tarixdir.

Təsis olunduğu gündən üçrəngli bayrağımız Xankəndidə dalğalanmamışdı. Nə Cümhuriyyət tarixində, nə də Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırıldığı dövrdən bəri heç bir Azərbaycan rəhbəri Xankəndiyə getməmişdi. Daha doğrusu, nə Vəzirovu, nə də Mütəllibovu Xankəndi maraqlandırmırdı, AXC–Müsavat iqtidarı isə, ümumiyyətlə, paytaxtdan çıxmağa qorxurdu. Bu mənada Prezident İlham Əliyevin Xankəndi triumfu dövlətçilik tariximizin ən önəmli prosesləri ilə bərabər tutulacaq hadisədir.

Bilirsiniz ki, sabah, 18 oktyabr müstəqilliyimizin bərpası günüdür. Bizim üçün çox önəmli təqvimdir. Amma unutmayaq ki, dövlətimizin müstəqilliyinin bərpası, sadəcə, Sovet İttifaqında gedən, SSRİ-nin dağılmasına gətirib çıxaran ictimai-siyasi proseslərin zəruri nəticəsi idi. Ulu Öndərin dediyi kimi, “bu, taleyin Azərbaycan xalqına və bütün İttifaq dövlətlərinə əvəzsiz töhfəsi idi”.

İki il öncə möhtərəm Prezidentin Füzulidə də dediyi kimi, “Rusiya özü dövlət suverenliyi haqqında aktı bizdən qabaq qəbul etmişdi”. Yəni artıq dağılmış bir İttifaqdan kənarda qalıb müstəqilliyini bərpa etmək hansısa ictimai-

siyasi qüvvənin xidməti, yaxud hansısa şəxslərin mübarizə tarixi ola bilməz. Həmin dövrdə bir mübarizə tarixi olub, o da siyasi səhnədə bir-birini əvəzləyən yaramaz qüvvələrin Heydər Əliyevlə mübarizəsi. Ona görə də biz müstəqilliyin bərpası prosesinə yanlış prizmadan baxmamalıyıq.

Əslində, bizim özümüzün hər kəsdən, hətta Baltikyanı "suverenlik paradı"ndan daha öncə müstəqillik yolumuz var. Azərbaycanın dövlət suverenliyi 1969–1982-ci illərdə təməli qoyulmuş potensiala əsaslanır. Həmin illər görülən işlər miqyasına və xarakterinə görə keyfiyyətcə yeni mərhələyə – müstəqilliyə aparan yol idi. Sadəcə, bu keçidi təmin etmək lazım idi.

Heydər Əliyevin siyasi hakimiyyətdən kənarlaşdırıldığı şəraitdə Azərbaycan Xalq Cəbhəsi–Vəzirov–Mütəllibov tandemi bu keçidi nə təmin edə bilmədi, nə də etmək istəmədi. Çünki onların ümdə hədəfi müstəqillik deyil, Heydər Əliyevin qayıtmasını əngəlləmək idi və bu yolda nəinki Xankəndi, bütövlükdə, Qarabağ və Şərqi Zəngəzuru qurban verməyə hazır idilər və verdilər də.

Düzdür, Heydər Əliyevsiz 6 il bizi 10 illərlə geri saldı, amma 32 il sonra cənab İlham Əliyevin Xankəndidə ucalan bayrağı o deməkdir ki, biz artıq yeni tarixə qədəm qoyuruq və fəxrlə deyə bilərik ki, Heydər Əliyevin görmək istədiyi Azərbaycan məhz bu idi.

Cənab İlham Əliyev Xankəndidən bəyan etdi ki, "Biz bu qələbəyə layiqik". Həqiqətən də, Heydər Əliyev yolunda olan hər kəs bu qələbəyə layiqdir. Bu qələbə Ulu Öndər ideologiyasının və şəxsən cənab İlham Əliyevin qələbəsidir.

İndi biz əbədi olaraq Xankəndidəyik, amma unutmayaq ki, qalibiyyətin davamlılığının yeganə qarantı Heydər Əliyev siyasi kursudur və bu kursa münasibətdə ikinci bir

səhvi tarix Azərbaycana bağışlamaz. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. İlham Məmmədov. Buyurun.

**İ.Məmmədov.** Hörmətli xanım sədr, söz verdiyiniz üçün çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev oktyabr ayının 15-də Xankəndi şəhərində Azərbaycanın dövlət bayrağını ucaltdı və xalqımıza müraciət etdi. Qeyd etdi ki, "bu gün biz buradayıq, Xankəndidəyik. Xankəndinin mərkəzində Azərbaycan gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarixi hadisə haqqında danışmaq mənim üçün bəlkə də o qədər də düzgün deyil. Çünki bu tarixi biz yazmışıq, bu tarixi biz yaratmışıq".

Bəli, möhtərəm Prezidentimiz, Azərbaycan xalqının gözü qarşısında 20 il gecə-gündüz fəaliyyətinizlə, bir gün də istirahət etmədən bu şanlı tarixi Azərbaycan xalqı üçün Siz yaratdınız, Siz yazdınız. Bu, xalqımızın gözü qarşısında baş verdi.

Xankəndidə, Xocalıda, Ağdərədə bayrağımızın ucaldılması Azərbaycanın tarixi qələbəsi və öz torpaqları üzərində tam suveren hüquqlarının bərpasıdır. Məhz 15 oktyabrda cənab Prezidentimiz Xankəndidə dövlət bayrağımızı ucaltmaqla 100 illik Qarabağ münaqişəsinə nöqtə qoymuş oldu. Azərbaycan son 200 ildən artıq müddətdə ilk dəfə belə möhtəşəm qələbələrə imza atır. Bütün bunlar məhz cənab Prezidentimizin yürütdüyü siyasət nəticəsində baş verdi.

Möhtərəm Prezidentimizin liderliyi ilə xalqımızın xəyalları və yuxuları çin oldu. Xankəndidə bayraq ucaltmaqla cənab Prezidentimiz dünyada çox güclü arxa-dayaq və maliyyə dayaqları olan dünya erməni lobbisinin indiyədək və bundan sonra ola biləcək bütün xəyallarının üzərindən birdəfəlik xətt çəkdi, "Böyük Ermənistan" xül-

yasını tarixin zibil qutusuna tullamış oldu.

Xankəndiyə bayraq sancmaqla ən əsas Azərbaycan Cənubi Qafqazda liderliyini və yeni reallıqlar yaratdığını ortaya qoydu. Dünya hələ Azərbaycanın bu qələbəsindən çox öyrənməli olacaq. Dünyanın ən müxtəlif beyin mərkəzləri tərəfindən çoxsaylı analitik və elmi məqalələr, kitablar yazılacaq. Çünki Qarabağ məsələsi illər boyu dünyanın ən mürəkkəb münaqişələrindən biri hesab olunmuşdur. Cəmi 44 günə zəfərlə başlayıb 23 saata tamamlandı bu qələbəmiz.

Bu gün dünyada belə bir analoq hələ ki, yoxdur. Bundan sonra da cənab Prezidentimizin liderliyi altında hələ çox qələbələrə imza atacağıq. Onun rəhbərliyi ilə türk dünyasının birliyinə, inkişafına xidmət edən Zəngəzur dəhlizi də açılacaqdır. İnşallah, bundan sonra xalqımızın nəsibi yalnız qələbələr olacaqdır.

Ulu Tanrı cənab Prezidentimizi qorusun! Ulu Tanrı Azərbaycanı qorusun!

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı. Buyurun.

**M.Qasımlı.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. 15 oktyabrda bütün millətimiz və dünya möhtəşəm bir tarixi hadisəyə şahidlik etdi. XXI əsrin ən böyük strateqi, görkəmli dövlət və siyasi xadim cənab Prezidentimiz İlham Əliyev Xankəndidə uzun illərdən sonra ilk dəfə dövlət bayrağımızı ucaltmaqla tariximizdə daha bir ilkə imza ataraq 1988-ci ildən bəri ilk dəfə olaraq bütün ərazilərimizdə dövlət suverenliyini qurdu.

Bu, millətimizin uzun illərdən bəri olan arzu və istəklərinin yerinə yetirilməsi olub daha geniş məna daşıyır. Bu, dövlət suverenliyimizin tam qurulması, milli qürur, milli ləyaqət, milli fəxarət, milli başucalıq günüdür. Bu,

millətimizin və dövlətimizin düşmənlərinə, bədxahlarına qarşı yenilməz sərkərdə qətiyyəti, mahir diplomatiyası ilə dayanaraq təklif edilən yarımçıq qərarlara qətiyyən razılaşmayan, üzün illər boyu həlli mümkünsüz hesab edilən bir məsələnin inanılmaz ustalıqla həll edilməsidir. Həlli mümkün olmayanı həll edənlər isə dahilər, dühalar olurlar, milləti və dövləti durduqca əbədi yaşayırlar.

Xankəndidə dövlət bayrağımızın ucaldılması əsrlər boyu millətimizə, bütün türk xalqlarına qarşı quraşdırılmış çirkli planların tarixin zibilliyinə atılması, 100 illik səhvin düzəldilməsi, millətimizin üstündəki ləkənin tam silinməsi, türk xalqlarının başının uca edilməsi, separatçılıq və terrorizmdən əziyyət çəkən digər xalqlara nümunə göstərilməsi, millətimizin və dövlətimizin tarixində yeni bir mərhələnin, parlaq üfüqlərin açılması olduğundan, seçicilərim bu günün dövlət bayramı günü kimi qeyd edilməsindən ötrü müvafiq qərar qəbul edilməsini istəyirlər. Millətimizin arzusu olan bu təklifin müzakirə olunacağına ümid edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Hörmətli xanım sədr, şərait yaratdığınız üçün təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən də təbriklərə qoşuluram – həm müstəqillik günü ilə əlaqədar, həm də bayrağımızın dalğalanması ilə əlaqədar olaraq.

Mən fikirlərimə Ümummilli Liderimizin sözləri ilə başlamaq istəyirəm. Deyir: “Müstəqillik bizim ən böyük sərvətimizdir”. Məhz bu sözlərlə ki, müstəqillik, doğrudan da, bizim ən böyük sərvətimizdir. Müstəqilliyin ən birinci şərti isə müstəqil ölkənin ərazi bütövlüyüdür. Yəni Ümummilli Lider Azərbaycanın müstəqilliyini qorudu,

saxladı, cənab Prezidentimiz isə Azərbaycanın ərazi bütövlüyünü təmin etdi.

Cənab Prezidentin Xankəndidə olan çıxışından 2 məqamı nəzərə çatdıracağam. Cənab Prezident orada çoxlarına çox böyük bir tarix dərsi verdi və başa saldı. Həm erməni separatçılarına, həm də Azərbaycanın daxilində olan və xaricdən Azərbaycan dövlətinə, xalqına, millətinə iftiralar atanların hər birinə bir mesaj göndərdi.

Birinci qeyd etdi ki, mən bu meydanda dövlət tədbirlərində iştirak edəndə siz heç doğulmamışdınız. Yəni mənim bura gəlməyim birinci dəfə deyil. Mən dəfələrcə bu meydanda olmuşam və ən yüksək dövlət tədbirlərində iştirak etmişəm. Xankəndinin yolunu tanımayanlar Xankəndi haqqında danışır.

İkinci mesajı nədən ibarət oldu? Qeyd etdi ki, ətrafa baxın, ətrafda tikilənlərin əksəriyyətini mənim atam tikibdir. Yəni mən öz evimə gəlmişəm. Atamın qurduğu, yaratdığı, tikdiyi, inkişaf etdirdiyi bir şəhərə gəlmişəm. Bu şəhər mənim şəhərimdir, mənim atam bu şəhərdə, bax, bu işləri görübdür və bundan sonra da mən bunu davam etdirəcəyəm. Bu, çox böyük bir mesaj idi. Ona görə də cənab Prezidentə can sağlığı arzulayıram.

Ramiz Rövşənin yaxşı bir sözü var. Sual verirlər ki, 44 günlük müharibə ilə əlaqədar nə deyə bilərsən? Deyir: "44 günlük müharibədə cənab İlham Əliyev elə bir tarix yazıb ki, mən nə yazım bundan sonra, tarixi o yazıbdır". Yəni söz çatmır ki, o tarixi hansısa şeir, hansısa yazı formasında qələmə gətirib, ortaya qoyasan.

Allah Prezidentimizi qorusun! Allah ona can sağlığı versin! Qələbə həmişə Azərbaycanladır! Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim.

Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Biz

indi gündəliyin məsələlərinə keçirik. Bildiyiniz kimi, gündəliyimizdə bu gün 16 məsələ var. 1-ci məsələ Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında qanun layihəsidir. İnzibati ərazi bölgüsü ilə bağlı olduğuna görə layihə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Bu məsələyə Regional məsələlər komitəsində baxılıb və məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Siyavuş Novruzova söz vermək istəyirəm. Siyavuş müəllim, buyurun, məsələ haqqında məlumat verin.

**S.Novruzov**, *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Möhtərəm Prezidentimiz tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi bu qanuna əlavə olunmuş xəritələrə dəyişikliklərin edilməsini nəzərdə tutur. Dəyişikliklərə əsasən Bakı şəhəri Binəqədi rayonunun inzibati ərazi dairəsi tərkibindəki Binəqədi qəsəbəsinin ərazisindən 1213 hektar, Abşeron rayonunun inzibati ərazisindən 375 hektar və 2223 hektar torpaq sahəsi Sumqayıt şəhərinin inzibati ərazisinə verilir. Yəni bunun səbəbləri ilə əlaqədar mən bir neçə məqamı diqqətə çatdırmaq istəyirəm.

Bununla əlaqədar qeyd etmək istəyirəm ki, həm Ümummilli Lider, həm cənab Prezident, həm də Birinci vitse-prezidentimiz həmişə Sumqayıt şəhərinə diqqət və qayğı ilə yanaşıblar, Sumqayıtın inkişafı üçün lazın olan tapşırıqlar, göstərişlər veriblər və addımlar atıblar. Ümum-

milli Lider 16 dəfə Sumqayıt şəhərində olubdur. Cənab Prezidentimiz prezidentliyi dövründə 32 dəfə Sumqayıt şəhərində olubdur. Birinci vitse-prezidentimiz həm cənab Prezidentlə, həm də fərdi qaydada dəfələrlə Sumqayıt şəhərində olubdur, müxtəlif binaların, zavodların, fabriklərin, məktəblərin, bağçaların təməlinin qoyulmasında, açılışında iştirak edibdir. Qeyd etmək istərdim ki, bununla yanaşı, Sumqayıtda xeyli sayda yeni istehsal müəssisələri açılıbdır. Sumqayıt şəhərində, demək olar ki, Cənubi Qafqaz regionunda olmayan 36 sənaye müəssisəsi, texnopark, sənaye məhəllələri, fabrik və istehsal müəssisələri tikilib və fəaliyyətə başlayıb. Nəticə etibarı ilə on minlərcə insan bu gün orada ən yüksək əmək haqqı ilə daimi işlə təmin olunub. Bundan başqa, Sumqayıt şəhərində ən nümunəvi Heydər Əliyev mərkəzlərindən biri, YAP-ın binası, "ASAN xidmət", Olimpiya idman kompleksi, vətəndaşların istifadəsi üçün Sumqayıt bulvarı, parklar, bağlar, yaşayış kompleksləri və digər tikililər var. Bu gün Sumqayıtda yeni bir futbol meydançası açılıb ki, indi orada dünyanın bütün çempionatlarını keçirmək mümkündür.

Burada həm də əhali həmişə diqqət mərkəzində olub, əhalinin yaxşı yaşaması, yəni iş yerlərinin açılması, yeni işlərə cəlb olunması üçün daimi tədbirlər görülür.

Təqdim olunan qanun layihəsində söhbət nədən gedir? 1965-ci ildən Sumqayıt sakinləri bu ərazilərdə yaşayır. Bu ərazilər Nazirlər Sovetinin 1987-ci il qərarı ilə Sumqayıtda ağır sənaye müəssisələrində çalışan insanlara bağ ərazisi kimi verilibdir və bu gün o ərazidə 9000 ailə yaşayır. Bu 9000 ailənin təminatı Sumqayıt şəhərinin üzərindədir. Amma xəritələrdə isə bunlar digər rayonların, Binəqədi və Abşeron rayonlarının ərazisinə düşür. O baxımdan da cənab Prezidentimiz bu xəritənin dəqiqləşdirilməsi

üçün qanunvericilik təşəbbüsü göstərdi. Bu insanlar seçkilərdə Sumqayıt şəhərində səs verirlər, bunların bütün sosial təminatı, kommunal xidmətləri, qazı, işığı, suyu Sumqayıt şəhərinə bağlıdır. Ona görə də bu dəqiqləşmə aparılır ki, bu insanlar bundan sonra müraciət etdikləri ünvanda rahat şəkildə, hər hansı bir qeyri-adilik olmadan problemlərini həll etsinlər. Ona görə də deputat həmkarlarımdan xahiş edirəm ki, bu bir xəritə düzəlişidir, dəstəkləsinlər. Bizim komitə yekdilliklə bunu dəstəkləyib Milli Məclisin gündəliyinə təqdim edibdir. Mən həmkarlarımdan da səs verməlerini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Bəli, çıxış edən yoxdur və mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---:|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələlərə keçirik və onu da deyim ki, növbəti 12 məsələ ikinci oxunuşda olan qanun layihələridir. 2-ci məsələ Energetika haqqında qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**S.Qurbanov**, *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Hörmətli deputat həmkarlarım, qanun layihəsi barədə birinci oxunuşda ətraflı izahat verilib. Qanun layihəsinin birinci oxunuşunda hörmətli Fəzail Ağamalı, Tahir müəllim Rzayev, Qüdrət Həsənquliyev, Vüqar Bayramov, Asim Mollazadə çıxış edərək dəstək nümayiş etdirdilər. Qanun layihəsini yenidən dəstəkləməyə dəvət edirəm. Xatırlatmaq istəyirəm ki, qanun layihəsinin qəbulu bizdə energetika sahəsinin dövlətsizləşdirilməsinə, bu sahəyə investisiyanın və bərpa olunan enerjinin təşviq edilməsinə, o cümlədən ekoloji tarazlıq pozulmadan, enerjinin hasilatına, emalına, istehsalına xüsusi bir töhfə olacaq. Yenidən dəstəkləməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur. Bilirsiniz ki, biz qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Vahid Əhmədov. Vahid müəllim, buyurun.

**V.Əhmədov**. Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Qanun layihəsi çox vacib bir qanun layihəsidir. Ümumiyyətlə, mən hesab edirəm ki, çərçivə qanunudur. Çünki 10 sahəni əhatə edən bir qanundur. Biz keçən sessiyada "Elektroenergetika haqqında" Qanun qəbul etdik. Onun qəbul edilməsində əsas məqsəd elektroenergetika sahəsində liberallaşmanı həyata keçirmək və müəyyən sahələri özəlləşdirməyə verməkdən ibarət idi. Bu qanun layihəsi də çox vacib bir layihədir. Ona görə də bu qanundan irəli gələn həmin qanun da məhz ona görə qəbul olundu ki, ümumiyyətlə, elektroenergetika sahəsində, o cümlədən energetika sahəsində müəyyən liberal dəyərlər həyata keçirilsin. Mənim bu qanunla əlaqədar elə bir ciddi iradım yoxdur, ona səs verəcəyəm. Amma bir neçə məsələyə aydınlıq gətirmək istərdim.

Birincisi, qanunun 1.1.11-ci maddəsində "sərbəst istehlakçı" və 1.1.12-ci maddəsində "sərbəst olmayan istehlakçı" anlayışları var. Burada meyarlardan söhbət gedir. Yəni müəyyən qədər hədlər qoyulması. Bunlar hansı meyarlardır? Mən bilmək istərdim ki, hansı meyarlara əsasən "sərbəst istehlakçı" və "sərbəst olmayan istehlakçı" anlayışları gündəmə gətirilir?

İkinci bir məsələ. Burada 3-cü maddədə "Bu qanun enerjinin avtomobil, dəmir yolu, hava və nəqliyyat vasitələri ilə daşınmasına, həmçinin nüvə materiallarının idxalına, ixracına, istehsalına, saxlanılmasına və emalına şamil olunmur" yazılıb. Amma burada qanun layihəsində enerjinin nəqli ilə əlaqədar 1.1.3-cü və 5-ci xüsusi maddələr var. Niyə şamil olunmur? Nüvə materiallarının idxalını, ixracını mən başa düşürəm. Bu, müəyyən qədər başa düşüləndir. Amma niyə avtomobil, dəmir yolu, hava, su nəqliyyatına şamil edilmir? Çünki buradan da, mən

deyərdim ki, kifayət qədər enerji daşıyıcıları daşınır. Yəni bu məsələyə aydınlıq gətirilməsini istərdim.

Üçüncü məsələ. Mən istərdim ki, ümumiyyətlə, qanun layihəsində energetika sistemində olan itkilərin qarşısını almaq üçün hansı isə bir maddə əlavə edilsin. Çünki energetika sistemində kifayət qədər böyük itkilərimiz var. Ona görə, belə hesab edirəm ki, buna da müəyyən qədər aydınlıq gətirmək lazımdır.

Qanun layihəsində təzə bir anlayış var, "tənzimləyici" anlayışı və bu, 8-ci maddədə əksini tapıb. Amma qanun layihəsində o tənzimləyicinin, ümumiyyətlə, nədən ibarət olması, hansı punktla yerinə yetirilməsi öz əksini tapmayıb. Amma göstərilir ki, hansı isə qanunda bu öz əksini tapacaq. Yəni bu da bizim üçün qeyri-müəyyənlikdir. Buna da müəyyən qədər aydınlıq gətirmək lazımdır.

Bir də yekun müddəalarla əlaqədar mən sual vermək istərdim. Burada, qanun layihəsində göstərilir ki, deməli, 15.3-cü, 15.4-cü maddələr 2025-ci il iyulun 1-dən, amma 8-ci, 10.2-ci və 15.6-cı maddələrin ikinci cümləsi isə 2028-ci il iyulun 1-dən qüvvəyə minir. Niyə 2028-ci il nəzərdə tutulur? Çünki burada əsas söhbət tənzimləyicidən gedir. Yəni tənzimləyicinin müəyyən qədər fəaliyyət göstərməsi üçün haradasa 4 ilə qədər vaxt lazımdır. Yəni bu məsələlərə aydınlıq gətirilməsini xahiş edirəm. Qanun layihəsinə səs verəcəyəm və millət vəkillərini də səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sadiq müəllim, kifayət qədər suallar var. İndi cavab verəcəksiniz, yoxsa?

**S.Qurbanov**. Çox sağ olun, Sahibə xanım. Bəli, bir hissəsinə istəyirəm indi cavab verim. Enerji itkisi haqqında hörmətli deputat həmkarımızın verdiyi suala cavab budur ki, bu, "Enerji resurslarından səmərəli istifadə və

enerji effektivliyi haqqında" Qanunda nəzərdə tutulub. Yəni bu qanun çərçivə qanunudur, ümumiləşdirir. Amma bu, adın çəkdiyim qanunda nəzərdə tutulub? Bəli, tənzimləyici haqqında qanun da olacaq. Bunu bizə həm Administrasiyada, həm də Energetika Nazirliyində bildirdilər. Bununla bağlı ayrıca qanun gələcək. Elektroenergetika haqqında qanun layihəsinin müzakirəsində, – yəni bundan əvvəl qəbul etdiyimiz qanunda bu məsələlər müzakirə olundu, – Vahid müəllim də fəal iştirak etdi. İkinci oxunuşda, hətta üçüncü oxunuşda da dəvət etmişdik. Hörmətli nazirimiz də iştirak etdi və o suala orada cavab verilmişdir. Mən burada bir də təkrarlamaq istəmirəm.

Qanunun qüvvəyə minməsi ilə də bağlı. Burada bu qanunun mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulub. Birincisi, bəli, qanunvericilik bazasının formalaşması, daha doğrusu, ayrılması və bundan da sonra, nəhayət, bu tənzimləyici. Qanunun özündə göstərilir ki, bunlar, tənzimləyici haqqında yeni qanun qüvvəyə mindikdən sonra vaxt var, yəqin ki, bu məsələyə aydınlıq gələcək.

**Sədrlik edən.** Sağ olun. Mən düşünürəm, qalan məsələlərə ya işçi qaydada aydınlıq gətirərsiniz, ya da iclasa da dəvət edə bilərsiniz. Yenə də sözünüz var? Buyurun.

**S.Qurbanov**. Bir də "sərbəst istehlakçı" və "sərbəst olmayan istehlakçı" ilə də bağlı məsələlər "Əsas anlayışlar"da verilib. Yəni "illik elektrik enerjisi sərfiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən həddə və ondan yaxın olan istehlakçı", təbii ki, müəyyən dövrdən sonra əgər satış burada liberallaşacaqsa, yəni vətəndaşın, istehlakçının sərbəst, istədiyi istehsalçıdan enerji alması mümkün olacaqsa... Amma bəzən zərərçəkən istehlakçılar da ola bilər. Yəni həmin o "sərbəst olmayan istehlakçı" və "sər-

bəst istehlakçı” anlayışı ona görə verilib ki, yəqin, onlar minimum həddən yuxarı olan tariflərdən istifadə edə bilməyəcəklər.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz səsverməyə keçirik. Bu, ikinci oxunuşdur deyə, biz qanun layihəsinə maddələr üzrə və sonra bütövlükdə səs verəcəyik. Layihədə 6 fəsil, 28 maddə var. Mən onları fəsil-fəsil səsə qoyacağam. İndi isə xahiş edirəm, preambula və I fəsilə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
İndi isə II fəsli səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
III fəsli səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

IV fəsli səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu fəsil də qəbul edildi.
İndi isə V fəsli səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu fəsil qəbul edildi.
Nəhayət, VI fəsli səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu fəsil də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, indi isə 3-cü məsələyə keçirik. “Lisenziyalar və icazələr haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə çıxarılır. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitə sədrinin müavini hörmətli Əli Məsimliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, gündəliyin 3-cü məsələsi olan “Lisenziyalar və icazələr haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi oktyabrın 2-də birinci oxunuşda təqdim edilən zaman dəyişikliklərin mahiyyəti barəsində yetərincə məlumat verilmişdir. Ona görə də mən yalnız xatırlatma xarakterli

bir neçə məqamı qeyd etmək istərdim.

Dəqiqləşdirmə və uyğunlaşdırma xarakterli bu qanun layihəsində lisenziyaların verilməsi şərtlərinin Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən tələblərlə, icazələrin verilməsi şərtlərinin isə Azərbaycan Respublikasının qanunları ilə yanaşı, eyni zamanda, digər normativ aktlarla müəyyən edilən tələblər əsasında tənzimlənməsi müəyyənləşdirilir. Qüvvədə olan qanunda dəyişikliklərdə bəzi dəqiqləşmələrin aparılması və digər normativ hüquqi aktlara uyğunlaşdırılması da nəzərdə tutulub.

Hörmətli sədr, birinci oxunuşdan sonra layihə barəsində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinə heç bir irad və təklif daxil olmayıb. Ona görə də bu dəqiqləşdirmə və uyğunlaşdırma xarakterli layihənin olduğu kimi səsə qoyulmasını və deputat həmkarlarımın bu dəyişikliklərə səs vermələrini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən maddələr üzrə səsver-

məyə keçirəm. Qanun layihəsi 12 maddədən ibarətdir, mən onları 4-4 səsə qoyacağam. İndi isə xahiş edirəm, 1-ci, 2-ci, 3-cü və 4-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə növbəti 4 maddəyə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

Son 4 maddə. 9-cu, 10-cu, 11-ci və 12-ci maddələrə də münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bunlar da qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ 4-cü məsələdir. Bu məsələ Mülki Prosessual Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, "Notariat haqqında" və "İnzibati icraat haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**N.Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. İlk oxunuşda qanun layihəsi ilə bağlı geniş məlumat verilmişdir. Hər hansı rəy və təklif yoxdur. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsini mən əvvəlcə əsas kimi səsə qoyacağam. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə yazılanlar yoxdur. Əvvəlcə maddələr üzrə səsverməyə keçirik. Bu layihədə 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam.

İndi isə xahiş edirəm, 1-ci və 2-ci maddələrə səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi, çox sağ olun.

3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə, əslində, məsələlərə keçirik. Çünki 5-ci və 6-cı məsələlər möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. 5-ci məsələ "Polis haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 6-cı məsələ isə "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihələridir. Layihələrə dair ümumi məlumat vermək üçün mən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun, məlumat verin.

**B.Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar. Birinci oxunuşda layihələrlə bağlı kifayət qədər ətraflı, geniş məlumatlar verilib. Həmkarlarımızdan dəstək çıxışlarını biz eşitdik. Yalnız hörmətli Qüdrət müəllimin müəyyən arqumentləri oldu. Amma, əlbəttə, bu arqumentlər bizim üçün çox qiymətlidir. Yalnız Azərbaycan Konstitu-

siyasının 96-cı maddəsinin III hissəsinə əsasən layihələrdə dəyişikliklər yalnız qanunvericilik təşəbbüsü hüququndan istifadə edən subyektin razılığı ilə mümkündür. Belə bir razılıq yoxdur və üstəlik, bütövlükdə, birinci oxunuşda parlamentin birmənalı şəkildə dəstəyi olduğu üçün yenidən səsə qoyulmasını və həmkarlarımızın dəstək vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Bəhruz müəllim. Hörmətli həmkarlar, ikinci oxunuşdur, xatırladım. Ona görə əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 5-ci məsələ əsas kimi qəbul edildi.

İndi isə xahiş edirəm, 6-cı məsələyə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də əsas kimi qəbul edildi.

Mən görürəm, müzakirəyə yazılanlar var. Buyurun. Fəzail Ağamalı buyursun.

**F.Ağamalı.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Təqdim edilən qanun layihələri olduqca əhəmiyyətlidir. Nəzərə alsaq ki, Azərbaycan dövlətçiliyində polis orqanlarının xüsusi yeri var, xüsusi rolu var və onun təkmilləşməsi zamanın tələbidir. Azərbaycan dövləti inkişaf etdikcə, gücləndikcə, təbii ki, onun polis orqanları da adekvat olaraq öz fəaliyyətlərini bu şəkildə qurmalıdırlar.

Təqdim edilən "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsində xüsusi fəsil – "Daxili işlər orqanları üçün kadr hazırlığı" fəsli əlavə edilir. Kifayət qədər əsaslandırılmış layihədir. Burada söhbət daxili işlər orqanlarında işləyən və daxili işlər orqanlarında işləmək istəyənlərin təhsil səviyyəsinin artırılmasından gedir. Burada onların xüsusi təyinatlı müəssisələrdə təhsil alması öz əksini tapır.

Əlbəttə, polis orqanlarında həm fiziki hazırlıq, həm də intellektual hazırlıq son dərəcə vacibdir. Bu baxımdan təqdim edilən qanun layihəsi dediyimiz o şərtlərə yüksək səviyyədə cavab verir. Digər tərəfdən, qanun layihəsində "təhsili başa vurduqdan sonra daxili işlər orqanlarında xidmət keçmək istəməyən, yaxud həmin müddətdə öz arzusu ilə daxili işlər orqanlarında xidmətdən çıxan şəxslərin" oxuduğu müddətdə dövlətin ona sərf etmiş olduğu vəsaitin geri qaytarılması öz əksini tapır. Düşünürəm ki, bu, olduqca vacibdir, yəni bundan istifadə edib başqa məqsədlər üçün yer qoyulmur.

Bu qanun layihəsini mən tamamilə ciddi qanun layihəsi kimi qəbul edirəm. Buna səs verəcəyəm.

Eyni zamanda, hörmətli xanım sədr, mən keçən dəfəki

müzakirədə replika ilə polis orqanlarında çalışanların sosial vəziyyətinin yaxşılaşması ilə bağlı təkliflər irəli sürmüşdüm.

Gəlin etiraf edək ki, bu gün, doğrudan da, Azərbaycan xalqı müzəffər Ali Baş Komandanın bizə təqdim etmiş olduğu olduqca sevincli günlər yaşayır. Xəyallarımız, anılarımız həqiqətə çevrilib. Bunu edən cənab Prezidentdir. O formalaşdırdığı bütün komanda ilə ona imza atmışdır. Bu komandanın içərisində daxili işlər orqanları, əlbəttə, xüsusi yer tutur. Lokal xarakterli antiterror əməliyyatından keçən 25 gün ərzində o cin yuvasında, şeytan yuvasında bütün təmizlik işlərini aparan bizim daxili işlər orqanları, xüsusi xidmət orqanları oldu. Cənab Prezident görünməmiş bir sürətlə, bir gün ərzində Əsgəranda, Xankəndidə, Xocalıda, Xocavənddə bayrağımızı qaldırdı. Burada bizim polis orqanlarımızın, heç şübhəsiz ki, böyük əməyi, böyük xidməti var. Bu baxımdan onların sosial vəziyyətinin yaxşılaşdırılması da zəruridir.

Yeri gəlmişkən, mən demək istərdim ki, Milli Məclis də cənab Prezidentin siyasi komandasının tərkib hissəsində həm bu 44 günlük müharibədə, həm də ondan sonrakı zaman kəsiyində üzərinə düşən vəzifəni uğurla yerinə yetirdi. Sahibə xanım, biz bunu deməliyik. Sizin də burada xüsusi əməyiniz oldu. Siz ən müxtəlif platformalarda Azərbaycana düşmən kəsilənlərin qarşısında fədakarcasına mübarizə apardınız, sözünüzü dediniz, fikrinizi ifadə etdiniz.

Milli Məclisin deputatları imkanları daxilində eyni şəkildə bu prosesin içində oldular. Burada fəaliyyət göstərən siyasi partiyalar dövlətimizlə, ordumuzla bərabər oldu. Bu komandanın içərisində, bir daha təkrar edirəm, polis orqanlarında çalışanlar həm də şəhid oldular, qazi oldular. Bunlara xüsusi diqqət verilməlidir və təbii ki,

dövlətin onlara böyük diqqəti var.

Hörmətli xanım sədr, mən təklif edərdim ki, polis orqanlarında çalışanların sosial vəziyyətinin, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, onlara ev verilməsi, xüsusi ilə əmək haqlarının artırılmasına böyük ehtiyac var. Onların əmək haqqı xidmətlərinə adekvat deyil. Bu məsələ qanun şəklində təqdim olunsun və biz məmnuniyyətlə müzakirə edək, qəbul edək. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Həm 5-ci, həm də 6-cı məsələdə təklif edilən dəyişiklikləri bəyənirəm. Xüsusi ilə 6-cı məsələdə irəli sürülən 2 yenilik, hesab edirəm ki, aktualdır.

Birincisi, 18 yaşından yuxarı olan və polis təhsil müəssisələrində təhsil alan kursantların polisin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi işinə cəlb edilməsi məsələsini çox vacib hesab edirəm. Bu, həm də əlavə kadrların polisin qarşısında duran vəzifələrin yerinə yetirilməsinə cəlb edilməsi üçün çox vacib bir mənbədir. İkincisi isə, gələcək polis zabitlərimizin artıq indidən təcrübə keçmələridir. Bu, qabaqcıl ölkələrin təcrübəsində var. Hesab edirəm ki, bu, Azərbaycanda da öz təsdiqini tapacaqdır.

Eyni zamanda, ikinci məsələ. Təhsil müəssisələrində dövlət hesabına təhsil alırlar və sonra 7 il işləmək barədə öhdəlik götürürlər və bunu etməkdən imtina etdikdə çəkilən təhsil xərci geri alınır. Hesab edirəm, bu, düzgün qərardır ki, dövlət çəkdiyi xərci geri istəməlidir. O olmayacaqdı, onun yerinə başqası qəbul olunacaqdı. Azərbaycanda polis orqanlarında işləmək çox böyük nüfuzdur, polisə hörmət çox böyükdür və gənclərimiz arasında polis nəfəri, polis zabiti olmaq istəyənlərin sayı həddindən artıq çoxdur. Mən arzu edərdim və inanıram ki, bizim qəbul

edəcəyimiz bu müddəa elə nəzəri olaraq qalacaqdır. Onu tətbiq etməyə ehtiyac qalmayacaq. Bununla belə, əlbəttə ki, qanuni tələblər yerinə yetirilməlidir.

Eyni zamanda, deputat həmkarım Fəzail müəllimin polisdə işləyənlərin sosial vəziyyətinin yaxşılaşdırılması məsələsini diqqətdə saxlamasını mən də dəstəkləyirəm. Bu günlərdə müzakirə edəcəyimiz 2024-cü ilin dövlət büdcəsində bu məsələnin də nəzərə alınmasını istərdim.

Polis işçilərimizin Azərbaycanda ictimai təhlükəsizliyin qorunmasında böyük xidmətləri var. Polis işçilərimiz həm Birinci Qarabağ müharibəsində, həm də Vətən müharibəsində çox böyük qəhrəmanlıqlar göstərmişlər. Onların içərisində milli qəhrəmanlar, şəhid olanlar var. Eyni zamanda, işğaldan azad olunan zonaya əsgərlərimizdən sonra ilk daxil olanlar polis işçiləri olublar və orada ictimai asayişin qorunmasında çox böyük işlər görüblər. Heç təsadüfi deyil ki, bir günlük antiterror əməliyyatından sonra keçmiş separatçı rejimin nəzarəti altında olan ərazidə bu gün ictimai asayişi polis nəfərləri qoruyurlar. Heç də təsadüfi deyil ki, Xankəndi şəhərinin ilk komendantı Daxili İşlər Nazirliyinin vacib strukturlarından birinin əməkdaşı təyin edildi. Bunun özü polisə bəslənən yüksək etimadı və gördükləri işi göstərir.

Eyni zamanda, deyim ki, Azərbaycanda polis öz üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirir. Mən bir misal çəkmək istəyirəm. Bəlkə də həmkarlarım bu məlumatdan xəbərdardırlar, deyillərsə, diqqətə çatdırmaq istəyirəm.

Srağagün deputat seçildiyim Mingəçevir şəhərində polis şöbəsi böyük bir faciənin qarşısını aldı. Axşamçağı 14–16 yaşlarında 3 yeniyetmə gənc valideynlərindən xəbərsiz yaxınlıqdakı Bozdağa gəzintiyə çıxdılar. Biri geri qayıtdı,

2-si isə yolu azdı. Onların geri qayıtmaq şansı, demək olar ki, yox idi. Çünki ora insanlar, demək olar ki, getmirlər, dərələrdə vəhşi heyvanlar var. Bununla belə, polis şöbəsi və Fövqəladə Hallar Nazirliyinin yerli bölməsi operativ qərargah yaratdılar. Ailələrə psixoloji yardım göstərildi. Bütün tədbirlər görüldü, bütün kollektiv bu işə qoşuldu. Helikopter çağırıldı. Dağ massivinin üzərində görüntü əldə edildi, həmin yeniyetmələr tapıldılar və sağ-salamat ailələrinə qaytarıldılar. Polisin, Fövqəladə Hallar Nazirliyinin birgə fəaliyyəti olmasaydı, şəhər böyük bir faciə yaşayacaqdı. Bizim rəşadətli polisimiz və Fövqəladə Hallar Nazirliyinin işçiləri qəhrəmanlıq göstərərək 2 ailəni sevindirə bildilər.

Təklif edilən dəyişiklikləri dəstəkləyirəm. Hesab edirəm ki, bu, polis orqanlarımızın daha yaxşı fəaliyyət göstərməsi üçün çox gözəl zəmin olacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz qanun layihələrinə maddələr üzrə və bütövlükdə səs verməliyik. 5-ci məsələnin səsverməsinə keçirik. Bu, "Polis haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Xatırladım ki, qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

2-ci maddəni indi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə qanun layihəsinə bütövlükdə münasibət bildirin. “Polis haqqında” Qanundan söhbət gedir.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, ikinci oxunuşda qəbul edildi.

İndi isə 6-cı məsələnin səsverməsinə keçirik. “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə qanun layihəsində 5 maddə var. Mən onların üçünü bir, ikisini isə bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

4-cü və 5-ci maddələri mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsinə bütövlükdə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

7-ci məsələyə keçirik. "Peşə təhsili haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Elm və təhsil komitəsində baxılıb. Mən indi sözü

komitənin sədri hörmətli Bəxtiyar müəllim Əliyevə verirəm. Bəxtiyar müəllim, buyurun.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli deputatlar. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda təklif edilən dəyişikliyə əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "müharibə veteranı" adı almış şəxslərin dövlət peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcəkdir.

Qanun layihəsi Elm və təhsil komitəsində ikinci oxunuşda geniş müzakirə edilmişdir. Heç bir əlavə və dəyişiklik təklif edilməmişdir. Komitənin qanun layihəsi barədə rəyi müsbətdir. Deputat həmkarlarımdan qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəxtiyar müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Bu, ikinci oxunuşdur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Mən görürəm, yazılanlar var. Ancaq, hörmətli həmkarlar, xatırladıram, bu, ikinci oxunuşdur. Xahiş edirəm, əgər

çıxış edənlər birinci oxunuşun tələblərinə görə çıxış edəcəklərsə, mən söz verməyəcəyəm. Təkid edən var bu 3 nəfərdən?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Mən səsə qoyuram onda.

Hörmətli həmkarlar, heç kim sonra küsməyəcək ki? Etibar müəllim, təkid edirsən?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yox.

İkinci oxunuşa uyğun təklif varsa, çıxış etsinlər. Yoxdursa, mən səsə qoyacağam.

Hörmətli həmkarlar, bu, 7-ci məsələdir, maddələr üzrə münasibət bildirməliyik. Qanun layihəsində 2 maddə var. 1-ci maddəyə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

8-ci məsələyə keçirik. "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Elnur Allahverdiyevə söz verirəm. Elnur müəllim, buyurun.

**E.Allahverdiyev,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsində müvafiq icra ha-

kimiyyəti orqanı tərəfindən hüquqi və fiziki şəxslərə arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, arxiv sənədlərinin təsdiq olunmuş surətlərinin sürətləndirilmiş qaydada verilməsinə görə tutulan dövlət rüsumlarının ləğv edilməsi nəzərdə tutulur. Qanunda nəzərdə tutulan dəyişiklik arxiv xidmətlərinin daha da operativ icrasının təmin olunmasına yönəlibdir.

Qanun layihəsi ikinci oxunuşda diqqətinizə təqdim olunur. Birinci oxunuşdan sonra layihədə hər hansı dəyişiklik edilməsi və dəyişikliklə bağlı təklif irəli sürülməyib. Sizi təklif olunan qanun layihəsinə səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Elnur müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsinin səsvermə prosesinə keçirəm. Maddələr üzrə səs verəcəyik. Qanun layihəsi 1 maddədən ibarətdir. Xahiş edirəm, bu maddəyə səs verək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə qanun layihəsinə mən bütövlükdə səs verməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

9-cu məsələyə keçirik. "Ovçuluq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Rzayevə söz vermək istəyirəm. Tahir müəllim, buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklərə birinci oxunuşda deputat həmkarlarımın hamısı səs verdi. Heç bir təklif irəli sürülmədi. İkinci oxunuş üçün səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, xatırladıram, ikinci oxunuşdur, qanun layihə-

sinə əsas kimi münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verMədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun,  qanun layihəsi əsas kimi qəbul edildi.

Sabir Rüstəmxanlı. Sabir müəllim, məsələ ilə bağlı çıxış etmək istəyirsiniz. Buyurun.

**S.Rüstəmxanlı.** Söz verdiyinizə görə təşəkkür edirəm. Qanun layihəsinə elə bir ciddi təklifim, iradım yoxdur, qəbul etməliyik. Amma mən  ovçuluqla bağlı başqa bir məsələ barədə fikrimi hörmətli Məclisə çatdırmaq istəyirəm.

Bu da ondan ibarətdir ki,  bir ara, –  indiki vəziyyəti bilmirəm, – müxtəlif ölkələrdən Azərbaycana gəlib burada nadir heyvan ovçuluğu ilə məşğul olanların sayı artmışdı. Dağ kəllərinin, qartalların sayı az qalıb. Ərəb ölkələrindən, başqa ölkələrdən müəyyən, deyək ki, vəsaitlə gəlirlər və o vəsaitin Azərbaycan büdcəsinə heç bir ciddi xeyri də yoxdur. Amma gəlirlər, bizim nadir heyvanların kökü kəsilir. Mənim yadıma gəlir, böyük yazıçı Çingiz Aytmatov bununla bağlı "Dağlar silkələnir" adlı bir roman da yazmışdı ki, niyə xaricilər gəlib bizim dağlarımızın heyvanlarını vurmalıdırlar.

Mən, sadəcə, bu vəziyyəti dəqiq təsəvvür edə bilmirəm, amma bununla bağlı şikayətlər var. Mən istərdim ki, bizim Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu məsələdə ciddi bir qayda yaratsın.

Bir dəfə ov mövsümündə “Qızılağac” qoruğuna getmişdim. Mən elə bilirdim, orada müharibə gedir. Səhərdən axşama qədər atışmadır. Ora bir də quş gələr? Yəni mən görürəm ki, “Qızılağac” qoruğu artıq əvvəlki qoruq deyil. Orada çox az quş qalıb. Başqa sahələrdə də. Onsuz da Azərbaycan təbiəti heyvanlarla, quşlarla o qədər zəngin deyil. Düzlər səhralaşıb. Dağlarda qalan müəyyən miqdarda sərvətlər var, təbii sərvətlərdir. Onlar nadir heyvanlardır. Onların da kökünün kəsilməsinə yol vermək olmaz.

Ümumiyyətlə, xaricdən gələnlərin Azərbaycanda o cür ov etməsinə, məncə, qadağa qoymaq lazımdır. Nə özümüz, nə də onlar. Heyvanlar onsuz da tək-tək qalıb, o da ən uca yerlərdə. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Sabir müəllim. Ancaq onu da deyim ki, bundan əvvəl təhsil haqqında məsələ ilə bağlı mən 3 nəfərə söz vermədim. Onlar indi məndən küsdülər.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Necə yəni əhəmiyyəti yoxdur? Qanun layihəsi çox əhəmiyyətlidir. Xahiş edirəm, Milli Məclisdə qəbul olunan qanunlara belə qiymət verməyin.

Hörmətli həmkarlar, biz qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirik. Layihədə 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam. İndi 1-ci və 2-ci maddələrə səs verək.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci və 2-ci maddələr qəbul edildi.

3-cü və 4-cü maddələri mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəliyin 10-cu məsələsinə keçirik. "Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. "Sosial xidmət haqqında" Qanunda edilən dəyi-

şiklik barədə birinci oxunuşda ətraflı məlumat verilmişdir.

Bir daha xatırlatmaq istəyirəm ki, dəyişikliyin mahiyyəti valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş internat tipli təhsil müəssisələrində yaşayan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi xarakteri daşıyır.

Birinci oxunuşdan ötən müddət ərzində qanun layihəsinin mətnində dəyişiklik olmayıb, təkliflər, iradlar daxil olmayıb. Xahiş edirəm, deputat həmkarlarım ikinci oxunuşda da qanunu dəstəkləsinlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Layihədə 2 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ 11-ci məsələdir. “Poçt haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Mahir Abbaszadəyə söz verirəm. Mahir müəllim, buyurun.

**M.Abbaszadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun, Sahibə xanım. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Təsdiq edilən qanun layihəsi "Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli Fərmanına əsasən hazırlanmışdır.

Xanım sədr, birinci oxunuşda hörmətli millət vəkilləri qanunun qəbuluna müsbət münasibətlərini bildirmişdilər. Komitəmizin rəyi müsbətdir. İkinci oxunuşda da qanun layihəsinin səsə qoyulmasını Sizdən xahiş edirik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Mahir müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə yazılan yoxdur. Biz qanun layihəsini maddələr üzrə qəbul etməliyik. Qanun layihəsi 1 maddədən ibarətdir. Xahiş edirəm, bu maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| --- | --- |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə qanun layihəsinə bütövlükdə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| --- | --- |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

12-ci məsələ "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Məşhur Məmmədova söz verirəm. Məşhur müəllim, buyurun.

**M.Məmmədov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli Sahibə xanım, dəyərli həmkarlar. Qanun layihəsinin təqdimatı artıq birinci oxunuşda edilmişdir. Xatırlatmaq istəyirəm ki, təklif olunan dəyişik-

lik fiziki şəxs tərəfindən xüsusi istehlak üçün ölkəyə gətirilən mobil cihazların qeydə alınmasına görə tutulan dövlət rüsumu məbləğinin azaldılmasını nəzərdə tutur.

Hörmətli millət vəkilləri, birinci oxunuşda layihənin predmeti ilə bağlı hər hansı əlavə rəy və təklif olmadığından, layihənin lehinə səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Məşhur müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi, çox sağ olun.

2-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qanun layihəsinə biz indi bütövlükdə münasibət bildirməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik, hörmətli həmkarlar. Bu, 13-cü məsələdir. Bu məsələ Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Musa müəllim, layihəyə sizin komitədə baxılıb. Buyurun, bununla bağlı Siz məlumat verin.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hər 2 qanun layihəsi cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olubdur.

Qanun layihələrinin mahiyyəti barədə birinci oxunuşda

sizə ətraflı məlumat vermişdim. Bir də onu qeyd etmək istəyirəm ki, hər 2 qanun layihəsinə təklif olunan dəyişikliklər dəqiqləşdirmə və uyğunlaşdırma xarakteri daşıyır.

Xahiş edirəm, ikinci oxunuşda qanun layihələrinə səs verəsiniz. Ötən müddət ərzində mətndə heç bir dəyişiklik olmayıbdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə yazılanlar yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Bu qanun layihəsi 2 maddədən ibarətdir.

Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəni mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.
İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Musa müəllim, Siz məlumat verəndə 2 qanun layihəsi dediniz. Bu, bir qanun layihəsidir. Sonra həmkarlarımızda çaşqınlıq olmasın.

Hörmətli həmkarlar, bizim 3 məsələmiz qalır. Bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Odur ki, mən xahiş edirəm, müzakirələr zamanı çıxışlarda birinci oxunuşun tələblərini nəzərə alasınız.

14-cü məsələ. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə təqdim olunur. Məsələyə dair məlumat vermək üçün mən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri hörmətli Ziyafət Əsgərova söz ve-

rirəm. Ziyafət müəllim, buyurun, məlumat verin.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsində müddətli həqiqi xidmətə çağırılan vətəndaşların tibbi müayinəsinin qaydasının təkmilləşdirilməsi nəzərdə tutulur. Belə ki, müddətli həqiqi xidmətə çağırılan vətəndaşların tibbi müayinəsini təşkil edən çağırış komissiyalarının qərarlarının verilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan, qurum tərəfindən yekun tibbi müayinənin aparılması nəzərdə tutulur. "Yekun tibbi müayinənin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir".

Təklif olunan dəyişikliyin qəbulu nəticəsində müddətli həqiqi xidmətə çağırış prosesində şəffaflığın və vətəndaş məmnunluğunun artırılması, çağırışçıların sağlamlıq vəziyyətinin daha da dəqiqləşdirilməsi üçün zəruri şəraitin yaradılması, qeyd olunan fəaliyyətin elektron informasiya sistemləri vasitəsi ilə təşkili və icrası proqnozlaşdırılır.

Hörmətli həmkarlar, sizi qanun layihəsinə səs verməyə çağırıram. Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Yazılanlar var, mən indi söz verəcəyəm. Fazil Mustafa. Fazil müəllim, buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Təbii ki, tibbi müayinədən keçmə məsələsi çağırış

komissiyaları tərəfindən gerçəkləşdirilir və burada artıq yeni bir qurumun yaradılmasından söhbət gedir. Nə baxımdan? Çünki yekun qərarın verilməsi məsələsi varsa, deməli, həmin çağırış komissiyaları ilkin qərarı da verə bilirlər. Onsuz da onların bir səlahiyyəti var idi, əlavə tibbi müayinədən keçirmək üçün çağırışçını digər müəssisələrə göndərə bilirdilər. İndi belə anlaşılır ki, yeni qurum rəy verməsə, çağırış komissiyaları hansı isə bir qərar qəbul etmə imkanına sahib olmayacaq. Bu, 4 maddə üzrə nəzərdə tutulur. Amma mən hesab edirəm ki, bu, şəffaflığın yaranmasında bir az suallar yaradacaq. Çünki məsuliyyətin həddindən artıq, bir neçə qurum arasında bölüşdürülməsi özü ilə müəyyən problemləri də gətirir. Bir qurum, yəni çağırış qurumu buna nəzarət edəndə elə onun özündə şəffaflığın yaranması məsələsini təmin etmək mümkün olsa, burada neqativ halların da ortadan qaldırılması daha çox mümkündür.

İndi ilkin müayinə keçirən çağırış komissiyaları həkimləri yığacaqlar və o, həm də bir vəsait deməkdir. Yəni bir qrup, 15-20 həkimi ayrı-ayrı sahələr üzrə yığırlar, bu komissiyadan keçdi, amma orada hansı isə bir narazılıq, ya da hansı isə bir məsələ olanda bunu sanki məhkəmə orqanı, apellyasiya məhkəməsi kimi biz başqa bir quruma, yuxarı instansiyanın, tibbi müəssisənin qərarına tabe etdiririk. Mənim fikrimcə, burada bir az dolaşıqlıq yarana bilər və bu, həm də qurumlararası müəyyən problemlərin də yaranmasına gətirib çıxara bilər. Bu baxımdan da, məncə, bir qurum üzərində bunun həyata keçirilməsinin yollarını tapmaq daha məqsədəuyğun olar.

Digər tərəfdən, burada narkomanlığın erkən müəyyən olunması məsələsi də qoyulur. Xarici ölkələrdə adətən adamın 18 yaşı tamam olanda hərbi xidmətə çağırılmaq

üçün onu komissiyaya gətirmirlər, 3 il, 4 il öncə, orta məktəbdə oxuduğu vaxtdan onun xəstəliyinin müəyyən olunmasını təmin edirlər. Ona müalicə imkanı verirlər ki, 18 yaşdan sonra o, mümkün dərəcədə hərbi xidmətə yararlı vəziyyətə gətirilsin. Əgər xəstəliyi o müddətdə müalicə oluna bilirsə. Bizdə bu sistemi də dəyişməyimiz lazımdır. Yəni onun erkən daha ciddi tibbi müayinəsini təmin etməyimiz vacibdir.

Bir də bu narkomanlıqla bağlı. Bunu icbari narkoloji müayinədən keçirdik, amma axı, bizdə bunun müalicə sistemi lazımi səviyyədə qurulmayıbdır və bu sahədə də problemlər var. Müəyyən etdin ki, adam narkotik vasitələr istifadə edir, hərbi xidmətə getmədi. Bununla nə oldu? Bunun müalicəsi məsələsi üzərində düşünmək lazımdır, o sistemi qurmalıyıq. Bizdə QHT-lər, filanlar, belə qurumlar yaradırlar. Amma hələ ki, səmərəli müalicə sistemi yarada bilmirik. Ona görə də mən burada iki mərhələli prosesin təmin olunmasının səmərə verəcəyini düşünmürəm. Çünki bir qərar müəyyən olunmalıdır.

Burada ilkin tibbi müayinə ilə yekun tibbi müayinə arasındakı o ziddiyyəti necə ortadan qaldıracağıq? O burada müəyyən mənada problem yaradır. Çünki tibbi müayinəni keçirən qurum həmin komissiyalara tabe olmayacaq. Ola bilsin ki, bir-biri ilə maraqlar toqquşması baxımından bu, əlverişli ola bilər. Amma mexanizmin özünün mürəkkəb olması, hesab edirəm ki, bu, şəffaflıqdan daha çox qurumlar arasında məsuliyyət bölgüsünün ziddiyyətli şəkildə paylaşılmasına gətirib çıxaracaqdır. Yararsız şəxsin hərbi xidmətdən qanunsuz saxlanılması məsələsi, yaxud yararsız şəxsin hərbi xidmətə göndərilməsi məsələsində ziddiyyətlər ortadan qalxmayacaqdır. Ona görə də çox xahiş edərdim, Ziyafət müəllim bu məsələyə aydınlıq gətirərdi. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli. Buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm, hörmətli sədr. Qısa çıxış edəcəyəm. Artıq Fazil müəllim dedi. Belə başa düşürəm ki, yeni qurum yaradılır və eşitdiyimə görə bu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində olacaq. Yeri gəlmişkən, bu nazirliyin adında "əhali" sözü artıqdır.

Belə bir vəziyyətdə, doğrudan da, başa düşə bilmirəm. Doğrudanmı, şəffaflıq artacaq, operativlik, düzgünlük olacaq? Bunu arayışdan da başa düşə bilmədim. İndi bilmirəm, necə olacaq, hansı orqanlar? Əvvəl bir Səhiyyə Nazirliyi var idi, çağırış komissiyasının rəyinə baxırdı, sonra TƏBİB oldu, indi yeni, başqa bir nazirliyə həvalə olunması, məncə, təkrarçılıq yaradar.

Hörmətli sədr, icazənizlə, fürsətdən istifadə edib, ikinci bir məsələni demək istəyirəm. Deməli, 2022-ci ilin yanvar ayında hərbçilərin maaşı 20 faiz artdı. Lakin bu, təqaüdçülərə və ehtiyatda olanlara şamil edilmədi. 50 min təqaüdçü, ehtiyatda olan hərbçi qaldı, çünki onların maaş artımı təminata bağlı idi. Mən istərdim ki, Ziyafət müəllimdən, ya Musa müəllimdən bir arayış olsun.

Nəhayət, ən ciddi bir sözü də ciddi insanlardan eşitmişəm ki, bu yaxınlarda hərbçilərin də pensiya yaşını artırmaq istəyirlər, eyni zamanda, əmək stajını artırmaq istəyirlər. Buna yol vermək olmaz. Mən çox xahiş edirəm, hərbçilərimiz şəhid olub, qan verib. Bu yaxınlarda bir postun yanından keçəndə gördüm, küləkli, yağışlı havada bir nəfər hərbçi postda necə titrəyirdi, amma o, mühafizə xidmətində öz borcunu yerinə yetirib sabitliyi qoruyurdu. İnanın ki, mən istədim gedib onu qucaqlayım. Qucaqlayıb öpəm, paltarımı ona verəm və ya nə isə. Özümü güclə saxladım. Ona görə də bu insanların, hərbçilərimizin əmək haqlarının, pensiyalarının artırılması, pensiya yaşlarının...

Onların haqqı var ki, vaxtında pensiyaya çıxsınlar və ondan sonra mülki həyatlarını qura bilsinlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov. Buyurun.

**A.Hüseynov**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli Ziyafət müəllim təqdim etdi, bu gün müzakirə etdiyimiz qanun layihəsinin başlıca mahiyyətində biz nəyi gördük? Birinci növbədə, qanun qəbul olunacağı təqdirdə müddətli hərbi xidmətə çağırış prosesində şəffaflığın artırılmasını təmin edəcək. Çağırışçıların sağlamlıq vəziyyətinin daha dəqiq qiymətləndirilməsinin həyata keçirilməsi mümkün olacaq. Eyni zamanda, daha böyük üstünlüyü ondan ibarətdir ki, bu proseslər elektron informasiya sistemləri ilə tənzimlənəcək. Bu isə, deməli, insan amilinin və digər neqativ halların aradan qaldırılması deməkdir.

Eyni zamanda, hər birimizə məlumdur ki, Azərbaycan Ordusu dünyanın ən qüdrətli ordularından biridir. Müzəffər Ali Baş Komandanın, ölkə Prezidentinin rəhbərlik etdiyi bu ordu həm 44 günlük müharibədə, həm də 23 saatlıq lokal əməliyyatda öz rəşadətini, öz qüdrətini göstərmiş oldu. Bu da təsadüfi deyil. Birinci növbədə, ordu quruculuğu düzgün şəkildə həyata keçirilib. Ordu quruculuğu da çağırışdan başlayır, çağırış hansı şəkildə daha mükəmməl tənzimlənirsə, buradakı proseslərə daha professional yanaşılırsa, ordunun professionallığı da elə oradan başlayır. Bir daha qeyd edirəm ki, qeyd etdiyimiz bu qanun həmin professionallığın, həmin əzmkarlığın bir nümunəsi olacaq.

Digər tərəfdən, bizim ordumuzun, bizim hərbçilərimizin professionallığını təmin edən digər məsələ onların sosial qayğılarının qarşılanmasıdır, şəhidlərimizə, qaziləri-

mizə dövlət tərəfindən çox yüksək diqqət göstərilməsidir. Ölkə Prezidenti tərəfindən həyata keçirilən bu diqqəti, sosial tədbirləri görürük. Eləcə də Birinci vitse-prezident Mehriban xanım tərəfindən mənəvi diqqət və qayğını görürük.

Mən elə fürsətdən istifadə edib, bir məsələni burada səsləndirmək istərdim. Əslində, bu, bir xahiş xarakteri daşıyır. Qaradağ rayonunun Qızıldaş qəsəbəsində 8 saylı peşə liseyi şəhid Ruslan Səfər oğlu Quliyevin adını daşıyırdı. Elm və Təhsil Nazirliyinin nəzdində olan bu peşə liseyi sonradan digər peşə liseyi ilə birləşdi deyə, həmin ad indi oradan götürülüb. Onun ailəsi çox narahatdır, xeyli müddətdir bununla əlaqədar olaraq digər qurumlara müraciət edir. Mən də buradan həm Elm və Təhsil Nazirliyinin müvafiq qurumlarına, həm də Nazirlər Kabinetinin müvafiq şöbəsinin rəhbərliyinə müraciət edərək çox xahiş edirəm ki, həmin şəhidin adının həmin peşə liseyində qalması ilə əlaqədar müvafiq addımlar atılsın. Təşəkkür edirəm, sağ olun. Qanun layihəsinə səs verirəm, mükəmməl layihədir.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Ziyafət müəllim tamamilə düzgün çatdırdı, bu qanun çox vacib bir qanundur və mütləq qəbul olunmalıdır. Çünki burada məsələlər kifayət qədər aydın şəkildə qoyulub. İlk növbədə qeyd edim, bu gün Azərbaycan Ordusunda Azərbaycan gəncləri arasında elə bir vətənpərvərlik ruhu var ki, heç kəs hərbi xidmətdən yayınmaq istəmir. Əksinə, camaat hərbi xidmətə üz tutur və vaxtı ilə getməyənlər, müəyyən bəhanə edənlər də bu gün müraciət edirlər ki, onları hərbi xidmətə aparsınlar. Bilirsiniz ki, bir neçə güzəşti çıxmaq şərti ilə bizdə

sıravilər 27 yaşına qədər, digər hərbçilər isə rütbəsinə uyğun yaş həddinə qədər hərbi xidmətə cəlb olunurlar. O baxımdan bu məsələnin məğzi nədən ibarətdir?

Rayonlarda çağırış məntəqələrində onlar müayinədən keçirlər, ola bilər ki, onların müəyyən xəstəliyi olur və yaxud olmur. Bunların cəlb olunması üçün hansı isə vahid struktur müəyyənləşir ki, dəqiq müayinəni təmin etsin və göstərsin. Düzdür, rayon çağırış xidmətlərinin tibbi yoxlamaya göndərmək hüququ var. Amma o qədər get-gəllər olur ki, o, heç gedib ünvanına da çata bilmir. Tutalım, götürək ki, birinin astma xəstəliyi varsa, hansısa xəstəxanaya gedib orada həkim tapıb bunu yoxlatdırmalıdır və sair. Bu gedib çatmır, amma aidiyyəti struktur olanda artıq onun məsuliyyəti var, bunu yoxlamalıdır və bizdə çox hallarda olur ki, getmək istəyir, bundan imtina edirlər. Şikayət edirlər ki, biz getmək istəyirik. Mən nəyə əsasən deyirəm? Mən 10 il hərbi xidmətə çağırış üzrə Mərkəzi Çağırış Komissiyasının üzvü olmuşam və iştirak etmişəm. 400-500 nəfər bizə müraciət edirdi, biz o müraciətlərə baxırdıq və onları müayinədən keçmələri üçün aidiyyəti üzrə göndərirdik. Elə olurdu, çoxu müraciət edirdi ki, mən getmək istəyirəm, mənim çəkim ağırdır, deyirlər, olmaz. Mən gedirəm, getmək istəyirəm, heç bir xəstəliyim yoxdur, bir az çəkim ağırdır, amma qaydalara görə olmaz. Yəni bu formada da müraciətlər daxil olurdu.

İkinci tərəfdən, bilirsiniz ki, Azərbaycan Ordusu artıq tədricən müqavilə əsasına keçir. Bu gün orduda cənab Prezidentin, Ali Baş Komandanın rəhbərliyi ilə yeni texnikalar gətirilir, bu texnikanın idarə olunması üçün elə kadrlar olmalıdır ki, onlar 6 ay, bir il, ilyarım deyil, müqavilə əsasında uzun müddətli hərbi xidmətdə qalıb xidmət göstərməlidirlər. Ona görə də böyük əksəriyyət, belə

deyək, haradasa 30 faiz bu gün müqavilə əsasında xidmət keçir. O cümlədən əgər keçmişdə yeməkxanalar, əsgər yataqxanalarının yığışdırılması və sair əsgərlərə həvalə olunurdusa, yenə cənab Prezidentin təşəbbüsü ilə bu məsələ aradan qaldırılır ki, Azərbaycan əsgəri otaq yuya, yemək bişirə bilməz. Bunlar da artıq müqavilə əsasında gedir. Yəni ordunun böyük hissəsi, həm xüsusi təyinatlılar, həm də digər sahələrdə müqavilə əsasında xidmətə keçilir və hesab edirəm ki, gələcəkdə sülh müqaviləsindən sonra bu faiz getdikcə artacaq. Bax, bu cür təyinatın müəyyən olunması yerində və vaxtındadır.

Biz hesab edirik, gələcəkdə sosial təminat sahəsində də belə vahid bir sistem olsun. O xəstəxanaya, bu xəstəxanaya müraciət edirlər. Hərəsi bir rəy verir, bizim vətəndaşlarımız gəlib təqaüdünü və yaxud əlillik dərəcəsini ala bilmir, başlayır şikayət etməyə. Amma vahid sistem olanda, buna vahid sistem nəzarət edəndə, təbii ki, bu məsələ öz həllini tapacaqdır. Ona görə də qanun layihəsinə səs verəcəyik, həmkarlarımızı da səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Sağ olun. Sədaqət Vəliyeva. Buyurun.

**S.Vəliyeva**. Xanım sədr, söz verdiyiniz üçün çox təşəkkür edirəm. Mən də həmkarlarımızın fikirlərini dəstəkləyirəm və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsinə səs verəcəyəm. Lakin bir fikrimi bölüşmək istəyirdim ki, bu gün  dövlət rəhbərliyi tərəfindən, həqiqətən də, ordumuza çox böyük diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, İlham Əliyevin apardığı gənclər siyasəti və ordu quruculuğunun sayəsində Qarabağı görməyən gənclərimiz gedib Qarabağ uğrunda qan töküb torpaqlarımızı düşmən tapdağından azad etdilər.

Mən düşünürəm, yaxşı olardı ki, hərbçilərimizin tibbi-

sosial ekspert komissiyası sivil vətəndaşlardan ayrılsın. Yəni hərbçilər üçün ayrıca tibbi-sosial ekspert komissiyası yaradılsın. Belə olduğu təqdirdə, müvafiq sahədə yaranmış bəzi narazılıqlar da öz həllini tapacaqdır. Yaxşı olardı ki, psixoloji durumu yerində olmayan qazilərə müvəqqəti olaraq müavinətlər verilsin. Çünki onlar yaralanmayıblar, amma psixi durumları normal vəziyyətdə deyil. Hətta psixi xəstəxanada yatıb çıxanlar da var. Amma onların heç birinə yardım göstərilmir. Heç olmasa, müəyyən bir müddət ərzində, bəlkə bir-iki illiyinə bu reabilitasiya dövrü keçənə qədər bu insanlara kömək üçün müəyyən qədər vəsait ayrılsın. Hərbi komissiya isə ayrı olsa, daha yaxşı olardı. Çünki onların zədə, travma aldığı yerlər sivil insanların zədələndiyi və yaxud xəstələndiyi yerdən tamamilə fərqli şəraitdə olduğu üçün onların hərbi komissiyaları ayrı olmalıdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Ziyafət müəllim, buyurun, sözünüz var.

**Z.Əsgərov.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, çıxışlarınıza görə təşəkkür edirəm. Hörmətli xanım sədr, Fazil bəy burada bir məsələ qaldırdı, aydınlıq gətirmək istəyirəm. Əvvəla, yeni qurumun yaradılmasından söhbət getmir. Qurumlar artıq var. Onlar fəaliyyət göstərirlər. Sadəcə, bu qanun qüvvəyə mindikdən sonra ya möhtərəm cənab Prezidentin fərmanı ilə, ya da Nazirlər Kabinetinin qərarı ilə bu səlahiyyət, yəni yekun tibbi rəy vermək səlahiyyəti konkret orqanlardan birinə tapşırılacaq. Bu ya TƏBİB-in, ya da Səhiyyə Nazirliyinin sistemində olacaq, fərq etməz. Onu mərkəzi icra hakimiyyəti müəyyən edəcək. Bu, məsələnin bir tərəfi.

İkinci tərəfdən, bu ikipilləli tibbi müayinənin yaradılmasında məqsəd ondan ibarətdir ki, – Siyavuş müəllim

qeyd etdi, – rayon tibbi komissiyalarında bəzən olur, nəzərdən qaçır, yaxud xəstəliyin müəyyən olunması üçün rayon yerlərində, ola bilsin, kifayət qədər tibbi, texnoloji imkanlar yoxdur. Ona görə də ikinci belə bir müayinənin keçirilməsinə ehtiyac duyulur. Yəni son nöqtənin qoyulması üçün. Mərkəzi tibbi komissiya ona görə yaradılır ki, burada həm çağırışçılar, həm də valideynlər məmnun qalsınlar.

O ki qaldı narkomaniya ilə bağlı. Əlbəttə, bunun üçün Azərbaycanda, Bakı şəhərində, bilirsiniz, Respublika Narkoloji Mərkəzi fəaliyyət göstərir. Orada müalicə nə dərəcədə səmərə verir, vermir, bu, başqa söhbətin mövzusudur. Amma bu qanunun predmetinə daxil olan məsələ ondan ibarətdir ki, bu məsələ şəffaf olsun, bu məsələdə heç bir narazılıq olmasın, bütün vətəndaşlar, xüsusi ilə çağırışçılar, valideynlər razı qalsınlar. Qanunun əsas mahiyyəti bundan ibarətdir. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun, Ziyafət müəllim. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 2 məsələmiz qalır.

Saat 1-dir. Təklif var ki, fasiləsiz.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun.

Növbəti məsələyə keçirik, 15-ci məsələdir. “Mühasibat uçotu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Mən yenə də hörmətli Əli müəllimə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Mühasibat uçotu geniş anlamda uçot-hesabat sisteminin, maliyyə hesabatlarının düzgün aparılması, düzgün qərarların qəbul edilməsi, büdcə vəsaitinin öz təyinatı üzrə xərclənməsi və sair bu kimi vacib məsələlərin nəzarətdə saxlanması nöqteyi-nəzərdən çox mühüm əhəmiyyət kəsb edir.

Ona görə də “Mühasibat uçotu haqqında” Qanunda günün tələblərinə uyğun surətdə təkmilləşdirmələr aparılır. Diqqətinizə təqdim olunan layihədə də 2018-ci ildən bəri bu yöndə qəbul edilmiş qərarların tələb və məntiqindən doğan dəyişikliklər aparılır.

Gündəliyin 15-ci məsələsi olan “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi mühasibat uçotu məcburi qaydada elektron formada aparılacaq mühasibat uçotu subyektlərinin dairəsinin müəyyən edilməsi üçün hazırlanıb. Dəyişikliklər əsasında vergi daxilolmalarında xüsusi çəkisi yüksək olan, məşğul olduqları fəaliyyət sahəsində dövlət üçün strateji əhəmiyyət kəsb edən iri, sonra isə tədricən orta sahibkarlıq subyektlərinin qanunla təsdiq edilmiş “Hasilatın pay bölgüsü haqqında”, əsas ixrac boru kəməri haqqında və digər belə sazişlər və ya qanunlar, o cümlədən neft və qaz haqqında, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında”

qanunlar çərçivəsində fəaliyyət göstərən vergi ödəyicilərinin mühasibat uçotunun elektron qaydada aparılması təklif olunur.

Bu dəyişikliklər Vergi Məcəlləsində təsbit olunan elektron auditin aparılmasına dəstək verəcək. Həmçinin layihədə qeyd olunan vergi ödəyiciləri tərəfindən müvafiq məlumatların aidiyyəti üzrə təqdim edilməsi sahəsində operativlik artacaqdır.

Deputat həmkarlarımı bu dəyişikliklərə səs verməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyacağam. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, gündəliyin sonuncu məsələsinə keçirik, 16-cı məsələdir. “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Adı çəkilən qanunun icrası ilə bağlı bizim komitə tərəfindən Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Mülki Məcəlləyə müsbət rəy verilmişdir. Nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Bu qanun layihəsinə daha 2 komitədə baxılıb. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Əli müəllim, Siz təqdim edirsiniz bu gün. Buyurun, komitənin rəyini bildirin.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Bu layihə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə olunub və dəstəklənib. Ona görə də səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Elm və təhsil komitəsində də baxılıb. Bəxtiyar müəllim, komitənin rəyini bildirin. Buyurun.

**B.Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsinə Elm və təhsil komitəsində baxılmışdır. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda təklif edilən dəyişikliyə əsasən "elektron sənəd" anlayışının tərifi yeni redaksiyada verilir. Komitənin rəyi müsbətdir. Deputat həmkarlarımdan qanun layihəsini dəstəkləməyi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Mən hamıya təşəkkür edirəm.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Növbəti iclasımız ayın 20-də olacaq. Sağ olun.

**ALTINCI ÇAĞIRIŞ
AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
XIV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 146

*Milli Məclisin iclas salonu.*
*20 oktyabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 98 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 96 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Elnur Əliyev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini.

**Tural İsmayılov**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti Aparatının rəhbəri.

**Səbuhi Sadıqov**, Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi İdarə Heyətinin sədri.

**Hidayət Əzimov**, Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi İdarə Heyəti sədrinin müavini.

**Rəhman Hümmətov**, Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.

**Nazim Ziyadov**, Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Agentliyi direktorunun müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

5. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edil-

məsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. Dövlət ehtiyatları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. Aviasiya haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Razi Nurullayev, Emin Hacıyev, Bəhruz Məhərrəmov, Elman

Nəsirov, Musa Qasımlı, Azər Badamov, Naqif Həmzəyev, Vüqar Bayramov, Azay Quliyev

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Qüdrət Həsənquliyev, Vüqar Bayramov, Bəhruz Məhərrəmov, Elnur Əliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllənin adı, preambulası, 1–5-ci maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 97 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllənin 6-cı və 7-ci maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllənin 8–10-cu maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllənin 11–14-cü maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllənin 15–18-ci maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllənin 19–25-ci maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllənin 26–32-ci maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllənin 33–35-ci maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllənin 36–41-ci maddələri qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllənin 42–60-cı maddələri qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllənin 61–75-ci maddələri qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllənin 76–84-cü maddələri qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Məcəllə ikinci oxunuşda bütövlükdə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verməd i | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Qanun layihəsinin 2-ci maddəsi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Qanun layihəsinin 3-cü maddəsi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Qanun layihəsinin 4-cü maddəsi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Qanun layihəsi ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Vüqar Bayramov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
| Lehinə | 95 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə, Fazil Mustafa

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**5. “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**6. "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**7. "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**8. "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**9. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1–4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 5–8-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 9–12-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 13–16-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 17–20-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 21–24-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 25-ci və 26-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

### 10. Dövlət ehtiyatları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Etibar Əliyev, Vüqar İskəndərov, Aydın Hüseynov, Fəzail Ağamalı, Eldar Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**11. "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Ziyafət Əsgərov, Tahir Rzayev, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**12. Aviasiya haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Tahir Kərimli, Siyavuş Novruzov, Tahir Rzayev, Məlahət İbrahimqızı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*20 oktyabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli həmkarlar, hörmətli media nümayəndələri.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 96 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasımıza başlayaq. Hörmətli həmkarlar, xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, 30 dəqiqəmiz var, 10 nəfər çıxış eləyə bilər. Xahiş eləyirəm, gündəlik, ya da gündəmdə olan məsələlərlə bağlı kim çıxış etmək istəyirsə, yazılsın. Buyurun. 10 nəfər çıxış edəcək. Onuncu Azay müəllimin çıxışı olacaq. Fərid müəllim, xahiş edirəm, ancaq 10 nəfərin siyahısı qalsın. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** 1991-ci ilin noyabrında Qarakənd səmasında dövlət adamlarımız terror ediləndə uzun illər Heydər Əliyevin qayğısı ilə yüksək imtiyazlara sahib olan yazıçılardan biri parlamentin tribunasına çıxaraq vertolyotla səfərdən danışıb. Ulu Öndərə qarşı "Qarabağ heç vaxt indiki qədər bizim olmayıb" – söyləmişdi. Doğma kəndinə belə gedə bilməyən qələm adamının aldığı tapşırığı və şəxsi kinini yaxşı bilən Heydər Əliyev ona xas təmkinlə əleyhdarlarını əfv eləmiş, prezidentliyi dövründə keçmiş dönüklərə mənəvi amnistiya vermişdir. 32 il sonra Prezident İlham Əliyev çoxəsrlik erməni-azərbaycanlı müharibəsini Zəfərlə başa vurub dünyaya bəyan edəcək: Qarabağ heç zaman indiki qədər bizim olmayıb.

1991-ci ildə Müstəqillik Bəyannaməsi qəbul olunanda Xankəndi, Qarabağın inzibati ərazisinin üçdə biri Azərbaycanın nəzarətində deyildi. Vətən müharibəsində qazanılan Zəfər millətimizə 20 sentyabr bütövlüyündən doğulan yeni müstəqillik gününü bəxş eləyib. Biz əvvəlki təqvimləri yeniləməli, dördüncü respublikanın qələbə tarixini milli müstəqillik günü kimi rəsmiləşdirməli və əbədiləşdirməliyik. Bəli, ikinci erməni dövləti məhv edildi. 8 noyabr dünya erməniliyi üçün matəm günüdür və onlar 1990-cı illərin Azərbaycanı kimi 13 sentyabr Qaragöl, 12 dekabr Xankəndi–Laçın yolu, 23 aprel Laçın sərhəd məntəqəsi, 28 mart Fərrux yüksəkliyi və nəhayət, 20 sentyabr

Xankəndinin itirilməsini faciə təqvimine çeviriblər. Əlbəttə, bir millət 1990-cı ilin qələbəsini deyil, soyqırımı həyat amalına çevirmişdirsə, sonu belə də olmalı idı.

Birinci Qarabağ savaşından sonra Ermənistanın milli qəhrəmanı olanlar 44 günlük müharibədən sonra titullarını itiriblər. İndi 200 il bir əsatirə çəkilən xərcin əvəzini kim ödəyəcək, yerə salınan bayraq və gerbi haradan asacaqlar? Otuz ilin dağ ordusu silahı təhvil verib mülki geyimdə Azərbaycanı tərk eləyib. Bir nəfər belə hərbi mundiri ilə sərhəd məntəqəsinə gəlib, orda həbs olunub, xalqının qəhrəmanına çevrilməyib. Nə 44 gündə, nə də sentyabrın 20-də bir qəhrəmanlıq səhnəsi yoxdur ki, onun üzərində Azərbaycanın Horadiz əməliyyatına bənzər uğur hekayəsi qursunlar. Göründüyü kimi, qələbəmiz Almaniyanın birləşməsindən də əzəmətli hadisədir. Çünki SSRİ-nin dağılması ilə öz bütövlüyünə qovuşan bir millətdən fərqli olaraq Azərbaycan xalqı torpaqlarını vuruşaraq geri qaytarıb. Ona görə də İlham Əliyev Şuşa və Xankəndini siyasi paytaxta çevirib. Dövlət rəhbərlərini azad torpaqlarda qəbul edir və regionun gələcəyini yeni zirvələrdən verir. Lakin Yaxın Şərq coğrafiyasında genişlənən müharibə sübut edir ki, Ermənistanla sülh müqaviləsi bağlasaq da, sümürgən Qərb imperializmi bizdən əl çəkməyəcək. Niderland, İspaniya, Avstriyanın qərarları dediklərimizə sübutdur. Gəlin, unutmayaq, Qarabağ 30 il bizi birləşdirən bir milli ideal idi. İndi onu itirilmiş sayan dünya erməniliyi Xankəndini səfərbərlik simvoluna çevirərək onun...

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Təşəkkür edirəm, xanım sədr. Qarabağ Zəfəri bizə yalnız suverenliyimizi qaytarmadı, düşmənlərimizi də tanımağa kömək etdi. Jurnalist Sevinc Osmanqızı, Əli Kərimli, Avropaya səpələnən digər milli xainlər. Onlar

qazanılan Zəfəri xalqın gözündən salmaq üçün 24 saat çalışırlar. Deyirdilər ki, İlham Əliyev Qarabağı azad etsə, siyasətdən gedərik, adımızı dəyişərik, bir ömür qul olarıq. Yox, siyasətdən getməyin, qul olmayın, adınızı dəyişməyinizi də istəmirik. Amma vətənə xidmət edin, apardığınız siyasət bu hakimiyyətə qarşı deyil, artıq Azərbaycana qarşı yönəlib. Bilin ki, bu şəkildə müxalifətçilik etmək, hakimiyyəti, İlham Əliyevi zəif salmır, əksinə, gücləndirir. Çünki səbəbləriniz məntiqsizdir, zəif və çılpaqdır. Xalqımızın Rusiyaya birmənalı olmayan münasibətini körükləyib, Rusiya ilə aramızı vurub təzədən münaqişə ocağı yaratmaq istəyirlər. Türkiyə ilə Rusiyanı toqquşdurmaq yolu tuturlar. Rusiya sülhməramlıları da çıxacaq, təbii ki. Amma ölkəmizin apardığı siyasətin tərkib hissəsi olaraq Azərbaycanı tərk edəcəklər. Bu məsələdə onların sözünün bir qram çəkisi və önəmi də yoxdur.

Niyə Qərb dünyasını tənqid etmirsiniz? Niyə Əli Kərimli, Sevinc Osmanqızı və Avropaya səpələnən bir nəfər də bir Qərb ölkəsini tənqid etmir? Axı, onlar Qarabağı Ermənistana vermək istəyirdilər. Adlarına fərqli fikir qoyub, xaricdən maliyyələşən mətbuat da o ölkələri tənqid etmir. Dollar, avro imkan vermir. Onlar ölkəmizə geniş miqyaslı hücuma keçib, amma gözləri önündə dünyanın ayrı-ayrı yerlərində beynəlxalq qanunlar, qətnamələr ayaqlar altında əzilir, səsləri çıxmır. Çünki pulunuz oradan gəlir. Belə çıxır ki, siz pul müqabilində hər şeyi satmağa hazırsınız. O zaman vətəndən, torpaqdan danışmağa haqqınız yoxdur.

Əlavə olaraq, xanım sədr, nəyi demək istəyirəm? Zəfər çalan xalq ədalətsizlik görmək və yaşamaq istəmir. Vəzifəli şəxslər xalqı incitmək yolundan çəkinməlidir, qanunla müəyyən edilmiş vəzifə borcunu yerinə yetirib vətəndaşı da borclu çıxarmamalıdır, onun cibinə girməməlidir. Biz

qələbə çalmışıq, fərqli dövlət olmuşuq və qanunsuzluq edənlərə qarşı çəkinmədən mübarizə aparmaq və onları silib atmaq borcumuzdur və inşallah, edəcəyik. Qarabağda Zəfər çalan Prezidentin ölkəmizdə olan əyrilikləri də düzəldəcəyinə inanırıq və bu mübarizədə onun yanında dayanmağa hazır olduğumuzu bildiririk. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Emin Hacıyev. Buyurun.

**E.Hacıyev**. Hörmətli sədr, hörmətli deputatlar və media nümayəndələri. Azərbaycan tarixinin ən şərəfli dövrünü yaşayırıq. Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyev ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa edərək müasir Azərbaycanın Zəfər tarixini yazdı. Dövlət bayrağımızı əzəli torpaqlarımızda, o cümlədən Xankəndidə ucaltmaqla təkcə ərazi bütövlüyümüzü deyil, milli qürurumuzu bərpa etdi. 20 il öncə Prezident seçilərkən xalqımıza verdiyi bütün vədləri yerinə yetirən cənab İlham Əliyev Azərbaycan xalqına möhtəşəm qələbələr bəxş etdi. Bizə bu sevinci, qüruru yaşatdığı üçün cənab Ali Baş Komandana, qəhrəman ordumuza təşəkkür edir, şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

Təbii ki, bu gün Azərbaycanın qalibiyyətini həzm edə bilməyən bəzi siyasi dairələr var və bu özünü AŞPA-nın, Avropa Parlamentinin, eyni zamanda, Niderland, İspaniya, Avstriya kimi ölkələrin parlament və senatlarının müzakirələrində qəbul edilən qətnamə və tövsiyə sənədlərində bir daha göstərdi. Bu dairələrin Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı nümayiş etdirdiyi mövqe qərəzli, həqiqətdən uzaq və ədalətsizdir. Ölkəmizin lokal xarakterli antiterror tədbirlərinin və erməni əsilli mülki sakinlərin reinteqrasiyası ilə bağlı addımlarının təhrif olunması qəbuledilməzdir.

Humanizmdən dəm vuran qurumlar Ermənistanın Göyçə, Zəngəzur, Dərələyəz və digər bölgələrindən zorla qovduğu etnik azərbaycanlıların taleyinə niyə biganə yanaşır? Ona görə də Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququ üçün dəstək istəyən saysız-hesabsız müraciətlərinə göz yuman təşkilatların etnik ermənilərin hüquqlarını mövcud olmayan təhlükələrdən qorumaq sevdası ikrah doğurur. Əslində, heç bir hüquqi qüvvəsi olmayan, adi kağız parçasından fərqlənməyən bu qətnamə oyunlarının eyni mərkəzdən idarə olunduğu, həmin qurumların isə bir oyuncağa çevrildiyi göz önündədir.

Yaxşı olardı ki, avropalı siyasətçilər Azərbaycanla münasibətləri korlamaq əvəzinə, həqiqətin yanında olub əməkdaşlıq haqqında düşünsünlər. Azərbaycanın Avropanın enerji tələbatının qarşılanmasında mühüm yerə sahib olması, həyata keçirdiyi beynəlxalq infrastruktur layihələri avropalılar üçün olduqca əhəmiyyətlidir. Bu kimi cəhdlər Azərbaycanın regionda davamlı sülhün təmin edilməsi və Qarabağ bölgəsində yerli erməni sakinlərin inteqrasiyasını davam etdirmək əzmini sarsıda bilməz. Bu cür qətnamə qəbul edən təşkilatlara, dövlətlərə ən layiqli cavab müzəffər Ali Baş Komandanın Xankəndidə Azərbaycanın dövlət bayrağını ucaltmasıdır.

Artıq ölkəmiz üçün yeni inkişaf dövrü başlayıb. Uzun illər erməni işğalına məruz qalmış Zəngilan şəhəri bu gün şəhər gününü qeyd edir. İşğaldan azad edilmiş ərazilərimizin sürətlə bərpa edilərək abadlaşması və Böyük Qayıdış proqramının öz büdcəmiz hesabına uğurla həyata keçirilməsi cənab Prezidentin müdrik siyasətinin və dövlətimizin qüdrətinin göstəricisidir. Yaşasın Ali Baş Komandan, yaşasın qalib, suveren, güclü Azərbaycan!

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Avropanın regional mexanizmlərinə münasibətdə Azərbaycan həmişə vicdanlı davranıb. Biz hesab etmişik ki, əgər Avropa Şurası bəşəri haqları, yaxud Avropa İttifaqı əməkdaşlıq prinsipini təşviq edirsə, bu bizim Konstitusiyamızda təsbit olunmuş niyyət və məqsədlərlə üst-üstə düşür və ötən dövr ərzində də uğurlu əməkdaşlıq üçün bizdən asılı olan bütün addımlar atılıb. Amma Avropa təsisatları özlərinin selektiv yanaşmaları ilə gözləntiləri doğrultmur.

Azərbaycanın 20 faiz ərazisi Avropa Şurasının üzvü tərəfindən 30 il işğalda saxlanılıb, amma təsisatın ən azından hüquq adına səmərəli reaksiyasını görməmişik. Avropa İttifaqının bir sıra üzvləri və Avropa Parlamentinin timsalında təsisatları isə açıq formada erməni təcavüzünə və erməni separatizminə dəstək veriblər.

Azərbaycan özünümüdafiə hüququnu həyata keçirib işğal və separatizmə son qoymaqla beynəlxalq hüququn aliliyini təmin edib. Amma bizim BMT Nizamnaməsi ilə təsbit olunmuş haqlarımızı mübahisələndirməyə çalışır, ermənilərin qayıdış hüququndan bəhs edən saxtakar bəyanatlar tirajlayırlar. Baxmayaraq ki, bizim hədəfimizdə erməni deyil, işğal, separatizm və terror olub və ermənilər məhz Ermənistanın və havadarlarının təhriki ilə Qarabağdan köçüb. Onlarla ləyaqətlə davranılıb, rahat gedişləri təmin olunub və proses də vizual formada sənədləşdirilib. Xocalıdan, Kəlbəcərdən qovulan insanlar, Arazın buzlu suyuna tökülən zəngilanlılar Ermənistandan eyni münasibəti görmüşdümü? Biz reinteqrasiya prosesində qərarlıyıq, tərəfimizdən ciddi addımlar atılır və kənar müdaxilələrə də lüzum yoxdur.

İndi hansısa Avropa təsisatı bu məsələyə burnunu soxmaqda israrlıdırsa, o zaman öncə 300 mindən artıq Qərbi azərbaycanlının Ermənistana ləyaqətli qayıdış hüququndan, 700 mindən artıq azərbaycanlının Qarabağ və Şərqi Zəngəzura qayıdışını ləngidən mina terrorundan, onların yerlə yeksan edilmiş evlərindən danışmağa başlasın. Etmirlər, çünki sərf etmir. Onlar üçün maraqlı olan Azərbaycana təzyiq mühiti yaratmaqdır. Bu məqsədlə də "siyasi məhbus", yaxud yeni uydurulmuş "inanclı məhbus" amillərini gündəm edirlər. Sual çıxır. Bunlar müsəlmanın inancına bu qədər həssasdırsa, niyə addımbaşı Avropa küçələrində Qurani Şərif yandırılır? Azərbaycanın radikal ünsürləri də Avropa, Fransa nə istəyirsə, tutuquşu kimi onu təkrarlayır. Adam öz dövlətinə bu qədər düşmən kəsilməz. İnsanın heysiyyatı olar. Vətən müharibəsinə bu ünsürlər Qarabağ və Şərqi Zəngəzurun işğalda qalmasına ümid kimi baxırdılar. Necə ki, bu torpaqların işğalı üzərindən hakimiyyəti 1990-cı illərdə zəbt etmişdilər, 2020-ci ilə qədər də işğal prosesinin davamlılığı onlar üçün iqtidar ümidi idi. Antiterror tədbirlərinə qədər isə bu ünsürlərin öz aləmlərində əsas arqument kimi Xankəndidən çıxış edirdilər. Cənab İlham Əliyev isə ardıcıl zəfərləri ilə Ermənistanı, onun havadarlarını və Xankəndi təlxəkləri kimi mənəvi və siyasi cəhətdən bitmiş bu ünsürləri də yerlə yeksan etdi. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun, Elman müəllim.

**E.Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, dəyərli media nümayəndələri. 2023-cü ilin sonuna qədər Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması ehtimalı həmişəkindən daha çox artıb. Buna böyük ümidlər yaranıb. Müharibəni udan Ali Baş Koman-

danımız da dəfələrlə qeyd eləyib ki, biz sülhə hazırıq və elə bu günlərdə Paşinyan Avropa Parlamentində çıxışında nə qədər ikibaşlı, ziddiyyətli mövqe ortaya qoysa da, hər halda söylədiyi bu oldu ki, ölkəsi də bu ilin sonuna qədər Azərbaycanla sülh müqaviləsi imzalamaq istəyir. Bu reallıqda diqqəti başqa bir məqama cəlb etmək istəyirəm. Fransanın Ermənistandakı səfiri Olivye Dekotini öz əshabələri ilə, Avropa İttifaqının Ermənistandakı nümayəndə heyəti, missiyası ilə birlikdə Azərbaycanla Ermənistanın o şərti sərhədinə gəlir. Bu sərhəddə öz müşahidələrini aparır və bundan sonra bəyanat verir ki, guya Azərbaycan Ermənistan ərazisinin bir hissəsini zəbt edib. Bu bəyanatı da o zaman verir ki, qarşıda – oktyabr ayının sonunda Ermənistanla Azərbaycanın yüksək səviyyəli görüşü gözlənilir. Brüssel görüşündən söhbət gedir. Məqsəd nədir? Ya bu görüş baş tutmasın, ya da baş tutacağı təqdirdə prosesin əsası elə qoyulsun ki, nəticədə heç bir sülhdən söhbət getməsin, regionda heç bir təhlükəsizlik mühiti formalaşmasın. Necə deyərlər, Fransa bulanıq suda balıq tutmaq siyasətini həyata keçirir.

Fransa Ermənistanla hərbi-texniki əməkdaşlıqla bağlı müqavilə imzalamağa hazırlaşır. Bu o deməkdir ki, rəsmi Paris Ermənistanı silahlandırma yolunu seçib. Zəngəzur dəhlizinin açılması söhbəti getdiyi bir reallıqda Fransa Zəngəzurda konsulluq açmaq niyyətini ortaya qoyur. Yəqin ki, biz bu yaxınlarda Fransanın növbəti təxribatçı davranışına şahidlik edəcəyik. Fransa BMT Təhlükəsizlik Şurasında guya azərbaycanlıların erməniləri Qarabağdan zorla qovub çıxarması ilə bağlı bir məsələni gündəmə gətirmək istəyir. Bütün bunlar göstərir ki, Ermənistan bu gün Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasına və sülh müqaviləsinin imzalanmasına nə qədər

mane olursa, ondan bəlkə beş qat artıq Fransa mane olmaqdadır. Ancaq tarixin öz yolu var. Biz qalibik, şərtləri biz diktə eləyirik və inanırıq ki, müharibəni udduğumuz kimi yaxın zamanlarda sülhü də udacağıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı. Buyurun.

**M.Qasımlı.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. İki məsələ barəsində mülahizələrimi söyləmək istəyirəm. Cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında millətimizin və dövlətimizin qazandığı qələbənin miqyasını bilməkdən ötrü əleyhimizə xarici ölkələrdə qəbul edilən qərəzli qərarlara, qətnamələrə diqqət yetirmək kifayətdir. Əgər hər hansı bir ölkədə əleyhimizə bundan sonra da qərar, qətnamə qəbul ediləcəksə, heç şübhəsiz, bu o deməkdir ki, Azərbaycan dövləti cənab Prezidentimizin rəhbərliyi altında həmin ölkələrin üzərində də qələbə qazanıb. Çünki Azərbaycan dövləti lokal xarakterli antiterror tədbirlərini öz ərazilərində aparıb. Heç bir ölkənin ərazisinə bir qarış da daxil olmayıb. Qəbul edilən bütün bu qərarlar qətiyyən qəbul edilə bilməz. Rədd edilib atılmışdır və Azərbaycan üçün heç bir təsir gücü yoxdur. Soruşulur: Azərbaycanlılar tarixi torpaqlarından qovulanda bu qərarı qəbul eləyənlər harada idilər? Xocalı soyqırımı törədiləndə harada idilər? Tarix və mədəniyyət abidələrimiz, məscidlərimiz təhqir olunanda harada idilər? Niyə laqeyd qalırdılar? Azərbaycanlı qaçqınlar və məcburi köçkünlər vaqonlarda, çadırlarda yaşayanda bir sent, bir avro yardım etdilərmi? Etmədilər. Bəs nə üçün bu gün onlar Ermənistana belə qucaq açırlar? Hər şey aydındır. Çünki səlib yürüşünün yeni formasını Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan Prezidenti darmadağın edib.

Toxunacağım ikinci məsələ bundan sonra bizim millət olaraq davranışlarımızla bağlıdır. Bundan sonra bəlli mə-

sələlərlə bağlı bizim əleyhimizə çoxlu qərarlar qəbul ediləcək. Ona görə də diasporumuz, qeyri-hökumət təşkilatlarımız və millət olaraq biz çox fəal olmalıyıq, daim dövlətimizin, cənab Prezidentimizin yanında olmalıyıq. O təhdidlər bundan sonra da boşa çıxacaq. Azərbaycanın yolu açıqdır, geniş üfüqlər qarşısındadır. Allah Azərbaycanı, millətimizi, dövlətimizi və cənab Prezidentimizi qorusun. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Azər Badamov. Buyurun.

**A.Badamov**. Təşəkkür edirəm. Hörmətli həmkarlar, Avropa Parlamenti və Avropa İttifaqı elə hesab edir ki, onların dedikləri beynəlxalq hüquqdur. Amma unudurlar ki, dünyada suverenliyi tanınmış 200-ə yaxın dövlət var və beynəlxalq hüquq hamı üçün eynidir. Hüquqda dini mənsubiyyətinə görə heç kimə üstünlük verilmir. Avropa Parlamenti və Avropa İttifaqı Fransanın təsiri altında erməni təəssübkeşliyini çəkərək, Azərbaycana qarşı qərəzli qətnamələri və bəyanatları qəbul etməklə beynəlxalq hüququ tapdalayır. Ermənistan baş nazirinə tribuna verərək, bəh-bəh ilə alqışlayan avropalı parlamentarilər əli azərbaycanlıların qanına batmış hərbi cinayətkarlara amnistiya verilməsinə çağırış etmək əvəzinə, münaqişənin yaxın keçmişinə bir nəzər salsınlar.

Sentyabrın 19-da və 20-də heç bir mülki şəxsə zərər yetirmədən keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən sonra Ermənistanın təzyiqi altında məqsədli şəkildə Qarabağdan könüllü çıxmış ermənilərin geri qayıtmasına şəraitin yaradılmasına çağırış edən Avropa İttifaqı güc yolu ilə deportasiya olunmuş 250 min azərbaycanlının təhlükəsiz qayıdışını və insan hüquqlarının təmin olunmasını Ermənistandan eyni şəkildə niyə tələb etmir? Zor gücü ilə öz doğma yurdlarından köçkün və qaçqın salın-

mış və 30 ildə əzablı bir həyat yaşamış azərbaycanlılar haqqında, heç olmasa, bir dəfə belə bir bəyanat niyə qəbul olunmadı? İşğaldan azad olunmuş ərazilərimizdə ermənilərin mədəni, dini abidələri ilə bağlı narahatlığını bildirən Avropa İttifaqı Ermənistanın Azərbaycanın suveren ərazilərində dağıdaraq təhqir etdiyi azərbaycanlıların məscidləri, tarixi və mədəni abidələri ilə bağlı səslərini niyə çıxarmadılar?

Ermənistanın döyüş meydanında ölü saylarını gizlətmək məqsədi ilə özlərinin basdırdıqları 100 nəfəri itkin kimi təqdim etməsindən narahat olan avropalıları Birinci Qarabağ müharibəsindən itkin düşmüş və bu gün kütləvi məzarlıqlarda vaxtaşırı üzə çıxan 4 min azərbaycanlının taleyi niyə narahat etmir? Avropalılar bizi insan hesab etmirlər? Əgər onlar elə düşünürlərsə, çox böyük səhv edirlər və biz özümüzə hörmət qoydurmağı bacarırıq. Avropalılar boş-boşuna Azərbaycana qarşı bəyanatlar qəbul etmək əvəzinə, məsələlərə ədalətlə yanaşaraq regionda sülhün qurulması üçün gələcəyin gündəliyi haqqında danışsalar, daha...

**Sədrlik edən.** Sağ olun. Naqif Həmzəyev. Buyurun.

**N.Həmzəyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri, hər birinizi salamlayıram. Mən gündəmdə olan mövzular ilə bağlı mediada çıxışlarımı etdiyim üçün vətəndaşları narahat edən bir neçə məsələyə diqqət çəkmək istəyirəm. Bildiyiniz kimi, Azərbaycanda və xüsusilə paytaxtda ən ağır problemlərdən biri olan tıxac və parklanma problemini həll etmək üçün Azparkinq çox ciddi bir addım atdı. Nəhayət ki, əlçatan sayda rahat bir xidmət təklif etdi. Ancaq bu xidmət, çox təəssüflər olsun ki, hələ də vətəndaşları tam olaraq qane etmir. İlk növbədə qeyd edim ki, tətbiqin sadə olması, sms

xidmətinin olması çox yaxşıdır.

Ancaq təəssüflər olsun ki, əvvəllər sürücünün parklanmaya bir gündə 1 və ya 2 manat xərci çıxırdısa, artıq 5-8, bəzən 10 manat xərci çıxır. Mən düşünürəm ki, daha çox müddətə avtomobil park edən vətəndaşlar üçün müəyyən güzəştlər, yaxud daha münasib qiymətlər təklif edilməlidir. Eyni zamanda, vətəndaşlar pul ödəməmək üçün binaların həyətində avtomobillərini saxlayırlar və bu, nəticə etibarı ilə vətəndaşların narahatlığına gətirib çıxarır. Çünki binaların həyətində nəinki maşın saxlamağa, heç hərəkət etməyə də yer olmur. Bununla yanaşı, iş saatlarında binaların qarajları, demək olar ki, boş qalır. Bu qarajları vətəndaşlara hansı isə yolla təklif etmək, təşviq etmək lazımdır, yaxud elə qaraj sahibləri arasında bu dəyişikliyi həll etmək olar. Elə Azparkinq də bunu təqdim edə bilər.

Vətəndaşları narahat edən başqa bir problem var. Elektromobillərin ölkəyə gətirilməsi ilə bağlı hökumətin təklif etdiyi, yaratdığı şərait vətəndaşlar tərəfindən alqışlanır. Həqiqətən də, çox mütərəqqi dəyişikliklər oldu. Bu gün avtomobillər elektromobillərə sürətlə çevrilir, dəyişdirilir. Ancaq burada yaranan problem odur ki, biz bu elektromobillərin doldurulma məntəqələri ilə bağlı ciddi problemlərlə qarşılaşırıq. Sahibkarların elə məntəqələr qurması üçün heç bir şərait yaradılmır, çünki onların faktiki olaraq əraziyə, yerə ehtiyacları var. Bunu isə tapmaq paytaxtda və böyük şəhərlərdə çox çətindir.

Mən iki problemi eyni anda əbəs yerə səsləndirmədim. Mən düşünürəm ki, elə Azparkinq parklanma yerlərində bu elektromobillərin doldurulma məntəqələrini də qura bilsə, problem ikitərəfli həll oluna bilər və nəticə etibarı ilə biz, həqiqətən də, bu mütərəqqi şəraiti, dəyişiklikləri məntiqi nəticəsinə gətirib çıxara bilərik. Bununla bağlı bir

çox təkliflər var. Mən düşünürəm ki, indi vaxt məhdudiyyəti buna imkan vermir. Ancaq gələcəkdə biz aidiyyəti qurumlarla birgə ictimai dinləmələr keçirsək, bu və ya buna bənzər digər problemlərin də həllinə, düşünürəm ki, töhfə verə bilərik. Xüsusilə taksi xidmətləri ilə bağlı da ciddi narahatlıqlar var. Bu baxımdan da, xanım sədr, əgər imkan olsa, biz aidiyyəti qurumlarla bu dinləmələri keçirək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, Azərbaycan tarixi günlərini yaşayır. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü ilə yanaşı, suverenliyi tam bərpa olunub. Təəssüf ki, bir sıra Qərb dairələrində Azərbaycana qarşı qərəzli və saxta qətnamələrin qəbul edilməsi Azərbaycanın gücünü göstərən faktorlardandır. Əslində, bu qərəzli qətnamələrin qəbul edilməsi bir daha təsdiq edir ki, Azərbaycan regionun güclü dövləti olaraq Qarabağ və Şərqi Zəngəzuru daha qısa zamanda bərpa etmək və yenidən qurmaq potensialına və imkana malikdir. Nəzərə alsaq ki, son 3 ildə Qarabağ və Şəqri Zəngəzurun qurulmasına 12 milyard manata yaxın vəsait xərclənib, artıq 2024-cü ilin dövlət büdcəsinin məlumatları ictimaiyyətə təqdim olunub və növbəti il Qarabağ və Şərqi Zəngəzurun qurulması üçün 3 milyard 825 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu, Azərbaycanın iqtisadi gücünü göstərən faktorlardan biridir.

Azərbaycan möhtərəm cənab Prezidentin rəhbərliyi ilə işğaldan azad olunmuş əraziləri öz daxili maliyyə mənbələri hesabına qurur. Bu gün böyük məskunlaşmanın, Böyük Qayıdışın birinci mərhələsi davam etməkdədir. İlin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura 2 min ailənin

qayıtması nəzərdə tutulur. 2026-cı ilin sonunadək 140 min vətəndaşımız Qarabağ və Şərqi Zəngəzurda məskunlaşacaq. Bu ondan xəbər verir ki, bərpa və yenidənqurma prosesi ilə yanaşı, Böyük Qayıdış və məskunlaşma intensiv şəkildə həyata keçirilir. Eləcə də Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması həmin ərazilərimizdə iqtisadiyyatın formalaşması və Azərbaycan iqtisadiyyatına reinteqrasiyası üçün imkanlar yaradır.

İlkin qiymətləndirilmələr göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialı Azərbaycanın ümumi daxili məhsulunun təxminən 10 faizi həcmindədir. Bu o deməkdir ki, Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işləri həm də ümumi daxili məhsulun artım tempini, faizini daha da sürətləndirəcək. Bu, praktiki olaraq işğaldan azad olunmuş ərazilərimizin, Qarabağın növbəti dövrdə Azərbaycanın iqtisadi inkişafında lokomotivə çevrilməsindən xəbər verir. O baxımdan möhtərəm cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən quruculuq və bərpa işləri birmənalı şəkildə Qarabağ və Şərqi Zəngəzurun Azərbaycan iqtisadiyyatına reinteqrasiya prosesinə təkan verir. Biz həmin ərazilərimizin ölkə iqtisadiyyatına reinteqrasiyasını daha qısa müddətdə müşahidə edəcəyik ki, bu da həmin ərazilərimizin iqtisadi potensialının daha dolğun istifadə edilməsinə imkan yaradacaq. Çox təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Nəhayət, Azay Quliyev. Azay müəllim, buyurun.

**A.Quliyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən də istərdim ki, son günlər Fransanın Brüssel sülh formatını pozmaqla bağlı həyata keçirdiyi bəzi pozucu fəaliyyətlə əlaqədar fikirlərimi bildirəm. Son hadisələrin təhlili bir daha göstərir ki, həqiqətən, Fransa Cənubi Qafqazda yenidən çaxnaşma, qarşıdurma yaratmaq

niyyətindədir və bu istiqamətdə fəaliyyətini gücləndirir. Ayın axırında Brüsseldə gözlənilən sülh formatının, sülh danışıqlarının pozulması üçün ən müxtəlif təhrikedici addımlara və təxribatlara əl atır. Misal üçün, iki gün bundan öncə, bilirsiniz ki, Avropa Şurası Nazirlər Komitəsində məhz Fransanın təkidi ilə Avropa İttifaqının nümayəndəliyinin bir bəyanatı qəbul edildi. Bu bəyanatı təhlil edərkən görürük ki, burada yenə də əvvəlki ritorika, Dağlıq Qarabağ, blokada, hərbi əməliyyatlar kimi fikirlər səsləndirilir. Sual olunur: Axı, niyə Brüssel sülh danışıqları ərəfəsində Fransa bu cür addımlar atsın? Axı, o çox gözəl bilir ki, bu, həssas bir məqamdır və hər iki tərəf sülh istiqamətində müəyyən bəyanatlar verir. Əgər Fransanın niyyəti, doğrudan da, xoş olsa idi, səmimi olsa idi, bütün hallarda təkcə Avropa İttifaqında deyil, digər beynəlxalq platformalarda da Azərbaycana qarşı bu cür təxribat xarakterli bəyanatlar verilməsi prosesinə rəhbərlik etməzdi.

Mən düşünürəm, burada digər bir məqam ondan ibarətdir ki, əgər Brüssel danışıqları baş tutmazsa, Azərbaycana qarşı bu təxribat həyata keçərsə, Fransa, şübhəsiz ki, bunu əsas götürərək Azərbaycana yönəlik digər addımlar atmağa çalışacaq və Azərbaycanı sülh danışıqlarından imtina edən tərəf kimi göstərməklə müəyyən sənədlərin qəbuluna, xüsusilə BMT Təhlükəsizlik Şurasında bu və ya digər qətnamənin qəbuluna cəhd edəcək. Ona görə də Fransa bilməlidir ki, o, təkcə özünün havadarları ilə birlikdə döyüş meydanında Azərbaycana uduzmayıbdır, eyni zamanda, diplomatiya meydanında uduzubdur. Onun irəli sürdüyü bu cür bəyanatlar, təhrikedici qətnamələr, qərarlar heç bir halda Azərbaycanı öz yolundan döndərə bilməz, Azərbaycanı təxribata çəkə bilməz. Əminəm ki, cənab Prezident bizim diplomatiyamızı, bütün bu prosesləri ciddi

şəkildə təhlil edir. Heç bir halda imkan verilməyəcək ki, bu cür həssas məqamda Brüssel danışıqları, Brüssel sülh müqaviləsinin imzalanması ilə bağlı mövcud imkanlar məhz Fransanın bu pozucu fəaliyyəti heçə endirilsin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Gündəliyin məsələlərinə keçirik. Bu gün bizim gündəliyimizdə 12 məsələ müzakirə olunacaq və onu da deyim ki, ilk 9 məsələ ikinci oxunuşda olan qanun layihələridir.

1-ci məsələ Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, məsələnin müzakirəsi ilə əlaqədar dəvət olunan şəxslər var. Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini hörmətli Elnur Əliyev və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Aparat rəhbəri hörmətli Tural İsmayılov iclasımızda iştirak edirlər. Mən onları salamlayıram.

Hörmətli həmkarlar, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Ona görə də Tahir Mirkişili, mən Sizə söz verirəm. Xahiş edirəm, məlumat verin, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli Sahibə xanım, icazənizlə, mən qanun layihəsinə keçməmişdən öncə Sizi və hər kəsi bu gün Zəngilan şəhərinin azad olunması münasibəti ilə təbrik edirəm. Biz bu gün ilk dəfədir ki, möhtərəm cənab Prezidentin sərəncamı ilə Zəngilan gününü qeyd edirik. Bayaq da burada qeyd olundu, Birinci Dövlət Proqramı Böyük Qayıdış ilə bağlı gələn həftədən parlamentdə büdcə müzakirəsi başlayır.

Ümumilikdə, 22 milyard manatdan çox vəsaitin ayrılması planlaşdırılır ki, düşünürük, bu vəsait həm də zəngilanlıların öz doğma yurd-yuvalarında rahat, təhlükəsiz və layiqli yaşamaları üçün çox böyük bir imkan yaradacaqdır.

Hörmətli həmkarlar, Rəqabət Məcəlləsinin cənab Prezident tərəfindən Milli Məclisə daxil olmuş layihəsini ikinci oxunuş üçün təqdim edirəm. Xatırlatmaq istərdim ki, məcəllə 12 fəsil, 84 maddədən ibarətdir. Birinci oxunuş zamanı biz Rəqabət Məcəlləsi haqqında geniş məlumat vermişdik. Rəqabət Məcəlləsinin həm ictimai formada, həm də komitədə kifayət qədər müzakirəsi aparılmışdır. Ümumiyyətlə, Rəqabət Məcəlləsinə cəmiyyətdə və ictimaiyyətdə çox böyük bir maraq yaranmışdır. Qeyd etmək istərdim ki, Rəqabət Məcəlləsi iqtisadi islahatlar çərçivəsində inhisara qarşı mübarizə, qiymətlərin optimallaşdırılması və bazarda haqlı rəqabətin təmin olunmasına xidmət etməsi baxımından kifayət qədər əhəmiyyətlidir. Xüsusən də son zamanlar möhtərəm cənab Prezident tərəfindən aparılan islahatların çərçivəsi, yaranan etimad mühiti və şəffaflıq bu kimi böyük bir sənədin qəbul olunması üçün çox mühüm bir mühit yaratmışdır. Qeyd edim ki, layihə ilə qanunvericilikdə bir sıra mühüm yeniliklərin əsası qoyulmuşdur. Belə ki, yeni çağırışlara uyğunlaşmaq məqsədi ilə layihəyə "nou hau", vacib əhəmiyyətli resurs, müvafiq bazar, rəqabət aparmamaq öhdəliyi, eksklüziv və selektiv təchizat sistemləri, uyğunlaşdırılmış hərəkətlər, şaquli və üfüqi sazişlər, bazar payının 50 faizini keçən hökmran mövqe, yüksək və aşağı inhisar qiymətləri, rəqabət komissiyası, rəqabət orqanı və sair kimi  anlayışlar daxil edilmişdir.

Sənəddə rəqabət sahəsində bazar subyektlərinin vəzifələri və hüquqları, rəqabəti məhdudlaşdıran sazişlər, haq-

sız rəqabət, rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti tədbirləri, rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər məsələlər yer almışdır. Belə bir layihənin qüvvəyə minməsi nəticəsində iqtisadiyyatın inkişafında özəl sektorun mühüm rolu getdikcə artaraq azad və sağlam rəqabət mühitinin yaranmasını təmin edəcək, ikincisi, ölkənin sürətli iqtisadi inkişafına dəlalət edən və müasir çağırışlara cavab verən bazar münasibətlərinin inkişafına və qorunmasına şərait yaranacaq və nəhayət, sonuncusu, inhisarlığa, karter sövdələşmələrinə və qiymət manipulyasiyalarına qarşı səmərəli mübarizə aparılmasına imkan yaranacaqdır.

Hörmətli xanım sədr, birinci oxunuşdan sonra, bütövlükdə, Rəqabət Məcəlləsi ilə bağlı komitəyə həm Milli Məclis deputatlarından, həm də ictimai sektordan, xüsusilə ekspertlərdən təxminən 60-a yaxın təklif, rəy və şərh daxil olmuşdur. İkinci oxunuş zamanı İqtisadiyyat Nazirliyinin nümayəndələri ilə həm komitə iclası zamanı, həm də komitə iclasından öncə işçi qrup səviyyəsində bütün bu təkliflər, xüsusən də deputat həmkarlarımın təklifləri və ictimai sektordan ekspertlərdən gələn təkliflər çox geniş şəkildə müzakirə olunmuş və onların təxminən 13-ü qanunvericiliyə daxil edilmək üçün tərəfimizdən məqbul hesab edilmişdir. Bu 13-ə yaxın təklif hazırda qanunvericilik təşəbbüsü subyekti ilə razılaşma ərəfəsindədir. Əgər ümumi razılıq əldə olunsa, onda səsləndirəcəyimiz bəzi təklifləri, düşünürəm ki, üçüncü oxunuş üçün Milli Məclis deputatlarının nəzərinə çatdıracağam. Bu dəyişikliklər hansılardır? Birinci dəyişiklik ondan ibarətdir ki, biz hesab edirik, Rəqabət Məcəlləsində müvafiq bazar və rəqabət komissiyası anlayışına aydınlıq gətirilməlidir. Burada dəqiq olaraq komissiyanın formalaşması, eyni zamanda, han-

sı prinsiplə formalaşması və müvafiq bazarın da sərhədləri, xüsusən coğrafi sərhədləri ilə bağlı aydınlıq olmalıdır.

İkinci təklif ondan ibarətdir ki, hökmran mövqenin bazar payının, məcəllədə göstərildiyi kimi, 50 faizi deyil, 40 faizindən yuxarı hesab edilməsi təklif olunmuşdur. Düşünürük ki, ümumi razılığımız olsa, onda 40 faizdən yuxarı hökmran mövqe olma istənilən halda dövlət təşkilatının bu sahibkarlara nəzarət və müşahidəçilik funksiyasının başlanması anlamına gəlməkdədir. Mən bir daha xatırlatmaq istərdim ki, yanlışlıq olmasın deyə, hökmran mövqeyə sahib olmaq hər hansı bir qanunu pozmaq deyil, amma hökmran mövqeyə sahib olandan sonra davranışlarda qanunazidd hərəkətlərin olması məcəllənin pozulması deməkdir. Burada bazar payının yalnız hansı faizdən yuxarı olduğu zaman dövlət orqanı həmin sahibkarı müşahidəyə götürəcəyi anlamına gəlir.

Üçüncü təklif araşdırma zamanı rəqabət sahibkarın hökmran mövqeyə malik olduğunu müəyyən etdikdə həmin sahibkara  bildirişin verilə bilməsi imkanıdır. Çünki sahibkar özü bilməz ki, hökmran mövqedədir, ona bu haqda informasiya verilməyənə qədər o bunu araşdırmaya da bilməz, hərəkətləri bir çox hallarda məsuliyyətə səbəb ola bilər. Onda belə bir təklif var ki, əgər orqan araşdırdığı zaman hansı sahibkar hökmran mövqeyə sahibdirsə, onda ona əvvəlcədən bildiriş verilsin və o da  məsuliyyəti hiss etsin.

Dördüncü təklif. Bildiyiniz kimi, məcəllədə sahibkar tərəfindən verilən natamam məlumatlar, yaxud da tam olmayan təhrifli məlumatlar verildiyi zaman həmin sahibkarın dövriyyəsinin 3 faizi həcmində maliyyə sanksiyasının tətbiq olunması ilə bağlıdır. Təklif ondan ibarətdir ki, sahibkara sanksiya tətbiq etməmişdən qabaq həmin məlumatların düzəldilməsi üçün ona 10 gün vaxt verilsin. Dü-

şünürük ki, bu da humanist bir addımdır. Sahibkar özü də bilməyə bilər ki, məlumatlar natamamdır. Dövlət orqanı ona yenidən 10 gün vaxt verir ki, bu müddət ərzində o düzəltsin, düzəltməzsə, ondan sona sahibkarın yenidən özünün müraciəti əsasında bu müddət 60 gün də uzadıla bilər. Bu müddət ərzində də düzəltməzsə, onda sahibkara dövriyyənin son bir ili ərzində 3 faiz həcmində sanksiya tətbiq olunacaqdır ki, biz bunu normal sayırıq.

Nəhayət, 5-ci təklif rəqabət komissiyasının qərarlarının nəticələrinin rəqabət orqanlarının internet saytında dərc olunması haqqında təklifdir. Hesab edirik ki, belə qərarların, məhkəmə orqanlarının qərarlarının dərc olunması ilə bağlı bizdə yaxşı bir təcrübə var. Biz düşünürük ki, komissiyanın da qərarlarının saytda dərc olunması sahibkarın gələcəkdə bu məsələlərdən uzaq durmasına və şəffaflığın artmasına gətirib çıxaracaqdır.

Bu dediklərim bu 13 təklifin bir hissəsidir. Mən düşünürəm ki,  razılaşdırdığımız zaman artıq üçüncü oxunuşda bunları sizin diqqətinizə çatdıracağıq. Beləliklə, Rəqabət Məcəlləsinin qəbul edilməsi ilə, xatırlatmaq istərdim ki, 3 qanunun "Haqsız rəqabət haqqında", "Antiinhisar fəaliyyəti haqqına" və "Təbii inhisar haqqında" qanunların ləğv edilməsi də təklif olunur. Yekun olaraq qeyd etmək istəyirəm, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi hesab edir ki, Rəqabət Məcəlləsinin ikinci oxunuşda da qəbul edilməsi indiki halda iqtisadiyyatın inkişafına, haqlı rəqabətin geniş inkişaf etdirilməsinə, sahibkarların mənafelərinin qorunmasına, dövlət-sahibkar etimad mühitinin daha da inkişafına səbəb olacaqdır. Həmkarlarım birinci oxunuşda dəstəkləyiblər, ikinci oxunuşda da səs vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim. Hörmətli həm-

karlar, ikinci oxunuşdur, ona görə də biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

**Sədrlik edən.** İndi isə biz müzakirələrə keçirik. Qüdrət Həsənquliyev.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Necə? 5 dəqiqə? Təklif var, 5 dəqiqə. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Çox sağ olun, hörmətli sədr. Hörmətli qonaqlar, həmkarlar, iclas iştirakçıları. İkinci oxunuşun tələblərinə uyğun olaraq, qeyd etmək istəyirəm ki, mərhum Prezident Heydər Əliyevin məşhur bir sözü var idi: "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir". Biz bu möhtəşəm qələbəni də məhz müqayisədə daha güclü iqtisadi potensiala malik olmağımıza görə və sözsüz ki, həm də düzgün xarici siyasət yeritməklə əldə edə bilmişik.

Hörmətli həmkarlar, hamımız bilirik ki, bizim iqtisadiyyatımız neft sektorundan çox asılıdır. Son vaxtlar, son illər İqtisadi İnkişaf Nazirliyinin qeyri-neft sektorunun inkişafı istiqamətində atdığı addımları şəxsən yüksək qiymətlən-

dirirəm. Bu Rəqabət Məcəlləsini də təqdir edirəm və işçi qrupun üzvlərinə də öz minnətdarlığımı bildirirəm.

Bir neçə təklifim var. Birinci, 8-ci maddə ilə bağlı rəqabət orqanı. Hörmətli Tahir müəllim çıxışında rəqabət komissiyasının formalaşması ilə bağlı qeyd etdi. Ümumiyyətlə, mən hesab edirəm ki, rəqabət orqanının özü çoxpartiyalılıq prinsipi əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən formalaşdırılmalıdır. Bu halda daha səmərəli bir fəaliyyət göstərə bilər.

Bundan başqa, yenə Tahir müəllim bazarda hökmran mövqe ilə bağlı qeyd etdi ki, təsərrüfat subyekti 50 faizdən çox bazar payına malik olduqda o, hökmran mövqe tutmuş hesab olunur. 15-ci maddə. Biz "Antiinhisar fəaliyyəti haqqında" Qanunda qeyd etmişik ki, təsərrüfat subyektinin bazarda payı 35 faizdən çox olmamalıdır. Bunu da Tahir müəllim qeyd etdi, 40 faiz deyil, elə 35 faiz götürsək, daha doğru, düzgün olar, yəni bu faizləri eyniləşdirsək.

19-cu maddədə haqsız rəqabətin formaları ilə bağlı. Hörmətli iqtisadi inkişaf naziri də dəfələrlə çıxışlarında qeyd edib ki, Azərbaycanda iqtisadiyyatın əsas sahələri dövlətin nəzarətindədir, yaxud inhisarındadır. Burada haqsız rəqabətin formaları sadalanır. Amma haqsız rəqabətin ən böyük forması elə inhisarçı fəaliyyətə, inhisarçı mövqeyə malik olmaqdır ki, bu da, düşünürəm, burada öz əksini tapmalıdır. Bu məcəllədə də elə mexanizmlər qurmalıyıq ki, iqtisadiyyatın əsas sahələrində rəqabət yaradılsın. Yəni bunlar dövlətin mülkiyyətindədir, bunlar ilk öncə özəlləşdirilməli, sonra isə bir neçə yerə parçalanmalıdır ki, onların bazarda payı 35 faizdən çox olmasın.

Yeri gəlmişkən, mən hörmətli Elnur müəllimin burada iştirak etməsindən istifadə edib bir təklifi də demək istəyirəm. Biz təkcə iqtisadi mexanizmlərlə, doğrudan da,

qeyri-neft sektorunun sürətli inkişafına nail ola bilməyəcəyik. Mən vaxtı ilə mətbuatda da bu məsələyə diqqət yetirmişdim ki, Azərbaycanın Cinayət Prosessual Məcəlləsində də dəyişiklik edilməlidir. İqtisadi fəaliyyətlə əlaqədar olaraq cinayət işlərinin istintaqı, yaxud qanun pozuntuları ilə bağlı daxil olmuş məlumatların araşdırılması yalnız Vergilər Nazirliyinə həvalə olunmalıdır. Hüquq mühafizə orqanlarına bu barədə hər hansı bir məlumat daxil olarsa, onlar o materialları iqtisadi sahə ilə birbaşa bağlı olan sahələrə göndərməlidirlər. Özləri bu sahədə araşdırma aparmamalıdırlar.

Qaçaqmalçılıqla əlaqəli hər hansı qanun pozuntuları ilə bağlı, yenə də deyirəm, istənilən dövlət orqanlarına, – söhbət təkcə hüquq mühafizə orqanlarından getmir, – daxil olan məlumatlar isə Dövlət Gömrük Komitəsinə göndərilməlidir. Rusiyada bu istiqamətdə artıq qərar qəbul olunub. Bu istiqamətdə Prezident tərəfindən dövlət orqanlarına göstəriş verilib. Hesab edirəm ki, Azərbaycanda da belə bir addımın atılması iqtisadiyyatımızın inkişafına öz müsbət təsirini göstərər. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Əvvəla, qeyd etmək istəyirəm ki, mən komitə iclasında, eləcə də işçi səviyyədə bir sıra təkliflərimi təqdim etmişəm. Sadəcə, sənəd kifayət qədər böyükdür və hörmətli Tahir müəllim də qeyd etdi, kifayət qədər aktualdır. Burada ikinci oxunuşun tələblərinə uyğun olaraq, təqdim etdiyim heç bir təklifi komitə iclasında, işçi qrupunda müzakirə etməmişik. Ona görə qərara gəldim ki, qısa olaraq burada təqdim edim.

Qanun layihəsinin 1.1.3-cü maddəsində "istehsal" sözü ilə yanaşı, "xidmət" sözünün əlavə olmasını təklif edər-

dim. Eyni zamanda, 1.1.4-cü maddədə həm Avropa İttifaqının direktivi, həm də qonşu ölkələrdəki qanun layihələrinə uyğun olaraq, "dağıdıcı qiymət" termininin daxil edilməsi məqsədəuyğun olardı.

1.1.11-ci maddədə dövlət inhisarı təqdim edilən xüsusi məhsullar üzrə qeyd olunsa, daha məqsədəuyğun olar. Çünki digər ölkələrin təcrübəsində də dövlət inhisarı xüsusi məhsullar üzrə formalaşdırılır. Eyni təklifimi 1.1.12-ci maddə ilə bağlı təqdim etmək istərdim.

1.1.15-ci maddədə haqsız rəqabətlə bağlı burada yalnız ədalətsiz üsullardan deyil, eyni zamanda, bazar mövqeyindən istifadənin bu maddəyə daxil olunmasını təklif etmək istərdim.

1.1.17-ci maddədə "hökmran mövqe" anlayışında həm də mütləq hökmran mövqenin müəyyənləşdirilməsi və hökmran mövqe ilə yanaşı, mütləq hökmran mövqenin də qanunvericiliyə, layihəyə daxil edilməsi məqsədəuyğun olardı.

1.1.22-ci maddədə qiymət manipulyasiyası ilə yanaşı, xüsusən də inkişaf etmiş ölkələrdə, eləcə də Amerika Birləşmiş Ştatlarında qəbul edilən rəqabət aktına uyğun olaraq, qiymət ayrı-seçkiliyi, yəni diskriminasiyası anlayışının bu maddəyə gətirilməsi məqsədəuyğun olardı.

1.1.24-cü maddədə maliyyə institutları ilə yanaşı, həm də "maliyyə bazar institutları"nın qeyd olunması məqsədəuyğundur.

Eləcə də 1.1.41-ci maddədə selektiv təsisat sistemində ayrı-seçkiliyə səbəb olacaq halların da nəzərə alınması məqsədəuyğundur.

Bütövlükdə, "Əsas anlayışlar" bölməsinə eksklüziv sövdələşmələr, güzəştlər, marja məhdudiyyətləri, eyni zamanda, "mörzer" kimi terminlərin daxil edilməsi məqsəd-

əuyğun olardı.

3.1.1-ci maddədə rəqabətin təmin olunması, qorunması ilə yanaşı, həm də müdafiə olunmasının nəzərə alınması məqsədəuyğun olardı. Həmin maddə üzrə, eləcə də iqtisadi səmərəliliyin stimullaşdırılması, innovasiya üçün imkanların stimullaşdırılması, iqtisadi resurslardan daha səmərəli istifadənin təşkili, bazar tarazlığının müdafiəsi kimi anlayışların da daxil olunması məqsədəuyğun olardı.

Hörmətli xanım sədr, mən vaxt almamaq üçün digər təkliflərimi yazılı olaraq təqdim etmək istərdim. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bəli, təkliflərinizi komitənizə verin. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Çox sağ olun. Həqiqətən, Rəqabət Məcəlləsinin təsdiq edilməsi barədə qanun layihəsi mütərəqqi layihədir. Sadəcə, ikinci oxunuşun tələblərinə müvafiq olaraq, məcəllə layihəsinin 54-cü maddəsində “hal şahidinin iştirakı” məsələsinə dair kiçik bir təklifi diqqətinizə çatdırmaq istəyirəm. Bildiyiniz kimi, prosessual qanunvericilikdə “prosesdə iştirak edən digər şəxslər” anlayışı var və hal şahidi institutu da bu anlayışa daxildir. Hal şahidinin də yeganə funksiyası, sadə formada desək, gördüyünü təsdiq etməkdir.

Rəqabət Məcəlləsi layihəsinin 54.1-ci və 54.2-ci maddələrində də müəyyən edirik ki, qanunda nəzərdə tutulmuş hallarda yoxlama keçirərkən baxış və götürmə zamanı azı iki fiziki şəxsdən ibarət hal şahidləri dəvət edilsin.

Əslində, bu o zamanın yanaşmasıdır ki, müasir dövrdəki kimi operativ videoçəkiliş imkanları olmayıb, amma indi bilirsiniz ki, səmərəli videoçəkiliş imkanları var və ən azı telefonlar vasitəsi ilə bu, mümkündür. Bunun nəticəsidir ki, artıq hal şahidi institutu bu gün həm qanunvericilikdə, həm də praktikada faktiki zərurətini itirib. Çünki

prosesin kamera ilə vizual formada sənədləşməsi həm daha operativdir, həm daha obyektivdir və həm də hal şahidlərinə münasibətdə ənənəvi şübhələrə yer qoymur.

Bildiyiniz kimi, layihənin 54.6-cı maddəsində də nəzərdə tutulur ki, rəqabət orqanı tərəfindən videoçəkilişdən istifadə olunduqda hal şahidləri dəvət edilməyə bilər. İndi layihənin özündə də videoçəkiliş imkanına yer verilmişkən əlavə olaraq hal şahidi institutuna yer ayırmağımız qanunvericiliyin inkişaf tendensiyasına uyğun deyil və sadəcə, prosesi ağırlaşdırır. Ona görə də Rəqabət Məcəlləsi layihəsinin 54-cü maddəsinin "Baxış və götürmə prosesinin videoyazıya alınması" adlandırılması, məzmunun isə yalnız mövcud layihənin 54.6-cı maddədən ibarət olması məqsədəmüvafiq olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir müəllim, Siz yazılmamısınız. Sizin sözünüz yoxdur. Elnur müəllim, Sizin sözünüz varmı?

**E.Əliyev,** *Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini.*

Çox sağ olun, söz verdiyinizə görə təşəkkür edirəm, hörmətli xanım sədr. Sadəcə, səsləndirilən məqamlarla bağlı rəylər vermək istərdim. Elə hörmətli həmkarımız Bəhruz Məhərrəmovun 54-cü maddəyə dəyişikliklə bağlı təklifi ilə əlaqədar bildirmək istərdim ki, Bəhruz müəllim, bizim bütün məcəllələrimizdə "hal şahidi" anlayışı prosessual hüquqdan irəli gələn bir anlayışdır. Bəli, videoçəkilişlər var. Amma elə hallar var ki, orada fiziki olaraq kənar şəxslərin olması labüddür. Bu baxımdan bu məcəllədə də nəzərdə tutulub. Siz səsləndirəndə mən son düzəlişlərə baxdım. 2020-ci və 2021-ci illərdə də bununla bağlı qanunvericiliyə düzəlişlər paketi əks olunubdur.

Hörmətli Vüqar müəllim Bayramovun qaldırdığı 1-ci

maddədə yeni anlayışlar və eyni zamanda, anlayışlara əlavələrlə bağlı bildirmək istərdim ki, texniki mənada dəqiqləşdirilmələr aparılmalıdır. Amma bu dəqiqə bizim buna qiymət verməyimiz qeyri-peşəkar bir yanaşma olardı. Bu baxımdan Vüqar müəllimin səsləndirdiyi mövzuya komitə ilə əməkdaşlıq çərçivəsində baxacağıq.

Hörmətli Qüdrət müəllim Həsənquliyevin qaldırdığı Rəqabət Məcəlləsi ilə bağlı rəqabət orqanı, 35 faiz məsələsi ilə mövzular. Bizim komitə ilə işçi qaydada müzakirəmiz çərçivəsində müəyyən anlaşmamız var. Hörmətli Tahir müəllimin səsləndirdiyi kimi, qanunvericilik təşəbbüsü ilə çıxış edən qurumun razılığı olduqdan sonra bunlar artıq təsbit olunacaqdır.

Son məqam. Yəqin ki, hörmətli Qüdrət müəllimin bildirdiyi Cinayət Prosessual Məcəlləsindən irəli gələn mövzular, iqtisadi sahədə istintaq araşdırmasının aparılması ilə bağlı vahid qurum mövzusu. Bu, İqtisadiyyat Nazirliyinin səlahiyyətində deyil. Bizim mövzumuz olmadığından bu, yəqin ki, başqa səviyyədə müzakirə olunmalıdır. Qısaca bunları bildirmək istərdim. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, biz səsverməyə keçirik. Qeyd edim ki, qanun 4 maddədən ibarətdir. İndi isə biz qanun layihəsinin 1-ci maddəsi ilə təsdiq edilən Rəqabət Məcəlləsinə maddələr üzrə və sonra bütövlükdə münasibət bildirməliyik. Qeyd edim ki, məcəllədə 12 fəsil, 84 maddə var. Mən indi fəsil-fəsil səsə qoyacağam.

Xahiş edirəm, preambula və I fəsilə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
II fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
III fəsili səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu fəsil də qəbul edildi.
İndi isə IV fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
V fəsilə, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
VI fəsil. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
VII fəsilə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
VIII fəsil. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
IX fəsili səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
X fəsil. Buyurun, bu fəsilə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

XI fəsil səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Nəhayət, mən XII fəsili səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu fəsil də qəbul edildi.

İndi isə mən məcəlləni bütövlükdə səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Bu bizim 1-ci maddəmizdir.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, indi isə xahiş edirəm, 2-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 2-ci maddə qəbul edildi.

İndi isə qanun layihəsinin 3-cü maddəsinə səs verin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Xahiş edirəm, 4-cü maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 93 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Mən qonaqlarımıza da minnətdarlığımı bildirirəm. Sağ olun.

İndi isə, hörmətli həmkarlar, biz gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Bu məsələ müzakirə olunarkən "Dövlət qulluğu haqqında" Qanunla bağlı ümumi fikirlər səslənmişdi. Hörmətli həmkarlar layihəyə müsbət münasibət bildirmişdilər. Ona görə ikinci oxunuş-

da da səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Xatırladım ki, ikinci oxunuşdur. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyənlər var. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**S.Novruzov.** Çox sağ olun, təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Təbii ki, mən də qanun layihəsinə səs verəcəyəm. Amma bir məsələ məni xüsusilə narahat edir. Bu, həm ayın 12-də, həm də bu gün səsləndi. Dövlətçilik üçün vacib olan bir məsələdir. Çox hörmətli həmkarım Zahid Oruc “4-cü respublika” deyərək çağırır. İndi burada oturanlardan da heç bir kəs bu respublikanın nə olduğu, izahatı nədən ibarətdir... Burada tarixçilərimiz, hüquqşünaslarımız, alimlərimiz var. İzahat verilsin ki, bu nədir. Bu, çox ziyanlı bir tendensiyadır.

Əgər biz Azərbaycanın dövlətçilik tarixini götürsək, birinci, 1918–1920-ci illər, ikinci, 1920–1991-ci illər, üçüncü, 1991-ci ili də bir neçə gün bundan əvvəl bərpa etdik – müstəqillik tarixi. Müstəqillik tarixindən də bunun xronoloji tarixi başlayır və davam olunur. İndi onun içərisin-

də mənəvi keyfiyyətlər hansı hissədən ibarətdir, o, başqa bir şeydir. Amma 4-cü respublika nə vaxt qurulub? Görən olub ki, nə vaxt quruldu, harada və hansı formada quruldu? Əgər biz deyiriksə ki, müstəqilliyimiz əldən gedirdi, Ümummilli Lider Heydər Əliyev gəldi, qorudu, saxladı və biz demokratik respublikanın taleyini yaşamadıq.

Cənab Prezident də deyir ki, mənim yolum Ümummilli Lider Heydər Əliyev yoludur, mən onun siyasətini davam etdirirəm, daha geniş şaxələndirirəm, daha müasir formada həyata keçirirəm və sair. Biz tarixdən oxumuşuq, çoxları oxuyub. Böyük fransız inqilabları və Fransada qurulan dövlətlər: 1-ci respublika yıxıldı, ondan sonra 2-ci gəldi, devirdilər, 3-cü gəldi, onu da devirdilər və 4-cü gəldi. Yaxşı, 3-dən sonra nə devrilibdir? Devrilən varmı? 4-cü respublikanı yaratdıq?

Hörmətli Zahid müəllim indi yoxdur, gələndə, xahiş edirəm, Milli Məclisin deputatlarını bu məsələ barəsində məlumatlandırsın ki, hansı parametrə, dünyada hansı hüquq sisteminə uyğun bu sistem müəyyənləşib ki, 4-cü respublika. O baxımdan da mən hesab edirəm ki, bu məsələ Milli Məclisdə səslənməsəydi...

Mən Sizdən üzr istəyirəm, qanun layihəsindən kənara çıxdım. Amma bu, dövlətimiz üçün vacibdir ki, başqaları bundan hər hansı bir tarix düzəltməsinlər. Tarix birdir, tarixi yazan da, inkişaf elətdirən də, ərazini alan da bəllidir. İndi bunu hansısa formada ifadə etməyin yolları da mövcuddur. Ədəbiyyatçılar və sair var. Amma bizim 4-cü respublikamız hələ olmayıbdır. Mən heç arzu da etmirəm ki, 4-cü respublika olsun. Çünki 3-cü respublikamız elə inkişaf edir, ərazilərimizi bərpa edir və Azərbaycan dünyada öz sözünü deyir. O baxımdan da xahiş edirəm, bu məsələyə bir aydınlıq gətirilsin. Təşəkkür edirəm, hörmətli

xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz qanun layihəsinə maddələr üzrə münasibət bildirməliyik. Daha çıxış etmək istəyən yoxdur. Layihədə 1 maddə var. Xahiş edirəm, həmin maddəyə münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

3-cü məsələyə keçirik, hörmətli həmkarlar. "Dövlət qulluğu haqqında" Qanunda və "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən yenə də Sizə söz vermək istəyirəm. Buyurun, Siz məlumat verin, sizin komitədə baxılıb.

Buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Bu layihədə də dövlət qulluğunun xüsusi növündə çalışan şəxslərin bir orqandan digər orqana keçməsinin tənzimlənməsi ilə bağlı normalardır. Deputatlarımız tərəfindən dəstəklənmişdir. İkinci oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

İndi isə müzakirəyə başlayırıq. Yazılan var. Vüqar Bayramov. Vüqar müəllim, buyurun.

**V.Bayramov.** Hörmətli xanım sədr, çox qısa olaraq 7-ci maddədə edilən dəyişikliklə bağlı hörmətli Əli müəllimdən aydınlıq gətirilməsini xahiş etmək istərdim. 7-ci maddəyə təklif olunan dəyişikliyə əsasən "milliyyət" sözü "etnik mənsubiyyət" sözləri ilə əvəz olunur. Mən beynəlxalq hüquq terminlərinə və eləcə də İngiltərə hüquq prinsiplərinə baxdım. Orada milliyyət və etnik mənsubiyyət ayrı-ayrı terminlərdir. Mənim sualım ondan ibarətdir ki, əgər etnik mənsubiyyəti əlavə ediriksə, nə üçün yeni variantdan "milliyyət" sözünü və ya terminini çıxarmışıq? Təşəkkür edirəm.

**Ə.Hüseynli.** Vüqar müəllim, bizim artıq sonuncu qanunvericilikdə Konstitusiyada edilmiş dəyişikliklərdə fak-

tiki olaraq "etnik mənsubiyyət" ifadəsindən istifadə edirik. Bu köhnə variant, sadəcə, qanunda qalmışdı. Uyğunlaşdırma xarakterlidir. Çox sağ olun.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Maddələr üzrə səsverməyə keçirik. Qanun layihəsində 3 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.
Mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 2-ci maddə də qəbul edildi.
İndi isə 3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 5 məsələsi möhtərəm cənab Prezidentin 1 məktubu ilə Milli Məclisə daxil olub və məzmunca bir-birinə yaxındır. 4-cü məsələ Cinayət Məcəlləsində, 5-ci məsələ "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", 6-cı məsələ "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında", 7-ci məsələ "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında", 8-ci məsələ isə "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən

əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələridir.

Hörmətli həmkarlar, qanun layihələri barədə məlumat vermək üçün Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Əminə xanım Ağazadəyə söz verirəm. Xahiş edirəm, Əminə xanım, məlumat verin.

**Ə.Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, birinci oxunuş zamanı qanun layihələri barədə ətraflı məlumat verilmişdir. Ötən dövr ərzində bizim komitəmizə hər hansı bir rəy və təkliflər daxil olmadığından olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əminə xanım, çox sağ olun. Hörmətli həmkarlar, birinci oxunuşda ümumi məlumat verildi. İndi isə ikinci oxunuşdur, Əminə xanım onu qeyd etdi. Biz müzakirəni bir yerdə keçirib, səsverməni ayrı aparacağıq. Fazil müəllim yazılıb. Fazil Mustafa. Buyurun.

**F.Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Birinci, bu qanun layihəsinin texniki tərəfinə diqqət yetirmək istəyirəm. Bizim qanunvericilikdə mümkün qədər mötərizələrdən qaçılma məsələsinə görə 21-2-ci maddədə dəyişiklik edilir – "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanunda dəyişikliklərdə. Mənim fikrimcə, "narkotik vasitələrin, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərin və ya onların hissələrinin və psixotrop maddələrin, habelə onların prekursorlarının miqdarı" ifadəsində açıq bir məsələ var və mötərizədəki sözlər onun izahını dəqiqliklə vermir.

Digər tərəfdən mən nəyi təklif edərdim? Biz məhkəmə

praktikasında hakimlərlə görüşəndə də tez-tez qanunun elastik olmamasının əziyyətindən danışırlar. Burada xüsusilə də az miqdarda narkotik vasitələrdən söhbət gedəndə rəqəmlərin bir az elastik verilməsi, məncə, daha məqsədəuyğun olar. Məsələn, 0,5 qramdan 0,10 qrama qədər – belə bir variant məhkəmə praktikasında halların daha dəqiq araşdırılmasına imkan yaradır.

Burada dəqiq ölçülər verəndə, məsuliyyət həddinin müəyyən olunmasında və subyektiv amillərin müəyyən dərəcədə nəzərə alınmasında hakimlərin işini xeyli çətinləşdirir. Biz, onsuz da, bu narkotik vasitələrə qarşı mübarizənin lazımi səviyyədə, səmərəli aparılması üçün ictimaiyyəti bu prosesə lazımi səviyyədə cəlb edə bilmirik. Cəlb edə bilmədiyimizə görə də burada, hələ ki, səmərəli nəticələrimiz yoxdur.

İndi baxın, bizim məhkəmələrdə baxılan işlərin 50 faizdən çoxu narkotik xarakterli cinayətlərlə bağlıdır. Əgər bu gün Penitensiar Xidmətdən maraqlanılsa, orada da həbs cəzası çəkən insanların xeyli hissəsi məhz bu səbəbdən olan cinayətlərə görə həbsdədir. Ona görə də biz məhkəməyə imkan verməliyik ki, bu adamların azadlıqdan məhrum edilməsini daha çox təmin etmək əvəzinə, onların daha çox inzibati məsuliyyətə cəlb olunaraq bir az islah olunması üçün müəyyən şərait yaradılmasına imkan əldə etsinlər. Bunu bildirmək istəyirdim. Çünki xeyli hakim bizə bu mövzuda şikayət edir ki, burada elastiklik olmadığından hansısa konkret situasiyaya görə bəlkə də ağır cəzanı verməmək olar deyə, bir imkanımız olsa da, bunu etməkdə çətinlik çəkirik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Fazil müəllim, sağ olun. Hörmətli həmkarlar, mən bir az tələsdim, Fazil müəllimə söz verdim. Biz qanunları əsas kimi qəbul etməliyik. Xahiş edirəm, 4-cü

məsələni əsas kimi qəbul edək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

5-ci məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

6-cı məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

7-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

İndi isə 8-ci məsələyə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Əminə xanım, Siz yazılmışdınız. Buyurun.

**Ə.Ağazadə.** Hörmətli xanım sədr, Fazil müəllimin qeydi ilə bağlı bəzi məsələləri söyləmək istərdim. İlk növbədə onu qeyd edim ki, biz əsas dəyişiklikləri 2022-ci il aprelin 26-da etmişik və Cinayət Məcəlləsində ilk dəfə olaraq "külli miqdar" və "xeyli miqdar" anlayışları qəbul olunmuşdur.

O ki qaldı az miqdarla bağlı, ötən il Milli Məclis qanun qəbul etdi. Az miqdar artıq inzibati məsuliyyət daşıyır, xeyli miqdardan az olan miqdar az miqdar hesab olunur. Yəni bu, qanunvericilikdə öz əksini tapıbdır. Hazırda isə bizim qanunun qəbul olunması və qüvvəyə minməsi ilə bağlı indiki siyahılarımızı qəbul etdikdən sonra o dəyişik-

liklər qüvvəyə minəcək, yəni onunla şərtləndirilmişdir. İndi isə bu, uyğunlaşdırma xarakteri daşıyır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əminə xanım. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihələrini maddələr üzrə səsə qoyacağam.

4-cü məsələ, yəni Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində 1 maddə var. Xahiş edirəm, həmin maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə mən 4-cü məsələdəki qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

5-ci məsələnin səsverməsinə keçirik. Bu qanun layihəsində 2 maddə var. 1-ci maddəyə münasibət bildirin. Bu-

yurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul

edildi.

6-cı məsələnin səsverməsinə keçirik. Bu qanun layihəsində 2 maddə var. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

7-ci məsələnin səsvermərsinə keçirik. Bu qanun layihəsində də 2 maddə var. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
| --- | --- |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
| --- | --- |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun,

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
| --- | --- |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

8-ci məsələyə keçirik. Bu qanun layihəsində də 2 maddə var. 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verməsi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bu, 9-cu məsələdir, İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Keçən dəfə də Nizami müəllim bizə məlumat verdi. Bu dəfə də, Nizami müəllim, xahiş edirəm. Nizami Səfərov, buyurun, məlumat verin.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli Milli Məclisin deputatları. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda qəbul edilmişdir. Bir daha xatırlatmaq istəyərdim ki, layihə dəqiqləşdirmə xarakteri daşıyır. Müzakirələr zamanı sual doğuran heç bir məsələ olmamışdır və hörmətli deputatlar tərəfindən konkret maddələrlə bağlı hər hansı təklif irəli sürülməmişdir. Qanun layihəsinin ikinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul edək. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Müzakirəyə yazılanlar yoxdur və maddələr üzrə səsverməyə keçirik. Layihədə 26 maddə var və mən onları dörd-dörd səsə qoyacağam. Xahiş edirəm, indi 1-ci, 2-ci, 3-cü və 4-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 5-ci, 6-cı, 7-ci və 8-ci maddələrə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə xahiş edirəm, növbəti dörd maddəyə səs verin.

Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Növbəti 13-cü, 14-cü, 15-ci və 16-cı maddələri də səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

17-ci, 18-ci, 19-cu və 20-ci maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

21-ci, 22-ci, 23-cü və 24-cü maddələrə, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Nəhayət, son 2 maddəyə – 25-ci və 26-cı maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin növbəti məsələlərinə keçirik. Bizim 3 məsələmiz qalır. Bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir və ona görə də xatırladım ki, müzakirələr zamanı birinci oxunuşun tələblərinə riayət edin.

İndi isə 10-cu məsələyə keçirik. Dövlət ehtiyatları haqqında qanun layihəsi müzakirəyə təqdim edilir. Qeyd edim ki, məsələnin müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi İdarə Heyətinin sədri hörmətli Səbuhi Sadıqov və sədr müavini Hörmətli Hidayət Əzimov iclasımızda iştirak edirlər. Mən sizi də salamlayıram. Hörmətli həmkarlar, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Yenə də mən sözü komitənin sədri hörmətli Tahir Mirkişiliyə verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, Dövlət ehtiyatları haqqında qanun layihəsi Milli Məclisə möhtərəm cənab Prezidentin təşəbbüsü ilə daxil olmuşdur və kifayət qədər aktual məsələləri özündə ehtiva edir. Xatırladım ki, müasir dünyada iqtisadi və siyasi qeyri-müəyyənliyin artdığı, böhranlı vəziyyətlərin çoxaldığı bir zamanda dövlətin tənzimləyici rolu getdikcə güclənməkdədir. Hazırda dövlət müdaxiləsi olmadan, dövlətin müəyyən istiqamətdə, təşəbbüsü ələ almadan böhranlı vəziyyətdən çıxmaq, demək olar ki, qeyri-mümkündür. Bu yolda əsas alətlərdən biri də dövlət ehtiyatlarının formalaşması və onların idarə edilməsidir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Döv-

lət Ehtiyatları Agentliyi yaradılmışdır. Agentlik dövlət və səfərbərlik ehtiyatlarının yaradılması və idarə olunması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən, bu sahədə tənzimləməni və nəzarəti həyata keçirən orqandır.

Hörmətli həmkarlar, aparılan təhlildə göstərilmişdir ki, strateji əhəmiyyət kəsb edən bu sahənin tənzimlənməsində hüquqi baza kifayət qədər inkişaf etdirilməmişdir. Belə ki, hazırda dövlət ehtiyatları sahəsini tənzimləyən vahid normativ hüquqi akt mövcud deyildir. Dövlət ehtiyatları üzrə vahid konseptual yanaşma yoxdur. Dövlət ehtiyatlarının yaradılması və idarə edilməsi mövcud normativ hüquqi aktlarda da natamam tənzimlənmişdir. Məhz bu çatışmazlıqların aradan götürülməsi üçün yeni qanun layihəsi hazırlanmış və cənab Prezident tərəfindən, qeyd etdiyim kimi, Milli Məclisə təqdim edilmişdir.

Qanun layihəsi 4 fəsil və 14 maddədən ibarətdir. Layihə Dövlət ehtiyatlarının təyinatını və hüquqi statusunu, sistemini, dövlət ehtiyatlarında malların tədarükünü, yerləşdirilməsini, saxlanılmasını və baxılmasını, həmçinin nəzarət və hesabatlılıq mexanizmlərini özündə əks etdirir. Layihədə dövlət ehtiyatları da strateji, fövqəladə və səfərbərlik ehtiyatları şəklində müəyyən edilmiş və onların hər birinin formalaşdırılması, idarə edilməsi mexanizmləri əks etdirilmişdir. Ölkədə ilk dəfə olaraq dövlət ehtiyatlarının formalaşmasında və idarə edilməsində dövlət-özəl sektor əməkdaşlığı qanunda öz əksini tapmışdır.

Layihənin hazırlanmasında əsas məqsəd ölkədə strateji əhəmiyyətli mallar üzrə daha səmərəli təchizat zəncirinin formalaşdırılması, bu sahədə qabaqcıl tənzimləmə və idarəetmə təcrübəsinin tətbiqi, daxili bazarın qısa müddətli mənfi təsirlərə davamlılığının artması, eləcə də dövlət

ehtiyatlarının yaradılması, saxlanılması və idarə edilməsi sahəsində hüquqi-iqtisadi əsasları müəyyən etməkdir. Layihə hazırlanarkən "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunundan və sahəvi qanunvericilik aktlarından geniş istifadə olunmuşdur. Eyni zamanda, layihənin hazırlanması zamanı xarici ölkələrin bu sahədə təcrübəsi araşdırılmış, onların müvafiq sahəyə dair qanunları təhlil edilmişdir. Layihənin qəbul edilməsi ilə dövlət ehtiyatlarının yaradılması, yerləşdirilməsi, saxlanılması, buraxılması üzrə fəaliyyətin təmini mümkün olacaqdır.

Qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında geniş müzakirə edilmişdir. İclasda Dövlət Ehtiyatları Agentliyinin nümayəndələri deputatların suallarına münasibət bildirmişlər. Komitə üzvlərinin qanun layihəsi ilə bağlı bəzi təklif və şərtləri isə hazırda müzakirə mərhələsindədir. Beləliklə, komitə qanun layihəsinin birinci oxunuşda qəbulunu məqbul sayır. Həmkarlarımdan layihəni dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim. Müzakirəyə keçirik. Etibar Əliyev. Etibar müəllim, buyurun.

**E.Əliyev.** Çox təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli Tahir müəllimin fikri ilə mən də şərikəm ki, həqiqətən, bu qanun çox vacib qanundur. Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 oktyabr tarixli, 1456 nömrəli Fərmanı əsasında yaradılmışdır. Agentliyin nizamnaməsi Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bu gün isə Dövlət ehtiyatları haqqında qanun layihəsini birinci oxunuşda müzakirə edirik. Fikrimcə, Nizamnamədə göstərilən agentliyin fəaliyyət istiqamətləri ilə qanun layihəsində nəzərdə tutulan dövlət ehtiyatlarının təyinatı

istiqamətləri indentiklik təşkil etməlidir. Əks təqdirdə yaxın gələcəkdə dəyişikliklər etməklə üzləşəcəyik.

Nizamnamə, əslində, hansısa dövlət orqanının, müəssisənin, təşkilatın hansısa sadə fəaliyyətini və işinin təşkilini tənzimləyən hüquqi sənəddir. Nizamnamədə ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlığının təmin edilməsi və daxili bazarda həmin mallar üzrə qısa müddətli kəskin qiymət dəyişmələrinin qarşısının alınması istiqamətində tədbirlər görmək istiqaməti yer alıb. Bu yazılış olduğu kimi qanun layihəsində də yer alıb. Bu, çox yaxşı haldır. Ancaq uyğunsuzluqlar da var və buna diqqət edək. Məsələn, humanitar yardımın təmin edilməsi qanun layihəsində var, lakin nizamnamədə yoxdur. Başqa bir misal: nizamnamədə Dövlət Taxıl Fondunda taxılın tədarük edilməsini, saxlanılmasını və yenilənməsini həyata keçirmək kimi fəaliyyət istiqaməti yer alıb. Lakin bu ciddi istiqamət qanun layihəsində dövlət ehtiyatlarının təyinatının istiqamətində yer almayıb. Digər bir məsələ. Müvafiq sahədə monitorinqlər aparılmasını təşkil etmək və proqnozlaşdırmada iştirak etmək istiqaməti nizamnamədə yer alıb, lakin qanun layihəsində yer almayıb. Düşünürəm ki, bu qanun layihəsində dövlət ehtiyatlarının istiqamətləri genişləndirilməlidir. Xahiş edirəm, elə birinci oxunuşda bu məsələlərə aydınlıq gətirilsin. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar İsgəndərov. Buyurun.

**V.İsgəndərov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Dövlət ehtiyatları və onların qorunması, funksional təyinatı, istifadəsi bir dövlət üçün çox strateji və vacib məsələdir. Ölkənin müdafiə, səfərbərlik, fövqəladə ehtiyaclarının öyrənilməsi, vacib malların təchizatının dayanıqlığı, fors-major hallarının pereventiv olaraq qarşısının alınması bu layihədə öz əksini tapıb. Qeyd etməliyəm ki,

günümüzün tələblərinə uyğun qanun layihəsidir və təbii ki, hər birimiz tərəfindən də dəstəklənməlidir.

Hörmətli xanım sədr, mövzu ilə bağlı bir vacib məsələni diqqətinizə çatdırmaq istəyirəm. Dünyada baş verən siyasi, təbii kataklizmlər, əsasən də, koronavirus pandemiyası, təbii fəlakətlər, quraqlıq, ümumiyyətlə, fors-major halları göstərdi ki, dünyamız belə gözlənilməz hadisələrə hazır deyil. Koronavirus pandemiyasında dünya, əsasən də, tibb və digər sahələr az qala yarım il şok vəziyyətində qaldılar. Təklif edirəm ki, hər mərkəzi icra hakimiyyətində sahə üzrə pereventiv şöbə, yaxud sektor, – bu, texniki məsələdir, – yaradılmalıdır. Sahə üzrə hər şöbə qarşıdakı 3-5 il ərzində o sahədə hansı təhdidlər, hansı çətinlik və gözlənilməz vəziyyətlər baş verə bilər, bunları araşdırmalı, müzakirə, təhlil etməli və rəhbərlik qarşısında məsələni təqdim etməlidir. Təbii ki, mərkəzi icra hakimiyyəti də öz növbəsində yuxarı instansiyaları bununla bağlı məlumatlandırmalıdır. Dövlət də öz növbəsində vacib addımları atmalıdır. Düşünürəm ki, belə halların sayı çoxdur və çoxalır. Təbii fəlakətlər, digər təhdidlər... Sahəvi olaraq mərkəzi icra hakimiyyətinin daxilində belə bir şöbənin və yaxud sektorun yaradılması həmin sahəni gözləyən gələcək təhdidlərin qarşısının alınması üçün vacib ola bilər. Diqqətiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov.

**A.Hüseynov**. Xanım sədr, hörmətli millət vəkilləri. Bu gün müzakirə etdiyimiz qanun layihəsi ilə bağlı çox hörmətli Tahir müəllim geniş məlumat verdi. Əhəmiyyətli qanunlardan biridir. Qanunu əhəmiyyətli edən ən başlıca amillər ondan ibarətdir ki, dövlət ehtiyatlarının, yəni strateji, fövqəladə, eləcə də səfərbərlik ehtiyatlarının yaradılması və idarə edilməsi üçün hüquqi-iqtisadi əsaslar

müəyyən edilir. Yəni başqa bir sadə anlamda desək, nədir? Vətəndaşlarımız tam əmin olacaq ki, hər hansı bir situasiyada, səfərbərlik, fövqəladə, bu kimi situasiyalarda həyati əhəmiyyət kəsb edən strateji məhsullar qıtlığı olmayacaq və onlar dayanıqlı təmin olunacaq. Digər tərəfdən, hər hansı bu kimi hallarda kəskin qiymət artımı olacaqsa, dövlət bu kəskin qiymət artımının həmin ehtiyatlar vasitəsi ilə qarşısını alacaq. Mən hesab edirəm ki, qanunumuzun başlıca mahiyyəti odur ki, bu, vətəndaşlarımızın əminliyini bir daha artırır.

Bayaq qeyd olunduğu kimi, qanun layihəsi mükəmməldir. Strateji ehtiyatlarımızın nədən ibarət olacağı burada sadalanır. Mən hesab edirəm ki, əgər biz strateji ərzaq, strateji mallardan söhbət açırıqsa, sonradan qanunda deyil, Nazirlər Kabinetinin qərarı ilə bu malların siyahısı açıqlanacaqsa... Düzdür, Nazirlər Kabinetinin siyahısında bunlar daha geniş ola bilər. Ancaq ən önəmli odur ki, bu strateji ərzaqların adları qanunda göstərilsə, daha yaxşı olar. Nəyə görə? Birinci növbədə hər bir vətəndaş bilər ki, bu ərzaq, məsələn, taxıldır, buğdadır, digər ərzaqlardır. Bunlar strateji məhsullardır. Yanacaq, dərman, bir çox dərman ləvazimatları – bunların ən önəmlilərinin adlarının qanunda öz əksini tapması, mən hesab edirəm ki, vacibdir. Bayaq qeyd etdiyim kimi, Nazirlər Kabineti, onsuz da, bu siyahını verəcək. Tutaq ki, Nazirlər Kabinetinin siyahısı mütəxəssislər, o qanundan istifadə edənlər üçündür. Ancaq qanun bütün ictimaiyyət, bütün cəmiyyət üçündür.

Burada "su" sözünün ayrıca getməsini istəyərdim. Su ehtiyatlarının adının ayrıca getməsi çox yaxşı olar. Nə mənada? Çünki ərzaq məhsulu kimi suyu qəbul edə bilərik. Söhbət təkcə qablaşdırılmış sulardan getmir, ümumən, su ehtiyatlarımızın özünü də strateji bir məhsul ola-

raq adının qanunda ehtiva edilməsi, göstərilməsi daha əhəmiyyətli olar. Vətəndaşlarımız buna qənaətlə yanaşar, bilinər ki, adları çəkilən, qanunda adı göstərilən bu kimi məhsullar strateji məhsullardır, bunların qorunması lazımdır. Eyni zamanda, bu qanuna həmin məhsullardan qənaətlə istifadə edilməsi üçün bir maddə əlavə olunmalıdır ki, bu məhsullar qənaətlə istifadə olunmalıdır və qənaətli istifadə prosedurlarını pozan şəxs hər hansı bir formada məsuliyyət daşımalıdır. Mən hesab edirəm ki, bax, bunların da artırılması qanunumuzu daha mükəmməl edər.

Fürsətdən istifadə edib bir məsələni də hörmətli həmkarlarımla bölüşmək istəyərdim. Biz qanunları qəbul edərkən, müzakirə edərkən çox geniş fikirlər, peşəkar, düzgün fikirlər səsləndirilir. Hər biri də qanunumuzun daha da mükəmməl olması üçün səsləndirilən fikirlərdir, dəyərləndirirəm. Ancaq bəzən, xüsusən iqtisadi sahəni əhatə edən qanunlarımız Milli Məclisimizin plenar yığıncağında müzakirə olunarkən, – bu bizim ən ali bir tribunamızdır, – orada digər ölkələrin konkret adları çəkilir. Digər ölkələrdə, tutaq ki, qanunvericiliyin hansı formada olması göstərilir. Ancaq yalnız və yalnız işçi qaydasında olan müzakirələrdə o dövlətin qanunvericiliyinin hansı şəkildə olduğunu biz deyə bilərik. Ancaq bizim bu tribunamızdan o dövlətlərdəki qanunun öz qanunumuzla müqayisə olunması bir az qeyri-peşəkar alına bilər. Çox da təfsilata varmaq istəmirəm. Afrikada bitən hər hansı bir banan ağacını gətirib Azərbaycanda əkə bilərikmi? Orada çox məhsuldardır, gəlin, burada da əkək. İqtisadiyyatın özü də canlı bir orqanizmdir. İqtisadiyyatın özü də bu kimi hallarda gərək özünü doğrulda bilə. Digər tərəfdən...

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli xanım sədr,

hörmətli həmkarlar. Təqdim edilmiş qanun layihəsi, təbii olaraq, öz tutumuna, strateji məqsədlərinə və əhəmiyyətinə görə ciddi önəm daşıyır. Ölkə Prezidenti 2022-ci ilin fevralında Dövlət Ehtiyatları Agentliyinin yaradılması ilə bağlı onun əsas Nizamnaməsini və strukturunu təsdiq etdi. Belə bir mühüm sahə, konkret qurum tərəfindən onun qarşıda duran vəzifələrini yerinə yetirməsi imkanları yarandı. Bu agentliyin yaradılması, əlbəttə, vacib əhəmiyyət kəsb edirdi. Çünki ona qədər dövlət ehtiyatlarının yaranması ayrı-ayrı strukturlar tərəfindən həyata keçirilib və müəyyən dərəcədə dağınıq xarakteri daşıyırdı. Agentliyin fəaliyyətini, daha doğrusu, təşkilati, hüquqi, iqtisadi əsaslarını müəyyənləşdirmək üçün belə bir qanun layihəsinin işlənib təqdim olunması və müzakirədən sonra qəbul edilməsi vacib idi. Təbii ki, nizamnamədə və onun yaradılmış olan strukturunda bu gün dövlətin müəyyən siyasəti uğurla yerinə yetirilir. Lakin onun fəaliyyətini, bütövlükdə, tənzimləmək üçün belə bir qanun layihəsinin hazırlanmasına ciddi ehtiyac duyulur və bu qanun layihəsi hazırlanıbdır. O, konseptual baxımdan qanunvericilik tələblərinə tamamilə cavab verir, strukturu aydındır, dəqiqdir və dili də kifayət qədər səlisdir.

Dövlət ehtiyatları, əlbəttə, dövlətin strateji mahiyyət daşıyan və bu istiqamətdə fəaliyyətini quran mühüm sahələrdən biridir. İndiki durumda dünyanın qarışıq vəziyyətində, münasibətlərin diplomatik müstəvidə deyil, ancaq böyük cəbhələrdə həll edilməsinin geniş miqyas aldığı bu vəziyyətdə, həm də regionumuzun da kifayət qədər diqqət mərkəzində olduğu bir durumda məhz belə bir agentliyin yaranması və belə bir qanun layihəsinin qəbul edilməsi xüsusilə ciddi əhəmiyyət kəsb edir. Yəni istər fors-major vəziyyətində, istərsə də digər arzuolunmaz vəziyyətdə

ölkənin strateji mallarının, ehtiyatlarının yığılması, toplanması, onun qorunması və yeri gəldikcə əvəz olunması bu qanun layihəsində lazımi şəkildə öz əksini tapıbdır.

Eyni zamanda, xüsusi strateji əhəmiyyət daşıyan malların qiymətinin artırılmasının dövlət tərəfindən tənzimlənməsi də, mənə belə gəlir ki, ciddi məsələdir. Bildiyimiz kimi, Azərbaycan həm də hazırda donor ölkə kimi ayrı-ayrı ölkələrə ən müxtəlif vəziyyətlə bağlı humanitar yardımlar göstərir. Bu baxımdan da belə bir qanun layihəsinin qəbul olunması və bunun qanunda əks olunması və nəhayət, fövqəladə, müdafiə və səfərbərlik ehtiyatlarının təmin edilməsi kimi də vacib məsələlər, əlbəttə, bu qanunla tənzim olunur. Bu qanun layihəsinin bu gün müzakirəyə təqdim edilməsini mən müsbət dəyərləndirirəm və dəyərli həmkarlarımı qanuna birinci oxunuşda səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Eldar Quliyev. Buyurun, Eldar müəllim.

**E.Quliyev**. Çox sağ olun, xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Hesab edirəm ki, ən vacib qanunlardan biri də Dövlət ehtiyatları haqqında olan qanun layihəsidir. Biz bu gün bu qanun layihəsinin müzakirəsinə başlayırıq. Bu qanun keçmiş zamanlarda da olub. Həmişə dövlətin ehtiyatları olub və bu gün də yeniləşdirilməsi, əlbəttə, dövlətin ən vacib prioritetlərindən biridir. Mən bir neçə məsələni demək istəyirdim. Bu məhsulların əksəriyyəti ərzaq məhsullarıdır. Bunların saxlanılması və ondan istifadə edilməsi mütləq çox vacibdir. Onun hansı isə meyarları olmalıdır. Xüsusən də ərzaq, taxıl, ət və duz məhsullarıdır. Yəni gündəlik tələbat olan məhsulların müddətləri bilinməlidir ki, nə qədər, neçə müddətə saxlanılır. Çünki bilirsiniz ki, onlar çox müddətdə saxlanılsa,

sözsüz, öz keyfiyyətini itirəcək.

Mən hesab edirəm, qanunda, heç olmasa, nizamnamədə konkret olaraq hər bir məhsulun üzərində göstərilməlidir ki, bu məhsul neçə müddət saxlanıla bilər. Həmin məhsullar yeni məhsul ilə əvəzləşdirilməlidir, yeniləşdirilməlidir. Görürəm ki, agentliyin rəhbərliyi də buradadır, bunu nəzərə alsın. Mən bilmirəm, indi qanun layihəsinə müddətləri salıb-salmamaq olarmı, amma çox vacibdir ki, bu müddətlər də orada qeyd olunsun.

**Sədrlik edən.** Tahir müəllim, sözünüz var? Buyurun.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Sahibə xanım, mən ilk öncə çıxış edən və dəstək göstərən bütün həmkarlarıma minnətdarlığımı bildirmək istəyirəm. Sadəcə, iki məsələ var ki, onunla bağlı fikir bildirmək istəyərdim. Birincisi, hörmətli həmkarım Etibar müəllimin dediyi məsələ. Mən nizamnamə və qanun arasında olan fərqliliklə bağlı xatırlatmaq istərdim ki, nizamnamə, əslində, konkret orqanın fəaliyyətini müəyyən edir. Qanun isə sahəni tənzimləyir. Bizim əsas məqsədimiz qanunda elə bir şərait və mühit yaratmaqdır ki, – nizamnamə, bildiyiniz kimi, cənab Prezident tərəfindən təsdiq olunur, – məhz həmin orqan nizamnamədə qarşısına qoyduğu məqsədi və təyinatı yerinə yetirə bilsin. Ona görə məhz Dövlət Taxıl Fondu, taxılın tədarük olması nizamnamədə göstərilib, doğrudur.

Eyni zamanda, qanun layihəsinin 4-cü və 6-cı maddələrində dövlət ehtiyatlarının təyinatı və dövlət ehtiyatları sahəsində dövlətin vəzifələri maddəsində həmin dövlət orqanının o vəzifəni yerinə yetirməsi üçün imkan yaradılmışdır. Ona görə də nizamnamədə olan eyni məsələnin yenidən qanun layihəsində olmasını mən məcbur və lazım bilmirəm, doğru saymıram. Hesab edirəm ki, bu cür daha doğrudur.

İkinci məsələ. Hörmətli Eldar müəllimin dediyi məsələ ilə bağlı qısa bir arayış verim. Təbii ki, qanun layihəsi ümumi maddələri və qaydaları müəyyən etdiyi üçün, Eldar müəllim, qanun qəbul edildikdən sonra Nazirlər Kabineti tərəfindən ayrıca qaydaların qəbul olunması gözlənilir. Məhz strateji məhsulların siyahısı, hansı məhsuldan, hansı həcmdən söhbət getməsi, hansı müddətdə saxlanılması, hansı müddətdən sonra dəyişdirilməsi, satışa çıxarılması – bütün bunlar Nazirlər Kabinetinin qərarlarında öz əksini tapacağına görə qanun layihəsində bu məsələlər yoxdur. Amma əmin olun ki, qanun layihəsi qəbul olunandan sonra hökumətin belə bir qərarı olacaqdır. Çox sağ olun, minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, birinci oxunuşda qəbul olunmasına səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti 11-ci məsələ "Antiinhisar fəaliyyəti haqqında" Qanunda və digər 7 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, mən yenə də sözü Sizə verirəm. Buyurun, məlumat verin.

**T.Mirkişili**. Çox sağ olun. Hörmətli xanım sədr, həmkarlarım, bu qanun layihəsinin hazırlanmasında əsas məqsəd məhz bundan öncə qəbul etdiyimiz Dövlət ehtiyatları haqqında Azərbaycan Respublikasının qanun layihəsi ilə tənzimlənən və bu qanunun mahiyyətinə zidd olan məsələlərin adıçəkilən 8 qanundan çıxarılması, habelə müvafiq qanunlarda səfərbərlik ehtiyatları, dövlət ərzaq ehtiyatları, Dövlət Taxıl Fondu, qiymətli metalların və qiymətli daşların dövlət ehtiyatları ilə bağlı hissələrin çıxarılması və ya həmin hissələrdə müvafiq qaydada düzəlişlərin edilməsidir. Çünki daha öncə qəbul etdiyimiz qanun layihəsi bunların hamısını tənzimlədiyinə görə bu qanunlarda onların qalmasına lüzum yoxdur, dəstəkləməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bu qanun layihəsinə 3 komitədə də baxılıb. Ziyafət müəllim, sizin komitənizdə baxılıb. Buyurun, komitənin rəyi haqqında məlumat verin.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Aqrar siyasət komitəsində baxılıb. Hörmətli Tahir Rzayev. Buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Əli müəllim, xahiş edirəm, Siz də komitənin rəyi haqqında məlumat verin.

**Ə.Hüseynli.** Xanım sədr, komitə lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qa-

nun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz sonuncu məsələmizə çatmışıq. 12-ci məsələ Aviasiya haqqında qanun layihəsidir. Qeyd edim ki, məsələnin müzakirəsi ilə əlaqədar dəvət olunan şəxslər var. Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini hörmətli Rəhman Hümmətov və Dövlət Mülki Aviasiya Agentliyinin direktor müavini hörmətli Nazim Ziyadov da iclasımızda iştirak edirlər.

Hörmətli həmkarlar, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Tahir müəllim, mən yenə də Sizə söz vermək istəyirəm. Buyurun, məlumat verin.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, Aviasiya haqqında Azərbaycan Respublikasının qanun layihəsi möhtərəm cənab Prezident tərəfindən Milli Məclisə daxil olmuşdur və birinci oxunuş üçün onu təqdim edirəm. Qeyd edim ki, aviasiya sahəsi müasir dünyada ən sürətlə inkişaf edən, dəyişən sahələrdən biridir. Aviasiya texnologiyalarının inkişaf etdirilməsi həm iqtisadi, həm də təhlükəsizlik baxımından dövlətin gücünü dəfələrlə artırır. Azərbaycan 2020-ci ildə bu aviasiya texnologiyalarının nəyə qadir olduğunu bütün

dünyaya göstərmişdir. Düşünürəm ki, bu istiqamətdə ölkəmizin əldə etdiyi uğurlar kifayət qədər böyükdür.

Məlumat üçün qeyd etmək istərdim ki, hazırda Azərbaycan ərazisində 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. 9-cu da Laçında tikilməkdədir və inşası başa çatmaqdadır. Bildiyiniz kimi, DAVOS Ümumdünya İqtisadi Forumunun hesabatına görə, Azərbaycan hava nəqliyyatının səmərəliliyinə görə dünyada 12-ci yerdədir. Heydər Əliyev Beynəlxalq Hava Limanı dünyanın ən yaxşı hava limanları sırasında ilk onluqdadır, bəzi yerlərdə bəzən 5-ci sıraya qədər yüksələ bilmişdir. Hazırda Bakıdan dünyanın 33 ölkəsinə 66 istiqamət üzrə uçuşlar həyata keçirilir. Sərnişinlər "AZAL" ilə yanaşı, xatırlatmaq istəyirəm, 39 xarici aviaşirkət tərəfindən daşınır ki, onların da 17-si aşağı büdcəli aviaşirkətlərdir. Yəni hazırda Azərbaycanda "AZAL"ı da saymaqla 40 aviaşirkət fəaliyyət göstərir ki, onların da 17-si aşağı büdcəli aviaşirkətlərdir. Xatırladım ki, Azərbaycandan daşınan və Azərbaycana gələn sərnişinlərin 40 faizi "AZAL" tərəfindən, 60 faizi isə xarici aviaşirkətlər tərəfindən daşınır.

Hörmətli Sahibə xanım, Sizin təşəbbüsünüzlə bu il sentyabr ayının 14-də Milli Məclisin bir qrup deputatı Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyətinə səfər etmiş və aviasiya sənayesinin inkişafının vacibliyi, bu sahədə "AZAL"ın gələcək planları, sərnişinlərin təhlükəsizliyi və rahat uçuş şəraiti, habelə bilet qiymətlərinin formalaşması və digər mövzular ətrafında geniş və faydalı müzakirələr aparılmışdır. Xatırladım ki, səfərdə iştirak edən deputatların böyük əksəriyyəti çıxış etmiş, sual vermiş və bu sualların böyük əksəriyyəti də müvafiq orqanlar, o cümlədən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndələri tərəfindən geniş şəkildə cavab-

landırılmışlar. Düşünürük ki, bu səfər, eyni zamanda, bu qanun layihəsinin daha müfəssəl şəkildə qavranaraq qəbul edilməsinə çox mühüm bir töhfə olmuşdur.

Hörmətli həmkarlar, hazırda qüvvədə olan “Aviasiya haqqında” Qanun 2005-ci ildə qəbul edilib. Keçən 18 il ərzində aviasiya sahəsində baş verən böyük texnoloji yeniliklər və bu sahədə geniş tənzimlənməyə ehtyac yeni qanunun qəbul edilməsini şərtləndirmişdir.

Təqdim olunan qanun layihəsi 15 fəsil, 68 maddədən ibarətdir. Layihə mülki aviasiya sahəsində beynəlxalq norma və prinsiplər, habelə mütərəqqi xarici təcrübə nəzərə alınmaqla işlənib hazırlanmışdır. Aviasiya haqqında yeni qanun layihəsinə Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartları, tövsiyə olunan təcrübəsi nəzərə alınmaqla bir sıra yeni müddəalar və tənzimlənmə mexanizmləri əlavə edilmişdir. Bunlar aşağıdakılardan ibarətdir. Qanunun tətbiq dairəsinə dair yeni maddə və müddəalar əlavə edilmişdir. Belə ki, qanun layihəsində müvafiq qanunun tətbiq dairəsinə dair, Azərbaycanın hava məkanından istifadəyə dair münasibətlər, Azərbaycana mənsub hava gəmilərinin Azərbaycan hava məkanından kənarda istismar edilməsi zamanı yaranan münasibətlər, həmçinin xarici dövlətə mənsub hava gəmilərinin Azərbaycanın hava məkanında uçuş əməliyyatlarında yaranan münasibətləri əhatə edən müddəalar əlavə edilmişdir. Xatırladım ki, qüvvədə olan qanunda bu müddəalar mövcud deyildir.

İkincisi, layihədə aviasiya sahəsində dövlətin əsas məqsədi müəyyən edilmiş, dövlətin vəzifələrinə yeni müddəalar artırılmışdır. Belə ki, təhlükəsizliyn gücləndirilməsi, icazələrin sadələşdirilməsi və şəffaflaşdırılması, hər kəs üçün bərabər imkanların

yaradılması, ədalətli rəqabətin təmin edilməsi məqsədləri daha da önə çıxarılmışdır.

Üçüncüsü, layihədə aviasiya sahəsində fəaliyyətə dair xüsusi tələbləri əhatə edən müddəalar əlavə olunaraq icazələrin verilməsi, Azərbaycanın hava məkanında uçuşların həyata keçirilməsi, icazə almadan dövlət sərhədini keçən hava gəmisinin məcburi qaydada yerə endirilməsi, hava gəmisinin məhvinə icazənin verilməsi ilə bağlı xüsusi hallar da maddə kimi qanunda öz əksini tapmışdır.

Layihəyə, eyni zamanda, “Hava limanları, aerodromlar və helikopter meydançaları” adlı yeni bir fəsil əlavə olunmuşdur. Məhz yeni fəsildə ətraf mühitin mühafizəsi sahəsində ümumi koordinasiya işinin aparılması, hava limanlarının, aerodrom və helikopter meydançalarının inşası və yenidən qurulması ilə əlaqədar müvafiq ərazilərin ayrılması, tədqiqat, layihələndirmə və tikinti fəaliyyəti üçün verilmiş rəylər nəzərə alınmaqla icazələrin verilməsi, həmçinin təhlükəsizlik tələblərinə uyğunluğuna dair müddəaları əhatə edən yeni maddələr ləğv olunmuşdur. Qüvvədə olan qanunda “Axtarış və xilasetmə” adlı bir maddə ilə əhatə olunan müddəalar təkmilləşdirilərək “Axtarış və xilasetmənin təşkili”, həmçinin ümumi tələbləri özündə əks etdirən “Axtarış və xilasetmə” adlı yeni bir fəsil əlavə olunmuşdur.

Layihədə beynəlxalq təcrübəyə uyğun olaraq, hava gəmilərinin dövlət uçotunun aparılması, qeydiyyat sertifikatının verilməsi ilə bağlı müddəalar da əks olunmuşdur. Aviasiya personalına dair tələblər beynəlxalq standartlara uyğun olaraq, genişləndirilmiş, personalın əhatə dairəsi dəqiqləşdirilmişdir. Tələblərə dair dəyişikliklər personalın hazırlanmasına, onların peşəkarlığının artırılmasına, eyni

zamanda, gələcəkdə yarana biləcək sosial problemlərin aradan qaldırılmasına şərait yaradacaqdır.

Hava daşımaları üzrə rəsmiyyətin sadələşməsi ilə bağlı yeni maddə öz əksini tapmışdır. "Hava daşımaları" fəsili üzərində təkmilləşdirmə aparılmışdır. Belə ki, hava daşımaları fəsili yenidən işlənərək maddələr üzərində təkmilləşdirmə aparılmış, həmçinin daxili hava daşımalarına münasibətdə təsdiq edilmiş tarif qiymətləri, beynəlxalq daşımalara münasibətdə isə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, razılaşdırılmış tariflərin, bu olmadıqda isə müqavilə əsasında müəyyən edilməsi nəzərdə tutulmuşdur.

Hörmətli həmkarlar, qanuna son zamanlar xeyli müzakirə olunan və düşünürəm ki, əhalinin də diqqətində olan xüsusi bir fəsil əlavə olunmuşdur. Bu da mülki pilotsuz uçuş aparatlarına dair yeni fəsil əlavə olunması ilə bağlıdır. Çünki bildiyiniz kimi, Azərbaycan son illərdə bütün sahələrdə, xüsusən də mülki və hərbi sahələrdə pilotsuz uçuş aparatlarından ən səmərəli istifadə edən ölkələrdən biridir, bəlkə də birincisidir. Məhz bu sahənin inkişaf etdirilməsi, düşünürəm ki, Azərbaycanda texnoloji inkişafın əsasını qoyan məsələlərdən biridir. Əvvəlki qanunda belə bir fəsil yox idi. Yeni bir fəsil, bütünlükdə, bu sahədə mühüm yeniliklərin gətirilməsini özündə əks etdirir. Belə ki, mülki pilotsuz uçan aparat sistemlərinin istismarına dair qaydaların hazırlanması məqsədi ilə qanunvericilikdə bu sahəni tənzimləmək üçün layihəyə pilotsuz uçan aparatlarla bağlı normaları əhatə edən yeni fəsil əlavə olunmuşdur. Fəsildə mülki pilotsuz aparatların layihələndirilməsi və istehsalı, istismarı üçün ümumi tələblər müəyyən edilmiş, bu aparatlara nəzarətin təşkil edilməsi, onların uçuşuna icazə veriləcəyi coğrafi zonala-

rın müəyyən olunması və bunun üçün interaktiv xəritənin hazırlanması, aparatın istismarçıları, pilotları, operatorları üçün tələblərin və məsuliyyətin müəyyən edilməsi məsələləri öz əksini tapmışdır. Bütün dünyada pilotsuz uçuş aparatlarının uça bilməsi icazə ilədir və bu icazə ilə də dövlət tərəfindən müəyyən olunmuş coğrafi xəritələr və zonalar üzərində uça bilirlər. Yalnız icazə əsasında belə bir yeniliyin Azərbaycana gətirilməsi, düşünürəm ki, bu sahədə tənzimlənmədə mühüm yenilik olacaqdır.

Ümumi olaraq xatırlatmaq istəyirəm ki, layihə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tələblərinə uyğun hazırlanmış və ICAO-nun tələblərini normativ səviyyədə tənzimləyə bilmək üçün bir sıra qaydaların layihəsinin hazırlanması üçün yeni müddəalar əlavə olunmuşdur. Qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Dövlət Mülki Aviasiya Agentliyinin nümayəndələrinin iştirakı ilə geniş müzakirə edilmiş və deputat həmkarlarımın sualları cavablandırılmışdır. Layihə ilə bağlı komitənin rəyi müsbətdir. Həmkarlarımdan layihəni birinci oxunuşda dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, saat faktiki olaraq 1-dir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz? Hamı razıdır? Çox sağ olun.

Tahir Kərimli, sualınız var, təklifiniz var? Buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Tahir müəllim qeyd etdi, doğrudan da, bizim yaxşı bir görüşümüz alındı. Orada da bir sıra suallar səsləndi və heç də hamısına cavab verilməməsinə baxmayaraq, həm Rəhman müəllimin, həm də Samir müəllimin əhatəli cavabları

mənə xoş təəssürat bağışladı. Həm intellektual tutumu baxımdan, həm də bir sıra suallara cavab baxımından.

Bu qanunla bağlı bir sualım var. Bilirik ki, aviasiya sahəsində baş pilot, pilot, komandirlər, uzun illər, bəlkə də 30-40 il işləyənlər var. Sovet dövründən indiyə kimi onlar pensiyaya çıxandan sonra müəyyən imtiyazlara malik idilər. Özləri, ailə üzvləri. Onlara qızıl kart verirdilər, havayı uçuşlarla gedirdilər, ailə üzvləri 50 faizə gedirdilər. Aldığım məlumata görə, bu məsələ indi kəsilib. Bunu bərpa etmək... Nəyə görə olub? Ümumiyyətlə, qanunda bu adamlara imtiyaz sahəsi, sosial müdafiə sahəsi necə...

**Sədrlik edən.** Çox sağ olun. Çıxışlara keçirik indi. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, qanun layihəsi çox gözəl hazırlanmışdır. Deputat həmkarlarımı bu qanun layihəsinə səs verməyə çağırıram. Hörmətli xanım sədr, doğrudan da, Sizin təşəbbüsünüzlə böyük bir qrup və komitə sədrlərinin əksəriyyəti iştirak etdik. 4 saatdan artıq müzakirə apardıq, demək olar ki, bütün deputatlar üçün şərait yaradıldı. Orada çox çıxışlar oldu, təkliflər bildirildi, suallar verildi. Biz hörmətli Rəhman müəllim və "AZAL"ın yeni rəhbərliyi tərəfindən bu sualların, demək olar ki, böyük əksəriyyətinə həm elmi, həm praktiki, həm də nəzəri cəhətdən bütün cavablarımızı aldıq. Yəni bizə qaranlıq məqamların hər biri bu məsələlərdə aydın oldu.

Ümumilikdə, Azərbaycan Hava Yollarının qurulması, bərpası Ümummilli Liderin hakimiyyətinin birinci dövründə və ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra baş verib. Cənab Prezidentimizin rəhbərliyi altında da çox böyük yeni hava limanları tikilir, yeni təyyarələr alınıb və

istifadəyə verilibdir. Bu baxımdan da 8 yerdə bizim yeni aeroportumuz var. Onların bir qismi fəaliyyət göstərir, bir qismi gələcəkdə fəaliyyət göstərəcəkdir. Yəni hər bir məsələ ətraflı şəkildə müzakirə olundu. Hörmətli Əli müəllimin rəhbərliyi ilə millət vəkilləri tərəfindən aeroportun özünə bir baxış keçirildi.

Ümumilikdə, biz belə qənaətə gəldik ki, qarşılıqlı oturub müzakirə apardıqca bu məsələlərin həll yollarını daha yaxşı tapırıq, nəinki müxtəlif mənbələrdən və müxtəlif düzgün olmayan informasiya mənbələrindən informasiya alıb bunu ictimaiyyətə çatdırdıqda. Ən əsası, bütün deputatların fikirləri iki məsələdə üst-üstə düşürdü: birinci, biletlərin qiymətinin baha olması. Bunun da müəyyən hissəsini bizə izah etdilər ki, nə ilə əlaqədardır. İkinci, müxtəlif aviaşirkətlərin Azərbaycanda niyə iştirak etməməsi məsələsi. Həmçinin Azərbaycandan müxtəlif istiqamətlərə təyyarələrin uçması məsələsi ilə bağlı da deputat həmkarlarımıza izahat verildi və nəticə etibarı ilə də bizi, demək olar ki, bir hissəsi qane etdi, bir hissəsi isə tam şəkildə qane etmədi.

Mən Naxçıvandan seçildiyimə görə Naxçıvanla əlaqədar olan məsələdə gələcəkdə biz dövlət büdcəsini də qaldıracağıq. Dövlət büdcəsi tərəfindən deyilir ki, aviasiyaya, Naxçıvandakı biletlərə əlavə dotasiya verir. Lakin o, cəmi təxminən 20-25 faizini əhatə edir. Qalan yük isə “AZAL”ın üzərinə düşür. Yəni dövlət büdcəsindən Naxçıvana verilən dotasiya 5 milyondur, amma ümumilikdə, “AZAL” əlavə 20 milyon xərc çəkir. Yəni 15 milyon “AZAL”ın üzərində qalır, “AZAL” bunu hansı tərəfdən götürməlidir, qeyri-müəyyəndir. Əslində, Naxçıvan blokadada olduğuna görə bu, dövlət büdcəsi tərəfindən ödənilməlidir. Bir də artıq orada rəqəmsal sistemə keçirilibdir, o məsələ müzakirə

olundu və çox razılığımızı bildiririk ki, artıq Naxçıvana uçuşlar qaydasına düşübdür. Sadəcə, bir balaca yerdəyişmələrin olmasını xahiş etdik ki, bunlar da olacaqdır.

Hesab edirəm ki, bu qanun layihəsini qəbul etməklə digər sahədə də biz buna dəstək verəcəyik. Azərbaycan hava məkanında olan hava limanı, istər təyyarələri, istərsə də bu sistem, doğrudan da, dünyada qabaqcıllardandır. Çalışaq ki, daha qabaqcıl olsun və ən əsası da vətəndaşlarımız razı qalsın. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir Rzayev. Buyurun.

**T.Rzayev**. Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli deputat həmkarlar, aviasiya sahəsi özünün mühüm xüsusiyyətlərinə, başlıcası ən vacib və səmərəli nəqliyyat vasitəsi olmasına, transmilli xarakterinə, dünya xalqları ilə əlaqələrin qurulmasında iqtisadi inkişafın, təhlükəsizliyimizin, insanların rifahının və yükdaşımaların təmin olunmasındakı roluna görə əhəmiyyətlidir. Son illər həyata keçirilən səmərəli tədbirlər nəticəsində ölkənin aviasiya sistemi xeyli təkmilləşdirilmiş, naviqasiya xidməti yaxşılaşdırılmış, kadr potensialı artırılmış, təhlükəsizlik məsələləri ön plana çəkilmişdir. Füzulidə, Zəngilanda beynəlxalq əhəmiyyətli hava limanlarının tikilib istifadəyə verilməsi, Laçında yeni bir hava limanının tikintisi dövlətin bu sahəyə vacib əhəmiyyət verdiyini göstərir. Təqdim olunmuş və müzakirə etdiyimiz Aviasiya haqqında qanun layihəsi də bunu bir daha sübut edir.

Qanun layihəsinin hazırlanması günün tələblərindən irəli gəlir və bu, iqtisadi cəhətdən sürətlə inkişaf edən, dünyaya inteqrasiya olunan və beynəlxalq aləmdə sıx əlaqədə olan ölkəmiz üçün çox vacibdir. Aviasiya sahəsində həyata keçirilən tədbirlərin hüquqi və təşkilati əsaslarını müəyyən edən bu qanun, sözsüz ki, sahənin

inkişafına təkan verəcək. İnsanlara və sahibkarlara göstərilən xidmətin səviyyəsini daha da yüksəldəcəkdir. Qanun layihəsinin əsas məqsədi Azərbaycanda aviasiya sahəsində olan norma və tələblərin ən yüksək beynəlxalq standartlara çatdırılmasıdır. Layihədə beynəlxalq mülki aviasiya təşkilatının beynəlxalq standartlarının və tövsiyələrinin nəzərə alınması önəmlidir. Ancaq bu gün sərnişin daşımalarında biletlərin qiymətlərinin həddindən artıq baha olması haqlı olaraq vətəndaşlarımızı narahat edir. Bu narazılıqları deputat həmkarlarım dəfələrlə səsləndirmişlər.

Əlbəttə ki, bu, sistemdə müəyyən hesabatların dəqiq aparılmamasından irəli gəlir. Digər tərəfdən, bu gün bəzi rayonlarda mövcud olan aerodromların uzun illər istifadə olunmaması da düşündürücüdür. Halbuki əhalinin buna böyük ehtiyacı vardır. Elə bilirəm ki, qəbul olunan qanun layihəsi bir çox məsələlərə aydınlıq gətirəcək və çatışmazlıqların aradan qaldırılmasına özünün köməyini göstərəcəkdir. Layihədə aviasiya sahəsində dövlətin məqsəd və vəzifələrinə yeni müddəaların artırılması və mühüm tələblərin nəzərə alınması məhz buna xidmət edir. Qanun layihəsi əhatəlidir, günün tələblərinə cavab verir və deyildiyi kimi, beynəlxalq standartlar və tövsiyələr əsasında hazırlanmışdır. Birinci oxunuşun tələblərinə uyğun olduğuna görə qanun layihəsini dəstəkləyirəm və deputat həmkarlarımın da onun qəbuluna səs vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Məlahət İbrahimqızı. Məlahət xanım, sualınız var, deyəsən. Buyurun.

**M.İbrahimqızı**. Çox sağ olun, xanım sədr. Öncə Sizə təşəkkür edirəm ki, bu yaxınlarda biz hava limanında çox yüksək səviyyəli bir növ ictimai dinləmədə, parlament

dinləməsində iştirak edə bildik. Buna görə çox sağ olun. Ev sahiblərinə də təşəkkür edirəm. Demək olar ki, parlamentin 30-a yaxın millət vəkili iştirak edirdi. Sahibə xanım, elə bir sualımız qalmadı ki, hörmətli Rəhman müəllimlə Sabir müəllim izah etməsin. Hətta hərtərəfli və praktiki olaraq da "study tour" da etdik. Mən hesab edirəm ki, bu gün birinci oxunuşda konseptual cəhətdən müzakirə edirik. Ona görə həmkarlarımı səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Hörmətli həmkarlar, təklif var ki, səsə qoyulsun. Onu da deyim ki, bəli, belə bir dinləmə oldu, amma yerində dinləmə oldu və mənə məlumat da verdilər ki, çoxsaylı suallar və ətraflı da cavablar oldu. Əgər etirazınız yoxdursa, təkid edən yoxdursa, məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 24-də olacaq. Sağ olun.

# ALTINCI ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN XIV SESSİYASI İCLASININ

# PROTOKOLU № 147

*Milli Məclisin iclas salonu.*
*24 oktyabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 98 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 93 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Elnur Əliyev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini.

**Nuranə Abbasova**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Hüquq şöbəsi müdirinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Energetika haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
2. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Notariat haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

12. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

13. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

15. Qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

16. "Polis haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ceyhun Məmmədov, Siyavuş Novruzov, Azay Quliyev, Kamilə Əliyeva, Vahid Əhmədov, Tural Gəncəliyev, Elman Nəsirov, Bəhruz Məhərrəmov, Zahid Oruc, Etibar Əliyev

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**1. Energetika haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**2. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.35 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Notariat haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.36 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**4. "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**6. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəxtiyar Əliyev, Rəşad Mahmudov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**7. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**8. "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**9. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**10. "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**11. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məşhur Məmmədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**13. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Vüqar Bayramov, Aydın Mirzəzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**14. “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Əli Məsimli, Bəxtiyar Əliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 10–12-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 13–15-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16–18-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**15. Qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Vüqar Bayramov, Əli Məsimli, Fazil Mustafa, Əliabbas Salahzadə, Aydın Hüseynov, Elnur Əliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
| Lehinə | 80 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 82 |

Nəticə: Yetərsay yoxdur

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–4-cü maddələri qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5–10-cu maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 11–17-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 18–21-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 22–24-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 25–27-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**16. "Polis haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Bəxtiyar Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# ***MİLLİ MƏCLİSİN İCLASI***

*24 oktyabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 93 |
| Yetərsay | 83 |

İclasa başlaya bilərik. İndi isə xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, 30 dəqiqəmiz var, 10 nəfər çıxış eləyə bilər. Buyurun, yazılın. 10-cu çıxış Etibar Əliyevin çıxışı olacaq. Fərid müəllim, xahiş edirəm, ancaq 10 nəfər qalsın. Ceyhun Məmmədov. Buyurun, Ceyhun müəllim.

**C.Məmmədov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Məlum olduğu kimi, bir neçə gündür, Ermənistan rəsmiləri Qarabağdan onların təhriki ilə çıxmış ermənilərə təzminat verilməsi ilə bağlı bəyanatlar verirlər. Ermənilər özləri də dəfələrlə qeyd ediblər ki, onları bu əraziləri tərk etməyə təhrik etdilər. Burada digər bir məsələ isə ard-arda müxtəlif dövlətlərin Fransanın və Avropa qurumlarının təhriki ilə Azərbaycan əleyhinə bəyanat verməleridir.

Məlum olduğu kimi, bu gün bu məsələdə Azərbaycanı günahlandırmağa heç kimin haqqı yoxdur. Təzminat məsələsinə gəldikdə, ermənilər on min kvadrat kilometr ərazini, mədəni irsi tamamilə dağıdıblar. Onlar narahat olmasınlar, biz bu ərazilərin həqiqi sahibi kimi azad etdiyimiz əraziləri də qoruyacağıq, necə ki bu günə kimi qorumuşuq.

Digər bir sual yaranır. Niyə bu dövlətlər Azərbaycana qarşı eyni münasibəti sərgiləmirlər? Ermənilər bizim ərazilərimizdəki bütün dini abidələri dağıdıblar, bütün tarixi-dini abidələri Ermənistana, Avropaya daşıyıblar. Şuşa xalçalarını İrəvanda Azərbaycan xalçası kimi deyil, erməni xalçası kimi təqdim edirlər. Görünür, bu da yalançı xristian təəssübkeşliyi ilə bağlı bir məsələdir.

Eyni zamanda, digər bir məsələni də qeyd edək ki, ermənilər bu günə kimi Azərbaycan torpaqlarında həmin avropalıların da din qardaşı olan albanların yüzlərcə kilsə və tarixi abidələrini dağıdıblar və ya saxtalaşdırıblar. Biz hələ VIII əsrdə ermənilərin albanlara qarşı bu təxribatları törədərək ərəb xəlifəsinə məktub yazdığını yaxşı xatırlayırıq.

Həmin məktubda da albanlardan şikayət edirdilər. Məhz onların bilavasitə təhriki ilə 1836-cı ildə Sinodun qərarı ilə Alban Apostol kilsəsi ləğv olundu və onun bütün mədəni irsi ermənilərə verildi. Həmin dövrdən də başlayaraq ermənilər onların hamısını məhv etdilər və saxtalaşdırdılar.

Bu gün ermənilərin özlərinə aid olduğunu iddia etdiyi Qarabağdakı alban kilsələrinin onlara heç bir aidiyyəti yoxdur. Bu tarixi kilsələrin hamısı alban kilsələridir. Ermənistanın da havadarları narahat olmasınlar. Onlar bizim abidələrimizdir. Tarixən olduğu kimi, bu gün də biz həmin abidələrin həqiqi varisləri kimi onları qoruyacağıq. Burada başqa bir məsələ ortaya çıxır. Mən hesab edirəm, Qərb dairələri Ermənistandan hesabat istəməlidirlər ki, onlar niyə bu abidələrə qənim kəsilib onları dağıdıblar, saxtalaşdırıblar? Burada təzminatı Azərbaycan deyil, Ermənistan verməlidir. Həm də albanların pozulmuş hüquqlarına görə. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov, buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən də deputat həmkarımın dediyi fikirlərə qoşuluram. Bu gün Avropa İttifaqına daxil olan və Avropa Parlamentində təmsil olunan ölkələrin bir qrupunun Azərbaycana təzyiqlərini, ədalətsiz münasibətini, yanaşmasını biz hiss eləyirik. Baxmayaraq ki, Avropa İttifaqı ilə həm Cənubi Qafqaz, həm də postsovet məkanında ən çox iqtisadi əməkdaşlıq eləyən Azərbaycandır. Bu layihələrdə iyirmi milyardlarla dollar vəsaitlə iştirak eləyir. Avropanın enerji təhlükəsizliyinin təminatında iştirak eləyir, çətin günlərdə onların hər birinə Azərbaycan dayaq olur. Görüşəndə onların hər birinin Azərbaycan haqqında yüksək fikir deməsinə baxmayaraq, gizlidə bu cür qərarlar qəbul edilir. Bu, Avropa Parlamentinin təsiri nəticəsin-

dədir və bir daha sübut edir ki, məhz həmin ölkələrin böyük əksəriyyəti müstəqil deyil, öz müstəqil siyasətini apara bilmir, bunun nəticəsi olaraq da orada qəbul olunan hər hansı bir ədalətsiz qərarı təsdiq eləmək, yaxud da ona qoşulmaq məcburiyyəti qarşısındadır. O baxımdan da mən hesab eləyirəm ki, biz mübarizəmizi davam elətdirməliyik, hər bir ölkə ilə bağlı öz fikirlərimizi ortaya qoymalıyıq, bildirməliyik, mövqeyimizi çatdırmalıyıq. Bu gün biz ədalətli mövqedəyik.

Bu gün biz torpaqlarımızın bütövlüyünü təmin eləmişik. Bu gün ermənilərə qarşı hər hansı soyqırımı həyata keçirilməyib, ömrüboyu azərbaycanlılara qarşı soyqırımı olunubdur. Dəfələrlə bu, sənədlərdə də göstərilibdir. Qeyd edim ki, “3+3” formatından sonra bizə edilən bu təzyiqlər bir az da artacaqdır. Ona görə də biz buna tam şəkildə hazırlıqlı olmalıyıq ki, mövqelərimizi daha yüksək, daha ədalətli, daha güclü şəkildə müdafiə edək. Bu baxımdan da deputat həmkarlarımızın, hamımızın üzərinə çox böyük vəzifələr düşür. Həm daxili auditoriyada ictimaiyyətin başa salınması, həm də orada olan deputatlarla, dostluq qrupları ilə ünsiyyətin qurulması və onların mütəmadi olaraq məlumatlandırılması məsələsi vacib şərtlərdəndir. Bu gün Milli Məclis bu məsələ ilə bağlı xeyli işlər aparır və hesab edirəm, bu, davamlı olmalıdır ki, biz tam şəkildə öz haqq işimizin, ədalətli işimizin həyata keçməsinə nail olaq. O baxımdan da mən bu məsələlərdə hamıya uğurlar diləyirəm. Hər birimiz qətiyyətli şəkildə Prezidentimizin apardığı siyasətin arxasındayıq, yanındayıq və heç bir qüvvə də Azərbaycana qarşı ədalətsiz bir mövqe tuta bilməz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev. Buyurun.

**A.Quliyev**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Bilirsiniz ki, bu gün bir çox Qərb mətbuatı, o cümlədən ayrı-ayrı ölkələr və bəzi beynəlxalq təşkilatlar guya Ermənistanda humanitar böhran var deyə, yazırlar, qətnamələr qəbul edirlər. Guya ki, Qarabağdan gedən yüz min erməni əsilli şəxs orada humanitar böhran yaradıb. Əslində isə, bilirsiniz ki, vəziyyət belə deyildir. Əvvəla, hörmətli həmkarlar, bu rəqəmə diqqət yetirək. Axı, 5-6 həftə bundan öncə Ermənistan və onun havadarları bağırırdılar ki, orada 120 min nəfər adam yaşayır. İndi də deyirlər ki, yüz mini gəlib Ermənistana, Qarabağda cəmi 50 adam yaşayır. Onda sual olunur: Bəs 20 min adam haradadır? Bunlar göyəmi çəkildilər, qeyb oldular, yoxsa başqa planetə getdilər? Xəbərimiz yoxdur. Bu, bir də göstərir ki, ermənilər, həmişə olduğu kimi, yenə də bu rəqəmlərlə manipulyasiya edirlər.

Digər bir tərəfdən, biz yaxşı bilirik, Qarabağda yaşayan və sonradan Ermənistana gedən əhalinin bir çox hissəsi Rusiya vətəndaşı idi. Onlar elə Rusiyaya da çıxıb getdilər. O rəqəm də orada yenə manipulyasiya olunur. Əlbəttə, biz yaxşı bilirik ki, Paşinyan rejimi bu rəqəmləri şişirtməklə xaricdən daha çox pul, daha çox maddi yardım almaq istəyir. Eyni zamanda, "humanitar böhran" adı altında Azərbaycana təzyiqləri daha da artırmaq istəyir. O ki qaldı onların ehtiyaclarına, BMT bir rəqəm çıxardı ki, Qarabağdan gedən həmin ermənilərin ehtiyaclarını qarşılamaq üçün yüz milyon dollara ehtiyac var. Bu rəqəm, ola bilsin ki, azdır, çoxdur. Amma istənilən halda bilirik ki, Ermənistan qanunsuz da olsa, hər il, xüsusilə də 2023-cü ildə dövlət büdcəsindən "Qarabağ rejimi"nə, "qarabağlılara" 370 milyon dollar vəsait ayırıb. Onda elə ora-bura, necə deyərlər, gedib ağız açıb pul dilənməyə ehtiyac yoxdur, bu

vəsaitdən istifadə etsinlər və həmin şəxslərin də ehtiyaclarını qarşılasınlar.

Digər bir tərəfdən, hörmətli həmkarlar, mən istərdim ki, səslənən bu fikirlərdə bir təhlükəli məqamı da diqqətinizə çatdırım. Deyirlər ki, qeyd-şərtsiz olaraq Qarabağ erməniləri Qarabağa qayıtmalıdırlar və Azərbaycana da bir şərt irəli sürürlər. Sual olunur: Qeyd-şərtsiz nə deməkdir? Biz bunu necə anlayaq? Heç bir qeyd-şərtsiz ifadədən söhbət gedə bilməz. Bəli, Azərbaycan açıq elan edibdir ki, Qarabağdan olan sakinlər, Azərbaycanın yurisdiksiyasını və vətəndaşlığını qəbul edən sakinlər qayıda bilərlər, bu istiqamətdə iş gedir. Amma işğal dövründə ora qanunsuz olaraq köçürülmüş insanlar heç bir halda qayıda bilməzlər. Əslində, işğal zamanı qanunsuz köçürülmələr müharibə cinayəti hesab olunur. Həmin cinayəti törədənlərin bir çoxu da bu gün Azərbaycan həbsxanasındadır və onlar istintaq orqanlarının suallarına cavab verirlər. Yeri gəlmişkən, qayıdışdan söhbət gedirsə, bu qayıdış birtərəfli deyil, ikitərəfli olmalıdır və Qərbi azərbaycanlılar da, eyni zamanda, öz vətənlərinə qayıtmalıdırlar.

**Sədrlik edən.** Sağ olun. Fərid müəllim, 3 dəqiqəni niyə keçir? Sonra çaşqınlıq yarana bilər. Kamilə Əliyeva, buyurun.

**K.Əliyeva.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Bildiyiniz kimi, dünən Fransa müdafiə naziri ilə Ermənistan müdafiə naziri arasında hərbi saziş imzalandı. Sazişə əsasən Fransa Ermənistana hava hücumundan müdafiə silahları satacaq. Dünyanın bir sıra yerlərində müstəmləkəçilik siyasəti aparan Fransa yeni ərazilərdə, xüsusilə Cənubi Qafqazda nüfuz sahibi olmaq və bu işdə Ermənistan dövlətindən oyuncaq kimi istifadə etmək niyyətindədir.

Ermənistana silah vermək niyyətində olan Makron

hakimiyyəti Cənubi Qafqazda yeni müharibə ocağı yaratmağa çalışır. Ermənistanın Baş naziri Paşinyanın son dövrdə atdığı addımlar Ermənistan dövlətinin gələcəyi üçün yaxşı heç nə vəd etmir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Ermənistanın Qərbə üz tutaraq Fransadan silah alması, ABŞ hərbçiləri ilə birlikdə təlim keçirmələri Paşinyan hakimiyyətinə böyük başağrısı olacaq. Paşinyan Avropa Parlamentində çıxışı zamanı parlamentarilərin onu ayaqüstə alqışlamasını öz qələbəsi kimi qəbul edir. Əslində, avropalı deputatlar Ermənistan üzərində öz qələbələrini alqışlayırlar. Fransa və ona müttəfiq dövlətlər Ermənistanı ölkələrinin oyuncağına çevirmələrinə əl çalırdılar.

Son dövrdə bir sıra Avropa dövlətlərinin parlamentlərində Azərbaycana qarşı qərəzli qətnamələr və qərarlar qəbul olunur və ölkəmizə qarşı qüvvələrin fəallaşması müşahidə edilir. Çox təəssüflər olsun ki, Azərbaycandakı radikallar da möhtərəm Prezidentimiz cənab İlham Əliyevə qarşı qərəzli qarayaxma və yalan kampaniyalarını aktivləşdiriblər. Onların bu fəaliyyəti həm də antidövlət, antixalq xarakteri daşıyır. Diqqətlə dinlədikdə aydın görmək olur ki, onların söylədikləri xaricdəki düşmən qüvvələrin fikirləri ilə eynilik təşkil edir. Onların fikirləri Prezident cənab İlham Əliyevin müdrik, uzaqgörən, eyni zamanda, qətiyyətli siyasəti qarşısında sabun köpüyü effektindən başqa bir şey deyil. Prezidentimiz dünya liderləri tərəfindən güclü siyasətçi, mahir diplomat kimi tanınır. Xalqımız öz Prezidentini sevir və ona güvənir.

Prezident cənab İlham Əliyevin sayəsində Azərbaycan bu gün dünyada güclü, qüdrətli bir dövlətə çevrilmişdir. Münaqişələrlə dolu müasir dünyada dövlətimizin başçısından başqa heç bir dövlət başçısı işğal altında qalmış

torpaqlarını işğaldan azad edib öz ölkəsi ərazisində suverenliyini, ərazi bütövlüyünü təmin etməyi bacarmayıb. Bu gün Prezident cənab İlham Əliyev BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan, siyasi və hərbi cəhətdən güclü Fransa dövlətinin müstəmləkəçi bir ölkə olduğunu, digər ölkələrə qarşı neokolonializm siyasəti həyata keçirdiyini bütün dünyaya açıq şəkildə sübut edib. Ermənistan rəhbərliyi də unutmamalıdır ki, bu gün Ermənistana dəstək verən, silahlandırmaq istəyən dövlətlər sonda onu...

**Sədrlik edən.** Fikrinizi bitirin.

**K.Əliyeva.** Təşəkkür edirəm, xanım sədr. Fransa hər zaman ikili standart həyata keçirib. Ermənistan isə həmişə vəziyyətə uyğun olaraq, öz himayədarlarına satqınlıq edib. Ermənistanın siyasi hakimiyyəti anlamalıdır ki, ölkələrinin mövcud olması, inkişafı region dövlətləri ilə, xüsusən Azərbaycanla mehriban qonşuluq münasibətləri qurmaqdan keçir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov. Buyurun.

**V.Əhmədov**. Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli millət vəkilləri, mətbuat. Son vaxtlar Avropa və bir sıra ölkələrin parlamentlərində Azərbaycana qarşı qərəzli bəyanatlar qəbul edilir. Bunların arxasında ən çox canfəşanlıq edən Fransa parlamentinin üzvləri və Fransa prezidenti Makron dayanıb. Dünən Yerevanda Fransa müdafiə naziri ilə Ermənistan müdafiə naziri arasında imzalanmış hərbi əməkdaşlıq, Fransa silahlarının, hərbi sursatın Ermənistana verilməsi haqqında sənəd bunu bir daha sübut edir. Azərbaycanın dövlət başçısı cənab İlham Əliyevin apardığı müstəqil siyasəti qəbul etmək istəməyənlər çox fəallıq göstərirlər ki, 44 günlük müharibədə və sentyabrın 19 və 20-də keçirilmiş antiterror əməliyyatında Azərbaycanın qazanılmış qələbəsinə kölgə salsınlar, er-

mənilərin Qarabağdan getməsini etnik təmizləmə kimi qələmə versinlər. Biz onları qovmamışıq, hətta bizim əlimizdə BMT kimi nüfuzlu bir təşkilatın missiyasının rəyi var. Rəydə açıq-aydın bildirilir ki, Azərbaycan erməni əhalisini zorla qovmayıb, bu, artıq nüfuzlu beynəlxalq təşkilatın rəyidir. Biz bu rəyi xarici siyasətimizdə geniş istifadə etməliyik.

Dünən "3+3" formatında keçirilən Tehran görüşündə qəbul edilən bəyanatda da dövlətlərin ərazi bütövlüyü, mübahisələrin sülh yolu ilə həlli, siyasi müstəqillik, suverenlik, beynəlxalq səviyyədə tanınmış ərazilərin toxunulmazlığı öz əksini tapmışdır. Tehran görüşündə Zəngəzur dəhlizinin İran ərazisindən keçə biləcəyi ideyası bir daha öz təsdiqini tapmış, bu işin tez bir zamanda icra edilməsinin vacibliyi qeyd olunmuşdur. Ermənilərin yenidən Qarabağa qayıtması məsələsinə də Azərbaycan dövləti nə qədər çalışsa da, heç kim zəmanət verə bilməz ki, 20-30 ildən sonra həmin icma yenə Azərbaycan dövləti, onun müstəqilliyi üçün problem yaratmayacaq. Bizim humanistliyimiz həmişə bizim üçün problem yaradıb. Onlar bizə qarşı yalnız əmlak iddiası qaldıra bilərlər ki, bu da həll oluna bilən məsələdir. Qəbul olunan bütün bəyanatlara, Ermənistanın təhrikedici informasiyalarına baxmayaraq, çalışıb Ermənistanla sülh müqaviləsini imzalamalıyıq. Bu məsələ üçün bütün platformalardan, istər Brüssel, istər Moskva, istərsə də digər platformalar olsun, istifadə edib bu problemi həll etməliyik. Bu müqavilə imzalanandan sonra digər ittihamlar arxa plana keçəcək və Azərbaycana qarşı iddialar, o cümlədən köçüb gedənlərlə əlaqədar iddialar ciddi qəbul edilməyəcək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tural Gəncəliyev. Buyurun.

**T.Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən də əvvəl çıxış eləyən həmkarlarımın fikirlərinə qoşularaq bildirirəm ki, son zamanlar Fransanın, Ermənistanın yeni süzereni  rolunu oynayan bu ölkənin Cənubi Qafqazda aqressiv, neokolonialist siyasətinin yeni təzahürlərini, formalarını müşahidə eləyirik. Belə ki, Fransa və Ermənistan arasında hərbi sahədə imzalanmış sonuncu müqavilə regionda olan həssas balansın pozulmasına yönəlmiş və Azərbaycanın milli təhlükəsizliyinə xələl gətirə biləcək bir hadisədir. Biz bunu ciddi şəkildə qınayıb pisləməliyik. Ümumiyyətlə, Fransanın son zamanlar Cənubi Qafqazla bağlı aqressiv siyasətini ifşa etmək üçün tədbirlər keçirilməlidir ki, biz bunu artıq edirik.

Bildiyiniz kimi, keçən həftə Bakıda Fransanın neokolonialist siyasəti ilə bağlı çox önəmli bir beynəlxalq konfrans keçirildi. Həmin konfransda Fransanın hazırda müstəmləkəçilik siyasətindən əziyyət çəkən ərazilər, xalqlar, onların nümayəndələri ilə dəyirmi masa təşkil olundu.

Yeri gəlmişkən, Sahibə xanım, Sizin də  tapşırığınıza əsasən həmin o beynəlxalq konfrans iştirakçıları ilə Milli Məclisdə də görüş keçirdik. Çox maraqlı oldu və biz – görüşdə iştirak eləyən deputatlar həmin o müstəmləkəçilikdən əziyyət çəkən xalqlara, onların nümayəndələrinə öz dəstəyimizi bildirdik. Təəssüflər olsun ki, Fransa yeni müstəmləkəçilik siyasətinin adını dəyişərək, dənizaşırı departament idarəsi qoyaraq həmin o əraziləri öz nəzarətində, işğalı altında saxlayır. Biz bu zülmə qarşı həmin o xalqların səsinə səs verməliyik və onları dəstəkləməliyik.

Ümumiyyətlə, çox qəribədir ki, Fransanın neokolonialist siyasətini elə ilk ifşa edən, həmin neokolonializm terminini də beynəlxalq münasibətlər tarixinə ilk dəfə gətirən məşhur fransız filosofu Jan Pol Sartr olmuşdur, öz

ölkəsinin məruz qoyduğu həmin o xalqların acı vəziyyətini nəzərdə tutaraq bu termindən istifadə etmişdir.

Mən bundan əvvəl də qeyd etmişdim. Biz ən azı ritorika səviyyəsində Fransanın beynəlxalq təşkilatlarda apardığı aqressiv siyasəti pisləməliyik. Məsələn, Fransa İkinci Dünya müharibəsinin nəticələrinə parazit şəkildə şərik olan, qalibiyyətə şərik olan bir ölkə kimi layiq deyil ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olsun. Çünki BMT Təhlükəsizlik Şurasının daimi üzvü olaraq bu ölkə beynəlxalq təhlükəsizliyə, sülhə töhfə vermir, əksinə, təhlükə yaradır. Məsələn, dünən Ermənistanla imzaladığı müqavilə. Yaxud da Fransada bəzi parlament institutları, beynəlxalq təşkilatlar yerləşir. AŞPA, Avropa Parlamenti – həmin bu institutlar Fransadan çıxarılmalıdır. Örnək var: 1966-cı ildə NATO-nun Mənzil-qərargahı Parisdə yerləşirdi, sonra Fransanın bu destruktiv siyasətinə görə Brüsselə keçirilmişdi. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Məşhur bir deyim var: təhlükənin olduğunu hiss etməməyin özü ən böyük təhlükədir. Bu gün faktiki olaraq Cənubi Qafqazda yeni, olduqca təhlükəli bir prosesin əsası qoyulmaqdadır. Söhbət Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Ermənistanın NATO ölkəsi olan Fransadan silah almasından gedir. Yəni bu o deməkdir ki, Cənubi Qafqazda iki antaqonist hərbi-siyasi təşkilatın toqquşması üçün münbit şərait yaradılır. Xüsusilə qeyd etmək istərdim ki, bu addımın atılması, yəni Ermənistan ilə Fransa arasında silah-sursat satışı ilə bağlı müqavilənin imzalanması nəticə etibarı ilə gələcək perspektivdə, – zamanını mən bilmirəm, amma onun elementləri görünməkdədir, – bu regionda çox ciddi təhlükəli proseslərin

baş verməsinə gətirib çıxara bilər. Ən yaxşı halda bu, Ermənistanın hərbi təxribatlarına və hərbi avantürasına gətirib çıxara bilər, ən pis halda isə üçüncü Qarabağ müharibəsini belə labüd edə bilər.

Bizi narahat edən cəhət onunla bağlıdır ki, Fransanın Ermənistana satacağı, verəcəyi silahların siyahısında raketdən müdafiə sistemləri ön planda dayanır və söhbət ilk növbədə "Mamba" raketdən müdafiə sistemlərindən gedir ki, bu məsələnin üzərində xüsusilə dayanmaq istərdim. Bir qədər öncə Ukrayna dövləti xahiş etmişdir ki, Fransa məhz bu növ raketdən müdafiə sistemlərini Ukraynaya versin. Lakin cavab belə olmuşdur ki, bizim özümüzdə bu sistemlər tükənib və ümumiyyətlə, bizim Ukraynaya silah verməyə daha gücümüz çatmır. Ukraynaya silah verməyə gücləri çatmır, amma artıq Ermənistanı silahlandırmağa başlayırlar. Mənə elə gəlir ki, bu özü Kiyev ilə Paris arasında diplomatik bir qalmaqalın əmələ gəlməsinə rəvac verə bilər. Amma Azərbaycanın mövqeyi bəllidir. Azərbaycanın Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyev söyləyib ki, bu addımın atılması, yəni Fransa ilə Ermənistanın bu səpkidə yaxınlaşması və hərbi-texniki əməkdaşlığın güclənməsi Ermənistanda revanşizmin daha da dirçəlməsinə gətirib çıxarır, hadisələrin bundan sonrakı inkişafına görə bütün məsuliyyət məhz elə Fransa dövlətinin üzərinə düşəcəkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Hörmətli sədr, əziz həmkarlar, bu tədris ilində təmsil etdiyim dairə üzrə, Biləsuvar şəhərində müasir internat tipli lisey və Köhnə Amankənddə modul tipli məktəb istifadəyə verildi. Hazırda Heydər Əliyev Fondu tərəfindən Bəydili kəndində 1400 yerlik məktəbin tikintisi davam edir. Nəsimikənddə, Bağbanlarda məktəb

inşası üçün köhnə məktəb binalarının söküntüsü başlayıb. Biləsuvar şəhərinin 6 saylı tam orta məktəbi də artıq dövlət proqramına salınıb, sənədləşmə bitən kimi tikintiyə start veriləcək. Baxın, bu, yalnız bir rayonda bir il ərzində və yalnız bir sahə üzrə görülən işlərdir və Biləsuvar prosesdə tək deyil, bütövlükdə, ölkəni quruculuq əhatələyib.

Yalnız son üç günün təqviminə baxsaq, Bakı-Quba-Rusiya ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun, Sumqayıt şəhər xəstəxanasının yeni binasının, yenidən qurulmuş Sumqayıt şəhər stadionunun, Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyması olub. Mən hələ işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası ilə bağlı görülən işləri sadalamıram.

Qarabağ və Şərqi Zəngəzura ləyaqətli qayıdış üçün ən müasir infrastrukturun salındığı, Böyük Qayıdışın təmin olunduğu, müasir ordu, modern müdafiə sənayesi quruculuğunun davam etdiyi şəraitdə digər bölgələrimizin quruculuq mənzərəsinə baxın. Bu mənzərə ancaq qətiyyət, güc və imkanlar hesabına mümkündür. Unutmayaq ki, bizə münasibətdə Marşal planları işləmir, Heydər Əliyevin qurduğu, cənab İlham Əliyevin gücə çevirdiyi Azərbaycan dövləti bütün bu işləri öz imkanları və gücü hesabına həyata keçirir.

Bilirsiniz, özündən zəif qonşuların əhatəsində Amerika olmağa nə var ki. İş güclülərin əhatəsində qüdrət sahibi olmaqdır. Azərbaycanın bugünkü mənzərəsinə, görülən işlərin miqyasına baxanda səmimiyyətlə deyə bilərik ki, möhtərəm Prezident, Siz, həqiqətən, necə qüdrətli bir dövlət qurmusunuz!

Qarnı ilə düşünən qaragüruh və onlardan istifadə edən siyasi əxlaqsızlar vardır, illərdir, ucuz suallar verirdilər ki,

neftin pulu hara gedir? Bu gün cənab İlham Əliyev heç bir neft-qaz ölkəsinin rəhbərinin cavab verə bilməyəcəyi formada və rahatlıqla özünün Qarabağ və Şərqi Zəngəzurun miqyasından çox daha böyük zəfəri ilə, qalib, qüdrətli, qurucu Azərbaycanın mənzərəsi ilə bu sualın cavabını həmin o populistlərin üzünə çırpmaqdadır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc**. Hörmətli sədr, qələbəmizə sistemli hücumlarını on dəfə artıran Avropa mediasının önündə gedənlərdən biri, Almaniyanın “Die Welt” qəzeti “Qəzzanın kölgəsində növbəti müharibə təhlükəsi haradır?” adlı avantürist məqalə ilə çıxış edib. Görünən odur ki, ölkəmizə qarşı mövqeyini kəskin dəyişən hazırkı Almaniya hökuməti Cənubi Qafqazda düşmənçilik erasının bitməsini istəmir. “Die Welt” qəzetinin 2023-cü ildə erməni-azərbaycanlı münaqişəsinə həsr etdiyi 54 məqalənin əksəri qızışdırıcılığa, dövlətimizi ləkələməyə, onu İslam ölkəsi kimi milli və dini baxımdan təkləməyə xidmət edir. Sən demə, Azərbaycan Ordusu dünyanın diqqətinin Qəzza bölgəsinə yönəlməsinə görə İrəvana hücum edəcək, Zəngəzur dəhlizini hərbi yolla tutacaq. Avropalı məmurların məqsədi ölkəmizə işğalçı ləkəsi vurub qalib dövlətə nüfuz itkisi yaşatmaq, onu sanksiyalara məruz qoymaq, NATO-nun zirehi altında erməniləri Qarabağa zorla qaytarmaqdır. Halbuki Prezident “Zəngəzur dəhlizində hərbi planımız yoxdur” dedi, tarixi torpaqlara dinc qayıdışdan bəhs etdi. Xankəndinin zəfər meydanında dövlət başçısı ermənilərlə ayrı-seçkiliyin olmadığı birgəyaşayış tarixindən, sovet Qarabağının ortaq idarəçiliyindən, yaşlı nəslin xatirələrini gənc nəslə ötürüb cəmiyyətləri sülhə hazırlamaqdan danışdı. Necə olur ki, “Die Welt” qəzeti, faşist təmayüllü Annalena Berbok bunları görmür.

Bu günlərdə Rəcəb Tayyib Ərdoğan bəyan etdi ki, biz Qərbi tanımalı və tanıtmalıyıq. Bəli, 70 ildir, Türkiyəni Osmanlı xofu ilə Brüsselin qapısında saxlayanlar Ermənistanın baş nazirini Avropa Parlamentində ayaq üstə alqışlayırlar. Ermənistanı Qafqazın "demokratiya mayakı" adlandıraraq 30 illik işğala haqq qazandırır, müharibədə qurban gedən və Qərbin forpostu məzlum erməni xalqı obrazını formalaşdırır. Bəs dünyada ədaləti təmin edən qalib Azərbaycan liderini Brüsselin titullu salonlarında niyə dinləmirlər? Çünki Ermənistanla birlikdə özlərini də məğlub sayırlar. Ona görə də sülh müqaviləsi Avropa paytaxtlarında imzalanmayacaq. Ermənistana 2,6 milyardlıq yardımı üç dəfə də artırsalar, faydası yoxdur. Azərbaycan və Türkiyənin birgə son hərbi təlimləri İrəvana hücum planı deyil, regiona beynəlmiləl statusda gəlməyə çalışan və hərbi bazalarını Zəngəzurda yerləşdirmək istəyənlərə qarşıdır. Qafqazda sülhü Türkiyənin, Rusiyanın, İranın, Ermənistanın, Gürcüstanın əlindən alıb dövlətləri bir-birinə saldırmaq istəyən məhz Qərb dairələridir. Brüsseli siyasi Məkkəyə çevirənlər Ukraynaya hücum edən Rusiyadan danışıb, Amerikanın İraqı, Əfqanıstanı, Suriyanı işğal etməsini görmürlər. Strasburqun zahiri parıltılı demokratiya binaları mahiyyətcə imperializmin bir parçasıdır. Niyə o binalarda bircə dəfə Polineziyada keçirilən 220 nüvə sınağına yer verilməyib? Yoxsa onlar insan deyil? Ona görə də "Die Welt" qəzeti "Qarabağın kölgəsində Qəzzaya sülhü necə aparmalı?" adlı məqalə ilə çıxış etsin, dünyaya ədalətli sülh gətirən Azərbaycanı yaxın Şərqə nümunə göstərsin, əlbəttə, üçüncü reyxin varislərinə bu sərfəlidirsə. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Hörmətli Sahibə xanım, hörmətli deputatlar, Nobel mükafatı laureatı, böyük alman yazıçısı Günter Qrass “Yaddaşın soğanağı” romanını iki sualın axtarışına həsr edib. İlk sual budur: Dünyaya böyük maarifçilər və humanistlər vermiş, dünyada ən yaxşı hesab olunan klassik məktəb təhsili və pedaqogika sistemini yaratmış Almaniya idealları bu günün özündə də gənc almanlar arasında tərəfdar tapmaqda olan milli sosializmə, faşizmə necə yuvarlanmışdır? Böyük yazıçı bu əsərində Almaniya Bundestaqının Xarici əlaqələr komitəsinin sədri Maykl Rot kimilərini əvvəlcədən duyurmuş. Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Almaniya Bundestaqının Xarici əlaqələr komitəsinin sədri Maykl Rotun verdiyi bəyanatları qətiyyətlə rədd etmiş və siyasi riyakarlıq kimi qiymətləndirmişdir.

Erməni faşizmini dəstəkləyən bu siyasətçinin 2022-ci il 16 sentyabr tarixli məsuliyyətsiz bəyanatına diqqət edək. Azərbaycan Rusiyanın zəifləməsindən istifadə edib ərazi iddialarını genişləndirmək istəyir. Biz Ermənistanı təkcə Rusiyanın öhdəsinə buraxa bilmərik. Onun 2023-cü il 23 noyabr tarixli bəyanatından: “Avropa İttifaqı hərbi alyans deyil, bizim Ermənistana yardımlarımız humanitar, siyasi, sosial, iqtisadi istiqamətlərdədir. Lakin lazım gəlsə, hərbi istiqamətdə də dəstək verə bilərik”. Avropa İttifaqı beləlırinə qurumun adından danışmağa rəvac verir. Erməni faşizminə dəstək göstərən belə siyasətçilərin təhtəlşüurunda faşizm cizgiləri hələ də qalır və beləları ifşa olunmalıdır.

BMT-nin Təhlükəsizlik Şurasının Qarabağla bağlı iclasında Ararat Mirzoyanla Azərbaycanın suveren ərazilərinin 30 ilə yaxın davam edən hərbi işğalını, millətimizə qarşı etnik təmizləməni və amansız cinayətləri pisləmək-

dən həmişə çəkinən Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borelinin ortasında əyləşmiş Almaniyanın xarici işlər naziri Annalena Berbok sanki onların çıxışlarını köçürmüşdü. Bunlar biləərəkdən özlərini erməni vəhşiliklərindən, erməni faşizmindən xəbərsiz kimi aparır və vicdansızlıq edirlər.

Günter Qrass bu məşhur romanını 2008-ci ildə yazmışdır. O zaman Maykl Rotun 33, Annalena Berbokun isə 23 yaşı var idi. Böyük yazıçı onlara bənzər obrazlarda faşizmə necə yuvarlanmağı çox gözəl təsvir etmişdir. Biz belə siyasi tiplərin mövqeyini alman xalqının mövqeyi kimi qəbul etmirik. Lakin faşizm və barbarlığı dəstəkləyən siyasilərin addımlarını hər iki tərəf qarşılıqlı olaraq pisləməlidir. Böyük yazıçı Günter Qrassın təbirincə desək, neofaşizm hər gün lənətlənməlidir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik. Gündəliyimizdə bu gün 16 məsələ var, 12-si üçüncü oxunuşda olan qanun layihələridir.

İndi isə 1-ci məsələyə keçirik. Bizim 1-ci məsələmiz Energetika haqqında qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Mən xahiş edirəm, məsələ ilə bağlı komitənin sədri hörmətli Sadiq Qurbanov, buyurun, bizə məlumat verin.

**S.Qurbanov**, *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun. Dəyərli Sahibə xanım, hörmətli həmkarlar, qanun layihəsi birinci və ikinci oxunuşlar üçün komitədə və plenar iclasda geniş müzakirə edilib. Müzakirələrin yekunu olaraq qanun layihəsində üçüncü oxunuş üçün bir çox texniki xarakterli düzəlişlər aparılıb. Qeyd edim ki, energetika sahəsində fəaliyyət növlərinin ayrılması yalnız

bu qanunla deyil, digər qanunlarla, məsələn, bu yaxınlarda qəbul etdiyimiz "Elektroenergetika haqqında" Qanunla da tənzimləndiyindən layihənin 6.1.4-cü maddəsində "bu qanunla" sözlərindən sonra "və energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunlarla" sözləri əlavə edilir. Deputat həmkarımız Eldar müəllim Quliyev işçi qaydasında komitəyə müraciət edib və orada "enerji müstəqilliyi" ifadəsinin "enerji təhlükəsizliyi" ifadəsi ilə əvəz olunmasını bildirmişdir. Qanunvericilik təşəbbüsü subyekti ilə bu da razılaşdırıldı.

Eyni zamanda, komitədə müzakirə zamanı qanun layihəsində bir sıra dəqiqləşdirmə xarakterli düzəlişlər də edilib. Buna misal olaraq qanunun mətnində bir sıra yerlərdə "işlənmə" və "işlənilmə" sözləri var idi ki, bunlar da artıq "işlənilmə" kimi təmin edilmişdir. Hörmətli həmkarlarımızı yenidən birinci və ikinci oxunuşlarda olduğu kimi, layihəni dəstəkləməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyən yoxdur. Üçüncü oxunuşdur, mən məsələni səsə qoyuram. Buyurun, qanun layihəsinə üçüncü oxunuşda səs verin.

| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 2-ci məsələyə keçirik. "Lisenziyalar və icazələr

haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Əli müəllim, mən Sizdən xahiş edəcəyəm. Komitə sədrinin müavini hörmətli Əli Məsimli, buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Birinci və ikinci oxunuşlardan sonra bizim komitəyə heç bir təklif daxil olmadığına görə bu layihənin olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.35 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

3-cü məsələ Mülki Prosessual Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, “Notariat haqqında” və “İnzibati icraat haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**N.Həsənov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli Sahibə xanım, layihə ilə bağlı hər hansı rəy və təklif yoxdur, olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.36 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 4-cü və 5-ci məsələlər möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır. 4-cü məsələ "Polis haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 5-ci məsələ isə "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihələridir. Hər iki layihəyə dair ümumi məlumat vermək üçün Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov, buyurun.

**B.Məhərrəmov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli həmkarlar, əvvəlki oxunuşlarda layihə ilə bağlı kifayət qədər geniş məlumat verilib. İkinci oxunuşdan sonra mahiyyət üzrə heç bir təklif daxil olmayıb. Sadəcə, bəzi həmkarlarımız polisin sosial rifahı ilə bağlı xoş niyyətli təkliflər səsləndirdi-

lər. Qısaca bir izahat verim ki, polisin rifahı daim dövlətin diqqət mərkəzindədir. Ulu Öndərin, hazırda isə möhtərəm Prezidentin xüsusi diqqəti, qayğısı nəticəsində Daxili İşlər Nazirliyinin fəaliyyəti və infrastrukturunun təkmilləşməsi, o cümlədən polisin rifahı daim artan xətt üzrə inkişaf edib.

Bu gün Azərbaycan polisinin maaşı yalnız fiks aylıq rəqəmdən ibarət deyil, polis əməkdaşının əmək haqqı onun vəzifəsi, xüsusi rütbəsi, xidmət illəri nəzərə alınmaqla müəyyənləşən əsas maaşdan, habelə xüsusi günlərdə və əsas iş vaxtından əlavə işləməyə görə müəyyənləşən əlavə məbləğlərdən ibarətdir. Bundan başqa, polis əməkdaşına xidmət şəraitinə görə əlavələr, birdəfəlik müavinət və başqa ödənişlər verilir. Polis əməkdaşları və onların ailə üzvləri dövlət tibb xidməti ilə təmin edilir.

Polis əməkdaşının özünü doğrultmuş pensiya və sosial təminat mexanizmi mövcuddur və polisin həyat və sağlamlığı dövlət büdcəsi hesabına sığortalanır.

Ən əsası isə polisin maddi və sosial təminatının yüksəldilməsi davamlı xarakter alıb. Ona görə də həmkarlarımıza diqqətlərinə görə təşəkkürümüzü bildiririk, onları əmin edirik ki, Azərbaycan polisi özünün yüksəlməkdə olan sosial rifahından, dövlətin, şəxsən möhtərəm cənab Prezidentin qayğısından çox razıdır. Bu gün dövlət başçısının da iradəsi ondan ibarətdir ki, qalib Azərbaycanın qəhrəman polisi ən yüksək standartlara uyğun şəkildə yaşamağa layiqdir və bu istiqamətdə bütün zəruri tədbirlər görülməkdədir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Xatırladım ki, Bəhruz müəllim iki qanun layihəsi haqqında birgə məlumat verdi. Sadəcə, polis haqqında bir az geniş danışdı. Hörmətli həmkarlar, mən indi qanun layihələrini bir-bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 4-cü məsələdə olan “Polis

haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə mən 5-ci məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. 6-cı məsələ "Peşə təhsili haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Elm və təhsil komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Bəxtiyar Əliyevə söz verirəm. Bəxtiyar müəllim, buyurun.

**B.Əliyev**, *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinə heç bir əlavə və dəyişiklik təklif edilməmişdir. Ona görə də qanun layihəsi olduğu kimi sizin müzakirənizə təqdim edilmişdir. Komitənin rəyi müsbətdir, dəstəkləməyi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Mən görürəm, yazılan var. Rəşad Mahmudov. Rəşad müəllim, buyurun, bununla bağlı sözünüz var.

**R.Mahmudov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli millət vəkilləri. Əslində, texniki məzmunlu bir sualdır. 20.8.4-cü maddədə "20 yaşına çatmamış və orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan" yazılıb, burada tibbi tərəfdən sanki bir anlaşılmazlıq var. Bəlkə cümlə daha da sadələşdirilə bilər. Çünki orqanizm təkdir, orqanlar var, sistem var. Belə cümlə qoyula bilər: "orqanizmin hər hansı bir funksiyasının və ya bir neçə funksiyasının pozulmasına görə" qoyulsa, daha yaxşıdır. Çünki orqanizm bir bütöv olduğuna görə 81-100 faiz pozulması ölüm halıdır, yaşamaq mümkün deyil. Ona görə texniki anlamda da olsa, bu cümləyə, məncə, bir daha düzəliş edilməsinə, yaxud bunun haqqında bir müzakirə aparılmasına ehtiyac var. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Rəşad müəllim, çox sağ olun. Amma çox təəssüf olsun ki, bu, üçüncü oxunuşdur. Deyəsən, Siz ikinci oxunuşda burada olmamısınız. Bu, gərək qabaqcadan komitəyə veriləydi.

Bəxtiyar müəllim, sözünüz var? Buyurun.

**B.Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Biz, əslində, qanun layihəsinə 20.8.3-1-ci maddəni daxil edirik. Bu, yeni bir maddədir. Söhbət müharibə veteranı adını almış şəxslərin təhsil xərcinin təhsil aldığı müddətdə dövlət büdcəsi hesabına ödənilməsindən gedir. O ki qaldı hörmətli Rəşad müəllimin dediyi maddəyə, bu, artıq qanunda var, biz bunu qəbul etmişik. Bu da əlilliyin müəyyən edilməsi ilə bağlı olan qanun layihəsindən irəli gəlir. Orada bütün bu meyarlar müəyyən edilibdir. Ola bilsin, orqanizmin hər hansı bir funksiyasının 81-100 faiz pozulması, orada dərəcələr var, ona da uyğun əlilliklər müəyyən edilir. Bu müzakirə etdiyimiz qanunun predmeti deyil. Bu, artıq qüvvədə olan bir qanundur. Nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Ümumiyyətlə, hörmətli həmkarlar, mən xatırladım ki, biz burada üçüncü oxunuş zamanı ikinci oxunuşun tələblərinə riayət edə bilmərik. Ona görə də vaxtında demək lazımdır. Xüsusilə deyilən mövcud qanunda rəsmi var idi.

Buyurun, bu qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ “Dövlət rüsumu haqqında” Qanunda

dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi arxiv sənədlərinin sürətləndirilmiş qaydada verilməsi üçün tələb olunan dövlət rüsumunun ləğvini özündə ehtiva edir. İkinci oxunuşdan sonra komitəyə hər hansı bir dəyişiklik daxil olmadığından mətni olduğu kimi səsə qoymağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Ovçuluq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu bizim 8-ci məsələmizdir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, qanunlara edilmiş dəyişikliklər birinci və ikinci oxunuşlar zamanı deputat həmkarlarım tərəfindən dəstəklənib, heç bir təklif irəli sürülməmişdir. Xahiş edirəm, səsə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, qanun layihəsinin mətnində heç bir dəyişiklik olmayıb. İkinci oxunuşdan sonra komitəyə heç bir dəyişiklik daxil olmayıb. Üçüncü oxunuşda səsə qoymağınızı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Poçt haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Tahir müəllim, sizin komitədə baxılıb. Xahiş edirəm, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi poçt rabitəsi xidmətinin tariflərinin müəyyən edilməsinin yeni mexanizmini özündə ehtiva edir. İkinci oxunuşdan sonra hər hansı bir təklif daxil olmadığı üçün mətni olduğu kimi səsə qoymağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

11-ci məsələ də "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə yenə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Ancaq məlumatı komitənin üzvü hörmətli Məşhur Məmmədov verəcək. Məşhur müəllim, buyurun.

**M.Məmmədov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli deputatlar, "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci və ikinci oxunuşlarda dəstəklənmişdir. Hər hansı irad və əlavələr yoxdur. Üçüncü oxunuşda qanun layihəsini dəstəkləməyi sizdən xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Biz indi 12-ci məsələyə keçirik, hörmətli həmkarlar. Bu məsələ də Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə, Musa müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, Siz məlumat verin. Buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, qanun layihəsi barədə birinci və ikinci oxunuşlarda ətraflı məlumat verilmişdir. Komitəyə təklif və irad daxil olmamışdır. Layihənin mətnində heç bir dəyişiklik edilməmişdir. Xahiş edirəm, üçüncü oxunuşda qanun layihəsini dəstəkləyəsiniz. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, üçüncü oxunuşda olan qanun layihələri başa çatdı. Bizim növbəti 3 məsələmiz ikinci oxunuşda olan qanun layihələridir. Xahiş edirəm, nəzərə alın.

13-cü məsələ "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri hörmətli Ziyafət Əsgərova söz verirəm. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsinin birinci oxunuşu zamanı qanun layihəsinin konsepsiyası barədə geniş məlumat verilmişdir. Xatırlatmaq istəyirəm ki, birinci oxunuş zamanı heç bir

irad və təklif olmadı. Qanun layihəsi ikinci oxunuşa hazırdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur, qanun layihəsini əsas kimi qəbul etməliyik. Xahiş edirəm, indi qanun layihəsinin əsas kimi qəbul edilməsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Yazılan var. Vüqar Bayramov. Vüqar müəllim, buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Çox qısa olaraq bir təklif etmək istərdim. Əvvəla, qanun layihəsini dəstəkləyirəm. 15.3-cü maddə qanun layihəsinə yeni maddə olaraq əlavə edilir. Həmin maddədə iki istiqamət var. Birinci istiqamət yekun tibbi müayinənin aparılması ilə bağlıdır. Qeyd olunur ki, yekun tibbi müayinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən aparılır. Daha sonra isə qeyd olunur ki, həmin tibbi müayinənin aparılması qaydaları məhz orqan tərəfindən müəyyənləşdirilir. Təklifim ondan ibarətdir ki, tibbi müayinənin aparılması üçün ilk növbədə qaydaların müəyyənləşdirilməsinə ehtiyac var. Qaydalar müəyyənləşdikdən sonra tibbi müayinənin aparılması mümkün ola bilər. Ona görə mən təklif edərdim ki, bu maddədə ilk olaraq qaydaların müəyyənləş-

dirilməsi, daha sonra isə tibbi müayinənin aparılması qeyd olunsun. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın müəllim, Siz də yazılmısınız. Buyurun. Aydın müəllim, ikinci oxunuşdur.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, Sahibə xanım. Qanun layihəsini bəyənirəm və komitənin iclasında da səs vermişəm. Bu gün deputat həmkarımız Ziyafət Əsgərovun 60 yaşı tamam olur. Dünən cənab Prezidentimizin sərəncamı ilə o, "Şərəf" ordeni ilə təltif olundu. Mən Ziyafət müəllimi təbrik etmək istəyirəm. Ziyafət müəllim Milli Məclisin ən fəal, bütün məsələlərdə nümunə göstəriləcək üzvlərindən biridir. O, həmişə dövlətçilik, Azərbaycanın milli maraqlarının qorunması, hüququn aliliyi məsələlərində nümunə olan deputatlardan biri olub. Fürsətdən istifadə edib deputat həmkarımı həm yubileyi, həm də cənab Prezident tərəfindən təltif edilməsi münasibəti ilə ürəkdən təbrik etmək istəyirəm.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Amma Siz birinci ola bilmədiniz, ikincisiniz, çünki birinci mən Milli Məclisin, bütün deputat korpusunun adından artıq səhər tezdən işə gələn kimi Ziyafət müəllimi təbrik etmişəm. Yenə də təbrik edirik, Ziyafət müəllim.

Hörmətli həmkarlar, biz işimizə qayıdırıq. Vüqar müəllim təklifini verdi. Ziyafət müəllim, indi deyirsiniz, sonra deyəcəksiniz? İndi demək istəyirsinizsə, təkliflə bağlı, buyurun.

**Z.Əsgərov.** Hörmətli xanım sədr, biz bu təklifi araşdırıb baxarıq.

**Sədrlik edən.** Çox sağ olun. İndi isə hörmətli həmkarlar, biz qanun layihəsinə maddələr üzrə münasibət bildirməliyik. Bu qanun layihəsində 2 maddə var. Mən indi 1-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.
İndi isə mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.
İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

14-cü məsələyə keçirik. Bu məsələ də, hörmətli həmkarlar, “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Hörmətli xanım sədr, adıçəkilən qanun layihəsinin icrası ilə bağlı komitəmiz tərəfindən Mülki Məcəlləyə və Cinayət Məcəlləsinə edilən dəyişikliklərə müsbət rəy verilmişdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, xatırladım ki, daha 2 komitə bu qanun layihəsinə baxıb. Birinci komitə, Tahir müəllim, sizin komitədir, ancaq məlumatı Əli müəllim verəcək. Əli müəllim, buyurun. Əli Məsimli.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi 14-cü məsələ ilə bağlı qanun layihəsini müzakirə edib müsbət rəy vermişdir. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. İkinci komitə Elm və təhsil komitəsidir. Bəxtiyar müəllim, özünüz məlumat verəcəksiniz? Buyurun, məlumat verin.

**B.Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununa təklif edilən dəyişikliklə bağlı komitənin rəyi müsbətdir. Səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. İkinci oxunuşdur, hörmətli həmkarlar, əsas kimi qəbul etməliyik. Buyurun, qanun

layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən? Əli müəllim, buyurun. Yox?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çıxış etmək istəyən yoxdur. Ona görə biz səsvermə proseduruna keçəcəyik. Hörmətli həmkarlar, 18 maddə var. Mən onları böləcəyəm, üç-üç səsə qoyacağam. İndi isə xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu 3 maddə  qəbul edildi.

İndi isə  4-cü, 5-ci və 6-cı maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

7-ci, 8-ci və 9-cu maddələr. Buyurun, bu maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə növbəti 3 maddə. 10-cu, 11-ci və 12-ci maddələrə də münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 13-cü, 14-cü və 15-ci maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Nəhayət, mən 16-cı, 17-ci və 18-ci maddələri səsə qoyuram, hörmətli həmkarlar. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə hörmətli həmkarlar, mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

15-ci məsələ Qiymətləndirmə fəaliyyəti haqqında qanun layihəsidir. Məsələnin müzakirəsi ilə əlaqədar yenə də bizim qonaqlarımız var. Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini hörmətli Elnur Əliyev və İqtisadiyyat Nazirliyinin Hüquq şöbəsinin müdir müavini hörmətli Nuranə xanım Abbasova. Sizi salamlayırıq.

Hörmətli həmkarlar, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Tahir müəllim, mən Sizə söz verirəm. Buyurun, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi qiymətləndirmə fəaliyyətinin təşkil olunmasının və bu mexanizmin tənzimlənməsinin ümumi və konkret alətlərini müəyyən edir. Xatırladım ki, qanun layihəsi 6 fəsildən və 27 maddədən ibarətdir. Mən birinci oxunuş zamanı qanun layihəsi haqqında geniş məlumat vermişdim.

Qısa olaraq xatırlatmaq istərdim ki, qanun layihəsinə görə, hansı şəxslərin qiymətləndirici ola bilməsi, qiymətləndirici fəaliyyətin təşkili üçün hansı mexanizmlərin tələb olunması, intizam və həvəsləndirmə alətlərinin hansı ola biləcəyi ilə bağlı maddələr qanunda konkret öz əksini tapmışdır.

Xatırladım ki, mövcud praktikada hazırda qiymətləndirmə fəaliyyətinin tənzimlənməsinin konkret normativ hüquqi aktı mövcud olmadığına görə qanun layihəsi bir yenilikdir və onun tətbiq olunması bu sahədə ciddi yeniliklərin tətbiq olunmasına imkan yaradacaqdır.

Qeyd etmək istərdim ki, qanuna görə, yalnız ali təhsilə və 3 ildən az olmayan ümumi staja malik olub ixtisas imtahanı verən və qiymətləndiricilər palatasının üzvü olan şəxslər qiymətləndirici ola biləcəklər. Qanuna görə, ixtisas

imtahanı vermiş ən azı 15 qiymətləndirici müəyyən olunduqdan sonra ən azı 15 qiymətləndiricinin iştirakı və ümumi yığıncağı ilə Qiymətləndiricilər Palatası təşkil olunacaqdır. Məhz Qiymətləndiricilər Palatası bu vaxtdan etibarən qiymətləndirmənin meyarlarını, bu sahənin tənzimlənməsini, intizam formalarını müəyyən edəcəkdir.

Bütövlükdə, Qiymətləndiricilər Palatasının rəyasət heyətinin, İntizam komissiyasının seçilməsi qanunda öz əksini tapmışdır. Qanunda, eyni zamanda, qiymətləndiricinin fəaliyyəti, bütövlükdə, iqtisadi sistemlərdə, iqtisadi mexanizmlərdə iştirakı, bu zaman yarana biləcək hər hansı problemlərin tənzimlənməsi və həll edilməsi ilə bağlı konkret mexanizm öz əksini tapmışdır.

Hörmətli xanım sədr, keçən birinci oxunuşdan sonra həm plenar iclasda, həm də komitə iclaslarında, eyni zamanda, ictimai sektordan daxil olan təkliflər əsasında tərəfimizdən İqtisadiyyat Nazirliyinin nümayəndələrinin iştirakı ilə geniş müzakirələr aparılmış və bütövlükdə, daxil olan təkliflər araşdırılmışdır və bu istiqamətdə iş bu gün də davam etməkdədir. Hazırda daxil olan tələblərin, təkliflərin, rəylərin qanunvericiliyin tələblərinə uyğun olması araşdırılır və araşdırıldıqdan sonra isə konkret təkliflər qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırıldıqdan sonra üçüncü oxunuşda əldə etdiyimiz nəticələr hörmətli həmkarlarımızın diqqətinə təqdim ediləcəkdir. Razılaşdırma tam başa çatdıqdan sonra isə üçüncü oxunuş zamanı mətndə ola biləcək hər hansı dəyişikliklər haqqında əlavə məlumat verəcəyik. Hazırda təqdim olunan qanun layihəsinin mətni birinci oxunuşda təqdim etdiyimiz qanun layihəsinin mətni ilə eynidir. Həmkarlarımdan birinci oxunuşda olduğu kimi ikinci oxunuşda da qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. Mən baxıram, elə yazılanlar, əsasən, sizin komitənizdəndir. Deyəsən, orada deməyiblər, indi burada bizi şad etmək istəyirlər. Buyursunlar. Vüqar Bayramov, buyurun. Üzr istəyirəm. Əsas kimi qəbul etməliyik. Buyurun, əsas kimi münasibət bildirin.

Sizin komitəniz həmişə bizim başımızı qatır, Tahir müəllim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hələ keçək müzakirəyə, sonra 5 dəqiqə. Hara tələsirsiniz?

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 80 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 82 |
| Nəticə: Yetərsay yoxdur | |

Əsas kimi qəbul olunur? Xahiş edirəm, diqqətli olun, yetərsay yoxdur. Kimsə səs verməyib. Hərə öz yerində otursun. Siyavuş müəllim, Sizi gözləyirik. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Yazılanlar var. Əli Məsimli. 5 dəqiqəyə keçirik. Hamı 5 dəqiqəyə razıdır? Buyurun. Əli müəllim, Vüqar Bayramov yazılmışdı. Mən sonra Sizə söz verəcəyəm.

**V.Bayramov.** Çox təşəkkür edirəm, xanım sədr. Xanım sədr, mənim suallarım var, çıxışım yoxdur. Çünki təkliflərimlə çıxışımı komitədə təqdim etmişəm. Sadəcə, Elnur müəllimin burada olmasından istifadə edərək 2 qısa sualı təqdim etmək istərdim. Yəni mənim komitə üzvü olaraq plenar iclasda çıxışım nəzərdə tutulmayıb. Sadəcə, suallarım var. Qanun layihəsi qəbul ediləndən sonra ali təhsili olmayan şəxslər qiymətləndirici ola bilməyəcəklər. Mənim sualım ondan ibarətdir ki, ümumiyyətlə, indiyədək ali təhsili olmayan qiymətləndiricilərin taleyi qanun layihəsi qəbul ediləndən sonra necə olacaq, onların prosesə cəlb edilməsi ilə bağlı İqtisadiyyat Nazirliyində hər hansı bir mexanizm nəzərdə tutulubmu?

İkinci sualım ondan ibarətdir ki, İqtisadiyyat Nazirliyi tərəfindən hər hansı bir araşdırma və ya monitorinq aparılıbmı? Hazırda fəaliyyət göstərən qiymətləndiricilərin neçə faizi ali təhsilli deyil və neçə faizi ali təhsillidir? Çünki bu, vacib rəqəmdir. Qanun layihəsi qəbul ediləndən sonra biz həm də görək ki, nə qədər vətəndaşımız qiymətləndirici kimi davam edə bilməyəcək. Bu da, təbii ki, sosial baxımdan vacibdir. Ona görə ikinci sualım ondan ibarətdir ki, belə bir hesabat, belə bir araşdırma varmı? Əgər araşdırma varsa, onu da bizimlə bölüşmək çox vacib olardı. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Vüqar müəllim. Əli müəllim, indi buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Qiymətləndirmə iqtisadiyyatın bütün sahələrini əhatə edən çox ciddi

məsələdir. Heç bir mübaliğəyə yol vermədən qeyd etmək istərdim ki, Rəqabət Məcəlləsi öz sahəsində nə qədər sanbal daşıyırsa, Qiymətləndirmə haqqında qanun layihəsi də öz sahəsində o qədər böyük sanbal daşıyır və bu qanun layihəsini dəstəkləyirəm, bütün deputat həmkarlarımı səs verməyə dəvət edirəm. Eyni zamanda, bu qanun layihəsinin mükəmməl bir formada qəbul edilməsinin tərəfdarı olduğuma görə çıxış edirəm.

Bu qanun layihəsi, ilk növbədə, "Normativ hüquqi aktlar haqqında" Qanunun tələblərinə cavab verməlidir. Ona görə də orada çatışmayan məqamlar mütləq qanun layihəsində öz əksini tapmalıdır. Qısa formada qeyd etmək istərdim ki, bu çatışmazlıq özünü preambula hissəsində göstərir, məqsəd və funksiyalarında özünü göstərir. Eyni zamanda, hesab edirəm ki, qanun layihəsinin vəzifələri məsələsi də, əsas prinsipləri məsələsi də öz əksini tapmalıdır. Vaxt almamaq üçün mən, sadəcə, bunlardan birini qeyd etmək istərdim. Məsələn, qiymətləndirmə fəaliyyətinin əsas prinsiplərində hansı məsələlərə diqqət yetirməliyik – obyektivlik, ədalətlik, etibarlılıq, müstəqillik və sair. Hesab edirəm ki, bu məsələlər qanun layihəsində öz əksini tapmalıdır.

İkinci ciddi məsələ ondan ibarətdir ki, qanun layihəsində qiymətləndirmə fəaliyyəti istiqamətlərində 4.1.5.1-ci maddədə əqli mülkiyyət hüququnun obyektlərinin qiymətləndirilməsi, 4.1.11-ci maddədə risklərin qiymətləndirilməsi kimi çox vacib məsələlər öz əksini tapıb.

Hörmətli sədr, yerdə qalanlar bir mövqedə aydındır. Amma hesab edirəm ki, qaldırılan sualların xeyli hissəsi mənim indi qaldırdığım 2 məsələ ilə bağlı olduğuna görə mətndə bu 2 məsələyə də bir balaca yer verilməsini, aydınlıq gətirilməsini və bunun diqqət mərkəzinə nə qədər

layiqdirsə, o səviyyədə qanun layihəsində öz əksini tapmasını vacib hesab edirəm.

Eyni zamanda, hesab edirik ki, Qiymətləndiricilər Palatasında seçkilərin açıq səsvermə yolu ilə keçirilməsi məqbul hesab olunmur. Bunun, sadəcə, səsvermə formasında olması daha məqbuldur.

Başqa bir məsələni də qeyd etmək istəyirəm. Qanun layihəsinin qiymətləndirmə fəaliyyətini tənzimləyən müddəasına görə qiymətləndirmə standartlar əsasında həyata keçirilir. Ona görə də bu layihədə qiymətləndirmə fəaliyyətinin beynəlxalq standartlara uyğunluğu məsələsinin başqa ölkələrin qanunvericilik sənədlərində olduğu kimi, bizim bu qanunvericilik sənədində də öz əksini tapması çox vacibdir.

Burada mübahisə doğuran məsələlərdən biri bilavasitə həmin qiymətləndiricilərə olan münasibətdir. Hesab edirəm ki, bütün dünyada olduğu kimi, bizdə də beynəlxalq səviyyədə qiymətləndiricilərin əlində sertifikatları varsa, artıq onların hansısa imtahan verməsinə və sairəyə ehtiyac yoxdur. Onların bu palataya üzv olması məsələsinin əlavə problemlər yaratmadan həll edilməsi çox vacibdir. Qanunun çox işlək bir reallaşma mexanizmi olmalıdır. Hesab edirəm ki, elə bir reallaşma mexanizmi istiqamətində İqtisadiyyat Nazirliyinin aidiyyəti qurumları artıq iş aparır və elə bir reallaşma mexanizmi olacaq. Bizdə Auditorlar Palatası, Vəkillər Kollegiyası olduğu kimi, Qiymətləndiricilər Palatası da olacaq və uğurla fəaliyyət göstərəcək. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, mən də hesab edirəm ki, son vaxtlar İqtisadiyyat Nazirliyi tərəfindən çox ciddi islahat-

lara təkan verən qanunvericilik bazasının yaradılması istiqamətində təkliflər daxil olur. Xüsusilə də Rəqabət Məcəlləsindən sonra bu məsələnin də gündəmə gətirilməsi, qiymətləndirmə fəaliyyəti xeyli sahələrdə olan boşluqların müəyyən dərəcədə ortadan qaldırılmasına kömək edəcək, məhkəmələrin işinin asanlaşmasına şərait yaradacaq. Çünki məhkəmədə ən çox mübahisələr qiymətləndirmə ilə bağlıdır. Qiymətləndirmənin obyektivliyi çox vacib faktorlardan biridir. Eyni zamanda, müəyyən maraqlar toqquşması da burada önəmli rol oynayır. Dövlətin sifarişi ilə olan qiymətləndirmələrlə ayrı-ayrı fiziki və hüquqi şəxslərin qiymətləndirməsi arasında da rəqəm fərqləri çox vaxt ciddi narazılıqlara səbəb ola bilir. Bu baxımdan da bu qanun layihəsini mən də vacib hesab edirəm və səs verəcəyəm.

Burada bir neçə məsələnin olmasını zəruri hesab edirəm. Birinci. Adətən bu cür qanunlarda həm də maraqlar toqquşması olan məsələ olduğuna görə prinsiplər bölməsi olmalıdır. Burada ayrıca maddədə nəzərdə tutulmur. Məncə, qiymətləndirmənin prinsipləri mütləq ayrıca maddədə nəzərdə tutulmalıdır və orada da obyektivlik, şəffaflıq və vicdanlılıq kimi parametrlər qeyd olunmalıdır. Bizim əksər qanunlarda bu prinsiplər nəzərdə tutulur.

İkinci. Mən maddələr üzrə ikinci oxunuşun tələbinə uyğun olaraq demək istəyirəm. 5-ci maddədə nəzərdə tutulur ki, ali təhsilə və 3 ildən az olmayan ümumi iş stajına malik olan, ixtisas imtahanını müvəffəqiyyətlə vermiş və Qiymətləndirmə Palatasına üzv olan şəxs qiymətləndirici ola bilər. Məncə, bu kimi məsələlərdə ali təhsil meyarını götürməliyik. Yəni bu ali təhsil məsələsi Azərbaycanda çox yerdə tələb kimi qoyulduğuna görə saxta diplomların da hədsiz dərəcədə yayılmasına şərait yaratdı və savadlı

adamların əksəriyyəti heç də ali təhsil diplomuna malik olması ilə müəyyən olunmur. Ona görə də burada əsas istiqamət daha çox nəyə yönəlməlidir? Burada peşə-ixtisas təhsili ilə bağlı. Yəni peşə liseyini bitirmiş adamlar var. Bunlar, tutaq ki, zərgərlik işini hamıdan yaxşı bilirlər. Bunun ali təhsil almasına nə ehtiyac var? Yaxud da hansı isə bir yazıçının ali təhsili yoxdur, amma əqli mülkiyyətin predmetini müəyyən etməkdə daha böyük bir imkana, təcrübəyə və qabiliyyətə sahibdir. O baxımdan da, məncə, bu kimi qanunlarda, xüsusilə də bu ixtisaslaşma tələb edən qanunlarda... Çünki bu gün konkret ixtisaslaşma deyilən bir təhsil sahəsi yoxdur, haranı isə bitirmisən, sən qiymətləndirici işləyə bilərsən. Bu, sadəcə, peşəkar qabiliyyətlə bağlı məsələdir. Ona görə də peşə təhsili anlayışının da, heç olmasa, bura salınması, yəni ona da imkan tanınmasını, məncə, mütləq qeyd etməliyik.

Bir də 3 ildən az olmayaraq ümumi staj. Ümumi staj nə deməkdir? Yəni burada, heç olmasa, müəyyən bir təcrübə amili rol oynamalıdır. Ona görə də bu müddətin bir az daha artıq olması, 5-7 il nəzərdə tutulması daha vacibdir. Çünki əvvəllər biz hüquq sahəsinə hüquqşünas ixtisası tələb edirdik. Tutaq ki, onda bu stajı yaratmaq bir az çətin idi. Amma ümumi stajı istənilən adam istənilən yerdə işləməklə yarada bilər və bu baxımdan bunun düzəldilməsi vacibdir.

Digər tərəfdən, burada çox hörmətli Əli müəllimin qeyd etdiyi kimi, test imtahanı ilə bağlı. Yazılı imtahan veriləcək. 6-cı maddədə göstərilibdir. Elə insanlar var ki, bunlar beynəlxalq sertifikata malikdirlər. Bunlar necə olacaqlar? Bunların təzədən gəlib yazılı test imtahanından keçməsinə nə ehtiyac var? Mötəbər qurumlar buna bu sənədi veriblərsə, əgər iş prosesində hansı isə bir məsələ olacaqsa,

onda onu araşdırmaq daha doğru olar.

Bir də palatanın 15 nəfərdən təşkil olunması. Yəni test oldu, 15 nəfər seçildi, vəssalam, palata yaradıla bilər. Bəlkə bu qurumu bir az daha çox sayda, heç olmasa, 50-100 nəfərin testdən keçəndən sonra yarada biləcəyi bir palata modelinə keçək ki, bu da orada daha qabiliyyətli, daha hazırlıqlı insanların hansı isə bir seçim mühitində önə çıxmasına imkan yaradar. Yoxsa başdan 15 nəfər yeri tutdu, palatada üstünlüyü qazandı və sonra gələnlər artıq orada hansı isə bir fərqlənmə imkanlarını əldə edə bilmirlər.

Ümumiyyətlə, mən bu qanun layihəsini müsbət qiymətləndirirəm və hesab edirəm ki, bu, xeyli problemlərin həlli istiqamətində insanların, xüsusilə mülkiyyətçilərin işini...

**Sədrlik edən.** Fazil müəllim, sağ olun. Ancaq mən düşünürəm ki, əgər ali təhsilli şübhə altına alınırsa, sertifikatlını onda gərək elə-belə buraxaq? Yəni Siz deyirsiniz, sertifikatlıdır, testə getməsin. Bəs ali təhsillini niyə biz gərək şübhə altına alaq? İndi bəlkə kiminsə vaxtı ilə saxta diplomu olub, artıq proses gedir, çox şey dəyişilir və bu, gələcəyə ünvanlanan bir qanun layihəsidir. Niyə biz gərək ali təhsillini şübhə altına alaq? Bu mənim öz şəxsi fikrimdir. Çıxışınıza görə çox sağ olun. Əliabbas Salahzadə. Buyurun.

**Ə.Salahzadə**. Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Bu gün müzakirəmizə təqdim olunan qanun layihəsi qiymətləndirmə fəaliyyətinin tənzimlənməsi baxımından olduqca önəmlidir. Qiymətləndirmə standartlarının əsas təyinatı əmlakın bazar dəyərinin sərbəst bazar iqtisadiyyatında mövcud olan şərtlərdə, məcburiyyət olmadan qərar qəbul edən alıcı və satıcı tərəfindən məqbul hesab edilərək göstəricisinin ehtimal edilərək müəyyən edilməsidir. Bu mənada qiymətləndirmə fəaliyyəti standartlar və etika norma-

ları əsasında aparılmalıdır. Bir çox ölkələrdə bu, ilk növbədə müəyyən olunan dəyərin məzmunundan başlayaraq geniş mövzuları əhatə edir. Bu baxımdan təqdim edilən layihədə bir çox anlayışlar kənarda qalmış, daha çox inzibati reqlament mövzularına yer ayrılmışdır ki, bu məsələyə diqqətin göstərilməsini və uyğun düzəlişlərin edilməsini vacib hesab edirəm.

Ölkə miqyasında rəqəmsallaşmaya keçidin təmin edilməsi müasir şəraitdə elektron sistemin əhəmiyyəti nəzərə alınmaqla tətbiq edilməlidir. Qiymətləndirmə fəaliyyətinin informasiya təminatını həyata keçirmək məqsədi ilə vahid məlumat və normativ hüquqi baza yaradılmalı və şəffaflıq təmin olunmalıdır.

Beynəlxalq praktikada qiymətləndirici ixtisasların və standartların vahid şəkildə sistemləşdirilməsi və çoxsaylı qiymətləndirmə istiqamətlərinin birləşdirilərək əvəzlənməsi nəzərdə tutulur. Qanun layihəsində nəzərdə tutulan sertifikasiya sayını minimuma endirmək, fikrimcə, məqsədəmüvafiq olardı.

Qiymətləndirmə sahəsində olan müvafiq ixtisas kodlarının təhlili göstərir ki, beynəlxalq səviyyədə onların tərifinə eyni və ya yaxın məzmunda istiqamətlər daxil edilir. Ona görə də hər bir xüsusi hal üzrə ixtisas müəyyənləşdirmək və tələb etmək, fikrimcə, məqsədəuyğun deyil.

Hesab edirəm ki, qanun layihəsində neqativ halların istisna edilməsi mexanizmi daha mükəmməl işlənməlidir. Qanun layihəsində çoxsaylı şəhadətnamələr əsasında fəaliyyət nəzərdə tutulur ki, bunların sayının azaldılması məqsədəuyğun olardı.

Qiymətləndirmə fəaliyyətini tənzimləyən və təşkil edən təşkilatın fəaliyyət dairəsinin bütün qiymətləndirici spek-

trləri əhatə etməsi vacibdir. Burada 25 il mövcud olmuş qiymətləndirmə mexanizminin hüquqi varisliyinə diqqət göstərilməlidir. Qiymətləndirici şirkətlərin inklüziv yanaşma əsasında inkişafı günümüzün çağırışlarındandır.

Hörmətli sədr, hörmətli həmkarlar, qeyd edilənlərlə yanaşı, hesab edirəm ki, təqdim olunan qanun layihəsi kifayət qədər peşəkar hazırlanmışdır və ikinci oxunuş üçün müəyyən edilmiş tələblərə cavab verir və qəbul edilə bilər. Odur ki, onun lehinə səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov. Buyurun.

**A.Hüseynov.** Xanım sədr, həm də Sizin tövsiyələrinizi tam qəbul edirik ki, əgər komitədə müzakirə olunubsa, burada vaxt almağa lüzum olmur. Sadəcə, plenar yığıncağa gələndə o qanunlara biz bir daha baxırıq, bəzi fikirləri vacib hesab edirik. Ona görə burada səsləndirmək üçün Sizdən icazə alırıq.

Mənim fikrim 4-cü maddə ilə əlaqədar olacaq. Qanun layihəsinin 4-cü maddəsində qiymətləndirmə fəaliyyətinin istiqamətləri üzrə, demək olar ki, bütün parametrlər, bütün istiqamətlər nəzərə alınır. Çox genişdir, çox əhatəlidir. Onu da deyim ki, qanunun özü də, – burada da səsləndirildi, – çox peşəkarcasına hazırlanıb. Bu maddə üzrə nəyi demək istərdim? Orada qiymətləndirmə fəaliyyəti istiqamətlərindən biri də təbii sərvətlərin qiymətləndirilməsidir. Hər birimizə məlumdur ki, təbii sərvətlər anlamı çox geniş bir anlayışdır və onları çox təsnifləndirmək, kateqoriyalara bölmək olar və bütövlükdə, təbii sərvətlər bəzən milli sərvət anlamına da gəlir. Ona görə də, məsələn, hər hansı bir daşınar əmlakın, maşının və orada göstərilən istiqamətlərin hər biri ilə müqayisə etdikdə görürük ki, təbii sərvətlərin qiymətləndirilməsi daha ciddi bir yanaşmadır. Ona görə də mən belə düşünürəm ki, təbii sərvət-

lərin qiymətləndirilməsi üçün bu maddələr ya gücləndirilməlidir, ya da xüsusi yanaşmalar həyata keçirilməlidir. Çünki qanun layihəsinin özündə də müəyyən istisnalar var. Məsələn, sığortalanmış dövlət və bələdiyyə əmlakına dəyən ziyanın qiymətləndirilməsi istisna olunur. Biz də təbii sərvətlərin qiymətləndirilməsini istisna edib xüsusi yanaşmalarla bunu daha da zənginləşdirə bilərik. Təşəkkür edirəm və qanuna səs verirəm.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Hörmətli həmkarlar, xahiş edirəm, məni düz başa düşün. Komitənin üzvləri, təbii ki, yazıla da bilər, çıxış da edə bilər. Mənim dediyim ondan ibarət idi ki, ümumiyyətlə, bu təkliflər ikinci oxunuşun komitə iclasında olsa idi, artıq daha da nəticəli, daha da hazırlıqlı səslənərdi.

Tahir müəllim, yazılmısınız? Buyurun, sonra mən Elnur müəllimə də söz verəcəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili**. Sağ olun, Sahibə xanım. Sahibə xanım, mən ilk öncə çıxış edən və təklif verən bütün həmkarlarıma təşəkkür edirəm. Sadəcə, bir məlumatı bildirmək istəyirəm ki, mən çıxışımda da qeyd etmişdim. Açıqlamadım, amma ümumi şəkildə qeyd etdim ki, burada səslənən təkliflərin, demək olar, böyük əksəriyyəti komitə tərəfindən hazırda müzakirə mərhələsindədir. Biz bu təklifləri və bir çox hallarda rəyləri artıq qəbul etmişik. Artıq qanunvericilik təşəbbüsü subyekti ilə razılaşma mərhələsindəyik. Qeyd etdiyim kimi, əgər bu təkliflər qəbul olunarsa və qanunvericilik tələblərinə cavab verərsə, üçüncü oxunuşda hökmən, inşallah, mən bunlar haqqında məlumat verəcəm.

Bir məsələni də xüsusi qeyd etmək istəyərdim. Burada beynəlxalq sertifikatlarla bağlı bayaq qeyd olundu. Ümumi yanaşma bundan ibarətdir ki, qanun layihəsində ixtisas imtahanının cəmi bir dəfə verilməsi tələb olunur. Bir qiy-

mətləndirici bir dəfə ixtisas imtahanı verməklə ömür boyu qiymətləndirici kimi fəaliyyətdə ola bilər. Bu, yalnız hər 5 ildən, yaxud da 7 ildən bir tələb olunan imtahan deyil. Bu, sadəcə, ilkin mərhələdə bir filtrasiya rolunu oynayır. Amma beynəlxalq sertifikatlar bütün dünyada biliyin, peşəkarlığın bir göstəricisidir. O, bir dənə, bir neçə dənə ola bilər, müxtəlif sahələrdə və bir neçə ildən bir ola bilər. Ona görə də qiymətləndiriciyə qiymətləndirici olandan sonra yenidən beynəlxalq sertifikat alması heç bir halda əngəl deyil. Bu onun yalnız peşəkarlıq səviyyəsinin və rəqabətdə digərlərindən üstün olması imkanı yaradır ki, biz hər ikisinin də qalmağını məqbul hesab edirik. Digər məsələlərlə bağlı, düşünürəm ki, hörmətli Elnur müəllim də münasibət bildirər. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Tahir müəllim, mən düz başa düşdüm? Burada səslənən təkliflər artıq komitədə səslənmişdir? Artıq müzakirə də gedir, yəni biz bunları ikinci dəfə bütün zal olaraq eşitdik. Elnur müəllim, buyurun.

**E.Əliyev,** *Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini.*

Təşəkkür edirəm, xanım sədr. Tahir müəllim artıq mövqe bildirdi. Komitədə səsləndirilən və komitə üzvlərinin qaldırdığı mövqeləri həmkarlarla birgə cavablandırmışıq. Əliabbas müəllim Salahzadənin və komitə üzvü olmayan digər hörmətli həmkarımız Fazil Mustafanın qeydlərinə münasibət bildirmək istəyərdim. Hörmətli Əliabbas müəllimin səsləndirdiyi səkkiz təklif Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin və iqtisadiyyat nazirinin, həmçinin müvafiq komitəyə təqdim olunmuş təkliflərlə, demək olar ki, tam üst-üstə düşür. Həmin təkliflərin bir qismi nəzərə alınmışdır. Sadəcə olaraq, təfərrüata varmaq istəməzdim. Ayrıca təqdim edərik.

Hörmətli Fazil müəllim Mustafanın səsləndirdiyi prinsiplər bölməsi və ali təhsilin olmaması mövzusu ilə bağlı tələbin olmaması. Sahibə xanım, Siz mövqe bildirdiniz. Dəstək üçün təşəkkür edirəm. Biz ali təhsil anlamımızı digər palatalarda, qurumlarda, Auditorlar Palatasında və ya Vəkillər Kollegiyasında olduğu kimi, mütləq şəkildə analogiya kimi qəbul edirik. Eyni formada da 3 il ümumi iş stajı ilə bağlı, yəni həmin məntiq oradan doğur ki, digər palatalarda da, növbəti mərhələdə öz fəaliyyətini tənzimləyən qeyri-hökumət təşkilatlarında da, kollegiyada da, Auditorlar Palatasında da qanunvericilik tərəfindən eyni ümumi tələblər qoyulurdu: 3 illik iş stajı və sahə üzrə ali təhsil.

Vüqar müəllimin səsləndirdiyi yeni bir mövzu. Əvvəllər komitə iclasında səsləndirilməyibdir. Qiymətləndiricilərin sayı və ümumiyyətlə, bu insanlara hər hansı bir güzəştin nəzərdə tutulması, peşə təhsili olan insanlar və zərgər mövzusu səsləndirildi. Xatırlatmaq istəyərdim, qanunvericilik icazə verir ki, qiymətləndirici ekspert kimi cəlb edilsin. Yəni bu, ali təhsili olmayan zərgər də ola bilər, təmizlik mövzusunu daha yaxşı bilən bir texnik də ola bilər, istənilən şəxs ola bilər. Bu, qiymətləndiricinin hüququdur ki, həmin şəxsləri cəlb eləsin. Bu mövzu, əslində, bir növ qapanır. İkinci məqam, say nə qədərdir? Təəssüf ki, qiymətləndiricilərin özləri, ümumiyyətlə, vergi ödəyicisi kimi xidmət göstərən sektor hesab olunduğundan biz bu şəxslərin dəqiq sayını deyə bilmərik. Amma Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin saytında biz görə bilərik ki, 60 şirkət üzv kimi qeydiyyatdan keçib. Biz həmin şirkətlərin əməkdaşlarını qiymətləndirici saya bilərik. Amma yəqin, növbəti mərhələdə məhz bu qanun layihəsinin ortaya çıxmasında əsas səbəb, zərurət odur ki, bu sahədə böyük pərakəndəlik var. Yəni bu imtahanların

keçirilməsi, bu sistemin təmərküzləşməsindən sonra real olaraq buradakı oyunçular, onların səviyyəsi, təhsili və sair – bunların hər biri növbəti mərhələdə aydın olacaq. Qısaca bunları bildirmək istədim. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Elnur müəllim. Hörmətli həmkarlar, daha çıxış edən yoxdur və mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Layihədə 6 fəsil, 27 maddə var. Mən qanun layihəsini fəsil-fəsil səsə qoyacam. Xahiş edirəm, indi preambula və birinci fəslə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
İkinci fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
Mən üçüncü fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
Dördüncü fəsil səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul  edildi.
Beşinci fəsil. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
Mən altıncı fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Hörmətli həmkarlar, mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Biz qonaqlarımıza da təşəkkür bildiririk. İclasımızda iştirak etdiyinizə görə sağ olun.

Hörmətli həmkarlar, sonuncu – 16-cı məsələ "Polis haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Onu da qeyd edim ki, qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılır. Mən xahiş edirəm, çıxışlarda elə birinci oxunuşun tələblərini nəzərə alasınız. Hörmətli həmkarlar, qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır.

Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən Sizə söz vermək istəyirəm. Buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, biz Avropa Şurasının Uşaqların cinsi istismardan müdafiəsinə dair Konvensiyasına zamanında qoşulmuşuq. Konvensiyanı ratifikasiya etdiyimizə görə qanunvericiliyimizi, ilk növbədə cinayət qanunvericiliyimizi ona uyğunlaşdırmışıq. Yəni biz keçən il cinayət qanunvericiliyində konvensiyadan irəli gələn öhdəliklərimizi yerinə yetirmişik. Bu gün isə biz ancaq iki qanuna, yəni hörmətli xanım sədrin adını çəkdiyi iki qanuna həmin Cinayət Məcəlləsində qüvvədə olan, tətbiq olunan ifadələri, sadəcə, köçürürük. Yəni uyğunlaşdırma xarakterli bir layihədir. Ondan dolayı hörmətli həmkarlarımın bu uyğunlaşdırma ilə bağlı hansı fikirləri səsləndirəcəkləri bir qədər təəccüblüdür.

**Sədrlik edən.** Hörmətli həmkarlar, Elm və təhsil komitəsində də bu məsələyə baxılıb. Ona görə mən Bəxtiyar müəllimdən xahiş edirəm. Bəxtiyar müəllim, bununla bağlı komitənizin rəyini bildirin. Buyurun.

**B.Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Əli müəllim artıq məsələnin mahiyyəti ilə bağlı məlumat verdi. Xatirinizdədirsə, 2022-ci il 20 dekabr tarixli qanunla biz "Təhsil haqqında" Qanuna uyğunlaşdırma xarakterli dəyişiklik etmişdik. Yeni bir maddə əlavə edilmişdir. 36-1.2.5-ci maddə: uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər. Eyni zamanda, biz "Ümumi təhsil haqqında" Qanuna da yeni bir maddə əlavə etmişdik. 27.2.5-ci maddə: uşaqlara qarşı cinsi istismar və ya zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər. Sadəcə olaraq, çərçivə qanununda – "Təhsil haqqında" Qanunda "cinsi zorakı-

lıq” ifadəsi işlənmişdir. Amma “Ümumi təhsil haqqında” Qanunda isə, sadəcə olaraq, “və ya zorakılıq” ifadəsi. Ona görə “Ümumi təhsil haqqında” Qanun, çərçivə qanunu “Təhsil haqqında” Qanuna uyğunlaşdırılır, “və ya” sözlərindən sonra “cinsi” sözü əlavə edilir. Xahiş edirəm, bu uyğunlaşdırmaya səs verəsiniz. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Təklif var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoyaq. Hamı razıdır. Buyurun, mən qanun layihəsini səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İclasımız başa çatdı. Hörmətli həmkarlar, növbəti iclasın vaxtı haqqında sizə məlumat veriləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***2 oktyabr 2023-cü il***

**Azay Quliyev.** Sentyabrın 19-da baş verən hadisə, Azərbaycanın Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirləri və bu tədbirlər nəticəsində ərazimizdə olan qanunsuz hərbi birləşmələrin təslim olması, sentyabrın 28-də isə Qarabağda yaradılmış qondarma rejimin özünü buraxmağa məcbur edilməsi təkcə ayın və ya ilin deyil, son 200 ilin ən mühüm tarixi hadisəsi oldu. Bununla da ölkəmizə qarşı oynanılan 200 illik  oyun bitirildi, Qarabağda basdırılmış separatizm və qarşıdurma "minası" tam olaraq zərərsizləşdirildi, dünya erməniliyinin birlik və ideoloji "qalası" çökdürüldü, Cənubi Qafqazı "qan gölü"nə çevirən, 18400 azərbaycanlının həyatına bais olan "terror yuvası" darmadağın edildi.

Dünya erməniliyinin 1923-cü ildən bəri Qarabağı zorla Azərbaycandan qoparmaq üçün başlatdığı siyasi, ideoloji və informasiya müharibəsi tamamilə iflasa uğradı, bəşəriyyət xəstə "miatsum" ideologiyasından və təfəkküründən birdəfəlik qurtuldu.

Əminəm ki, gözümüzün qarşısında yazılan bu qəhrəmanlıq salnaməsinin müəllifinə, Cənubi Qafqazın, Mərkəzi Asiyanın və Şərqi Avropanın gələcəyini dəyişən, bu coğrafiyada yeni geosiyasi reallıqlar formalaşdıran, dünyada separatizmin və işğalın kökünü kəsməyin müasir modelini yaradan cənab İlham Əliyevə indiki və gələcək nəsil daim minnətdar olacaqdır. Azərbaycan Ordusunun, şəhid və qazilərimizin tarix və insanlıq qarşısındakı misilsiz xidmətləri isə heç vaxt unudulmayacaq.

Qarabağın erməni sakinlərinə Azərbaycanın konstitusion quruluşu və qanunları çərçivəsində qalıb yaşamaları üçün ən ali səviyyədə zəmanət verilib. Kim Azərbaycanın vətəndaşlığını qəbul edib qanunlarına hörmət edərək yaşamaq istəyirsə, hökumətimiz onlar üçün hər cür şərait yaradacaq. Ancaq görünən odur ki, separatizm və bölücülük xəstəliyinə tutulmuşlar heç də Azərbaycanın bu dəyərli jestini qəbul etmək fikrində deyillər və onlar dövlətimizin suverenliyini qəbul etmədikləri üçün Qarabağı tərk edirlər. Əlbəttə, bu onların seçimidir və bu seçimə müdaxilə etmək doğru olmaz.

Uğradıqları tarixi məğlubiyyətlə barışmaq istəməyən Ermənistan və onun havadarları, o cümlədən BBC, CNN, DW, France 24, Sky News, NBS News və sair kimi beynəlxalq media qurumları Azərbaycana qarşı yalan və böhtan kampaniyasına başlayıblar, mövcud reallıqları və həqiqətləri qəsdən təhrif edərək könüllü olaraq Qarabağı tərk edənlərin guya "etnik təmizləmə"yə məruz qalmaları haqqında cəfəng fikirlər səsləndirirlər. Sual olunur: Hanı dəlil, sübut və faktlarınız? Əgər Azərbaycan tərəfindən ermənilərə qarşı hər hansı bir zorakılıq halı baş versəydi, onu dərhal şişirdərək bütün dünyaya car çəkərdiniz. Belə bir fakt yoxdur. Nəzərə alaq ki, indiki texnologiyanın inkişaf etidiyi bir şəraitdə, hər adamın əlində kameralı telefonun olduğu bir vaxtda belə faktlar olsaydı, ermənilər çox asanlıqla onları çəkib hər kəsə nümayiş elətdirərdilər. Ancaq belə bir görüntüyə heç kim rast gəlməyib, çünki belə bir hal olmayıb.

Oktyabrın 1-də isə Azərbaycan BMT-nin Bakıdakı rezident əlaqələndiricisinin rəhbərliyi ilə BMT-nin müxtəlif strukturlarının nümayəndələrini Xankəndiyə dəvət edib. Bu, bir daha Azərbaycanın özünə, sözünə və əməlinə ar-

xayın olmasından xəbər verir. Ümid edirik ki, BMT rəsmiləri real vəziyyəti yerində araşdırıb obyektiv hesabat hazırlayacaq və bununla da "etnik təmizləmə" haqqında şouya birdəfəlik son qoyulacaq.

**Əliabbas Salahzadə.** Bu günlər olduqca möhtəşəm tarixi hadisələrə şahidlik edirik. Artıq müqəddəs bayrağımız ölkəmizin bütün ərazisində dalğalanır. Bu, xalqımızın öz müzəffər Ali Baş Komandanının ətrafında sıx birliyi nəticəsində mümkün olmuşdur. Vətən torpaqlarının azadlığı uğrunda şəhid olmuş bacı-qardaşlarımıza Uca Tanrıdan rəhmət diləyir, qazilərimizin tezliklə sağlamlıqlarına qovuşmalarını arzulayıram.

Təqdim edilən Milli Məclisin 2023-cü ilin payız sessiyası üzrə qanunvericilik işləri planı ilə tanışlıq zamanı aydın olur ki, sessiya çərçivəsində xeyli ciddi və vacib əhəmiyyətli qanun lahiyələrinin qəbulu nəzərdə tutulmuşdur. Bununla belə, bu gün dünyada baş verən geosiyasi proseslər, möhtərəm cənab Prezidentimiz, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə suverenliyimizin bütün ölkə ərazisində bərqərar olması bölgənin siyasi mənzərəsini yenidən şəkilləndirmiş, yeni çağırışlar ortaya qoymuşdur və lazımdır ki, mövcud çağırışlar kontekstində qanunvericilik sistemində təkmilləşdirmə işləri aparılsın. Təqdim edilən qanunvericilik işləri planında ötən sessiyalarda qəbulu yubanmış bir sıra qanunverici aktların müzakirəsi nəzərdə tutulur. Bu baxımdan bir neçə il əvvəldən artıq Milli Məclisə qəbulu tövsiyə edilən və eyni zamanda, bir çox illər öncə Milli Məclisin qanunvericilik işləri planına daxil edilmiş Rəqabət Məcəlləsinin budəfəki sessiya çərçivəsində müzakirəsinin nəzərdə tutulması olduqca vacibdir. Bu qanun layihəsi ölkəmizdə dövlət və biznesin birgə koordinə edilmiş fəaliyyətinin

qurulmasına, ölkədə inhisarçılığın aradan qaldırılmasına verə biləcəyi töhfələri nəzərə alsaq, onun qəbulu günün aktual məsələlərindən olmaqla, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzvlük proseduruna ayrılan zamanın qısaldılması baxımından da əhəmiyyətlidir. Ümid edirəm ki, sessiya dövründə ölkəmizdə biznes mühitində ədalətliliyin və şəffaflığın artırılmasına töhfənin verilməsi baxımından vacib əhəmiyyət kəsb edən bu qanunun müzakirəsi və qəbulu prosesini uğurla başa çatdıracağıq.

Bu gün müzakirə etdiyimiz qanunvericilik işləri planında sessiya çərçivəsində “Ali təhsil haqqında” Qanunun müzakirəsinin nəzərdə tutulması təqdirəlayiq hal olsa da, hesab edirəm ki, bu qanunun qəbulunda gecikirik və bunun qanuni prosedurunu sürətləndirməliyik. Çünki təhsil prosesi dinamik inkişaf edən və bütün pillələri bir-biri üzərində qurularaq bütünləşən sistem olduğundan buradakı münasibətlər sistemində boşluqların olması sistem xarakterli çətinliklərin, çatışmazlıqların meydana çıxmasına səbəb olur ki, bunu da gündəlik həyatımızda görməkdəyik. Bu, xüsusən doktorantura təhsilinin pillələri ilə bağlıdır. Hesab edirəm ki, burada ciddi islahatlara ehtiyac vardır. Qısa bir zaman kəsiyində bu məsələyə qanunvericilik səviyyəsində münasibət bildirməliyik. Çünki bu gün elmimizdə qocalma prosesi gedir. Bu da öz mənfi təsirini təhsilimiz, xüsusən də ali təhsilin təşkilində göstərir. Belə ki, bu gün ali təhsil müəssisələrimizdə tədris prosesinə cəlb olunmuş elmi dərəcəli kadrların, demək olar, 80 faizin üzərində olan hissəsi 50 yaşdan yuxarı olanlardır.

Toxunmaq istədiyim digər bir məsələ qanunvericiliyimizin məcəlləşdirilməsi ilə bağlıdır. Belə ki, qanunvericilik sistemimizi təsnifləndirən zaman bir çox sahəvi qanunların ayrı-ayrılıqda, səpələnmiş formada tətbiq edil-

diyini görürük. Təklif edərdim ki, ölkəmizdə vahid büdcə məcəlləsi, təhsil məcəlləsi, səhiyyə məcəlləsi qəbul edilsin və parlamentdə qanunvericiliyin məcəlləşdirilməsi istiqamətində əməli fəaliyyətə başlanılsın.

**Fatma Yıldırım.** Həqiqətən də, biz Azərbaycan xalqı olaraq tarixi anlar yaşayırıq. Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin polad iradəsi, qətiyyətli siyasəti, şanlı ordumuzun rəşadəti və xalqımızın birliyi sayəsində artıq Qarabağdakı qanunsuz separatçı rejim, qondarma "Artsax respublikası" ləğv edildi, dövlətimizin suverenliyi tam bərpa olundu. Cəmi 24 saat ərzində keçirilən lokal antiterror tədbirləri zamanı qanunsuz rejim ağ bayraq qaldıraraq təslim oldu. Bunun üçün biz Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuza təşəkkür edirik. Şəhidlərimizin ruhu qarşısında baş əyirik.

Cənab Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan dövləti qarşıya qoyduğu hədəfləri reallığa çevirir. Təbii ki, bu uğurlara əsas verən ölkəmizin ədalətə və beynəlxalq hüquqa söykənən siyasətidir. Otuz illik işğal dövründə xalqımız hər zaman əmin idi ki, dövlətimizin uğurlu siyasəti nəticəsində torpaqlarımız işğaldan mütləq azad ediləcək, bu ərazilərdə yeni həyat başlayacaq.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda sürətlə quruculuq işləri həyata keçirilir. Biz inanırıq və əminik ki, Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bu möhtəşəm işlər tezliklə Xankəndidə, Xocalıda, Ağdərədə, Əsgəranda və Xocavənddə də reallığa çevriləcək. Həmçinin vaxtı ilə bu torpaqlardan məcburi köçkün düşmüş soydaşlarımız doğma yurdlarına qayıdacaqlar.

Bu gün biz bəzi beynəlxalq təşkilatların və dövlətlərin, xüsusilə Qərb ölkələrinin yenə də ikiüzlü siyasətinə şa-

hidlik edirik. Ermənistan və onun havadarları erməni sakinlərin Qarabağı könüllü surətdə tərk etmələrini "etnik təmizləmə" kimi təqdim etməyə çalışırlar. Halbuki dövlətimiz heç kimi buna məcbur etmir, əksinə, onlara Azərbaycan vətəndaşlığını qəbul edib Qarabağda yaşamağa çağırış edir. Digər tərəfdən, hazırda onlara ərazidə davamlı olaraq humanitar yardım göstərilir. Qarabağın erməni sakinlərinin nümayəndələri ilə keçirilən görüşlərdə məhz onların müraciəti əsasında bir çox humanitar addımlar atılır.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, indiyədək Qarabağda yaşamış ermənilərin böyük bir hissəsi torpaqlarımız işğal olunandan sonra, öldürülən və silah gücünə qovulan azərbaycanlıların evlərinə yerləşdirilmişdilər. Məsələn, mənim ata yurdum olan Malıbəyli kəndində işğala qədər bir erməni də yaşamayıb. Amma işğal dövründə bu kənddə süni şəkildə məskunlaşmışdılar. Bu, əslində, cinayət idi. Ona görə də həmin ermənilərin gəldikləri yerlərə qayıtması təbii haldır.

Artıq ilahi ədalət bərpa olundu. Bu prosesdə ölkəmizə təzyiq göstərmək istəyən beynəlxalq dairələrin cəhdləri heç bir nəticə verməyəcək. Müzəffər Ali Baş Komandanımızın dediyi kimi, heç bir qüvvə bizim iradəmizə təsir edə bilməz!

**Malik Həsənov.** Ötən sessiya və növbədənkənar sessiya dövründə parlamentimiz səmərəli fəaliyyət göstərmiş, çoxsaylı qanunlar qəbul edilmiş, hazırda qüvvədə olan bir sıra qanunlara əlavə və dəyişikliklər edilmişdir. Bu dövr ərzində təmsilçilik sahəsində də geniş işlər görülmüş, seçicilərlə çoxsaylı görüşlər və vətəndaş qəbulları təşkil edilmişdir.

Son günlər müzəffər Ali Baş Komandan, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin öndərliyi ilə müs-

təqillik tariximizdə ilk dəfə olaraq suveren hüquqlarımız ölkəmizin hər bir nöqtəsində təmin edilmiş, müqəddəs bayrağımız dalğalandırılmışdır. Bu münasibətlə də sizləri təbrik edir, bu tarixi hadisələrin şahidi olmağım səbəbi ilə böyük qürur hissi duyur və vətən uğrunda canından keçən hər bir şəhidimizə Allahdan rəhmət, yaralı əsgərlərimizə şəfa diləyirəm.

Təqdim olunmuş 2023-cü ilin payız sessiyasının qanunvericilik işləri planı əhatəli hazırlanmışdır. Onunla tanışlıq zamanı aydın olur ki, bu sessiya çərçivəsində bir sıra vacib əhəmiyyətli qanunların qəbul edilməsi nəzərdə tutulur. Bu qanunlar içərisində 16 il müddətinə qəbulu yubanan Rəqabət Məcəlləsi mühüm yer tutur. Görünür, bu sessiya çərçivəsində biz bu məcəllənin qəbuluna nail olacağıq ki, bu da iqtisadiyyatımızın gələcək inkişafında hiss oluna bilinən sıçrayışlı inkişaf əldə etməyə imkan verəcəkdir.

Digər vacib əhəmiyyətli məsələ – “Ali təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Biz “Təhsil haqqında” çərçivə Qanunun qəbulundan sonra bu sahə üzrə ayrı-ayrı qanunlar qəbul etmişik. Lakin ali təhsil sahəsində münasibətlər sisteminin formalaşması, ali təhsilin daha səmərəli və insan kapitalının yetişdirilməsi üçün mütləq əhəmiyyət daşıyan bu qanunun qəbulunun artıq gecikdirilməməsi vacibdir. Onu da nəzərə alaq ki, bu qanun layihəsi ötən sessiyanın da qanunvericilik işləri planında yer almışdır.

Təbiidir, sessiya çərçivəsində qanunvericilik təşəbbüsü subyektlərindən də müxtəlif təklif və layihələr daxil olacaqdır ki, bu, qanunvericiliyimizin daha da təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

* * *

Müzakirəmizə təqdim olunan Rəqabət Məcəlləsi son

dərəcə aktual qanun layihəsidir və iqtisadiyyatımızın gələcək inkişafında əhəmiyyətli rol oynayacaqdır. Bu məcəllənin qəbulu artıq 16 ildir ki, yubanır və bir neçə dəfə müxtəlif sessiyalar dövründə qanunvericilik işləri planına daxil edilsə də, müzakirəyə çıxarılıb qəbul edilməmişdir. Hesab edirəm ki, artıq bu qanun layihəsinin qəbulunu gecikdirmək olmaz. Çünki "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə rəqabət mühitinin təkmilləşdirilməsi prioritet istiqamətlərdən biri olaraq təsbit edilmişdir. Rəqabət Məcəlləsinin qəbul edilməsi sağlam rəqabət mühitinin formalaşdırılmasının hüquqi bazası, sağlam rəqabət isə iqtisadiyyatın inkişafının əsası hesab edilə bilər. Rəqabət, əslində, iqtisadi həyatın hərəkətverici qüvvəsi kimi aparıcı rol oynayır. Rəqabət Məcəlləsinin qəbulu ölkə daxilində istehsalın stimullaşdırılması, istehsalçıların maraqlarının qorunması baxımından rəqabət qabiliyyətli müəssisələrin fəaliyyətinin formalaşdırılması üçün çox vacibdir. Dünya təcrübəsi göstərir ki, təsərrüfat subyektləri arasındakı azad rəqabət mühiti bu və ya digər şirkəti, firmanı və sairi daha çox yüksək məhsul istehsal etməyə və eləcə də istehsal prosesinin təkmilləşdirilməsi üçün stimul yaradır.

12 fəsil, 84 maddədən ibarət struktura malik olan bu məcəllə, göründüyü kimi, əhatəli hazırlanmışdır və özündə rəqabətə, münasibətlərə dair bütün məqamlara aydınlıq gətirməyə imkan verən hüquqi müddəaları əks etdirir. Bu məcəllə üzərində uzun illər ərzində iş aparıldığından, demək olar ki, bugünkü iqtisadi reallıqlara dair məqamlar orada göstərilmiş, beynəlxalq təcrübə dərindən öyrənilmiş, onun bizim iqtisadi sistemimizə uyğun gələn ayrı-ayrı məqamları bu qanunda əks etdirilmişdir.

**Sədaqət Vəliyeva**. Son dövrlər Ermənistan tərəfi müxtəlif təxribatlara əl atır – Azərbaycan Ordusunun mövqelərini davamlı şəkildə atəşə tutur, ərazilərimizdə minaların basdırılmasına davam edir, döyüş mövqelərini təkmilləşdirərək səngər və sığınacaqların sayını artırır, bir sözlə, müxtəlif cəhdlərlə vəziyyəti gərginləşdirməyə çalışırdı. Eyni zamanda, dünya ictimaiyyəti erməni təxribatına yaşıl meydanlarda və digər müstəvilərdə də şahidlik edirdi. Bütün bunlara baxmayaraq, Azərbaycan tərəfi yüksək səbir və humanistlik nümayiş etdirir, Ermənistanı sülhə çağırırdı. Lakin Ermənistan tərəfi yenə də nəticə çıxarmır, əksinə, təxribatlarının miqyasını artırmağa davam edirdi.

Sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupu tərəfindən terror məqsədi ilə quraşdırılmış minanın partlaması nəticəsində mülki şəxslərimiz həlak oldu. Eyni zamanda, həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsi də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu tərəfindən terror məqsədi ilə quraşdırılmış minaya düşdü və hərbi qulluqçularımız həlak oldu. Əlbəttə, artıq bizim başqa seçimimiz yox idi, antiterror əməliyyatları qaçılmaz və Azərbaycanın haqqı idi. Belə də oldu. Azərbaycan Ermənistan tərəfinin törətdiyi təxribatların qarşısının alınması, öz konstitusion quruluşunun bərpa edilməsi məqsədi ilə lokal xarakterli antiterror əməliyyatlarına başladı. Xüsusilə qeyd etmək lazımdır ki, Vətən Müharibəsində olduğu kimi, Azərbaycan tərəfi bu dəfə də öz humanistliyinə sadiq qalaraq mülki əhalini və infrastruktur obyektlərini hədəfə almadı.

Artıq Ermənistanın Azərbaycanla razılaşmaqdan başqa yolu qalmayıb. Axı, biz dəfələrlə Ermənistan tərəfinə xə-

bərdarlıq etdik ki, təxribatların sonu uçurumdur, öz sonunuzu yaxınlaşdırmayın, müstəqil olun, havadarlarınızın yalan vədlərinə uymayın, xalqınızı düşünün, şəxsi maraqlarınız naminə xalqınızı qurban verməyin, sülhə gəlin. Təəssüf ki, Ermənistan tərəfi bütün bunları dəyərləndirə bilmədi. Nəticə isə göz qabağındadır. Bir daha hər kəs görsün ki, Azərbaycanın səbri ilə oynamaq, humanistliyimizdən istifadə etmək olmaz. “Dəmir yumruq” hər zaman yerindədir.

Erməni terrorçularına qarşı apardığımız lokal xarakterli antiterror əməliyyatları uğurla və qələbəmizlə başa çatdı. Bu münasibətlə bütün xalqımızı təbrik edirəm. Əminəm ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında hələ çox qələbələrə imza atacağıq. Ulu Tanrıdan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza şəfalar arzulayıram.

Təşəkkürlər şanlı Azərbaycan Ordusu! Sizlərin şücaəti və qəhrəmanlığı sayəsində biz qələbə çaldıq. Təşəkkürlər Ali Baş Komandanımız cənab İlham Əliyev! Sizin həyata keçirdiyiniz müdrik və uzaqgörən siyasət qələbələrimizin əsasıdır.

* * *

Azərbaycan Vətən müharibəsindən sonra da öz qələbələrini sıralamaqda, qarşıya qoyduğu hədəflərə bir-bir nail olmaqdadır. Təəssüf ki, Ermənistan tərəfi İkinci Qarabağ müharibəsindəki acı məğlubiyyətindən nəticə çıxarmadı, vəziyyəti düzgün dəyərləndirmədi, Azərbaycanın sülh təşəbbüslərinə müsbət cavab verməyərək öz terror siyasətini, təxribatlarını və separatizmə dəstəyini davam etdirdi. Ermənistanın terror, separatçılıq siyasətinə Azərbaycan səbrlə və qələbələrə imza atmaqla cavab verdi. Bu həftə Azərbaycan növbəti böyük bir tarixi qələbəyə imza

atdı. Artıq hər şey bitdi. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin böyük siyasəti və qətiyyəti qondarma "Artsax respublikası"nı tarixin zibilliyinə göndərdi. Elə cənab Prezidentimizin dediyi kimi: "Cəhənnəmə getdi status, gora getdi status. Gorbagor oldu status. Yoxdur status. Və olmayacaq".

Biz müstəqil və ədalətli siyasət həyata keçiririk. Bütün bunlar şəffaf şəkildə dünyanın gözü qarşısında olur. İlk öncə xəbərdarlıq edirik, səhv yolda olanları düz yola və sülhə dəvət edirik. Bütün bunlar nəticə vermədikdə isə "dəmir yumruğ"un gücü işə düşür.

İndi isə ədalət zamanıdır, hər kəs etdiyi bütün əməllərin bədəlini ödəyəcək. Artıq Qarabağdakı keçmiş qondarma rejimin "dövlət naziri" Ruben Vardanyan başda olmaqla digər "nazirlər" həbs olunmaqda, Bakıya gətirilməkdədir. Vaxtı ilə ərazi bütövlüyümüzə təhdid yaradan, ölkəmizin sərvətlərinin qanunsuz olaraq talanmasında yaxından iştirak edən Vardanyan indi əliqandallı, başıaşağı şəkildədir. Bütün dünyaya və anti-Azərbaycan dairələrinə görk olsun: Azərbaycana qarşı əl uzadanın başı hər zaman aşağı, gözüyaşlı və əliqandallı olacaq.

Axı, biz dəfələrlə xəbərdarlıq etdik ki, əl çəkin bu separatizmdən, terror siyasətinizdən, təxribatlarınızdan. Bu cür iyrənc əməllər və qondarma fəaliyyətiniz sizə baş ucalığı gətirməyəcək. Necə demişdiksə, elə də oldu. Eyni zamanda, digər separatçıları da bu aqibət gözləyir. Heç kəs ilahi ədalətdən və "dəmir yumruğ"un mühakiməsindən qaça bilməyəcək.

* * *

"Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan

Respublikası qanununun layihəsi ilə bağlı təkliflərimi irəli sürmək istərdim:

1. Peşə müəssisələrində maddi-texniki bazanın təkmilləşdirilməsinə ehtiyac vardır. Bildiyimiz kimi, peşə məktəblərində mövcud olan ixtisasların böyük əksəriyyəti təcrübə tələb edən ixtisaslardır. Bu mənada peşə məktəblərinin ixtisaslar üzrə dəzgahlar, avadanlıq və texnikalarla təmin edilməsi həmin müəssisələrdə təhsil alan tələbələrin öz peşələrinə daha yaxşı yiyələnməsinə səbəb olacaqdır.

2. Peşə təhsili ilə bağlı qeyd edəcəyim digər əsas məqam peşə müəssisələrində ödənişli təhsil alan tələbələrə təhsil kreditlərinin verilməməsidir. Statistikaya nəzər salsaq, görərik ki, hər il peşə təhsili müəssisələrinə qəbul olan minlərcə tələbə təhsil ödənişini ödəyə bilmədiyi üçün təhsilini dayandırır. Bu mənada peşə müəssisələrinin tələbələrinə təhsil kreditinin verilməsi minlərcə gəncin öz təhsilini davam etdirməsinə və peşə ixtisaslı kadr kimi yetişməsinə köməklik edəcək.

3. Peşə təhsili ilə bağlı qeyd edəcəyim sonuncu məsələ. Yaxşı olardı ki, məktəblərdə peşə təhsili ilə bağlı təbliğat gücləndirilsin, bu istiqamətdə şagirdlər və valideynlərlə görüşlər keçirilsin. Bu, məktəb şagirdlərinin vaxtında düzgün istiqamətləndirilməsinə köməklik etmiş olacaqdır.

**Tamam Cəfərova.** Azərbaycanın dövlətçilik tarixinə daha bir şanlı səhifə yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən lokal antiterror əməliyyatı uğurla başa çatdı, cəmi 23 saat 43 dəqiqə ərzində 44 günlük Vətən müharibəsində başlanan proses tamamlandı. Cənab Prezident İlham Əliyevin tələb etdiyi kimi, qanunsuz "Dağlıq Qarabağ Respublikası" adlı xunta özünü buraxdı. Separatçı qanunsuz rejim və boz zonalar tarixin qaranlıq səhifələrinə gömüldü.

Cənab Prezident İlham Əliyevin "Nəyi necə, nə vaxt edəcəyimi, bunu mən bilirəm" fikirləri bir daha təsdiqini tapdı. Bu qələbə Azərbaycanın hərbi-siyasi qələbəsinin təntənəsi olmaqla bərabər, cənab Prezident İlham Əliyevin uğurlu diplomatik strategiyasının təntənəsi idi. Son 3 il ərzində ölkəmizə qarşı olan təzyiqlər, anti-Azərbaycan qətnamələri, ikili standartlar cənab Prezidenti öz yolundan döndərə bilmədi. Laçın yolunun guya bağlanması, Qarabağ ermənilərinin guya blokadada qalması, humanitar böhranla bağlı Qərbin şousu heç bir nəticə vermədi. Cənab İlham Əliyev bütün dünyaya qəbul etdirdi ki, Qarabağ Azərbaycandır və Azərbaycanın Qarabağdakı bütün fəaliyyəti beynəlxalq hüquq çərçivəsindədir. Bütün bu nailiyyətlər məhz cənab İlham Əliyevin dünya səviyyəli liderliyi, qətiyyətli baş komandanlığı, böyük siyasi zəkası nəticəsində mümkün oldu. Prezident İlham Əliyev adını Azərbaycan tarixinə bütöv Azərbaycanın müəllifi kimi qızıl hərflərlə yazdı.

Bu gün işğaldan azad olunmuş bütün rayonlar – Zəngilan, Cəbrayıl, Qubadlı, Füzuli, Ağdam, Şuşada sürətli quruculuq və abadlıq işləri həyata keçirilir. Bütün bunlar söyləməyə əsas verir ki, tezliklə Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur dünyanın ən abad və gözəl bölgələrindən birinə çevriləcək.

Sonda bir mühüm məsələyə də toxunmaq istəyirəm. Bu gün cəbhədə müharibə bitsə də, informasiya müharibəsi davam edir. Ermənistan ölkəmizə qarşı çirkin formada başlatdığı qarayaxma kampaniyasını bu gün də davam etdirir. Görünən odur ki, bu siyasət hələ bir müddət davam edəcək. Ermənistanın bu təxribatlarının qarşısı dövlətimiz tərəfindən qətiyyətlə alınır. Ancaq hələ qarşıda görəcəyimiz xeyli işlər var. Cənab Prezidentin də dediyi kimi, "... Bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumu-

zu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq!"

**Ülviyyə Həmzəyeva.** 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm müraciətlər etdi. Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına və taleyinə güclü təsir göstərdi. Hər bir müraciət növbəti qələbələrin müqəddiməsinə çevrildi.

Azərbaycan Prezidenti 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin gedişində xalqa ilk müraciətində bütün cəmiyyəti qəti qələbəyə köklədi. Cənab Prezident xalqa yönələrək "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" dedi. Bu şüar, Ali Baş Komandanın cəsarəti və qətiyyəti bizi xalq olaraq oyatdı. Biz qələbəmizə və torpaqlarımızın qayıdacağına inandıq və dövlətimiz ətrafında sıx birləşərək Azərbaycan ailəsinin inam dairəsinə nə xarici, nə də daxili düşmənləri buraxmadıq.

Xalqını yanında hiss edən Prezident İlham Əliyev düşmənə öz yerini göstərdi. Vətən müharibəsi dövründə hər birimiz cənab Prezidentdən cəbhədən gələn gözəl xəbərlər gözləyir və qələbəmizə inanırdıq. Bu xəbərləri verərkən belə cənab Ali Baş Komandan deyirdi: "Amma istəyirəm, əziz xalqım bilsin ki, hər kəndin, hər yüksəkliyin götürülməsi böyük rəşadət tələb edir". Prezident vurğulayırdı: "Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm də siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik".

Ata vəsiyyətini həyata keçirən Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında şücaətli ordumuz addım-addım tez bir zamanda torpaqlarımızı geri qaytardı. Bu gün Şuşa azaddır, bu gün Kəlbəcər, Xankəndi qayıdıb. Biz öz torpaqlarımıza nəzarət edirik. Bu günlərdə Qızıl Aypara və Qərbi Azərbaycan cəmiyyətinin fəallığını da qeyd etmək lazımdır.

Vətən müharibəsində Azərbaycan parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü Azərbaycanın şanlı tarixi oldu. Sentyabrın 19-da üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədi ilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılmış və cəmi bir sutka davam edən antiterror tədbirləri nəticəsində Qarabağdakı separatçı rejim ağ bayraq qaldırmışdır.

Azərbaycan xalqı və dövləti vətən uğrunda şəhid olan qəhrəman övladlarının işıqlı xatirəsini əziz tutur, onları daim xüsusi ehtiramla yad edir, qazilərin əməyini yüksək qiymətləndirir və onlarla qürur duyuruq. Bu möhtəşəm qələbəni qeyd edərkən rayon icra başçılarına və səlahiyyətli şəxslərə üzümü tuturam. Ölkə rəhbərimiz şəhid ailələrinə və qazi qardaşlarımıza diqqət və qayğı göstərdiyi kimi, hər birimizin vətəndaşlıq borcudur ki, bu ailələri diqqətdə saxlayaq.

Mənə qazi qardaşlarımız yaxınlaşaraq işlə təminolunma çətinliklərini dilə gətirmişdilər. Bu vətən övladlarının içində ali təhsili olan, hər hansı peşə sahibləri var, onların işlə təminatı nəzərə alınmalı və həyata keçirilməlidir. Milli Məclisin özündə parlamentin spikeri xanım Sahibə Qafarova tərəfindən şəhid ailəsindən və qazilərimizdən olan şəxslər işlə təmin olunub. Yaşadığım və təmsil etdiyim bölgədə də bu məsələ Prezidentin səlahiyyətli nümayəndəsinin və icra orqanlarının nəzarətindədir. Bu proses bütün bölgələrimizdə olmalıdır.

Sonda bir vəfa borcu olaraq Milli Məclisin Mədəniyyət komitəsinin sədri, türk dünyası sevdalısı və xalqımızın sevimlisi Qənirə xanım Paşayevanın vaxtsız vəfatından dolayı ən dərin kədərimi bildirmək istəyir, ailəsinə səbir diləyirəm.

***6 oktyabr 2023-cü il***

**Ceyhun Məmmədov.** Hesab edirəm, Avropa Parlamentinin qətnaməsi bu qurumun həm də əsl mahiyyətini ortaya qoyur. Bu qurum ilk dəfə deyil belə ədalətsiz və qərəzli qətnamə qəbul edir. Bu həm də onu göstərir ki, Avropa Parlamenti islamofob və türkəfob siyasətindən əl çəkə bilmir. Bu düşmənçilik onların gözünü o qədər bağlayıb ki, onlar heç bir həqiqəti nə görə, nə də reallığı qəbul edə bilirlər.

Biz onu da yaxşı bilirik ki, bu qətnamənin əsas təşəbbüskarı türk və islam dünyasına düşmənçiliyi ilə seçilən Fransadır. Fransanın hazırkı hakimiyyətini Fransanın dövlət maraqları deyil, erməni diasporuna verdikləri vədlər, aldıqları pullar düşündürür. Bir fransız siyasətçinin də dediyi kimi, bu gün Makron özünü Fransanın deyil, Er-

mənistanın Prezidenti kimi aparır.

Heç şübhəsiz ki, bu gün bölgədə sabitliyin pozulmasına, gərginliyin artmasına, sülh müqaviləsinin imzalanmamasına görə məsuliyyəti Ermənistan qədər onun havadarları da daşıyır. Məhz bu cür qətnamələr Ermənistanı yeni cinayətlərə sövq və təşviq edir, bölgəyə sülhün gəlməsinə ciddi mane olur.

Burada haqlı olaraq bir neçə sual yaranır. Ermənistan Azərbaycan torpaqlarını işğal edəndə, günahsız insanları qətlə yetirəndə, burada vandalizm aktları törədəndə Avropa Parlamenti harada idi? Gəncə şəhəri, Tərtər və digər rayonlarımız ermənilər tərəfindən bombalananda, günahsız insanlar həlak olanda harada idilər?

Bəs torpaqlarımız işğaldan azad olunandan sonra məscidlərimizin dağıdılması, qəbirlərimizin göreşən kimi eşilməsi, ərazilərimizin minalanması ilə bağlı Avropa Parlamenti niyə qətnamə qəbul etmədi? Bütün qeyd olunanlar bu qətnamənin ədalətsiz və qərəzli olduğunu bir daha göstərir.

Əgər bu qətnaməni qəbul edənlər düşünürlərsə ki, bu cür addımlarla Azərbaycanın yaratdığı yeni reallığı dəyişə biləcəklər, Azərbaycanın mövqeyinə təsir edə biləcəklər, yanılırlar. Azərbaycan Prezident İlham Əliyevin həyata keçirdiyi prinsipial və qətiyyətli siyasət nəticəsində sona kimi öz haqlı mövqeyini müdafiə edəcək.

**Musa Quliyev.** Vaxtın darlığını nəzərə alaraq, fikirlərimi tezislər şəklində diqqətinizə çatdırmaq istəyirəm:

1. Qarabağda sentyabrın 19-da başlayan və 23 saat ərzində uğurla başa çatan lokal antiterror tədbirləri suverenliyimizin bərpası hadisəsi və dünyada terrorizmin ləğv edilməsində İlham Əliyev dərsləri kimi tarixdə qalacaqdır.

2. Dünən Avropa Parlamenti Azərbaycana qarşı ədalətsiz,

qərəzli, beynəlxalq hüquqa zidd qətnamə qəbul etmişdir.

Dünən biz, Gəncədən olan millət vəkilləri Gəncədə mülki əhaliyə qarşı 2020-ci ildə ermənilər tərəfindən törədilən raket terrorunun 3-cü ildönümündə terror qurbanlarını yad etdik, seçicilərimizlə görüşdük.

Əcəba, Gəncəyə, Tərtərə, Bərdəyə mülki insanların üzərinə raket atan və bomba yağdıran Qarabağdakı terrorçu ermənilərin cinayətlərinə Avropa Parlamenti niyə münasibət bildirmədi, susmaqda davam etdi?

Qarabağda uzun illər mövcud olan cinayət yuvası dağıdılandan sonra və qətliamda əli olan cinayətkarların tutulub ədalət məhkəməsinə təhvil verilən zaman Avropa İttifaqının narahatlığı nədən qaynaqlanır?

Niyə müstəmləkəçi Fransa Qafqazda sülhə qarşıdır?

Yeri gəlmişkən, Gəncədə görüşdüyümüz şəhid ailələrinin istəyi budur ki, raket terrorunun baiskarı, uşaq qatili, cinayətkar Araik Arutyunyanın və digərlərinin məhkəməsində terror qurbanlarının ailə üzvlərinin iştirakı təmin edilsin.

3. Avropa Parlamentində səslənən bəyanatların və qəbul olunan qətnamənin Azərbaycan üçün heç bir hüquqi və siyasi əhəmiyyəti yoxdur və əhəmiyyətsiz bir kağız parçasıdır. Eyni zamanda, Azərbaycan sülh prosesinin tərəfdarıdır və bu danışıqlar daha ədalətli və tərəfsiz bir platformada baş tutacaqdır.

4. Azərbaycanın ərazi bütövlüyünü 86,6 min kvadrat kilometr olaraq tanıdıqlarını bəyan edən Avropadan soruşmaq istəyirəm, niyə torpaqlarımızın 20 faizinin işğal altında olduğu 30 il müddətində bir dəfə də olsun 86,6 rəqəmini dilinizə gətirmədiniz? Yoxsa hesabı, coğrafiyanı və tarixi də 44 günlük müharibədən sonra öyrəndiniz? Bəli, sizə bu dərsləri Ali Baş Komandan və müzəffər Silahlı

Qüvvələrimiz keçdi. İnşallah, siyasət və diplomatiya dərslərini də cənab Prezident sizlərə öyrədəcəkdir.

5. Ermənistanda və bəzi Qərb dairələrində Qarabağdan köçüb getmiş ermənilər barədə səsləndirilən "qaçqın" və "etnik təmizləmə" terminlərinin hüquqi və siyasi əsası yoxdur. Əvvəla, o şəxslər tərk etdikləri ölkənin vətəndaşları deyillər, əksəriyyəti isə işğal dövründə Ermənistan, Suriya, Livan və başqa ölkələrdən köçürülüb Azərbaycan torpaqlarında qeyri-qanuni yerləşdirilənlərdir.

İkincisi isə, o şəxsləri heç kəs zorla qovmayıb, özləri könüllü şəkildə ərazini tərk ediblər. Əsl etnik təmizləmə isə ötən əsrin sonlarında Ermənistan SSR-də və Qarabağda Azərbaycan xalqına qarşı törədilmişdir.

6. İşğala qədər Qarabağda yaşamış erməni əsilli şəxslərin və onların törəmələrinin geri dönüşü yalnız Ermənistan SSR-dən qovulmuş etnik azərbaycanlılara eyni münasibət və paritet gözlənilməklə müzakirə edilməlidir.

Son olaraq, bir daha suverenliyimizi təmin edən və bölgədə yeni tarixi reallıqlar yaradan cənab Ali Baş Komandan başda olmaqla, antiterror tədbirlərini yüksək peşəkarlıqla və uğurla həyata keçirən DİN və DTX əməkdaşlarına seçicilərimizin minnətdarlığını çatdırmaq istəyirik.

**Soltan Məmmədov.** Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi qətnamə bu qurumun uzun müddətdir ki, bizim ölkəmizə qarşı nümayiş etdirdiyi qərəzli mövqenin daha bir göstəricisidir. Təəssüf ki, Avropa Parlamenti dəfələrcə heç bir fakta əsaslanmayan, iftiralarla dolu sənədlər qəbul edib.

Əlbəttə ki, biz Avropa Parlamentində erməni diasporu və lobbisinin təsiri altında olan, Azərbaycanı sevməyən siyasi dairələrin mövcudluğundan xəbərdarıq. Lakin düşünürəm ki, avropalı həmkarlarımız Azərbaycanın Avropa-

nın enerji təhlükəsizliyinə verdiyi töhfələri, eləcə də Cənubi Qafqazda təhlükəsizliyin və sabitliyin təmin olunmasında rolunu düzgün qiymətləndirməlidirlər. Belə qərəzli sənədlərin qəbul edilməsi regional təhlükəsizliyə töhfə vermir, əksinə, əlavə gərginlik mənbəyi yaradır.

Azərbaycan dünya birliyinin bərabərhüquqlu üzvü kimi öz öhdəliklərini və hüquqlarını düzgün qiymətləndirən ölkələrdən biridir. Beynəlxalq hüquqa əsaslanaraq ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Bu bizim ölkəmizin milli təhlükəsizlik maraqları ilə bağlı olan prioritetlərdir. İstənilən ölkəyə öz suverenliyini və ərazi bütövlüyünü qorumağa görə təzyiq etmək yolverilməzdir. Bu cür addımlar beynəlxalq hüququn fundamental prinsiplərinə, Avropanın da bölüşdüyü və təşviq etdiyi bəşəri dəyərlərə ziddir. Bu baxımdan, Avropa Parlamentinin qəbul etdiyi qətnamə tamamilə siyasi konyunktura mahiyyəti daşıyır.

Təəssüf ki, son dövrlərdə biz Avropa ölkələrinin bir çoxunun Cənubi Qafqazdakı proseslərə ikili standartlar prizmasından yanaşdığını müşahidə edirik. Bu xüsusda Fransanın Azərbaycana qarşı atdığı qərəzli addımları, hökumət və parlament səviyyəsində bizim ölkəmizlə bağlı qəbul etdiyi yanlış qərarları qeyd etmək istərdim. Milli Assambleyada Fransa-Azərbaycan dostluq qrupunun fəaliyyətinin dayandırılması məhz bu siyasətin nəticəsidir. Fransa tərəfindən heç də ikitərəfli münasibətlərin inkişafına xidmət etməyən belə bir addım atıldı. Azərbaycan-Fransa parlamentlərarası işçi qrupu da yaranmış situasiyanı nəzərə alaraq, qarşı tərəfdən müvafiq addımlar atılanadək öz fəaliyyətini müvəqqəti olaraq dayandırdı.

Hesab edirik ki, Milli Məclisdə bu gün müzakirə olunan bəyanat layihəsi Avropa Parlamentinin qəbul etdiyi qətnaməyə dair mövqeyimizi kifayət qədər adekvat əks

etdirir. Avropa ölkələri, nəhayət ki, regionda baş verən geosiyasi dəyişiklikləri nəzərə almalı, beynəlxalq hüquqa əsaslanan ədalətli siyasət yürütməlidir. Avropa Azərbaycanla təzyiq dili ilə danışmağın səmərəsiz olduğunu, nəhayət ki, anlamalıdır.

**Sevil Mikayılova.** Avropa Parlamenti Azərbaycana qarşı çevrilmiş ənənəsinə sadiq qalaraq oktyabrın 5-də rəsmi qətnamə qəbul edib. Bu dəfə avropalı parlamentarilər daha irəli gedərək hökumətlərdən Azərbaycana qarşı sanksiyaların həyata keçirilməsini istəyiblər.

Erməni lobbisinin dirijorluğu ilə qəbul olunmuş qətnamə Avropa Parlamentinin də mövcud reallıqlardan nə qədər uzaq olduğunu göstərir. Bu qətnamə ilə Avropa Parlamenti növbəti dəfə erməni lobbisinin əlində oyuncağa çevrildiyini bəyan edir. Qərəzli və uydurma qətnamənin təşəbbüskarları korrupsiyaya qurşanmış, ermənipərəst Avropa parlamentariləridir. Erməni lobbisi tərəfindən çirkli pullar hesabına maliyyələşən Avropa parlamentariləri öz şəxsi maraqlarını beynəlxalq hüquq və qanunlardan üstün tuturlar.

Ermənistan Azərbaycanın ərazi bütövlüyünü rəsmi tanıdıqdan sonra tərəflər sülh müqaviləsinin imzalanması istiqamətində irəliləməkdədir. Bu prosesi pozmaq, öz məkrli siyasətlərinə nə yolla olur-olsun nail olmaq üçün bütün mümkün çirkin yollara əl atan Avropa Parlamenti erməni aləti ilə Azərbaycana təzyiq göstərmək yolunu tutub.

Avropa Parlamentinin bu qətnaməsi, əslində, Azərbaycanla Ermənistan arasında yekun sülh sazişinin imzalanması prosesində Avropa İttifaqının vasitəçilik cəhdlərinə və ümumiyyətlə, həmin missiyaya vurulan ən ağır zərbələrdən biridir. Avropa dəyərlərinin aşındığını bariz şəkildə göstərən Avropa Parlamenti, təəssüf ki, çoxluqda siyasi

dairələrin lobbi fəaliyyətini həyata keçirən orqana çevrilib. Artıq demokratiya, bərabər hüquqlar, ədalət kimi prinsiplər Avropa Parlamentinin gündəliyini tərk etməkdədir.

Yeva Kalinin timsalında baş vermiş korrupsiya qalmaqalları, Azərbaycana qarşı dialoq əvəzinə siyasi təxribatlar, parlamentdaxili çirkli siyasi manevrlər yer almaqdadır. Belə bir şəraitdə qəbul edilmiş anti-Azərbaycan sənədi boş söz yığınından ibarət kağız parçasıdır.

Eyni zamanda, bu kağız parçasının Avropanın özünə qarşı yönəlmiş addım olduğunu bu siyasi avantüraya getməyən avropalı həmkarlarımız da aydın dərk edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən, güclü, sağlam insan kapitalına malik olan ölkəmiz məhz bu sağlam qüvvələrin gələcəkdə Avropa məkanında layiqincə təmsil olunmasına ümid edir.

## ***12 oktyabr 2023-cü il***

**Afət Həsənova.** Biz böyük bir günün, xalqımızın çoxəsrlik tarixində və taleyində müstəsna yeri olan 15 oktyabrın ərəfəsindəyik. 20 il əvvəl bu gündə cənab İlham Əliyev ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Bununla Ulu Öndər Heydər Əliyevin müdrik seçiminə yekdilliklə dəstək verən xalqımızın həyatında yeni dönəm başlamışdır.

Ötən 20 ildə Azərbaycanın qazandığı mühüm uğur və qələbələr barədə günlərcə danışmaq olar. Ölkə həyatının ictimai-siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində əldə edilən nailiyyətlərin miqyası və sayı olduqca böyükdür. Mən onların yalnız biri – 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfər barədə fikirlərimi çatdırmaq istərdim. Zənnimcə, həmin tarixi gün-

lərdə baş verənlər 2003-cü ildən sonra əldə edilən bütün uğurların məntiqi nəticəsidir.

Torpaqlarımızın Ermənistanın işğalı altında qaldığı 30 il ərzində biz xalq və fərd olaraq çox ağır məhrumiyyətlərlə, məğlubiyyət acısı ilə dolu günlər yaşadıq. Doğrudur, xalqımız heç vaxt ruhdan düşmür, sarsılmaz inam bəslədiyi liderinin torpaqlarımızı işğaldan qurtaracağı günü gözləyirdi. Azərbaycan Ordusunun 2016-cı ilin aprelində qısamüddətli hərbi əməliyyatlarla bir sıra strateji məntəqələri Ermənistanın silahlı birləşmələrindən təmizləməsi bu inamı daha da artırmışdı. Azərbaycan Prezidentinin siyasi iradəsini və qətiyyətini, əsgər və zabitlərimizin döyüş əzmini, peşəkarlığını görən düşmən və havadarları ilk dəfə məhz həmin vaxt ciddi təlaşa düşdü.

Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər isə Prezident İlham Əliyevin qalib lider, müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixində əbədi imzası oldu. 7-dən 70-ə hər kəs bunu belə qəbul edir. Çünki torpaq, vətən itkisindən daha ağır, dəhşətli və üzücü bir dərd ola bilməz. Biz müharibənin davam etdiyi günlərdə uzun illər bu dərdlə yaşamış bir xalqın öz yaralarına məlhəm olacaq qələbəni necə səbirsizliklə gözlədiyinin canlı şahidləri olduq.

Xalqımız öz lideri ətrafında yumruq kimi birləşərək "hər şey qələbə üçündür" dedi və vətəni azad etmək kimi müqəddəs arzusunu gerçəyə çevirə bildi. Möhtərəm Prezidentin illərlə apardığı uğurlu siyasətin, ardıcıl hərbi-diplomatik səylərin nəticəsi olan bu qələbə xalqımızın qürurunu, gələcəyə olan inamını özünə qaytardı.

O 44 günün həyəcanı qəlblərdə daim yaşayacaq. Möhtərəm Prezidentimizin şəhər və kəndlərimizin işğaldan azad olunduğu barədə müjdəsini ekranların qarşısında hamı səbirsizliklə gözləyir, hər bir xoş xəbəri sonsuz fərəh

hissi, sevinc göz yaşları ilə qarşılayırdı. Dövlət başçımızın müharibə günlərində xarici mediaya verdiyi 30-a yaxın müsahibənin doğurduğu sonsuz qürur hissini isə sözlə ifadə etmək çətindir. Məhz bu müsahibələr və gündəlik siyasi-diplomatik səylər bir çox qüvvələrin Azərbaycana qarşı ikinci cəbhə açmaq niyyətlərini gözündə qoydu. Böyük Zəfər xalqımızın ruh yüksəkliyi və həmrəyliyi ilə yanaşı, həm də cənab İlham Əliyevin hər cür xarici təzyiq və təsirləri məharətlə neytrallaşdırmağı, ərazi bütövlüyünü təmin etməkdə qərarlı olması ilə bağlı idi. Bu inamla mübarizə aparan Azərbaycan haqlı və ədalətli mövqeyini dünya güclərinə qəbul etdirməyi bacardı.

Həmin tarixi günlərdə bütün dünya azərbaycanlıları "dəmir yumruğ"a çevrilərək Azərbaycan Ordusunun zəfər yürüşünə dəstək oldular. Bu yenilməz həmrəyliyin və birliyin dünyanın müxtəlif coğrafiyalarında nümayiş etdirdiyi əzmkarlıq, yetkinlik qürurverici idi. Bu birliyin, gücün də əsas ilhamvericisi vahid siyasi lider, onun başlatdığı xilaskarlıq missiyası idi. İlham Əliyev Azərbaycana qazandırdığı böyük qələbə ilə dünya azərbaycanlılarının lideri olduğunu bir daha əməli işi ilə nümayiş etdirdi.

Möhtərəm Prezident 2022-ci il aprel ayının 22-də Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında – Zəfər Qurultayında dediyi kimi: "Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq".

Ancaq möhtərəm Prezidentimizin xilaskarlıq missiyası bununla bitmədi. Bu il sentyabr ayının 19-20-də Qarabağda keçirilən lokal antiterror əməliyyatları ilə Azərbaycan öz dövlət suverenliyini bütünlüklə bərpa etdi, tarixinin yeni böyük qələbəsinə imza atdı və Azərbaycan Respublikasında erməni separatçılığına son qoyuldu. İlham

Əliyevin siyasi səriştə, yüksək idarəçilik qabiliyyəti və qətiyyətlə qələbədən-qələbəyə apardığı Azərbaycan bu uğuru da öz gücü və imkanları hesabına əldə etdi.

Cənab Prezident Ulu Öndərdən əmanət aldığı Azərbaycanı qüdrətli, dünyanın nüfuzlu dövlətinə çevirmək estafetini bu gün də uğurla və məharətlə davam etdirir. Xalqımıza və vətənimizə yeni qələbələr gətirəcək bu şərəfli missiyasında möhtərəm dövlət başçımıza möhkəm cansağlığı, yeni böyük uğurlar arzulayırıq.

**Arzu Nağıyev.** İlham Əliyevin Prezident seçilməsinin 20-ci ildönümüdür. 2003-cü ilin oktyabr ayında həm prezident seçkisi ərəfəsində, həm də seçkilərdən sonra müxtəlif siyasi bloklar yaradan və boykot çağırışı edənlər sonradan cənab İlham Əliyevin Prezident seçilməsini bayram kimi qeyd edirdilər. Çünki onların ideyaları fiaskoya uğradı və başa düşməyə başladılar ki, amalı, məqsədi ölkənin suverenliyi, müstəqilliyi, hər bir Azərbaycan vətəndaşının maddi rifahının yüksək olması cənab İlham Əliyev üçün ən mühüm siyasətdir. Doğrudan da, bu, bir həqiqətdir ki, İlham Əliyev Prezident olaraq qarşıya qoyduğu məsələlərin həlli üçün əlindən gələni əsirgəmir. Bu, bütün sahələrdə görünür.

Prezidentlik dövründə iqtisadi sahədə əldə edilən nailiyyətlərə baxanda bir daha əmin olmaq olar ki, sürətli və davamlı inkişaf dövrünü keçdik, həyata keçirilən qlobal beynəlxalq səviyyəli layihələr çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycan artıq enerji sektorunda təhlükəsizliyə olan təhdidlərin beynəlxalq səviyyədə qarşısının alınmasında iştirak edir. Bu layihələrin həyata keçirilməsi birmənalı şəkildə İlham Əliyevin adı ilə və onun apardığı siyasətlə bağlıdır. Eyni zamanda, onun siyasəti nəticəsində nəqliyyat-logistika, kənd təsərrüfatı, informasiya texnolo-

giyaları, turizmin inkişafı sahəsi də mütərəqqi dövrünü yaşayır.

Hərbi sahə ilə bağlı qeyd etmək lazımdır ki, 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti nəticəsində qələbə əldə edildi, 8 noyabr Zəfəri sayəsində işğalçı Ermənistan təslim olmağa məcbur oldu və iki yüz ilə yaxın zaman kəsiyində torpaq itkiləri və etnik təmizləmələrə son qoyuldu. Bu, həm də separatçı meyilli dünya ermənizminə ciddi bir zərbə oldu. Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri bir daha Azərbaycan Ordusunun nəyə qadir olduğunu dünyaya göstərdi. Təbii ki, bu, İlham Əliyevin illərlə yaratdığı müasir silahlara, texnoloji yeniliklərə malik ordunun, hərbi qüvvələrin, milli kadr potensialının hesabına oldu. Cənab İlham Əliyevin apardığı milli təhlükəsizlik siyasətinə uyğun olaraq, ən yüksək standartlara cavab verən, yüksək texnologiyalı silahlarla təchiz olunmuş hərbi qüvvələrimiz formalaşdırılmış, vətənpərvər gənc nəsil yetişdirilmişdir.

Bundan sonra reinteqrasiyası üçün lazımi tədbirlər həyata keçirilməyə başlanıldı. Paralel olaraq Qarabağda və Şərqi Zəngəzurda qayıdış ilə bağlı bütün layihələr uğurla davam etdirilir.

Müharibədən sonra yaranan həssas təbəqəyə olan diqqət cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa göstərişi və nəzarəti ilə həyata keçirildi və indi də davam etdirilir.

Ən mühüm məsələlərdən biri də Azərbaycanı dünyada tanıdan intellektual məhsulları oldu. Cənab İlham Əliyevin təşəbbüsü və nəzarəti ilə 2013-cü ildə ilk peykimiz kosmosa buraxıldı, Azərbaycan kosmik klubun üzvü oldu və bu gün artıq 3 peykimiz var. Bu gün bu xətt ən prioritet istiqamətlərdən biridir.

Azərbaycan Prezidentinin səyi nəticəsində ölkəmiz dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Etnik mənsubiyyətindən və dini əqidəsindən asılı olmayaraq, hamının hüquq və azadlıqları təmin olunur, mənəvi dəyərləri qorunur.

Dünyada yaşayan azərbaycanlıların bir-biri ilə və Azərbaycanla əlaqələrinin güclənməsinə, diaspor təşkilatlarının işinin gücləndirilməsinə yeni töhfələr verilir.

BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti, Qoşulmama Hərəkatının sədri seçilməsi və sədrlik müddətinin daha bir il uzadılması, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması, Avropa miqyaslı tədbirlərin, nüfuzlu beynəlxalq toplantıların, humanitar forumların Azərbaycanda keçirilməsi aparılan siyasətin bariz nümunəsidir.

Azərbaycan dilinin, ənənələrinin və mədəniyyətinin qorunub saxlaması istiqamətində də Prezident çox ciddi siyasət həyata keçirir və bu da öz nəticəsini verir. Türk dünyası ilə birgə olmaq, bir əqidə və məslək ətrafında birləşmək, tarixi torpaqlarımızı daima gündəmdə saxlamaq çox mühüm nailiyyətlərimizdəndir.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin razılığı və iştirakı olmadan Cənubi Qafqazda, hətta beynəlxalq səviyyədə nəhəng layihələrin həyata keçirilməsi mümkün deyil. Şərəf hissi ilə qeyd etmək vacibdir ki, Azərbaycan xalqı öz Prezidenti ilə qürur hissi keçirir və aparılan daxili və xarici siyasətin həyata keçirilməsində onunla bir yerdədir.

Cənab Prezident İlham Əliyevə bütün işlərində uğurlar diləyir və çətin, şərəfli fəaliyyətində can sağlığı və yeni nailiyyətlər arzulayırıq.

**Cavid Osmanov.** 2003-cü ilin 15 oktyabr günü

müstəqil Azərbaycanın tarixində yeni mərhələnin başlanğıcı hesab edilir. Xalqın mütləq əksəriyyətinin səsini qazanaraq ölkə Prezidenti seçilən cənab İlham Əliyev həmin vaxt “Mən hər bir azərbaycanlının prezidenti olacağam” demişdi. Həqiqətən də, xalq qarşısında deyilən bu sözlər zamanla öz təsdiqini tapdı. 2003-cü il oktyabrın 15-də keçirilən Prezident seçkilərində xalq cənab İlham Əliyevə səs verməklə Ulu Öndər Heydər Əliyev siyasətinin alternativsizliyini təsdiqlədi. Seçkilərdən 14 gün əvvəl öz namizədliyini cənab İlham Əliyevin xeyrinə geri götürərkən xalqa müraciətində Ulu Öndər Heydər Əliyev cənab İlham Əliyevi şəxsiyyət və siyasətçi olaraq xarakterizə etməklə onun portretini yaratmışdı. Məhz bu səbəbdən də xalqımız seçimində tərəddüd etmədi və Ulu Öndərin layiqli davamçısına səs verdi. Bu siyasi kursa sadiqliyini nümayiş etdirən xalqımız Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi.

Cənab İlham Əliyev Prezidentliyinin ilk ilindən etibarən dayanıqlı inkişaf üçün əsaslı addımlar ataraq müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsi, vətəndaş həmrəyliyinin bərqərar olması naminə mühüm işlər görmüşdür. Cənab Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində Azərbaycanın müttəfiqlərinin və dostlarının sayı artdı.

Cənab Prezident İlham Əliyevin irəli sürdüyü regional və beynəlxalq əhəmiyyətli enerji layihələri uğurla reallaşdırılmış, bütün bunların nəticəsində isə Azərbaycan dünyada möhkəm əsaslı nüfuz sahibinə çevrilməyi bacarmışdır. Bununla da dünyada enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın artan rolu ölkəmizin beynəl-

xalq münasibətlər sistemində müstəqil aktor kimi statusunu təsbit etmişdir.

Prezident seçildiyi ilk gündən dövlət başçısının apardığı sosial siyasətin mərkəzində insan amili, Azərbaycan vətəndaşı dayanır. Ölkə iqtisadiyyatının inkişafı və insanların sosial rifah halının yüksəldilməsi istiqamətində atılan ardıcıl və effektiv addımlar bunu bir daha təsdiqləyir. Prezident İlham Əliyevin sosial dövlət fəlsəfəsinin əsasında hər bir vətəndaşın layiqli həyat şəraitinin təmin edilməsi prinsipi durur. Azərbaycanda sürətli inkişaf, təbii olaraq, dövlət quruculuğunun bütün sahələrinə, o cümlədən sosial sahəyə ciddi sirayət edib və bir çox sosial proqram və layihələrdə real əksini tapıb. Ölkəmizin iqtisadi qüdrətinin artması vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə zəmin yaradıb.

Prezident İlham Əliyevin siyasi portretini formalaşdıran ən mühüm cizgilərdən biri ölkənin bütün bölgələrinin tərəqqisinə səbəb olan regionların sosial-iqtisadi inkişafı konsepsiyasıdır. Prezident seçildikdən sonra Azərbaycanın bütün bölgələrinin inkişafını strateji məqsəd kimi müəyyənləşdirən dövlət başçısı bu istiqamətdə mühüm uğurlara nail olunmasını təmin edib. Regionların sosial-iqtisadi inkişafı ölkəmizdə yeniləşmə, davamlı inkişaf, sosial-iqtisadi tarazlıq, modern islahatlar və digər sistemli hədəflərin reallaşmasında mühüm rola malikdir.

Ölkədə həyata keçirilən uğurlu və nadir daxili, xarici siyasət, davamlı olaraq reallaşdırılan islahatlar müstəqil Azərbaycan dövlətinin inkişafını təmin edir ki, bu da xalq–iqtidar birliyinin möhkəmlənməsinə zəmin yaradır. Nəticədə yetişən gənc nəslin öz Prezidentinin ətrafında onun sədri olduğu Yeni Azərbaycan Partiyasının sıralarında

mütəşəkkil formada birləşməsinə gətirib çıxarır. Azərbaycan siyasi sisteminin əsas sütunu olan Yeni Azərbaycan Partiyası davamlı olaraq xalqın etimadını doğruldur və bu istiqamətdə gələcək potensialı gündən-günə daha da artır.

Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasətin əsas məqsədlərindən biri ölkənin 30 ilə yaxın müddətdə pozulmuş ərazi bütövlüyünün bərpasına nail olmaq idi. Ən ali məqsədlərdən olan ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına 2020-ci ilin 27 sentyabrında başlanan və cəmi 44 gün davam edən Vətən müharibəsində əldə edilən möhtəşəm Zəfərlə nail olduq. Cari il sentyabrın 19-da isə antiterror tədbirlərinin nəticəsində müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tarixi ədaləti bərpa edərək ölkəmizin suverenliyini təmin etdi. Effektiv siyasət, xalqın dəstəyi və tarixi ədalət Azərbaycanı qalib ölkəyə çevirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin indi böyük dövlət xadimi və Azərbaycan xalqının lideri kimi əsas missiyası dövlətin və xalqın gücü ilə düşmənin viran qoyduğu işğaldan azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılmasıdır. Bu qayıdış Böyük Qayıdış olmaqla təkcə azərbaycanlıların Qarabağa, Şərqi Zəngəzura deyil, vaxtı ilə deportasiya edildikləri bütün tarixi torpaqlarına qayıdışını əhatə edəcəkdir. İndi müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin böyük uzaqgörənliklə qurduğu strategiya Azərbaycan dövlətini daha qüdrətli, Azərbaycan xalqını daha güclü, Azərbaycan Bayrağını daha uca etməyə hədəflənib. Xalqımz bu hədəflərinə də məhz müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə yaxın illər ərzində nail olacaqdır.

**Elnur Allahverdiyev.** 3 gün sonra, 2003-cü il oktyabrın 15-də ölkəmizdə keçirilmiş sayca beşinci prezident seçkilərindən 20 il ötəcək. Bu gün dövlətimiz və xalqımız üçün sıradan bir tarix deyil. Həmin gün cənab Prezident İlham Əliyev xalqımızın böyük əksəriyyətinin səsini qazanaraq ilk dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilib. 2003-cü il oktyabrın 15-də yaşadığımız tarixi qələbəmizin, ərazi bütövlüyümüzün və sərhədlərimiz üzərində suverenliyimizin bərpasına doğru mühüm addım atılıb. Hazırda yaşadığımız tarixi dövr Azərbaycan xalqının müdrikliyinin, uzaqgörənliyinin isbat edildiyi tarixi mərhələdir. Çünki düz 20 il öncə Azərbaycan xalqı cənab Prezidentə inanıb etimad göstərmişdi, bugünkü proseslər isə dövlət başçısının bu etimadı doğrultduğunun sübutudur.

Cənab Prezidentin bu tarixi qələbəyə olan inamı ilk gündən xalqımıza da siraət edib və biz dəmir iradə ilə Zəfər gününə doğru irəliləmişik. Bu hərbi zəfər və diplomatik qələbənin nüvəsini isə dövlət başçısının rəhbərliyi ilə gündən-günə inkişaf edən iqtisadiyyatımız təşkil edib. Son 20 ildə iqtisadi tərəqqimizin nümayiş etdirdiyi nəticələr göz önündədir. Bu yüksəlişin inikası müasir dövlətçilik tariximizdə əldə etdiyimiz son iki ilin yüksək büdcə göstəriciləridir. Bu 20 il ərzində ölkəmizdə ÜDM göstəricisində 4 dəfə artım müşahidə olunub. ÜDM-in nominal həcmi 22 dəfə artaraq 133,8 milyard manata çatıb. Əhalinin gəlirləri 13,7 dəfə, strateji valyuta ehtiyatları isə 41 dəfədən çox artaraq 1,6 milyard dollardan 65,9 milyard dollara yüksəlib. Büdcə gəlirlərimiz 30, xarici ticarət dövriyyəmiz 10 dəfədən çox artıb. Cənab Prezident bu günlərdə vurğuladı, xarici borcumuzun həcmini azalda bilmişik və hazırda borcumuz ÜDM-in təxminən 10 faizini

təşkil edir. 2024-cü ilin sonuna qədər isə 7-7,5 faizini təşkil edəcək.

Ötən dövr ərzində ölkəmizə yatırılan sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarını keçib və bu göstəricinin 190 milyardı qeyri-enerji sektorunun payına düşür. Uğurlu iqtisadi və sosial siyasətin nəticəsində yoxsulluq 50 fazidən 5,5 faizə düşüb. Dövlət Neft Fondunda 50 milyard dollar ehtiyatımız var, halbuki bu yola çıxanda fondun hesabında cəmi 270 milyon dollar var idi.

Bütün bunlar Azərbaycan dövlətinin qüdrətinin göstəricisidir ki, biz buna cənab Prezidentin uğurlu islahatları nəticəsində nail ola bilmişik. İqtisadiyyatımız dövlətimizin dünya arenasında söz sahibi olan ölkələrin sırasında təmsil olunmasının başlıca şərti olub. İqtisadi nailiyyətlərimiz hesabına güclü ordu qura bilmişik, dövlət başçısı silahlı qüvvələrimizin müasir ordular səviyyəsinə çatması üçün daim qayğı və diqqət göstərib. Hərbi potensialımızın ən müasir texniki-təchizat vasitələri ilə təminatı Qarabağ və Şərqi Zəngəzurun düşmən tapdağından azad edilməsinin başlıca şərti qismində çıxış edib.

Azərbaycanı qarşıda Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni quruculuq mərhələsi gözləyir. İşğaldan azad edilən ərazilərimizin yenidən qurulub sahiblərinə – soydaşlarımızın ixtiyarına verilməsi qarşımızda duran başlıca hədəfdir. Biz yaşayış məntəqələrimizin hansı zövqlə tikilib, təmir edilib sahiblərinə təhvil verildiyini görürük. Bütün bunlar xalqımızın gələcəyə baxışlarına daha böyük inam əlavə edir. Mən fürsətdən istifadə edərək, xalqımızı qarşımızda olan məqsədə layiqincə çatmaq üçün bu şərəfli yolda cənab Prezidentin ətrafında daha sıx birləşməyə səsləyirəm. Hər birinizi bu tarixi gün münasibəti ilə təbrik edirəm.

**Əliabbas Salahzadə.** 2023-cü il həm ölkəmizin, həm də xalqımızın taleyində mühüm hadisələrlə zəngindir. Dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edildi. Bizim üçün qürurvericidir ki, "Heydər Əliyev İli" çərçivəsində cənab İlham Əliyevin Prezident seçilməsinin 20-ci ildönümünü zəfərimizin yaratdığı yeni reallıqlar fonunda qeyd edirik. Bu gün Qarabağımız, Şərqi Zəngəzurumuz azaddır və dirçəlir. Bu torpaqlarda yeni həyat başlayıb.

Məhz müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən bəhs edərkən 2003-cü il 1 oktyabr tarixində xalqa tarixi müraciəti xüsusi qeyd edilir. Bu müraciət dahi şəxsiyyətin şah əsəri olan müasir müstəqil Azərbaycanın həyatında yeni mərhələnin başlanğıcı, ən əsası möhtəşəm uğurlarımızın davamlılığının təmin edildiyi tarix oldu. Ümummilli Lider Azərbaycan xalqına müraciətində öz namizədliyini siyasi varisi cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirdi və bu inamı ifadə etdi: "Üzümü sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa

çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

2003-cü ilin 15 oktyabrında keçirilən prezident seçkilərində xalq Heydər Əliyev siyasətinə dəstəyini cənab İlham Əliyevə səs verməklə ifadə etdi. 2003-cü ildən başlanan yol böyük yolun davamı oldu. 20 il zaman baxımından o qədər böyük olmasa da, uğurlarla zəngin bir dövrdür. Məhz bu illərdə cənab İlham Əliyev xalqa verdiyi hər bir vədini konkret əməli işi ilə təsdiqləməklə, sözlə əməl birliyini qorumaqla 2008-ci, 2013-cü və 2018-ci il prezident seçkilərində növbəti dəfə qələbəsini təmin etdi. Hər bir vəd Azərbaycanın bu gününə və gələcəyinə hesablanmış mühüm çağırış oldu. Bütün atılan addımların əsasında isə Ümummilli Liderin axıra çatdıra bilmədiyi işlərin, layihələrin sona çatdırılması dayandı. Təbii ki, bu işlər Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, torpaqlarımızın işğaldan azad edilməsi, soydaşlarımızın torpaq həsrətinə son qoyulması idi. Cənab İlham Əliyevin 20 illik prezidentlik dövrünün 17 ili Ulu Öndər Heydər Əliyevin yaratdığı möhkəm təməl üzərində Azərbaycanın bütün sahələrdə davamlı inkişafına, müstəqilliyimizin, suverenliyimizin qarantı olan ordumuzun gücləndirilməsinə, diplomatik mübarizədə qələbəmizin təmin edilməsinə, dünya azərbaycanlılarının birliyinin, həmrəyliyinin daha da möhkəmləndirilməsinə, bir sözlə, torpaqlarımızın işğaldan azad edilməsi üçün hazırlıq işlərinə həsr olundu. Azərbaycan gənclərinin milli ruhda, vətənpərvərlik ruhunda tərbiyəsi qarşıya mühüm vəzifə kimi qoyuldu. Atılan hər bir addım bizi günbəgün Qarabağ münaqişəsinin həllinə aparırdı. Dövlət başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin 20 illik prezidentlik dövrünün hər səhifəsini vərəqlədikdə bu mühüm reallıq özünü aydın

şəkildə büruzə verir ki, hansı vədi verdi, onu da etdi. Dövlətinin, xalqının gələcəyini düşünən lider hər zaman ölkəsini yeni hədəflərə doğru aparır, imzasının imzalar arasında görünməsindən qürur hissi keçirir. Cənab İlham Əliyev dövlətimizə, xalqımıza bu qüruru yaşadır.

Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızın xilaskarı missiyasını şərəflə yerinə yetirdi. Ölkə Prezidenti bütün təzyiqlərə baxmayaraq, qətiyyətli mövqeyindən bir addım belə geri çəkilmədi. 44 gündə 30 ilin işğalına son qoymaq Azərbaycanın gücünün, qüdrətinin, haqlı mövqeyinin dünyaya təqdimatı oldu. Ərazi bütövlüyünü, tarixi ədaləti bərpa edən Azərbaycan yeni reallıqların müəllifinə çevrildi. Rəşadətli ordumuzun müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dünya hərb tarixinə yazdığı səhifə beynəlxalq aləmdə diqqətlə izlənilir. Bu gün ordumuzun potensialı bütün dünyanın gözü önündədir. İnkişaf etmiş bəzi ölkələrin hərbi mütəxəssisləri də bizim təcrübəmizi öyrənirlər. Bu təcrübə kitablarda, tədqiqatlarda əksini tapır. Cənab İlham Əliyev böyük inamla qeyd edir ki, atamın yoluna sadiq qalaraq bu şərəfli missiyanı icra etdik.

Noyabrın 8-də 28 illik həsrətdən sonra Şuşanın rəşadətli ordumuz tərəfindən işğaldan azad edilməsi İkinci Qarabağ müharibəsində Azərbaycanın ən mühüm qələbələrindən biri oldu. Müharibədə asan qələbə olmur. Bu qələbəni 3 minə yaxın şəhidimizin qanı ilə, hərbçilərimizin şücaəti ilə qazandıq. Şuşanın işğaldan azad olunduğu günün Zəfər Günü, İkinci Qarabağ müharibəsinin başlandığı 27 sentyabr tarixinin Anım Günü kimi təsis edilməsi təsadüfi deyil. Xalqımız qələbəyə gedən yolu hər zaman xatırlamalı, bu qələbəni bizə yaşadan şəhidlərimizi heç zaman unutmamalıdır.

Bu zəfərin sərkərdəsi isə Ali Baş Komandan İlham Əliyevdir. Dövlətimizin başçısı İlham Əliyevin qətiyyəti sayəsində xalqımızın nisgilinə son qoyuldu. Azərbaycan tarixinin yeni şərəfli səhifəsi yazıldı. Ali Baş Komandan İlham Əliyev tariximizə Qarabağın və Şərqi Zəngəzurun xilaskarı kimi daxil oldu.

Dövlət başçısı İlham Əliyev yeni dövrün müasir lider obrazını yaratdı. Ölkə Prezidenti postmünaqişə dövrünün hədəflərini açıqlayan zaman işğaldan azad edilmiş ərazilərimizin bərpasını və müdafiə qabiliyyətimizin daha da gücləndirilməsini xüsusi qeyd edir. Azərbaycan Ordusu müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müstəqilliyimizə və suverenliyimizə qarşı hər bir təxribatın qarşısını qətiyyətlə alır. Postmünaqişə dövrünün reallıqları fonunda atılan addımlar, onların uğurlu nəticələri, yeni reallıqların dünya gücləri tərəfindən qəbul olunması dövlət başçısı İlham Əliyevin qətiyyətli mövqeyinin təqdimatıdır. Bu gün qürurla qeyd edirik ki, əgər 3 il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu ilin aprelin 23-də Laçın istiqamətində Azərbaycan–Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurmaqla ərazi bütövlüyümüzü, sentyabrın 20-də isə suverenliyimizi tam bərpa etdik.

Müzəffər Ali Baş Komandan İlham Əliyev ötən il dekabrın 24-də doğum günündə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bu hədəfi də açıqladı ki, biz Qərbi Azərbaycana qayıtmalıyıq. Bu hədəfimiz də tarixi ədalətə əsaslanır. Xalqımız tam əmindir ki, dövlət başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində bu hədəfə də yüksək səviyyədə və zamanında nail olacağıq.

20 ilin uğurlarını bir çıxışda əhatə etmək qeyri-müm-

kündür. 20 ildə əsrə bərabər yol keçən müasir müstəqil Azərbaycan artıq qalibiyyəti ilə dünyanın diqqətindədir. Bugünkü reallıqlarımız bizi bir daha dövlət başçısı İlham Əliyevin: "Bir daha demək istəyirəm, biz istədiyimizə həmişə nail oluruq" fikirlərini səsləndirməyə çağırış edir. Azərbaycan xoşbəxt xalqdır ki, Heydər Əliyev kimi Ümummilli Lideri, cənab İlham Əliyev kimi müzəffər Ali Baş Komandanı var. Qalib Azərbaycan hər zaman zirvələri fəth edəcək.

**Fatma Yıldırım.** Azərbaycan xalqı olaraq mühüm tarixi hadisə ərəfəsindəyik. 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqı ölkəmizdə keçirilən prezident seçkilərində Heydər Əliyev siyasətinin davamına – cənab İlham Əliyevə səs verdi. Həmin il oktyabrın 1-də xalqımıza müraciət edən Ulu Öndər Heydər Əliyev axıra çatdıra bilmədiyi işləri cənab İlham Əliyevin başa çatdıracağına inandığını, vətəndaşları seçkilərdə onu dəstəkləməyə çağırmışdı. Ulu Öndərimizin çağırışına səs verən xalqımız həmin seçkilərdə cənab İlham Əliyevə böyük etimad göstərdi. Seçkilərdə cənab İlham Əliyevə səs verməklə xalqımız Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi.

Ötən 20 il ərzində Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib, bütün sahələr üzrə dinamik inkişaf qeydə alınıb. Eləcə də insanların rifah halı yaxşılaşıb və xalqa verilən vədlər bütünlüklə yerinə yetirilib.

Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, iri-

miqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Mövcud tarixi-siyasi, coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətindən asılı olmayaraq, liderlik fenomeni milli dövlətin formalaşmasında və inkişafında həlledici rola malikdir.

Lider həmçinin mənəvi birliyi təmin edən, cəmiyyətdə müəyyən əhvali-ruhiyyənin, ideya və dəyərlər sisteminin formalaşmasına təsir göstərən mühüm qüvvədir. Cənab İlham Əliyev məhz belə liderdir. Bu keyfiyyətlərin sayəsində ölkəmizdə siyasi sabitlik təmin olunub və gələcək inkişaf üçün zəmin yaradılıb. Demokratik inkişaf yolunda həyata keçirilən sistemli tədbirlərin qanunauyğun nəticəsi kimi Azərbaycanda işlək və təhdidlərə qarşı immuniteti olan siyasi sistem bərqərar olunub. Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi, müdafiə qüdrətini daha da gücləndirib və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaradıb.

Prezident İlham Əliyevin uzaqgörən siyasətinin məqsədi Azərbaycanın hərtərəfli inkişafı, xalqımızın firavan həyatı, ölkənin 30 ilə yaxındır ki, pozulmuş ərazi bütövlüyünün bərpası idi. Buna görə atılan hər bir addım Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi – işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Prezident kimi gərgin əməyinin nəticəsində Azərbaycanı ərazi

bütövlüyünə qovuşdurdu, xalqımızı dünyada mübariz, döyüşkən və qalib xalq kimi tanıtdı. Böyük qələbə uzun illər ərzində davam edən hazırlıq işlərinin, habelə dövlətin qüdrətinin artırılması istiqamətində atılan addımların nəticəsidir. Səmərəli siyasət, xalqın dəstəyi və tarixi ədalət Azərbaycanı qalib ölkəyə çevirdi. Ötən ay isə rəşadətli ordumuz tərəfindən Qarabağda keçirilən 24 saatlıq lokal antiterror tədbirləri nəticəsində ərazilərimiz qanunsuz erməni hərbi birləşmələrindən tamamilə təmizləndi, separatçı rejim özünü buraxdığını elan etdi. Ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması Prezident İlham Əliyevin siyasətinin şah əsəridir, zirvəsidir. Şanlı Zəfər müstəqillik tariximizin ən parlaq səhifəsidir. Bu Zəfərin sayəsində şəhidlərimizin qanı yerdə qalmadı, onların qısası alındı. Azərbaycan dövləti qalib dövlət kimi yaşayır və bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacaq.

İşğaldan azad edilmiş ərazilərimizdə – doğma Qarabağımızda, Şərqi Zəngəzurda hazırda möhtəşəm quruculuq işləri həyata keçirilir. Artıq yüzlərlə keçmiş məcburi köçkün ailəsi qısa müddətdə Böyük Qayıdışın sevincini yaşayır. Biz inanırıq ki, Prezidentimiz İlham Əliyevin və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən işlər nəticəsində bu torpaqlar dünyanın ən gözəl guşələrindən birinə çevriləcək!

Hörmətli həmkarlar, bu gün əminliklə demək olar ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan bundan sonra da böyük zəfərlərə, nailiyyətlərə imza atacaq!

**Hicran Hüseynova.** 20 il bundan əvvəl Ulu Öndər Heydər Əliyev xalqa öz tarixi müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə

İlham Əliyev başa çatdıra biləcək”. 2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə xalq öz səsini Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına verdi. Azərbaycan xalqı sülhün, tərəqqinin, inkişafın, sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. Prezident, Ali Baş Komandan İlham Əliyev yalnız Ümummilli Liderimizin deyil, hər bir azərbaycanlının ümidlərini doğrultdu. O zamandan 20 il ötür. Bu gün Azərbaycan Respublikası özünün ən şərəfli, məsuliyyətli və tarixi dövrünü yaşayır. Sürətlə dəyişən və mürəkkəb geosiyasi proseslər fonunda Azərbaycan müstəqil, suveren dövlət olaraq davamlı inkişaf edir. Təkcə regionda deyil, dünyada beynəlxalq nüfuzu artır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 44 günlük Vətən müharibəsində zəfər çalaraq 30 il həsrətində olduğumuz torpaqlarımızı erməni işğalından azad etdi, ərazi bütövlüyümüz bərpa edildi. Bu gün hər birimiz bu tarixi qələbəyə görə müzəffər Ali Baş Komandana və ordumuza minnətdarıq!

Bir məsələni də unutmaq olmaz ki, keçən dövr elə də asan olmayıb. Azərbaycanı hər zaman daxildən parçalamaq, onu inkişafdan geri salmaq, ən əsası isə Qarabağın işğalı ilə barışmağa məcbur etmək kimi çətinliklərə və təhlükələrə baxmayaraq, Prezident İlham Əliyev bütün bu problemləri həll etməyi bacardı. Bu isə böyük siyasi məharət, iradə, qətiyyət tələb edirdi. Azərbaycan bu illər ərzində özünü müstəqil dövlət kimi təsdiq edə bildi. İldən-ilə biz dövlət başçısının həm daxili, həm də xarici siyasətində əldə etdiyi nailiyyətləri görürük. Bunu həm də dünya görür. Baxmayaraq ki, Azərbaycan kiçik bir ölkədir, lakin Prezident İlham Əliyevin siyasi müdrikliyi nəti-

cəsində hazırda bütün maraqların kəsişdiyi coğrafi məkana çevrilir. Bu gün əksər regional və ya beynəlxalq layihələr Azərbaycanın iştirakı olmadan reallaşmır. Azərbaycanın rəhbəri Cənubi Qafqazda yeni siyasi və iqtisadi vəziyyət yarada bildi və bu, dünya dövlətləri tərəfindən də qəbul edilir.

Ötən 20 ildə dövlət başçımızın müəllifi olduğu və həyata keçirdiyi davamlı inkişaf konsepsiyası dövlətimizin və xalqımızın tərəqqisinə, onun parlaq gələcəyinə hesablanmışdır. Azərbaycan iqtisadi, siyasi, mədəni, sosial, hərbi, idman və digər sahələrdə dayanmadan inkişaf edir. Ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində də mühüm uğurlar əldə edilmişdir. Bu istiqamətdə güclü qanunvericilik bazası formalaşmışdır. Aztəminatlı və həssas qrupdan olan ailələrə xüsusi diqqət yetirilir. Bu gün qadınların öz potensiallarını reallaşdırmaları və sosial-iqtisadi həyatda fəal iştirak etmələri üçün bütün imkanlar yaradılmışdır. Ölkəmizdə uşaqların fiziki və mənəvi inkişafına, onların təhsilinə gündən-günə dövlət qayğısı artır. Dövlət başçısının sərəncam və fərmanları ilə qəbul edilmiş xüsusi dövlət proqramları və qanunvericilik aktlarının qəbul edilməsi, vahid siyasətin həyata keçirilməsi üçün müvafiq dövlət qurumunun yaradılması qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində çox vacib addım idi.

Prezident cənab İlham Əliyevin və respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın hər bir vətəndaşla – ağsaqqal, ağbirçək, orta nəslin nümayəndəsi, gənclər, uşaqlarla səmimi ünsiyyəti hər bir dövlət məmuruna gözəl nümunədir. Xüsusi ilə qeyd etmək lazımdır ki, Mehriban xanım Əliyevanın ölkənin birinci xanımı kimi fəaliyyəti ölkəmizin inkişafında, onun dünyada təbliğ olunması və

tanınmasında, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında danılmaz rol oynayır. Birinci vitse-prezidentlik institutunun təsis olunması dövlət idarəçilik sisteminin təkmilləşdirilməsinə xidmət edən mühüm addım oldu.

O, Cənubi Qafqazda dünya dövlətləri tərəfindən qəbul edilən yeni siyasi və iqtisadi vəziyyət yaratdı. Prezidentimizin "sözümüz imzamız qədər keçərlidir" postulatı bu gün və gələcək üçün vacib amildir. Biz görürük ki, bu gün Azərbaycana nə qədər təzyiq göstərirlər. Diplomatik və siyasi təsirlərə baxmayaraq, öz prinsipial mövqeyindən dönməyən dövlət başçımız bu gün bu qətiyyəti, siyasi iradəni Qarabağın, Şərqi Zəngəzurun, bütövlükdə, Azərbaycanın inkişafı üçün, daha güclü və sabit dövlət olması üçün, vətəndaşının rifah halının daha da yaxşılaşdırılması üçün göstərir. Biz ona bu şərəfli və taleyüklü missiyanın yerinə yetirilməsində uğurlar arzulayırıq!

**İltizam Yusifov.** Azərbaycan dövləti 20 ildir, Ulu Öndər Heydər Əliyevin layıqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə öz siyasi kursunu və iqtisadi inkişafını davam etdirir. Bu gün hər bir Azərbaycan vətəndaşı hansı sahədə çalışmağından asılı olmayaraq, çox böyük fəxarətlə cənab İlham Əliyevin ötən bu müddətdə dünya azərbaycanlılarının Prezidenti olmağının şahidi oldu. Bütün xalqımız öz Prezidentinə inanır və bir yumruq kimi bu gün onun ətrafında birləşib.

Prezident İlham Əliyevin prezidentliyi dövründə milli iqtisadiyyatımızda istehsal və ixrac imkanlarının genişləndirilməsini hədəfləyən çoxsaylı fərman və sərəncamlar imzalanıb. Bu, ölkədə yüksək rəqabət qabiliyyətinə malik liberal iqtisadiyyatın formalaşmasına, şəffaflığın təmin

olunmasına, biznes mühitinin optimallaşmasına, büdcə daxilolmalarının artmasına zəmin yaratdı. Bu dövrdə strateji yol xəritələrinin yaradılması milli iqtisadiyyatımızın mühüm istiqamətlərini dirçəltdi.

2004-cü ildən başlayaraq dünyada ÜDM istehsalının artımında ən yaxşı göstəricilərdən biri məhz Azərbaycanda qeydə alınıb. Son 20 ildə ölkədə ümumi daxili məhsul istehsalı bir neçə dəfə, büdcə gəlirlərimiz və xarici ticarət dövriyyəsi on dəfələrcə artıb. Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində son 20 ildə respublikamızda müxtəlif sahələrə yönəldilən sərmayələrin ümumi həcmi bir neçə 100 milyard ABŞ dollarından çox olub. Bu sərmayələrin yarıdan çoxu qeyri-neft sektoruna yönəldilib.

Milli iqtisadiyyatımızın inkişafı istiqamətində atılan ən mühüm addımlardan biri də nəhəng enerji layihələrinin həyata keçməsidir. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış edir. Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici rolunu yüksəltdi. Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı ölkəmizə Şərq və Qərbi birləşdirən strateji layihələrin həyata keçdiyi bir ölkə statusunu qazandırdı.

Asiyanı Avropa ilə birləşdirəcək Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin, Azərbaycan neftini birbaşa dünya bazarına çıxaran Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilməsi kimi nəhəng layihələr cənab Prezidentin tarixi iqtisadi uğurları sırasına daxildir.

Ayrı-ayrı ölkələrin beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətə düşdüyü bir dönəmdə Azərbaycan hətta

pandemiya dövründə milli iqtisadiyyatın qorunması, iş yerlərinin saxlanılması, əhalinin sağlamlığının və sosial müdafiəsinin təmin olunması istiqamətində böyük maliyyətutumlu layihələr reallaşdırdı. Hətta ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatına, 60-dək ölkəyə yardımlar göndərdi.

Cənab İlham Əliyevin 20 illik prezidentlik dövründə həyata keçirilən çoxsaylı sosial layihələr, iqtisadiyyatın və qeyri-neft sektorunun yüksək sürətlə inkişaf etdirilməsi, geosiyasi proseslərdə öz qəti mövqeyini ortaya qoyması nəticəsində ölkəmiz iqtisadi və siyasi baxımdan regional mərkəzə çevrildi. Dünyanın ən nəhəng enerji, nəqliyyat layihələrindən bir neçəsinin müəllifi olan Azərbaycan bu gün dünya dövlətlərinin ən etibarlı tərəfdaşına çevrilib. Dövlətimizin başçısı ötən illər ərzində təbii sərvətlərimizdən əldə olunan gəlirlərin düzgün idarəçiliyini təmin etməklə Azərbaycan dövlətini qüdrətləndirdi, xalqımızın rifah halını yüksəltdi.

Müzəffər Ali Baş Komandan xalqımıza Qarabağ Zəfərini qazandırdı. Bu gün bütün dünya azərbaycanlıları Prezident İlham Əliyevi yenilməz lider kimi qəbul edir, ona tükənməz ehtiram bəsləyirlər. Qarabağ Zəfəri Azərbaycan Prezidentinin fəaliyyətində ən mühüm yer tutur. O, şanlı qələbəni Azərbaycan tarixinə qızıl hərflərlə yazmış bir sərkərdədir. Prezident İlham Əliyev Qarabağın hər yerində Azərbaycan bayraqlarını ucaltdı, tarixi ədaləti bərpa etdi, sınmış qürurumuzu özümüzə qaytardı. Biz bu gün fəxrlə və qürur hissi ilə deyirik ki, suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa olundu. Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi"ni məhz bu müqavilənin imzalandığı gündə – 20 sentyabrda əsrin qələbəsinə çevirdi.

Vətən müharibəsindən sonra ölkəmiz işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq-bərpa işlərinə start verdi. Müharibə başa çatandan bəri qeyd olunan işlərə böyük vəsait yatırılıb. Azərbaycan bu vəsaitləri daxili imkanlar hesabına təmin edir.

Bu gün dördüncü sənaye inqilabına transformasiya Azərbaycanın qarşısına yeni çağırışlar qoyub. Burada dövlətin siyasi iradəsi, insan kapitalı, zəruri fiziki və institusional infrastrukturun qurulması ciddi əhəmiyyət kəsb edir. Ölkəmizdə dördüncü sənaye inqilabına transformasiyanı şərtləndirən əlverişli mühit mövcuddur.

Təbii ki, cənab İlham Əliyevin 20 illik hakimiyyəti dövründə görülən işlərdən, həyata keçirilən iqtisadi-sosial layihələrdən, əldə olunan siyasi dividentlər və hərbi uğurlardan saatlarla, günlərlə danışmaq mümkündür. Əsas odur ki, hər bir Azərbaycan vətəndaşı dövlətimizin həyata keçirdiyi müxtəlif səpkili tədbirlərin nəticələrini görür və onun bəhrəsindən faydalanır.

Azərbaycan xalqının ümidlərini, etibarını doğruldan cənab Prezident İlham Əliyevə hər birimizin tükənməz inamımız var. Hesab edirəm ki, biz bir azərbaycanlı, qalib bir millət olaraq cənab Prezidentin rəhbərliyi altında yaxın gələcəkdə yeni-yeni uğurlara imza ataraq dünyanı yaxşı mənada təəccübləndirə biləcəyik.

**Jalə Əhmədova.** 2003-cü ildən etibarən ölkəmizə rəhbərlik edən Prezident İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən, siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi. Cənab Prezident öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq stan-

dartı, milli siyasi etika nümunəsi təqdim etdi.

Azərbaycan Prezidentinin yürütdüyü müdrik və uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, dünyada beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycan Prezidentinin bu məsələdəki birmənalı mövqeyi təsdiqlədi ki, Qarabağın Azərbaycandan ayrılma mexanizmi yoxdur. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019–2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun və qüdrətinin bariz göstəricisidir.

Ölkəyə rəhbərlik etdiyi bu illər ərzində Prezident İlham Əliyevin hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi – işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev Prezident kimi 17 illik gərgin əməyinin nəticəsində Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanıtdı.

Əgər 3 il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il sentyabrın 19-da suverenliyimizi tam bərpa etdik. Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri

silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması və tam şəkildə tərk-silah olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin Azərbaycan ərazilərini tərk etməsi, qeyri-qanuni erməni silahlı dəstələrinin buraxılması, eyni zamanda, paralel şəkildə bütün silah-sursat və ağır texnikanın təhvil verilməsi Azərbaycanın növbəti qələbəsinin təntənəsidir. Müzəffər Ali Baş Komandan, Azərbaycan əsgəri və Azərbaycan xalqı bir daha sübut etdi ki, şəhidlərimizin qanı nahaq yerə tökülmədi.

Azərbaycan xalqı dövlətimizin başçısının fəaliyyətini yüksək dəyərləndirdiyini cənab Prezidentin yanında olması ilə ifadə edir.

Allah xalqımızı, dövlət başçımızı, dövlətimizi və dövlətçiliyimizi qorusun!

**Kamaləddin Qafarov.** Müzakirə etdiyimiz çox əlamətdar hadisə ilə bağlı 20 il bundan əvvəl baş vermiş bir tarixi faktı yada salmaq istərdim. Bildiyimiz kimi, Ulu Öndər Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına ünvanladığı müraciətində öz namizədliyini siyasi varisi İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirərək demişdi: "Üzümü sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu tarixi müraciətdən 14 gün sonra, 2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə seçicilərin

76 faizdən çoxu məhz cənab İlham Əliyevə səs verdi.

Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını daha da artırdı. Çoxvektorlu siyasət yürüdən dövlət başçımız ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər gördü. Nəhəng infrastruktur layihələri həyata keçirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Bu gün artıq birmənalı olaraq demək lazımdır ki, ölkə Prezidenti İlham Əliyev həm Ulu Öndərimizin, həm də Azərbaycan xalqının bütün ümidlərini tamamilə doğruldub.

Möhtərəm Prezidentimiz İlham Əliyevin sona çatdırdığı taleyüklü məsələlərdən danışarkən, ilk növbədə, 30 ilə yaxın müddət ərzində Azərbaycan xalqının ən ümdə arzusu olan ölkənin ərazi bütövlüyünün bərpa edilməsini vurğulamaq lazımdır. Prezident İlham Əliyev xalqın etimadını qazanaraq bu vəzifəyə seçildikdən dərhal sonra Azərbaycanda ordu quruculuğu istiqamətində irimiqyaslı tədbirlərin həyata keçirilməsinə start verildi. Silahlı qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər az müddət sonra Qarabağ münaqişəsinin nikbin sonluğu ilə bağlı artıq heç bir şübhə yeri qoymadı. Digər tərəfdən, Prezident İlham Əliyevin yürütdüyü düşünülmüş praqmatik xarici siyasət sayəsində son illər ərzində aparıcı beynəlxalq təşkilatlar məhz Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etdilər. Ölkəmizdə xalqın öz Prezidentinə olan sonsuz inamı əsasında formalaşmış xalq–iqtidar birliyi, milli həmrəyliyimiz bizi tarixi qələbəyə gətirib çıxardı. 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Bu tarixi qələbədən 3

il sonra, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan–Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla Azərbaycan özünün ərazi bütövlüyünü və nəhayət, sentyabrın 19-da keçirdiyi lokal xarakterli antiterror tədbirinin nəticəsi olaraq ölkənin bütün ərazisində suverenliyini tam bərpa etdi.

Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək Azərbaycan ərazilərini tərk etməsi, separatçı rejimin qeyri-qanuni silahlı dəstələrinin silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması və tam şəkildə tərk-silah olunması, buna paralel şəkildə bütün silah-sursat və ağır texnikanın təhvil verilməsi  Azərbaycanın növbəti qələbəsinin təntənəsidir.

Azərbaycan dövləti şanlı tarixinin heç bir dövründə indiki qədər müstəqil və güclü olmayıb. Möhtərəm dövlət başçımızın rəhbərliyi ilə son 20 ildə ölkəmizdə görülən işlər, həyata keçirilən əsaslı islahatlar möhtəşəm uğurların əldə olunmasını, müstəqilliyimizin  daha da möhkəmlənməsini, Azərbaycanın sosial-iqtisadi tərəqqisini təmin edib. Cənab Prezident İlham Əliyevin xalqın və dövlətin gələcəyinə dəqiq hesablanmış uğurlu strategiyası təkcə Azərbaycanın deyil, həm də bütün region ölkələrinin və qonşu dövlətlərin inkişafı üçün yeni, daha geniş perspektivlər açıb. İqtisadi gücünü dinamik şəkildə artıran Azərbaycan artıq, sadəcə, regional deyil, həm də dünya miqyasında önəmli siyasi-iqtisadi və hərbi güc mərkəzinə çevrilib. Bütün bu nailiyyətlər ölkəmizin 2003-cü ildən bu günə qədər əldə etdiyi möhtəşəm nailiyyətlərin yalnız bir hissəsi olmaqla, Azərbaycan xalqının 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş prezident seçkilərində yeganə ən doğru seçim etdiyinin əyani sübutudur.

**Könül Nurullayeva.** Azərbaycanın son 20 ildə qazandığı uğurlar, heç şübhəsiz, Prezident İlham Əliyevin milli maraqlara xidmət edən uğurlu siyasi fəaliyyətinin nəticəsidir. Məhz 20 il əvvəl 2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə İlham Əliyevi prezident seçməklə Azərbaycan xalqı tərəqqiyə, inkişafa və sabitliyə səs vermiş oldu. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövr ərzində bütün sahələrdə dayanıqlı inkişaf üçün əsaslı addımlar atıldı. Müstəqilliyimiz və ideoloji dayaqlarımız daha da möhkəmləndirildi. Çoxşaxəli inkişaf strategiyaları uğurla icra olunmağa başladı. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirildi. Ölkəmizin beynəlxalq arenadakı mövqeləri daha da möhkəmləndirildi. Azərbaycan MDB məkanında 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilən ilk dövlətdir. 120 ölkənin yekdil qərarı ilə Qoşulmama Hərəkatının sədri kimi təsisatın fəaliyyətinə töhfələr verməkdədir. İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı, o cümlədən bir çox digər təşkilatlar çərçivəsində uğurlu fəaliyyət davam etdirilir. Hətta üzv olmadığımız təşkilatlarda belə özümüzə dostlar qazana bilmişik. Bu uğurlu siyasətin nəticəsidir ki, bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Çoxşaxəli enerji siyasəti ilə ölkəmiz regional və qlobal əhəmiyyətli aktora çevrilib. Biz artıq özümüzü enerji sahəsində nəhəng transformasiya prosesinin tərkib hissəsi hesab edirik.

Təsadüfi deyil ki, bu gün Azərbaycan beynəlxalq arenada sözü imzası qədər əhəmiyyətli olan tərəfdaş kimi qəbul edilir. Bir çox siyasi xadimlər, dövlət başçıları "Müvafiq şəffaf protokollar bir yana, amma əsas bizim üçün İlham Əliyevin sözü yetərlidir. Çünki biz onun sözünə ina-

nırıq. Onun sözü elə onun imzasına bərabərdir" söyləyir.

Məhz peşəkar, milli maraqlara söykənən dövlət idarəçiliyi sayəsində ölkəmizdə siyasi sabitlik təmin olunmuş və gələcək inkişaf üçün zəmin yaradılmışdır. Son 20 ilin mənzərəsi onu deməyə əsas verir ki, İlham Əliyev Azərbaycan siyasi sisteminə mütərəqqi, milli məqsədlərə xidmət edən uğurlu siyasi fəaliyyət nümunəsi gətirdi. Ən böyük uğurlarımızdan biri Ali Baş Komandanın təhdid yarada biləcək tendensiyaların qarşısını vaxtında alması oldu. Bu, gərgin geosiyasi şəraitdə, toqquşmalar fonunda xalqımızı etnik, siyasi və ideoloji qarşıdurmalardan qorudu və bu gün də qorumaqdadır.

Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi – işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyinin ilk illərindən hər atılan addım Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Son 20 ildə Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, silahlı qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Qarabağ münaqişəsini, Cənubi Qafqazda "status-kvo"nu dondurmaq istəyənlərin planlarını alt-üst etdi. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev Prezident kimi 17 illik gərgin əməyinin nəticəsində Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanıtdı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev üçün isə bu böyük qələbə özünün də söylədiyi kimi, "dövlət başçısı kimi

həyatının, siyasi həyatının missiyası idi”.

Müharibənin başa çatmasından ötən 3 ilə yaxın müddətdə isə Azərbaycan həm ərazi bütövlüyünü, həm də suverenliyini tam təmin etdi.

Böyük qələbədən sonra prioritetlər sırasına işğaldan azad edilən ərazilərin yenidən qurulması, soydaşlarımızın öz yurd-yuvalarına qayıtması, onların təhlükəsiz və firavan həyat şəraitini təmin etmək dayanır. Böyük Qayıdış strategiyasına əsasən işğaldan azad olunmuş ərazilər, ümumən, regionun yeni inkişaf modelinə çevrilməkdədir.

Prezident İlham Əliyevin də söylədiyi kimi, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir və onu göstərir ki, biz istədiyimizə, bütün hədəflərə hər zaman nail oluruq. Prezident İlham Əliyevin 20 illik fəaliyyəti bir daha göstərir ki, mövcud tarixi-siyasi, coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətindən asılı olmayaraq, liderlik fenomeni milli dövlətin formalaşmasında və inkişafında həlledici rola malikdir.

**Malik Həsənov.** Bu gün Azərbaycan və ümumilikdə, türk dünyası tarixinin ən şanlı günlərini yaşamaqdadır. Artıq türk dünyasının işğal altında olan torpaqlarının bir hissəsi, Qarabağ azadlığına qovuşmuşdur. Bu baxımdan bugünkü xüsusi iclas da tarixi bir iclasdır. Çünki bu iclas türk dünyasının yeni tarixini yaradan müzəffər Ali Baş Komandan, möhtərəm cənab Prezidentimizin hakimiyyətə gəlməsinin 20-ci ildönümünə həsr edilmişdir.

Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olan möhtərəm cənab Prezidentimiz ona qalmış miras üzərində güclü Azərbaycan quruculuğu üçün 20 il ərzində bütün sahələrdə ciddi islahatlar həyata keçirmiş, ölkənin siyasi, iqtisadi, mədəni dirçəlişinə nail olmuşdur. Heç şübhəsizdir ki, cənab Prezidentin fəaliyyətini dəyərləndirən zaman

onun ən böyük nailiyyəti Vətən müharibəsində əldə etdiyimiz Zəfər və torpaqlarımızın işğaldan azad olunmasıdır. Bu nailiyyətdə onun dövlət başçısı kimi 20 illik fəaliyyətinin bütün istiqamətlərini izləmək və görmək mümkündür. Zəfərin əldə edilməsi üçün başlıca vacib şərt milli birliyə nail olmasıdır. 20 il ərzində cənab İlham Əliyev apardığı hər bir vətəndaşa yönəlmiş səmimi siyasəti, eyni zamanda, dünyanın bizlərdən çox-çox uzaqlarda yerləşən bölgələrində yaşayan azərbaycanlılara göstərdiyi qayğı və diqqət sayəsində bu birliyə nail olmuşdur ki, nəticədə Vətən müharibəsində Prezident–xalq–ordu həmrəyliyi formalaşmışdır. Çox diqqətəlayiq haldır ki, bu birlik təkcə Azərbaycan xalqının deyil, sonda bütün türk dünyasının birliyinə transformasiya olmuşdur. Bu gün tarixdə heç bir zaman olmadığı qədər türk birliyi ideyası reallaşmaqdadır və deyərdim ki, ideyadan reallığa çevrilir.

Bu 20 il ərzində Zəfərə aparan yolun əsası ölkəmizdə mövcud olan siyasi sabitlik və dövlətimizin beynəlxalq nüfuzunun artırılması olmuşdur. Bu zəmində cənab Prezidentimiz davamlı, məqsədyönlü, ardıcıl siyasət yürütmüşdür. Bu illər ərzində ölkəmizin ikitərəfli, çoxtərəfli və beynəlxalq münasibətlərdə nüfuzu artmış, ən əsası isə ölkəmiz və Prezidentimiz haqqında sözünü deyən, sözünün üzərində duran, öhdəliklərinə sadiq və dediyini edən imici formalaşmışdır. Bu gün ölkəmiz Cənubi Qafqaz və Ön Asiya Regionunda son sözə sahib beynəlxalq oyunçulardan biridir.

Zəfərin əldə edilməsində ən başlıca şərtlərdən biri ölkənin iqtisadi inkişafına nail olmaqdır. Son 20 il ərzində ölkəmizin təbii resurslarının verdiyi imkanlardan ağıllı istifadə nəticəsində sıçrayışlı iqtisadi tərəqqiyə nail olunmuşdur. Əldə edilmiş imkanlar təkcə insanlarımızın rifah halının yaxşılaş-

dırılması, hərbi potensialımızın ağlasığmaz dərəcədə gücləndirilməsi və yenilənməsi ilə məhdudlaşmamış, iqtisadi gücümüz siyasi qüdrətimizin əsasına çevrilmişdir.

Bu gün Prezident kimi siyasi hakimiyyətə gəldiyinin 20 illiyini qeyd etdiyimiz cənab İlham Əliyev tariximizə müzəffər Ali Baş Komandan kimi düşmüşdür. Hesab edirəm ki, bu onun prezidentlik fəaliyyətini bütün aspektlər üzrə dəyərləndirməyə və açmağa imkan verir. Bu Zəfər və ardıcıl qələbələrimiz onun Prezident, vətəndaş, ən əsası isə xalqın oğlu kimi izahsız keyfiyyətlərini özündə əks etdirir.

Cənab Prezidentimizə bundan sonrakı fəaliyyətində və şəxsi həyatında uğurlar və möhkəm can sağlığı arzulayıram və əminəm ki, ata vəsiyyətini uğurla icra edən Prezidentimiz arzularını həyata keçirərək qarşıya qoyduğu hədəflərinə çatacaqdır. Ölkəmizi daha da qüdrətli edəcəkdir.

**Musa Qasımlı.** XXI əsrin görkəmli dövlət və siyasi xadimi, qədim və zəngin dövlətçilik tariximizin ən böyük strateqi Prezident İlham Əliyevin dövlət başçısı seçilməsindən ötən 20 illik yola düzgün qiymət verməkdən ötrü belə bir başlıca suala cavab vermək gərəkdir: 1988-ci ildə Ermənistanın əsassız ərazi iddialarının başladığı vaxtdan bəri Azərbaycan xalqının və hakimiyyətlərinin qarşısında dayanan başlıca vəzifə nədən ibarət olub? Başlıca vəzifə Ermənistan adlanan ərazidən – tarixi torpaqlarından, dədə-baba yurdlarından vəhşicəsinə qovulan azərbaycanlıların problemlərini həll etmək, Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsini dayandırmaq, dövlət müstəqilliyi bərpa edildikdən sonra isə dövləti qurmaq və hərbi təcavüz nəticəsində işğal olunmuş torpaqları azad, ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etmək idi.

1988–1993-cü illərdə bir-birini əvəzləyən bacarıqsız

hakimiyyətlər Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxiləsini və hərbi təcavüzünü dayandıra bilmədilər, ərazilər işğal olundu, qaçqın və məcburi köçkünlər ordusu yarandı. Ölkə daha da geri getdi və ümumi böhran yarandı. Azərbaycanın dövlət müstəqilliyini itirmək, xaricdən dəstəklənən separatçılıqla parçalanmaq təhlükəsi qarşısında dayandığı ağır bir şəraitdə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev təkcə dövləti dağılmaqdan, ölkəni separatçılıqla bölünməkdən xilas etmədi, eyni zamanda, Ermənistanın hərbi təcavüzünü dayandırmaq və işğal edilmiş əraziləri azad etmək üçün müəyyənləşdirdiyi strategiyasını mərhələ-mərhələ həyata keçirməyə başlayaraq 1994-cü ilin may ayında atəşkəsə getdi. Atəşkəsə gedərkən Heydər Əliyevin başlıca məqsədi ordu qurmaq, bərbad halda olan ölkənin inkişafının açarını tapmaq, fəal xarici siyasət yürüdərək tərəfdaşlar qazanmaq, əraziləri işğaldan qurtarmaq üçün etibarlı zəmin hazırlamaq və bu işi başa çatdırmaq qüdrətində olan dövlət xadimini yetişdirmək idi. Belə bir rəhbər İlham Əliyev oldu.

2003-cü il oktyabrın 15-də İlham Əliyevin Prezident seçilməsindən sonra ərazilərin düşmən işğalından azad edilməsinə hazırlığın növbəti mərhələsi başlandı. Cənab Prezident ikitərəfli və beynəlxalq görüşlərdə qəti şəkildə bəyan etdi ki, Azərbaycan xalqı və dövləti ərazilərinin işğal altında qalması ilə heç vaxt barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcək və istənilən vasitələrlə onu azad edəcəkdir.

Məqsədə çatmaqdan ötrü güclü iqtisadiyyat yaradıldı. Beynəlxalq əhəmiyyətli layihələr həyata keçirildi. Müdafiə sənayesi yaradıldı. Qüdrətli ordu quruldu. Aktiv diplomatik fəaliyyət yürüdüldü. Məqsədə çatmaqdan ötrü

Prezident İlham Əliyev "yumşaq güc"dən məharətlə istifadə etdi.

2016-cı ilin Aprel döyüşləri nəticəsində ərazilərinin bir hissəsini azad etməklə Azərbaycan dövləti işğalla qətiyyən barışmayacağını düşmənə və dünyaya göstərdi. Aprel döyüşləri 2020-ci ildə qazanılan Zəfərin baş məşqi oldu.

Nəhayət, torpaqların işğaldan azad edilməsinin 2020-ci il 27 sentyabr – 10 noyabr tarixlərini əhatə edən növbəti mərhələsində – 44 günlük Vətən müharibəsində təcavüzkar ölkə əzildi, torpaqlar işğaldan azad edildi və ərazi bütövlüyü bərpa olundu. Prezident İlham Əliyev 1920-ci ilin əvvəllərindən etibarən süni şəkildə siyasi leksikona daxil edilmiş "Dağlıq Qarabağ" ifadəsini tarixin zibilliyinə atdı. Bu, 100 ilin kobud səhvini cənab Prezidentin qətiyyətlə düzəltməsi və tarixi zəfəridir.

Müharibə Prezident İlham Əliyevin mahir hərbi strateq, komandan olduğunu göstərdi. Siyasi, diplomatik və informasiya, tarixi həqiqətlər savaşının da tək komandanı Prezident İlham Əliyev oldu.

2021-ci il iyulun 7-də Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması haqqında fərman imzalamaqla tarixi ədaləti bərpa edərək 1921-ci ildə siyasi leksikondan çıxarılmış Zəngəzur ifadəsini siyasət dilimizə qaytardı. Bu, sadəcə, Şərqi Zəngəzur adlı iqtisadi rayonun yaradılması məsələsi deyildi. Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması o demək idi ki, Qərbi Zəngəzur da vardır və bu, tarixi Azərbaycan torpağıdır.

2023-cü il 23 apreldə Laçında Həkəri çayının üstündəki körpüdə sərhəddə nəzarət-keçid məntəqəsinin qurulması ilə Azərbaycan Respublikasının 1991-ci ildən sonra ilk dəfə olaraq dövlət sərhədlərinə nəzarəti həyata keçirməyə

başlaması Prezident İlham Əliyevin misli görünməmiş tarixi qələbəsi idi.

Təcavüzkar Ermənistanın işğal nəticəsində qurduğu separatçı, terroçu rejimin Azərbaycan dövlətinin 2023-cü il 19-20 sentyabr tarixlərində həyata keçirdiyi 23 saat 43 dəqiqə sürən lokal xarakterli antiterror tədbirlərindən sonra şərtləri qəbul etməsi, ağ bayraq qaldıraraq müzəffər Ali Baş Komandan İlham Əliyevin ayaqları altında diz çökməsi, terrorçu qrupların və separatçıların təslim olması ilə Azərbaycan dövlətinin bütün ərazilərində suveren hüquqlarını bərpa etməsi tariximizin ən şərəfli səhifələrindən biridir.

Cənab Prezidentin hakimiyyətinin 20 ilinin yekununda, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə işğalçı ölkə əzildi, dünya erməniliyinin və havadarlarının XVIII əsrdən etibarən qurduqları planlar darmadağın edildi və millətimizin arzuları, xəyalları gerçəkləşdi, "üç dəniz arasında Ermənistan", "Böyük Ermənistan" xəyalları, nağılları dağıdıldı. Bu qələbə Ermənistanı müdafiə edən dövlətlər, təşkilatlar, lobbi qrupları üzərində cənab Prezidentin tarixi zəfəridir. Prezident İlham Əliyev orta əsrlərdə hakim olan səlibçi psixologiyasını, islamofobiya planlarını yeni şəraitdə darmadağın edərək yenilməz, onların hamısından güclü, mahir strateq və üstün zəka sahibi olduğunu sübut etdi. Yüzilliklər boyu türk dünyasına qarşı quraşdırılan kirli oyunları Prezident İlham Əliyev pozaraq türk xalqlarına yol göstərdi, onların başını uca etdi. Prezident qətiyyəti, cəsarəti və yenilməz iradəsi ilə mümkün olmayanı mümkün edərək dünyaya möhtəşəm azərbaycanlı obrazı təqdim etdi. Mümkün olmayanları mümkün edən dövlət rəhbərləri dahilər, dühalar olurlar.

Bütün təzyiqləri rədd edən Prezident İlham Əliyev

özünün dediyi kimi, heç bir yarımçıq qərarın qəbuluna tərəfdar olmadı, millətin və dövlətin inkişafına mane olan əngəli əzdi, əsrin səhvini düzəltdi.

Bu gün Xocalı soyqırımı qurbanlarının, Vətən torpaqları uğrunda canlarını fəda etmiş şəhidlərin, həyatlarını itirmiş günahsız mülki insanların ruhları şaddır. Onların qanı hədər getmədi, arzuları gerçəkləşib, dövlət bayrağımız ərazilərimizdə dalğalanır.

Beləliklə, 2003–2023-cü illərdə keçilən 20 illik yolun başlıca yekunu 1988-ci ildən bəri Azərbaycan xalqının arzularının, başlıca məqsədinin güclü Azərbaycan dövlətinin yaradılmasının, ərazilərin işğaldan azad edilməsinin, dövlət sərhədləri üzərində tam nəzarətin qurulmasının, ölkəmizin bütün ərazisində dövlət suverenliyinin bərqərar olmasının yerinə yetirilməsidir. Bütün bunlar Prezident İlham Əliyevin yaratdığı qalib millətimizin və tarixində ən güclü dövrünü yaşayan dövlətimizin qarşısında yeni üfüqlər açır.

Cənab Prezidentimiz İlham Əliyevə Allahdan möhkəm can sağlığı, uzun ömür, millət və dövlət yolundakı fəaliyyətlərində uğurlar arzulayıram.

**Musa Quliyev.** Yüz illər keçsə də, Prezident İlham Əliyevin adı müasir Azərbaycan dövlətinin ərazi bütövlüyünü bərpa edən, suverenliyini təmin edən müzəffər Ali Baş Komandan kimi dövlətçilik tariximizin ən şərəfli səhifəsi kimi yaşayacaqdır.

Mən komitəmizin profilinə uyğun olaraq, cənab İlham Əliyevin sosial siyasətinin uğurları haqqında fikirlərimi diqqətə çatdırmaq istəyirəm.

2003-cü ildə ilk dəfə prezidentliyə namizəd olan cənab İlham Əliyev deyəndə ki, 5 il ərzində 600 min yeni iş yeri açacağıq, hər kəs təəccüb edirdi. 1 milyon 200 min yeni iş

yerləri açıldı!

Cənab İlham Əliyev deyəndə ki, bir dənə də olsun çadır şəhərciyi qalmayacaq, hər kəs ehtiyat edirdi. Məcburi köçkünlər üçün 3,25 milyon kvadratmetr yaşayış sahəsi tikildi, 107 şəhərcik salındı.

Cənab İlham Əliyev deyəndə ki, Azərbaycanda yoxsulluğu minimuma endirəcəyik, yenə inanılmaz gəlirdi. Çünki o illərdə nisbi yoxsulluq 49 faiz təşkil edirdi. Hazırda ölkəmizdə mütləq yoxsulluq çoxdan ləğv edilib, nisbi yoxsulluq isə 5,6 faiz olmaqla minimum həddədir.

“Bizim siyasətin mərkəzində Azərbaycan vətəndaşının sosial rifah halı dayanır” söyləyən Prezident İlham Əliyevin sosial siyasət kursunun çox mühüm istiqamətlərindən biri aztəminatlı insanların sosial müdafiəsinin daim diqqət mərkəzində saxlanılmasıdır. Pensiyalar, müavinətlər, təqaüdlər və digər sosial ödənişlər ilbəil artırılır, ünvanlı sosial yardım və özünüməşğulluq proqramları daha çox ehtiyacı olan ailələri əhatə edir, sosial evlər tikilir, ipoteka kreditləri verilir, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, məcburi köçkünlər daha geniş şəkildə dövlətin qayğısı ilə əhatə olunurlar.

2018-ci ildə növbəti dəfə xalqının böyük etimadını qazanaraq Prezident seçilən cənab İlham Əliyev ölkəmizdə dərin sosial islahatlara başladı.

Ümumilikdə, 2018-ci ildən sonrakı dövrdə dövlət başçısının imzaladığı 40-dan çox  fərman və sərəncamlarla ölkə əhalisinin əksəriyyətini əhatə edən 4 sosial islahat zərfi icra olunmuşdur və bu paketlərin illik maliyyə dəyəri 6,5 milyard manat təşkil edir.

Bu islahatların nəticəsində son 5 ildə minimum əmək haqqı 2,7 dəfə, orta aylıq əmək haqqı 1,7 dəfə, median əmək haqqı 74 faiz artmışdır. Minimum pensiyada 2,5

dəfə, orta pensiyada 2 dəfə, müavinət və təqaüdlərdə orta hesabla 2,5-3 dəfə artım baş vermişdir.

Azərbaycanda sosial siyasətin və genişspektrli sosial dəstək proqramlarının həyata keçirilməsində respublikamızın Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın böyük xidməti və rolu vardır.

Prezident İlham Əliyevin 2018-ci il 18 aprel tarixində bu salonda keçirilən andiçmə mərasimində söylədiyi "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" sözləri bu gün həyatda öz əməli təsdiqini tapmışdır.

Bu gün Azərbaycan vətəndaşı sabahından arxayındır, bilir ki, onun qüdrətli dövləti var.

Bu gün Azərbaycan vətəndaşı qürurludur və sabahına inamlıdır. Bilir ki, onu böyük qələbələrə aparan, əmin və firavan həyatını təmin edəcək cəsarətli və müdrik lideri vardır!

**Müşfiq Cəfərov.** 20 illik fəaliyyəti dövrünə nəzər yetirdikdə cənab Prezidentin Azərbaycan dövləti və Azərbaycan xalqı üçün nələr etmiş olduğunu aydın şəkildə görmüş oluruq.

Azərbaycanı dünyada tanıtdı, Azərbaycanın ən ağrılı problemi olan Qarabağ problemini həll edərək Azərbaycana məxsus torpaqları işğaldan azad etdi. Ərazi bütövlüyünü bərpa edərək dövlətimizin suverenliyini təmin etdi. Bəli, bunların hamısını cənab Prezident etdi. Dedi və etdi!

44 günlük müharibə onu göstərdi ki, Azərbaycan xalqı öz liderinin arxasındadır, o "dəmir yumruq" məhz xalqı birləşdirən bir yumruq idi.

44 günlük müharibə bizim kimliyimizi ortaya qoydu və bütün dünyaya bizim kim olduğumuzu bəyan etdi.

44 günlük müharibə bizim hansı gücə malik olduğumuzu göstərdi və imkan verdi ki, biz həm dostlarımızı, həm də düşmənlərimizi tanıyaq.

Biz hamımız ölkəmizin nə qədər çətin və qəliz geosiyasi məkanda yerləşdiyini bilirik. Belə bir ərazidə yerləşərək müharibə aparmaq və qalib gəlmək çox çətindir. Təzyiqləri biz hamımız gördük. Dünyanın nəhəng ölkələrini idarə edən liderlər dövlət başçımıza zəng etdilər. Biz cənab Prezidentin dünya mətbuatına müsahibələri zamanı verilən sualların ikili standartlar yanaşması olduğunun şahidi olduq. Cənab Prezident ölkəmizin müstəqil siyasət apardığını və heç kimin sözü ilə oturub durmadığını bir daha öz çıxışları, mətbuata verdiyi cavabları ilə təsdiq etdi. Bəli, biz müstəqil bir ölkəyik və müstəqil siyasət yürüdürük.

Bütün bu anları bizə yaşadan bizim Ali Baş Komandanımız, möhtərəm cənab Prezidentimiz İlham Əliyevdir. Hər bir Azərbaycan vətəndaşı ona sonsuz minnətdardır. O, elə bir tarix yazdı ki, 100 illər keçəcək, gələcək nəsillər o tarixi öyrənəcək və yaşadacaq.

Tarixi şəxsiyyətlər çox az-az dünyaya gəlir. Bir çox hallarda onların genetik olaraq formalaşdıqları deyilir. Bəli, İlham Əliyev məhz Ulu Öndərimizin siyasi davamçısı kimi bu missiyanı çox uğurla və ləyaqətlə həyata keçirdi və bundan sonra da keçirəcək. Ata vəsiyyətini yerinə yetirdi, Şuşanı, Xankəndini və ümumilikdə, Qarabağı azad etdi!

Bu gün Azərbaycan inkişaf edir, Azərbaycanın öz dəsti-xətti var. Bu inkişafı sürətləndirə biləcək bir tək amil var, o da insan kapitalına qoyulan investisiyadır. Bu gün cənab Prezident bu istiqamətdə qarşısına bir hədəf qoyub – qara qızılı insan kapitalına çevirmək. Bu işdə hər birimiz,

xüsusi ilə aidiyyəti qurumlar fəal olmalı, öz töhfəsini verməlidirlər.

İlham Əliyevin iş həyatına nəzər yetirdikdə çox gərgin bir iş cədvəli görmüş oluruq. Xarici qonaqları qəbul etmək, işğaldan azad edilmiş ərazilərə və bölgələrə səfərlər, bütün bunlarla bərabər, həm də xarici səfərlər. Təbii ki, işlər bununla bitmir. O, xalqın rifahının yaxşılaşması, ölkənin bu günü və gələcəyi, daha güclü Azərbaycan üçün əlindən gələni edir.

Xalqın içərisində olan bir millət vəkili kimi deyə bilərəm ki, bu gün İlham Əliyevə olan etimad və etibar, sevgi və inam çox böyükdür. Cənab Prezident bütün bunları xalqını və dövlətini sevərək qazanıb.

**Sevinc Hüseynova.** Tarixi-siyasi, coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətindən asılı olmayaraq, liderlik faktoru milli dövlətin formalaşmasında və inkişafında həlledici rola malikdir. Bəzi liderlər xilaskarlıq missiyası yerinə yetirmiş, onların bir qismi isə mürəkkəb şəraiti xalq üçün tarixi fürsətə çevirərək yeni eranın əsasını qoymuşdur.

Bu mənada, Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu və inkişafı liderlik amili ilə birbaşa bağlıdır. Danılmaz həqiqətdir ki, Azərbaycan xalqı istər XX əsrin sonlarında, istərsə də XXI əsrin əvvəllərində öz müdrik liderləri Heydər Əliyevin və İlham Əliyevin qətiyyətli, milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanan siyasəti sayəsində dövlətimizin yüksəlişinin, üçrəngli bayrağımızın ən yüksək zirvələrdə əzmlə dalğalanmasının qürurunu yaşamış və hazırda yaşamaqdadır. Bu baxımdan xalqımızı bəxtli və uğurlu xalqlardan hesab etmək olar.

Adətən dövlətlərin tarixindən görürük ki, güclü liderdən sonra hakimiyyətə gələn rəhbərlər zəif olub. Nadir

hallarda güclü lideri güclü lider əvəzləyir. Xalqımızın uğuru həm də ondan ibarətdir ki, hər iki lider eyni siyasi xəttə, Heydər Əliyev siyasətinə xidmət etmiş, bu siyasətin banisi və onun layiqli davamçısı arasında hakimiyyətdə fasilə yaranmamışdır.

1990-ci ilin əvvəllərində müstəqilliyimizin itirilməsi təhlükəsi ilə üzləşdiyimiz vaxtda müdrik dövlət xadimi Heydər Əliyev xalqın təkidli tələbi ilə xilaskarlıq missiyasını öz üzərinə götürmüş və şərəflə yerinə yetirmişdir. Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti Azərbaycanımızı tənəzzüldən tərəqqi yoluna çıxarmış, xalqımızın milli sərvəti olan müstəqilliyinin əbədi və dönməzliyini təmin etmişdir. Ulu Öndərin ən böyük xidmətlərindən biri də siyasi varisliyi təmin etməsi oldu.

2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti, 2005-ci ilin martında Yeni Azərbaycan Partiyasının III Qurultayında isə YAP-ın sədri seçilən İlham Əliyev ötən müddətdə ona bəslənilən bütün ümidləri müdrik fəaliyyəti ilə ən mükəmməl şəkildə doğrultdu, Heydər Əliyevin layiqli varisi olduğunu sübuta yetirdi. Prezident İlham Əliyevin liderliyi ilə ölkəmiz böyük uğurlar əldə etdi.

Azərbaycan ötən 20 il ərzində böyük infrastruktur layihələri həyata keçirməklə, biznes mühitini yaxşılaşdırmaqla, xarici investorları cəlb etməklə iqtisadi sahədə böyük uğurlar qazanıb. Bunun nəticəsində dünya miqyasında iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkə kimi tanınıb. Siyasi sabitlik baxımından respublikamız bir çox ölkələr üçün örnəyə, nümunəyə çevrilib.

Bu uğuru şərtləndirən amillər haqqında danışarkən qeyd edək ki, 30 illik işğal dövründə ölkəmizin hərbi qüd-

rətinin mükəmməlləşməsi üçün çox iş görülmüşdür. Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu ordumuz dahi şəxsiyyətin layiqli varisi Prezident İlham Əliyev tərəfindən modernləşdirilən silahlı qüvvələrə çevrilmişdir. Dövlət başçısı təmkinlə diplomatik sahədə təxirəsalınmaz tədbirlər reallaşdırmış, beynəlxalq tribunalardan Qarabağ həqiqətlərini dünyaya bəyan etmiş, aparıcı dövlətlərin rəhbərlərinin diqqətinə bu bölgənin ölkəmizin əzəli torpağı olduğunu çatdırmışdır.

İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun dünyada hərbi əməliyyatların planlaşdırılmasının, həyata keçirilməsinin və yekunlaşdırılmasının yeni texnologiyalara əsaslanan ilk praktik nümunəsini bütün dünyaya göstərdi. Bu savaş xalqımızın mətin iradəyə malik olduğunu, milli ideya ətrafında sıx birləşmək gücünü və işğala boyun əyməmək əzmini təsdiqlədi. Dövlət–xalq–ordu birliyi zəfərin əldə olunmasını şərtləndirdi. Prezident İlham Əliyev diplomatik məharəti və yenilməz sərkərdəlik qabiliyyəti ilə əsl lider olduğunu bir daha təsdiq etdi.

Ermənilərin Cənubi Qafqaza köçürülməsindən və torpaqlarımızda kompakt yaşamağa başladığı vaxtdan keçən təxminən 200 illik bir dövrdə ərsəyə gətirdikləri və “dənizdən-dənizə Böyük Ermənistan” kimi mifik təsəvvürlərə əsaslanan xəstə milli ideyası Vətən müharibəsində darmadağın oldu.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində düşmənin ərazilərimizdən qovulması, bir müddət sonra sərhəddə Laçın rayonunda Həkəri çayının üstündəki körpüdə nəzarət-buraxılış məntəqəsinin qurulması ilə bütün sərhədlərimiz üzərində nəzarətin əldə edilməsi, lokal xarakterli antiterror tədbirlərindən sonra separatçı rejimin dövlətimi-

zin şərtlərini qəbul edərək ağ bayraq qaldırması nəticəsində bütün ərazilərimizdə suverenliyimiz tam bərpa olundu. Bununla da Heydər Əliyev siyasəti hər iki liderin fəaliyyəti sayəsində Azərbaycanımızı tənəzzüldən tərəqqiyə, tərəqqidən isə Zəfərə gətirdi. Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda erməni faşizminin xaraba qoyduğu yaşayış sahələrinə yeni həyat gətirir, məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və ləyaqətli dönüşünü, bu torpaqların reinteqrasiyasını təmin etmək üçün genişmiqyaslı layihələr reallaşdırır. Əldə olunmuş qələbə təkcə Azərbaycanın deyil, bütün bölgənin inkişafı üçün yeni imkanlar açdı. Ata vəsiyyətinə sadiq sərkərdə, Prezident İlham Əliyev Heydər Əliyev siyasətini layiqincə davam etdirərək Cənubi Qafqazda sülhün bərqərar olmasında mühüm fəaliyyət göstərir. Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev bu hədəfə də nail olacaqdır. Cənubi Qafqazda əsrlərdən sonra sülh, əməkdaşlıq və təhlükəsizlik bərqərar olacaqdır.

**Şahin İsmayılov.** Əgər biz müasir dünyada ideal gənc obrazı formalaşdırsaq, bu, savadlı, dünyagörüşlü, müxtəlif dilləri bilən, müasir texnologiyaları mənimsəyən və onu rahat tətbiq edən, daim inkişafa açıq olan, o cümlədən müasirliklə yanaşı, milli-mənəvi köklərinə bağlı, öz tarixinə yaxşı agah olan bir kimlikdir. Gənclər daim inkişaf edirlər. İnkişaf isə canlı bir prosesdir. İnkişaf dövründə təbii olaraq çətinliklər və problemlər olur. Məhz inkişaf dövründə gənclər özlərinə ideal axtarır, onun kimi olmağa və ona bənzəməyə çalışırlar. Prezident İlham Əliyev Azərbaycan gəncləri üçün idealdır.

O, mübarizdir. Gənclik dövründə oxuduğu və işlədiyi təhsil müəssisəsindən heç bir əsas olmadan uzaqlaşdırıldıqda əvvəlkindən daha çox əzmlə çalışdı və digər sahə-

lərdə uğur qazandı. Mübarizlik Prezident İlham Əliyevin həyatının bütün dövrlərində önə çıxan vacib xüsusiyyətlərindən biridir.

O, prinsipialdır. Qarabağ münaqişəsi mövcud olan dövrdə Prezident İlham Əliyev bütün beynəlxalq təzyiqlərə və ikili standartlara, bəzən, hətta hədə-qorxu cəhdlərinə belə baxmayaraq, Azərbaycanın ərazi bütövlüyü məsələsini müzakirə etmədi. Mövqe prinsipial idi, Azərbaycanın ərazi bütövlüyü müzakirə mövzusu ola bilməz.

Prezident İlham Əliyev milli-mənəvi dəyərlərə bağlı, Azərbaycan mədəniyyətinin böyük təbliğatçısıdır. Prezidentlik fəaliyyəti dövründə Azərbaycanın mədəni nümunələrinin dünyada tanıdılması və qəbul olunması istiqamətində nəhəng işlər görən Prezident həm də gənclərə açıq mesaj verir – milli-mədəni dəyərlərinizi daha yaxşı bilin, onu tanıdın və fəxr edin.

Prezident İlham Əliyev müasirdir. O, dünyada baş verən yenilikləri yaxşı bilir, lazım olanları öz fəaliyətində tətbiq edir, Azərbaycan sənayesində və iqtisadiyyatında müasir çağırışlara uyğun alətlərdən istifadə edir. Eyni zamanda, texnoloji və xidmət sahələrində Azərbaycan brendini yaradır. Bir sözlə, dünyadakı trendlərə yaxşı bələddir.

O, qalib sərkərdədir. Prezidentlik fəaliyyəti dövründə mühüm siyasi qələbələr qazanan Prezident öz qələbələrini Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə taclandırdı. Müzəffər Ali Baş Komandan öz əsgər və zabitləri ilə Azərbaycanın dövlətçilik tarixinin qızıl səhifələrindən birini yazdı. 30 illik həsrətə son qoyan qalib komandan, bütövlükdə, regionun taleyinə təsir edəcək hadisənin müəllifi oldu. Eyni zamanda, o, Azərbaycan xalqını qalib xalq etdi.

Prezident həmçinin yaxşı övlad, gözəl ailə başçısıdır. O, ata vəsiyyətini yerinə yetirməklə və mehriban ailə

başçısı olmaqla Azərbaycan ailə dəyərlərinin ən böyük təbliğatçısıdır. Ailə dəyərləri dövlətin özəyini təşkil edir. Məhz bu səbəbdən də Prezident hər zaman bu dəyərlərə önəm verir və onu təbliğ edir. Dünyada kosmopolit dəyərlərin, daha doğrusu, dəyərsizliyin geniş yayıldığı bir dövrdə ailə dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi vacibdir.

Prezident həm də gələcəkyönümlüdür. Onun fəaliyyətində gələcək nəsillərə xitab və onlar üçün indidən müxtəlif layihələrin icrası əsas istiqamətlərdən birini təşkil edir. Kadr potensialı formalaşdırılır, Azərbaycan gəncləri dünyanın ən nüfuzlu ali təhsil müəssisələrinə göndərilir, iqtisadiyyat şaxələndirilir, "yaşıl enerji"yə keçid edilir və Azərbaycan yaşıl iqtisadiyyat mərkəzinə çevrilir, çevik struktur dəyişiklikləri aparılır. Bütün bu məqamlar Azərbaycanın gələcək dövrlərdə də inkişaf edəcəyini və dünyada söz sahibi olacağını göstərir.

İlham Əliyev həm də gənclərin ən yaxın dostudur. Fəaliyyəti dövründə gənclər və idman siyasəti hər zaman Prezident tərəfindən diqqətdə saxlanılıb. Bu gün Azərbaycanda gənclər üçün geniş imkanlar yaradılıb. Gənclər sahəsini əhatə edən bir neçə dövlət proqramları icra edilib. Bu proqramların hər biri əhəmiyyətli işləri əhatə edib. Gənclər Fondu yaradılıb. Gənclər üçün Prezident mükafatı təsis edilib. Paytaxtda və regionlarda Gənclər evləri yaradılıb. Gənclərin dünyanın nüfuzlu təhsil müəssisələrində təhsil almaları üçün müxtəlif proqramlar icra edilib. Ölkəmiz gənclər, idman və mədəniyyət sahəsi ilə bağlı kifayət qədər böyük beynəlxalq tədbirlərə ev sahibliyi edib. Prezident Administrasiyasında Gənclər Siyasəti və idman məsələləri şöbəsi, Milli Məclisdə Gənclər və idman komitəsi yaradılıb. Prezident şəxsən özü gəncləri, o cüm-

lədən idmanda uğur qazanan gənclərimizi dəfələrcə qəbul edib. Bu sahədə görülən işlərin miqyası çox böyükdür.

Sonda. İlham Əliyev ixtisasca memar deyil. Amma mənə görə o, XXI əsr Azərbaycanının qurucusu olmaqla elə müasir Azərbaycanın XXI əsrdə ən yaxşı memarıdır!

**Tahir Rzayev.** Ulu Öndərimiz Heydər Əliyevin siyasi kursunu əldə rəhbər tutan Azərbaycan Respublikasının Prezidenti cənab ilham Əliyevin rəhbərliyi ilə xalqımız son 20 ildə Azərbaycanın heç vaxt unudulmayan qəhrəmanlıq və inkişaf tarixini yazmışdır. Hər biri əsrə bərabər olan bu ayların, illərin mayası xalqa, vətənə, torpağa məhəbbət, bəşər övladına, insanlığa, milli-mənəvi dəyərlərə hörmət, ali ideyalara sədaqətlə yovrulduğu üçün həm qələbələrimizin memarının – cənab İlham Əliyevin, həm də ona dəstək verənlərin, rəğbət bəsləyənlərin, etimad göstərən xalqımızın başını ucaltmış, adını şöhrətləndirmiş, uğurlarını möhkəmləndirmişdir.

Son 20 il Azərbaycanın siyasi, iqtisadi, sosial-mədəni həyatında inkişaf dövrü kimi xarakterikdir. 2003-cü ildə 1 milyard 220,9 milyon büdcə gəlirləri olan ölkəmiz indi 40 milyard manata yaxın büdcə gəlirinə malikdir. 1,8 milyard dollar valyuta ehtiyatlarına sahib olan dövlətimizin valyuta ehtiyatları 37 dəfə artmış, 67 milyard ABŞ dollar səviyyəsindədir.

Bu illər ərzində orta aylıq əmək haqqı 77,4 manatdan 900 manata çatdırılmış, əmək haqları, pensiyalar, sosial müavinət və təqaüdlər üzrə ödənişlər dəfələrcə artmışdır.

“Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır” fikirlərini əməli fəaliyyətə, işə çevirən cənab İlham Əliyev bir an da xalqının qayğılarını unutmamış və

bunu ölkənin, regionların sosial-iqtisadi inkişafı, qlobal enerji təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq əhəmiyyətli neft-qaz kəmərlərinin çəkilməsi, mühüm nəqliyyat infrastrukturunun yaradılması ilə sübut etmişdir.

Ötən 20 ildə 3 min 200-dən çox məktəb binasının, 750-dən çox tibb müəssisəsinin tikilməsi və əsaslı təmir edilməsi, 40-dan çox olimpiya mərkəzinin və yüzlərcə müxtəlif idman qurğularının inşası, 21 min kilometrə yaxın yolların çəkilməsi, körpülərin salınması, 2 milyondan artıq yeni iş yerlərinin yaradılması, yoxsulluğun səviyyəsinin 5 faizə düşməsi insanlara göstərilən qayğının, sosial siyasətin uğurlarıdır. Şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 14 mindən çox mənzilin və evin verilməsi bu qayğının bir nümunəsidir. Bu nümunələr saysız-hesabsızdır və sözsüz ki, bir çıxışa sığan deyildir.

Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuz qazanması, haqq-ədalət mübarizəsinin dəstəklənməsi, BMT Təhlükəsizlik Şurasında, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlığı Təşkilatında, Türk Dövlətləri Təşkilatında dövlətimizin nüfuz və etimada malik olması, ölkəmizin çox mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməsi dövlətimizin rəhbərinə bəslənən hörmət və etimadın ifadəsidir.

Cənab İlham Əliyev öz əməlləri və amalları ilə yalnız Azərbaycan xalqının deyil, bütün bəşəriyyətin xoşbəxtliyi, gələcəyi, insanların rifahı üçün mübarizə apardığını sübut etmiş və dünya xalqları tərəfindən bir humanist, vətənpərvər, uzaqgörən siyasətçi, dövlət rəhbəri kimi qəbul edilmişdir.

Çünki rəhbərimiz ordunu, xalqı, sülhsevər qüvvələri birləşdirməyi, haqq-ədaləti müdafiə etməyi, düşməni cəzalandırmağı, haqsızı susdurmağı çox yaxşı bacarır.

Cənab İlham Əliyevin vətən, xalq, tarix qarşısında ən böyük xidməti Azərbaycanın suverenliyinin təmin olunması, ərazilərimizin azğın düşməndən təmizlənməsi, Qarabağda separatizmin kökünün kəsilməsi, Ulu Öndərimizin, şəhidlərimizin ruhunu sevindirməsidir. 44 günlük müharibədə qazanılan qələbə və 24 saatlıq antiterror tədbirlərində erməni təcavüzkarlarının məhvi İlham Əliyev siyasətinin, qətiyyətinin, hərbi bacarığının, vətəndaşlıq qayəsinin elə yüksək zirvəsidir ki, o zirvədən Azərbaycan müstəqil, azad və qalib görünür və həmişə qalib olacaqdır. Qoy, həmişə belə olsun!

Biz hörmətli, qalib Prezidentimizə can sağlığı, ölkəmizin, xalqımızın rifahı naminə uğurlar, uğurlar və yeni-yeni uğurlar arzulayırıq.

**Tamam Cəfərova.** 20 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək, Ulu Öndərimizin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri İlham Əliyev bu 20 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözükeçən dövlətə çevirdi. Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır.

Cənab İlham Əliyev tutduğu yolla Azərbaycan xalqını illərdən bəri həsrətində olduğu qələbəyə apardı. Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşən xalqımızın və ordumuzun gücü ilə Vətən müharibəsi Zəfərlə sona çatdı. Son iki əsrlik tarixin heç bir dönəmində, dünyanın heç bir ölkəsində görünməyən nadir bir hadisə – işğal edilmiş torpaqların hərb yolu ilə geri qaytarılması

baş verdi. Dövlətçilik tariximizin Müstəqilliyin Bərpası, Dövlət Bayrağı və Milli Dirçəliş günləri kimi şərəf salnamələri sırasına ən möhtəşəmi, hər xalqa nəsib olmayan yeni əlamətdar tarixi gün – Zəfər Günü yazıldı. Xalqımızı qalib edən, Ulu Öndərin müqəddəs vəsiyyətini, ümdə arzusunu yerinə yetirən Prezident İlham Əliyev müdrik lider, qalib sərkərdə, böyük strateq kimi adını Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazdı.

Vətən müharibəsi Prezident İlham Əliyevin siyasi lider şəxsiyyətinin yeni, nadir keyfiyyətini, hərbi sərkərdəlik fenomenini də aşkara çıxardı. Xalqımızın təsəvvüründə liderlik fenomeni tariximizdə son əsrlərdə rast gəlmədiyimiz yeni nümunəsi, örnəyi ilə tamamlanaraq bütövləşdi. Müstəqillik illərimizdə ictimai şüurda liderlik örnəyi siyasi lider, milli lider, lider şəxsiyyət amilləri ilə assosiasiya olunurdusa, Vətən müharibəsi Prezident İlham Əliyev şəxsiyyətinin dünya liderlik fenomenində ən nadir nəsib olan keyfiyyətlərini kəşf etdi. Bunlardan birincisi, hərbi lider, sərkərdə, fateh, ikincisi isə müasir dövrün ən mürəkkəb müharibə formalarından olan informasiya savaşının strateqi kimi keyfiyyətləri oldu. Torpaqlarımızı işğaldan azad edən, Azərbaycanı bütövləşdirən Prezidentimiz lider şəxsiyyət etalonunu da bütün keyfiyyətlər üzrə tamamladı və bir simada – özünün liderlik timsalında birləşdirdi.

Bu tarixi nailiyyətin müəllifi kimi Prezident İlham Əliyev hər birimizin qüruru, sevinci və istinad nöqtəsidir. Prezident İlham Əliyevin xalqımıza qazandırdığı Zəfər və şərəf tarixi indiki nəsillərə vətəni necə sevməyi, onu necə qorumağı öyrədir.

Biz, həqiqətən, tarixi günlər yaşadıq və yaşayırıq. Çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və

qürurlu günlər olmayıb. Ötən illər həm də onu göstərdi ki, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir.

Cənab İlham Əliyev Azərbaycan xalqının tarixində yeni bir səhifə acdı. Bu gün həm regional, həm də qlobal səviyyədə bütün iqtisadi və siyasi məsələlərdə Azərbaycanla hesablaşılır və ölkəmizin maraqları nəzərə alınır. Dünya Azərbaycanın sözünü eşidir, Prezidentimizin irəli sürdüyü beynəlxalq və regional təşəbbüslərə dəstək verir.

Azərbaycan xalqı 20 il öncə etdiyi seçimin tarixi qürurunu yaşayır. Prezident İlham Əliyev yalnız Azərbaycan dövlətini inkişaf etdirmədi, o, həm də xalqımız və dövlətimiz üçün yeni şanlı tarix yazdı. Prezident İlham Əliyevin adı və imzası tarixə həm də əbədi qalib xalq lideri kimi həkk olundu. Dövlətimizin başçısının möhtəşəm 20 illik fəaliyyətində inkişaf və bütövlüyün sevincini yaşayan xalqımız seçimində yanılmadığını sevgi və şükranlıqla hər zaman xatırlayacaq.

Biz xoşbəxt xalqıq. Xoşbəxtik ona görə ki, İlham Əliyevlə bir cəmiyyətdə, onun liderliyi ilə yaşayırıq. Bu xalq öz qalib lideri İlham Əliyevlə yenilməzdir. Müzəffər rəhbər İlham Əliyev də onun ətrafında sıx birləşmiş xalqı ilə güclüdür. Ona şükranlığımız, böyük mükafatımız ümumxalq sevgisi və alqışıdır.

**Ziyafət Əsgərov.** İstər ayrı-ayrı fərdlərin, istərsə də, bütövlükdə, xalqların və cəmiyyətlərin inkişaf təcrübəsindən hər kəsin öyrənməli olduğu çox mühüm bir dərs var: tarix boyu o fərdlər, xalqlar və cəmiyyətlər can atdıqları

hədəflərə yetişə bilirlər ki, addım-addım qazandıqları nəticələrin miqyasından asılı olmayaraq, tutduqları yoldan dönməsinlər. Əldə edilmiş nailiyyətləri qorumağı və yeniləri ilə daha da möhkəmləndirərək genişləndirməyi bacarsınlar, eyni zamanda, hərəkətlərini daim yenilənən vaxtın çağırışlarına uyğunlaşdıra bilsinlər.

Cənab İlham Əliyev Ulu Öndərin dövlətçilik məktəbinin mahir yetirməsidir. Tələskənlik, gözlənilən nəticənin mövcud şəraitin imkan verdiyindən daha tez əldə olunması istəyi insanın fitrətindədir. Bəzən bu istəyin təsiri ilə yanlış istiqamətlərə yönələn, müvəqqəti və dayanıqsız uğurların ani parıltısında yolunu tez-tez dəyişərək səhv qərarlar verib əsas niyyətindən uzaq düşən fərd və toplumlar da olur. Amma əgər söhbət əsl inkişaf və tərəqqidən gedirsə, bunun yolu dəyişməzdir: seçilmiş yola sadiqlik, ardıcıllıq, məqsədyönlülük, yaranmış fürsətlərə çevik reaksiya.

Müstəqil dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2003-cü ilin oktyabrından bəri ölkəmizin və xalqımızın həyatına gətirdiyi tarixi nailiyyətlərin təməlində də məhz bu amil durur. Cənab İlham Əliyev Azərbaycanın milli dövlətçilik tarixinin mahiyyətcə yeni bir dövrünün lideridir. 2003-cü ilin oktyabrında xalqın yekdil dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilərkən o, ölkənin gələcək taleyinə görə məsuliyyəti Ümummilli Lider Heydər Əliyevin ardıcılı kimi öz üzərinə götürmüşdü. Ölkəyə rəhbərlik missiyasını Ulu Öndərin dövlətçilik məktəbinin mahir yetirməsinin davam etdirməsi ictimaiyyətin sosial sifarişi idi. Müstəqilliyimizin ilk illərində, ölkənin ağır böhranla, parçalanma təhlükəsi ilə üz-üzə qaldığı vaxtda Ümummilli Lideri təkidlə

ölkə rəhbərliyinə çağıraraq bu müdrik dövlət adamının liderliyi ilə Azərbaycanın xilasına, rəvan inkişaf yoluna çıxmasına nail olan xalq qısa müddətdə müstəqil, hüquqi dövlət quruculuğu istiqamətində əldə edilmiş nəticələrin qorunmasını istəyirdi. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf yolunun onun cismani yoxluğu dövründə də davam etdirilməsi arzusunda idi. Bu arzunu gerçəkləşdirəcək liderin məhz cənab İlham Əliyev olması isə ilk növbədə Ümummilli Liderin ona böyük inam və güvənindən irəli gəlirdi.

Cənab İlham Əliyevin onun bütün gözləntilərini doğrul-dacağına, Azərbaycanın ideallarından heç zaman geri çəkilməyəcəyinə, xalqı addım-addım milli hədəflərə doğru aparacağına Ulu Öndər Heydər Əliyev tam əmin idi. Bu əminlik ən parlaq formada böyük strateqin 2003-cü ilin 1 oktyabrında Azərbaycan xalqına tarixi müraciətində də öz əksini tapmışdı: "Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə nami-zəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Müasir mətbuatımız bəzən bu müraciətin yalnız

müəyyən hissəsinə diqqət yetirir, onun ümumi məzmunu lazımi şəkildə təhlilə cəlb edilmir, halbuki həmin müraciət bütün məzmunu ilə son dərəcə mükəmməl bir sənəd olaraq müstəqil dövlətimizin bu tarixə qədər keçib gəldiyi yola strateji baxış, əldə edilən nailiyyətlərlə gəlib çatdığı mərhələnin dəyərləndirilməsi və gələcəyə bələdçidir. Eyni zamanda, 2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti kimi ölkənin, xalqın gələcəyinə görə məsuliyyəti üzərinə götürərkən bu yeni strateji dövrdə cənab İlham Əliyev qarşısında duran tarixi missiyanı dəqiq təsəvvür etməyə bu sənəd böyük kömək göstərir.

Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi iki dövrün nailiyyətləri sayəsində xalqımız yeni minilliyin əvvəllərində dünyanın ən qabaqcıl xalqları sırasında öz layiqli yerini tutmuş, dünyaya inteqrasiya proseslərini sürətləndirmiş, ən qabaqcıl beynəlxalq təcrübələri, özünü doğrultmuş sivil dəyərləri cəmiyyət həyatının müxtəlif sahələrində genişləndirməyə başlamışdı. Demokratik cəmiyyət, hüquqi dövlət quruculuğu, insan və vətəndaş haqlarının aliliyi, siyasi plüralizm prinsiplərinə sadiqliklə Azərbaycan beynəlxalq nüfuzunu getdikcə gücləndirir, dünyanın, regionun, bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələləri ilə bağlı qərarlarda Azərbaycanın mötəbər rəyi mütləq nəzərə alınırdı. 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft və iqtisadi inkişaf strategiyası nəticəsində Azərbaycanın sosial-iqtisadi həyatı yeni dövrə transformasiya olunur, ölkə iqtisadiyyatına daxili və xarici kapital qoyuluşu ildən-ilə artır, müxtəlif sənaye sahələrində modernləşmə prosesləri genişlənir, ölkənin gəlirləri yüksəlir, tədricən açılan yeni iş yerləri, maaş və təqaüdlərdəki mütəmadi artımlarla insanlarımızın maddi rifah halı getdikcə yaxşılaşırdı.

Azərbaycanda ordu quruculuğu prosesləri də uğurla davam etdirilir, qabaqcıl təcrübə və texnologiyalarla ölkəmizin müdafiə qabiliyyəti getdikcə artır, əsgər və zabitlərimizin döyüş ruhu yüksəlir, gənclərimiz hərbi xidmətlərini həvəslə, vətənə böyük sevgi hissi ilə yerinə yetirirdilər.

Qədirbilən xalqımız bütün bu nəticələrin nə qədər böyük fədakarlıqlar, gərgin zəhmət bahasına əldə olunduğunu yaxşı bilirdi. Azərbaycanın nailiyyətlərini əngəlləmək niyyəti ilə üzərimizə yönələn daxili və xarici təhdidlər, təxribatlar, önümüzə qoyulan maneələr, Ümummilli Liderin xalqla çiyin-çiyinə bütün bunları inkişaf yolumuzdan kənar etmək üçün hansı əziyyətlərə sinə gərdiyi hər kəsə yaxşı məlum idi.

Ona görə də Azərbaycan vətəndaşları cənab İlham Əliyevdən, ilk növbədə, bu strateji inkişaf xəttinin davam etdirilməsini, dövlətimizin, xalqımızın addım-addım öz hədəflərinə doğru aparılmasını gözləyirdilər. Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş torpaqlarımızın azadlığı, illərdən bəri ölkəmizin inkişafını, ümumən, regionun təhlükəsizliyini və rifahını təhdid edən işğal faktının, müharibə şəraitinin aradan qaldırılması, məcburi köçkünlərimizin doğma yurdlara dönüşü, təbii ki, bu hədəflərin önündə gəlirdi.

Cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidentidir. O, mövcud şəraitə adekvat yanaşmaları, düzgün və məqsədyönlü qərarları, eyni zamanda, müasir dünyanın çağırışlarına uyğun addımları ilə ona olan inamı doğrultdu. Dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyi qorudu, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətini daha da inkişaf etdirərək özünün ilk andiçmə mərasimində bəyan etdiyi kimi, hər bir Azərbaycan vətəndaşının

Prezidenti oldu. Azərbaycan Prezidenti hər bir dövlətin, cəmiyyətin həyat qayəsini təşkil edən ölkə iqtisadiyyatını yeni strateji dövrdə yeni bir səviyyəyə yüksəltdi.

Cənab İlham Əliyev Ulu Öndərin memarı və qurucusu olduğu müstəqil Azərbaycan dövlətini xalqımızın müqəddəs dəyəri kimi qorudu, onun müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etdi. Xalqımızı ən böyük hədəfimiz olan torpaqlarımızın azadlığı, ölkənin ərazi bütövlüyü uğrunda həlledici savaşa hazırladı. Ümummilli Liderin dövlətçilik məktəbindən əxz olunmuş zəngin təcrübə ilə Azərbaycan Prezidenti fərqində idi ki, xalqın bir çox taleyüklü problemlərinin həllinə, o cümlədən ölkənin ərazi bütövlüyünə yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə nail olmaq mümkündür.

Cənab İlham Əliyev ölkənin iqtisadi tərəqqisini demokratik inkişaf prosesləri ilə paralel apardı. İqtisadi müstəqilliklə heç kimin asılılığında olmayan Azərbaycanın əsl müstəqillik statusunu yeni sosial-iqtisadi nailiyyətlərlə daha da möhkəmləndirdi. Azərbaycan Prezidenti ölkəmizin dayanıqlı, ardıcıl inkişafına nail oldu. Təbii resurslardan əldə olunan gəlirləri müasir dövrün normalarına uyğun infrastruktur quruculuğuna yönəltdi. Azərbaycanın ən ucqar kəndlərində də müasir infrastruktur formalaşdırıldı. Bu illərdə ölkəmizin şəhər və kəndlərində yüzlərcə yeni məktəb, tibb müəssisələri, digər sosial infrastruktur obyektləri əhalinin istifadəsinə verildi. Ən uzaq yaşayış məntəqələrinə də abad yollar çəkildi. Regionlarımız inkişaf axarına qovuşdu. Bu məqsədlə qəbul edilmiş dövlət proqramları uğur qazandıqca Azərbaycan əyalətlərinin siması yeniləndi, bölgələrimizin tarazlı inkişafı

təmin edildi.

Dövlət rəhbərimizin ölkənin təbii sərvətlərinin insan kapitalına çevrilməsi çağırışı ilə təhsil, innovasiyalar, yeni texnologiyaların tətbiqi cəmiyyət həyatında ən aktual məsələlərdən birinə çevrildi. Azərbaycan insanlarının təhsillə yeni texnoloji həlləri, innovasiyaları mənimsəməklə özünüinkişafa marağı artdı. Ölkəmizdə modernləşmə prosesləri sürətləndi, dünyadakı qabaqcıl təcrübələrin Azərbaycanda tətbiqi genişləndi. Bu inkişaf proseslərində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var. Respublikamızın Birinci vitse-prezidenti özünün çoxşaxəli fəaliyyəti ilə müxtəlif sahələr üzrə dövlət siyasətinin daha böyük uğurlar qazanmasına layiqli töhfələr verir.

Cənab İlham Əliyev ölkəmizin beynəlxalq miqyasda mövqelərinin gücləndirilməsi üçün bütün mümkün fürsətləri reallığa çevirdi. Bu 20 ildən az bir müddətdə dövlətimizin təşəbbüsü və fəal iştirakı ilə əsası qoyulmuş bütün qlobal layihələr uğur qazandı. Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, Cənub Qaz Dəhlizi, Bakı–Tbilisi–Qars dəmir yolu xətti ilə Azərbaycan dünyanın əsas enerji kommunikasiya mərkəzlərindən birinə çevrildi. Yaradılan logistika imkanları dünya iqtisadiyyatı üçün ölkəmizin önəmini daha da artırdı. Azərbaycan regionun lider dövləti kimi bölgədə əsas söz sahibinə çevrildi. Ölkəmiz daha da yüksələn beynəlxalq nüfuzu, proseslərə təsir imkanları ilə qlobal təşkilatlardakı fəaliyyətini daha da genişləndirdi. Qlobal miqyaslı bir çox məsələlərdə təşəbbüsü öz üzərinə götürdü. Azərbaycan dövlətinin son onilliklərdə BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq qurumlar çərçivəsindəki uğurlu fəaliyyəti, Avropa İttifaqı

və digər institutlarla güclənən tərəfdaşlıqları, müxtəlif dünya dövlətləri ilə qurduğu ikitərəfli faydalı əlaqələr cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin təntənəsidir.

Bu illərdə Azərbaycan qlobal səviyyədə etibarlı tərəfdaş imicini daha da möhkəmləndirdi, verilmiş sözlərə, əldə edilmiş razılaşmalara sadiqliklə bütün tərəfdaşların inamını qorudu, uğurlu layihələrlə hər kəs üçün qarşılıqlı faydalar, yüksək perspektivli əməkdaşlıq imkanları yaratdı.

İlham Əliyev Ulu Öndər Heydər Əliyevin ən böyük arzusunu, ata vəsiyyətini yerinə yetirdi. Ölkəmizə rəhbərliyi dövründə cənab İlham Əliyev ordu quruculuğu siyasətini uğurla davam etdirdi. Azərbaycanın sosial-iqtisadi nailiyyətləri bu istiqamətdə işlərin geniş miqyasda aparılmasına imkan verdi. Dövlətimiz gələcəyə baxaraq, mövcud imkanlardan istifadə edərək özünün müdafiə sənayesini formalaşdırdı. Həmçinin Azərbaycanın silah istehsal edən bir çox ölkələrlə uğurlu diplomatik əlaqələri, qlobal silah istehsalçıları ilə qarşılıqlı güvənə əsaslanan münasibətləri ordumuzun ən müasir silahlarla təchiz edilməsinə şərait yaratdı. Azərbaycan Prezidentinin müasir ordu quruculuğu istiqamətində atdığı məqsədyönlü addımlar, həyata keçirdiyi kompleks tədbirlər qısa zamanda ordumuzu dünyanın ən qüdrətli orduları sırasında qərarlaşdırdı. Ölkəmizdə ənənələrini Ulu Öndər Heydər Əliyevin qoyduğu hərbi təhsil sistemi daha da təkmilləşdirildi. Ali Baş Komandanın təşəbbüsü və dəstəyi sayəsində minlərcə gənc hərbçimiz qardaş Türkiyənin və dünyanın bir çox qabaqcıl dövlətlərinin əlavə hərbi təhsil və təkmilləşdirmə kurslarına cəlb olundu. Bununla onların peşəkarlıq səviyyəsi daha da yüksəldi.

Prezident İlham Əliyev Azərbaycanda ölkəmizin dövlətçilik dəyərlərinə canı, qanı ilə bağlı vətənpərvər nəsil

yetişdirdi. Öz qətiyyəti, vətən sevgisi, prinsipiallığı ilə onlara örnək yaratdı. Bu nəslin təmsilçiləri 44 günlük Vətən müharibəsində böyük bir tarix yazdılar. Uzun illər ərzində torpaqlarımızda güclü istehkamlar qurmuş, müdafiə xətləri yaratmış düşməni cəmi 44 gün içində darmadağın edərək torpaqlarımızdan qovdular. Ermənistanın illərlə öz ordusu haqqında uydurduğu saxta mifləri havaya uçurdular. Əzəli-əbədi yurdlarımızda dövlət bayrağımızı ucaltdılar. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev bu qələbə ilə regionda yeni reallıqlar yaratdı. Cəmi 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində məhz müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımız son iki əsrdə ilk dəfə olaraq qəsb edilmiş torpaqlarımızı geri almağa müvəffəq oldu.

Bu qələbə ilə, əldə edilən bu nəticə ilə Azərbaycanın tarix boyu yaşamış ən böyük dövlət adamlarının, düşüncə sahiblərinin arzusunu reallaşdırdı. Azərbaycan Prezidenti Ulu Öndər Heydər Əliyevin ən böyük arzusunu, ata vəsiyyətini yerinə yetirdi. Vətən müharibəsindəki Zəfər cənab Prezident İlham Əliyevin müdrik siyasətinin, güclü siyasi iradəsinin, qətiyyətinin təcəssümü oldu. Bu qələbə hər bir azərbaycanlının bu gün və gələcəkdə qürur duyacağı ən böyük hadisə kimi tariximizə həkk olunub.

Cənab İlham Əliyev ordumuzun gücü ilə Ermənistanı hərb meydanında məğlub etdiyi kimi, strateji baxışı, qətiyyəti, müdrikliyi ilə diplomatiya məkanında da məğlubiyyətə uğratdı. Beynəlxalq aləm Azərbaycanın qələbəsini qeyd-şərtsiz qəbul etdi. İlk növbədə ona görə ki, bu, haqqın qələbəsi idi. İşğalçı Ermənistanın öz hərbi birləşmələrini ərazilərimizdən çıxarması barədə BMT-nin illərdən bəri havadan asılı qalmış qətnamələrinin icrasına Azərbaycan ordumuzun gücü ilə nail oldu. Beynəlxalq hü-

ququ, tarixi ədaləti bərpa etdi. Azərbaycanın bu qələbəsi ona görə qəbul edildi ki, ölkəmiz uzun illər ərzində ordumuzu gücləndirdiyi kimi, diplomatik arenalarda da mövqelərimizi möhkəmləndirmişdi. Haqlı olduğumuzu beynəlxalq hüquq normaları çərçivəsində hər kəsə sübut etmiş, uzun illərdən bəri Ermənistanın havadarları kimi ölkəmizə qarşı ikili standartlardan çıxış edən bir çox beynəlxalq təşkilatları fakt qarşısında qoymuşdu.

Bu ilin sentyabr ayında Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Qarabağdakı erməni separatçılarının cəmi 23 saat davam edən antiterror tədbirləri ilə darmadağın və tərk-silah edilmələri göstərdi ki, Azərbaycan Prezidenti dövlətimizi, xalqımızı yalnız qələbədən-qələbəyə aparır.

Bu tarixi, hərbi-siyasi hadisə ilə Prezident İlham Əliyev 2 əsr əvvələ gedib çıxan saxta erməni iddialarının üstündən birdəfəlik xətt çəkdi, "miatsum" ideologiyası tarixə gömüldü. Bununla Prezident İlham Əliyev bir çox böyük güclərin, dünya erməniliyinin regionda öz oyunlarını qurmaqdan ötrü əsrlər əvvəldən ortaya qoyduqları erməni layihəsini iflasa uğratdı.

Ümumiyyətlə, son 3 ildə dövlətimizin öz ərazi bütövlüyünün təmin edilməsi uğrunda qazandığı nailiyyətləri təhlil etdikcə, bütün bunların nöqtəsinə qədər necə müdrikliklə, zərgər dəqiqliyi ilə reallaşdırıldığını görürük. Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin, Şuşa şəhərinin hərbi əməliyyatlar nəticəsində azad edilməsi, Şuşanın azadlığından sonra faktiki kapitulyasiya aktına imza atmaq məcburiyyətində qalan düşmənin Ağdam, Kəlbəcər, Laçın rayonlarından döyüşsüz çıxarılması, Laçın yolunda alternativ yeni yolun çəkilişinin ardınca Laçın şəhərinin, rayo-

nun Zabux və Sus kəndlərinin boşaldılması, 2023-cü ilin aprel ayında Azərbaycanın Laçın yolunda Ermənistanla sərhəddə sərhəd-keçid məntəqəsi yaradaraq ərazi bütövlüyünə nail olması, Ermənistanla dövlət sərhədindəki mövqelərdə möhkəmlənərək strateji üstünlüyü təmin etməsi və ən nəhayət, qısamüddətli antiterror əməliyyatı ilə Qarabağdakı kriminal xuntanın ömrünə son qoyulması, Xankəndi də daxil olmaqla Qarabağın bütün ərazilərində dövlət suverenliyimizin bərpa edilməsi, dünənə qədər Azərbaycanı təhdid edən separatçıların əsas liderlərinin qandallanaraq mühakimə üçün Bakıya gətirilməsi bütün bu işlərin necə diqqət və səbrlə, bir o qədər də sarsılmaz qətiyyətlə aparıldığını nümayiş etdirir.

Bir məsələni də xüsusi ilə qeyd etməliyik ki, Azərbaycan istər Vətən müharibəsinə hazırlıq dövründə, istər müharibə zamanı, istərsə də hərbi əməliyyatlar başa çatandan sonra da ölkəmizə qarşı yönələ biləcək hər hansı pozuntuya yol vermədi. Düşmənin hərbi təxribatlarına cavab zərbələrini belə hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları çərçivəsində, hərbi konvensiyalara uyğun şəkildə, mülki əhaliyə heç bir xətər toxundurmadan, düşmənin yalnız legitim hərbi obyektlərini hədəf seçərək endirdi. Azərbaycan innovativ silahlarla XXI əsrin müharibəsini apardı.

Bu yerdə Prezident İlham Əliyevin 2003-cü il oktyabrın 31-də Prezident kimi ilk andiçmə mərasimində dediyi sözləri xatırlamaq istəyirəm. Həmin andiçmədə möhtərəm Prezident artıq keçmişdə qalmış Qarabağ problemi barədə demişdi: “Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmi-

zin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir”.

Bəli, cənab İlham Əliyev necə demişdisə, elə də etdi. Azərbaycan torpaqları işğal altında qalmadı, ərazilərində ikinci erməni dövlətinin yaradılmasına imkan vermədi və cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə doğma torpaqlarımız işğaldan azad edildi.

Cənab İlham Əliyev sözünə imzası qədər dəyər verən Prezidentdir. Tarixi Zəfərimizdən – düşməndən təmizlənmiş doğma yurd yerlərimizdəki vəziyyət gün işığına çıxandan sonra ermənilərin təxminən 30 il ərzində bu torpaqlarda həyata keçirdikləri inanılmaz vandalizm cinayətləri bütün dünyaya sərgiləndi. Uzun illər ərzində müəyyən təəssübkeşliklərlə beynəlxalq aləmdə ermənilərin müdafiəçiləri mövqeyində duranlar belə bu reallıq qarşısında utanıb susmaqdan başqa yol görmədilər. Vandalizm mənzərəsi göstərirdi ki, ermənilər uzun illər ərzində bu ərazilərdə azərbaycanlıların min bir əziyyətlə qurub yaratdıqlarını söküb satmaqdan başqa bir iş görməyiblər. Özlərini heç zaman bu torpaqların sahibi saymayıblar, bir gün torpağın əsl sahibinin gələcəyinə, onları xaraba qoyduqları yurdlarımızdan qovacağına əmin olublar. Azərbaycan özlərini uzun illərdir sivil xalq kimi təqdim etməyə çalışan ermənilərin əsl simasını dünyaya sərgilədi.

Bu gün Azərbaycan dövləti daha bir nümunə göstərir, ermənilərin xaraba qoyduqları rayonları, kəndlərimizi öz

maliyyə imkanları hesabına yenidən qurur, dirçəldib abadlaşdırır, bu yerlərə həyat gətirir. Cəmi 3 ilə yaxın müddətdə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa işlərinin miqyası, həqiqətən də, əzəmətlidir. "Zəfər Yolu"nun, Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının, elektrik yarımstansiyalarının, su elektrik stansiyalarının inşası, Füzuli və Laçın şəhərlərinə, Zəngilanın Ağalı, Tərtərin Çaylı, Laçının Zabux kəndlərinin sakinlərinin doğma yurdlarına dönüşü, hazırda onlarla müxtəlif infrastruktur layihəsinin icra edilməsi Böyük Qayıdışın nə qədər sürətli olduğunu göstərir. Azərbaycan Prezidenti bununla kimin regionda inkişafa, tərəqqiyə, insanların rifahına, kimin dağıdıcılığa, qəsbkarlığa, yeni insan faciələrinə xidmət etdiyini bəşəriyyət önündə sübuta yetirir.

Eyni zamanda, Azərbaycanın Vətən müharibəsindəki qələbəmizdən sonra Ermənistanla apardığı danışıqlar, bütün məsələlərin insan itkilərinə yol vermədən, ölkələrin bir-birinin ərazi bütövlüyünə hörmət prinsipləri çərçivəsində yoluna qoyulması üçün qarşı tərəfə verdiyi imkanlar Prezident İlham Əliyevin sülh prinsiplərinə nə qədər sadiqliyini, sülh imkanlarını ən son perspektivə qədər dəyərləndirdiyini göstərir.

Prezident İlham Əliyevin hər bir vətəndaşımız üçün təmin etdiyi hüquqlar, cəmiyyətimizdə əsrlərdən bəri mövcud olan multikulturalizm, fərqli mədəniyyətlərə hörmət ənənələrinin qorunması Azərbaycan vətəndaşlığını qəbul edən ermənilərin də ölkəmizdə problemsiz yaşayıb dövlətimizin sosial-iqtisadi imkanlarından faydalanmasına şərait yaradır. Bunun özü də cənab İlham Əliyevin müdrikliklə həyata keçirdiyi strategiyaya daxildir. Şərqlə Qərbin təmas məkanı olan Azərbaycan dövləti ötən onilliklər ərzində həyata keçirdiyi siyasətlə, dünyaya təlqin etdiyi

multikulturalizm dəyərləri ilə sübuta yetirib ki, bütün bunlar, sadəcə, bəyanat deyil, hər sözünə imzası qədər dəyər verən qətiyyətli liderin təqdim etdiyi reallıqlardır.

Azərbaycan Prezidenti özünün də bəyan etdiyi kimi, "nəyi, necə, nə vaxt edəcəyi"ni yaxşı bilən mahir strateq, zəmanəmizin ən parlaq liderlərindən biri, dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə yetirmiş rəhbərdir. Cənab İlham Əliyevin imza atdığı bugünkü nailiyyətlər Azərbaycanın gələcəkdəki daha böyük uğurları üçün möhkəm təməllər formalaşdırır.

## ***17 oktyabr 2023-cü il***

**Adil Əliyev.** Xalqımız tarixi hadisələrə şahidlik etməyə davam edir. 15 oktyabr tarixində Prezident İlham Əliyev tərəfindən Xankəndi şəhərində ucaldılan Azərbaycan Bayrağı suverenliyimizin bərpa edilməsinin  yekun nəticəsi idi. Uzun illər düşmən işğalında qalmış tarixi torpaqlarımız müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Dövlət başçısının diplomatiya sahəsində atdığı uğurlu addımlar nəticəsində şəhər və kəndlərimiz bir güllə belə atılmadan düşməndən azad edildi.

Bu ilin sentyabrında 24 saatdan da az davam edən lokal antiterror əməliyyatları suverenliyimizin bərqərar edilməsi ilə yekunlaşdı. Hələ İkinci Qarabağ müharibəsinin gedişində dövlət başçısı günahkarların cəzalandırılacağını və törətdikləri cinayətlərə görə məsuliyyətə cəlb ediləcəklərini bildirmişdi. Bu gün əli həmvətənlərimizin qanlarına batmış dırnaqarası rejimin rəhbərləri məhkəmələrimiz qarşısında törətdikləri cinayətlərə görə cavab verirlər.

Tarixi ədalətin bərpa edilərək Xankəndi şəhərində

bayrağımızın ucaldılması həm də tarixi qələbəmizə kölgə salmağa cəhd edənlərə ən tutarlı cavab idi. Zəfərimizi qəbul edə bilməyən və buna qısqanclıqla yanaşan xaricdə ermənipərəst Fransadırsa, təəssüf ki, daxildə də marjinal müxalifətdir. Tarixi qələbəmizə dil uzadanlar həm də vətən yolunda canlarını qurban verən şəhidlərimizin əziz ruhlarını narahat edirlər. Zəfərimizi yarımçıq qələbə kimi qiymətləndirənlərin, Xocalısız, Xankəndisiz qələbənin tam olmadığını qeyd edənlərin bugünkü susqunluğunun yalnız bir cavabı var: 1991–1993-cü illərdə bu ölkənin başına gətirdiyiniz fəlakətin həll edilməsi üçün 30 il vaxt lazım oldu. Azərbaycan xalqı hakimiyyət uğrunda apardığınız savaş zamanı düşmənin işğalına göz yummağınızı heç zaman unutmayacaq.

Dövlət başçısı 20 il əvvəl xalqa verdiyi sözü yerinə yetirərək ölkəmizin ərazi bütövlüyünü tam bərpa və suverenliyini bərqərar etdi. İşğaldan azad edilmiş ərazilərdə böyük abadlıq və quruculuq işləri aparılır.

Bu gün həm də Füzuli şəhərinin düşmən işğalından azad olunduğu gündür. 3 ildən də qısa müddətdə işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Füzuliyə də həyat qayıdıb. 30 il doğma yurd həsrəti çəkmiş məcburi köçkünlər artıq öz evlərindədir. Böyük Qayıdış proqramı uğurla icra edilir və hər kəs doğma yurda dönür. Artıq ölkəmizdə yeni inkişaf mərhələsi başlayıb, Qarabağa və Şərqi Zəngəzura uzun illərdən sonra həyat qayıdıb. Müzəffər Ali Baş Komandanın Xankəndi şəhərində dediyi kimi, qələbəmizə görə vətən övladlarına borcluyuq.

**Aqiyə Naxçıvanlı.** Taleyinə əzəmətli tarixi missiya yazılmış liderlərin fəaliyyətinin nəticəsi xalqın, ölkənin, bəzən böyük bir bölgənin yeni tarixinin yaradılması olur. Böyük fəxarət və qürur hissi ilə deyə bilərik ki, biz Azər-

baycanın yeni şərəfli tarixinin xoşbəxtliyini yaşamaqdayıq. Xalqımız xoşbəxtdir ki, İlham Əliyev kimi həyatını müasir müstəqil dövlətimizin davamlı tərəqqisinə həsr edən, 30 illik erməni işğalına son qoyaraq əzəli torpaqlarımızı, Qarabağımızı rəşadətli ordumuzla azad edərək parlaq qələbə qazanan, suverenliyimizi bərpa edən müzəffər sərkərdəsi, qalib lideri vardır. Prezident İlham Əliyevin Xankəndi şəhərinə səfər etməsi, Azərbaycanın Dövlət Bayrağını ucaltması 3 il əvvəl qazanılmış Zəfərin ən şanlı səhifəsidir. Cənab Prezident İlham Əliyev Xankəndiyə, Xocalıya, Əsgərana, Xocavəndə və Ağdərəyə bayraq sancaraq, Azərbaycanın suverenliyinin tam bərpa edilməsini rəsmiləşdirməsinin 15 oktyabra təsadüf etməsi həm də siyasi məna daşıyır. Bu gün Azərbaycanın suverenliyinin bərpası günü olaraq tarixə düşdü.

15 oktyabr tarixi bir gün kimi Azərbaycanın şanlı və qürurlu səhifəsidir. 20 il əvvəl Azərbaycanın dövlət başçısı seçilən cənab İlham Əliyev bu tarixi günü Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağını qaldırmaqla dövlətimizin suverenliyini təmin etmiş yenilməz sərkərdə olduğunu bir daha təsdiq etdi. Cənab Prezident Xankəndidə etdiyi çıxışında çox müdrikcəsinə qeyd etdi ki, müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün isə güclü iqtisadiyyatın, güclü ordun olmalıdır. Dövlətimizin başçısı 17 il ərzində elə bir ordu yaratdı ki, bu ordu üç il bundan öncə, Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdi. Ordu quruculuğu işi tarixi qələbəmizdən sonra da yüksək intensivliklə davam etdirilir. Bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər. Şanlı ordumuz bunu növbəti dəfə II Qarabağ savaşından

üç il sonra, keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatının gedişində bir daha sübut etdi. Bu əməliyyatın nəticəsində düşmən yenə də ağ bayraq qaldıraraq təslim oldu. Bu gün bütün xalqımız, bütün dünya azərbaycanlıları haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edir, şəhidlərimizin ruhu qarşısında baş əyir. Möhtərəm Prezidentimizin dediyi kimi, biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq.

20 il ərzində möhtərəm dövlət başçımız verdiyi bütün vədlərə əməl etdi, qarşıya qoyduğu bütün vəzifələri layiqincə icra etdi. O, bu illər ərzində Azərbaycanın güclənməsi, dünya miqyasında öz layiqli yerini tuta bilməsi üçün məqsədyönlü addımlar atdı, möhtəşəm işlər gördü.

Bu gün bizə sonsuz qürur yaşadan bu şərəfli tarix həm də Ulu Öndər Heydər Əliyevin 100 illiyində yazılır. Azərbaycanın dövlət müstəqilliyini qoruyan məhz Ulu Öndər Heydər Əliyev oldu. Xalq Ulu Öndər Heydər Əliyevi haqlı olaraq xilaskar adlandırmışdır. Cənab Prezident İlham Əliyevin oktyabrın 15-də Xankəndidə üçrəngli bayrağımızı qaldırarkən dediyi kimi: “Biz Heydər Əliyevin 100 illiyini il boyunca qeyd edirik. Onun siyasətinə, onun tarixi irsinə hörmət göstərərək, onun siyasətini davam etdirərək qeyd edirik. Bizim Ulu Öndərin xatirəsinə hörmətimiz əməli işlərlə ölçülməlidir. Ulu Öndərin 100 illiyini hər bir azərbaycanlının ürəyində yaşayan Şuşada qeyd etmək bizim üçün böyük rəmzi məna daşıyır”. Bu gün Ulu Öndərin və şəhidlərin ruhları şaddır. Artıq Azərbaycan Bayrağı Şuşada, Xankəndidə və bütün Qarabağ ərazisində qaldırılıb və əbədi dalğalanacaqdır!

Allah möhtərəm cənab Prezidentimizi və xalqımızı qorusun!

**Əliabbas Salahzadə.** Sizlərin hər birinizi oktyabrın 15-i

günü müqəddəs bayrağımızın Xankəndi şəhərində ucaldılması və Azərbaycanın suveren hüquqlarının bütün ölkə ərazisində bərqərar olması münasibəti ilə təbrik edirəm. Ölkəmizin ərazi bütövlüyünün bərpası yolunda şəhid olmuş bacı və qardaşlarımıza uca Tanrıdan rəhmət diləyir, qazilərimizə tez bir zamanda sağlamlıqlarına qovuşmağı arzulayıram.

Bu Zəfərin qazanılmasının yeganə müəllifi, heç şübhəsizdir ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevdir. Onun məhz Prezident seçilməsinin 20-ci ildönümündə vaxtı ilə işğal olunmuş və son illərə qədər erməni işğalçılarının nəzarətində qalan sonuncu torpaqlarımızda da bayrağımızı ucaltması 20 il ərzində  gördüyü işlərin məntiqi nəticəsidir. Xankəndi şəhərində bayrağımızın ucaldılması, eyni zamanda, cənab Prezidentimizin də söylədiyi kimi, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə təsadüf edir. Bugünkü Azərbaycan məhz Ulu Öndərin atdığı zəminlər üzərində dayanır və inkişaf edir. Onun apardığı siyasət, əsasını qoyduğu prinsiplər bugünkü qələbələrimizi əldə etməyə əsaslar yaratmışdır.

Paralel olaraq, bu il həm də 100 il öncə erməniləri bu bölgəyə köçürmüş Rusiya İmperiyasının siyasi varisi olan Sovet dövlətinin mənfur siyasi maraqlarına görə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasından 100 il keçir. Məhz həmin qondarma qurumun yaranmasının 100-cü ilində onun ortadan qaldırılması xalqımızın illər ərzində apardığı mübarizəsinin nəticəsi və böyük uğurumuzdur.

Göründüyü kimi, tarixlər simvolik baxımdan da önəmli və məntiqlidir. Qarşımızda duran növbəti hədəf, hesab edərdim ki, Zəngəzur dəhlizinin açılması və türk dünyasının coğrafi  bağlılığının təşkil edilməsidir.

Əminəm ki, möhtərəm cənab Prezidentimizin rəhbərliyi

və dəmir iradəsi ilə, fərq etməz, istər siyasi olsun, istərsə də hərbi yolla bu məsələnin həllinə nail olacağıq.

Doğrudur, ölkəmiz dünyada bütün dövrlər üzrə sülhyönümlülüyü ilə seçilir. Bizim başqalarının torpaqlarında heç zaman gözümüz olmayıb. Burada "başqalarının torpaqları" sözlərini xüsusi ilə qeyd edirəm və diqqətdə saxlamağınızı xahiş edirəm. Çünki, əslində, Qərbi Zəngəzur bizim öz torpaqlarımızdır və 103 il öncə noyabrın 30-da Sovet Ermənistanına peşkəş edilmişdir. Bu gün Ermənistanla sülh müqaviləsinin bağlanması bizim yox, daha çox onların marağına uyğundur. Bununla belə, erməni tərəfi sülh müqaviləsinin bağlanılmasını müxtəlif bəhanələrlə yubadır.

Hesab edirəm ki, növbəti mərhələdə yubanma və təxribatların davam edəcəyi təqdirdə, sabah 32-ci ildönümünü qeyd edəcəyimiz Müstəqilliyin bərpası aktında əksini tapmış "Azərbaycan Respublikası 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" prinsipi işə düşməli və dövlətimizin hüdudları 1920-ci ilin aprel ayının 27-nə olan dövrəqədərki hüdudlara qaytarılmalıdır. Buna həm mənəvi, həm siyasi, həm də ən başlıcası hüquqi haqqımız vardır.

Hər birinizi təbrik edir, bundan sonra da cənab Prezidentimizin ətrafında sıx birləşərək xalqımızla birlikdə daha böyük zəfərlərə nail olmağı arzulayıram.

**Kamran Bayramov.** 15 oktyabr tarixi ədalət təntənəsinin rəmzi olmaqla Azərbaycan xalqının yaddaşında əbədi həkk olunacaq. Məhz bu tarixdə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev ölkəmizə rəhbər seçilməsinin 20-ci ildönümündə Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə, Əsgəranda və Sərsəng su anbarının ərazisində müqəddəs

bayrağımızı qaldırmaqla Azərbaycan xalqının çoxillik əzablarına, iztirablarına, həyəcanına son qoydu, torpaqlarımızın hər bir qarışına sahib çıxdı, regionda tüğyan edən separatçılığın kökünü kəsdi, ölkəmizin tarixi Zəfərini rəsmiləşdirdi.

Cənab Prezident dünyada və regionda mövcud olan mürəkkəb vəziyyətə, bütün daxili və xarici maneələrə, təsirlərə və təzyiqlərə baxmayaraq, düz 20 il bundan əvvəl xalqına verdiyi vədləri təmkinlə, məharətlə, cəsarətlə yerinə yetirdi, Azərbaycan torpaqlarını erməni işğalından azad etdi, Qarabağ münaqişəsinə son qoydu, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etdi.

Dövlətimizin və xalqımızın həyatındakı faciəli və dəhşətli səhifələr, nəhayət, geridə qalır. Qarşıda isə bizi gözəl, xoşbəxt günlər gözləyir. Heç bir şübhə yoxdur ki, cənab Prezident doğma Qarabağımıza şöhrətini qaytaracaq, hər bir şəhərinin, qəsəbəsinin, kəndinin bərpasını, yenidən qurulmasını başa çatdıracaq, soydaşlarımızın doğma diyarlarına qayıdışını təmin edəcək, və ən əsası, Qarabağa sülh, inkişaf və əmin-amanlıq gətirəcək.

Amma təəssüflə qeyd etmək lazımdır ki, sevinənlərlə yanaşı, Azərbaycanın zəfərinə və triumfuna sevinməyənlər, cənab Prezident Xankəndidə qeyd etdiyi kimi, vaxtı ilə Ermənistanı işğala təhrik edənlər, dəstək verənlər və bəraət qazandıranlar var.

Bəli, həmin dövlətlərin, qurumların, qüvvələrin Azərbaycana qarşı münasibəti bu gün də dəyişməyib, amma unutmasınlar ki, Azərbaycan dəyişib. İlham Əliyevin sayəsində ölkəmiz daha güclü, daha qüdrətli, daha uğurlu olub. Bu gün Azərbaycan Cənubi Qafqazın siyasi, iqtisadi və hərbi lideri olmaqla, dünyada siyasi çəkisi, müttəfiqlərinin sayı gündən-günə artmaqdadır.

Buna görə də həmin dövlətlər, qurumlar, qüvvələr bilsinlər ki, onların ölkəmizə qarşı qərəzli təxribat cəhdləri, qəbul etdikləri kağız parçaları Azərbaycanı haqq yolundan döndərə bilməz, onun güclənməsinə və inkişafına, regionda və dünyada nüfuzunun artmasına təsir göstərə bilməz!

**Malik Həsənov.** Hər birimiz özümüzü son 500 illik tariximizin ən xoşbəxt nəsillərinin nümayəndəsi hesab edə bilərik. Müzəffər Ali Baş Komandan, möhtərəm cənab Prezidentimiz oktyabr ayının 15-də Əsgəran, Xocalı, Xocavənd, Ağdərə və Xankəndi şəhərlərində zəfər bayrağımızı ucaltmaqla 100 ildən çox tarixi olan və minlərlə şəhid verməyimizə səbəb olan bir problemi ortadan qaldırdı. Cənab Prezidentimizin siyasi hakimiyyətə gəlməsinin 20-ci ildönümündə hər birimiz onun fəaliyyətinin müxtəlif istiqamətlərini təhlil edir və dəyərləndiririk. Bu təhlil və dəyərləndirmələr təkcə ölkəmizdə deyil, paralel olaraq, beynəlxalq siyasi arenada da aparılır.

Mən deyərdim ki, oktyabr ayının 15-də Xankəndi şəhərində möhtərəm cənab Prezidentimiz tərəfindən bayrağımızın ucaldılması onun 20 illik fəaliyyətinin nəticəsidir.

Cənab İlham Əliyevin fəaliyyəti haqqında cildlərlə kitablar yazmaq olar. Lakin bu kitabların hamısında əks olunan məlumatları ümumiləşdirəcək bir cümlə kifayətdir: İlham Əliyev Qarabağı azad etmiş, hakimiyyətə gəlməsinin 20-ci ildönümü günü Xankəndi şəhərində Azərbaycan Bayrağını ucaldan tarixi şəxsiyyət, müzəffər Ali Baş Komandandır.

Artıq oktyabrın 15-dən sonra ölkəmizin siyasi, iqtisadi, mədəni həyatında yeni dönəm başlamışdır. Bu dönəmin növbəti hədəfləri azadlığına nail olduğumuz torpaqlarda sürətli quruculuq və qayıdış işinin təşkili, ölkəmizin siyasi

nüfuzunun beynəlxalq arenada daha da yüksəldilməsi və bu kontekstdə beynəlxalq oyunçular sırasında öncül mövqelərə nail olaraq, geosiyasi proseslərə təsir imkanlarımızı artırmaq, iqtisadi yüksəlişin dayanıqlı artım tempini qoruyub saxlamaq, insan kapitalını artırmaqla elmdə, təhsildə, mədəniyyətdə, incəsənətdə tərəqqiyə nail olmaqdır.

Üç il müddətində torpaqlarımızın işğaldan mərhələli azad olunmasına nail olmağımızın ən başlıca səbəbi milli birliyimizin formalaşması, xalq–prezident–ordu üçlüyünün bütünlüyünə nail olmaq olmuşdur. Bundan sonrakı uğurlarımız da bu üçlüyün, üstəgəl, xaricdə yaşayan soydaşlarımızın, eləcə də qardaş türk dövlətlərinin birliyinə nail olmaq yolundan keçir.

Bir daha hər birinizi ürəkdən təbrik edirəm, möhtərəm cənab Prezidentimizə möhkəm can sağlığı, uğurlar və yeni zəfərlər arzulayıram.

**Musa Quliyev.** Sevincli, xoşbəxt günlər yaşayırıq. Oktyabrın 15-də cənab Prezident İlham Əliyev Xankəndidə üçrəngli müqəddəs bayrağımızı qaldırdı. İndi Xocalıda, Xocavənddə, Əsgəranda, ölkəmizin hər bir guşəsində ay-ulduzlu bayrağımız qürurla dalğalanır. Torpaqlarımızı işğaldan azad etmişik, ərazi bütövlüyümüzü bərpa etmişik, suverenliyimizi təmin etmişik.

Cənab Prezidentin respublikamıza rəhbərlik etdiyi 20 ilin hər ili bir tarixdir, bir dərsdir, bir uğur hekayəsidir. Bu illər ərzində cənab İlham Əliyev müasir Azərbaycanın yeni tarixini yaratdı, qüdrətli dövlət, sabit cəmiyyət, güclü ordu qurdu, milli ruhlu, vətənpərvər yeni nəsil yetişdirdi.

44 günlük Vətən müharibəsindəki parlaq qələbəmiz dünya dövlətlərini bizimlə daha ehtiramla davranmağa sövq etdi. 30 il ərzində ərazi bütövlüyümüzü dilinə gətirməyən Qərb siyasətçiləri indi 86,6 min kvadrat kilometr

sözlərini əzbərdən deyirlər.

Bir vaxtlar Xankəndidə "Qarabağ Ermənistandır, nöqtə" deyən Ermənistanın Baş nazirinə cənab Prezident "Valday" Beynəlxalq Diskussiya Klubunun forumunda tutarlı cavab vermiş və söyləmişdi: "Qarabağ Azərbaycandır və nida"!

Mən Xankəndidə qaldırılan o müqəddəs bayrağı cənab Ali Baş Komandanın vətənə xidmətinin nida işarəsi kimi görürəm.

Cənab Prezident İlham Əliyev yerli televiziyalarımıza bir müsahibəsində demişdir: "Babamın məzarı önündə ürəyimdə dediyim sözləri, ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm".

Məncə, o gün lap yaxındadır. Biz yaxın günlərdə o sözləri eşidəcəyik. O gün cənab Prezidentin söylədiyi fikirlər növbəti nida işarələri ilə bitəcəkdir. Bu nidalar tarixi torpaqlarımızda dalğalanacaq bayraqlarımız olacaqdır!

Bu müqəddəs yolda sizə yeni-yeni uğurlar arzulayırıq, əziz Prezident! Bir xalq olaraq arxanızdayıq!

**Sevinc Hüseynova.** Danılmaz həqiqətdir ki, Azərbaycan xalqı istər XX əsrin sonlarında, istərsə də XXI əsrin əvvəllərində öz müdrik liderləri Heydər Əliyevin və İlham Əliyevin qətiyyətli, milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanan siyasəti sayəsində dövlətimizin yüksəlişinin, üçrəngli bayrağımızın ən yüksək zirvələrdə dəfələrlə, əzmlə dalğalanmasının qürurunu yaşamışdır. 15 oktyabr tarixində üçrəngli bayrağımızın əzəli, əbədi olan Xankəndi şəhərinin mərkəzi meydanında qələbə salnaməsinin müəllifi Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən ucaldılması xalqımız tərəfindən böyük qürur, fəxarət və sevinc hissləri ilə qarşılanmışdır.

Onilliklərlə qəlbində vətən nisgili ilə yaşayan xalqımız

ən ümdə arzusuna çatdı. Artıq Azərbaycan Bayrağı işğaldan azad olunan bütün rayonlarımızda dalğalanır. Artıq şəhidlərimizin, soyqırımlara məruz qalmış vətəndaşlarımızın ruhları rahatdır.

Təbii ki, bu, böyük məna daşıyan, böyük əhəmiyyətə malik olan tarixi hadisədir. Çünki tarixi reallığı açıq ifadə edir, əsrlər boyu bu torpaqlarda yaşayan insanların haqlarının, ədalətin bərqərar olmasını təsdiqləyir. Bu hadisə 44 günlük Vətən müharibəsi və 23 saat davam edən antiterror tədbirləri nəticəsində əldə olunmuş qələbənin yaratdığı reallığı göstərir. Bu həm də Ulu Öndər Heydər Əliyev siyasətinin təntənəsini tərənnüm edir.

Belə ki, 1990-cı ilin əvvəllərində müstəqilliyimizin itirilməsi təhlükəsi ilə üzləşdiyimiz və torpaqlarımızın işğala məruz qaldığı vaxtda müdrik dövlət xadimi Heydər Əliyev xalqın təkidli tələbi ilə xilaskarlıq missiyasını öz üzərinə götürmüş və şərəflə yerinə yetirmişdir. Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti Azərbaycanımızı tənəzzüldən tərəqqi yoluna çıxarmış, xalqımızın milli sərvəti olan müstəqilliyinin əbədi və dönməzliyini təmin etmişdir.

Ulu Öndərin ən böyük xidmətlərindən biri də siyasi varisliyi təmin etməsi olmuşdur. 2003-cü ilin məhz elə 15 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev verdiyi vədləri, ona bəslənilən bütün ümidləri ötən müddətdə müdrik fəaliyyəti ilə ən mükəmməl şəkildə doğrultdu, Heydər Əliyevin layiqli varisi olduğunu sübuta yetirdi.

Prezident İlham Əliyevin liderliyi ilə ölkəmiz böyük uğurlar əldə etdi. Azərbaycan ötən 20 il ərzində böyük infrastruktur layihələri həyata keçirməklə, biznes mühitini

yaxşılaşdırmaqla, xarici investorları cəlb etməklə iqtisadi sahədə böyük uğurlar qazanıb. Bunun nəticəsində dünya miqyasında iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkə kimi tanınıb. Siyasi sabitlik baxımından respublikamız bir çox ölkələr üçün örnəyə, nümunəyə çevrilib. Bu uğuru şərtləndirən amillər haqqında danışarkən qeyd edək ki, 30 illik işğal dövründə ölkəmizin hərbi qüdrətinin mükəmməlləşməsi üçün çox iş görülmüşdür. Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu ordumuz dahi şəxsiyyətin layiqli varisi Prezident İlham Əliyev tərəfindən modernləşdirilən Silahlı Qüvvələrə çevrilmişdir. Dövlət başçısı təmkinlə diplomatik sahədə təxirəsalınmaz tədbirlər reallaşdırmış, beynəlxalq tribunalardan Qarabağ həqiqətlərini dünyaya bəyan etmiş, aparıcı dövlətlərin rəhbərlərinin diqqətinə bu bölgənin xalqımızın əzəli torpağı olduğunu çatdırmışdır.

İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun dünyada hərbi əməliyyatların planlaşdırılmasının, həyata keçirilməsinin və yekunlaşdırılmasının yeni texnologiyalara əsaslanan ilk praktik nümunəsini bütün dünyaya göstərdi. Bu savaş xalqımızın mətin iradəyə malik olduğunu, milli ideya ətrafında sıx birləşmək gücünü və işğala boyun əyməmək əzmini təsdiqlədi. Dövlət–xalq–ordu birliyi zəfərin əldə olunmasını şərtləndirdi. Prezident İlham Əliyev diplomatik məharəti və yenilməz sərkərdəlik qabiliyyəti ilə əsl lider olduğunu bir daha təsdiq etdi. Ermənilərin Cənubi Qafqaza köçürülməsindən və torpaqlarımızda kompakt yaşamağa başladığı vaxtdan keçən təxminən 200 illik bir dövrdə ərsəyə gətirdikləri "dənizdən-dənizə böyük Ermənistan" kimi mifik təsəvvürlərə əsaslanan xəstə milli ideyası Vətən müharibəsində darmadağın edildi. Prezident İlham Əliyevin rəhbərliyi altında

düşmənin ərazilərimizdən qovulması, bir müddət sonra sərhəddə Laçın rayonunda Həkəri çayının üstündəki körpüdə nəzarət-buraxılış məntəqəsinin qurulması ilə bütün sərhədlərimiz üzərində nəzarətin əldə edilməsi, lokal antiterror tədbirlərindən sonra separatçı rejimin dövlətimizin şərtlərini qəbul edərək ağ bayraq qaldırması nəticəsində bütün ərazilərimizdə suverenliyimiz tam bərpa olundu. Bununla da Heydər Əliyev siyasəti hər iki liderin fəaliyyəti sayəsində Azərbaycanımızı tənəzzüldən tərəqqiyə, tərəqqidən isə Zəfərə gətirdi. Vaxtı ilə Azərbaycan xalqına qarşı qanlı cinayətlər törətmiş şəxslər, dövlətimizi hədələyən terrorçular hazırda  ədalət mühakiməsi qarşısındadır. Onların çoxu, xüsusən qondarma rejimin rəhbərliyində olanların bəziləri artıq Bakıda istintaq təcridxanasındadır. Xalqımız tam əmindir ki, nəinki onlar, ümumiyyətlə, xalqımıza qarşı cinayət törətmiş hər kəs öz layiqli cəzasını alacaq. Prezidentimizin qaldırdığı bayraq daim dalğalanacaqdır.

**Tamam Cəfərova.** Bu gün xalqımız öz dövlətçilik tarixinin ən şərəfli və qürurverici günlərini yaşayır. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev prezident vəzifəsinə seçilməsinin 20-ci ildönümündə, 15 oktyabrda tarixi torpaqlarımız olan Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərlərində və Əsgəran qəsəbəsində  müqəddəs üçrəngli bayrağımızı qaldırdı və bununla da bir əsrlik saxtakarlığa son qoydu, ölkəmizin bütün ərazisində suverenliyimiz bərpa edildi.

Bu şərəfli, tarixi gün cənab Prezidentin 20 illik gərgin fəaliyyətinin zəfər zirvəsidir. 2003-cü ilin oktyabr ayının 15-də keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı etimad göstərərək öz səsini cənab İlham Əliyevə verdi. Bu münasibətlə xalqa müraciət edən möhtərəm dövlət

başçımız söz vermişdi ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcək və Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq. Bu əlamətdar gündən düz 20 il sonra, 2023-cü ilin 15 oktyabrında Azərbaycan Prezidenti növbəti dəfə tarix yazdı. Söz verdiyi kimi, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi.

Bu tarixi hadisənin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə təsadüf etməsinin böyük rəmzi mənası var. Ulu Öndərimizin xalqa və öz siyasi varisi cənab İlham Əliyevə ən böyük vəsiyyəti torpaqlarımızın işğaldan azad olunması idi. Bu gün Ulu Öndərin və şəhidlərimizin ruhu şaddır.

Azərbaycan xalqı da bütün bu iyirmi ili öz Prezidentinin ətrafında daha sıx birləşərək bu müqəddəs amala doğru inamla irəliləyirdi. Bu illər ərzində dövlət başçımızın müdrik siyasəti və nadir strategiyası sayəsində Azərbaycan ilk növbədə öz iqtisadiyyatını gücləndirdi və ordu quruculuğu işini tamamilə yeni bir mərhələyə çıxardı. Çünki möhtərəm Prezidentimizin oktyabrın 15-də xalqa ünvanlanmış müraciətində də qeyd etdiyi kimi, əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın və ordun olmalıdır. Yeni dövrün müasir lideri kimi cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz davamlı inkişaf yoluna qədəm qoydu. Həmçinin ötən dövr ərzində uğurlu xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq statusu sürətlə artmağa başladı. Ölkəmiz dünya miqyasında özünə layiq yerini tuta bildi. Bu gün dünyanın ən iri, qabaqcıl dövlətləri belə Azərbaycanla hesablaşır, onun mövqeyini, iradəsini nəzərə almalı olurlar. Bütün bunlar Prezidentimizin uğuru, onun siyasi peşəkarlığının nəticəsidir.

Bu unudulmaz tarix bir xalqın öz lideri ilə həmrəyliyinin, birliyinin təntənəsidir. Cənab Prezident gərgin əməyi, qətiyyəti, iradəsi ilə ötən 20 illik fəaliyyətində

göstərdi ki, o, xalqına verdiyi bütün vədləri yerinə yetirmək iqtidarındadır. O, sübut etdi ki, onun sözü imzası qədər keçərlidir. O, göstərdi ki, nəyi necə və nə vaxt etmək lazımdır, yaxşı bilir. Bu gün əminliklə deyə bilərik ki, biz çox xoşbəxt xalqıq. Ona görə xoşbəxtik ki, İlham Əliyev kimi liderimiz var. Ona görə xoşbəxtik ki, cənab Prezident İlham Əliyevin reallığa çevirdiyi bu unudulmaz tarixin şahidləriyik.

Ali Baş Komandan İlham Əliyev və şanlı Azərbaycan Ordusu Azərbaycan tarixinə qəhrəmanlıq salnaməsi yazdılar. Böyük qürur və şükranlıqla qeyd etməliyik ki, bu şanlı tarixin memarı Ali Baş Komandan İlham Əliyevdir. Bu xalq öz qalib lideri İlham Əliyevlə yenilməzdir. Müzəffər rəhbər İlham Əliyev də onun ətrafında sıx birləşmiş xalqı ilə güclüdür. Ona şükranlığımız, böyük mükafatımız ümumxalq sevgisi və alqışıdır. Bir daha bu tarixi gün münasibəti ilə başda cənab Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev olmaqla Azərbaycan xalqını təbrik edirəm. Bu uğurda canından keçən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm.

**Vahid Əhmədov.** Oktyabrın 15-də Prezident İlham Əliyev Xankəndi, Ağdərə, Əsgəran, Xocalı və Xocavənddə Azərbaycan Respublikasının Dövlət Bayrağını qaldırdı. İşğaldan azad edilmiş ərazilərdə qaldırılan Dövlət Bayrağımız 8 noyabr Zəfərinə kölgə salmaq istəyən təxribatçı qüvvələrə, eləcə də erməni havadarlarına verilən sanballı cavab idi.

Azərbaycan İlham Əliyevin siyasi səriştəsi, uzaqgörənliyi və diplomatik zəkası sayəsində Qarabağda əbədi olaraq tarixdə qalacaq zəfər qazandı. Prezident İlham Əliyev başladığı işi sona çatdıraraq 20 il öncə Azərbaycan xalqına verdiyi sözü yerinə yetirdi.

Qarabağdakı separatçı rejimin məhvi təkcə Azərbaycan üçün deyil, həm də regionun təhlükəsizliyi baxımından çox əhəmiyyətli idi. İlham Əliyev Xankəndi şəhərində separatçıların "prezident sarayı" kimi istifadə etdiyi binaya baxış keçirərkən "Böyük Ermənistan" xəritəsinə rast gələn zaman maraqlı reaksiya verib. "Bunların xəstəliyi, bax, budur – dırnaqarası Böyük Ermənistan. Onu bədbəxt edən, bax, budur" deyə Prezident qeyd edib. Xəritəyə Azərbaycanla yanaşı, qonşu ölkələr olan Gürcüstan, Türkiyə, İran kimi ölkələrin də müəyyən əraziləri daxildir. Ermənistan İstiqlal Bəyannaməsində Türkiyə Respublikasının bir sıra vilayətlərinin "Qərbi Ermənistan" ərazisi olduğunu bəyan edib. Bundan başqa, ermənilərin 1990-cı illərdə və 2008-ci ildə Gürcüstanda separatizmə cəhd etdiyi bir çoxlarına məlumdur. Qarabağdakı separatçı rejimin məhv edilməsi dırnaqarası Böyük Ermənistan xülyasını sona çatdırdı. Bu, regionda geosiyasi təhlükəsizliyin təmin olunması baxımından mühüm hadisə idi.

Qeyd etmək istəyirəm ki, separatçı rejimin keçmiş müdafiə naziri Samvel Babayan Qarabağı tərk edən erməni əhalisinin xüsusi muxtar vilayət statusu verilmədiyi təqdirdə, geriyə qayıdıb Qarabağda məskunlaşmayacağını bildirib. Verdiyi sərsəm bəyanatla gülünc vəziyyətə düşən Babayan unutmamalıdır ki, Qarabağ məsələsi tam olaraq həll olub, bu problem arxivin zibilliyinə göndərilib və Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: "heç bir statusdan söhbət gedə bilməz".

Ermənilərin reinteqrasiyası məsələsinə gəlincə, Azərbaycan hər zaman bütün səylərini yönəldərək bu prosesin həyata keçirilməsinə çalışsa da, Ermənistan hakimiyyətinin təxribatları reinteqrasiya planına mane oldu. Artıq Ermənistan hakimiyyətinin yalanlarından xəbərdar olan Qarabağın

yerli erməni əhalisi Azərbaycan cəmiyyətinə inteqrasiyadan başqa yollarının qalmadığından xəbərdardır.

Mən Xankəndi və digər ərazilərimizdə Dövlət Bayrağımızın dalğalanması münasibəti ilə xalqımızı, ordumuzu və Prezident İlham Əliyevi təbrik edirəm.

***20 oktyabr 2023-cü il***

**Adil Əliyev.** Xalqımız tarixi hadisələrə şahidlik etməyə davam edir. Oktyabrın 15-də Prezident İlham Əliyev tərəfindən Xankəndi şəhərində ucaldılan Azərbaycan Bayrağı suverenliyimizin bərpa edilməsinin yekun nəticəsi idi. Uzun illər düşmən işğalında qalmış tarixi torpaqlarımız müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Ərazi bütövlüyümüz bərpa, suverenliyimiz bərqərar edilib.

20 oktyabrı bizim üçün əlamətdar edən başqa bir tarixi hadisə isə bu günün Zəngilan şəhərinin düşmən işğalından azad olunduğu gün olmasıdır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli ordumuz Zəngilan şəhərini işğaldan azad edərək dövlət başçısına məruzə etdi.

Hamımız yaxşı bilirik ki, ermənilər işğal altında saxladığı ərazilərimizi viran qoymuş, bütün bina və tikililəri məhv etmişlər. Təəssüf ki, bu cür vandallıq aktlarından ən çox ziyan çəkmiş rayonlarımızdan biri də Zəngilan olmuşdur. Ermənistan bu 30 il ərzində yalnız evləri dağıtmaqla, infrastrukturu sıradan çıxarmaqla kifayətlənməmiş, dini və tarixi abidələri tam məhv etmişlər.

Üçtərəfli Bəyanat imzalandıqdan dərhal sonra dövlət başçısının rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı abadlıq və quruculuq işlərinə başlandı. 3

ildən də qısa müddətdə işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi Zəngilana da həyat qayıdıb. Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi ağıllı kənd konsepsiyasının reallaşmasının təzahürüdür. 30 il doğma yurd həsrəti çəkmiş zəngilanlılar artıq evlərinə qayıdırlar, Böyük Qayıdış proqramı uğurla icra edilir.

İşğaldan azad edilmiş ərazilərdə tikilən 3 beynəlxalq hava limanından biri də məhz Zəngilanda yerləşir. Vaxtı ilə viran edilmiş Zəngilan ən qısa müddətdə bərpa edilmiş və bu gün Milli Şəhərsalma Forumuna ev sahibliyi edən bir şəhərə çevrilmişdir. İşğaldan azad edilmiş digər ərazilərimizlə birlikdə Zəngilanda da müasir infrastruktur qurulur, insanların rahat yaşaması üçün məktəb, bağça, xəstəxanalar tikilir.

Keçmiş məcburi köçkünlərin evlərinə qayıtdıqdan sonrakı məşğulluq məsələləri də dövlətimizin diqqət mərkəzindədir. Onların işlə təmin edilməsi, sahibkarlığa verilən dəstəkdə əsas məqsəd dayanıqlı inkişafa nail olmaqdır. Artıq ölkəmizdə yeni inkişaf mərhələsi başlayıb, Qarabağa və Şərqi Zəngəzura uzun illərdən sonra həyat qayıdıb.

Dövlət başçısının bir neçə gün öncə Füzuli şəhərində sakinlərlə görüşündə vurğuladığı kimi, dövlətin nə qədər gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, qələbəni əldə edən əsgərdir, zabitdir. Biz qazanılmış qələbəyə görə qəhrəmanlarımıza borcluyuq, əziz xatirələrini dərin hörmət və ehtiramla yad edirik. Diqqətinizə görə minnətdaram.

**Ceyhun Məmmədov.** Aviasiya haqqında qanun layihəsinin hazırlanmasını və müzakirəyə çıxarılmasını əhəmiyyətli hesab edirəm. Qanun layihəsi bir çox vacib məsələləri əhatə edir və hesab edirəm, bu sahədə tənzim-

lənməyə öz mühüm töhfəsini verəcək. Bir müddət bundan əvvəl separatçıların ölkə ərazisindən uçan təyyarələrin naviqasiya sisteminə müdaxilə cəhdləri bu sahədə təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunmasını zəruri edir.

Burada bir neçə vacib məqama da toxunmaq istəyirəm. Öncə qeyd edim ki, dəfələrcə məsələ qaldırılmasına baxmayaraq, bir sıra addımlar atılsa da, yenə biletlər bahadır. Düşünürəm ki, qiymətlərə baxmadan hansı isə uğura nail olmaq çox çətin olacaq.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin burada olmasından istifadə edib digər bir mühüm məqama toxunmaq istəyirəm. Düşünürəm ki, tələbələr üçün bütün nəqliyyat növlərində müəyyən güzəştlərin nəzərdə tutulması məqsədəuyğun olardı. Bu gün dünyanın əksər ölkələrində bu müsbət təcrübə var. İndiki halda tələbə həm yüksək təhsil haqqını, həm də yüksək nəqliyyat xərcini ödəməli olur.

**Kamran Bayramov.** Qarabağda uğurla həyata keçirilmiş lokal antiterror tədbirlərindən, regionda separatçılığın kökünün kəsilməsindən və reinteqrasiya prosesinin başlanmasından sonra bir sıra beynəlxalq təşkilatlar və bəzi dövlətlərin ali qanunvericilik orqanları Azərbaycana qarşı qarayaxma kampaniyasına başlayıb, ölkəmizlə təzyiq və hədə-qorxu dili ilə danışmağa cəhd edirlər. Belə ki, son günlərdə vaxtı ilə torpaqlarımızın işğalına susan, Ermənistanın təxribatlarına bəraət qazandıran Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, habelə Niderlandın Nümayəndələr Palatası və İspaniyanın Senatı ölkəmizə qarşı qərəzli, birtərəfli, reallığı və həqiqəti açıqcasına inkar edən qətnamələr, tövsiyələr və bəyanatlar qəbul edib. Bu sənədlər həmin qurumların Qarabağda mövcud olan reallıqlardan məlumatsız və uzaq olduğunu göstərmir. Əksinə, onlar həqiqəti, regionda baş verənləri gözəl

bilirlər. Sadəcə olaraq, bu sənədlər Azərbaycana qarşı bu cür münasibətin bilərəkdən, məqsədli şəkildə Ermənistanın və erməni lobbisinin uydurmaları və saxtakarlığı üzərində qurulduğunu nümayiş etdirir. Bu rəzil qurumlar anlamırlar ki, bu cür davranışla regionda kökünü kəsdiyimiz separatizmə dəstək verirlər, revanşist qüvvələrin baş qaldırmasına xidmət edirlər, mövcud olan gərginliyi daha da artırırlar, Cənubi Qafqazda təmin etməyə yaxın olduğumuz sülhə, təhlükəsizliyə, sabitliyə ciddi zərbə vururlar.

Bu anti-Azərbaycan kampaniyasını təşkil edən bütün qüvvələr, nəhayət, bir həqiqəti anlamalıdırlar: nə qədər ki Azərbaycana təzyiq etmək cəhdləri göstərilirsə, bir o qədər də Azərbaycanın qətiyyəti artır, mövqeyi güclənir. Fransa Prezidenti Emmanuel Makron həmin qüvvələrə mənsub olsa da, onun bu günə qədər bir düz sözü olmuşdur: Azərbaycana qarşı sanksiyaların tətbiqi, təzyiqin göstərilməsi nəticə verməyəcək. Ona görə də Avropada Azərbaycanın əleyhinə işləyən qüvvələrə və dairələrə məsləhətimiz budur – kağızlarınıza qənaət edin, səs tellərinizi qoruyun! Nə qədər yazsanız da, səs-küy salsanız da, çirkin cəhdləriniz və səyləriniz faydasızdır, reallığı qəbul edin və ona alışın. Qarabağa sahibi qayıdıb və orada əbədi olacaq!

**Malik Həsənov.** Bu gün müzakirəmizə təqdim olunan Aviasiya haqqında Azərbaycan Respublikasının qanun layihəsi olduqca aktualdır və mülki aviasiyanın inkişafı və bu sahə üzrə münasibətlərin hüquqi tənzimlənməsi baxımından olduqca əhəmiyyətlidir. Son illər bütün digər sahələrdə olduğu kimi, mülki aviasiya sahəsində də kifayət qədər inkişafa nail olunmuşdur. Ölkə ərazisində beynəlxalq hava limanları tikilmişdir. Qərbi Zəngəzur iqtisadi rayonunda iki – bunlardan biri Zəngilan Beynəl-

xalq Aeroportu istifadəyə verilmişdir, Qarabağ iqtisadi rayonunda bir Füzuli Aeroportu artıq fəaliyyət göstərir.

Bu illər ərzində ölkəmizin Təyyarə Parkı tamamilə yenilənmişdir. Bu gün milli aviadaşıyıcımız olan "AZAL" dünyanın ən təhlükəsiz uçuşlarını həyata keçirən şirkətlər sırasındadır. Lakin milli aviasiyamızın inkişafına mane olan bir sıra problemlər var və bu problemlər daim ictimaiyyətimizin diqqət mərkəzindədir. Dəfələrlə bu məsələləri parlamentdə də qaldırmışlar. Hesab edirəm ki, bu sahədə ən böyük problem qiymətlərin qonşu ölkə və daşıyıcı şirkətlərlə müqayisədə kifayət qədər baha olmasıdır. Digər ikinci məsələ isə Zaqatala Beynəlxalq Aeroportunun fəaliyyətini dayandırması, Qəbələ Aeroportunun isə çox məhdud fəaliyyət göstərməsidir.

Mülki aviasiya, əslində, hər bir ölkəyə kifayət qədər yüksək gəlir əldə etməyə imkan verən sahədir. Eyni zamanda, bu sahənin inkişafı turizmin inkişafı ilə sıx bağlı olmaqla hər ikisi bir-birini tamamlayır.

Daşımalarda qiymətlərin endirilməsi və digər beynəlxalq daşıyıcı şirkətlərin təklif etdiyi qiymətlərə uyğunluğu, bir çox hallarda onların aşağı olması daşınma dövriyyəsini artırmaqla gəlirlərimizi xeyli çoxalda bilər. Yəni daha az qiymət daha çox daşıma prinsipi ilə işləmək daha uyğun olardı. Bu gün ölkəmiz nəqliyyat xətlərinin uğurlu diversifikasiyasını həyata keçirir və nəticədə nəqliyyatın bir çox sahələri üzrə ölkəmiz mühüm beynəlxalq qovşağa çevrilmişdir. Mülki aviasiyada da uğurlu qiymət siyasətinin aparılması aviasiya sahəsində də ölkəmizi mühüm mərkəzlərdən birinə çevirə bilər. Bu gün aeroportlarımız, onlardakı xidmət və Təyyarə Parkı yüksək keyfiyyətə malikdir. Çatışmayan cəhət uğurlu qiymət siyasəti və səmərəli menecmentin təşkilidir.

Qanun layihəsi kifayət qədər peşəkarcasına hazırlanmışdır. Uğurlu struktura malikdir və bu sahə üzrə münasibətlərin uğurlu tənzimlənməsinə imkan verir və qanun layihəsinin konseptual baxımdan birinci oxunuş üçün müəyyənləşdirilmiş norma və prinsiplərə uyğun hazırlanmasını nəzərə alaraq onun qəbul edilməsinin tərəfdarıyam.

**Sadiq Qurbanov.** Azərbaycan energetikləri 20 oktyabrı öz peşə bayramları günü kimi qeyd edirlər. Bu tarix ölkə həyatında xüsusi əhəmiyyət kəsb edən əlamətdar bir hadisəyə əsaslanır. 42 il əvvəl 1981-ci il oktyabrın 20-də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə "Azərbaycan" İES-in birinci enerji blokunun istifadəyə verilməsi ilə Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsası qoyulub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli 446 saylı Sərəncamı ilə həmin tarix ölkəmizdə "Energetiklər Günü" kimi təsis edilib. Ölkə iqtisadiyyatının tənzimlənməsində elektroenergetika sənayesinin çox böyük əhəmiyyəti vardır. Dövlətin iqtisadi gücünü və əhalinin yaşayış tərzini müəyyən edən əsas göstəricilərdən biri, əlbəttə, energetika sənayesinin inkişafıdır. Elektroenergetika sənayesinin bugünkü səviyyəsi Ümummilli Lider Heydər Əliyevin adı ilə üzvi surətdə bağlıdır.

SSRİ dövründə Azərbaycan sənayesinin, demək olar ki, bütün sahələri iqtisadi tənəzzül dövrünü yaşayırdı. Məhz Heydər Əliyev fenomeni ölkənin iqtisadi müstəqilliyinin təminatında sənayenin hər bir sahəsinə böyük inkişaf gətirdi. Elə bu dövrdə energetika sahəsinin yerini və rolunu düzgün qiymətləndirərək onun inkişafına güclü təkan verilmişdir. Azərbaycanın qlobal çağırışlara və müasir inkişaf meyillərinə uyğun enerji gələcəyində və dünyanın enerji təhlükəsizliyi sistemində elektrik enerjisi ixrac edən

ölkə kimi yer tutmasında mühüm rol məhz elektroenergetika sektoruna məxsusdur. "Azərbaycanın çox güclü energetika potensialı olacaqdır" – deyən dövlət başçısı bu sahənin inkişafına ilk vaxtlardan yüksək diqqət yetirdi.

Hazırda ölkəmizdə 78 stansiya fəaliyyət göstərir: bunlardan 22-si istilik elektrik stansiyası, 39-u su, 5-i külək, 8-i günəş enerjisi ilə işləyən stansiyalardır. Həmçinin 3 hibrid elektrik stansiya və 1 bioenerji elektrik stansiyası fəaliyyətdədir.

Son 20 il ərzində generasiya gücünün artırılması ilə yanaşı, elektrik enerjisi şəbəkəsində də nailiyyətlər əldə edildi. Həmçinin Gürcüstan, Rusiya, İran və Türkiyə ilə enerji sistemlərinin əlaqələndirilməsi sayəsində elektrik enerjisi mübadiləsi və ticarəti həyata keçirilir. Bütün bunların nəticəsi olaraq ölkəmizdə elektrik enerjisinin istehsalı 2003-cü illə müqayisədə 37 faiz artmışdır. Bu müddətdə elektrik enerjisinin idxalı 17 dəfə azalıb, ixracı isə 3 dəfədən çox artıb.

Bəli, danılmaz faktdır ki, 2003-dən ölkəmizin enerji strategiyası keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bu mərhələdə Ulu Öndərin müəllifi olduğu neft strategiyasının hədəfləri reallaşdı. Azərbaycan neft və qazının dünyaya çatdırılması marşrutları – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum boru kəmərləri istifadəyə verildi. Dünyanın ən böyük qaz-kondensat yataqlarından olan "Şahdəniz"də hasilat başladı. Azərbaycan 2007-ci ildən qaz idxal edən ölkədən qaz ixracatçısına çevrildi. Ölkədə neft hasilatı 2010-cu ildə pik səviyyəyə – 50,8 milyon tona çatdı. Lakin Azərbaycan Prezidenti bu uğurlarla kifayətlənmədi və böyük uzaqgörənliklə ölkənin neft-qaz sektorunun gələcəyi ilə bağlı öz strateji baxışını irəli sürdü. İmkanlardan maksimum istifadə, fürsətlərin vaxtında və

düzgün dəyərləndirilməsi nəticəsində “Şahdəniz” və “Azəri–Çıraq–Günəşli” yataqlar blokunun işlənməsi növbəti mərhələyə daxil oldu. “Ümid”, “Abşeron”, “Qarabağ” yataqları kəşf olundu, güclü enerji tərəfdaşlıqları quruldu, nəhəng “Cənub qaz dəhlizi” ərsəyə gəldi.

Enerji böhranı dövründə Azərbaycan Avropanın enerji təchizatını şaxələndirən ölkə, enerji təhlükəsizliyinin təminatında etibarlı strateji tərəfdaşa çevrildi. 2021-ci ildə Avropaya 8,2 milyard kubmetr qaz nəql edilmişdirsə, enerji təchizatında turbulentliklərin yaşandığı ötən il qaz tədarükü 40 faiz artımla mümkün ən yüksək səviyyəyə – 11,4 milyard kubmetrə çatdırıldı. Ümumiyyətlə, TANAP və TAP istismara veriləndən indiyə kimi Türkiyə 24,3 milyard kubmetr, Avropa isə 28,7 milyard kubmetr Azərbaycan qazı ilə təchiz edilib. Bu il ölkədə qaz hasilatı 48,7 milyard kubmetr, ixrac isə 24 milyard kubmetr proqnozlaşdırılır.

Elektroenergetika sisteminin bu cür inkişaf dinamikası da təsdiqləyir ki, Azərbaycan Prezidentinin verdiyi sözlər, qarşıya qoyduğu hədəflər mütləq reallaşır. Dövlət başçısı yeniliklərə çevik reaksiyası ilə də inkişaf proseslərinin önündə addımlayan, əhəmiyyətli dəyişikliklər yaradan və bu dəyişiklikləri düzgün yönəldən liderdir. Bərpa olunan enerjinin inkişafını prioritetləşdirən dövlət siyasəti, Xəzəri “yaşıl enerji mərkəzi”nə, Qarabağ–Şərqi Zəngəzur və Naxçıvanı “yaşıl enerji zonası”na, Azərbaycanı isə “yaşıl enerji”nin təchizatçısına çevirməklə bağlı strateji hədəflər məhz yenilikçi, müasir yanaşmalara əsaslanan liderliyin təzahürləridir. Təsadüfi deyil ki, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də “təmiz ətraf mühit” və “yaşıl artım” ölkəsi beş prioritetdən biri kimi müəyyənləşdirilib və “2022–2026-cı illərdə sosial-

iqtisadi inkişaf Strategiyası"nda "yaşıl enerji məkanı" məqsədi üzrə mühüm tədbirlər təsbit edilib. Buradan da göründüyü kimi, Azərbaycanda bərpa olunan enerji mənbələrindən geniş istifadə ölkəmizin enerji təhlükəsizliyi ilə bağlı deyil. Az karbonlu enerji sistemi, dayanıqlı gələcək qurmaq və xaricdə enerji gücümüzə olan tələbatı ödəmək məqsədi daşıyır.

2020-ci ildə Səudiyyə Ərəbistanının "ACWA Power" və BƏƏ-nin "Masdar" şirkətləri ilə 240 MVt gücündə külək və 230 MVt gücündə günəş enerjisi üzrə pilot layihələrlə başlayan "yaşıl enerji" tərəfdaşlığımızın miqyası qısa müddətdə genişləndi. Az bir vaxtda "Masdar", "ACWA Power", BP, "Fortescue Future Industries", "China Gezhouba Group Overseas Investment", "Total Energies", "Nobel Energy" və "A-Z Czech Engineering" şirkətləri ilə ümumi gücü 28 QVt-dan çox layihələrə dair əməkdaşlıq sənədlərinin imzalanması məhz Azərbaycan Prezidentinin "yaşıl enerji" kursuna beynəlxalq marağın, ölkəmizin "yaşıl gələcəyi"nə olan inamın göstəricisidir.

Bəli, bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Bütün bu sahədə görülən işlər cənab Prezidentin siyasəti və Azərbaycan energetiklərinin fəaliyyəti ilə bağlıdır.

**Sahib Alıyev.** Mən iki məsələ haqda danışmaq istəyirəm. Onlardan biri qaranlıq keçmişləri olan və belə görünür ki, gələcəkləri də yaxşı heç nə vəd etməyənlərin Azərbaycana qarşı düşmənçilik hərəkətləridir. Digəri isə "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" adlı Bakıda keçirilən bugünkü beynəlxalq konfransdır. Əslində, hər iki məsələ bir-birinə sıx bağlıdır. Bu gün Azərbaycana qarşı düşmənçilik siyasəti yeridənlərin başında duran Fransa dünyada neokolonializmin ən

mənfur formasını reallaşdıranlardandır. Bizim regiona da elə bu məqsədlə burnunu soxur.

Avropa Parlamentində Nikol Paşinyanın bu həftə Azərbaycana qarşı böhtan dolu çıxışına verilən reaksiya, təəssüf ki, Qərbdə Fransa ilə eyni dəyərsizliyi bölüşənlərin heç də az olmadığını ortaya qoyur və bu, səbəbsiz deyil. Qranadada soydaşlarının Qarabağdan getmələrini öz imzasıyla "kütləvi köç" kimi təsdiqləyən Nikol Paşinyan Strasburqda bunu etnik təmizləmə olaraq təqdim edir və salondakılar da o saxtakarı ayaq üstə alqışlayırlar. Deyəcəksiniz ki, onu özlərinə bənzətdikləri üçün belə davranırdılar. Mümkündür. Amma həmin sirki təşkil edənlərin Paşinyandan Zelenski düzəltmək istədikləri göz qabağındaydı. Həm də bilə-bilə ki, bununla cənab Zelenskiyə də, Ukrayna xalqına da böyük haqsızlıq edirlər. Çünki Ukrayna xalqı öz torpaqlarını işğaldan qurtarmağa çalışır, haylar kimi başqasınınkına göz dikməyiblər.

Paşinyanı Kremldəkilərin əleyhinə danışdırmaqla ondan Zelenski düzəltməyə çalışan Qərbdəkilər, bəli, növbəti dəfə göstərdilər ki, onların Ukraynaya dəstəklərinin arxasında bu ölkənin işğalla üzləşməsi deyil, Rusiya ilə savaşması durur. Niderlandın müdafiə naziri Ollonqren də iki həftə öncə demişdi ki, Ukraynaya yardım Rusiyanın NATO üçün təhlükəyə çevrilməsinin qarşısını almağın ən ucuz metodudur, çünki vuruşan və həlak olanlar ukraynalılardır. İndi o adamın təmsil etdiyi ölkənin, yaxud da İspaniya və Avstriya parlamentlərinin eyni mərkəzin diktəsi ilə Azərbaycana qarşı beynəlxalq normalara və regiondakı reallığa qətiyyən uymayan qətnamə qəbul etmələrinə təəccüblənməyə dəyərmi?

Əlbəttə, bu cür anti-Azərbaycan addımlarının arxasında səlibçiliyin dayandığı şübhəsizdir. Amma Qarabağa gəlmə

olan hayların oradan getməsini böyük faciə kimi qarşılayanların Qərbi azərbaycanlıların üzləşdikləri etnik təmizləmə haqda bir kəlmə belə danışmamalarının başqa səbəbi də var. Onlar bizi haqlarını tapdadıqları korsikalı, kataloniyalı və bask gözündə görürlər. Çünki aborigenik. Hayların Qarabağdan getmələri isə Fransa kimilərinə həm də işğal etdikləri torpaqlardan özlərinin də bir vaxtlar necə çıxarılmalarını xatırladır və çıxarılacaqlarından xəbər verir, ona görə odlanırlar.

## ***24 oktyabr 2023-cü il***

**Əliabbas Salahzadə.** Bu gün dünyada çox ciddi geosiyasi proseslər cərəyan etməkdədir. Bu proseslərin kontekstində ölkəmiz özünün ən böyük problemi olan ərazi bütövlüyü məsələsini uğurla və hərbi-siyasi yolla həll etmişdir. Lakin hamımıza məlumdur ki, dünyanın inkişaf etmiş ölkələri adlandırdığımız bir sıra dövlətləri Cənubi Qafqaza gəlmək və bu bölgəni öz təsir dairələrinə salmaq üçün siyasi gedişlər edir, buna görə də ölkəmizə siyasi təzyiqləri artırırlar. Təbiidir ki, bu ölkələrin sırasında başlıca yeri Fransa dövləti tutur. XV əsrdə birləşmə prosesi başa çatdıqdan sonra dünyanın müxtəlif bölgələrində, xüsusən də Afrika materikində müstəmləkəçi-sümürgəçi siyasət yeritmiş yüz minlərcə insana qarşı genosid siyasətini həyata keçirmişdir.

Bu gün Fransa müstəmləkəçi rejimlərinin qalıqları ortadan qalxmaqdadır. Lakin buna paralel olaraq Fransa təsir istiqamətlərini bölgəmizə doğru yürütmək niyyətindədir. Əgər keçmişə nəzər salsaq, XX əsrin əvvəllərində də, xüsusən də Xalq Cümhuriyyəti dönəmində Fransanın daim Ararat Respublikasının yanında olduğunu görərik.

Bu baxımdan bir neçə gün öncə paytaxtımızda düzənlənmiş yeni kolonizasiya siyasətinə qarşı konfransı əhəmiyyətli hesab edirik və hesab edirəm ki, bu konfrans ölkəmizin yeni diplomatik uğurlarından biridir.

Ölkəmizə qarşı yönəldilmiş siyasi təzyiqlər, təbiidir ki, cənab Prezidentimizin yürütdüyü siyasət nəticəsində neytrallaşacaq. Çünki bu siyasətin əsası yoxdur, hər hansı bir tarixi gerçəkliyə dayanmır. Bu mənada ötən gün Tehran şəhərində təşkil edilmiş "3+3" formatında görüş bölgəmizdəki proseslərin region oyunçuları tərəfindən tənzimlənməsi baxımından önəmlidir. Çünki artıq o zaman yetişib ki, qonşular öz problemlərini özləri həll etsin və əməkdaşlığı genişləndirsin. Bu mənada 100 ildən çox yaşı olan "Qafqaz Evi" ideyasının gerçəkləşməsi bölgəmizdə sülhün bərqərar olması üçün həyati əhəmiyyətlidir.

Diqqət çəkən ən vacib məqam müasir dövrdə cərəyan edən siyasi proseslərdə ölkəmizin əsas söz sahiblərindən biri olmasıdır. Vətən müharibəsində və sonrakı dönəmdə lokal xarakterli hərbi əməliyyatlarda hərbi gücümüz, cənab Prezidentimizin siyasi iradəsi, qeyd etdiyim hər iki məqamın formalaşmasını və qüvvətlənməsini təmin edən milli birliyimiz, nəhayət, hərbi əməliyyatlarda göstərdiyimiz humanizm və insansevərlik uğurumuzun əsasıdır. Aparılmış əməliyyatlar zamanı dünyada görülməyən sayda, demək olar ki, yox dərəcəsində qarşı tərəfin mülki əhalisinə ziyan toxunmuşdur. Dünyada elə bir hərbi münaqişə və ölkə yoxdur ki, ərazidən öz xoşu ilə köçmək istəyən mülki əhaliyə "burada qalın və vətəndaşım olun, hər hüquqdan yararlanın" dəvətini edir, onlara hər bir qayğını göstərir.

Hesab edirəm ki, qarşıda duran ən vacib məsələ azad edilmiş ərazilərə qayıdışın sürətlənməsidir. Quruculuq və

qayıdış üçün həm iqtisadi gücümüz, həm də siyasi iradəmiz ortadadır. İnsanlarımızın vətənsevərlik hissləri isə ən uca nöqtəsinə çatmışdır. Bütün bunlar qarşıdakı aylarda qarşımıza qoyduğumuz məqsədimizə çatmağa imkan verir.

**Sahib Alıyev.** Brüsseldə keçiriləcəyi bildirilən növbəti Azərbaycan–Ermənistan danışıqları öncəsi bu danışıqların sülhlə nəticələnməməsi üçün elə ilk növbədə Qərbdəkilərin əllərindən gələni əsirgəməmələri çox əcaib təsir bağışlayır ki, mən bu haqda bir neçə kəlmə demək istəyirəm. Məsələn, Fransa ilə Ermənistan arasında hərbi sövdələşmədə məqsədin regionda sülhə xidmət olmadığı hər kəsə aydındır.

ABŞ-la Avropa Birliyinin bizim regionla bağlı oktyabrın 20-dəki birgə bəyanatlarında "sərhədlərin toxunulmazlığının və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında davamlı sülh" deyəndə nəyi nəzərdə tutduqları isə heç də aydın deyil. Ona görə aydın deyil ki, məsələn, həmin Amerika Birləşmiş Ştatları Azərbaycanla Ermənistan arasında qarşıdurma başlayandan hansı rolu oynadıqlarını, kimin yanında yer aldıqlarını özlərinin də yaxşı bildikləri Rusiya və İrandan fərqli olaraq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını hələ də açıq şəkildə dilə gətirmir. Sözügedən ölkənin Ermənistandakı səfiri əlində binokl dəfələrlə Qərbi Zəngəzurda peyda olduğu halda, Azərbaycandakı baş diplomatı indiyədək bir dəfə də Şuşaya ayaq basmayıb.

Yuxarıda sözügedən birgə bəyanatlarda Azərbaycan Qarabağda qalan və ora dönəcək hayların hüquqlarını, təhlükəsizliyini təmin etməyə çağırılır. Maraqlıdır, bu çağırışı edənlər bəs nədən Qərbi azərbaycanlıların beynəlxalq humanitar hüquqla təsbit olunan vətənlərində yaşa-

maq haqlarını tanımaq istəmirlər? Yoxsa onlar da Ermənistan rəhbərliyi kimi bunu həmin ölkənin təhlükəsizliyi üçün təhdid sayırlar? Axı, bizim soydaşlarımız Qarabağda hərbi xunta və qanunsuz silahlı birləşmə yaradan haylardan fərqli olaraq Ermənistana qarşı təhlükə sayılacaq hər hansı addım atmayıblar, elə isə onların öz yurdlarına dönüşü həmin ölkənin təhlükəsizliyi üçün niyə təhdid sayılmalıdır?

Sonda Almaniya Bundestaqının Xarici Əlaqələr Komitəsinin sədri Maykl Rotun İrəvanda beynəlxalq normalara və regiondakı reallığa zidd açıqlamasına toxunmaq istərdim. Azərbaycanı etnik təmizləmədə suçlandırmağa cəhd edən və sanksiya ilə hədələyən cənab Rot ağzına gələni danışmadan öncə ötən əsrin 1930–1940-cı illərində baş verənləri xatırlasa, pis olmaz. İnsanlıq əleyhinə cinayət, bax, o idi. Bir də Almaniyanın Benilüks ölkələrə deyil, Fransaya yandaşlıq etməsi bu qüdrətli dövlətə başucalığı gətirmir.

Bu gün dünyaya gəlişi ilə bəşəri, ilk növbədə də biz azərbaycanlıları şərəfləndirən böyük Hüseyn Cavid "Peyğəmbər" dramında "Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü" deyirdi. Azərbaycan Prezidenti regionda sülh üçün əlindən gələni etdi və bu gün də etməkdədir. Amma təəssüf ki, qarşı tərəfdəkilər özlərini onun başqa bir dramındakı – "İblis"dəki kimi aparırlar: "İblis nədir? – Cümlə xəyanətlərə bais, bəs hər kəsə xain olan insan nədir? - İblis!"

## MÜNDƏRİCAT

2 oktyabr 2023-cü il............................................................ 3
6 oktyabr 2023-cü il............................................................ 127
12 oktyabr 2023-cü il.......................................................... 211
17 oktyabr 2023-cü il.......................................................... 314
20 oktyabr 2023-cü il.......................................................... 409
24 oktyabr 2023-cü il.......................................................... 507
Edilməmiş çıxışların mətnləri............................................. 578

Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

On dördüncü sessiya
Payız

55-ci cild

2 – 24 oktyabr 2023-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  43, 5. Sifariş 44. Tiraj 150.